# ERMƏNİ MƏSƏLƏSİ

## YALANLAR  VƏ GERÇƏKLƏR

**Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı**

*«Mən 1918-ci ilin mart ayında daşnaqların vəhşiliklərini, günahsız adamların, xüsusən bitərəf iranlıların öldurülüb, karvansaraylarda meyidlərin yandırılmasını öz gözümlə görmüşəm. Bu çox faciəli və nifərətəlayiq bir hərəkət idi» (Mir Cəfər Pişəvəri,—IV, 81).*

*«Erməni əsgərləri müsəlman məhəllələrinə girib əhalini öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, evləri yandırır, uşaqları odun içərisinə ataraq diri-diri yandırır, üç-dörd günlük südəmər uşaqları süngülərinə taxırdılar. Onlarda bir sözlə, nə uşağa, nə qocaya, nə də qadına rəhm etmək yox idi» (Bakıda 1918-ci il 30, 31 mart və 1 apreldə mart qırğınını öz gözləri ilə görmüş bir xarici turist. M.Kulka, —IV, 80).*

*«Mələk qədər sevimli bir azərbaycanlı körpə Bakının bir divarına mıxlanmışdır. Mıx körpənin düz ürəyinin üstündən vurulmuşdur, bir yığın qızlı-oğlanlı uşaq ölüləri, üzərində qocaman çoban köpəkləri, onlardan biri məsum bir körpəni gəmirir..., çılpaq qadın ölü vəziyyətdə yerə sərilmiş, bu ölü vücudun qurumuş döşlərini bir yavru əmməkdədir»V. Huhoğlu,-IV,48).*

*Yunanlar ermənilərin törətdikləri vəhşiliklərdən dəhşətə gələrək yazırmışlar: «Türk ordusu qarşısında geri çəkilən silahlı ermənilər ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək hər bir şeyi ataş və qılıncdan keçirir, təsəvvürəgəlməz bir dəhşət və fəlakət törədirdilər. «Qalib» erməni ordusu qənimətləri, yəni süngü ucuna taxılmış uşaqlarla keçdikləri yolların ətrafina çılpaq soyundurulmuş müsəlman qadınlarını düzürdülər. Bu cəhənnəm əzabında ağlını itirmiş qadın və uşaqların ürəkparçalayan iniltilərini, qocaların ümidsiz nalələrini dinləmək üçün adamın qəlbi olmalıdır. Səksən iki kənddən ibarət bir sancaq bu təsvir edilən fəlakətə düçar olmuşdur. İndi bütün Qars vilayəti nəhəng bir qəbristanlığı xatırladır ki, onun hər bir daşı həmişəlik insan simasını itirmiş erməni quldurlarının vəhşilikləri, əxlaqsızlıqları və həyasızlıqları barədə şahidlik edə bilər.*

*Rus qoşunları arasında olan erməni dəstələri bu vilayətdə 5.000 kürd kişiləri, qadınları və uşaqları qırdılar; süngü ilə onları sürü kimi yüksək Rovanduz qayalarının zirvəsinə qovub oradan uçuruma itələdilər. Qarşısında köməksiz qurban dayandığı zaman ermənilərin şirə bəzi oxşarlıqları olur». (ingilis mayoru Masonun yazdıqlarından. ADTA -fond s. 1, iş 1, v. 28-29).*

Qafqaz Universiteti
Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı
№ :10

# ERMƏNİ MƏSƏLƏSİ

## YALANLAR VƏ GERÇƏKLƏR

YUSİF QAZIYEV

NƏŞRƏ HAZIRLAYANLAR
Prof.Dr.Minaxanım Təkləli
Prof. Dr. Reyha Yılmaz

REDAKTORU

Prof. Dr. Niftəli Qocayev

Dr. Saim Arı

RƏYÇİLƏR

Prof. Dr. Həmid Əliyev

t.e.n. Atamoğlan Məmmədli

KİTABIN SPONSORU

Əflatun Məsim oğlu Məmmədov

Kitabda «Erməni məsələsi»nin əsil mahiyyəti barədə fikirlərə, habelə qeyri müsəlman tədqiqatçılarının araşdırmalarına, o cümlədən erməni terrorunun vəhşətini yaşamış şahid ifadələrinə geniş yer verilmiş; müxtəlif mənbələr əsasında ermənilərin həyata keçirdikləri kütləvi türk soyqırımlarını yürütdükləri məkrli siyasətlərini, erməni terrorunun dağıdıcılıq fəaliyyətlərini əhatə edən məqamlar müxtəlif mənbələr və faktlar əsasında izah edilmişdir Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Qafqaz Universiteti Elmi Şurasının qərarı ilə çap edilir.

Ünvan: Qafqaz Universiteti, Qafqaz Araşdırmaları İnstitutu,

Bakı-Sumqayıt şosesi 16 km Xırdalan, Az0101Azərbaycan.

Url: www.qafqaz.edu.az, www.kaen.edu.az

E-poçt: mrihtim@yahoo.com,

Tel: +994 (12)4482862/66, Faks: +994(12)4482861/67

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, 344 səh.

ISBN: 978 - 9952 - 450 - 30 – 9

# İÇİNDƏKİLƏR

Təqdim

Giriş

Ermənilər Osmanlı dövlətində

Türkiyəyə qarşı tarixən Qərbin separatçılıq siyasəti və bu siyasətin ideoloqları haqqında

Ermənilər xarici yazarların gözü ilə

Tarixdə soyqırım və terrorun ilk təşkilatçıları və icraçıları

Azərbaycanda ermənilər geniş imtiyazlara malik idilər

Azərbaycan Dağlıq Qarabağ Muxtar Vilayəti

Ermənilərin tarixi-coğrafi vətəni varmı?

Ermənilər dövlət qurmuşlarmı?

Ermənilərin bəd əməlləri, niyyətləri və daxili xisləti barədə dünyanın tanınmış adamları aşağıdakıları demişlər:

Urartu qədim erməni dövləti sayıla bilərmi?

Müasir Ermənistan

Ermənilərin mənşəyi, tarixi və dilləri haqqında

1. *Ermənilərin mənşəyi*
2. *Ermənilərin tarixinə dair qısa xülasə*
3. *Kilikiya çarlığı*
4. *Erməni kilsəsi haqqında*
5. *Türk və erməni münasibətləri qərb tədqiqatçılarının araşdırmalarından*
6. *Ermənilər və onların dini haqqında digər mülahizələr*
7. *Müasir Ermənistan haqqında*

*İrəvanın tarixinə səyahət*

Azərbaycan və Anadolu türklərinin soyqırımı

Qərb qüvvələrinin Osmanlı Dövlətini bölüşdürmək siyasəti

Ermənilərin Anadolunu parçalamaq və «Böyük Ermənistan» planı üzrə fəaliyyətləri

«Böyük Ermənistan» uğrunda Erməni terrorçu təşkilatlarının qəsdləri

Ermənilərin terrorçuluq fəaliyyətləri

1878-1896-cı illərdə Türkiyədə Erməni üsyanları

I Dünya müharibəsi cəbhələrində türklərin vəziyyəti və erməni terrorunun güclənməsi

Osmanlı hökumətinin müdafiə tədbirləri

*Təhcir qanunu*

Osmanlı dövlətinin bölüşdürülməsi planları

Yalançı «erməni soyqırımı» və tarixi həqiqətlər

1905-1907-ci illərdə Azərbaycan türklərinin soyqırımı

I Dünya müharibəsinin gedişində türk-müsəlman əhaliyə qarşı soyqırımları

*«Erməni genosidi» mifinin yaranması*

Kütləvi qırğınlar (1914-1920-ci illər)

*Mart 1918. Bakı qırğını*

*Mart qırğını haqqında şahid ifadələri*

*Azərbaycanın bölgələrində qətliamlar*

*Cənubi Azərbaycanda qırğınlar*

*Fövqəladə təhqiqat komissiyasının sədri Əliəkbər bəy Xasməmmədovun*

*Ədliyyə nazirinə məruzəsi. 22 Noyabr 1918-ci il*

*Türk soyqırımlarının bəzi məqamlarına dair. Faktlar və şahid ifadələri*

Türk soyqırımlarının mənfur təşkilatçıları və icraçıları. Cəllad Andronik Ozanyan

Azərbaycanda Sovet hakimiyyətinin qurulması və ermənilərin fəallaşması

İkinci dünya müharibəsindən sonra Azərbaycan xalqının üzləşdiyi faciələr

1948-1953-cü və 1988-1991-ci illər

20 Yanvar faciəsi

Yaxın şərqdə ən dəhşətli terrorçu dövlət Ermənistandır

*Erməni terror təşkilatı «Asala»nın vəhşəti*

Erməni terrorunun Azərbaycanda nəticələri

Xocalı soyqırımı - bəşəriyyətin faciəsidir

«Asala» və «Haydad» Xocalıda

İkiüzlü siyasət

Ermənistanda əsir düşərgələri

Erməni lobbisi və onun bədnam fəaliyyətləri

Ermənilərin l988-1991-ci illər fəaliyyəti

Erməni əsarətində qalan abidələrimiz, ziyarətgahlarımız

Erməni saxtakarlığı, Azərbaycan ədəbiyyatından plagiatorluq

Şifahi və yazılı azərbaycan xalq ədəbiyyatından və incəsənətindən məqsədli istifadə

Ermənilər muğamlarımızı, mahnılarımızı öz adlarına çıxarırlar

Əlavələr

*Azərbaycanlıların soyqırımına dair dövlət sənədləri 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı*

*Azərbaycanlıların soyqırımı haqqında*

*Azərbaycan Respublikası Prezidentinin fərmanı*

*Azərbaycan qaçqınlar cəmiyyətindən arayış*

*Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində*

*Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşdırılması problemlərinin həlli haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı*

Yaddaşlar

1. Rusiya imperiyası dövründə azəri türklərinin soyqrımının cəlladları

2. Sovet imperiyası dövründə azəri türklərinin soyqırımının təşkilatçıları

3. Azərbaycan xalq təsərrüfatı şurasına

İstifadə edilmiş ədəbiyyat

# ÖN SÖZ

İnsan həyatında baş verən hər bir hadisənin özünə məxsus tarixi vardır. Lakin tarixdə «erməni məsələsi» və ya başqa sözlə desək, erməni saxtakarlığı - tarixin birbaşa özünə edilən saxta müdaxilə, ermənilər özləri bunu böyük siyasət hesab etsələr də onun əsl mahiyyəti düşmənçilik, nifaq, özünün də yaşadığı yerlərdə silahı münaqişə, hiylə, özü günahkar ikən, dünyaya öz məsumluğu haqqında car çəkmək, xəyanət... və sairdir. Onun tarixi çox qədimdir və bu gün də davam etməkdədir. Bu mənfur, bədxah niyyətlərin acı meyvəsi göz qabağındadır: talan olmuş şəhərlər, öldürülmüş və ya şikəst edilmiş qurbanlar, öz yurdunda, ölkəsində qaçqına dönmüş yerli əhali, müharibələrin doğurduğu aclıq, məhrumiyyət.

«Erməni Məsələsi. Yalanlar. Gerçəklər» kitabının müəllifi Yusif Qazıyev özü əslən Qərbi Azərbaycandan olub, 1988-ci ildə vətənindən zorla köçürülmüş, erməni haqsızlığına uğramış, öz gözlərilə erməni vəhşətini görmüş, qırğın və talanların canlı şahididir.

Müəllif erməni daşnaqları tərəfindən türk-müsəlman xalqlara qarşı həyata keçirilən soyqırımların çox geniş mənzərəsini verməklə Qafqaz, Anadolu, bugünkü İran ərazilərində - Cənubi Azərbaycan bölgələri üzrə bu qətliamın, qana susamış erməni daşnaqların qəddarlıqlarının dəqiq və bütöv miqyasını göstərir. Kitabda ermənilərdə düşmənçilik, xəyanət, xain niyyətlərin formalaşması, qan qoxuyan «milli» komitələrin fəaliyyəti, bu mənada böyük dövlətlərin əlində onların qorxunc alətə çevrilməsi, ermənilərin bu istiqamətdə həyata keçirdiyi qanlı tədbirlər, erməni terror təşkilatları geniş ölçüdə təqdim olunur.

Kitabın Bakı qırğınına, Şamaxı faciəsinə həsr olunmuş, belə çətin zamanda köməyə yetişən Qafqaz İslam Ordusunun qurtuluş hərəkatına həsr olunan səhifələr həyəcanla oxunur.

İndi belə kitablara böyük ehtiyac hiss olunur. Türk müsəlman əhaliyə qarşı baş verən tarixi haqsızlıqlara, xalqın düçar olduğu faciələrə, ermənilərin zaman-zaman törətdiyi qanlı ixtişaşlara düzgün qiymət vermək, ermənilərin yerli türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi cinayətkar əməllərinə siyasi, hüquqi qiymət verilməlidir.

Bu baxımdan nəhayət Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyevin Azərbaycan xalqına qarşı 1918-ci ildə baş vermiş soyqırım gününü onun faciə günü kimi qeyd edilməsi barədə 26 mart 1998-ci il tarixli qərarı ilə fərman verməsi təqdir olunmalıdır.

Qanla yazılmış bir tarix yaddaşlara keçdi....

Qafqaz Üniversitesi Qafqaz Araşdırmalar İnstitutu daim öz fəaliyyətində bu yaddaşın qorunmasında, mühafizə edilməsində işlər görməkdədir.

Müdrik rəhbərin bir vaxt söylədiyi «Biz bir millət iki dövlətik» bizlərə əmanət sözü öyrədir ki, bizim çətin günlərdə də, xoş, fərəhli günlərdə də əllərimiz bir-birimizin ovcunda, qəlbimiz bir vurmalıdır.

I Dünya müharibəsi cəbhələrində rus ordusu tərkibində, ələlxüs, Qafqaz cəbhəsində ermənilər vuruşurdu. Eləcə də Osmanlının özündəki ermənilər dinc oturmurdular, silahlarını götürüb qaçaraq rus ordusuna qoşulurdular. Min ilə yaxın türklərin idarəsi altında çox rahat, firavan bir həyat yaşayan, hər cür insani haqdan hər kəsdən çox faydalanan ermənilər, həmişə ölkənin ağır vəziyyətində xəyanət yolunu tutmuşlar. Ruslara və ölkəni parçalamaq niyyəti bəsləyən digər böyük dövlətlərə arxalanaraq özlərinin də yaşadığı məmləkətə öz içindən zərbə endirmişlər. Ölkənin şərqində quldur həyatı keçirən ermənilər köməksiz qalan türk kəndlərinə xaincəsinə basqın edirdilər. Ölkənin şərq bölgələrində ermənilərin fəaliyyəti gizli quldur hərəkatı xarakteri daşıyırdısa da Van və Bitlisdə açıq mübarizə aparırdılar. Burada Van mərkəz olmaqla ermənilər dövləti deyil, öz milli komitələrini tanıyırdılar. Rusların Türkiyə sərhədlərini pozub keçməsiylə ermənilər açıq müharibəyə keçdilər.

1915-ci il aprel ayında İttihad və Tərəqqi hökumətinin verdiyi «Təhcir Qanunu»na görə etibarsız sayılan, münaqişə yaradan ermənilər məmləkətdən çıxarılmalı idilər. Bu tarixə «genosid» adı verilməsi özü tarixi haqsızlıq faktı kimi qalmaqdadır. Əslində bu, hər bir dövlətin alacağı müharibə tədbirlərindən biridir. II Dünya müharibəsində Sovetlər Rusiyası Volqaboyu almanlarını, eləcə də müxtəlif respublikalarda yaşayan almanları, Türkiyədən təhlükə gözləyən Stalin siyasətinin digər acı nəticələri; Gürcüstan ərazisində amma öz tarixi torpaqlarında yaşayan türklərin, «etibarsızlıq» üstündə cəzalandırılan yerli xalqlar: Şimali Qafqazın müsəlman əhalisi, Kırımın əsl sahibi olan tatarlar tam zorakılıq şəraitində sərt inzibati şərtlərlə köçürüldü. Amma bu hadisələr, tədbirlər heç biri tarixə «genosid» adıyla düşməmişdir.

Əslində ermənilər özləri soyqırımın təşkilatçısı və icraçıları olmuşlar. Çar ordusunda rus komandası altında hərəkət edən erməni quldur birləşmələri kənd və şəhərləri xarabaya çevirmiş təkcə Şərqi Anadoluda deyil, müsəlmanlar yaşayan Tiflisdə, Batumda, Azərbaycanda, İranın Xoy və Səlmas bölgələrində kütləvi qırğınlar həyata keçirmişlər.

1919-cu il 25 fevralda sədrəzəm Tevfiq Paşa Paris konfransındakı məruzəsində Rus ordusunun Şərqi Türkiyənin işğalı zamanından bu tarixə qədər ermənilərin 1 milyon türk öldürdüklərini bildirirdi.

Get-gedə ermənilərin törətdiyi qətl-qarətlərin miqyası genişlənməyə başlayır talan və soyqırım böyük vüsətlə irəliləyir.

Artıq Rusiyada bir-birini təqib edən çevrilişlərdən sonra əmələ gələn qarışıqlıqlar nəticəsində Bakıda hakimiyyəti ələ keçirən bolşevik hökümətinin komissarı seçilən Şaumyanın fəaliyyətə başlaması ilə silahlı erməni birliklərinin Bakıya cəlb olunması işi də sürətlənir. Mart qırğını ərəfəsində artıq Bakı partlamağa hazır olan bir neft çəninə bənzəyirdi. Ermənilər Azərbaycanda 1918-ci ilin mart-aprel aylarını əhatə edən kütləvi qırğınlar keçirdilər. Bakını, Şamaxı, Qubanı, Qarabağı və Azərbaycanın bir çox bölgələrini günahsız insanların qanı ilə suvardılar, yüzlərlə kəndli od-alovlar içində yandırıb məhv etdilər

Erməni vəhşətinin tüğyan etməsindən başlayan bu qanlı tarix özünün 100 illiyinə yaxınlaşmaqdadır. Bu müddət ərzində erməni daşnaqları öz məkrli və xəyanətkar hərəkətlərini zaman-zaman davam etdirməkdədir. İnstitumuzun nəşrə

hazırladığı dr. Yusif Qazıyevin «Erməni Məsələsi. Yalanlar, gerçəklər» kitabında 1905-1907 ci il qırğınları, I Dünya müharibəsi dövründə erməni vəhşiliyi, Azərbaycan bölgələrində baş verən kütləvi qırğınlar, Stalin irticası dövründə öz daşnak paltarlarını sovet qulluqçusu libası ilə dəyişmiş, məfkurəsi məsləki türk-müsəlman düşmənliyi olan bu mənfurların xəyanəti, Qərbi Azərbaycanda Azərbaycan türklərini elliklə çıxarmaq qərarları və onların acı nəticələri işıqlandırılır. Kitabda artıq şahidi olduğumuz hadisələr, acısını yaşadığımız bugünkü məhrumiyyətlər, ağır faciələr, 20 yanvar qırğını, Xocalı faciəsi, Ermənistandakı əsir düşərgələri, erməni terror təşkilatlarının vəhşətləri, 20 faiz torpağını itirən Azərbaycanın qayğıları, həmin doğma ərazilərdə məhv olan maddi-mədəniyyət abidələrinin üzüntüləri...fonunda həqiqətən tarixin bağrına zorla yeridilmiş «erməni məsələsinin» riyakar, saxta həm də qanlı mahiyyəti üzə çıxır. Bu həqiqətən müəmmalı bir düyün, qanlı bir nifaq kimi qarşıda duran bir problemdir. Saxtalıqla yoğrulmuş, bədxah niyyətlərin doğurduğu zalımanə bir sualdır.

Az qala bütün Avropa dövlətlərinin onun yalan ağlaşmalarına inandığı, yardımına tələsdiyi bütün tökülən qanlara səbəb olan, yıxıq evlərin, yandırılan yurd-yuvanın əsil səbəbkarı olan qana susamış ermənilər digər tərəfdə ürəyindəki səmimiyyəti, təmiz niyyəti dillərinə gətirib deyərkən də kimsədən bir kömək, təsəlli görməyən günahsız bir xalq «Yalanları», «Gerçəkləri» sanki ayırmaq bu qədər çətinmiş? Əsərdə bu üzdən az qala drammatik səhnələr təsiri bağışlayan hissələrə də rast gəlinir.

Kitabda ermənilərin xəstə ideyaları olan «Böyük Ermənistan» sayıqlamaları, saxta erməni soyqırımı nağılının ifşası hər zaman mərkəzdə dayanır. Habelə sovet hakimiyyəti illərində azərbaycan türklərinin həyatında baş verən faciələr, 1918-ci ildə Azərbaycan bölgələrində həyata keçirilən soyqırımı tədqiq edən fövqaladə təhqiqat komissiyasının qənaətləri, erməni terroruna aid ətraflı məlumatlarla bağlı bölmələrin də maraqla qarşılanacağı şübhəsizdir.

Əsər geniş bir dövrü əhatə etməklə özlüyündə çox kəskin və ziddiyyətli hadisələrin cərəyan etdiyi, olduqca mürəkkəb bir zamanı təsvir edir. Dağınıq, pərakəndə görünən, nəzərimizcə yayqın və ifrat təsvirçilik sezilən parçaları ixtisar etməklə müvafiq təshihlər aparmaqla çapa hazırlandı.

Kitab daha çox bədii-publisistik bir üslubda yazılıb; bu da onun həqiqətən geniş oxucu auditoriyasına daha tez yol tapacağına bizi inandırır.

**Dr. Mehmet Rıhtım,**
*Qafqaz Universiteti, Qafqaz Araşdırmaları İnstitutunun müdiri*

# GİRİŞ

«Ermənilər acgöz və tamahkardırlar,
fitnəkar və araqarışdırandırlar,
heç kəsi bəyənmirlər»

***İngilis səyyahı Vilson***

«Dəmir Aşot» romanında «erməni xəstəliyi»nin qorxunc simvoluna çevrilən **Aşot deyir: «Mənim qılıncımdan türk qanı axıb töküləndə və mən o qanı tapdalayanda rahat olacağam».** Bu sözlər ermənilərin əbədi amalı, qantökmə hərisliyi, çirkin ehtirasıdır.

Ermənilərin «azadlıq fədaisi» hesab olunan **Nalbandyan erməni gənclərinə vəsiyyətində yazır: «Ey erməni, əgər sən küçədə zəhərli ilan görüb öldürməyibsənsə, eybi yoxdur, ilandır... Lakin türk görüb öldürməyibsənsə, satqınsan, vicdansızsan, xalqının düşmənisən, sən erməni deyilsən...»**

Erməni gəncliyinin beyinlərinin zəhərlənməsində, onların amansız terror tədbirlərinə qoşulması işində «tərbiyəvi» əsərlərilə mənfur rol oynayan Silva Kaputikyan: «Erməni uşağının beşikdə qulağına pıçıldamaq lazımdır ki, ey Tiqran, sənin əsas düşmənin türkdür» deyə artıq fikri dumanlanmış «Hayk oğullarına» iblisvari vəsiyyətini təlqin edir.

Zori Balayan «Ocaq» əsərində türkləri insan əti yeyən, qaniçən kimi göstərmiş, onları ermənilərin böyük düşməni kimi qələmə vermişdir. Dəhşətlisi isə odur ki, küyə düşmüş erməni xalqı da belə sərsəmlərin felinə uyaraq «Ocaq» əsərini qızlarına cehiz verirlər.

Müasir dövrdə erməni məsələsi bəşər həyatına bir bəla, «başağrısı» kimi daxil olmuşdur. **Erməni məsələsi nə deməkdir?**

**Erməni məsələsi soyğunçuluq, qan, nifrət, dəhşət və fəlakətlər mənbəyi mənalarını ifadə edən bir məfhumdur ki, bu xəstə ideya uğrunda çarpışmalardan Yaxın Şərqdə, Anadoluda və Qafqazda insanlar əsrlərlə əziyyət çəkmiş və hələ də yeni-yeni zülmlərə düçar olmaqdadırlar.**

Beləliklə «Erməni məsələsi»nin əsas komponentləri olaraq bunları götürmək olar: **terrorçuluq, soyqırım və deportasiya, qonşu xalqların mədəniyyət və nailiyyətlərini özününküləşdirmək, qonşuların torpaqlarını zəbt edib əhalisini isə qırğına məruz qoymaq, paxıllıq və məkrlilik, bu mənada ictimaiyyətdə hipnozçuluq və saxtakarlıq, yalançılıq, talançılıq, qərəzçilik və oğurluq, eqoizm** kimi bəd hərəkət və əməllər.

Erməni qatı millətçiliyi və şovinizminin tarixi Urartu dövlətinin dağılmasından başlasa da onun çiçəklənən dövrü Romanov sülaləsinin Rusiyada hakimiyyətə gəlməsindən başlayır. Bu, rus imperatoru I Pyotrun çarlığı dövründə daha geniş vüsət aldı ki, sonrakı rus çarları da bu kursu davam etdirdilər.

I Pyotr Cənuba göndərdiyi agentlərinə tapşırırdı ki, orada Rusiyanın arxalana biləcəyi qüvvə və ya toplumu müəyyən etsinlər. Elə o vaxtlar aşkar edilmişdir ki, satqınlıq və xəyanət etmək xüsusiyyətləri ermənilərə xasdır.[1]

**Erməni şovinizmi müasir dövrdə bütün dünya siyasətinə sirayət edir, imkan tapdığı dövrlərdə təxribatçılıq, terrorçuluq, böhtançılıq fəaliyyətini əldən qoymur. Onun əsas təzahür formalarından biri də ondan ibarətdir ki, yaşadıqları dövlətlərin siyasi, iqtisadi, ideoloji durumuna zərbə endirmək, onlardan öz maraqları üçün istifadə etmək.**

Son iki əsr Azərbaycan türklərinin həyatında ən ağır və dözülməz işgəncələr, qırğınlar və deportasiyalarla yadda qalmışdır. Bu da təsadüfi deyildir. 1801-ci ildə rus qoşunlarının Lori-Pəmbək bölgəsində İrəvan xanlığının ərazisinə daxil olması anından soydaşlarımız qaçqınlıq faciəsini yaşamağa məcbur olmuşlar. Məhz həmin vaxtdan etibarən indi Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından soydaşlarımız planlı şəkildə, mərhələ-mərhələ deportasiya edilmiş, soyqırımlara və kütləvi repressiyalara məruz qalmışlar.

Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından didərgin salınması nəticəsində həmin ərazilərdə dünyanın hər bucağından köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdır. 1828-ci ildə çar Rusiyası və İran arasında imzalanmış Türkmənçay sülhündən sonra Azərbaycan əraziləri kütləvi şəkildə gəlmə ermənilərin «vətəninə» çevrilməyə başladı. İstər aparılan tədqiqlərdən, istərsə də arxiv materiallarından məlum olur ki, 1826-1828-ci il Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra Qərbi Azərbaycan ərazisinə köçürülən ermənilərin sayı süni şəkildə yerli türk-müsəlmalı əhalisinin sayına çatdırılmışdı. Təkcə İrəvan şəhərində köçürülmədən sonra 11436 nəfərlik əhalinin 6000-ə yaxınını ermənilər təşkil edirdi. Ümumilikdə isə 1828-1830-cu illərdə Azərbaycan ərazilərinə Türkmənçay müqaviləsinə (1828) əsasən 40.000 İran ermənisi, Ədirnə sülh müqaviləsinə (1829) əsasən isə 84.000 Türkiyə erməniləri köçürülmüş və onların da böyük hissəsi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirilmişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanın qərb torpaqlarında ermənilərin yerləşdirilməsi yaxın gələcəkdə yerli azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlardan, soyqırımı və deportasiyadan xəbər verirdi.[2]

**Bu baxımdan erməni soyqırımı mifinin və erməni terrorunun araşdırılması, eləcədə ifşası artıq dövrün aktual probleminə çevrilmişdir.**

Bizim eranın son iki əsri (1801-1991) ərzində Qafqazda müsəlmanlara qarşı çar Rusiyası tərəfindən məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində Azərbaycan xalqı, o cümlədən Qafqazın digər

---

[1] Bəhruz Abdullayev və Hidayət Cəfərov. Azərbaycana qarşı erməni terrorizminin qısa xronologiyası. - B. 2002
[2] Terrorizmin paradoksları - «Yeni Azərbaycan», 12.03.2002, N 45 (1273).

müsəlman və türk soylu xalqları (Ahıska türkləri, qaraçaylılar, kabardalılar, balkarlar, noqaylar, inquşlar, çeçenlər, avarlar, tatarlar və s.) ağır məhrumiyyətlərə, milli faciələrə məruz qalmışlar.

Hətta çar Rusiyasının müstəmləkələrdə apardığı ruslaşdırma siyasətinin nəticəsi olaraq bir çox kiçik etnik xalqların izləri belə itmişdir. Etnik təmizləmə çar Rusiyasının, həmçinin onun sonrakı varisi Sovet İttifaqının dövlət siyasəti səviyyəsində başlıca proqramı olmuşdur.

I Pyotrun hakimiyyəti dövründən başlayaraq XX əsrin sonunadək (1991) davam edən dövrdə rus və sovet imperiyaları Azərbaycan və Anadolu türklərinin torpaqlarının işğalına və onların soyqırımına girişmişlər. Belə ki, I Pyotr Rusiya imperatoru elan edildikdən sonra, Qara dənizə, Ağ dənizə, Qafqazlara və Xəzəryanı ərazilərə yönəltdiyi siyasətin nəticəsində 1723-cü ildə Bakının, Şimali və Cənubi Azərbaycanın bir çox əyalətlərinin (Dərbənd, Gilan, Mazandaran) zəbt edilməsinə nail oldu.

I Pyotrun vəsiyyətnaməsindən aydın olur ki, Türkiyə və İranla bərabər müsəlman ölkələrinin, o cümlədən Avropada Prussiya və Avstriyanın ərazilərinə də göz dikmişdir. Pyotr Orta Asiya və Əfqanıstandan Hind okeanına çıxmaq fikrində idi. O, imperiya planları uğrunda əlindən gələni əsirgəmirdi.

Mənbələrin birində deyilir: «1711-ci ildə Prut yürüşü əsnasında Rusiya çarı I Pyotr türk qoşunlarının mühasirəsinə düşür, sağ qalmaq üçün paşalara yalvarır. Danışıqların «konstruktiv» olması üçün o, türk sərkərdəsi Mehmet paşanın yanına arvadı I Yekaterinanı yollayır. Paşanın hərəmində 3 gecə qalan Yekaterina da Pyotrun azad edilməsinə nail olur».

I Pyotr general-mayor Matyuşkinə tapşırıq vermişdi ki, ruslar tərəfindən zəbt edilmiş Azərbaycan torpaqlarından müsəlmanları köçürüb əvəzinə orada rusları, erməniləri, yaxud digər xristian xalqlarından olan adamları yerləşdirsin. Həmçinin o, özünün İstanbuldakı səfiri Rumyantsevə tapşırmışdı ki, əgər Osmanlı Türkiyəsi etiraz etməzsə ruslar tərəfindən zəbt edilmiş ərazilərdə yaşayan müsəlmanlar Osmanlı türklərinin ölkəsinə köçə bilərlər. Bu məqsədlə türklərə hər vasitə ilə yol tapmaq lazımdır.

I Pyotrun işğalçılıq siyasətini sonrakı rus çarları (xüsusən II Yekaterina, I Aleksandr, I Nikolay) müntəzəm olaraq zəbt edilmiş ərazilərdə yerinə yetirmişlər. II Yekaterina 1796-cı ildə Azərbaycana yürüş edən rus generalı Qraf Valerian Zubova belə bir tapşırıq vermişdir ki, «Muğanı ələ keçirdikdən sonra orada bir qala tikdirsin, adını «Yekaterina serd» («Yekaterinanın ürəyi») qoysun və orada iki min cavan rus əsgəri məskunlaşdırsın. Həmin əsgərləri erməni və gürcü qızları ilə evləndirsin, onları xüsusi torpaq sahəsi və silahla təmin etsin.

Türk soyqırımları düşünülmüş və planlaşdırılmış şəkildə, tarixi məqamlardan və baş vermiş şəraitdən asılı olaraq mərhələlərlə həyata keçirilmişdir. Belə ki, Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri Azərbaycan xalqının parçalanmasının, onun tarixi torpaqlarının bölünməsinin əsasını qoydu. Ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi.

Çar Rusiyasının Azərbaycana və azərbaycanlılara qarşı həyata keçirdiyi işğalçılıq və soyqırımı siyasətinin carçılarından olan Rusiyanın İranda fövqəladə və səlahiyyətli səfiri Aleksandr Qriboyedov Peterburqa öz hesabatında yazmışdır: «... **bu millət birdir və hamısı özünü türk sayır. Azərbaycanı ya biz bütövlükdə işğal etməliyik, ya da parçalayıb Arazdan şimalda yaşayanlara «Oğuz» və ya «Tatar» adı qoymaqla onlara bir-biri ilə ayrı-seçkiliyi təbliğ etməliyik».**

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında «Erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində Azərbaycan türklərinin öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu; bu zamandan mənfur «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma xəyali dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq» məqsədilə erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edir.

I Dünya müharibəsi nəticəsində Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz başabəla iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən «əksinqilabçı ünsürlərlə mübarizə» şüarı altında qatı daşnaq olan Stepan Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başladı. Bu plan bütün Qafqaz ölkələrində həyata keçirilməli idi. Daşnaq liderləri və hərb xadimləri (Şaumyan, Andronik, Dro, Nazaryan və s.) bir-birləri ilə əlaqə saxlayaraq türklərin və onların yaşayış məntəqələrinin məhvi haqqında məlumatlar verirdilər. Hətta S.Şaumyan 1918-ci il iyulun əvvəllərində Andronikin Zəngəzur və Naxçıvanda yerli əhaliyə qarşı törətdiyi vəhşiliklərə bəraət qazandırıb onu bir milli qəhrəman kimi təbrik etmişdir.[3] Bu dövrdə 10 minlərlə Azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, məşhur alman tədqiqatçısı Erix Fayql «Terror haqqında həqiqət. Erməni terrorizmi – mənbə və səbəbləri» kitabında qeyd edir ki, «Şaumyan 1918-ci ildə Bakıda erməni kommunistlərinin rəhbəri olmuş, orada bolşevik dövləti qurmuş, onun hökm ölçüsü azərbaycanlıları öldürmək və qovmaq olmuşdur. Onun məqsədi Bakını nəyin bahasına olursa olsun erməniləşdirmək idi».[4] Azərbaycan türklərinin məruz qaldığı bu soyqırımı dünya ictimaiyyətinə çatdırılmamış və öz vaxtında siyasi qiymətini almamışdır. Əksinə, saxta xülya olan beynəlmiləlçilik və xalqlar dostluğunun möhkəmləndirilməsi naminə ört-basdır edilmiş, beləliklə Azərbaycan xalqının yaddaşından silinərək unutdurulmuşdur. Odur ki, bu gün artıq dünyanın bir çox ölkələrində «erməni soyqırımı» tarixi hadisə kimi qəbul olunmuşdur.

Azərbaycan türklərinə qarşı soyqırımının silsilə ssenarisi sovet dövründə daha məqsədyönlü şəkildə həyata keçirildi. Bu soyqırımı 1920-ci ilin yazından

---

[3] «Vətən Səsi» qəzeti 16.03.2001, N 13 (395).

[4] Musaeva T. Mamedov N. Qenosid uçinenniy nad Azerbaydjanskim narodom v marte 1918 qoda - «Elm», 26.05.2001, N 15-16 (580-581).

(Azərbaycanın ikinci dəfə işğalından - 1920-ci il 28 apreldən sonra) başladı. Bu hal aşağıdakı faktlarla sübut oluna bilər.

Mərkəzi bolşevik hökumətinin nümayəndəsi N.Y.Solovyovun may-iyun ayları üçün Leninə hesabatında yazılmışdır: **«Ermənistan Respublikası yarananda onun hüdudlarında 250 müsəlman kəndi olmuş, onların hamısı məhv edilmiş, artıq bir müsəlman belə yoxdur».** Ermənistanla sərhəd olan müsəlman kəndlərində azərbaycanlıların silahlarının əlindən alınmasını, ermənilərin Qırmızı Ordu və dəmiryol mühafizəsi tərkibinə qəbul olunmasını Solovyov, təbii olaraq müsəlmanların ermənilər tərəfindən qırğın edilə bilinəcəyi kimi nəticələndirirdi. Çiçerin Ermənistanın xarici işlər naziri Ohancanyana 19 iyul 1918-ci il teleqramında erməni xalqına sədaqətini, qüvvəsi daxilində köməyini vəd edəndə, həmin gün Kominternin II Konqresində müsəlman kəndlərinin erməni hökuməti tərəfindən qılıncdan keçirildiyi bəyan edilirdi. RSFSR-in Ermənistandakı nümayəndəsi Zeqranın «kombinasiyasına» razılıq verən Çiçerin, həmçinin Nərimanovun təkidinə uyğun göstərişlər verdiyini vurğulayırdı. Tərəflər arasında Çiçerinin diplomatik «məharətindən» Orcenikidze də yararlanmışdı. «Ermənistan məlum siyasi şəraitdə bizə lazım ola bilər» -demişdi.[5]

Keçən XX əsrin 30-cu illərindən Qafqaz ölkələrindən on minlərlə azərbaycanlı ailələri soyuq Sibirə və Orta Asiyanın susuz çöllərinə sürgün edilmiş, minlərlə ailə başçıları «Xalq düşməni» damğası adı altında həbs edilib, ya güllələnmiş, ya da sürgün edilmiş, yüz minlərlə uşaqlar yetim qalmışdır.

Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyev Azərbaycanın müstəqilliyi - Respublika günü münasibəti ilə söylədiyi nitqində tariximizin bu dövrünə qiymət verərək demişdir: **«20-30-cu illərdə kommunist, bolşevik hakimiyyətinin qurulması, möhkəmlənməsi ilə əlaqədar yüzlərlə, minlərlə, on minlərlə insan ədalətsiz olaraq repressiyalara uğramış, yerindən-yurdundan uzaq ellərə - Orta Asiyaya, Qazaxıstana sürgün edilmiş, öz mülklərindən, varlarından məhrum olmuş, çox əzab-əziyyətlərə məruz qalmışdır».**

Həmçinin 2002-ci ilin martında o, 31 mart - soyqırım günü münasibətilə xalqa müraciətində demişdir: **«Onilliklər boyu «soyqırımı siyasəti» total ideoloji təcavüz, Türk və Azərbaycan xalqına, onların görkəmli nümayəndələrinə qarşı terrorla müşayiət olunmuşdur. Çar Rusiyası və SSRİ dövründə türk-müsəlman xalqlarına qarşı ayrıseçkilik şəraitində bu siyasət daha incə və təhlükəli metodlarla davam etdirilmiş, azərbaycanlıların deportasiyası və soyqırımı kütləvi hal almışdır».**

**«1937-1938-ci illər repressiyaları Azərbaycan xalqına, onun mədəniyyətinə, mənəviyyatına böyük zərbə vurmuşdur».**[6]

Qeyd edilən dəhşət Azərbaycan SSR-də daha müsibətli olmuşdur. Mənbələrin birində deyilir: **«Stalinin hakimiyyəti dövründə onun və Beriyanın hökmü ilə 29 min Azərbaycan ziyalısı məhv edilmişdir.**[7]

Böyük Vətən müharibəsi deyilən II Dünya müharibəsindən sonra da soydaşlarımızın soyqırımı davam etdirildi: **SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları vasitəsilə Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı həyata keçirildi.**

Müasir Ermənistan respublikasının əsil yerli əhalisi olan Azərbaycan türklərindən ötrü sürgün yeri Sibir seçilsə də, sonradan M.C.Bağırovun səyi və cəsarəti nəticəsində məcburi köçkünlər Muğan düzündə yerləşdirildi.

Bu qorxunc tədbirin tarixi dərindi: Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-nin ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki Azərbaycan türklərinin zorla köçürülməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün **«Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında»** yuxarıdakı qərara əsasən 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə (150 min) deportasiyası baş verdi.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya edilməsi şəxsiyyətə pərəstişin ifşa edilməsindən sonrakı dövrlərdə də siyasi qiymətini almamışdır. 1948-1953-cü illərdə 150 minlik əhalinin şəxsi və ümumi mülkiyyəti Ermənistan SSR tərəfindən mənimsənildi. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərlərinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə biganə mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

**«Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir» (Heydər Əliyev).**

Bu barədə ilk dəfə olaraq dövlət səviyyəsində cənab Heydər Əliyev fərmanla siyasi qiymət verdi (Bakı şəhəri, 18 dekabr 1997-ci il).

Fərman xalqımıza qarşı törədilmiş haqsızlıqların və cinayətlərin üstünü açmasında, bunları həm bugünkü, həm də gələcək nəsillərə çatdırmaq zərurətini vurğulamasında ifadə olunan tarixi əhəmiyyəti bu işə bütün cəmiyyətin qoşulmasını şərtləndirir. Hər bir azərbaycanlı tam məsuliyyətlə dərk etməlidir ki, torpaqlarımızın parçalanması, və zəbt olunması, xalqımızın soyqırımına məruz qalması vətəndaşlıq duyğularını gücləndirən, milli məfkurəni ötəri hisslərdən və məqsədlərdən təmizləyən tarixi yaddaşa çevrilməlidir.

Bu baxımdan hər kəs yuxarıdakı fərmanın tarixi əhəmiyyətini dərk etməli və orada irəli sürülən vəzifələrin həyata keçirilməsi işinə öz töhfəsini verməyə mühüm vətəndaşlıq borcu kimi yanaşmalıdır.

Azərbaycanlıların soyqırımının bütün dəqiqliyi ilə dünya birliyinə çatdırılması onilliklər ərzində uydurulmuş «qondarma məzlum erməni milləti» obrazını pozub dağıtmaq üçün də ən tutarlı vasitədir.

[5] Kremlin diqtəsi və N.Nərimanovun bəyanatı-«Respublika», 10.04.1999
[6] «Azərbaycan»-31.VII. 1999, -«Vətən sağ olsun».
[7] «Azərbaycan»-28.05.1997

Azərbaycan türklərinin Qərbi Azərbaycandan qovulmasının sonrakı mərhələləri məxfi keçirilsə də, 1988-ci ildə son həlledici mərhələsinə çatdı.

Deportasiya Stalinin ölümündən sonra dayandırılsa da, 1988-ci ildə ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə Azərbaycan türklərinin öz tarixi torpaqlarından qovulması başlandı. 1988-1989-cu illər ərzində 250 mindən çox azərbaycanlı Ermənistan SSR-dən deportasiya edildi, onlardan 500 nəfərindən çoxu həmin əsnada qətlə yetirildi. Qaçqınlar fiziki, mənəvi və maddi təqiblərə məruz qaldılar.

Tarixi ardıcıllıqla Qərbi Azərbaycan (indiki «Ermənistan») üzrə statistik rəqəmlərə müraciət etsək: indiki Ermənistan ərazisində 1850-ci ildə 76 faiz Azərbaycanlı (Qriboyedov köçürmələrindən sonra), 24 faiz erməni və qeyri-millət, XX əsrin əvvəlində 45 faiz türk, 55 faiz erməni olduğu halda, 1988-ci ildə 92 faiz erməni, 8 faiz Azərbaycan türkü, 1990-ı ildə 99 faiz erməni, 1 faiz qeyri-millət vardı. Ermənilərin sözü ilə deyilsə, «Türksüz Ermənistan» yaradılmışdır.

Artıq 20 ildir ki, Azərbaycan erməni separatçı qüvvələri tərəfindən öz müstəqilliyi və ərazi bütövlüyünün bərpası uğrunda mübarizəyə qoşulmuşdur. Məcburən münaqişəyə cəlb edilən Azərbaycan Respublikasının ərazisinin 20 faizi bu müddət ərzində işğal edilmiş və 1 milyon əhalisi məcburi köçkün və qaçqın vəziyyətinə düşmüş, 20 mindən çox gənc insan həlak olmuşdur.

Ermənilər isə öncə bütün dünyaya haray salmışlar ki, Azərbaycan ermənilərə «öz torpaqlarında» - Dağlıq Qarabağda əzab verirlər, onların milli suverenliklərini və müstəqilliklərini qəbul etməyib rədd edirlər. Göründüyü kimi onlar qədim Azərbaycan torpağı olan Dağlıq Qarabağı Ermənistanın bir hissəsi kimi qələmə verirlər.

Məqsəd odur ki, dünyada baş vermiş ictimai-siyasi hadisələrdən istifadə edərək dənizdən-dənizə uydurma Böyük Ermənistan düzəltmək, bunun üçün Rus imperiyasının köməyi sayəsində Azərbaycan torpaqlarının - Dağlıq Qarabağın işğalından və Ermənistandan azərbaycanlıların deportasiyasından başladılar. Bu işə keçmiş zamanlarda, o cümlədən I və II Dünya müharibələrinin gedişində və sonrakı illərdə ciddi-cəhdlər göstərmişlər və türk soyqırımları həyata keçirmişlər və nəhayət məqsədlərinə qismən nail olmuşlar. Nəticədə tarixi Azərbaycan torpağı olan İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaratmışlar.

SSRİ-nin dağılması ərəfəsində və onun yaxın vaxtda dağılmasını qabaqcadan bilən ermənilər yeni tarixi məqamdan istifadə etdilər: **Moskvanın razılığı ilə Sumqayıt və Bakıda özləri öz ermənilərinə «erməni talanı və soyqırımı» adı altında sui-qəsdlər təşkil etdilər.** Əllərində «fakt» tutan ermənilər əvvəlcə 250 min azərbaycanlını Qərbi Azərbaycandan («Ermənistan»dan) öz dədə-baba torpaqlarından qovdular və əmlaklarını müsadirə etdilər.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, «Ermənistandan» 1988-ci ildə qovulan əhalinin şəxsi əmlakı 3 milyard ABŞ dolları dəyərində, kolxoz və sovxoz əmlakları isə 17 milyard ABŞ dolları deyərindədir. Həmçinin son 1988-1989-cu illər deportasiyasında 179 sırf azərbaycanlı kəndlərinin ərazisi 10352 kvadratkilometr olmuşdur.

Təcavüzkarın kim olduğu erməni təbliğatı nəticəsində uzun müddət dünya ictimaiyyətini çaşdırmışdır. Dağlıq Qarabağın 180 minlik əhalisinin dörddə üçünü təşkil edən ermənilər 1988-ci ilin əvvəllərində Azərbaycandan ayrılmaq tələbi irəli sürərək bəyan etdilər ki, hökumət azlıqda qalan ermənilərin ziyanına siyasət yeridir. Əslində isə belə deyildir. O zaman Azərbaycan nə müstəqil siyasətə malik idi, nə də ermənilərə qarşı pis mövqedə deyildi. Dağlıq Qarabağdakı ermənilərin mədəni, məişət və iqtisadi vəziyyəti ətrafındakı azərbaycanlı əhalinin vəziyyətindən qat-qat artıq olmuşdur. Nəhayət, 1991-ci ildə Sovet ittifaqının süqutundan sonra Dağlıq Qarabağ konflikti Ermənistan-Azərbaycan müharibəsinə çevrildi. Ermənistan ordusu Azərbaycandakı daxili hakimiyyət mübarizəsindən istifadə edərək Azərbaycanın yüzlərlə kənd və qəsəbələrini zəbt etdilər, azərbaycanlı əhalini qırdılar və evlərindən qovdular. Dağlıq Qarabağ ətrafında geniş bufer zonası yaratdılar.

**Ermənilərin məkrli siyasətinin aşkarlanması uğrunda mübarizəyə ən əvvəl Heydər Əliyev başladı.**

Heydər Əliyev Azərbaycanda təkrar hakimiyyətə qayıtdıqdan sonra milli ideologiyanın formalaşması və azərbaycançılıq düşüncəsinin inkişafı üçün bir sıra mühüm fərmanlar imzaladı. Onların içərisində 18 dekabr 1997-ci il tarixli «1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında» və 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» fərmanları xüsusi əhəmiyyət kəsb edir.

Çünki uzun illər Azərbaycan xalqına qarşı həyata keçirilən tarixi ədalətsizliklərə ilk dəfə həqiqi qiymət verilirdi, tarixçilərimizə isə bu sahədə tədqiqatlar aparmağa şərait yaradıldı. Arxivlər onların ixtiyarına verildi, əsl həqiqətlər üzə çıxmağa başladı. Lissabon sammitinə qədər erməni təbliğatı bütün dünyaya bəyan etmişdir ki, guya Azərbaycan onun içərisinə doğru uzanan Ermənistanın Arsak bölgəsini işğal etmişdir. Bu baxımdan «erməni hipnozu»na qarşı **Prezidenti Heydər Əliyev əlində sadə bir coğrafi xəritə dünyanın məşhur dövlət xadimlərinə sadə şəkildə** izah etdi ki, keçmiş Dağlıq Qarabağ vilayətinin nə hərbi potensialı, nə iqtisadi potensialı, nə də əhali potensialı imkan vermir ki, bütöv bir dövlətlə müharibə aparsın və onun ərazisinin 20 faizini işğal etsin. Azərbaycana qarşı müharibəni Ermənistan ordusu və beynəlxalq muzdurlar aparır.

Heydər Əliyevin uğurlu xarici siyasətinin nəticəsi olaraq ABŞ başda olmaqla əksər Qərb ölkələri respublikamıza marağı daha da artırdılar. Birləşmiş Ştatlar tərəfindən haqsız olaraq Azərbaycana qarşı 907-ci düzəlişin ləğvi istiqamətində başlanan fəaliyyət də bu maraqdan irəli gəlirdi.

Əminik ki, Azərbaycan dövlətinin sülh siyasəti sayəsində torpaqlarımız qaytarılacaq, həmin torpaqlardan qaçqın düşən soydaşlarımız dədə-baba torpaqlarına qayıdacaqlar.

Azərbaycan xalqının rast gəldiyi bu bəla illərdir ki, davam edir: erməni terrorunun əziyyətini çəkir, onun girdabında çırpınır, qurbanlar verir. Dünya ermənilərinin və bir çox terrorçu təşkilat və dövlətlərinin maliyyələşdirdikləri «Daşnaqsütyun», «ASALA», «Hnçak» və dəhşətli əməllərə malik olan digər erməni terrorçu təşkilatları iki əsrdir ki, türklərə və müsəlmanlara qarşı dəhşətli terror aktları həyata keçirirlər.

# ERMƏNİLƏR OSMANLI DÖVLƏTİNDƏ

Bəşər tarixi boyunca elə bir xalq, millət olmamışdır və indi də yoxdur ki, o, müəyyən bir coğrafi ərazidə təkbaşına, başqa xalqlardan təcrid olunmuş halda yaşasın.

Bu baxımdan Miladdan öncə və sonra Asiya və Avropanın çox geniş ərazisinə yayılmış türklər də özlərinin dörd min, bəzi mənbələrdə yeddi min illik məlum tarixləri boyu çinlilər, almanlar, romalılar, bizanslılar, farslar, ərəblər, slavyanlar, rumınlar, gürcülər, ermənilər və başqaları ilə birgə ərazidə yaşamış, qaynayıb qarışmışlar. Bu xalqlar içərisində türklərin ən uzun müddətdə və ən yaxın iqtisadi-mədəni təmasda olduğu toplumlardan biri ermənilərdir. Eyni zamanda inkar edilməz bir həqiqətdir ki, Osmanlı imperatorluğunun 625 illik varlığı ərzində özlərini türklərə zahirən «yaxın dost», «sadiq təbəə» kimi göstərmək üçün çox zaman ailələrində belə türkcə danışan, bir çox ayinlərini türkcə icra edən, əsgəri mükəlləfiyyətdən azad olan ermənilər dövlətin iqtisadi-ticarət və hətta idarəetmə sistemində yüksək mövqeyə çatmışdılar.

Tarixən Qərb dövlətləri məkrli məqsəd və niyyətlərinə çatmaq naminə İslamı, o cümlədən islamın xilaskarı və müdafiəçisi olan Osmanlı dövlətini dünya ictimaiyyətinə antihumanist, xristianlara qarşı qəddar və sair çirkin əlamətlərə malik təcavüzkar dövlət kimi təbliğ edirdilər. Tarix isə bu böhtanların əsassız və uydurma olduğunu sübut edir.

Qərb tədqiqatçılarının özləri dəfələrlə yazıb dünya ictimaiyyətinin nəzərinə çatdırmışlar ki, Osmanlı imperiyasında yaşayan xalqlar, o cümlədən xristianlar eyni imtiyazlara malik olmuşlar. Alman tədqiqatçısı Braun təsdiq edirdi ki, Osmanlı dövlətinin imperiyada yaşayan qeyri-müsəlmanlara qarşı siyasəti müsəlman qanunları ilə büsbütün ahəngdardır və onlar bütün millətlərə mehriban münasibət bəsləyirlər. Türklər heç bir zaman başqa millətləri sıxışdırmayıblar. Sıxışdırmaq fikri kökündən səhvdir və türklərə qarşı ədalətsizcəsinə, fitnəkarcasına uydurulmuşdur.

Osmanlı hökuməti özünün müsəlman və qeyri müsəlman rəiyyəti arasında heç bir fərq qoymamış, həmişə ermənilər imperiyada yüksək məsul vəzifələr tutmuşlar. Məsələn, 1910-1915-ci illərdə vəzifəli ermənilərdən aşağıdakıları qeyd etmək olar: Osmanlı imperiyasının xarici işlər naziri erməni Qabriel Noradunkyan olmuşdur. İmperiya silahlı qüvvələri qərargah rəisinin müavini də erməni (Bazazardem) idi. Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı İmperiyasında 2.345 nəfər erməni yüksək vəzifələr (siyasi, ictimai və dövlət vəzifələri) icra etmişlər: Artin Dadyan paşa- Xarici İşlər Nazirliyində müşavir, Ohanes Sərkis paşa- Maliyyə naziri və Xarici İşlər Nazirliyində müşavir, Marşal Qarabet Artin Davud paşa -Şəhərsalma naziri, Ohanes Kuyumçyan paşa- senator, Aqop Kazaçyan paşa- Maliyyə və xəzinə naziri olmuşlar. Ticarətdə aparıcı qüvvələrin 70 faizini ermənilər təşkil etmişdi. Bir çox faktları da qeyd etmək yerinə düşər.

1861-ci ildə Qalatasaray liseyində hüquq bölməsində təhsil alan 52 gəncdən 45-i erməni idi. Oradakı tibb məktəbində təhsil alanların isə hamısı erməni idi.

XIX əsrin əvvəllərində təkcə İstanbulda 150 min erməni yaşayırdı. Onlara geniş dini və milli imtiyazlar verilmişdi. 1863-cü ildə Erməni Milli Məclisi fəaliyyətə başlamışdır. 140 təmsilçidən formalaşan məclisin 80 nəfəri paytaxtdan, yəni İstanbuldan idi. İlk erməni qəzeti 1859-cu ildə burada nəşr edildi, sonra sürətlə çoxaldı, 1839-1866-cı illərdə erməni dilində İstanbulda çıxan qəzetlərin sayı 14-ə çatdı, hətta imperiyanın ucqarı Van vilayətində də ayrıca bir qəzet çıxırdı.

İstanbulda erməni dilində kitablar XVIII əsrin başlanğıcından çıxmaqda idi. Monax Muxtar 1700-cü ildə apardığı və icra etdiyi işlərə dair sənəd və yazıları İstanbulda çap etdirmişdi. Həmin vaxt Fransanın Marsel şəhərində XIV Lüdovik erməni mətbəəsini bağlatdırmışdı, Osmanlı imperiyasında isə ermənilərin azad mətbuatları vardı və onlara qarşı heç bir sıxıntı yox idi.

Marsel Leart araşdırmalarında Osmanlı hökumətində ermənilərin vəziyyətini aşkarlayacaq aşağıdakı hesablamaları aparmışdır: Anadolunun 166 sahibkarından 141-i erməni, 12-si digər icmalardan, 13 nəfəri isə türk idi; 9800 dükançı və peşəkarlardan 6800-ü erməni, 2550-si türk idi; 150 xarici ticarət kommersantlarından 127-si erməni, 23-ü türk idi; 153 sənayeçilərdən 130-u erməni, 20-si türk idi; 37 bankirlərdən 32-si erməni idi. «Türkiyə Ermənistanı» deyilən ərazidə 803 erməni məktəbi, 2088 müəllim və 81226 şagird olmuşdur.

Deməli, ötən iki əsrdə Osmanlı dövlətində ermənilərə qarşı heç bir təzyiq olmamışdır, onlar bu ölkənin tamhüquqlu vətəndaşları kimi çox firavan yaşamışlar. Buradan belə bir nəticəyə gəlmək olur ki, türk-erməni münaqişələri XIX əsrdə süni surətdə yaradılmışdır.

Qərb dövlətləri Osmanlı imperatorluğunu məhv etmək, bu ərazilərdə öz nüfuz dairələrini genişləndirmək istyirdilər və bu dövlətlər çıxış yolunu Osmanlı imperiyası daxilində etnik münaqişələrin törədilməsində tapdılar ki, bunu da reallaşdırmaq üçün birinci növbədə «erməni məsələsi» deyilən məsələ qaldırdılar. Qərb dövlətləri öz məqsədlərini həyata keçirmək üçün «Şərq», «Şərq məsələsi», «Orta Doğu», «Çağdaş» kimi məsələləri də ortaya atmışdılar. Ancaq ən təhlükəli məsələnin - «erməni məsələsi»nin üzərində ciddi oyunlar gedir, böyük imperialist planları qurulurdu.

Görək ermənilərin əsl havadarı olan Rusiya imperiyasının ermənilərə qarşı münasibətinin əsas mahiyyəti nədən ibarətdir? Doğrudanmı, Rusiya ermənilərə həqiqətən can yanqısı göstərirdi?

Bu mülahizə erməni müəlliflərinin yazılarında daha aydın izah edilmişdir.

H.Pastirmaciyan: «Erməni xalqına gəldikdə, onun milli xarakterli hərəkatı əsas verir ki, müstəqil Ermənistan yaransın və ya Türkiyə Ermənistanı çar imperiyasına daxil olsun. İmperiya (Rusiya) razı olmaz ki, bütün erməniləri birləşdirə bilən erməni dövləti yaradılsın. O Qafqazın bütün xalqlarını geniş müxtariyyata almaq cəhdlərinə yönəldə bilər. «Türkiyə Ermənistanının» Rusiyaya birləşməsinə gəldikdə, qeyd etməmək olmaz ki, bu məsələ burada çarın ruslaşdırma siyasəti ilə nəticələnə bilər. Birləşmə erməni mədəniyyətinin mövcudluğuna ciddi təhlükə yarada bilər».

E.Aknouni: «1830-cu ildən Rusiyanın məzlum xalqları ruslaşdırma siyasətinin nəticəsi olaraq qəhrəman Polşa inqilabı 1863-cü ildə sonu uğursuz olsa da inqilabçılar nəslinin azadlıq mübarizəsinin yeni mərhələsini yaratdı... Qafqazda 500 erməni məktəbi bağlanaraq 20000 şagird küçələrə atıldı. ...Ağılagəlməz terror, təqiblər, zülm, sarsıntı hər yeri götürmüşdür.

E.Aknouni sözünə davam edir: «Erməni dilinin tədrisi uzun müddət dövlət təhsil müəssisələrində aparılmadı. Rus dövlət işçilərinin fikrinə görə, bu dünyada hər bir erməninin iki vəzifəsi vardır: 1. rus dilini öyrənmək, 2. ana dilini unutmaq - bu vəzifənin hər biri bir-birindən lazımlıdır».

Milliyyətcə erməni olan bir sıra şəxslər Osmanlı dövlətində xarici işlər, maliyyə, dənizçilik, xəzinədarlıq, rabitə nazirləri, dövlət müşavirləri kimi yüksək vəzifələrə sahib ola bilmişlər.

1980-ci ildə İstanbulda «Jamanaq» («Zaman») nəşriyyatının çap etdiyi «Türkiyədəki ermənilər haqqında həqiqət» adlı kitabda göstərilir ki, Osmanlı dövlətində ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 baş konsul, 411 yüksək məmur rütbəsinə nail olmuşdular.

1461-ci ildə Sultan Mehmet Fatehin xüsusi fərmanı ilə İstanbulda erməni dini mərkəzi (patriarxlıq) açılmış, XVII əsrdə yenə İstanbulda tarixdə ilk erməni mətbəəsi yaradılmışdır. Türkiyə şəhərlərində və əyalətlərində ermənilər əmin-amanlıq şəraitində yaşamışlar. Bunun müqabilində bəs ermənilər onlara hamilik etmiş Osmanlı dövlətinə necə münasibət göstərmişdir?

Tarixin təcrübəsi göstərir ki, erməni rəhbərliyi Osmanlı dövləti güclü olduğu zaman ona «sadiq təbəə» xidməti göstərmiş, bu dövlət daxili və xarici amillər üzündən zəiflədikdə isə həmişə xəyanət etmiş, arxadan xəncər sancmağa çalışmışlar.

Beləliklə, Osmanlı imperatorluğunda digər etnik azlıqlar və qeyri-müsəlmanlar kimi, ermənilər də həmişə bərabər və sərbəst yaşamışlar. Ermənilər iddia edildiyi kimi, soyqırıma uğrayan bir topluluq deyil, dövlətdə nüfuzlu yerlər, vəzifələr tutmuş bir qrup olmuşdular. Bununla əlaqədar aşağıdaki siyahı xüsusi maraq doğurur.

***(Material Osmanlı türkcəsindən olduğu kimi verilir.)***

**1. Aqop Gircikyan -** Osmanlı imperatorluğunun ilk elçisi (Paris) Reşid Paşanın müşaviri. Osmanlı imperatorluğunun Parisdəki Elçiliyinin Maslahatgüzarı (1834).

**2. Krikor Aqaton -** Osmanlı PTT Ümumi Müdiri (1864) Hariciye Vəkalətində görəvli (1848-1850).

**3. Sahak Abro -** Hariciye Vekaləti Ümumi Katibi (1850).

**4. Sebuh Laz Minas -** Paris Türk Elçiliyində Katib (1863).

**5. Krikor Odyan -** Hariciye Mühakemat Müdiri (1870).

**6. Serkis Efendi -** Hariciyede Baş Sır Katibi (1870-1871).

7. **Ovakim K.Resiyan -** İstanbul Vize Kasabasının Mahkeme Reisi (1879), Sakız Adası İhzari Mahkeme Reisi (1885),

Rodos Adası İhzari Mahkeme Reisi (1887).

**8. Artin Dadyan Paşa -** Hariciye (1880).

**9. Diran Aleksan Bey -** Belçikada Türk Sefiri (1862) RTT Müfettişi.

**10. Yetvart Zöhrab Efendi -** Londra Sefıri (1838-1839).

**11. Hirant Düz Bey -** Mesine (İtaliya) Sefıri (1900-1907).

**12. Hovsep Misakyan Efendi -** La Hayede Elçi (1900-1907).

**13. Sarkis Balyan -** Karadağda və İtaliyada Türk Konsolsu (1900).

**14. Azaryan Manuk Efendi -** Hariciye Müsteşarı.

**15. Kapriyel Noradunkyan -** Qazi Ahmet Muhtar Paşa Kabinesinde Hariciye Naziri (1912).

**16. Akop Kazaçyan Paşa -** Maliye Naziri (Hazine-i Hassa Naziri).

**17. Mikail Portukal Paşa -** Maliye Nezareti Müşaviri (1886), Ziraat Bankası Genel Müdürü, Hazine-İ Hassa Naziri (1891).

**18. Sarkiz Ohannes Paşa -** Hariciye Vekaleti Ümumi Katibi (1871), Hazinc-i Hassa Naziri (1897).

**19. Garabet Artin Davud Paşa -** Viyana Sefiri (1856-1857) (Lübnan Valisi (1861)), RTT və Nafia Paşa Nazeretlerinde Nazir (1868).

**20. Krikor Sinapyan -** Nafıa Naziri.

**21. Krikor Ağatan -** RTT Ümumi Müdürü (1864).

**22. Tors Serpos Efendi -** Türkiye Teleqraflar Ümum Sekretarı (1868).

**23. Oskan Mardikyan -** RTT Nezareti Naziri (1913).

**24. Tomas Terziyan -** Mülkiye Hocası.

**25. Nişan Çuğasyan -** Mülkiyye Hocası.

**26. Tavit Çıracıyan, Krikor Zohtab -** İstanbul Mebusları.

# TÜRKİYƏYƏ QARŞI TARİXƏN QƏRBİN SEPARATÇILIQ SİYASƏTİ VƏ BU SİYASƏTİN İDEOLOQLARI HAQQINDA

Osmanlı dövləti zamanında Qərbin hədəfi onun torpaqlarını bölmək və türk millətini bir millət kimi dünya xəritəsindən silmək idi. Lakin bütün cəhdlərinə baxmayaraq türkləri Avropadan çıxara bilməyən iri Qərb dövlətləri Osmanlı dövlətinə hərb meydanlarında qalib gələ bilməyəcəklərini anladıqda bir başqa yola əl atdılar: «Dinləri yıxılmayınca, türkləri savaş meydanlarında yenmək mümkün deyil». Beləliklə, Qərb dövlətlərinin təxribatları nəticəsində bəzi türk ziyalıları inanclarından üz döndərərək heyranlıqla üzlərini Qərbə çevirdilər. Həmçinin onlar türk torpaqlarında yaşayan digər qrupları, hətta «dini» və «etnik» amillərdən istifadə edib, türkləri də dövlətə qarşı qaldıraraq özbaşınalıq və fitnəkarlığa sövq etmişlər.

**Ermənilər türklərə qarşı mübarizədə hər zaman böyük dövlətlərin dəstəyindən istifadə ediblər.**

Osmanlı imperiyası XIX əsrdən etibarən idarəetmə, ordu, iqtisadi və siyasi baxımdan zəifləməyə başladığı üçün dövrün böyük dövlətləri imperiyanın ərazilərini parçalayaraq aralarında bölüşmək yarışına girmişdilər. Bu yarışda digər dövlətlər öz xeyirləri naminə hər cür qeyri-əxlaqi və qeyri-insani hərəkətlərdən belə çəkinməmişlər. Qərb dövlətlərinin Osmanlı dövlətinə qarşı məkrli niyyətlərinə dair rumın diplomatı T.G.Dcuvara «Türkiyəni parçalamaq üçün 100 plan» əsərini yazaraq onu 1914-cü ildə Parisdə kitab şəklində nəşr etdirmişdir.

1920-ci ilin sonuna qədər davam edən bu paylaşma yarışında Osmanlı imperiyasının tərkibində olan azlıqlar bu və ya digər şəkildə böyük dövlətlər tərəfindən bir alət kimi istifadə edilmişdir. Milli azlıqlar amili hər zaman böyük dövlətlərin Türkiyəni bölüşməkdə istifadə etdikləri vasitə olmuşdur. Azlıqlar da böyük dövlətlərin onlardan məqsədyönlü istifadəsini bilərək və ya bilməyərək Osmanlı imperiyasından ayrılmaq üçün bütün imkanlarını səfərbər etmişlər. Bu da əvvəla iqtisadi, siyasi və ordu sahəsində qruplaşmalarına gətirib çıxarırdı.

Bu mülahizə aşağıdakı bəzi tarixi faktlarla özünü doğruldur:

Osmanlı imperiyasının parçalanmasını gerçəkləşdirmək üçün fəaliyyət göstərən bütün azlıqların terror qruplaşmalarının işini analiz etdikdə onların bəzi ortaq xüsusiyyətlər daşıdıqlarını görmək mümkündür:

- Böyük dövlətlərin bir və ya bir neçəsinin köməyi və dəstəyinin təmini; Monarqada, ikincisi Monarqadan 2 km uzaqlıqda yerləşən Doqquzevlər deyilən yerin qarşısındakı ağaclıq bölgədə, digəri isə Lefkoşenin şimal-qərbində fəaliyyət göstərirdilər.

Düşərgə yerinin müəyyənləşməsindən sonra heyətin sürətlə tamamlanması başlandı. Dörd ayrı istiqamətdə 50-yə qədər çadır quruldu. Daha sonra da 52 çadır əlavə edilərək, çadırların sayı 102-yə çatdırıldı. Hətta ermənilərin dini etiqadını təmin etmək üçün bu bölgədə iki kilsə də inşa edildi. O cümlədən, düşərgə üçün həbsxana da tikildi. Bütün bu işlər Çapt.E.H.D. Nikollas idarəçiliyindəki The Rayel Engineer (Planlama və İnşaat Birliyi) tərəfindən görüldü.

Fransa hərbçilərinin təhriki ilə Kipr adasındakı erməni hərbi düşərgələrinin qurulması qərara alındığı zaman düşərgənin də maliyyə yardımı fransız hökuməti tərəfindən verildi. Bu, planlaşdırılmış kompaniya şəklində davam edirdi. Xüsusilə kompaniyanın başladılmasında Anadoludan Kipr adasına qaçan erməni liderləri olan Strak, Kirkor, Karabet və Artindən yararlanırdılar. Bunların qurduğu erməni yardım komitəsinin cəhdləri də Yunanıstanın Larnaka konsulu Mr.N.Vatibella, Fransanın Larnakadakı konsulluğunun vəkili Mons Marçel Marqaret ilə ABŞ-ın Lefkoşa-Skouriotissa konsulluğunun agentlik rəhbəri Mr. George Vilsonun dəstəyini də əldə etdilər. Ayrıca bu komitənin rəhbərləri pul toplamaq məqsədilə Qərbə, xüsusən ABŞ-a getməyə səy göstərirdilər. Guya insan haqlarını müdafiə məqsədlərilə göndərilən bu pullar Urfada, Maraşda, Antepdə və Adanada minlərcə günahsız insanın qətlə yetirilməsində istifadə edilərkən, erməni havadarı sanki buna göz yumdular.

Ermənilərə yardım kompaniyasında iştirak edən bəzi qurumları və şəxsləri aşağıdakı kimi sadalamaq mümkündür:

- Amerikalı Rokfeller;
- Boston Beynəlxalq Erməniləri Müdafiə Komitəsi;
- ABŞ Erməni Yardım Komitəsi;
- London Erməni Cəmiyyəti tərkibindəki Amerika Protestant Kişilər Federal Məclis Təmsilçiliyi;
- Kipr Rum İttihad-Birlik klubunun Misir Müdafiəyi Milliyə Komitəsi;
- Kipr Yüksək Komissar Yardım Fondu (20%);
- Lefkoşa x: Theççoçraides Firması;

**Erməni əsgərlərinin türklərə qarşı fəaliyyəti.**

Erməni quldurları 1917-ci ildə Fələstində general Allenbinin başçılıq etdiyi müttəfiq qoşunları tərkibində Osmanlı Türkiyəsinə qarşı vuruşublar; Fransız ordusu tərkibində cənub-Şərqi Anadolunun işğalında iştirak ediblər. Əməliyyatlar zamanı ermənilər tərəfindən türklər yaşayan 1369 yaşayış məntəqəsi dağıdılıb. l920-ci üdə Türkiyəyə qarşı hücuma keçən Fransa qoşunları ölkənin Çukurova əyalətini erməniləşdirmək məqsədi ilə rəhbər vəzifələri ermənilərə tapşırmışdılar.Həmçinin, ermənilərin Qərb dövlətləri lehinə casusluq fəaliyyətləri də məlumdur. Kiprdə koalisiya qüvvələri rəhbərlikdə ikən Fransanın səyi nəticəsində erməni əsgər düşərgələrinin yaradılmasına qarşı nəinki yerli türklər, həmçinin, ingilislər də çıxırdı. Bu vəziyyət fransız və ingilis rəhbərliyi arasında müəyyən mübahisələrə səbəb oldu. Trinko yunan kəndinin ermənilər tərəfindən qarət edilməsi və bir ingilis əsgərinin öldürülməsi bu mübahisələri daha da şiddətləndirdi. İngilis qoşun rəhbərləri adada bütün hakimiyyətin onlara aid olduqlarını bildirərək fransız və erməni silahlı qüvvələrinin fəaliyyətini qadağan etdilər.[8]

---

[8] Elnur Paşa – Əfsanələrə söykənən ideologiya.- «Yeni Azərbaycan», 08.10.2002, N2 190 (1418).

Qərb ölkələri Osmanlı dövlətinin torpaqlarını Birinci Dünya müharibəsinin axırlarında bölüşdürmüşlər. Lakin türk xalqı azadlıq hərbində istiqlaliyyətini təmin etmiş, imperialistləri torpağından qovmuşdur. Buna baxmayaraq Qərbin hədəfi səngiməmişdir. 1972-ci ildə Türkiyə Böyük Millət Məclisinin gizli yığıncağında: «Başda Sovet İttifaqı olmaqla Qərb ölkələri də, müsəlman ölkələrinə soxulmaq və mənəvi zənginlikləri yıxmaq məqsədilə iki yüz min yüksək imkanlı şəxsləri hazırladıqları» vurğulanmışdır.

**Türkiyə Cümhuriyyətindən əvvəl və cümhuriyyət zamanı baş verən antitürk üsyan, qiyam və çıxışlarda Qərb ölkələrinin barmağı olmuşdur.**

Qərb dövlətləri və Rusiya Osmanlı İmperiyasını parçalamaq üçün XIX əsrin əvvəllərindən etibarən müxtəlif planlar cızır, həmin planları həyata keçirmək üçün yollar axtarırlar. Osmanlı hökumətinin daxili işlərinə müdaxilə etmək üçün ən tutarlı vasitə kimi Türkiyədə yaşayan xristian azlıqlarının mənafeyinin «müdafiəsi» məsələsi qabardıldı. İmperiya ərazisində aysorlar, yunanlar, xristian ərəblər yaşasalar da, erməni azlığı daha çox diqqəti çəkirdi. Bu, onların xarakterindən-satqınlığından, şəraitə uyğun olaraq din və məzhəblərini dəyişmək xislətindən irəli gəlirdi.

**Anadoluya yeridilmiş xristian missionerləri ermənilərin bu xüsusiyyətlərindən istifadə edərək,** onları himayə etmək adı altında Osmanlı hökumətinə qarşı silahlı mübarizəyə hazırlayırdılar. Qriqorian məzhəbli erməniləri fransızlar katolik, ruslar pravoslav, ingilislər isə protestant kilsəsinin himayəsinə girməyə çağırırdılar. Kim daha çox pul buraxırdısa, ermənilər də həmin istiqamətə meyllənirdilər. Amerikalı missionerlər isə erməniləri protestant xristiana çevirmək üçün daha çox vəsait buraxır, məktəblər açır, millətçilik ideyalarını daha geniş şəkildə təbliğ edirdilər. XIX əsrin sonlarından etibarən missionerlər protestantlığı qəbul etmiş erməni gənclərinin Amerikada təhsil almaları və ticarətlə məşğul olmaları üçün xüsusi şərait yaradırdılar. ABŞ-da antitürk kompaniyası ilə məşğul olan erməni koloniyası beləcə yaradılmışdı.

1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra «Erməni məsələsi»nin gündəliyə gəlməsi və Şərqi Anadoluda ermənilərə muxtariyyət verilməsi barədə Berlin müqaviləsinin imzalanmasından sonra erməni silahlı dəstələrinin təşkil edilməsi, onların üsyana hazırlanması üçün Rusiya və Avropa dövlətləri gərgin səy göstərirdilər. «Daşnaqsütyun» və «Hnçak» partiyaları da Anadoluda gizli silahlı dəstələr təşkil edirdilər.

XIX əsrin sonlarından etibarən Anadoluda bir-birinin ardınca baş qaldıran erməni üsyanları xarici ölkələr tərəfindən qızışdırılır, ermənilər silahla və pulla təchiz edilirdilər. Belə bir şəraitdə ermənilərin Anadoluda müstəqil dövlət yaratmaq niyyətləri ilə Türkiyəni parçalamaq istəyən böyük dövlətlərin səyləri üst-üstə düşürdü. Türkiyədə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin başçılarına göstəriş verilmişdi ki, türklərin «qaniçən», «cəllad» obrazının yaradılması üçün bütün mümkün vasitələrdən istifadə etsinlər. Erməni üsyanlarını alovlandırmaq və türkləri əks tədbirlər görməyə vadar etmək məqsədilə kütləvi qırğınlar törədilməsi də həmin planın tərkib hissəsi idi.

Birinci Dünya müharibəsinin başlanması və Türkiyənin bu müharibəyə təhrik edilməsi onu parçalamaq istəyən dövlətlərin əlinə gözəl fürsət vermişdi. Ermənilər həm Avropada, həm də Rusiyada türklərə qarşı vuruşmaq üçün səfərbər edilirdilər. Erməni mənbələrinin etiraf etdiyinə görə, təkcə Qafqaz cəbhəsində 250 mindən artıq erməni rus ordusunun tərkibində vuruşurdu. Rusların irəliləməsindən istifadə edən ermənilər Şərqi Anadolunun hər yerində türklərə qarşı kütləvi qırğınlar törədirdilər. Xarici mətbuat isə hər yerdə «məzlum xristian ermənilər»in kütləvi surətdə məhv edilməsi barədə uydurma məqalələr dərc edirdi.

**«Erməni soyqırımı»nın həyata vəsiqə almasında o dövrdə Türkiyədə fəaliyyət göstərən diplomatların və xristian missionerlərinin müstəsna «xidmətləri» olmuşdur.** «Erməni soyqırımı» (hərçənd ki, «soyqırım» (yaxud «genosid») beynəlxalq hüquq termini kimi 1944-cü ildən işlənir. Hitler rejiminin yəhudilərə qarşı törətdiyi kütləvi qırğınlar soyqırım adlandırılmışdır) kimi bu gün bəşəriyyətə təqdim olunan «erməni qırğınları» ideyasının xaç atası 1913-1916-cı illərdə ABŞ-ın Türkiyədə səfiri olmuş Henri Morqentau (1856-1946) sayılır. Osmanlı İmperiyasının parçalanmasında maraqlı olan ABŞ-ın prezidenti Vudro Vilson H.Morqentaunu səfir təyin edərkən demişdi: «Tezliklə ondan əsər-əlamət qalmayacaq ki, onu Türkiyə adlandırmaq mümkün olsun». İstanbula gələn kimi, H.Morqentau erməni liderləri və komitəçiləri ilə əlaqə qurur, onları silahlı mübarizə aparmağa şirnikləndirir. O, erməni komitəçilərindən Arsak Şmavonyanı özünün birinci köməkçisi və tərcüməçisi, Hakop Andonyanı isə katib təyin etmişdi. H.Morqentau ABŞ-ın Türkiyədəki konsulluqlarının, xristian missionerlərinin, erməni komitələrinin uydurduqları yalanları və dərc etdikləri böhtanların bir nüsxəsini Vaşinqtona göndərirdi. Səfir yalan məlumatları ilə ABŞ-ı müharibəyə cəlb etmək məqsədi güdürdü. ABŞ-a qayıtdıqdan sonra o, həmin uydurma sənədlər əsasında «Səfir Morqentaunun xatirələri» kitabını dərc etdirir. Həmin kitabda o, 600 mindən 1 milyonadək ermənininin məhv edildiyini iddia etmişdir.

«Erməni soyqırımı»nın ikinci xaç atası İohann Lepsius sayılır. Alman pasportlu İ.Lepsius missioner kimi Şərqi Anadoluda gəzib dolaşmış, 1896-cı ildə «Ermənistan və Avropa» kitabını dərc etdirmişdir. O, 1914-cü ildə Berlində «Alman-Erməni Cəmiyyəti»ni yaratmışdır. Cəmiyyətin məqsədi Şərqi Anadoluda Almaniyanın təsirini artırmaqdan ibarət olmuşdur. İ.Lepsius 1916-cı ildə «Türkiyədəki erməni xalqı haqqında hesabat» kitabını əlyazma şəklində çap etdirir və missionerlərə göndərir. Onun 1919-cu ildə «Almaniya və Ermənistan» kitabı dərc edilir. İ.Lepsius 1921-ci ildə Berlində Tələt paşanın qətli ilə bağlı keçirilən məhkəmə prosesində «şahid» qismində çıxış etmişdir. İ.Lepsiusun 46 cildlik şəxsi arxivi 1998-ci ildə İrəvana gətirilib və hazırda «Soyqırım Muzeyi»ndə nümayiş etdirilir. Həmin muzeydə İ.Lepsiusun xatirəsinə xüsusi guşə düzəldilmişdir.

Uydurma "erməni soyqırımı"nın müəlliflərindən biri də ingilis Ceyms Braysdır (1838-1922). İxtisasca hüquqşünas olan C.Brays Lordlar Palatasının üzvü və İngilis-Erməni Cəmiyyətinin sədri olmuşdur. O, 1876-cı ildə Qafqaza səyahət etmiş, 1877-ci ildə Londonda «Transqafqaz və Ararat» kitabını dərc etdirmişdir. 1916-cı ildə isə yenə orada 626 səhifəlik «Osmanlı İmperiyasında ermənilərə münasibət» kitabını «sənədlər toplusu» kimi dərc etdirmişdir. Kitaba xristian missionerlərinin, xristian dövlətlərinin diplomatik nümayəndələrinin uydurduqları «kütləvi erməni qırğınları» barədə saxta sənədlər daxil edilmişdir.

Armin Teofil Veqner (1886-1978) də uydurma «erməni soyqırımının» həyata vəsiqə almasında xüsusi rol oynamışdır. Alman publisisti, şair və fotoqrafı kimi tanınan A.Veqner 1915-1916-cı illərdə Mesopotamiyada sanitar zabiti kimi xidmət etmişdir. O, Türkiyədə erməni qırğınlarının şahidi olduğunu iddia etmişdir. Ermənilərin türklərə qarşı törətdikləri qırğınlara aid fotoları da «erməni soyqırımı» kimi qələmə vermişdir. O, çəkdiyi şəkillərin diapozitivlərini nümayiş etdirərək Almaniyanın böyük şəhərlərində «mühazirələr» oxumuşdur. Onun «Qayıtmayan yollar», «Armeniada», «Erməni anaları» oçerkləri çap olunmuşdur. A.Veqner Tələt paşanın qatili S.Teyleryanın məhkəməsində müdafiəçi kimi çıxış etmiş və məhkəmənin kitab halında dərc edilən stenoqramına ön söz yazmışdır. O, 1927 və 1967-ci illərdə Ermənistanda olmuşdur. Onun adına İrəvanda küçə vardır. «Soyqırım muzeyi»ndə A.Veqnerin qəbrindən götürülmüş torpaq nümayiş etdirilir.

Yalançı «Erməni soyqırımı»na rəvac verən müəlliflərdən biri də avstriyalı Frans Verfeldir (1890-1945). O, erməni katoliklərinin təsiri altında olmuşdur. Onun 1934-cü ildə saxta sənədlər əsasında yazdığı **«Musa dağında 40 gün»** romanı bir çox dillərə tərcümə edilmişdir. 1999-cu ildə həmin kitabı Hakan Sarakul adlı erməni 4 min nüsxə ilə İstanbulda türk dilində dərc etdirmişdir. 2000-ci ildə isə tərcüməçinin iştirakı ilə İrəvanda həmin kitabın təqdimat mərasimi keçirilmişdir.

«Musa dağı» yaradıcı fantaziyanın məhsulu olan bir bədii əsər olsa da ermənilər onu dünyaya gerçək və olmuş hadisəni təsvir edən kitab kimi təqdim edirlər. Musa dağı Adanada bir yaşayış məskənidir. Burada yaşayan ermənilər üsyan edərək dövlətə tabe olmaqdan boyun qaçırmış və 5 minə qədər silahlı fitnəkar Musa dağında toplanmışdılar. Avstriya yazıçısı Frans Verfelin «Musa dağında 40 gün» romanında təsvir edilənlər heç də tarixdə baş vermiş hadisələrin sənədli xronologiyasının əks etdirilməsi deyilir.

Musa dağında heç bir qanlı hadisə olmamışdır və fransızlar bu bölgəni tərk edərkən əli qanlı üsyançı ermənilər onlara qoşularaq gəmilərlə Misirə köç etmişlər. Bütün tarixi əsərlərdə burada elə bir ciddi toqquşmanın olmadığı göstərilir. Bu əsər yazılarkən Avropa Hitler zülmünün, nasistlərin tapdağının altında idi. «Musa dağında 40 gün» romanın müəllifi yəhudi idi. İşğal altında olan Avstriyada yaşayırdı və o bu əsərində hitlerçilərin zülmünü açıq yaza bilmədiyindən Musa dağını və ordakı «hadisələri» simvolik şəkildə təsvir etməkdən başqa çarə tapmamışdı.

Əsərdə göstərilən Gənc Türklər, Ənvər və Tələt Paşa simvolik adlar idi. Təcavüzə məruz qalmış yəhudilər isə erməni kimi təqdim edilmişdi və Avropada Hitler tərəfindən aparılan yəhudi soyqırımına diqqəti çəkmək üçün o bu metoddan istifadə etmişdi. Sonradan müəllif özü də boynuna almışdır ki, hadisələri «Şərqə keçirməsi» və bu «soyqırımı» türk xalqının adı ilə bağlaması onun ən böyük xətası olmuşdur.

Təbii ki, bu gecikmiş və artıq heç kimə gərək olmayan bu etiraflar erməniləri tarixi saxtalaşdırmaqdan çəkindirməmiş və onlar «Musa dağı olayları» ilə bağlı təxribatçı təbliğatları genişlənmişdir. İndi ayrı-ayrı ölkə parlamentlərinə təqdim edilən sənədlərin içərisinə «Musa dağında 40 gün» romanından ayrı-ayrı parçalar da tarixi fakt kimi təqdim edilir. Başabəla «müəllifin» tövbəsi heç kimin yadına düşmür. Və bəzi ölkələrin parlamentləri də bu saxtakarlığı araşdırmadan ona qiymət verirlər, «Musa dağında 40 gün» romanın müəllifinin etiraf etdiyi xətaları bu ölkələrin qanunverici orqanları da təkrar edirlər.

Ermənilərin «soyqırım» iddiaları içərisində yer alan bir rəsm əsəri də vardır. Bu quru başların rəsm edildiyi yağlı boya ilə çəkilmiş tablodur. Ermənilər bu tablonu türklərin Şərqi Anadoluda törətdiyi «soyqırıma» aid fakt və sənəd kimi təqdim edirlər. Halbuki, bu əsəri rus rəssamı Vasili Vereşşagin 1871-1872-ci illlərdə dediyimiz kimi, yağlı boya ilə çəkmişdir. Özü də rəssam onu iştirak etdiyi 1871-ci il rus-alman hərbində müharibə dəhşətlərindən təsirlənərək yaratmış və ona ad da vermişdir: «Müharibənin dəhşətləri». Hazırda həmin əsər Moskvada Tretyakov muzeyində sərgilənməkdədir. Göründüyü kimi rus rəssamının bu əsərinin 1915-ci il hadisələri ilə heç bir əlaqəsi ola bilməz. Amma ermənilər bu əsəri də «soyqırım» dövrünə aid sayır və utanmaz-utanmaz onu sənəd kimi təqdim edirlər. Daşnaqstyun partiyasının qəzetlərindən olan «Hayrenik»in ilk dəfə dərc etdiyi bu əsər sonrakı illərdə digər erməni və ermənipərəst mətbuat və kitablarda öz əksini tapmışdır. «Hayrenik»in bilərəkdən onu təbliğat məqsədilə dərc etməsi hətta bəzi xarici ölkə mətbuatını da çaşdırmış və onlarda bu əsəri «erməni genosidinin bir faktı» kimi qəbul etmişlər.

Diqqəti çəkən odur ki, vaxtilə «erməni soyqırımı» ideyasına «xaç atalığı» edən xristian müəlliflərinin tör-töküntüləri bu gün də erməni lobbisinin diqqət mərkəzindədir. Məsələn, H.Morqentaunun nəvəsi-üçüncü Henri Morqentau bu yaxınlarda Kembric Universitetində çıxış edərək Türkiyəni Almaniyadan nümunə götürməyə (yəhudilərin soyqırımını tanımağa işarədir) çağırmışdır. İ.Lepsiusun və A.Veqnerin törəmələri də tez-tez İrəvanda «Soyqırım muzeyi»nə baş çəkirlər.[9]

Bu gün də Türkiyə və türk cümhuriyyətlərində Qərbli missionerlər və vəzifəli şəxslər münaqişələr qızışdırmaqla gəzməkdədirlər. Bugünkü Qərb oyunlarına canlı bir misal göstərmək lazımdırsa, Türkiyəni bölmək üçün Qərbin muzdlu köləsi olan PKK və onun terror aktlarının icrasına rəhbərlik edən, «APO» ləqəbi ilə tanınan quldur başçısı, əslən erməni olan Akop Artinyandır (Abdulla Öcalan). PKK quldurları və Türkiyəyə xaricdən gətirilən erməni quldurları ilə dövlətə qarşı terror aksiyaları təşkil edir, dinc əhaliyə divan tutur, qətillər törədərək türk millətinin birlik və bütövlüyünü Qərb hesabına parçalamaq üzrə Qərbdən idarə olunurlar.

Qərb dövlətləri tarixən, ələlxüsüs, XIX əsr və XX əsrin I rübü boyu Osmanlı İmperiyasında ermənilərə hərtərəfli dəstək verib, onlardan separatçı və terrorçu dəstələr hazırlamışlar. XX əsrin 70-ci illərindən başlayaraq bu missiyanı kürdlər vasitəsilə həyata keçirirlər.

Qərbin bu qədər xəyanətinə qarşı türklərin Qərbə olan münasibəti sadəcə ədalət və dostluq istiqamətində olmuşdur.

Osmanlı hökuməti idarəsi altındakı əhalinin bütün qruplarına bərabər münasibət göstərmişdir, xristianlar da bu gün öz ölkələrində görmədikləri münasibəti, hörməti o hakimiyyətdə görmüşdür. Osmanlı tabeliyində olan müsəlman ölkələri, Osmanlıların qiymətini ancaq bu gün çox yaxşı anladıqlarını etiraf etməkdədirlər. Osmanlı dövlətini davam etdirən Türkiyə Cümhuriyyəti Qərbə hər zaman dost və müttəfiq olmuşdur.

[9] Nazim Mustafa. «Erməni soyqırımı»nın ideya müəllifləri kimlərdir?- «Xalq qəzeti», 24.04.2002, № 92 (24056).

Məsələn, Qərbin dəstəklədiyi Cənubu Koreyanın müdafiəsi üçün bir ordu bölüyü yola salan Türkiyə, ABŞ-dan sonra on çox əsgər göndərən ölkə idi. Türk ordu bölüyü Koreyada qohrəmancasına döyüşmüş və bir Amerika ekspedisiya korpusunu məhv olmaqdan xilas etmişdir.

Körfəz savaşında Türkiyə yenə də qərbin sadiq müttəfiqi olmuş, ancaq onlar Türkiyəni danışıqlar masasına dəvət etməmişlər. Ayrıca Körfəz savaşı səbəbilə Türkiyə milyardlarla dollar zərər çəkmişdir.

Bir çox siyasətçilər öz müşahidələrindən belə qənaətə gəlirlər ki, bəzi Qərb dövlətləri «can yanğısından» əlaməti olaraq ermənləri və kürdləri dəstəkləyərək onları Türkiyə Respublikasına qarşı separatçılıq hərəkatlarına vadar edirlər. Bu heç də həmin xalqlara Qərbin «can yanğısı»ndan deyildir. Bu, Qərbi Avropa dövlətlərinin-Fransanın, İngiltərənin, Almaniyanın, İtaliyanın və sairələrinin köhnə, mənfur rəqabət siyasətlərinin müasirləşmiş formasıdır. Bu o rəqabətdir ki, Qərb dövlətləri bəşəriyyətin boğazına iki dünya müharibəsi bağlaya bilmişdir. Bu müharibələrin bəşəriyyətə vurduğu yaraların göynərtisi hələ də insanların qəlbindən silinməyib.

İkinci Dünya müharibəsindən sonra Qərb dövlətlərinin yeni rəqibləri-ictimai formasiya quruluşu cəhətdən rəqib və kütləvi qırğın silahlarına malik olan Sovet İttifaqı, Çin Xalq Respublikası peyda oldu. Bu baxımdan Qərb üçün əlverişli coğrafi və geosiyasi əhəmiyyət kəsb edən Türkiyə Respublikası yada düşdü. Sovet İttifaqının səhv xarici siyasəti ucbatından Türkiyə məcburən Qərbə yaxınlaşdı.

Sonradan SSRİ və sosializm sistemi dağıldıqdan sonra böyük rəqib aradan götürüldü və soyuq müharibə sovuşdu. Nəzərlər yeni rəqiblərə yönəldi. Bu rəqibləri siyasi və iqtisadi üsullarla sıradan çıxarmaq üçün köhnə «Şərq məsələsi» deyilən məsələyə əl atıldı. Həmin siyasətin ilk qurbanı Orta Şərq ölkələri oldu və bunun məntiqi nəticəsi olan İraq-İran müharibəsi, İraq-ABŞ bloku müharibələri oldu. İndi növbə Türkiyə Respublikasınındır. Artıq Türkiyə NATO üçün əlverişli olmaya da bilər. Rəqibləri onu zəiflətmək və parçalamaqda maraqlıdırlar. Ona görə müasir Türkiyə sələfi Osmanlı imperiyası ünvanında təqsirləndirilir... Guya Osmanlı imperiyası dövründə-1915-1922-ci illərdə imperiyanın ərazisində yaşayan ermənilərə soyqırımı həyata keçirilmişdir.

**Qərb insan hüquqlarının müdafiəsi pərdəsi altında Türkiyə ərazisində kürd, Azərbaycan ərazisində isə erməni separatçılığı və terrorçuluğunu faktiki şəkildə himayə edir.** Qərbin ikili standartlı mövqeyi daha bir dünyəvi müsəlman dövləti olan Türkiyəyə münasibətdə özünü sərgiləyir. PKK-nın 30 mindən artıq türkü öldürməsi, onları dəstəkləyən qüvvələrin nəinki Yaxın Şərq ölkələrində, həmçinin Avropa və Rusiyada törəyib artması, daha sonra ermənilərin qondarma genosid məsələsinin bəzi Qərb dövlətləri tərəfindən dəstəklənməsi, Türkiyənin Avropa Birliyinə daxil olmasının əngəllənməsi demokratik və dünyəvi inkişaf yolunu seçmiş Türkiyəyə tendensiyalı münasibətin bariz təzahürüdür.[10]

Hazırkı dövrdə Qərb dövlətləri nədənsə öz parlamentlərində uydurma «erməni soyqırımı»nı əlüstü tanımağa başlayıblar. Bu, nədən irəli gəlmişdir?

Qərbin müttəfiqi olan Türkiyə regionda sürətlə inkişaf etməkdədir. Qərbin fikrincə, bu inkişaf digər türk dövlətlərini - Azərbaycanı, Qazaxıstanı, Özbəkistanı, Türkmənistanı və Qırğızıstanı özünə cəlb edib, himayəçiliyini artıra bilər və onlar Türkiyə ilə daha geniş inteqrasiya proseslərinə qoşula bilərlər.

Bir sözlə, bəzi Qərb dövlətlərinin məqsədi Türkiyənin və türk dünyasının inkişafının qarşısını almaq üçün Türkiyəyə «erməni soyqırımı» müqabilində müəyyən iqtisadi, siyasi və mənəvi sanksiyalar qoymaqdır. Odur ki, indi də bəhanə kimi qondarma «erməni soyqırımı» mifindən istifadə olunur.

Köhnə «Şərq məsələsi» siyasətinə yenidən rəvac verən Qərb dövlətləri bütün Asiya və Afrika qitələrində hakim xalqa qarşı hər hansı kiçik etnik çıxışı dəstəkləməyə hazırdırlar.

Bu baxımdan Fransa dövləti daha irəli gedir. Belə ki, xaricdə Azərbaycana qarşı qatı müxalifət olan mərkəzlərdən biri Fransadakı erməni icmasıdır. Təsadüfi deyildi ki, «akademik» A.Aqanbekyanın «Dağlıq Qarabağ dərdi» ilk dəfə burada açılmışdır. L.Ter-Petrosyan Moskva həbsxanasından buraxılandan sonra dörd ay Fransada «müalicə» olunmuşdur. Fransa xüsusi tikinti firmasının 36 yaşlı nümayəndəsi Ayrapetyan elan etmişdir: «Levon Tcr-Petrosyan bizim çarımızdır».

Parisin meri Jak Şirak (İndi Fransa Respublikasının prezidenti) 1990-cı il sentyabrın 27-də L.Ter-Petrosyana göndərdiyi təbrikdə yazmışdır: «Erməni milli məsələsi naminə cəsur mübarizə sizin qələbənizlə başa çatdı. Bu məsələyə dərin düşüncə ilə yanaşıram». Fransanın Klamaran şəhərinin vitse-prezidenti, tez-tez Ermənistanda səfərdə olan K.Keğyan isə elan etmişdir ki, «Fransa ictimaiyyətinin hüsn-rəğbəti Dağlıq Qarabağın erməni əhalisi tərəfindədir».

1986-cı ildə Fransa milli məclisinin 50 deputatının tələbi ilə «erməni məsələsi»ni öyrənən qrup təşkil edilmişdir. Bu qrupun təmsilçisi Fransa milli məclisinin deputatları R.Ruke və Fr.Roşblaun olmuşdur. Məqsəd 1915-ci il «genosid» tarixini, Qarabağ məsələlərini öyrənmək, həmçinin Fransa erməni icması ilə qarşılıqlı əlaqədə digər erməni hipnozunu həyata keçirmək idi.

**Lakin ermənilərin saxtakarlığına «yox» deyən bir çox Asiya və Avropa ölkələri də vardır.** 2001-ci il martın 13-də İsveçrə parlamenti yunan əsilli deputat Cozef Ziyadisin Türkiyədə ermənilərin «soyqırımı»na məruz qalması haqqında ölkə parlamentinə təklif etdiyi qanun layihəsi rədd etdi.

İsveçrə xarici işlər naziri C.Deiss ermənilərin saxtakarlığına işarə edərək: «...87 il əvvəl olduğu iddia edilən və əsli bilinməyən hadisəyə görə Türkiyə ilə əlaqələrimizi poza bilmərik».

Almaniya prezidenti Y.Ray da erməni fitnəkarlığının Almaniyada isə keçməyəcəyini bəyan edib. Türkiyənin «Hürriyyət» qəzetinin yazdığı məlumata görə prezident Y.Ray Almaniyadakı Erməni Mərkəzi Şurası başda olmaqla bir sıra təşkilatların uydurma «erməni soyqırımı»nın Bundestaqda qəbulu üçün ondan dəstək almaq xahişlərini rədd edib. Və qərarın qəbul edilməsi üçün canfəşanlıq edən T.Hofmanın görüş tələbini qulaq ardına vurub.[11]

---

[10] Xalid Niyazov. Qlobal siyasət, ikili standartlar.-«Azərbaycan», 16.11.2001, N2 262 (2975).

[11] «Vətən Səsi» qəzeti 1990, s. 4-8.

Həmçinin erməni saxtakarlığına qarşı növbəti bir dövlət də Asiyanın Yaxın Şərq bölgəsində İsrail dövləti oldu. Erməni təbliğat hay-küyçüləri ümid edirdi ki, həqiqi soyqırımına məruz qalmış yəhudilər onların qondarma «erməni soyqırımı»nın tanınmasına rəvac verəcəklər. Ancaq ermənilər gözlənilməz cavab və təkziblərlə qarşılaşdılar.

Belə ki, İsrailin Ermənistandakı səfiri xanım Rivka Koenin saxta erməni soyqırımına dair bəyanatı Ermənistanda ciddi narazılıq yaratdı. Diplomat «Xolokost»la qondarma «erməni soyqırımı»nın fərqləndiyini bildirdi. O qeyd etmişdir ki, Xolokost bir xalqın tam məhvinə yönəldilmiş aksiyadır, «erməni soyqırımı»nın isə hələ sübuta ehtiyacı olduğundan tarixçilərin işidir. O demişdir: «Xolokost - yeganə haldır, belə ki, daim planlaşdırılırdı və bütün millətin məhvinə yönəlmişdi. Hazırkı mərhələdə nəyisə «Xolokost»la müqayisə etməyə dəyməz».

Həmçinin 2001-ci ilin son günlərində «Yerevan» mehmanxanasında brifinq keçirən İsrailin Gürcüstan və Ermənistandakı səfirliyinin ikinci katibi Harri Kleyman bildirmişdir ki, onun dövləti erməni xalqının keçirdiyi iztirabları anlayır. «Bununla bərabər hesab edirik ki, hazırkı mərhələdə məsələnin araşdırılmasına «nə baş verib? nə vaxt? və nə zaman?» suallarına dəqiq cavab vermək üçün tarixçilər araşdırmalara başlamalıdır. Məncə, bu gün həmin məsələni siyasətlə qarışdırmamaq gərəkdir» deyə o bəyan etmişdir. Bu isə Ermənistan ictimaiyyəti və KİV arasında geniş əks-səda doğurub və səfirə qarşı əks-təbliğat kampaniyasına başlamışlar.

İsrailin xarici işlər naziri Simon Peresin təkrar xarakterli «Faciə ilə tarixçilər məşğul olmalıdır» bəyanatı bir daha erməniləri şok vəziyyətə salmışdır. Ermənistanın «Azq» internet səhifəsi isə özünün iftira-şantaj görüşlərinə sadiq qalaraq səfir Rivke Koeno açıq məktub yazmışdır.

Məktubda deyilir: «Bununla siz nəinki Böyük Qırğının, həm də onu tanıyan 14 ölkənin parlamentini təhqir etdiniz... Hətta Xolokostla müqayisə aparmağa çağırdınız...» deyə yəhudilərin ağrılı həssas nöqtələrini qıcıqlandıraraq: Yerusəlimin erməni patriarxı arxiyepiskop Torgom Manukyan soyqırımın 86 illiyinə həsr olunmuş 24 aprel 2001-ci il matəm mərasimində deyib: «Məni tez-tez Xolokostun istisna təşkil etdiyini vurğulayan yəhudilər ziyarət edirlər... İsrail XİN başçısı və sizin fikrinizcə, bu məsələni tarixçilərmi müzakirə etməlidirlər? Ancaq bağışlayın, hansı tarixçilər?...»

«Merets» partiyasının sədri və keçmiş təhsil naziri Yosi Sariq 2000-ci ildə məktəb proqramlarına erməni soyqırımını əlavə etməyi irəli sürərkən Türkiyənin İsraildəki səfirliyi böyük hay-küy qaldırdı... Onda da Simon Peresin məşhur sözləri səsləndi: «bu parlamentin deyil, tarixçilərin işidir». Məktubda daha sonra deyilir ki, Xolokost nəticəsində yəhudilər vətən yaratmağa başladıqları halda ermənilər «xəyallarına və ürəklərinə həmişəlik əsir olan müqəddəs Ararat dağının və parçalanmış vətən nostaljisini həkk etdilər». Həmçinin erməni ictimaiyyətinin təsiri ilə Ermənistan XİN İsrail xarici siyasət idarəsinə etiraz notası göndərdi.

Notada Ermənistanın genosid faktının inkarına və ya gizlədilməsinə yönəlmiş bütün cəhdləri qəbul edilməz saydığı vurğulanırdı. «Unet» agentliyinin verdiyi məlumata görə Ermənistan İsraildən açıqlama tələb etmişdi.

Nəhayət, İsrail XİN 2002-ci ilin fevral ayının ikinci ongünlüyünün yarısında Ermənistan xarici siyasət idarəsinə cavab notası göndərdi. Sənəddə deyilir: «Yəhudi və israilli olaraq biz xüsusilə 1915-1916-cı illərdə baş vermiş qətl və bədbəxtçiliklərlə bağlı təəssüfümüzü ifadə edirik. Biz iki tərəfin emosiyalarının şahə qalxmasını başa düşürük və bilirik ki, böyük sayda qurbanlar olub, erməni xalqının keçirdiyi böyük iztirab haqqında xəbərimiz var. Sözügedən mövzunun öyrənilməsi ictimaiyyətin çoxsaylı təbəqələrinin iştirakı ilə geniş miqyaslı müzakirələr, faktlara və şahidlərə söykənən tarixçilərin dialoqunu tələb edir».

Beləliklə, Ermənistan rəhbərliyinin 2002-ci ilin əvvəllərindən etibarən İsrail ilə münasibətlərin yaxşılaşmasına dair yaratdığı yalançı fon bir anda dağıldı və İsrail növbəti dəfə qondarma «soyqırım»ı tanımaqdan imtina edərək sözügedən sənəddə həmin sözdən istifadə etməyib. Halbuki İsrailin cavab notasında erməni tərəfi səfirin hərəkətinə görə üzrxahlığının ifadə olunacağını gözləyirdi. Lakin Tel-Əviv nəinki bunu etdi, hətta mövqelərindən qətiyyən geri çəkilməyəcəyini anlatmağa imkan yaratdı. İsrail XİN-in bəyanatında deyilir: «İsrail ermənilərin faciəsini və erməni xalqının qırğınını tanıyır, ancaq onu soyqırımı ilə müqayisə etmək lazım deyil».

Bir sözlə, İsrail ermənilərə istədiklərini vermədi. Erməni mətbuatı isə İsrailin notasını belə qiymətləndirir: **«İsrail XİN çirkli siyasi oyunlar oynayır». Ancaq heç kəs erməni tərəfinin oynadığı oyunların təmizliyinə qarantiya verə bilməz.**[12]

Avropanın humanist ziyalıları da vardır ki, onlar əsl həqiqəti meydana çıxara bilirlər. Təbliğat sahəsində bizdən-Anadolu və Azərbaycan türklərindən irəli gedən ermənilərin saxta «erməni soyqırımı» mifi dünya ictimaiyyəti tərəfindən işığa tutulur və ermənilərin türklərə və azərbaycanlılara qarşı tarixən aparılan genosid siyasəti aşkarlanır. Artıq bəzi ölkələrdə bu mövzuda nəinki məqalələr, tarixi oçerklər, hətta qalın cildli kitablar belə nəşr olunmaqdadır. İndi Avropanın, Amerikanın bir sıra məşhur yazıçıları, tarixçiləri əsl həqiqətləri qələmə almağa başlayıblar.

**«Erməni soyqırımı» mifinin dərin kökləri vardır.** Onun mahiyyəti aşağıdakından ibarət olmuşdur: Antantanın hazırladığı plana görə Almaniya blokunda iştirak edən dövlətlərdə imkan daxilində dövlət çevrilişi etmək, müharibəni öz xeyrinə qurtarmaq. Bu məqsədin ilk hədəfi Osmanlı imperiyası oldu.

Daşnaqlar Antantadan hərtərəfli yardım alaraq planlaşdırmışdılar ki, 1915-ci il aprel ayının 24-də Anadoluda dövlət çevrilişi edib, yeni yaranmış erməni dövləti elan etsinlər. Türkiyə dövlətinin məxfi idarələri bunu qabaqcadan bildi və İstanbulda yerləşən daşnaq rəhbərləri həmin gün həbs edildi və cəbhə xəttindəki erməni əhalisinin Osmanlı imperiyasının arxa bölgələrinə köçürülməsi irəli sürüldü.

---

[12] Fəxri Kərimli. Ermənilər yəhudilərə qarşı savaşa başladılar. «Yeni Azərbaycan», 14.02.2002, № 29 (1257), Fəxri Kərimli. İsrail «erməni soyqırımını» tanımaqdan imtina etdi. «Yeni Azərbaycan», 20.02.2002, № 33 (1264), R. Qaraxanlı. Ermənilər İsrail səfirini qovmaq istəyirlər. «Yeni Azərbaycan», 16.02.2002, № 31 (1259).

Məğlubiyyətə uğramış ermənilər göz yaşlarını sel kimi axıdaraq türklərin onlara qarşı soyqırımı siyasətini həyata keçirdiklərini indiyə qədər də iddia etməkdədirlər. Baxmayaraq ki, ermənilərin şikayətləri eşidilmişdir, ancaq sübut edilmədiyi üçün rədd edilmişdir. Hələ 1916-cı ildə «erməni soyqırımı» mifi o zaman Türkiyənin əleyhdarlarından sayılan Rusiya və Fransa qanunvericilik orqanlarının müzakirəsinə çıxarılmışdır.

Bir şey də maraqlıdır ki, ermənilərin respublika elan edəcəyindən 2 gün qabaq 1915-ci il aprel ayının 22-də Eçmiədzin katolikosu ABŞ prezidenti Vilsona belə bir teleqram vurmuşdu: «Erməniləri türk fanatizminin özbaşınalığından xilas edin». Elə Osmanlı dövlətini bu teleqram ayıltdı ki, ermənilər nəsə edəcəklər. Lakin küləkli tərsinə əsdi.

24 aprel 1915-ci ildə dövlətə qarşı asi olan erməni irtica təşkilatlarının işinin dayandırılması və onların rəhbərlərinin həbsi olmuşdur. Ermənilər məqsədlərinə-«Böyük Ermənistan» dövləti elan edə bilmədikləri üçün həmin günü-24 aprel il «genosid» günü kimi qeyd edirlər. Tarixi həqiqət göstərir ki, heç bir «soyqırımı» olmamışdır, yalnız əhalinin yerdəyişməsi (təhcir, mühacirət) baş vermişdir. Erməni əhalisinin yerdəyişməsi isə 1915-ci ilin yay və payız aylarında olmuşdur. Bunu arxiv materialları təsdiq edir. Belə ki, erməni silahlı dəstələri tərəfindən türk ordusunun arxadan vurulmasının qarşısını almaq üçün tədbirlər həyata keçirməyə başlayan Osmanlı dövləti 1915-ci il mayın 27-də «Köçürülmə və yerləşdirmə» haqqında qanun verdi. Bu qanuna görə, hökumətə və asayişin təmin edilməsinə qarşı silahlı təcavüz olarsa, ən şiddətli şəkildə cavab verilməli, orduya qarşı təxribata və casusluğa görə o rayonun əhalisi qruplarla və ya kütləvi şəkildə başqa rayonlara köçürülüb yerləşdirilməli idi. Ayrıca təlimatda daşınması mümkün olan malların köçürülənlərin özləriylə götürülməsinə icazə verildiyi göstərilirdi.

Türk dövləti köçürülmə qərarını alarkən üsyana qoşulmayan, asayişi pozmayan əhaliyə qarşı yerlərdə heç bir tədbirə ehtiyac görməmişdi.

Köçürülmə hadisələrinin əsl cavabdehləri, şübhəsiz Rusiya, İngiltərə və Fransadır. Xüsusilə Rusiyanın Osmanlı dövlətindən alınan yerlərdə suveren erməni dövləti yaratmaq vədi, erməni təşkilatçılarını bu məsələyə daha da həvəsləndirmişdi. Ancaq Rusiyanın əsl məqsədi ermənilərdən istifadə edərək özləri üçün cənub dənizlərinə yol açmaq idi. Bunu rus çarı öz bəyanatında açıq qeyd etmişdi. Erməni təşkilatçıları bu həqiqəti anlamadan Rusiyanın vədlərinə kor-koranə inanmışdılar.

## ERMƏNİLƏR XARİCİ YAZARLARIN GÖZÜ İLƏ

**İngilis yazıçısı və publisisti S.F.Dikson-Conson tərəfindən** 1916-cı ildə yazılmış «Ermənilər» kitabında «erməni genosidi» barədə ermənilərin özlərinin uydurduğu əfsanələri puça çıxarılır. O, qeyd edir ki, «Qərb aləmində erməni məsələsini şişirtməyin başqa bir üzü vardır - o da hakimiyyət üçün yeni bir fürsətdir». O əlavə edir ki, ermənilərə üz vermiş ağır çətinliklərin, faciələrə gətirib çıxara biləcəyinin günahı, onları anlamadıqları işə təhrik edənlərin üzərinə düşür.

Odisnom Çarlz Eliot da özünün «Türkiyə Avropada» (1900) kitabında qeyd edir ki, «hətta 1877-1878-ci illər rus-turk müharibəsindən sonrakı illərdə türklər və ermənilər əla dostluq şəraitində yaşayırdılar... Ruslar erməni kilsələrini, məktəblərini və dinini sıxışdırırdılar, türklər isə tamamilə əksinə, bütün işlərdə daha səbrli və daha çox sərbəstlik verən idilər... Onlar türklərin arasında yaşamaqlarından razı idilər... Sərvət tərəzisi də artıq burada (Türkiyədə) tamamilə xristianların xeyrinə idi. Türklər onlara səmimi-qəlbdən inanırdılar».

Ser Edvin Pirz özünün «40 il Konstantinopolda» (1915) kitabında etiraf edir ki, «Ermənistanda və Bolqarıstanda siyasi fitnələrin təhrikçiləri katolik və ya protestant missioner məktəblərinin müdirləri idilər».

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, «...bütün tarixi dövrlərdə «Böyük Ermənistan» ideyasının reallaşdırılması uğrunda mübarizəyə erməni kilsəsi və onun keşiş başçıları rəhbərlik etmişlər. Tarixən erməni kilsəsi erməni siyasətinin aparıcısı olmuş, türklərə və Azərbaycan türklərinə qarşı həyata keçirilmiş soyqırımına təşkilatçılıq etmişdir».

Yazıçı Dikson-Consona görə: «iğtişaşlara səbəb olan ikinci amil 1878-ci il Berlin sazişinə daxil edilmiş bəndlər idi. Bu sazişə görə, onu imzalayan altı tərəf (Almaniya, Avstriya-Macarıstan, İtaliya, Fransa, İngiltərə, Rusiya) nəzarət və daxili işlərə qarışmaq hüququna malik oldular. Bu bəndlər ermənilərdə belə bir fikir oyatdı ki, onların Osmanlı dövlətindən xüsusi imtiyazlar almağa ixtiyarları vardır. Bu da onları asanlıqla erməni məmləkəti və ya erməni dövləti yaratmaq ideyasına təhrik etdi».

Həmçinin Dikson-Conson qeyd edir ki, ermənilər 1876-1878-ci il rus-türk müharibəsi dövründə Tiflisdə gizli sui-qəsd təşkilatını yaradaraq fəaliyyətə başladılar, onun Nyu-Yorkda, Londonda, Parisdə və Vyanada şöbələrini təşkil etdilər.

Yazıçı qeyd edir ki, İngiltərədə erməni tərəfdarı (kömək edən) olan cəmiyyətlər erməni vətəndaşını belə qələmə verirdilər: **«O, fağır, yumşaqtəbiətli, sakit, əkinçi, zəhmət və əziyyətlə qazandığı mal-dövlətini əlindən alan qəddar məmurlar tərəfindən əzilən bir adamdır... Onlar ara-sıra öz xristian ənənələrinə görə şəhid olurlar... Onlar heç kəsə əziyyət verməyən dinc adamlardır».**

Dikson-Conson oxucunun diqqətini başqa bir ingilis mənbəyinə-Çarlz Vilsona cəlb edir. O erməniləri belə təsvir edir: **«Onlar əsas etibarı ilə şərqlidirlər, sadə və ağıllıdırlar, öz işlərində bacarıqlıdırlar, ...qədim əxlaq normaları və adətlərə çox bağlıdırlar,... lakin,... digər tərəfdən, ...acgöz və tamahkardırlar, fitnəkar və araqızışdırandırlar,... heç kəsi bəyənmirlər, ...onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər, intriqa yaratmağı sevirlər...».**

«...Onlar (ermənilər) əvvəlcədən fikirləşmədən və hazırlaşmadan daha düşüncəsiz siyasi cinayətlər törədəcək, heç bir tərəddüd etmədən özlərinə və başqalarına ziyan vuracaq və dağıntı gətirəcəklər; onlar öz qardaşlarını, qiymətli vətəndaşları təsadüfi qazanc, qənimət xatirinə qurban verəcəklər; ən az inandıqları adamlarla belə əyri niyyətlər xatirinə geniş miqyasda əlbir olacaqlar; bir tərəfdən hayıf çıxmaq üçün öz milli problemlərini bir kənara atarlar, özləri üçün təhlükəli anlarda isə vaxtilə onların mənafeyinə xidmət edən adama xəyanət edər və onun haqqında təhqirlər, söyüşlər yağdırır, onu biabır edərlər...

Erməni «inqilabçıları» ədavət etdikləri adamlarla vuruşmaq xatirinə öz dini normalarını(yaşayışlarını) belə tapdalayırlar; Konstantinopoldakı (İstanbul) erməni terrorçuları öz həmvətənləri arasında qırğın alovunu yandırmaq məqsədilə bombalar partlatmışdılar».

Mark Sayks deyir ki, **«ermənilərin «qeyri-təbii» adətləri var.** Başqa qüvvətli dövlətləri onlara kömək etməyə qane etmək üçün özlərini təhlükəyə məruz qoyurlar. Məndə olan əsaslı dəlillər belə qənaətə gəlməyə imkan verir ki, bu bədbəxtlər türkləri cinayətkar kimi qələmə vermək və Amerikanın (Türkiyəyə) müharibə elan etməsi ümidi ilə amerikalı missionerləri öldürmək planı qurmuşdular».

1896-cı il Malaya hadisələrinə işarə edən yazıçı göstərir ki, «...bu əclaf köpəklər fransız rahibləri monastırdan qaçarkən 200 yardlıq məsafədən onları atəşə tutublar ki, avropalılardan birinin öldürülməsi güclü dövlətləri bu işə qarışmağa vadar etsin. Onlar haqqında olan yüksək fikirlərim tamamilə yox olub getdi».

Dikson-Conson davam edir: «1876-cı ildə Asiyada (Kiçik Asiyada) ümumi üsyan qaldırmaq cəhdi boşa çıxan «inqilabçılar» səfirləri müdaxiləyə sövq etmək ümidi ilə İstanbulda bir-birinin ardınca daha təhlükəli planlar qurdular. **Onlar tapança və qumbaralarla silahlanaraq Osmanlı bankına hücum etdilər və on iki mühafizəçini öldürdülər, avropalı işçiləri girov götürdülər** və binanı partlatmaqla hədələdilər. Xarici səfirlər Babi-Alidən sui-qəsdçilərin salamat qalmasına zəmanət ala bildilər. Eyni zamanda Böyük Pera küçəsinə də qumbaralar atıldı və İstanbulun bu boş küçəsindəki evlərin daşında özlərinə mövqe tutmuş sui-qəsdçilər küçədən keçən adamlara da atəş açdılar». və s.

1896-cı ildə İstanbula «Nyu-York Hərald» qəzetinin müxbiri kimi gəlmiş jurnalist Sidney Veytman yazır ki, o küçə vuruşmaları zamanı ermənilərin qumbaralarından və güllələrindən yaralanmış 40-a qədər əsgərin yatdığı xəstəxanaya da gedib. Həmin gün polis Pera küçəsindəki bir mənzildə çoxlu qumbara və partladıcı maddələr tapmışdı. Deyilənlərə görə, onları bura ruslarla gizli razılaşma vasitəsilə gətiriblərmiş.

Dikson-Conson göstərir ki, «...erməni tərəfdarları» 1915-ci ildə **ölənlərin sayını şişirtmək və dəfələrlə təkrar etmək yolu ilə** ictimaiyyəti qorxuya sala bildilər. Məlumdur ki, onlar qədim bir Şərq məsəlinə uyğun hərəkət edirdilər: **«Yalanı bir günlüyə burax, onu dərk etməyə yüz il lazım gələcək».** Artıq Dikson-Consonun dedikləri o müdrik sözlər müasir dövrdə öz əksini tapır. Belə ki, ABŞ-ın Arkanzas ştatındakı eyni adlı şəhərdə yaşayan və təqaüddə olan prokuror və yazıçı Samuyel Vimsdir. Qəzetdə dərc edilmiş S.Vimsin Aksion dərgisinin yazarı Cəlil Sağıra verdiyi müsahibədən aydın olur ki, adı çəkilən yazıçı erməni lobbisinin qondarma soyqırımı ila əlaqədar beynəlxalq aləmdə dəstəklənməsini iki amillə əlaqələndirir. Bunlardan birincisi pulla tanınmış şəxslərin ələ alınması, ikincisi isə xristianlıq kartıdır.

Qeyd edilir ki, S.Vims ermənilərin qondarma soyqırımı ilə əlaqədar ortaya atdıqları məsələni və bununla bağlı əsl həqiqəti öyrənmək üçün 4 il müddətində müxtəlif ölkələrin arxivlərində gecə-gündüz bilmədən tədqiqat apararaq, tarixdə heç bir erməni soyqırımının olmaması, əksinə, türklərin ermənilərin vəhşiliklərinin qurbanına çevrilməsi, bütün bu işlərdə ermənilərin yalançı və hiyləgər olması qənaətinə gəlib.

Onun yazdığı **«Ermənistan: Böyük yalan və Xristian terrorist dövlətinin tapmacası»** adlı kitabda ermənilərin iç üzü sənədli materiallarla ifşa edilir. İstanbula gələn Vims deyib ki, Avropa və ABŞ erməni məkrinin nə olduğunu hələ başa düşmür, anlamır. Vims xüsusi vurğulayıb ki, xristian təəssübkeşliyinin soyqırımının yalan olduğunu anlamaq istəyən Qərbin gözünü örtməsinə baxmayaraq, haqq və ədalət öz yerini tapacaq. Bundan əlavə, yazar Türkiyə üçün hələ də naməlum olan bəzi faktlardan danışıb.

Təqaüddə olan prokuror: «sizi birdən-birə tarixi tədqiq etməyə və ermənilərin soyqırımı barəsində qaldırdıqları hay-küyün səbəbini öyrənməyə və bu barədə kitab yazmağa nə vadar etdi?» sualı ilə müraciət edən Cəlil Sağıra cavab olaraq bildirir ki, o, uzun illər boyu hüquq-mühafizə orqanlarında çalışdığından istər siyasi, istər adi, istərsə də cinayət aləmi ilə bağlı söylənilən hər hansı bir fikir barədə yüz dəfə götür-qoy etdikdən sonra qərar qəbul edir. Soyqırımı ilə bağlı kitab yazmağına səbəb də konqres üzvü olan bir dostu ilə söhbəti olub.

Dostu konqresdə müzakirə olunan bir məsələdən danışarkən məlum olub ki, Rusiya Azərbaycana qarşı Ermənistanı təcavüzə təhrik etmək üçün ermənilərə bir milyard dollarlıq silah verib. Vims əlavə edərək deyib: «ABŞ isə öz növbəsində, Ermənistana 1,5 milyard dollar yardım göstərib. Beləliklə, Amerika və Rusiya birləşərək xristian ermənilərini müsəlman Azərbaycana qarşı təcavüzə şirnikləndirdilər. Ona görə də ermənilər Qafqazda təcavüzkarlıqlarını davam etdirmək, güc yolu ilə bölgəni işğal etmək niyyətindən əl çəkmirlər. Dostum konqresmen müzakirəsinə çıxarılanlara inanmır və «biz kiçik bir Ermənistanı dəstəkləməklə nə üçün Türkiyə kimi güclü bir müttəfiqi itirmək kimi axmaq bir siyasət yeritməliyik ki» deyirdi. Axı Türkiyə istədiyi vaxt Ermənistanı bir andaca uda bilər.

Əslində, Rusiya hərbi bazalarının Ermənistanda olmasının da bir məntiqi əsası yoxdur. Mən konqresdə müzakirəyə çıxarılan məsələ ilə bağlı materialları oxuduqdan sonra ermənilərin və erməniləri müdafiə edən konqresmenlərin həqiqəti xristian təəssübkeşilyinə qurban vermələrini dərk etdim. Həm ermənipərəst senatorlar, həm də ermənilər türklərə qarşı xristian kartından məharətlə istifadə ediblər və bu gün də edirlər. Yəni əsl həqiqət xristian təəssübkeşliyinə qurban verilir. Axı, Həzrəti İsa: «Həqiqəti hər şeydən uca tutun, yalana, iftiraya uymayın, böhtan atmayın» deyib. Elə isə biz xristianlar Həzrəti İsaya arxa çevirməməliyik. Belə çıxır ki, günümüzdə qondarma «erməni soyqırımını» ortaya atanlar və onları müdafiə edənlər xristian deyillər. Mən başqa cür düşünə bilmirəm. Ona görə də mən məsələni araşdıraraq erməni soyqırımı barədə həqiqətləri xristian aləminə çatdırmağı qərara aldım və nəticədə bu kitab meydana çıxdı».

«Belə çıxır ki, tarixdə erməni soyqırımı adlı bir şey olmayıb, elə deyilmi?» sualını cavablandıran müsahibin sözlərinə görə, o yalnız faktlara üstünlük veridiyi üçün erməni mənbələrini araşdırdığı zaman məlum olub ki, soyqırımın şişirdilməsində erməni kilsəsinin böyük rolunun nəticəsi olaraq ermənilər türkləri, türklər də erməniləri öldürüblər. Erməni kilsəsi Rusiya xüsusi xidmət orqanları ilə əlaqəyə girərək, Osmanlıya qarşı erməniləri şirnikləndirdi və onları terrorçuluğa, təxribatlara həvəsləndirdi. Osmanlı hökuməti dönə-dönə İstanbuldakı Baş Erməni Patrikliyindən terrorun və qiyamın qarşısını almağı xahiş etdisə də, xeyri olmadı.

«Ermənilərin soyqırımı iddiasına münasibətdə Qərb və ABŞ fərqli mövqelərdən çıxış edirlər. ABŞ erməni lobbisinin təzyiqinə baxmayaraq, soyqırımı tanımaq fikirində olmadığı nümayiş etdirir. Eyni zamanda ABŞ Avropa Birliyi tərəfindən erməni soyqırımının tanınması cəhdlərinə heç bir reaksiya vermir. Sanki, bu işin onlara heç bir dəxli yoxdur».

«Niyə ABŞ Qərbdəki müttəfiqlərinin erməni soyqırımını tanıma istəyinin qarşısını almaq istəmir?» sualına gəldikdə isə Vims bildirib ki, ABŞ-da söylənən «pul, var-dövlət siyasətdə ana südüdür» atalar sözünü nəzərə alaraq deyə bilərəm ki, ermənilər soyqırımını tanıtmaq və ABŞ-lı siyasətçiləri ələ almaq üçün ötən il ABŞ-da 14 milyon dollar xərclədilər. Klinton dönəmində az qala ermənilər soyqırımının rəsmən ABŞ hökuməti tərəfindən tanınmasına nail olacaqdılar. Ötən il erməni soyqırımının tanınması məsələsi son anda baş tutmadı. O, əmin olduğunu bildirdi ki, əgər fransız parlamentində erməni soyqırımının qəbulu ilə bağlı məsələ araşdırılsa, hökmən burada erməni lobbisinin fransız siyasətçilərini və parlament üzvlərini pulla ələ aldıqları üzə çıxacaq.

İrland mənşəli ABŞ tarixçisi **Semyuel Vimsin «Ermənistan: Böyük yalan. Xristian-terrorist dövlətinin tapmacası»** kitabı artıq dünyada əks-səda yaradıb. Kitabda erməni xalqının terrorçu millət, Ermənistanın isə on böyük miqdarda maddi yardımı idxal, terrorçunu isə ixrac edən ölkə olduğu sübut olunur. Kitabda qeyd olunur ki, «müasir erməni terrorizmi iki əsas səbəbə görə inkişaf edir: birincisi, 1890-cı ildən etibarən erməni kilsəsi terrorizmə yardım edir. İkinci səbəbi isə bu ölkədə mövcud olan siyasi quruluşla bağlıdır».

Kitabda qeyd edilir ki, terrorizm «Hnçaq» və «Daşnaqsütyun» partiyalarının proqramı olub. Bu siyasət bu gün də davam edir. Ermənilər xristian kartı ilə alver edir və müsəlman dünyasında ermənilərin terrorçu olduğunu sübut edən heç kəs yoxdur. Semyuel Vims «Turkish Deyli Nyus» qəzetinə müsahibəsində demişdir:

«Mən Ermənistana qarşı cəza tədbirləri görməyən ölkəmin xarici siyasətinə görə xəcalət hissi duyuram». O, bir daha qeyd edir: «ABŞ Dövlət Departamentinin məlumatına görə, Ermənistanda bir dənə də məscid fəaliyyət göstərmir. Ermənilər bu gün qaranlıq orta əsr qanunları ilə yaşayırlar. Ermənistan əhalisinin 95 faizi təmiz qanlı ermənilərdir və bu nasist Almaniyanın irqçi siyasəti ilə müqayisə oluna bilər».

Kitab Ermənistan kimi cırtdan dövlətin eqoist və qeyri-düzgün fəaliyyətini və onların necə xristian dövlətlərindən xarici yardım və maliyyə almaq üçün xristianlıqdan istifadə etdiklərini göstərir. Müəllif ömürlük baptistdir və vergi ödəyicisidir. O Kolumbiya dairəsində Vaşinqton, İngiltərədə London, Fransada Paris, Rusiyada, Moskva və Türkiyədə İstanbul arxivlərində geniş tədqiqat aparıb. Lakin o, erməni arxivlərinə-İrəvanda və Boston şəhərindəki arxivlərinə buraxılmadığını qeyd edir.

O deyir: «Ermənilər nəyi gizlətməyə çalışırlar?»

Müəllif qeyd edir: «Ermənistan iddia edir ki, o 1700 il əvvəl yaradılmış dünyada ilk xristian dövlətidir. Belə bir sual ortaya çıxır: «Ermənistanın həqiqətən xristian ölkə olması hansı həqiqi xristian standartlarına görə yoxlanılır?» Kitabın «Müqəddəs terror» adlandarılmış fəslində tədqiqatın əhəmiyyəti göstərilir. Məhz ilk dəfə bu kitabda erməni Pravoslav kilsəsi adlandırılan erməni Apostol kilsəsi və onun terrorizmi dəstəkləyən dövlətdə lider rolu apardığı qeyd olunur.

Müəllif Ermənistanın həqiqətdən kənar olaraq böyük uğurla müsəlmana qarşı oynadığı dini və etnik karta malik olması və oynamaqda davam etməsi barədə aydın təsəvvür yaradır. Məsələn, 1992-ci ildə Rusiyadan milyard dollar dəyərində hərbi kömək alan Ermənistan qonşusu Azərbaycanda heyrətlə qarşılanan bir hücum gerçəkləşdirərək, tezliklə onun ərazisinin 20 faizini işğal etdi və bir milyondan çox Azərbaycanlını öz evlərindən qovub çıxardı.

Həmin müsəlmanlar bu gün çadır şəhərciklərində yaşayırlar. Əlbəttə ki, belə davranış İsa peyğəmbərin təlimində deyildiyi kimi, «özünüz kimi qonşunuzu da sevin» fikri ilə ziddiyyət təşkil edir. Sübutlar var ki, dövlət konstitusiyasına uyğun olaraq ölkənin rəsmi kilsəsi adını alan erməni kilsəsi terrorçu fəaliyyətlərinin artması və ona dəstək üzrə lider olub və olmaqdadır. ABŞ hökuməti isə Amerika vergi ödəyicisinin pulları hesabına adambaşına düşən yardıma görə dünyada əsas yerlərdən birini tutan bu cırtdan xristian dövlətə 1,4 milyard dollar xarici yardımın göstərilməsini təmin edir. Erməni lobbisi isə ABŞ hökuməti adından Azərbaycanın qeyri-leqal blokada tətbiq etməsini bəyan edir; Azərbaycan günahlandırılır. Çünki azərbaycanlılar ermənilərdən müdafiə olunmaq üçün Azərbaycan əleyhinə istifadə olunacaq hərbi ehtiyatların ölkə ərazisindən daşınması üçün Ermənistana güzəşt etmir. Müəllif deyir: «Məgər yer üzündəki hər hansı bir millət eyni bir hərəkəti etməzdimi? Ancaq ABŞ hökuməti bu xristian lobbiçilərini müdafiə etdi». Samyuel Vims soruşur: «Nə üçün ABŞ Rusiya ilə birləşib Azərbaycana qarşı eyni mövqe tutur?» Yeganə cavab: «Xristian»ın «müsəlman»a qarşı münaqişədə olmasıdır. Xristianlar səlib yürüşləri zamanı bu gün ermənilərə kömək etdikləri kimi haqsız idilər. Müəllif soruşur: «Məgər Amerikanın Rusiya ilə birləşərək «xristian» Ermənistanına tapınan terrorun köməyi ilə qonşusunun torpağını oğurlamağa və bir milyondan çox yoxsul müsəlmanı evlərindən qovub çıxarmağa yardım etməsi müsəlman dünyasına amerikalılara nifrət etmək üçün çox ciddi əsas vermirmi?» Müəllif misallar gətirməklə ermənilərin 1890-cı ildən Erməni İnqilab Federasiyasının əsasının qoyulmasından daha öncə terrorizmdən rəsmi siyasət kimi istifadə etdiklərini sübut edir. Müəllif kitabda göstərir ki, yerli ermənilər Osmanlı ordusunun cəbhə xəttini pozaraq ruslara bu torpaqlara hücum etməyə kömək etdiklərini vurğulayır. 500 ildən çoxdur ki, özlərini osmanlıların dostları kimi göstərən ermənilər gündüz dost, gecə isə terrorçu rolunu oynayırdılar. Yer üzündə hər bir millət məhv olmaq təhlükəsi ilə üz-üzə olarkən eyni şeyi edərdi!

Müəllif ermənilərin Osmanlı tərəfini tərk etməsinə görə bir neçə amerikalı və britaniyalı şahid aşkar edib. Hər bir oxucunun cavab verməsi gərək olacaq sual budur: «Siz kimə inanırsız? Ermənilərin ölkəni tərk etməsini görən Amerika və Böyük Britaniya vəzifəli şəxslərinə, yoxsa ermənilər tərəfindən tərtib olunmuş və geniş yayılmış vəhşi hekayələrə?» Ermənilər hələ də bu hekayələrdən bütün xristian dünyasında azad reklam və mərhəmət qazanmaq üçün istifadə edirlər.

Bu kitabda müəllif ermənilərin iki kitab toplusunu qoruyub saxlaması barəsində sübutlara malik olan erməni tarixçisinin fikirlərinə yer verir. Birinci toplu 1,5 milyonu insanın qətlə yetirilməsi haqqında tərtib etdikləri geniş yayılmış hekayəni dəstəkləmək, digərləri isə elə həmin 1,5 milyonu erməni qaçqını kimi göstərməyə xidmət edir. Bir qrup kitab mərhəmət əldə etmək, digəri isə heç nədən xəbəri olmayan xristianların pullarını toplamaq üçündür. 1,5 milyon erməni

insanının qaçqın düşdüyü təqdirdə elə həmin qədər insanın qətlə yetirildiyini iddia etmək mümkün deyil. Eyni vaxtda həm ölü, həm də diri olmaq olmaz. Bu kitab Ermənistanın bütün tarix boyu ikili surətdə - dostlar və qonşularla iş apardığını təsvir edir və o, bu günə qədər davam etməkdədir. Bu kitab Ermənistanın terrorçu ittiham etdiyi osmanlılara qarşı daha artıq terrorçu fəaliyyət göstərdiyini sübut edir. Ermənilər iddia edirlər ki, onlar «qədim vətənlərini» tələb etmək üçün mübarizə aparırlar. Bu kitab ermənilərin «qədim» vətənlərinə olan tələblərinin 2 min yaşı olduğuna şahidlik edir, ruslar milyonlarla müsəlmanı sıxışdırdılar və öldürdülər, sonra isə «qədim vətəni» ermənilərə verdilər. Ruslar bunu nə üçün etdilər? Hər ikisi - ruslar və ermənilər xristian idilər, müsəlmanlar isə «fərqli» sayılırdılar.

Semyuel Vims damarlarında bir damla olsun erməni, Azərbaycanlı və ya türk qanı daşımır. O, bütün ömrü boyu xristian olub. O, kilsə inancları baxımından çox fəaldır və bu yaxınlarda «Yeddi kəşf kilsəsi» adlanan videolent hazırlayıb.

Semyuel Vims Ermənistanın ABŞ ərazisindəki bütün vətəndaşların təhlükəsizliyini və rifahını təhlükə altına qoyacaq fəaliyyət göstərdiyini açıq-aydın və inandırıcı şəkildə sübut edir. Halbuki ABŞ vətəndaşları Ermənistanı vergilər şəklində ödədikləri dollarla qoruyurlar. Müəllif tövsiyə edir: **«Ermənistan: Böyük yalan, xristian-terrorist dövlətinin tapmacası»** kitabını həqiqəti axtaran və vergi şəklində ödədikləri dollarlarının və missioner kilsəsinin pullarının necə havaya sovrulduğunu bilmək istəyən hər bir amerikalı oxumalıdır».

Müasir dövrdə ermənilər dünyada gedən hadisələrin gedişatından istifadə edərək bu yalançı mifin tanınmasına çalışırlar. Məsələn, bir dövlətdə mifin tanınması üçün ermənilərin göstərdikləri fəaliyyətlərini qeyd etmək yerinə düşər.

«Azad İnform»un verdiyi məlumata görə, Ermənistanın ABŞ-dakı diasporu bədnam mifi Senatın və Konqresin müzakirəsinə çıxarmaq məqsədilə güclü təbliğat kampaniyasına başladılar. Bu işdə onlara senator Radanoviç köməklik göstərirdi. Senator Madlen Olbrayta müraciət etdilərsə də, iş baş tutmadı. Çünki bu aksiya ABŞ və Türkiyə maraqlarına uyğun deyildir. ABŞ Türkiyədəki marağını itirə bilər.

Lakin çox keçmədən ermənilər ABŞ-da yenə son prezident seçkiləri ərəfəsində fəaliyyətə başladılar. Onlar 2000-ci və 2004-cü illər prezident seçkilərində təbliğat aparırdılar ki, öz səslərini o namizədlərə verəcəklər ki, həmin adamlar fəaliyyətlərində «əzabkeş millətin milli maraqlarını da qorumuş olsunlar, «genosidi» tanısınlar və s. Belə bir təbliğatı ermənilər bütün dünya dövlətlərində aparırlar.

Ermənilər özlərinin soyqırımına məruz qaldıqlarını iddia etməklə türklərə və azarbaycanlılara qarşı həyata keçirdikləri genosid siyasətini və etdikləri vəhşilikləri pərdələməyə çalışırlar.

Hətta bəzən belə münaqişələri Qərb dövlətlərinin özləri hazırlayır və onu sonradan beynəlxalq ictimaiyyətin mövzusuna çevirirlər. Hazırda dini zəmində Uzaq Şərq ölkələrinin bir çoxunda-İndoneziyada, Malaziyada, Ficidə baş verən hadisələr də bu mülahizənin doğruluğunu təsdiqləyir.

## TARİXDƏ SOYQIRIM VƏ TERRORUN İLK TƏŞKILATÇILARI VƏ İCRAÇILARI

Bu mənada bəşəriyyətin başı üzərində bir Demokl qılıncı kimi terrorizm xofu vardır. Terrorizmi böyük dövlətlər yaradıb və onu dəstəkləyənlər də var. Bu gün ABŞ bəşəriyyəti açıq şəkildə iki hissəyə bölür: bizimlə olanlar və bizdən olmayanlar. Sual yaranır, nəyə görə ABŞ dünənə qədər Xocalıda baş verən faciəyə göz yumurdu, amma indi iki bina partladığına görə bəşəriyyəti terrorla mübarizəyə çağırır. İndi də Amerika Qarabağdakı ermənilərə yardım edir, onlar bu yardımdan terrorçuluq məqsədinə də xərcləyirlər.

Maraqlı bir vəziyyət yaranıb. Bütün terrorçuları islamla bağlayırlar. Amma başa düşmək olmur ki, ASALA-nın (Ermənistanın gizli erməni Azadlıq ordusu) İslama nə dəxli var? Yaxud Avropadakı terrorçu təşkilatlarının? Terrorçu təşkilatların qarşısında islam sözünün yazılması onun iştirakçılarının deyil, yaradanların ideyasıdır.[13]

Tarixə nəzər salsaq görərik ki, Şərq və Qərb arasında bir sıra qarşıdurmalar, müharibələr və bunun nəticəsində xalqların soyqırımları və deportasiyaları mövcud olmuşdur ki, bunların da əsas səbəbi Qərbin hərbi yürüşləridir. Makedoniyalı İsgəndərdən başlamış bu hərbi yürüşlər Hitlerlə tamamlansa da, onların təzahürləri müasir dövrdə də siyasi, iqtisadi, yeri gələndə hərbi yollarla davam edir.

Bu mülahizəni müasir dövrdə Qərb dövlətlərinin bir çox dövlət xadimləri də etiraf edirlər. Məsələn, bu yaxınlarda İngiltərənin keçmiş baş naziri Tetçer İngiltərənin Avropa İttifaqına üzvlüyünü «siyasi səhv» hesab etmişdir.O, hesab edir ki, Böyük Britaniyanın vahid Avropadan çıxmaq vaxtı gəlib çatıb. «Tayms» qəzeti Tetçerin yeni nəşr edilən «Dövləti İdarə etmək bacarığı» adlı kitabından çıxarışlar verərək yazır ki, Böyük Britaniyanın keçmiş baş naziri hesab edir ki, marksizmdən faşizmə qədər insanlığın bütün problemləri Avropa qitəsində meydana çıxıb və bütün bu problemlərin həlli isə kənardan edilib.

Bundan əlavə Baronessa Tetçer Böyük Britaniyanın Avropa İttifaqı ilə əlaqələrinə yenidən baxmağı təklif edib. Marqaret Tetçer hesab edir ki, Britaniya Avropa ittifaqı ilə ümumi xarici siyasət yeritməkdən, kənd təsərrüfatı və balıqçılığın vahid şəkildə həyata keçirilməsi prinsipindən əl çəkməlidir. «Dəmir ledi» Avropa İttifaqından tam çıxmağın tərəfdarı olmağını irəli çəksə də bu təşkilatla əlaqələrin dəyişdirilməsini təklif edir.[14]

Qərb dövlətləri orta əsrlərdən başlayaraq dünyanın üçdə ikisini müstəmləkəyə çevirmişlər. Amerika qitəsini kəşf edən avropalılar yerli əhalini-hinduları və eskimosları soyqırımına məruz qoydular. Onlar Afrika cəngəlliklərindən əsir götürdükləri zənciləri Amerika plantasiyalarında ölənə qədər işlətdilər. Orta əsrlərdə Avropa dövlətləri xristianları müsəlmanlara qarşı qaldırıb 3 əsr boyu dəfələrlə Səlib yürüşləri keçirdilər.

**Səlib (xaç) yürüşləri:**

I Səlib müharibəsi (1096-1099)

---

[13] Firudin Cəlilov. Ermənilərdə şovinizm hissi uşaq dünyaya göz açandan təbliğ olunur. - «Yeni Azərbaycan», 29.09.2001, № 186 (1165).

[14] Tetçer İngiltərənin Avropa İttifaqına üzvülüyünü «siyasi səhv» hesab edir. - «Yeni Azərbaycan», 19.03.2002, №2 050 (1278).

| | |
|---|---|
| II Səlib müharibəsi | (1147-1149) |
| III Səlib müharibəsi | (1189-1192) |
| IV Səlib müharibəsi | (1202-1204) |
| V Səlib müharibəsi | (1217-1221) |
| VI Səlib müharibəsi | (1228-1229) |
| VII Səlib müharibəsi | (1248-1254) |
| VIII Səlib müharibəsi | (1270) |
| IX Səlib müharibəsi | (1289-1291) |

Sadəcə üstündən yüz illər keçib deyə, bütün bunlar soyqırımları deyilmi? Son dövrə nəzər salaq:

I Dünya müharibəsində 10 milyon, ikincisində isə 50 milyon tələf və 50 milyondan çox şikəst olmuşdusa, II Dünya müharibəsindən sonra dünyada 500-dən yuxarı müxtəlif formalarda lokal müharibələr, hərbi toqquşmalar, konfliktlər olmuşdur. Bu müharibələrdə, toqquşmalarda, hərbi xarakterli konfliktlərdə 250 milyondan yuxarı insan tələf və şikəst olmuşdur. Bu isə ikinci dünya müharibəsində həlak olanlardan 2,5 dəfə çoxdur. Dünya tarixində, ictimai həyatımızın müxtəlif mərhələlərində baş vermiş bu müharibələrin, hərbi kon toqquşmaların əsas səbəbkarı böyük dövlətlərin milli maraqları olmuşdur.

Böyük dövlətlərin ikiüzlü siyasətlərinin ucbatından bir çox xalqlar əziyyət çəkir.

Bu baxımdan ABŞ-ın Azərbaycan xalqına və dövlətinə qarşı apardığı qeyri səmimi siyasəti, göstərdiyi münasibəti öz məzmun və xarakterinə görə ədalətsiz olmuşdur. 1988-2001-ci illərdə Azərbaycan xalqının başına nə bəlalar gəlibsə, dünyada öz xarakterinə və vəhşiliyinə görə fərqlənən ilk Erməni-Azərbaycan müharibəsinin başlanması və onun bu gün də həll olunmaması və ümumiyyətlə, Dağlıq Qarabağ probleminin meydana gəlməsi ikili standart siyasətinin nəticəsidir. Belə ki, Dağlıq Qarabağda ermənilərin vəhşi qəsbkar planlarının ssenarisi ABŞ-da ermənilər tərəfindən hazırlanmış və bu günə qədər də həyata keçirilir.

Ermənistanın qüvvələri Azərbaycan ərazisini işğal etdiyi, onun nəticəsində Azərbaycan millətinə qarşı soyqırım siyasəti yeritdiyi, milyonlarla azərbaycanlıların öz torpaqlarından, ana vətənlərindən qaçqın düşdüyü, Azərbaycanı Ermənistanla, Naxçıvanla, Dağlıq Qarabağla bağlayan dəmiryol xəttinin erməni banditlərinin işğalı altında olduğu, Azərbaycana gələn dəmir yollarının Rusiya tərəfindən kəsilməsi və beləliklə də Azərbaycan Respublikasını çox ağır vəziyyətə salan ümumi blokadaya düşdüyü bir dövrdə ABŞ, Azərbaycan Respublikasının guya Ermənistanı blokadaya aldığını elan edərək, «sülh» bayrağı altında 1992-ci ildə Azərbaycan xalqına xəyanət xarakteri daşıyan qərar qəbul etdi. «Azadlığı dəstəkləmək Aktı» adlanan bu qərarın 907-ci maddəsinə, Azərbaycana kömək etməmək barədə göstəriş əlavə edildi.

Beləliklə, Azərbaycan keçmiş İttifaq respublikaları arasında yeganə respublikadır ki, o «Azadlığı dəstəkləmək Aktı» çərçivəsində nəzərdə tutulmuş humanitar yardımdan məhrum edildi. Bu qərarın məqsədi aydın idi. O, Azərbaycanın müstəqil dövlət kimi məhvinə nail olmaq niyyəti ilə, erməni quldurlarının Qafqaz regionunda təntənəsini təmin etmək məqsədilə qəbul edilmişdir. Sonralar ABŞ həmin əlavənin götürülməsinə dəfələrlə vədlər verdi. Lakin həmin vədlər necə verilmişdirsə, eləcə də qaldı. ABŞ nə bu əlavəni ləğv etdi, o eyni zamanda Dağlıq Qarabağ probleminin həlli barədə verdiyi vədlərə də xəyanət etdi. Nəticədə problem ciddi bir şəkil alaraq bu gün də Azərbaycanı zəlil qoymuşdur.

Bu gün Azərbaycanın 20 faiz torpaqları ermənilərin işğalı altındadır, ABŞ indiyə qədər də Azərbaycan dövlətindən Ermənistanın onun müstəqilliyinə təcavüz etməsi haqqında dəlillər və faktlar tələb edir və belə bir fikir irəli sürür ki, guya Azərbaycanın torpaqlarını erməni daşnaqları işğal etməmişdir və onu blokadaya salmamışdır.

Bunun ardınca ABŞ Azərbaycana qarşı daha yeni bir xəyanət etdi. Erməni diasporunun ABŞ-da olan agenti, konqressmen Porterin vasitəsilə Azərbaycanın müstəqilliyinə çox ciddi bir zərbə vuruldu. Onun təqdim etdiyi qanun layihəsi əsasında ABŞ konqresinin nümayəndələr palatası, Azərbaycanın əleyhinə «Porter əlavəsi» adlanan xəyanət xarakterli yeni bir qərar qəbul etdi. Burada ABŞ hökuməti 2000-ci ildə yeni yaranmış müstəqil dövlətlərə yardım proqramı çərçivəsində Azərbaycanın suverenliyini açıq-açığına tapdayaraq, Dağlıq Qarabağa (DQ) Azərbaycandan asılı olmayaraq bir başa 20 milyon dollar həcmində yardım olunmasını nəzərdə tutmuşdur.

Yenə də ABŞ 2010-cu il büdcəsindən isə DQ-ya 10 milyon dollar yardım olunmasını nəzərdə tutur.

ABŞ-ın Azərbaycana münasibətdə qeyri-səmimiliyi yeni yaranmış müstəqil dövlətlərə, o cümlədən Ermənistana göstərilən yardımın həcmi məsələsində də özünü açıq büruzə verir. Məsələn, əgər bu gün ABŞ-ın Ermənistana yardımı adambaşına 42 dollar düşürsə, Azərbaycana kömək isə 4,025 dollar təşkil edir. Son zamanlar Amerika konqresi düz 6 dəfə Ermənistana Klinton tərəfindən göstərilən köməyi artırmaq üçün səsvermə keçirmişdir.

ABŞ-ın və Qərbin tarixən qeyri-humanist və ikili standartlı siyasətini tənqid edən, hazırda ABŞ-ın təqaüddə olan prokuroru, yazıçı S.Vims demişdir: «Avropalılar ilk növbədə özlərinə baxsınlar, keçmişlərini bir daha nəzərdən keçirsinlər. ABŞ-ın keçmişi nəzərdən keçirməsi vacibdir». ABŞ-ın keçmişinin dəhşət, cəhalət, vəhşilik müstəvisi üzərində qurulduğunu deyən müsahib əlavə edib ki, avropalılar 1492-ci ildə Amerika qitəsinə ayaq basdıqları andan yerli xalqları heyvan kimi qırmağa, məhv etməyə başladılar. Bir əsr ərzində avropalılar Amerikadakı yerli xalqların axırına çıxdılar, yaratdıqları mədəniyyəti, mədəni abidələri vəhşiliklə dağıtdılar.

O dövrdə Avropaya yüzlərlə ton qarət edilmiş qızıl, gümüş göndərilməsi vəhşilik nümunəsi deyildimi? O, yenə təkrar olaraq deyib ki, bu məsələdə müsəlman-xristian kartı var. Əgər Türkiyə kimi Ermənistan da müsəlman olsaydı, bu məsələ ümumiyyətlə gündəmə gətirilməyəcəkdi.

O, Qarabağdakı mövcud vəziyyəti misal gətirərək qeyd edib ki, 1915-ci ildə ermənilərin sürgün olunmasını soyqırım kimi qələmə verən ermənilər bugün 1 milyondan yuxarı azərbaycanlını öz yurd-yuvalarından didərgin salıblar. Xocalıda

tarixdə bərabəri olmayan soyqırım həyata keçiriblər və s. Bütün bunlara baxmayaraq bu gün heç kim ermənilərə heç nə demir. Həzrəti İsa ermənilərin azərbaycan türklərinə etdiyi zülmü görsəydi yəqin ki, ermənilərdən üz döndərərdi.

Məlum problemin necə çözülməsi məsələsinə toxunulduqda isə S.Vims bilidirib ki, amerikalılar və xristianlar ermənilərin yalanlarını dəstəkləməməlidir. Axı məhz xristian olduqları üçün Qərb onlara milyonlarla dollar yardım edir. Xristian dünyasına erməni vəhşətini, ermənilərin yalançı və fırıldaqçı olduqlarını çatdırmaq lazımdır.

Bu gün Türkiyədə Ermənistanda olduğundan çox kilsə var. Əgər türklər qətiyyət göstərib, əsl həqiqəti Qərbə çatdıra bilsələr, xristian-islam qarşıdurmasının qarşısı alına biləcək. Əks halda onlar erməni fırıldağının qurbanına çevriləcəklər. Şəxsən öz fikrinə gəlincə əlavə edib ki, o, xristian kimi həqiqəti Qərbə çatdırmaq üçün əlindən gələni edib. Amma indi son söz türklərindir.

Hazırda demokratiyadan, azadlıqdan, humanizmdən dəm vuran və onlara heç də müasir baxımdan əməl etməyən Fransa dövləti öz dövrünün hərbi texnikasından və əlverişli coğrafi şəraitindən istifadə edərək böyük bir tarixi dövrdə (500 ildən artıq) xalqları söyqırımına məruz qoymuşdur. Bu dəhşət ən çox Napoleonun işğalçı hakimiyyəti dövründə (1804-1815) geniş vüsət almışdı. Napoleon deyirdi: «Kim İstanbula yiyələnərsə, o da dünyaya sahib olacaq».

Napoleon bütün Avropanı, Şimali Afrikanı və s. torpaqları işğal etdi, xalqların tarixi və mədəniyyət abidələrini məhv etdi, bir çox şəhər və kəndləri xarabaya çevirdi. Tarix xatırladır: «Fransızlar 1804-cü ildə Şimali Afrikada Yaffanı tam yandırdılar və əsir düşmüş 4000 türk əsgərini Fransaya aparmaq çətinliyi ilə əlaqədar Afrika səhrasında güllələdilər, quzğunların yeminə çevirdilər; 1812-ci ildə Moskvanı tam yandırdılar; məğlubiyyətlərini qabaqcadan görən Fransız ordusu geri çəkilərkən Rusiyada və Şərqi Avropada keçdikləri kənd və şəhərləri talayıb, viran edirdilər; onlar 1830-cu ildə müharibə elan etmədən Türkiyə imperiyasının torpaqlarını -Tunisi, Əlcəzairi, Mərakeşi heç bir əsası və səbəbi olmadan yenidən işğal etdilər. Həmin ərazilərdə qırğın salıb əhalini fransızlaşdırmaq siyasətinə keçdilər.

Birinci Dünya müharibəsinin gedişində Fransa, o cümlədən İtaliya və İngilis hərbi birləşmələri Osmanlı imperiyasının cənub regionlarını və Cənubu Anadolunun sahil kənd və şəhərlərini işğal etdilər. Ağuşuna erməni qızları alan fransız generalları, o cümlədən italyan və ingilis hərbi birləşmələri erməniləri yenidən silahlandırıb 2 milyondan artıq əliyalın türk mülki əhalisini-uşaqları, qadınları və qocaları qətlə yetirdilər. Türk xalqının azadlıq mübarizəsinə tab gətirə bilməyən Antanta dövlətləri geri çəkilməli oldular. Bu dəfə qənimətləri 100 minə yaxın erməni oldu ki, onun 60 minini Fransaya apardılar. Bu yükü fransızların aparmasının səbəbi də o olmuşdur ki, türkləri soyqırımına məruz qoyan erməniləri «xilas» etsinlər.

Fransa dövləti soyqırımını İkinci Dünya müharibəsindən sonrakı dövrlərdə də davam etdirdi. Ərazi cəhətdən dünyanın 10-cu dövləti olan Əlcəzairi 1962-ci ilə qədər diskriminasiya altında saxladı. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonra Fransa dövləti Əlcəzairdə xalq azadlıq hərəkatmı boğdu, 1 milyon əlcəzairlini qətlə yetirdi. Həmçinin, II Dünya müharibəsindən sonra Vyetnam xalqının boğazına 30 illik müharibəni kimin bağladığı da bəşəriyyətə məlumdur.

Yeri gəlmişkən, Fransa dövləti ermənilərin dostudur. O, demək olar ki, ermənilərin beynəlxalq aləmdə ikinci dövlətidir, uzun müddət ermənilər orada dövlətin daxili və xarici siyasətinə sirayət etmişlər. İndi də edirlər. Təsadüfi deyildir ki, həmin dövlətin parlamenti ermənilərin qondarma «erməni soyqırımı»nın tanınması haqqında qanunu birinci oxunuşdan qəbul etdi və bu keçən əsrin 50-60-cı illərində 1 milyon Əlcəzair xalqının Fransa cəlladları tərəfindən məhv edilməsi faktını unudaraq özünün erməni qarışığı və arvadı erməni olan Fransa prezidenti Jak Şirak tərəfindən dərhal və tərəddüd edilmədən imzalanırdı. Oxucum, belə bir şəraitdə Fransa dövlətinin səmimiliyinə və ədalətliyinə inanmaq olarmı?

Vatikan və İtaliyanın ermənilərə «canıyananlıq» edib qondarma «erməni soyqırımı»nı tanıması bəşəriyyətə taun xəstəliyini yaymaq kimi qiymətləndirilə bilər. Belə ki, Vatikan dolayı yolla xristian-müsəlman qarşıdurması təşkil edir. Məlumdur ki, katolik xristianlar mənəvi qidalarının ilk başlanğıcını xristian dininin ocağı olan Vatikandan alır. Vatikanın hər bir tövsiyə və təklifləri xristianlar üçün qanundur. Vatikan bu qondarma «erməni soyqırımı» mifini tanımaqla xristianlarda düşmən müsəlman obrazı yaradır. Bununla da nəinki xristian dininin qanunları çərçivəsində, bəşər mədəniyyətinin və sivilizasiyasının şahı və Allah-taalanın buyurduğu kəlamları əks etdirən 4 kitabın - «Tövrat»ın, «Zəbur»un, «İncil»in və «Quran»nın hökmlərinə, tövsiyə və təkliflərinə asi çıxır.

İtaliya dövlətinə gəldikdə, o özünün Şimali və Mərkəzi Afrikada apardıqları soyqırımları yada salıb təəssüflənməlidir. 1935-ci ildə Həbəşistanda namaz qılan insanları tanklarla məhv etdiyini bəşəriyyət unutmayıb.

İngiltərə Süveyş kanalının çəkilişində 120 min qulu-ərəbi işlədərək öldürdü və Birinci Dünya müharibəsində - Misirdə su quyularını zəhərlədi. Bu sulardan içən dinc əhali və Osmanlı əsgərləri zəhərlənib qırıldı.

1915-ci ildə fransız-alman cəbhəsində almanlar tərəfindən kimyəvi silahın tətbiqi sayəsində hər iki tərəfdən 0,5 milyon əsgər və dinc sakinlərin qırılması, 1945-ci ildə təslim məqamında olan Yaponiyaya atom bombasının salınması nəticəsində 0,5 milyon əhalinin məhvi müharibə qanunları kimi qiymətləndirilirsə, Osmanlı dövlətinin ona asi çıxan öz əhalisini köçürməsi də müharibə qanunudur.

Fransa və digər Qərb dövlətlərinin soyqırımı siyasətlərini onların ərazilərində əhalinin yekcinsliyi sübut edir. Axı, onlar 500-600 il müstəmləkə sahibi olmuşlar, ancaq əhaliləri yekcinsdir. Onlar bu «nailiyyətə» daxildən başlayaraq kiçik tayfa və xalqları assimilə edib əhalini yekcinsləşdirmişlər, müstəmləkələrdən əhali artımına isə şərait yaratmamışlar.

Əyani bir sübutu qeyd etmək yerinə düşər. Belə ki, Qərb dövlətləri müstəmləkələrindən və digər dövlətlərdən oxuyan tələbələri virusa qarşı «peyvənd» pərdəsi altında cinsi hissiyyatlardan da məhrum edirdilər ki, asiyalılar avropalılarla evlənə bilməsinlər. Bu sətirlərin müəllifi oxuduğu institut müəllimlərindən 4-nün həmin siyasətin qurbanı olduqlarının şahididir.

İkinci Dünya müharibəsinin ən bariz nəticəsi-müstəmləkəçiliyin ləğvi oldusa, Qərb dövlətlərinin üstü tez-tez açılan məkrli siyasətlərini yenidən qurmağa məcbur etdi. Lakin onlar humanizm, demokratiya, azadlıq pərdəsi altında cürbəcür siyasi, hərbi, ictimai təşkilatlar və birliklər yaradaraq öz ambisiyalarını yerinə yetirirlər. Onların bu humanist və demokratiya addımlarından biri «palan içi tökmək»dən ibarətdir. «Palan içi tökməyin» ilk müjdəsi 94 il bundan qabağa getmək oldu.

«Erməni soyqırımı» mifini öz parlamentlərində Qərb dövlətləri (Vatikan, İtaliya, Fransa, Belçika) tanımaqla əsl tarixi saxtalaşdırıb, böhtançılığa bəraət qazandırırlar.

Heç bir etnik xalqa malik olmayan Qərb dövlətləri Şərq ölkələrində azlıqda qalan etnik əhalinin müdafiəçisi kimi çıxış edirlər, çoxluq təşkil edən xalqları suçlayırlar. Ancaq onların qeyri-konstruktiv işləri və fəaliyyətləri köhnə ingilis siyasətini - «parçala ağalıq et» siyasətini xatırladır. Əgər onlar bu siyasəti real həyata keçirmiş olsa idilər, onda 1988-1989-cu illərdə Ermənistandan öz dədə-baba yurdlarından qovulmuş 250 min (hazırda 500 min) azərbaycanlı əhali haqqında da öz sözlərini demiş olardılar.

Qərbin digər siyasətindən biri də «humanistlik» və «beynəlmiləlçilikdir». Bu odur ki, xarici separatçı qüvvələri qaçqın və köçkün kimi qəbul edirlər. Həmin qüvvələrin vasitəsi ilə onların gəldikləri ölkələrdə təxribat və ixtilaflar törədirlər. Bu baxımdan hədəf obyektlərindən biri də Türkiyə Respublikası seçilmişdir. Əgər adı çəkilən Qərb dövlətləri haqqı, ədaləti, insan hüquqlarını qoruyurlarsa, qoy ölülərin yox, hazırda yaşayan canlı insanları-Azərbaycan Respublikasında mövcud olan 1 milyon qaçqın və köçkünlərin hüquqlarını müdafiə etsinlər, azərbaycanlıların ermənilər tərəfindən soyqırımı edildiklərini tanısınlar.

Türk millətini dərindən yaralayan Bosniya-Hərsoqovina və Qarabağ soyqırımları Qərbin gözləri önündə və onun tutarlı köməyi ilə olunmuşdur. Körfəzdə neft üçün döyüşən Qərb dövlətləri, Bosniya-Hersoqovinada və Azərbaycanda da alçaqlıqla tökülən qanlara müşahidəçi kimi qalmışlar. Müsəlman insan qanına, neft qədər qiymət verməmişlər. Qərblilər müsəlmanların qətlinə müşahidəçi olan Qərb, öz haqları üçün lazım gəldikdə bütün dünyanı ayağa qaldırır. Mənbələrin birində deyilir: «Türk milləti olaraq, bu günə qədər Qərb üçün çox fədakarlıqlar etdik, qarşısında isə əxlaqsızlıq, ikiüzlülük və xəyanət gördük. Belə ki, Qərbə heyran olanların bilmələri üçün: Qərbin iç üzü budur!..».[15]

Tsmot Miroğlu (professor). Qərbin iç üzü həqiqət güzgüsündə. - «Türkiyə» qəzeti, 21.06.1993,

Erməni terrorçu təşkilatları ilk olaraq ötən əsrin ortalarından erməni icmala-rının iştirakı və super dövlətlərin dəstəyi ilə yaranıb. Məsələn, ASALA-nın yaran-masında o vaxtkı Rusiya (Sovet İttifaqı) dövlətinin rolu çox böyük olub. Burada məqsəd ondan ibarət olmuşdur ki, terroru dəstəkləyən dövlət terrorun fəaliyyotini öz maraq və monafelərinə xidmət etdirsin. Bu məqsəd Rusiya və Qərb dövlətləri tərəfindən dəfələrlə tətbiq olunub. Hətta XX əsrin 70-80-ci illərində ASALA Türkiyənin Esenboğa hava limanım partlatmışdı. Erməni terroru nəticosində ayrı-ayrı ölkələrdo türk diplomatları ardıcıl şəkildə qətlə yetiriliblor.

Son 20 ildə Azərbaycanda ermənilər 30-dan çox terror aktı törədiblər; 2000 insan həlak olub.

Dünyanın bir saylı terrorçusu hesab edilən Bin Ladeni ABŞ özü hazırlamışdı. O zaman Rusiyaya qarşı terror aktı keçirmək üçün ABŞ Bin Ladeni Əfqanıstana göndərmişdir. Lakin bəzən elə olur ki, terrorçu təşkilatlar həmin dövlətlərin nəzarətindən çıxaraq onların özlərinə qarşı yönəlir. Məsələn, Bin Ladenin fəaliyyəti buna sübutdur.

Qərb dövlətləri bütün terrorçuları İslama bağlayırlar. Məgər ASALA İslam təşkilatıdır? Yaxud Avropa ölkələrindəki terrorçu təşkilatlar?

Ermənilər azərbaycanlılara qarşı hər hansı terror aktı törədəndə ABŞ reaksiya vermədi. Əksinə, 907-ci maddəni işə salaraq terroru dəstəklədi. Rusiya isə həm dəstək verdi, həm də vətəndaşlarından bəziləri terror aksiyalarında iştirak etdi və bəyan etdi ki, dövlət bundan xəbərsizdir. Bundan başqa, PKK-nın Türkiyədə törətdiyi terror aktlarına ABŞ heç zaman reaksiya vermədi. Amma Qərb dövlətləri tərəfindən Türkiyədə ermənilərin 94 il bundan əvvəl bir vilayətdən digər bir vilayətə köçürülməsi genosid kimi qiymətləndirilir və dünya dövlətlərinin parlamentləri tərəfindən tanınır. ABŞ bir tərəfdən terrorçulara maddi yardım (məsələn, Ermənistana və Dağlıq Qarabağa) göstərir, digər tərəfdən antiterror əməliyyatları aparır.

Bu ikili standartlı siyasətdir. Belə ki, ABŞ xristian zəmində terrorçu dövlətə yardım edir, təcavüzə məruz qalmış ölkəyə isə yardım etmək əvəzinə onu sıxışdırır. Məhz bu ikili standartın nəticəsidir ki, amerikalılar bu gün terrorizmin qurbanı olmuşlar. Bildiyimiz kimi PKK da Rusiyanın və Avropa ölkələrinin dəstəyi ilə yaranıb. Qərblilər bu cür terrorçu təşkilatlar yaradıb onlara islamçı damğasını vurmaqla bəşəriyyətdə antiislam ab-havası yaradırlar. Lakin islamçı terrorlar İslama xidmət etmirlər. İslamın özündə terrorizmə qarşı böyük bir nifrət var. İslam humanist bir dindir. O həmişə bütün dinlərə humanist münasibət bəsləyir. Ancaq nə yəhudilikdə, nə də xristianlıqda İslama qarşı belə münasibət yoxdur.

**«Asala» terrorçu təşkilatlar siyahısına daxil edilməyib.**

Federal Təhqiqat Bürosunun hazırladığı sənəddə yanlışlığa yol verilib. ABŞ-ın Əfqanıstanda antiterror əməliyyatı apardığı bir vaxtda Vaşinqtonun dolayı yolla olsa da, «ASALA» və «Haydad» erməni terror təşkilatlarına dəstək verməsi çağdaş zəmanəmiz üçün təəssüf və təəccüb doğurur. «Olaylar» İnformasiya Agentliyinin araşdırmalarına görə, ABŞ-ın dövlət departamentində erməni terrorçularına bu «imtiyazı» verən elə milliyyətcə erməni olanlardır. Uzun müddət ABŞ Mərkəzi Kəşfiyyat İdarəsində çalışmış, hazırda Birləşmiş Ştatların Dövlət Departamentində Kəşfiyyat və Araşdırmalar İdarəsinin rəisi Morton Abramyanın böyük səliqə-səhmanla hazırladığı hesabatda dünyanın 43 terror təşkilatının sırasına «ASALA» və «Haydad» daxil edilməyib. «ASALA»nın əsas məqsədlərinə nəzər salaq:

a) Azərbaycanın dünya bazarına çıxış yollarını nəzarətə götürmək;
b) Yanacaq-enerji mənbələrinin keçid nöqtələrini müəyyənləşdirmək;
c) Neft yataqlarının xəritəsi;
d) Xarici neft şirkətlərinin ərazi dairəsi, təhlükəsizlik planlarının araşdırılması;
e) Neft sahəsində tanınmış ictimai-siyasi xadimlərə qarşı ölüm hökmünün icrası;
f) Neft kəmərlərinin keçid məntəqələrinin öyrənilməsi və həmin keçid məntəqələrinə yaxın ərazilərdə qapalı təlim düşərgələrinin yaradılması.

[15] «Vətən Həsrəti» №13 (14), 2.07.1993.

Bundan başqa qətllərin və partlayışların törədilməsi də «ASALA» və «Haydad»ın əsas qayələrindəndir ki, bu haqda da Azərbaycan və Türkiyənin dövlət arxivlərində kifayət qədər sənədlər mövcuddur. Belə olan təqdirdə ABŞ yenə də, hətta öz milli maraqlarını unudaraq 1967-ci ildən fəaliyyət göstərən «ASALA»nın törətdiyi hərəkətlərə göz yumur.

Lakin ermənilərin beynəlxalq terrorizmlə əlaqəsi bir daha sübuta yetirildi.

Federal Təhqiqat Xidmətinin (FSB) məlumatına görə, 1996-cı ildə 30 çeçen döyüşçüsü Livanın Bəka vadisində xüsusi təlim keçiblər. İlkin mərhələdə döyüşçülər Nəbi Əl-Şit məntəqəsində yerləşdiriliblər (bu məntəqə Livanın Şərqindəki Baalbek şəhərindən 16 kilometr cənubda yerləşir).

Fransa xüsusi xidmət orqanlarının (bu qurumlar bu zona üzrə ixtisaslaşıblar) məlumatına görə, çeçenlər Suriya hərbi kəşfiyyatı ilə sıx əlaqəsi olan iki terrorçu təşkilatın düşərgəsində xüsusi təlim keçiblər. Diqqət! Fransa xüsusi xidmət orqanları hər iki terror təşkilatının adını açıqladı. Hizbullah və erməni «ASALA»sı. Bundan başqa, həmin mənbə əlavə edir ki, həmin dəstələrə Suriya hərbi kəşfiyyatının Livan Departamentinin rəhbəri Qazi Knaan xüsusi nəzarət edib. Bir daha diqqət! Agentliyin məlumatında deyilir: «Qeyd edək ki, Suriya hərbi kəşfiyyatı Qafqazda apardığı məxfi və təxribatçılıq fəaliyyətində «Ermənistanın azadlığı uğrunda Erməni Məxfi Ordusu» (ASALA)-nın imkan və əlaqələrindən istifadə edib».

Beləliklə, erməni terrorizminin beynəlxalq terrorizmin tərkib hissəsi olduğunu təsdiq edən daha bir fakt bəlli oldu. Erməni tərəfin utanmadan təkzib etdiyi faktı, dünyanın əksər dövlətlərinin xüsusi xidmət orqanları bir daha təsdiq edirlər. Biz hələ Ermənistan prezidentinin hakimiyyətini terrorla qorunduğunu demirik.

Həmçinin Qərb dövlətləri dini zəmində ikili standartlı siyasətdən əl çəkmir. Məsələn, ABŞ-ın Azərbaycan siyasəti barədə yeritdiyi xətt təhlil və tənqid edildikdə, deyirlər ki, erməni diasporu ABŞ-da güclüdür. Məgər buna inanmaq olarmı? ABŞ-da yaşayan 800 min erməni 300 milyon əhalisi olan bir dövlətin siyasətinə bu qədər ciddi təsir göstərir? Əgər təsir göstərirsə, bəs ABŞ Konstitusiyası hara baxır? ABŞ Konstitusiyasma görə, prezident Senatın və Konqresin qeyri-humanist qərarına veto qoyub, onu xalqın müzakirəsinə verə bilər.

Digər bir sübut, Fransa parlamenti qondarma «erməni soyqırımı»nı tanıyarkən tələm-tələsik parlamentin qəbul etdiyi qərarı təsdiqləyirdi. Onun xalq içərisində müzakirəsini keçirmədi. Səbatsız Fransa deputatları erməni puluna həris olub saxta iddianı tanıdılar və s.

Bununla yanaşı, Qərb dövlətlərinin təşəbbüsü ilə yaradılmış bir çox beynəlxalq humanist təşkilatlar ATƏT, AŞ, AŞPA, Helsinki İnsan hüquqları təşkilatları və bunlara bənzər digər təşkilatlar, o cümlədən BMT Qərbin marağına xidmət edir. Bu təşkilatların qərarları o zaman yerinə yetirilir ki, bu qərarlar Qərb dövlətlərinin maraqlarına uyğun olsun. Bu mülahizə onunla sübut olunur ki, BMT TŞ Ermənistanın Azərbaycana qarşı təcavüzünü 4 dəfə müzakirə edib qərar çıxarsa da, həmin qərarlar bu günədək kağız üzərində qalıb. Bəs nə üçün BMT-nin TŞ İraq və Yuqoslaviya hadisələri ilə bağlı qəbul etdiyi qərarları dərhal icra etdi?

Bu təşkilatların içərisində ən çox fəaliyyət göstərən ATƏT-dir. ATƏT hiyləgər boşboğazlar, siyasi alverçilər və avanturist beynəlxalq erməni kapitalının biznes mərkəzinin təsiri altına düşmüşdür. ATƏT və onun Minsk Qrupuna həmsədrlik edən Fransa, Rusiya və ABŞ dünya erməni sosialist lobbisinin pullu sifarişi ilə işləyir. Elə 15 il ərzində Azərbaycan və Ermənistan arasında gedən sülh danışıqlarının baş tutmamasının səbəbi də budur. Ona görə ki, ATƏT-in beynəlxalq erməni kapitalı qarşısında çox böyük borcu var.

## AZƏRBAYCANDA ERMƏNİLƏR GENİŞ İMTİYAZLARA MALİK İDİLƏR

**AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ (DQMV)** -1923-cü il iyulun 7-də təşkil edilmişdir. Sahəsi 4,4 min kvadrat kilometr, əhalisi 156 min (1977/ 1 yanvar), 5 rayonu, 2 şəhəri, 5 şəhər tipli qəsəbəsi, 1 fəhlə qəsəbəsi, 220 kənd və qəsəbəsi var (1977,1 yanvar). Mərkəzi Xankəndi şəhəridir.

DQMV Kiçik Qafqazın cənub-şərq hissəsindədir. Relyefi, əsasən, dağlıqdır. Vilayətin şimal hissəsini Murovdağ silsiləsinin (Kiçik Qafqazın ən yüksək zirvəsi Gamış dağı - 3.724 m) cənub yamacları, mərkəzi, qərb və cənub hissəsini Qarabağ silsiləsinin şimal yamacları (Qızqala dağı - 2.843 m, Qırxqız dağı - 2.827 m, Böyük Kirs dağı - 2.725 m), şimal-şərq hissəsini düzənliklər (Qarabağ və Mil düzlərinin qərb kənarı) tutur.

Əhalisi 180 min - 1988: ermənilər (60%), azərbaycanlılar (30%) ruslar və başqaları (10%) yaşayırdı. Əhali orta sıxlıq 1 kvadrat kilometrdə 35,5 nəfərdir (1977, 1 yanvar). Əhalinin 10 %-i hündürlüyü 500 metrə qədər, 86 faizi 500 - 1.500 metr. 3 faizi 1.500 - 2.000 metr, 1 faizi isə 2.000 metrdən çox olan yerlərdə məskunlaşmışdır. Şəhər əhalisi 4 faizdir. Şəhərləri: Xankəndi və Şuşa.

1828-ci ilə qədər Bakı şəhərində heç bir erməni olmadığı halda 1988-ci ildə 170 min qeydiyyatda, 130 min isə qeydiyyatsız erməni vardı. Bütün Respublikada 500 minə qədər erməni yaşayırdı. Bu 500 min erməni Azərbaycanın bütün ticarət, dövlət idarə və müəssisələrinin rəhbər vəzifələrini tutmuşdular. Uzun müddət onlar Azərbaycan KP Mərkəzi Komitəsi və Bakı Komitəsinin katibləri (hətta birinci katiblər), Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi; Ali Soveti; Xalq Komissarları Soveti; Nazirlər Sovetində müavin, şöbə müdirləri, nazir, komitə sədrləri idarə rəhbərləri və başqa mühüm vəzifələrdə işləmişdilər. Onların Azərbaycanda otuzuncu illərdəki apardıqları repressiya vəhşətləri 1905-07-ci, 1918-1920-ci illərdə Azərbaycan xalqının başına gətirdikləri fəlakətlərdən qat-qat artıq idi. Ermənilərin Azərbaycanda ən aşağı vəzifələri katib, İcraiyyə Komitəsi sədri maşınlarını sürmək idi. Məktəb bufetindən tutmuş, «İnturist» restoranlarına qədər, milis idarələrindən tutmuş DTK və ali prokurorluğa qədər vəzifələrin 30 faizini tuturdular və s. Bunlardan 1988-ci ildə böyük vəzifələrdə olmuş ermənilərin siyahısını nəzərdən keçirmək yerinə düşər.

1990-cı ilə qədər Azərbaycanda böyük vəzifələrdə olmuş ermənilər aşağıdakılardır:

1. **A.A.Ayriyan** - Azərbaycan SSR Meşə və Ağac emalı sənayesi naziri;
2. **V.N.Nersesyan** - Bakı şəhər Kirov rayon Partiya Komitəsinin I katibi;

3. **N.V.Qabrielyan -** Azərittifaqın sədr müavini;

4. **A.S.Becanyan-** Azərbaycan SSR Prokurorluğu İstintaq İdarəsinin prokuroru;

5. **S.M.Q.Ohancanyan -** Azərkəndkimya Birliyi sədrinin 1-ci müavini;

6. **B.A.Ayrapetov -** Bakı şəhər İcraiyyə Komitəsinin sədr müavini, Bakı şəhər Plan İdarəsinin sədri;

7. **J.S.Sarkisova -** Bakı şəhər Prokurorluğu Məhkəmələrdə Cinayət İşlərinə Baxılmasına nəzarət şöbəsinin prokuroru;

8. **R.M.Qazaryan -** İslah Əmək Müəssisələrində qanunlara əməl edilməsinə nəzarət şöbəsinin prokuroru.

9. **N.A.Melkumyan -** Azərbaycan SSR Prokurorluğunun baş mühasibi.

10. **L.V.Ohanesyan -** Bakı şəhər Prokurorluğu əlahiddə və ümumi hissənin rəisi;

11. **A.S.Qevorkyan -** Azərbaycan SSR Prokurorluğunun təsərrüfat müdiri;

12. **E.S.Qasparyan -** Nəqliyyat Qanunlarının icrasına nəzarət üzrə prokuror köməkçisi;

13. **E.S.Petrosyan -** Azərbaycan SSR Prokurorluğunun baş inspektoru;

14. **O.V.Parsadanov -** Dövlət Təhlükəsizlik Komitəsi şöbəsinin prokuroru;

15. **A.A.Arzumanyan -** Bakı Təmir Tikinti Trestinin müdiri, Bakı şəhər Sovetinin deputatı;

16. **A.S.Hambarsumov -** Azərbaycan KP Lenin rayon komitəsi bürosunun üzvü, rayon Partiya Komitəsinin yanında partiya komissiyasının sədri;

17. **R.S.Bagiryants -** Xəzərneftqazsənaye Ümumittifaq Sənaye Birliyinin rəisinin müavini, iqtisad elmləri namizədi, SSRİ qaz sənayesi fəxri işçisi;

18. **M.B.Bunyatyan -** SSRİ Sənaye Tikintisi Bankı Azərbaycan Əməliyyat İdarəsinin rəisi;

19. **L.İ.Vartapetyan -** Bakı Su Kəməri İdarəsinin rəisinin 1-ci müavini, Azərbaycan SSR əməkdar mənzil-kommunal təsərrüfatı işçisi;

20. **S.N.Haykazyan -** Bakı Qaz İstehsal İdarəsinin baş mühəndisi;

21. **V.P.Yegizarov -** Lenin rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədrinin müavini;

22. **A.X.Ohanyan -** Bakı Kanalizasiya İdarəsinin baş mühəndisi;

23. **R.V.Səfəryan -** Sosial-Mədəni Obyektlər tikintisi tresti 9 saylı tikinti idarəsi kompleks briqadasının briqadiri, Azərbaycan KP Bakı səhər Komitəsinin üzvü;

24. **N.R.Şahnazaryan -** Nizami rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri.[16]

[16] «Vətən Səsi» qəzeti 30.06.2001, № 2 28 (410), c.3

## ERMƏNİLƏRİN TARİXİ-COĞRAFİ VƏTƏNİ VARMI?
## ERMƏNİLƏR DÖVLƏT QURMUŞLARMI?
## ERMƏNİLƏRİN BƏD ƏMƏLLƏRİ, NİYYƏTLƏRİ VƏ DAXİLİ XİSLƏTİ BARƏDƏ DÜNYANIN TANINMIŞ ADAMLARI AŞAĞIDAKILARI DEMİŞLƏR:

1. a) «Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz.Burada ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe olmalıdır».[17]

b) «Urartu dili və xalqı ilə erməni dili və xalqının heç bir qohumluğu yoxdur. Ermənilər Urartuya eramızdan əvvəl VI əsrdə gəlmişlər. Urartulardan bəhs edən mixi yazılar isə eramızdan əvvəl IX əsrə aiddir. Aydındır ki, bu yazıların ermənilərdən bəhs etdiyini güman edənlər böyük səhvə yol verirlər. Çünki mixi yazılar ermənilərin gəlişindən azı üç əsr əvvəl yazılmışdır və buna görə də onlardan bəhs edə bilməzdi».

c) «Ermənilər Frigiyadan gəlmədirlər. Onlar tədricən Frigiyadan şərqdə yerləşən yüksəkliklərə yiyələnərək, oradan qədim urartuluları sıxışdırmış, onların adına, dininə, dilinə və rəvayətlərinə yiyələnib, özlərininki ilə əvəz etmişlər» (Fransua Lenorman).[18]

Buradan heç də o nəticə çıxarılmamalıdır ki, ermənilər elə güclü imişlər ki, urartuları sıxışdırmışlar. Yox, tarixdən məlumdur ki, e.ə. VII əsrdə Assuriya hökmdarı Sarqon Urartu dövlətini çox ciddi surətdə məğlub edir və hökmdar Russa özünü intihar edərək öldürür. Dağıdılmış bu ölkəyə isə fürsəti əldən verməyən ermənilər sahib olurlar. «Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım» - demişdir atalar. Bu kökəni ermənilər Türkmənçay sülh müqaviləsində də tapdılar. İrəvan və Naxçıvan xanlıqları «Erməni vilayəti adlandırıldı. Yuxarıda deyildiyi kimi, heç bir sosial baza yox idi. Rusiya imperiyası dağıldıqda isə indiki «Ermənistan» yaradıldı.

2. Lenormana görə ermənilər urartulu adına nahaq yiyələnmişlər və keçmiş «Böyük Ermənistan»ı nahaq özlərinin əzəli vətəni sayırlar (Henrix Raulinson).[19]

3. Məhz o mixi yazılar ki, ermənilərin xeyrinə izah edilir, həmin yazılar məşhur Lenorman tərəfindən diqqətlə öyrənilmiş və ermənilərə aid olması qəti rədd edilmişdir.[20]

4. «Həqiqətən, erməni xalqı tarix səhnəsində yalnız eramızdan əvvəl VII əsrdə Urartu dövlətinin süqutundan sonra görünməyə başlamış... və gəlmə xalqdır». («Armyanskaya traqediya 1915 qoda». Baku, 1990. s.15).

5. «Qodim rəvayoto görə İncil cənnoti Ermənistanın ərazisindədir. Başlanğıcını Ermənistandan alan Dəclo və Fərat çayları da Cənnət çaylarıdır»(Xaçatur Abov-yan).[21]

6. T. Svyatoxovski müxbirin sualına cavab olaraq demişdir: «Azərbaycanda yaşayan ermənilər də daxil olmaqla, Zaqafqaziyada yaşayan bütün ermənilər köklü xalq deyil, gəlmədirlər. Onların böyük hissəsi XIX əsrdə İran və Türkiyədən köçürülüblər».

7. «Ulu Şahım,... Beynənnəhreyndən (Mesopotamiyadan-Dəclə və Fərat çayları arasından) Van gölü sahillərinə, oradan da Qafa (Qafqaza) oğuz-türk torpaqlarına 5-5,1 10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə, məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürü yaradırdılar ki,bu da istiqbalda nəsillərimizə başağrısı verəcək...

Bu işləri Ağkilsə (Eçmiədzin) kəndində əyləşən Dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir. Qarışıq nikahlar məni qorxudur, Şahım! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım Vətənin dişarına. Sənin qulun Rəvan xan». («İrəvan əyalətinin icmal dəftəri», 1519, (İrəvan qalabəyisi və Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə məktubundan).[22]

8. «Ermənilər «Erməni yaylası» adlanan sahənin Qərbində yaşayırlar» (yəni müasir Ermənistandan xeyli uzaqda). (Herodotun «Tarix» kitabından).

9. Məşhur akademiklər İ. Orbeli, S. Yeremyan və digər erməni alimlərinin dəqiq elmi araşdırmaları, Qarabağ erməni əhalisinin diş sisteminin analizi göstərmişdir ki, əsl ermənilər bu ərazidə gəlmədirlər. Əvvəlki Qarabağ erməniləri isə albanlardan dönmədirlər. İndi yaxşı məlumdur ki, müasir Ermənistan erməni etnosunun vətəni deyil, burada o, qeyd-şərtsiz gəlmə ünsürdür. Qədim erməni xalqı bizim eradan əvvəl I minilliyin I yarısında yuxarı Fərat çayı vadisində yerləşmişdir. Hələ Herodotun zamanından ermənilər Erməni Yaylası adlanan ərazinin qərb hissəsində məskunlaşmışlar. Ksenofont da Herodotun dediklərini təsdiq edir».(İqrar Aliev).

10. «...Əslində Ermənistanda yaşayan azərbaycanlıların torpağı tarixən onların öz qanuni torpağıdır və onlar bir sahib kimi öz erməni «qonaqlarına» yaxşı münasibət göstərmişlər. Lakin Azərbaycanın Zəngəzuru ermənilərə, Qazax rayonunun bir hissəsi isə Gürcüstana verilmişdir» (Odri L.Altstadt).

11. «Ermənilərin əcdadı Çarox çayı hövzəsindən gəlmişlər.[23]

12. «Ermənilərin əcdadı Balkanlardan gəlmişlər».[24]

---

[17] «Şeypur»-a 25.10.1918, № 4
[18] Çavçavadze İ. Armyanskie uçenie i vopiyuşie kamni. Tiflis, 1902, s.92-98.
[19] Çavçavadze İ. Armyanskie uçenie i vopiyuşie kamni. Tiflis, 1902, s.92-98.
[20] Çavçavadze İ. Armyanskie uçenie i vopiyuşie kamni. Tiflis, 1902, s.92-98.
[21] Azərbaycan Sovet Ensiklopediyası (ASE), VII cild, s.387.
[22] Əmir Quliyev. Ermənilərin tarixi-coğrafi vətəni haradadır? -«Respublika», 25.06.1999.
[23] İstoria derevnoqo mira. M.1979, s.220.
[24] Erməni tarixi, İrəvan, 1971 s.965.

13. Ermənistan Araz çayından çox cənubda - o çayın qolu olan Qaraçayın Qərbində yerləşir və Qafqaza dəxli yoxdur.[25]

14. «Erməni xalqı öz dövlətçiliyindən çox tez-bizim eranın V əsrində məhrum olmuşdur. Həm də Qafqazda yox, Mesopotamiyada». (Yuriy Pompeyev, Qarabağ qan içində, «rusca»).

15. Seleviki imperiyası b.e.ə. 189-cu ildə dağıldıqdan sonra Ermənistan romalıların ixtiyarına keçdi. Orada sərdarlıq edən fars mənşəli qardaşlar - Artaksiyas və Zariardis Roma senatının himayəsinə keçdi.

Bu vaxtdan Ermənistanda Əhəmanilərin sülaləsi müstəqil dövlətlərinin bərpası mübarizəsi başladı. Fars əsilli II Mitridat (b.e.ə. 123-88-ci illər) idarəçiliyi zamanında müvəffəqiyyət qazandı. O bütün Ermənistanı tutdu və Romadan asılı olan erməni knyazı II Artavazdın oğlu Tiqranı girov götürdü.

Tiqran atasının ölümündən sonra (b.e.ə. 95 və ya 94-cü ildə) baş vermiş tarixi məqamdan (İran və Roma müharibələrinin səngiməsindən) istifadə edərək atasının Mitridat tərəfindən tutulmuş torpaqların bir hissəsini qaytardı və orada özünü çar elan etdi (b.e.ə. 95-65-ci illər). Onun hökmdarlığı altında isə müxtəlif xalqlar mövcud idi. Tiqran isə fars əsilli idi Ermənilər adlarına çıxardıqları bu çarlıq 30 il davam etdi. Bundan sonra tarixi-coğrafi ad olan Ermənistan gah İranın, gah da Romanın hökmranlığına keçirildi.

16. «Heç bir zaman Gürcüstanın köklü əhalisi olmayan erməni milləti görün hansı nəticələrə çatmışdır!?» (İ. K. Kanadşev)

17. «Bütün qafqazlılar bilirlər ki, ermənilər burada köklü xalq kimi mövcud olmamış Türkiyə və İran qaçqınları kimi XIX yüzilliyin birinci yarısında görünməyə başlamışlar» (V.L.Veliçko V.Kavkaz: Russkoe delo i mejduplemennıe voprosı,1954, s.80 )

18. «1908-ci ildə Qafqazda yaşayan 1 milyon 300 min ermənidən 1 milyonu 1828-ci ildən sonra İran və Türkiyədən Qafqaza köçürülənlərdir (N.İ.Şavrov).

19. Onlar əlverişsiz siyasi-coğrafi mövqeyi bəhanə gətirir, dünyaya qapı açmaq üçün Qara dənizə can atır, bununla da kifayətlənməyib Voronejə qədər yiyələnmək istəyirlər. (V.L. Veliçko ).

20. Ermənilər Qafqazda və dünyada yaranmış vəziyyəti özlərinin «Böyük Ermənistan» ideyasını həyata keçirmək üçün əlverişli hesab edərək Azərbaycana qarşı yeni-yeni ərazi iddiaları irəli sürməyə başlamış və Azərbaycan torpaqlarında-Naxçıvan, Zəngəzur və Qarabağ qəzalarında etnik təmizləmə və türk-müsəlman soyqırımı siyasəti yeritmişlər ( Dj. K. Makkarti. «Turki i Armeniya»).

21. Əlbəttə, ermənilər Azərbaycan torpaqlarında, hətta indiki Ermənistan Respublikasının torpaqlarında da avtoxton əhali deyillər. X.Hyubşman, Q.Bonfante, E. Benvenist kimi nüfuzlu alimlər, o cümlədən görkəmli erməni alimi, akademik Y. Manandyan belə hesab edirlər ki, ermənilərin ulu babaları və onlara qohum olan frako-frikiya tayfaları hələ e.ə. II minilliyin əvvəllərində Balkan yarımadasında, daha erkən dövrdə isə Qara dənizdən şimala tərəf vilayətlərdə yaşayırdılar.[26]

22. Məhz bu tayfalar, qrupu və başqaları da e.ə. XVIII əsrin ortalarında Kiçik Asiyaya soxulmuşlar. (Dyakonov)

23. Ermənilər Kiçik Asiyada görünəndən sonra onların uzun sürən yerdəyişmələri, müxtəlif tayfalarla qaynayıb qarışması baş verir; e.ə. II minilliyin ortalarından bir qədər sonra və e.ə. I minilliyin ortalarından əvvəl Erməni Yaylası adlanan ərazidə yerləşirlər. Onlar buraya sinifli cəmiyyətdən bixəbər, həm də əkinçiliklə məşğul olan köçəri maldarlar kimi gəlmişlər; dağ təbiəti və erkən sinifli cəmiyyətin sosial şəraiti ilə hələ o zaman erməni dilinə keçməmiş avtoxtonlar vasitəsilə tanış olmuşlar.[27]

24. «Qədim ermənilər, təxminən bizim eradan əvvəl birinci minillikdə, Fərat çayının yuxarı vadisi zonasında meydana gəlmişdir.[28]

Göründüyü kimi, İ. M. Dyakonovun mülahizələrində ziddiyyətlər vardır. Belə ki, o bir tərəfdən ermənilərin Kiçik Asiyaya gəlmələrini b.e.ə. XVIII əsrin ortalarına aid edir, daha doğrusu b.e.ə. II minilliyin ortalarından sonraya, digər tərəfdən isə ermənilərin Kiçik Asiyada, Fərat çayının yuxarı vadisində e. ə. I minillikdə göründüklərini bildirir. Müfəssəl və dəqiq fakt yoxdur. Görünür, o bu mülahizələri dəqiq faktlara əsaslanmadan irəli sürmüş, bu barədə öz fikrini deməmişdir.

25. Ermənilər şimala doğru hərəkət edərkən də İran, Türkiyə və Qafqazda torpaq iddialarından əl çəkməmişlər. Onların arzu etdikləri «Böyük Ermənistan» Qafqazla birlikdə Şimala doğru Voronejə qədər götürüldükdə Fransanın ərazisindən də çoxdur (V. Z. Veliçko, Kavkaz: Russkoe delo... s.134).

26. «Tarixçilərin qeyd etdiyinə görə, tarixən balaca bir ölkə olan Ermənistan Artaks və Zariadrisin, eləcə də onların tərəfdarlarının səyləri nəticəsində böyümüşdür». (Strabon. Coğrafiya. 11-ci kitab.c.123.)

27. «Ermənistan heç bir zaman bəşər tarixində xüsusi rol oynamamışdır. Bu ermənilərin yayılıb səpələndikləri bir regionun coğrafi adıdır». (K. Patkanov.Vanskie nadpisi...s.97)

28. «Antik dövrdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada, yəni Rusiyadan kənarda yerləşirdi».[29]

29. «İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının bir hissəsi olmuş, sonradan erməni feodalları tərəfindən zəbt edilmişdir». (İ.Orbeli. Seç.əsərləri, (rus dilində) s.91)

30. «Eramızdan əvvəl VII və VI əsrlərdə meydana gələn Hind-Avropa xalqlarından olan ermənilərin gəlişindən qabaq, indi Ermənistan adlanan ərazidə yerli Kaldis və Xaldem xalqı yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı»

[25] «Ədəbiyyat və İncəsənət» qəzeti, 15.01.1998, № 3. - «İslam ensiklopediyası». akademik Z.Bünyadovun tərcüməsində.
[26] Ermənilər dünya terror təşkilatlarında -Respublika» qəzeti 25.09.2002, № 221 (1557).
[27] Diyakonov İ.M. Predistria armanskoqo naroda, Erevan, 1968, s.a.36.
[28] Diyakonov İ.M. Predistria armanskoqo naroda, Erevan, 1968, s.a.36, b.l03.c. 117, ç.237.
[29] İşxanyan B.Qafqaz xalqları (rusca), s.- Peterburq, 1916, s.18.

«Ermənistandan şimalda Qafqaz arxasında iki ölkə yertəşirdi. İberiya (indiki Gürcüstan) və Albaniya (indiki Azərbaycan)».

«Daha sonralar erməni missionerləri albanların ölkəsini (müasir Azərbaycan) xristianlaşdırmağa başladılar» (H. Pastırmacyan. Ermənistan tarixi, 95)

31. Ermənilərin psevoad kimi qəbul etdikləri Ermənistan b.e.ə. VI əsrdə Midiyanın ardınca Əhəmənilərin, daha sonra Makedoniyalı İsgəndərin fəthi nəticəsində Selevki imperiyasına tabe edilmişdir.

Həmçinin Ermənistan olan ərazi 300 il parfiyalılara, dörd əsr Sasanilərə tabe olub və bəzən də Sasanilərlə Roma arasında bölüşdürülmüşdür. Sonra ərəblərdən, müəyyən müddət Bizansdan asılı olmuş, XI-XVI əsrlərdə isə səlcuqlar, 100 ilə yaxın Azərbaycan Atabəyləri, monqollar, Teymurilər, qaraqoyunlular, ağqoyunlular, Səfəvilərə tabe olmuşlar. Sonradan İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarına formal sahib çıxaraq, həmin ərazilərə köç edib 200 il (1828-1991-ci illər) Rusiya hökmranlığında inildəmişlər.

32. «Yeni vətənlərində (Kiçik Asiya) təzəcə məskunlaşan qaliblər (ermənilər) öz növbələrində məğlubiyyətin acısını daddılar».[30]

33. «...Ermənilər və türklər, gürcülər və albanlar arasında interetnik inteqrasiya prosesində ideoloji və mədəni assimilyasiya getmişdir; albanların bir hissəsi erməniləşmiş, digər hissəsi isə gürcüləşmişdir. (Fəridə Məmmədova. Qafqaz-Alban etnosu,s. 80)

34. «Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o, buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirəcək aydın və dəqiq dəlillər yoxdur». (Manuk Abeqyan. Erməni ədəbiyyatı tarixi (erməni dilində), 79)

35. «Ermənilər, əsasən, müsəlman mülkədarların torpaqlarında yerləşmişlər.

...Bu erməni mühacirləri xəzinəyə heç bir xeyir verməyən bizim Gürcüstandakı tacir ermənilərdən yaxşıdırlar, çünki İrandan gələnlər əksərən sənətkar və kəndlilərdir». (A. Qriboyedov. Əsərləri, I c., s. 339-344)

36. ...Erməni inqilabçı təşkilatları Gənc Türklərə rəğbət bəsləyirdilər.[31]

37. ...Qafqaza 50000 erməni siyasi qaçqını gəlmişdir. Bu arzuolunmaz qonaqların yarısı qanunsuz olaraq gəlmişlər. Şərqi Qafqazda cinayətkarların əksəriyyətini Türkiyədən gələn ermənilər təşkil edir.

38. ...Çağırışlarda «Türkiyə» sözü «Rusiya» sözü ilə əvəz olunub. Bir neçə il bundan əvvəl olduğu kimi ruslar tərəfindən qəbul olunan ermənilər Türkiyəyə silah və könüllülər aparırdılar, hal-hazırda erməni «fədailəri» rus sərhədini genişləndirməyə girişiblər». (Eçmiədzin sinodunun prokuroru A. Frengein 1907-ci ildə Sankt-Peterburq Müqəddəs sinoduna raportu.[32]

39. «İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində 1918-ci ildə yaradılıb, qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarix boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi». (Jorj de Malevil. 1915-ci il Erməni faciəsi).

40. «Erməni məhəllə məktəblərində şagirdlər Böyük Ermənistanın xəritəsini öyrənirlər ki, onun da ərazisi, demək olar ki, Voronejə qədər çatır və paytaxtı da Tiflisdir». (V. L. Veliçko. Kavkaz: Russkoe delo i mejduplemennıe voprosı).

41. «Orta əsrlərin əvvəlindən ermənilər diaspor xalqdır. Əksinə, Azərbaycan türkləri və gürcülər SSRİ xalqları arasında ən az «mühacirdirlər». (A. Benniqsen Sovet istilası: Qafqaz detonatoru).

42. Ermənilər Balkandan gəlmişlər. Hay xalqı bu regionda əhalinin heç vaxt çoxluğunu təşkil etməmişdir.[33]

43. Ermənilər qismən qıvrılıb gizlənən, ətrafdakı ovu güdən, onu sancmaq məqamını gözləyən ilana bənzəyir». (Millət vəkili Şamil Qurbanov.)

44. Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb.[34]

45. Fərat çayının yuxarı axarındakı ölkələrə Ermənistan deyirmişlər (Herodot).

46. Xəzərsahili xalqlar hunlar, albanlar, kaduslar, mordovlar və başqalarının sıralarında erməni adına rast gəlmədim. (Dinisi).

47. Erməni çarları qonşu xalqların xeyli torpağını işğal etsələr də orada davam gətirə bilməmişlər. (Strabon).

48. Ermənilər... firiqlərlə birlikdə Qərbdən e.ə. VI-VII əsrlərdə Şərqə gəlmişlər. (H. Pastırmacyan. Ermənistan tarixi).

49. Ermənilər işğalçılar kimi gəlmiş və yerli əhalini əsarət altına almışlar. (R. Hovanesyan).

50. Nəhayət, ermənilər İsveçrədən gəliblər. (R. Kurlyan).

51. Erməni qul və kənizləri, Korinfdə, Afrodita kənizləri, habelə Hindistanın məbədlərində xidmət edən dini rəqqasələr-ilk fahişələr idi. (F. Engels).

52. Erməniləri bir millət kimi Yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki, lənətləyəcəklər. (Əmir Teymur).

53. Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər. (Aleksandr Düma).

54. Dərisi ağ qulların pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları ilə məşhurdurlar. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər. (Adam Mets, İsveçrə şərqşünası).

---

[30] Jan-Pyer Alem. «Mən nə bilirəm?» Ermənistan kolleksiyası. RÜF, Paris, 1983, s.9.

[31] Leninqrad DTA, fond 821, S.139, iş 173, bölmə 96.

[32] Leninqrad DTA, fond 821, S.139, iş 173, bölmə 96.

[33] Erix Fayqel. Pravda o terrore (armanskiy terrorizm - istoki i prinıripi) Paris, 2000 q., J.16, Sən qalmısan, mən qalmışam - «Azərbaycan müəllimi», № 51 (81160). 23.12.05.

[34] Dakonov İ.M. K predistroii armanskoqo azıka o faktax svideteh, stvax i loqike, Erevan,1983,s.166.

55. Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa əlaqədə olmuşlar. Dövlətini və şərəfini çoxdan itirmiş erməni qadınları ilə münasibətdə olan İran əsgərləri, türklər, gürcülər və dağlılar, görünür heç bir ədəb-ərkan gözləməmişlər. Bu səbəbdən ermənilərin damarlarından hər cür qan axır. (V.L.Veliçko. Rus şairi, publisist).

56. Ermənilərin eybi: bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüşsöyən, ürəyi xıltlı, ağasına düşmən, xain çıxandır. («Qabusnamə»).

Bəşəri təfəkkürü mənəvi xəzinəsi adlanan «Qabusnamə»də yazılır ki: «Yer kürəsindəki mövcud xalqlardan ermənilər ona görə fərqlənirlər ki, onların təbiətində xarakterində murdarlıq var. («Qabusnamə»).

57. Bu xalq (erməni-red.) istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır: bunlar daimi romalılara nifrətdən, parfiyalılar isə həsəddən az qala partlayırlar. (Tasit, Roma tarixçisi).

58. Erməni gəldi, təzə bəla gətirdi. (Gürcü atalar sözü).

59. Ermənilərin yoxsulluğu və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, onların haramzadəliyi, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç bir vaxt onlara bağlana bilmədim. (Qraf de Şole. Fransız səyyahı).

60. Ermənilər Yer üzünün Əhrimənı, insanlığın düşmənidir, düşməni.(Sədi Şirazi).

61. Ermənilər acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar... Heç kəsi bəyənmirlər... Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər... İntriqa yaratmağı sevirlər... (İngilis Vilson).

62. Erməni xalqı kimi erməni dili də hibrid (calaq) dildir. (Akademik N.Y.Mar).

63. Heç bir dil mənim üçün bu qədər çətin olmamışdır. (X. Abovyan).

64. Erməni dili hibrid (calaq) dildir. O biri yandan erməni qəbiləsi də hibriddir. Urartu və başqa qonşuları assimilyasiya etmişdir. (Akademik M. Abeqyan).

65. İndi olduğu kimi, keçmişdə də qədim «hay»ların (ermənilərin) elmlərə, ağızdan-ağıza keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır. (Movses Xorenatsi, erməni tarixçisi).

66. İlk erməni sülaləsinin başçısı tarixdə olmayıb. (Haykazyan, «Erməni tarixi», Paris, 1919).

67. Ermənilər əsasən Dəclə-Fərat bölgələrində yaşamışlar. (Kevorq Aslan).

68. Biz (yəni «hay»lar) kiçik, azyaşlı, zəif və çox hallarda özgələrin hakimiyyəti altında yaşayan xalqıq. (Musa Xorentsi).

69. Ermənistan dünyada bəlkə də yeganə dövlətdir ki, bütün qonşuların torpaqlarında gözü var. Daim «Böyük Ermənistan» xülyası ilə yaşayan bu təcavüzkar dövlət öz naqis niyyətlərinin ilk hədəfi kimi Azərbaycanı seçmişdir... Tarixi Azərbaycan torpaqlarında bərqərar olmuş Ermənistandan XIX-XX əsrlərdə 1,5 milyon azərbaycanlı öz tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilmiş, yüz minlərlə azərbaycanlı isə qətlə yetirilmişdir. (Şeyxülislam Hacı Allahşükür Paşazadə. Qafqaz xalqları Ali Dini Şurasının sədri).

70. «Başı bəlalar çəkmiş xalqın» o vaxtkı, əslində elə indiki liderinin də beyinlərini qonşu xalqların əraziləri hesabına «Böyük Ermənistan» yaratmaq barədə sərsəm ideyalar, erməni olmayan hər kəsə qarşı nifrət və düşmənçilik hissləri dumanlandırmışdır». (S. B. İxiilov. Bakıdakı Dağ Yəhudiləri İcmasının sədri).

71.1918-ci ilin martında erməni silahlı birləşmələri üç gündə təkcə Bakıda 17 mindən artıq dinc və günahsız sakini qırdı. Biz hələ Naxçıvanda, Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Ağsuda... saysız-hesabsız insanların qətlə yetirildiyini demirik. (Aleksandr. Bakı və Xəzəryanı bölgənin yepiskopu).

72. Alman alimi Kolmer isə belə demişdir: «Mən bir müsəlmanla iş barəsində şərtləşəndə, yazılı müqavilə bağlamadan da kifayətlənirəm, çünki o, söz verdi, qurtardı. Yunanla yazılı şərt kəsirəm, çünki onlara belə lazımdır və sərfəlidir. Ermənilərlə isə heç yazılı surətdə də iş görmürəm, çünki onların yalançılığı və fitnə-fəsadları, hətta yazılı şərti də poza bilər».

73. K.Marks və Engels yazmışdı: «Bəşəriyyətə ilk fahişəliyi yayan ermənilərdir». Və əlbəttə ki belə əqidənin və əməlin sahibi olan xalqın şovinist nümayəndələrindən nə cür mənfur iş desən gözləmək olar.[35]

74. Yəhudilərin vətəni olan İsraildə bir nəfər də olsun erməni yaşamır. Niyə?.. Çünki dünyanın başqa ölkələrindən fərqli olaraq bu ölkədə ermənilərin fırıldaqları işləmir.[36]

75. L.Z.Sürməliyan «Xanımlar və cənablar, müraciətim sizədir» - adlı kitabında yazmışdır: «Türklərlə ermənilər arasındakı ziddiyyətlərin yaranmasının əsas səbəblərindən biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin aramsız qəddarlığıdır».

78. Albanların əksəriyyəti Azərbaycan xalqının tərkibinə daxil olaraq islam dinini qəbul etmiş, az bir hissəsi isə (Şəki və Dağlıq Qarabağda) gəlmə ermənilərə qarışıb erməniləşmişlər. (İ. Petruşevski).

79. Erməni əlifbası təqribən b.e. 405-406-cı illərində Mesrop Maştos tərəfindən qədim yunan, Bizans və Şimali arami yazıları əsasında tərtib edilmişdir. (ASE, IV cild, səh. 81).

80. Ermənilər din seçməkdə sərbəst olmamışlar. Daha doğrusu, məkan, zaman şəraitində din və məzhəblərini dəyişmişlər: yeri gəldikdə isə müsəlman olurlar. (Türkiyədə, İranda və bəzi ərəb ölkələrində müsəlman ermənilərə rast gəlmək olur) özlərini xristian adlandırıb xristian dininin üç məzhəbinə «qulluq» edirlər: qriqoryanlar (Ermənistanda və yaxın Şərqdə), katolik və protestantlar (Avropa ölkələrində). (Müəllifin araşdırmalarından).

81. Urartu dili ilə erməni dilinin heç bir yaxınlığı yoxdur. Urartu dili hal-hazırda ölü dillər sırasına daxildir. O Hürei-Urartu dilləri qrupuna daxil olmuşdur. Erməni dili-üç dövr keçmişdir: 1. V-XI əsrlər; 2. XI-XVII əsrlər; 3. XVII əsrdən sonra. Hibrid bir dil olaraq XIX əsrdə formalaşmışdır.

---

[35] K.Marks və F.Engels. Seçilmiş əsərləri, III cild, s.275.

[36] Xanlar Əliyev. Ermənilər Ermənistan barədə tarixi faktlara nə deyir?- «Azərbaycan», 28.08.2001.

82. Ermənilər də insandırlar, ancaq onlar evdə əl-ayaq üstündə iməkləyərək gəzirlər (Armyne toje lyudi, no doma xodyat na çetverenkax) (Qədim Roma tarixçisi Petroniy).

83. ...Ermənilər, həqiqi əsgər olaraq döyüş meydanından qorxaqcasına və alçaqcasına qaçandırlar, əliyalın tək insanlara, qocalara, qadınlara və uşaqlara isə dəstə ilə hücum etməkdə cəsarətli və fədakar igidlərdirlər (Rus zabiti podpolkovnik Tverdoxlebovun memuarından).

84. Məgər ermənilərin hər tərəfə dağılması bizim üçün faydalıdır? Qoy qadir Allah onlara qüvvət, hamısına birləşmək bacarığı versin. Lakin qoy kələk gəlməsinlər, bizi özümüzdən məhrum etməyə çalışmasınlar və bizim adımızı alçaltınaqla, özlərini tərifləyib göyə qaldırmağa və şöhrətləndirməyə cəhd göstərməsinlər. Bizim üçün yaxşı idi, pis idi, biz sizi qəbul etdik, qardaş kimi sığınacaq verdik, heç olmazsa, öz evimizdə bizə düşmən olmayın. Evində yaşayan düşmənin olunca, yolda uzanan şirin olsa yaxşıdır (İ. Q. Çavçavadze. «Erməni alimləri və fəryad edən daşlar», s.79).

85. Erməni xalqının tarixi V əsrdə erməni yazısının meydana gəlməsindən və erməni xalqının Avarayarda qəhrəman döyüşündən sonra başlayır (Erməni katolikosu I Vazgen, 16 avqust 1964-cü il müraciətindən).

86. Erməni tarixini yazmaq üçün mən sizə hansı ədəbiyyatları tövsiyə edəcəyimi bilmirəm. Çünki bu məsələ barədə çap olunmuş mənbələr mənə məlum deyil. Lakin mənim Paris kitabxanamda elə kitablar vardır ki, onlar Movses Xorenatsidən, Zenoba və digərlərindən də qədim dövrləri əhatə edir. Mən Aninin süqutuna qədər Böyük Ermənistanla bağlı heç bir kitab yada salmıram. Şübhəsiz ki, bu sahədə çoxlu geniş anlayışlara maliksiniz (J.Morqan. «Erməni tarixçisi A.Çobanyana məktubundan», 19 aprel-26 may 1916, səh.XXXV).

87.Ermənilərin mənşəyi haqqında Qatteria məlumat verir: «İlk Ari tayfaları Pamir dağlarımn ətəklərindən Sind vadisinə, İran dağları ətəklərinə hərəkət etdilər, insanların sonradan Qərbə axınına yol açıq oldu və yeni miqrantlar Avropaya getməyi lazım bildilər. Köçərilər tezliklə Qafqaz dağlarına çatdılar və Kiçik Asiyaya yol tapıb, cənuba istiqamət görürdülər.

Ermənistan vadisində məskunlaşan bu tayfalar bir-birindən təcrid olunmuş şəkildə yaşamağa və inkişaf etməyə başladılar. Onlardan bir çoxu gücləndilər, digərləri Ermənistana eradan əvvəl 1130-cu ildə yürüş edərək, Nairi, Dəclə və Fərat çaylarının yuxarılarını zəbt etmiş vəziyyətdə tapdıqları Assuriya konfederasiyası ilə birləşdilər.

88. Bütün hallarda bizdə sənəd vardır ki, ermənilərin Kappadokidən Ərzurum dağları ətəklərinə hərəkəti eradan əvvəl VIII, ya da VII əsrdə İsanın anadan olmasından 600 il qabaq olmuşdur (İ.de Morqan).

89. Aydındır ki, tarixi vaxtlardan bəri Ermənistan adı daşıyan coğrafi rayonda erməni deyilən xalqın həmişəlik yaşayış yerləri olmamışdır, ölkədə şübhəsiz ki, başqa tayfalar, başqa dildə danışan xalqlar da yaşamışdır.

Erməni xalqı haqqında ilk dəfə olaraq b.e.ə. 515-ci ildə Dariya daş salnamələrində söylənilir. Burada Ermənistan haqqında da deyilir ki, o Əhmənilər imperiyasının bir satrapıdır (F. Makler).

90. Erməni yazıçısı A. Şirvanzadə: «Bu həqiqətdir, lakin acı və təəssüf edilməli bir həqiqətdir ki, əcnəbinin qarşısında milləti təmsil edən və həyatının qayəsi yalnız başdan-başa maddi maraqdan ibarət olan erməni taciri kimi bir nümayəndəyə malik olmaq əsl bədbəxtlikdir.

Bax, ölkəmizdə bütün şovinistlər-istər onlar erməni, istər gürcü, istərsə də türk olsun fərqi yoxdur öz millərini hakim millət etmək xəyalına düşənlər ədalətsiz və maymaq olmaqdan başqa, həm də lap gülüncdürlər.

Öz qonşularından birini udmaq xəyalına bu üç millətdən yalnız o millət düşə bilər ki, o özünün miskin mədəniyyəti və fiziki qüdrəti barədə həddindən artıq yüksək fikirdə olsun və başqa millətin gücü barədə isə çox cüzi təsəvvürə malik olsun. Millətçilər və şovinistlər, əsrlərdən bəri qonşu olan bu üç milləti bir-birinə salışdırmaqdan əl çəkin! Bunsuz da onların münasibətləri zəhərlənmişdir. Yaxşı bilin ki, qonşuya doğru yönəldilmiş hər bir zərbə qayıdıb zərbə endirənin başına ikiqat qüvvə ilə dəyəcək. Bu təlatümlü zamanda hamı sayıqdır və onlar öz mövcudiyyatlarını son damla qanlarınadək qoruya bilərlər...» (A. Şirvanzadə. Seçilmiş əsərləri, II cild, Bakı, 1971-ci il, səh. 361 və 377).

91.Böyük fransız səyyahı və yazıçısı Aleksandr Düma erməni satqınlığı haqqında yazır:

«Daniyal bəyin bir erməni katibi varmış. Bu erməni katibi general Şvartsa yazır ki, Daniyal bəy Şamilin tərəfinə keçmək istəyir. Məktub göndərilən yerə çatmaq əvəzinə gəlib çıxır Daniyal bəyin öz əlinə. O öz katibini bir xəncər zərbəsi ilə öldürür».

92. «Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibi olublar. Öz yaxınlarını sataraq həmişə güclü qonşularına məhəbbətlə qulluq ediblər» (akademik Geqor Patkanyan).

93. «Bic və qantökən millət» olan ermənilər yazıq, fağır bir xalq kimi dünyaya təqdim olunur (Adolf Hitler).

94. «Ermənilər müxtəlif ünsürlərdən təşkil olunaraq qarışıq bir irqdir. Boyları 163-169 arasında, yastıbaşlı, 85-87 baş ölçüsündə, irqləri hindu, əfqan, aysor və türk irqlərindən yaranmışdır» (Y. Doniker).

95. Ermənilərin 1897-ci ildə çıxan «Murc» jurnalında «Qaraçılardan əmələ gələn ermənilər» məqaləsində assimilyasiya olunmuş qaraçı-ermənilərdən söhbət gedir.

96. Ermənilər Pamir yaylalarından gələn Mesopotamiyadan şimala doğru köç edən Sami irqə mənsub tayfalarının qarışığıdır.

Kürdlərlə erməniləri bir-birindən ayırmaq mümkün deyildir. Yaxın qohumdurlar» (Robert Cans).

97. N.Kassoviç isə qan qrupları və antropoloji əlaqələr haqqında «erməni irqi təmiz (yekcins) bir irq deyildir» - fikrini yazmışdır.

98. «Ermənilər irq etibarilə iranlı, kürd, bəluc və qaraçılarla qohumdurlar» (U. S. Monroy).

«Hind-Avropa qrupuna daxil olan erməni xalqının, Qərbdən izlənərək Balkan və Kiçik Asiyadan keçib, Şərqdə, Urartuda, yaxud ön Ermənistanda başqa qohum Hind-Avropa xalqları ilə kimeriylərlə və yaxud frakiyalarla görünməsi bizim eradan əvvəl VII və ya VI əsrə təsadüf edir ki, bu fərziyyə də dünya elmi tərəfindən öz təsdiqini tapmışdır» (H. Pastırmaçıyan).

## URARTU QƏDİM ERMƏNİ DÖVLƏTİ SAYILA BİLƏRMİ?

**Urartu** (Assuri dilində; Urartu dilində-Biaynili) - e.ə. 1-ci minilliyin əvvəlində Ön Asiyada böyük dövlət idi. Van gölü ətrafındakı rayonlar Urartunun mərkəzi hissəsini təşkil edirdi. Əsas əhalisi dil baxımından hurrilərə yaxın urartulular idi. Ən qüdrətli dövründə dövlətin sərhədi şimalda Göyçə gölünə, şərqdə Urmiya gölünə, cənub-qərbdə Dəclə çayına və Fərat çayının yuxarı axarına çatırdı. Assuriya mənbələrində Urartu tayfa ittifaqı ilk dəfə e.ə. 13-cü əsrdə xatırlanır. Nairi tayfa ittifaqının yaranması da həmin dövrə aiddir. Assuriyaya qarşı mübarizədə Urartu-Nairi tayfalarının birləşməsi nəticəsində e.ə. 9-cu əsrdə mərkəzləşmiş dövlət yarandı. Dövlətin paytaxtı Tuşpa şəhəri (indiki Türkiyənin Van şəhəri) idi. Urartu çarı I Sardurinin dövründə geniş tikinti işləri aparılırdı. Onun Van şəhərində qala divarlarındakı ilk yazısı Assuriya dilindədir. I Sardurinin oğlu İşpuininin dövründə Urartu dilində yazılar meydana gəldi (Urartu yazısının əsasında Assuriya mixi yazıları dururdu). Assuriya mənbələri ilə yanaşı öz yazılı mənbələrində də əksini tapmağa başladı. İştuini və oğlu Minuanın zamanında urartuluların cənub-şərqə doğru işğalçılıq yürüşləri başladı. Urartuluların baş allahı Xaldiyə sitayiş mərkəzi- o vaxt Assuriyanın əlində olan Ardini şəhəri (Musasir), həmçinin Urmiya gölünün cənub-qərb sahillərindəki rayonlar tutuldu. Dövlətin şimal sərhədləri Araz çayı və sonra Göyçə gölünə qədər genişləndirildi.

Urartunun ən qüdrətli dövrü çar I Arkiştinin hakimiyyəti illərinə təsadüf edir. Onun işğalları tərtib etdirdiyi Xorxor salnaməsində təsvir olunmuşdur. I Arkişti güclü Manna dövləti və Cənubu Zaqafqaziya tayfalarına qarşı, Şimali Mesopotamiya torpaqları uğrunda Assuriya ilə mübarizə aparırdı. Urartulular gələcək hücumlar üçün dayaq məntəqələri yaratmaq və «düşmən ölkəni qorxuya salmaq» məqsədilə işğal olunmuş ərazilərdə qalalar tikdirdilər; Erebuni, Arkiştixinili qalaları da bu dövrə aiddir. II Sarduri (e.. 764-730) işğalçılıq siyasətini davam etdirsə də (Urmiya gölündən şimalda Puluadi ölkəsini tutmuşdu), dəfələrlə üsyan qaldırmış rayonları sakitləşdirməli olmuşdu.

Urartu dövləti üç əsr ərzində e.ə. IX-VI əsrlər Ön Asiyanın ən qüdrətli dövlətlərindən olmuşdur. Dövlətin başında irsi hakimiyyətə malik çar dururdu. Ölkə canişinlərin başçılıq etdiyi vilayətlərə bölünmüşdü. Çar, əyanlar, sərkərdələr və məbədlər iri torpaq mülkiyyətçisi idilər. Əsas istehsalçılar olan azad icma üzvləri ilə yanaşı, qul halına salınmış hərbi əsirlərin əməyindən də geniş istifadə edilirdi.

Geniş suvarma sistemi təsərrüfatın başlıca sahələri olan əkinçilik, bağçılıq və üzümçülüyün inkişafına şərait yaratmışdı. Maldarlıq və atçılıqla məşğul olunurdu. Arxeoloji qazıntılar zamanı əhalinin zəngin mədəniyyəti və incəsənətini əks etdirən nümunələr aşkar edilmişdir. Urartuda tikinti işləri və metal emalı yüksək inkişaf etmişdi. Urartulular bir çox allaha sitayiş edirdilər. Müharibə allahı Xaldi, yağış və fırtına allahı Teyşeba baş allahlar idi.

**Urartu dili** - urartuluların dili sayılan xald, biayi dili Hürri-Urartu dilləri qrupuna daxil olan ölü dillərdəndir. Yazısı Akkad mixi əlifbasının sadələşdirilmiş forması idi; soldan sağa yazılırdı. Ən qədim kitabələri e.ə. 9-cu əsrin 30-cu illərinə aiddir. Mövcud epiqrafik abidələrdə bu dilin 4 sait və 17 samiti əksini tapmışdır. İsmin tək və cəm formaları, 8 halı olmuşdur. Morfologiyasında Qafqaz dilləri ilə oxşar cəhətlər var. Söz yaradıcılığı üçün iltisaqilik səciyyəvidir. Cümlə erqativ quruluşludur. Lüğət tərkibinin (kitabələrdə cəmi 400-ə qədər söz var) bir qismini qədim Ön Asiya, İran və Qafqaz dillərindən alınma sözlər təşkil edir. Göründüyü kimi ermənilərin Urartu dili və dövlətçiliyi ilə heç bir yaxınlığı yoxdur.[37]

## MÜASİR ERMƏNİSTAN

**Qafqaz erməniləri dünya ölkələrindən qovulmuş qaçqınlardır. Onlar Qafqaza qədəm qoyduğu gündən Qafqaz xalqları narahatdır. Tarixi araşdırmalar göstərir ki, ermənilər Qafqazda heç vaxt dinc durmamışlar.**

Erməni alimləri millətçiliklə zəhərləndiyindən öz uydurma iddialarını ermənipərəst sovet rəhbərliyindən qəti şəkildə tələb etməkdən də çəkinmirdilər.

Bu cəhətdən SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN 1988-ci il 18 iyul tarixli iclasında sovet dövlət başçısı M.S.Qərbaçov - erməni alimi V. Hambarsumyan dialoqu xüsusi maraq doğurur. Orada deyilirdi:

**S.A.Hambarsumyan:** Kommunist, pedaqoq, rektor kimi bütün həqiqəti söyləməyi özümə borc bildim. Vəziyyət gərgindir...

M.S.Qərbaçov: «Ermənistanda yaşayan azərbaycanlıların sayı Dağlıq Qarabağdakı ermənilərin sayından az deyildir. İndi necə olsun, orada da muxtar vilayətmi yaradaq?

Burada əsasən demoqrafiyanın, əhalinin tərkibinin necə dəyişməsinə istnad edilir. Bu mühüm amil kimi, hətta müəyyən siyasətin nəticəsi olaraq da qələmə verilir. Deyin görək, əsrin əvvəllərində Yerevanda azərbaycanlı əhali nə qədər idi?

**S.A.Hambarsumyan:** Əsrin əvvəllərində, Yerevanda?

M.S.Qərbaçov: Bəli.

**S.A.Hambarsumyan:** Deməyə çətinlik çəkirəm.

M.S.Qərbaçov: Siz bunu bilməlisiniz. Mən sizə, xatırlada bilərəm - əsrin əvvələrində Yerevanda azərbaycanlılar 83 faiz təşkil edirdi. İndi azərbaycanlılar neçə faizdir?

**S.A.Hambarsumyan:** İndi olduqca azdır. Yəqin ki, bir faizdir.

M.S.Qərbaçov: Bunu deməklə erməniləri təqsirləndirmək istəmirəm ki, onlar azərbaycanlıları sıxışdırıb çıxarmışlar. Görünür, hansı proseslər isə baş vermişdir və ümumiyyətlə, bunları araşdırmaq lazımdır. Əgər biz hər rəqəmdən belə yapışsaq,

[37] Azərbaycan Sovet Ensiklopediyası (ASE), IX cild, s.459,393-402.

bundan məkrli nəticələr çıxarsaq, bir-birimizə ittihamlar yağdırsaq, onda heç nəyə nail ola bilmərik. Siz ki, alimsiniz! İnformasiyada dəqiq, həqiqəti söyləməkdə dəqiq olmaq lazımdır. Əgər bu, ancaq sizin həqiqətiniz və ya mənim həqiqətim olacaqdırsa, bu hələ həqiqət deyildir. Lakin olmuş həqiqət də vardır. Əsrlər boyu ermənilər və azərbaycanlılar bu torpaqda yaşamışlar. Sizin üçün Dağlıq Qarabağ erməni millətinin beşiyi, necə deyərlər, dayaq nöqtələrindən biridir. Lakin Azərbaycanın bəstəkarları, bir çox başqa incəsənət xadimləri də axı Şuşadan, Qarabağdan çıxmışdır. Axı, insanların ürəklərini, ailələri, əsərləri, beləcə asanlıqla, kotanla şumlayırmış kimi ayaq altına salıb şumlamaq olmaz. - «Kommunist» qəzeti, 20 iyul, 1988-ci il, №170(20638).

## ERMƏNİLƏRİN MƏNŞƏYİ, TARİXİ VƏ DİLLƏRİ HAQQINDA

Qədim yazıların şəhadətinə görə Mesopotomiya sivilizasiyasını inkişaf etdirənlər əsla Hind-Avropa diliərində danışıb özlərini dil və mənşəcə Avropanın həqiqi və qondarma ari xalqlarının qohumu sayan qəbilələr olmamışlar. Arilərin bütün sahələrdə tam üstünlüyünün təsiri altında olan assurioloqlar özlərinin bu kəşfindən xeyli heyrətə gəldilər. Onlar heyrət içində gördülər ki, ən qədim mixi yazılarının dilində İran və sami dillərinə xas olan cizgilər qətiyyən yoxdur. Əksinə Ural-Altay dilləri ilə birbaşa qohumluq var».

*Elizer Reklyu,*
***Fransız coğrafiyaşünası, səyyahı və filosofu*** - «Zemlya i çelovek. S.-P.b. 1906. t. 1, str. 446).

### 1. ERMƏNİLƏRİN MƏNŞƏYİ

Tarixdən məlumdur ki, xalqların adları iki şəkildə formalaşır: a) ölkələrin adları orada yaşayan xalqın adı ilə; b) xalqın adı isə müvafiq coğrafi və ya inzibati bölgənin adı ilə.

Məsələn, Türkiyə, Almaniya, Fransa, Rusiya və s. ölkələrin adları orada yaşayan xalqların adlarından formalaşmışdır. Belə hallarda xalq öz qədim adından məhrum olur.

Bu baxımdan Ermənistan coğrafi ad kimi sual doğura bilər. Ermənistan (Armenien) nə üçün orada yaşayan hayların adı ilə Hayastan adlanmamışdır. Buradan belə çıxır ki, Ermənistanın (Armenien) ermənicə tərcüməsi «Hayastandır». Bu həqiqətə uyğun gəlmir.

Bir çox keçmiş erməni tarixçiləri (məsələn, Moisey Xorenatsi) hesab edirlər ki haylar urartuluların xələfidirlər və Ermənistan (Armenien) Urartu çarı Aramın adı ilə bağlıdır. Bu gün dünya tarixçiləri, eləcə də bir çox erməni tarixçiləri də təsdiq edirlər ki, urartulularla ermənilər (haylar) arasında heç bir yaxınlıq yoxdur.

Türk tarixçisi Kamuran Gürünün araşdırmalarından (bax: Kamuran Gürün: «Erməni dosyesi» (rus dilində), Bakı, 1993, 372 səh.) aydın olur ki, Şərqi Anadoluda (Dəclə və Fərat çaylarının şimalı, Van və Muş əyalətləri) tarixdə və keçmiş mətbuatda «Ermənistan» və «Hayastan», «ermənilər» və «haylar» adları işlənilmişdir. Lakin «Ermənistan» («Armenien») və «Hayastan», «ermənilər» və «hayklar» sözləri (anlayışları) arasında heç bir yaxınlıq yoxdur. Keçmiş Ermənistanda yaşayan qədim ermənilərlə indiki Ermənistanda (Hayastanda) yaşayan ermənilərin (hayların) heç hir gneseoloji yaxınlığı yoxdur. Beləliklə, «erməni» anlayışı yazılı mənbələrində təsdiq edilir ki, qədim Ermənistanda yaşayan ermənilər müasir ermənilərdən çox-çox qədim dövrlərdə yaşamış bir başqa xalq olmuşdur, belə bir mif də vardır ki, həmin qədim ermənilər Nuh peyğəmbərdən törəmişlər. Həmin ermənilərdən psevdonim götürmüş müasir ermənilər bu mifi bu gün öz adlarına çıxırlar. Həmçinin müasir ermənilər qədim Ermənistanın müəyyən bölgələrində pərakəndə yaşayaraq bütün qədim Ermənistan torpaqlarını öz adlarına çıxırlar.

Yeri gəlmişkən, Ermənistan coğrafi adının mənbəyi bu gün də tam aydınlaşdırılmamışdır və eləcə də haykların (hayların) bu ərazidə məskunlaşması da aydınlaşmamış qalır.

Ermənilərin qədim tarixi-coğrafiyası haqqında bəzi epizodları qeyd etmək yerinə düşər.

Erməni salnaməçiləri - Moisey Xorenetsi, Toma Ardzruni və başqaları ermənilərin mənşəyini Nuh əfsanəsinin qəhrəmanı Nuha bağlayırlar. Dünyanın üzünü su götürəndə Allahın iradəsi ilə Nuhun gəmisi Araratın (Ağrının) zirvəsinə yan almış, burada ermənilər müəyyən vaxt yaşamışlar. Ancaq bu versiyanın nə elmi, nə də fiziki sübutları yoxdur. Elə qədim salnamələrin zəif məntiqi yeri da budur. Yada salmaq lazımdır ki, dünyanın üzünü su aldıqdan sonra bütün insanlar xilaskar Nuha borcludur. Deməli, türklər də Ağrıdan enmişlər. Onlar da ərazi tutub onu müdafiə edə bilərlər.

**Ermənilərin mənşəyi haqqında Qatteriya məlumat verir: «İlk Ari tayfaları Pamir dağlarının ətəklərindən Sind vadisinin bir hissəsinə, İran dağları ətəklərinin bir hissəsinə hərəkət etdilər, sonrakı insanların Qərbə axınına yol açıq oldu və yeni miqrantlar Avropaya getməyi lazım bildilər. Köçərilər tezliklə Qafqaz dağlarına çatdılar və Kiçik Asiyaya yol tapdılar, cənuba istiqamət götürdülər.**

Ermənistanın vadilərində məskunlaşan bu tayfalar bir-birlərindən əlaqəsiz inkişaf etdilər. Onlardan bir çoxları gücləndilər, digərləri isə ittifaqa girib, bizim eradan əvvəl 1130-cu ildə yürüş edib Nairini, Dəclə və Fərat çayının şimalını tutmuş Assuriya konfederasiyasına birləşdilər.

Assuriyanın işğalçı yürüşləri ikinci nəslin idarəçiliyi müddətində aramsız oldu və Urartu və ya Ararat özlərini məğlub olmuş hiss etdilər. Bizim eradan əvvəl 787-780-cı illərdə 18-ci və ya 19-cu yürüşdə Ermənistan işğal olundu və son 40 ildə assuriyalılar ayrıca olaraq Fərat çayının yuxarısında hökmranlıq etdilər və cəhd etdilər ki, burada öz mədəniyyətlərini qursunlar.

Semit xalqlarının yürüşləri öz ari mənşə və mənliyini qoruyan Urartunun erməni tayfaları tərəfindən çox ciddi müqavimətlə rastlaşdı» (l.A.Gatteyrias. Op. dt, r.12-15).

Qeyri-tarixi və mövcud coğrafi məlumatlara varmadan Qatteriya fikir yürüdür ki, ermənilər Ermənistanda xalqların böyük məskunlaşması dövründə (bizim eranın V-VI əsri-red.) görünmüşlər. Qatterianın fikrində ziddiyyətlər açıq-aşkar özünü göstərir: bir tərəfdən erməniləri Urartuda məskunlaşmış tayfalara daxil edir, digər tərəfdən Ermənistanı ayrıca bir ölkə yox, coğrafi vahid olaraq Urartunun bir hissəsi kimi göstərir. Beləliklə biri digərini rədd edir.

**J.Morqanın fikrincə, «ermənilərin Kappadokidən Ərzrum dağları ətəklərinə hərəkət etmələri bizim eradan əvvəl VIII əsrdə, ya da VII əsrdə, xristianlığın yaranmasından 600 il əvvəl olmuşdur. Bu xalq Van və Ararat rayonlarında bir çox ərazilər tutdular» (J.Morqan. Op. cit. p.43-44).**

F.Makler hesab edir: «Aydındır ki, tarixi vaxtlardan bu günə kimi Ermənistan adlanan coğrafi rayonda ermənilər həmişəlik yaşamamışlar... ölkədə nəinki ermənilər, başqa tayfalar və xalqlar da yaşamışdır» (F.Makler. La nation Armenienue. Son Pesse. Les matheurs. Paris, 1924, p.18-19).

İlk dəfə olaraq erməni xalqı haqqında yazılı məlumata bizim eradan əvvəl 515-ci ildə Dariya daş salnamələrində (yazılı daş piltələri) rast gəlinir. Orada məlumat verilir ki, Ermənistan Əhəmənilər imperiyasının əyalətlərindən biridir.

Görünür ki, Ermənistanın əhalisinin ermənilərdən ibarət olması haqqında yox Ermənistan haqqında danışılır. Makler Ermənistanın mövcudluğunu Dariya daş salnamələrindən çox sonra inzibati vahid kimi tanıyır.

Pastırmacyan kitabında qeyd edir: «Hind-Avropa qrupuna daxil olan erməni xalqının Qərbdən izlənərək Balkan və Kiçik Asiyadan keçib Şərqdə, Urartuda, yaxud Ön Ermənistanda başqa qohum Hind-Avropa xalqları ilə-kimeriylərlə və yaxud frakiyalarla görünməsi bizim eradan əvvəl VII və ya VI əsrə təsadüf edir ki, bu fərziyə də dünya elmi tərəfindən öz təsdiqini tapmışdır.

Əfsanəyə görə bu tayfa başçısının adı Hayk olmuşdur. Ermənilər onu dövlətlərinin əsasını qoyan ilk çarları hesab edirlər, özlərini «haylar» və ya Haykın uşaqları adlandırırlar.

Erməni salnamələri Ermənistanda Haykın və onun xalqının bizim eradan əvvəl 2200-cü ildən mövcudluğunu və siyahı ilə ruhani rəhbər və çarların b.e.ə. 800-cü ilə qədər bir-birini əvəz etmələrini göstərirlər. Müasir elm isə bu əfsanəni təsdiq etmir. (N.Pastırmacyan. Op. cit., p.23).

Pastırmacyanın tədqiqatlarından aydın olur ki, o hansı fərziyyəni əsas tutur. Ancaq onun fikrincə, ermənilər Ermənistanda eradan əvvəl VII və ya VI əsrdə məskunlaşmışlar. Yuxarıda göstərildiyi kimi, Morqanla müqayisədə Pastırmacyan daha bir əsr yaxından ermənilərin Ermənistanda məskunlaşmasını göstərir.

Nalbandiyan hər hansı bir ölçüdə oxucunu Morqana istiqamətləndirir: «Urartu yalnız hərbi bir dövlət olmayıb, o həm də dəyərli inkişaf etmiş sivilizasiyali məmləkət olmuşdur. Onun xalqı ariyalar olmamışdır. Burada təkallahlı Kaldi Kultu hökmranlıq etmişdir.

Eradan əvvəl VIII və ya VII əsrlərdə Urartunu başqa xalqlar işğal etmişlər. Herodota görə, Urartu ermənilər adı altında frakiyalı müstəmləkəçiləri tərəfindən işğal edilmişdir. Erməni-frakiya tayfaları urartulara öz Hind-Avropa dillərini vermişlər və erməni xalqının yaranması-bu iki xalqın (ermənilər və urartulular-red.) birləşməsindən başladı» (L.Nalbandian. The Armenian Revdutionary Movement. Los Angeles, 1963, p.4).

Əvvələn, Herodotda elə bir dəyərli məlumat yoxdur. İkincisi, tarixdə yazısız ilin yazılı dili udması nümunələri yoxdur. Bundan başqa, erməni xalqının ilk yaranışı frakiyalı gəlmələrlə aborigenlərin birləşməsi nəticəsi kimi vermək heç bir məntiqə sığışmır, ona görə ki, birləşmədən qabaq erməni (hay) xalqı adlı xalq yox idi.

Ovanesyan hesab edir ki, ermənilər Hind-Avropa işğalçıları kimi dağlıq ərazilərə gəldilər. Bunların gəldikləri ərazi qədim Armenianın (Ermənistan - red.) bir hissəsi idi ki, bu ərazi Dəclə və Fərat çaylarının yuxarı axarı boynunda yerləşirdi. Bu dövrdə ermənilər özlərinə «hay» deyirdilər və tutduqları torpağa da «Hayastan» deyirdilər. Bu gün də «Hayastan» heç bir vaxt dünya birliyi tərəfindən tanınmamışdır. Bu ərazinin adı qədim dövrlərdə və bəzən hazırda da Armenia (Ermənistan) kimi gedir və hazırda Şərqi Türkiyə adlanır.

Beləliklə ermənilər yerli əhalinin üzərində öz hökmranlıqlarını qurdular və onları assimilyasiyaya uğratdılar. Sonra onlar bir qədər vaxt ərzində Əhəmənilərin və solyusların asılılığı altına keçdilər, ancaq təkrarən yenə (bizim eraya qədər 200 il) öz müstəqilliklərini qurdular» (R.Hovanisian. Armenia on eru Road to İndependence. Los-Angeles, 1963, p.2).

Ovanesyan dəqiq deyə bilmir ki, bu xalq nə vaxt və haradan gəldi, əksinə elmi nöqteyi-nəzərdən arzuedilməz şübhəli məlumat verir. Onun axtarışından belə məlumdur ki, gəlmə xalq kimi ermənilər, məlum olduğu kimi eradan əvvəl VI əsrdə ölkə (Ermənistan-red.) Əhəmənilər tərəfindən işğal olunana qədər burada görünmüşlər.

Grosset Qədim Ermənistan tarixinə həsr etdiyi böyük kitabında da bu problemə toxunmuşdur. O yazır: «Bizim eradan əvvəl 1200-cü il frigiylər adlanan frakiya tayfalarının bir hissəsi Asiyaya soxuldular və Xett imperiyasını dağıtdılar. Frigiylər Anadolu dağlarına yiyələndilər, öz hökmranlıqlarını Kilikiyanın cənub-şərqindən xettlərin paytaxtı Xeyukadək, imperiyanın şimal-Şərqinə qədər genişləndirdilər. Bu o frigiylər idi ki, onları Assuriya mənbələrində muskalar adlandırırdılar... 677-ci ildə Assuriya çarı Assarxadon Toçpı və ya Tioçpının komandanlığı altında kimeriylərin dəstələrindən birini məhv etdi. Bu dəstə 676-675-ci illərdə Kiçik Asiyaya göndərilmişdir və frigiyləri həlledici zərbə ilə məğlub edib, hökmranlıqlarına son qoymuşlar. Kimireylərin özləri isə bu hadisədən sonra çox yaşamadılar. Qədim Frigiya özünü saxlaya bilmədi və yerini Midiyaya verdi. Frigiylərin bir hissəsi şərq tərəfdən yeni vətən axtarmaq qərarına gəldilər, ancaq burada köklü ermənilər yerləşmişdirlər» (R.Groussef. Op. jet., p.67-68).

Grosset hesab edir ki, müasir Ermənistanda ermənilərin əcdadlarının məskunlaşması bizim eradan əvvəl 675-ci ildən sonra olmuşdur.

Lanq yazır: «860, 858 və 846-cı illərdə birləşmiş Urartu dövlətinin III Salmasaranın qələbə şərəfinə və çar Arame və ya Aramu müəyyən edilmiş Assiriya daş salnamələrində yada salınır... Erməni salnaməçisi Moisey Xorensi hesab edir ki, çar Arame erməni xalqının əcdadı olmuş və öz adını ona vermişdir» (L.Lang. Armenia, Cradle of Civilisation, London, 1980, r.94).

Hətta erməni tarixçiləri Moisey Xorenetsinin əfsanəsinə əsaslanmaqdan çəkinirlər. Lanq da düşünmədən mifə inanır və Urartunu Ermənistanla eyniləşdirir çoxdan rədd edilmiş bu yanlış fikirləri irəli sürərkən təbii ki, Urartunun tarixin; dair geniş ədəbiyyatı nəzərə almayır.

O, kitabının 114-cü səhifəsində yazır: «Qeyd edildi ki, ermənilər özlərini «hay»ı ölkələrini isə «Hayastan» adlandırırlar. Qərbi Ermənistanda yerləşən Xett əyaləti də Ayasa etnik adının meydana gəlməsinin əsasları vardır. Şərtsiz, ayasalıların dili Kiçik Asiyanın qədim sakinləri-xettlərin, lidiylərin, isiylərin və frigiylərin Hind Avropa dillərinə qohum idi».

Professor Lanqa Qrossetin dili ilə cavab verməli oluruq:

Ayasa adı Ermənistanın erməni adı kimi səslənməsi diqqətdən kənarda qalmamışdır. Bu həqiqətdə hər şeydən əvvəl təsadüfi uyğunluqdur. Ayasanın harada yerləşdiyinə gəldikdə, Lanq Delapat onun Trabzon yaxınlığında olduğunu bildirir, ancaq H. Adon Fərat çayının yuxarılarında olduğunu göstərir (R.Grousset. Op. cit., p.42).

Ayas əyalətinin adı eradan əvvəl 1345-1320-ci illərdə xett despotu (hakim, şah red.) II Mirşilişin idarəçiliyi vaxtlarının abidələrində rast gəlinir. Tarixçi və arxeoloq, xett tarixinin tətqiqçisi Xrozni yazır: «Frigiylərin, frakiyaların, mesinslərin və onların içərisində bulunan ermənilərin və digər Balkan xalqlarının Kiçik Asiyaya yürüşləri və Miriyslərin ayaqlar altında Xett imperiyasının dağılması əslən bizim e.ə. 1200-cü illərə düşür. Bu yürüşün nəticəsi III Ramzesin Misir sərhəddinə çatdı. Xett imperiyasının dağılmasından frigiylər onun qərbdən və muşklar isə şərqindən istifadə etdilər. Xettlərin yenidən qurmuş olduqları Karlikovlar dövləti eradan əvvəl 717-ci ilə qədər Torosda mövcud olmuşdur ki, o da Assuriya çarı Şaruxenin son zərbələrinə məruz qalmışdır» (B. Hrozny. Nistorie de L, Asie Anterieure, Paris, 1947, r.191-197).

Yuxarıda deyildiyi kimi, Ermənistan haqqında ilk anlayış Dariya daş salnamələrində b.e.ə. 515-ci ildə rast gəlinir.

İkinci dəfə Ermənistan və erməni xalqı haqqında b.e. əvvəl 484-430 illər ərzində Herodotun «Tarix» kitabında yazılı məlumata rast gəlirik. O, «ermənilər» və «Ermənistan» adını beş dəfə yada salır. Onlardan biri haqqında yazır: «Frigiylərin geyimi fərqlənməklə pafloqonislərin geyiminə oxşayırdı. Bu xalq makedonluların izahına görə Makedoniyada yaşayaraq bricam (bridjam) adlanırdı. Onlar ölkəni dəyişib Asiyaya köçərkən öz adlarını dəyişdirdilər. Ermənilər frigiyslərin kolonistləri idilər, frigiyslər kimi silahlanmışlar və hər iki kontingent Dariyanın kürəkəni Artoçmesin komandanlığına keçdilər» (Herodotus. The histories. N.Y., 1972, r.468).

Herodot «Tarix» kitabında Dariya daş salnamələrinə əsaslanaraq ermənilər Armenia (Ermənistan) deyilən ərazidə 515-ci ildən məskunlaşdıqlarını göstərir. Lakin onlar dağınıq halda və bir çox yerli xalqların içərisinə səpələnmişlər.

Beləliklə, bu və ya digər hallarda «erməni» yalnız «Ermənistan sakini» kimi ifadə oluna bilər. Nə Dara daş salnamələrində, nə də Herodotda erməni tayfası haqqında söhbət yoxdur, mənbələrdə yalnız müəyyən ərazidə yaşayanlar haqqına məlumata rast gəlinir. Ermənistan adı ermənilərin oraya gəlməsindən qabaq mövcud olmuşdur, çünki sənədlər təsdiq edir ki, onlar bizim eradan əvvəl 515-ci ildə mövcud olmuşlar.

Bu məsələ Ksenfontun «Fars yürüşləri» («Persidskie poxodı») kitabında özünün daha ədalətli həllini tapmışdır. Kitabın IV fəslinin 3, 4 və 5-ci bölmələrində yürüşün Ermənistandan keçməsinə (bizim eradan əvvəl 401-400-cü illər) həsr olur. Burada da Ermənistan coğrafi ad kimi gedir, «erməni» sözü 3-cü bölmənin əvvəllində «bunlar Orontasın və Artuçasin komandanlığı altında muzdlu erməni, marles, xaldey əsgərləri idilər» (Xenophon. The Persian Expeditions. N.Y., 1979, p.186) və 5-ci bölmənin sonunda belə ifadə vardır: «erməni uşaqları yerli geyimdə» (yenə orada, səh.197). Şübhə yoxdur ki, Ermənistan qədimdən Armenia adlanırdı, bu o demək deyil ki, ölkənin əhalisini ermənilər təşkil edir.

Ksenofontun fransız nəşrinin VII fəslinin 7-ci bölməsinə Sofenet tərəfindən yazılmış kitabın bir paraqrafı daxil edilmişdir. Orada ordunun keçdiyi əyalətlər və onların qubernatorlarının adları çəkilir.

Tarixdən məlumdur ki, qədim Armenianın qubernatorun müavini (bütün Ermənistan üzrə qubernator olan fars Orantes olmuşdur) Tribaz olmuşdur. Burada deyilir ki, Tribaz feislərin və qesperitlərin başçısı idi, ermənilərin adları isə çəkilmir (Anabase, garnier-Flammarion. Paris, r.249).

Ruben Kuriyan yazır: «Ermənilər bugünkü İsveçdən gəlmişlər. Roman dilləri erməni dilindən az fərqlənir. Deformasiya hesaba alınmaqla başqa dillərdən söz və ifadələr erməni və roman dillərində eyni səslənir ki, bunu heç kim inkar edə bilməz. Hələ İsveçin xəritəsinə nəzər salın, orada Qrisonsa rayonunu tapın: Oberxalbsteyn, kiçik Myüxlen kəndi, Piz Cubin və Sant-Morits arasında kiçik ərazi Piz Er vardır. Bunun mənası nədir?

Türklər və asiyalılar özlərini hay adlandıran bu xalqı erməni adlandırırlar. Bu söz iki hissədən ibarətdir - ər və mən, yaxud «yerin adamı» («çelovek zemli») (R.Courian. Promartyra de la Civilization. Yverdon, 1964, r.27)

Bu kitabın 31-ci səhifəsində oxunur ki, Van (Türkiyədə vilayət) fransız sözü vent - külək, yaxud Van- »çox küləkli şəhər» mənasındadır.

Kamuran Gülünün araşdırmalarından aydın olur ki, qədim dövrlərdən bəri Anadoludan şərqə Armenia adlı bir müəyyən ərazi olmuşdur. Erməni adlandırdığımız insanlar bu bölgəyə Qərbdən gəlmişlər. Məskunlaşma tarixi ən tezi bizim eradan əvvəl VI əsrə təsadüf edə bilər, ancaq yəqin ki, bu bizim eradan əvvəl IV əsrə təsadüf edir. Bu məsələ haqqında vahid fikir mövcud deyildir. Ermənilərin Qərbdən gəlmələrinə dair dəqiq dəlil yoxdur.

Dəqiq aydındır ki, Makedoniyalı İsgəndərin Kiçik Asiyaya yürüşü (b.e.ə. 331-ci il) dövründə ermənilər Armenia vilayətində yaşayırdılar. Ancaq burada müstəqil erməni dövlətindən söhbət gedə bilməz, həmin zaman, o fars əyaləti Ermənistan olmuşdur.

İndi bizim eradan əvvəl IV əsrdən bəri erməni tarixinə nəzər salaq.

## 2. ERMƏNİLƏRİN TARİXİNƏ DAİR QISA XÜLASƏ

Bizim eradan əvvəl 331-ci ildə Makedoniyalı İsgəndərin Əhəmənlərin axırıncı şahı III Dara üzərində qələbəsinə qədər İranın tərkibində olan Ərməniyə Makedoniya imperiyasına daxil oldu.

Böyük İsgəndərin ölümündən sonra onun ərazisi sərkərdələr arasında bölüşdürüldü. B.e.ə. 301-ci ildə axırıncı bölgüdə Ermənistan Solyusiya hökmranlığına daxil oldu. Dövlət Solyusiya mütləqiyyəti tərəfindən idarə olunurdu. Bu dövlət də b.e.ə. 189-cu ildə romalılar tərəfindən işğal edildi.

Müxtəlif mənbələr göstərir ki, Ermənistan solyusların hakimiyyətinə keçənə qədər fars əsilli 2 sərdar-Artaksiyas və Zariardıs tərəfindən idarə olunurdu. Romalıların qələbəsindən sonra onlar Roma senatının himayəsinə keçdilər.

Bu baxımdan Ərşaqilərin öz dövlətçiliklərini bərpa etmək üçün mübarizələri canlandı. Aydınlır ki, II Mitridatın (123-88-ci illər, b.e.ə.) idarəçiliyi vaxtı ərşaqilər müvəffəqiyyət qazandılar. Həmçinin aydındır ki, ərşaqilər Armenianı tutdular, Romadan asılı olan erməni knyazı II Artavazdın oğlu Tiqranı girov görürdülər.

Tiqran atasının ölümündən (b.e.ə. 95 və ya 94-cü illər) sonra onun tərəfindən əldə olunmuş torpaqların bir hissəsini Mitridata verdi. Torpaqdan qalan hissəsində hökmranlıq etdi.

Roma imperiyasının daxili qarışıqlığından, onun necə deyərlər, «sosial müharibələr» nəticəsində zəifləməsindən, digər tərəfdən sakların hücumuna başları qarışmış arşakilərin vəziyyətindən istifadə edən Tiqran ətrafındakı olan feodal knyazlıqları birləşdirdi, onların ərazilərini genişləndirərək öz müstəqilliyini elan etdi. Öz mövcudluğunu saxlamaq naminə Pont çarı IV Mitridat Yevpatorla ittifaqa girdi. Bu ittifaq əvvəllər Tiqran üçün əlverişli idi, ancaq Mitridatın Roma ilə uğursuz müharibələri Tiqranın müstəqilliyinin itirilməsi ilə nəticələndi: b.e.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey Ermənistanın işğal etdi və Tiqran Roma dövlətinin nəzarətinə keçdi.

Beləliklə, b.e.ə. 95-ci ildən başlayan Tiqranın müstəqilliyi 30 il çəkdi. Bundan sonra Ermənistan əldən ələ keçərək, gah İranın, gah Romanın hökmranlığı altında qalmışdı. B.e.ə. 53-cü ildə Roma sərkərdəsi Krass İran ordusu tərəfindən ağır məğlubiyyətə uğradı, arşaqilər Ermənistan üzərində ağalıqlarını tam bərpa etdilər.

B.e.ə. 36-cı ildə intiqam məqsədi ilə Antoni Ermənistandan keçərək İrana hücum etdi, ancaq romalılar bu dəfə də məğlubiyyətə uğradılar. Antoni məğlubiyyətinin səbəbinin birini də erməni vəliəhdi III Artavaz İrana lüzumsuz yarınmağında görürdü. Buna görə də o, əsgərlərinə Ermənistanın talan edilməsini əmr etdi.

Bu vaxtdan Armenianın idarə olunması Roma tərəfindən təyin olunmuş canişinlər həyata keçirdi. B.e.ə. 11-ci ildə Ermənistanın idarə olunmasında İran iştirak edirdi. Ölkə fasiləsiz olaraq İranın və Romanın hücumu meydanına çevrildi. Ancaq əksərən Roma hökmranlığı saxlanılırdı.

Armenia uğrunda mübarizə İran və Roma arasında 63 il davam etdi, sonra tərəflər arasında ikitərəfli saziş imzalandı: Ermənistan Roma asılılığında qaldı, ancaq idarə olunmasına Ərşaqilərin nümayəndəliyi təyin edilirdi.

Roma və İran arasındakı toqquşmalara baxmayaraq onlar arasında sazişə uyğun olaraq Ermənistanın statusu dəyişməz qalırdı; o iki dövlət arasında vassal knyazlığı idi. Bu vəziyyət 224-cü ilə qədər davam etdi.

224-cü ildə İranda Ərşaqilər sülaləsini Sasanilər əvəz etdi. Bu vaxtdan Erməni vilayətində Ərşaqilər İranın tabeçiliyinə keçmək üçün addımlar atdılar. Bu səbəbdən Ermənistan İran və Roma arasında ziddiyyətin səbəbkarı oldu. Bu ziddiyyətlər 297-ci ilə qədər davam etdi və Romanın qələbələri ilə bitdi, ancaq Ərşaqilər Ermənistanda öz mövqelərini saxladılar.

Bir sıra mənbələr Ermənistanın 301-ci ildə xristianlığı qəbul etdiyini göstərir. Əslində xristianlıq knyaz III Trdat tərəfindən qəbul edilmişdir, bu o demək deyildir ki. xristianlıq ermənilər tərəfindən qəbul edilmişdir. Ermənistanda feodallar və xalq arasında xristianlığın yayılmasına çox vaxt lazım gəlmişdir. Lakin Roma imperatoru Konstantinin xristianlığı qəbul etməsi erməni feodallarının və yaranmaqda olan gənc erməni kilsələrinin fəallığını artırdı.

Sasanilər imperiyasında isə məzdəkizm hökmranlıq edirdi. Sasanilər Ermənistanda xristianlığın qəbul olunmasını qəbul olunmaz hesab etdilər. Bu, Romada hadisələrin təhlükəli inkişafına səbəb oldu. İran və Roma arasında uzunmüddətli müharibə başlandı. Nəticədə erməni vilayəti yenə də iki imperiya arasında bölüşdürüldü: Erməni vilayətinin şərq hissəsi Ərşaqilərdən olan III Xosrovun idarəçiliyi ilə İrana keçdi, Qərb hissə isə ərşaq III Ərşaqın idarəçiliyi ilə Romanın tabeliyində qaldı.

III Ərşaqın ölümündən sonra Roma erməni vilayətinin Qərbinə yeni canişin təyin etmədi və ərazini imperiyaya daxil etdi. III Xosrovun idarəçiliyi Şərqi Ermənistanda Sasanilərin narazılığına səbəb oldu, o idarəçilikdən 392-ci ildə kənarlaşdırıldı, yerinə qardaşı Vram Çapux təyin edildi. Onun idarəçiliyi dövründə 406-cı ildə erməni əlifbası yarandı.

Sasani imperatoru Bəhramın dövründə axırıncı Ərşaq knyazı Artakes 428-ci udə öldü. Yerli feodallar yeni idarəçi istəmədilər, birbaşa İranın tabeçiliyini tələb etdilər. Bəhram bu tələbi yerinə yetirdi.

II Yəzdigerdin hökmranlığı vaxtı (428-457-ci illər) xristianların kütləvi təqib olunması başlandı, bu da 451-ci ildə Ermənistanda üsyana səbəb oldu. İran ordusu 451-ci ildə Avarayr yaxınlığında döyüşdə üsyançıların qüvvələrini əzdi və Armenianın Şərqini işğal etdi.

Ermənistanın İran hökmranlığından azadlığı 484-cü ildə imperator Firuzun ölümündən sonra mümkün oldu. Knyaz Mamikonyan müəyyən vaxt (dəqiq deyildir-red.) Ermənistanı İran ağalığından azad etdi. Vahanın ölümündən sonra İran hökmranlığını burada bərpa etdi.

Bu dövrdə erməni və yunan kilsələri arasında ziddiyyətlər başladı. Nəticədə erməni feodalları dövlət vəzifələrindən çıxarıldı, əvəzinə Bizans məmurları yerləşdirildi, yerli əhali kütləvi şəkildə Frakiyaya köçürüldü və onların yerinə başqa yerlərdən əhali və hərbi əsirlər yerləşdirildi.

Bizans (Şərqi Roma imperiyası) və İran arasında 570-ci ildən başlayan müharibə 591-ci ilə qədər çəkdi. Bizans imperatoru Mavriki (582-602-ci illər) İranı məğlub etdi, iki imperiya arasında yeni sərhədlər müəyyənləşdi, Zəngi və Qarnıç çayları daxil olmaqla erməni vilayətinin qərbini Bizansa, Dvin şəhəri daxil olmaqla erməni vilayətinin şərqi İrana daxil edildi.

Mavriki zəbt etdiyi torpaqları ermənilərdən təmizlədi. Ermənilər mərkəzi Anadolunun müxtəlif bölgələrinə köçürüldü.

Mavrikin ölümündən (602-ci il) sonra Bizans və İran arasında 25 illik (604-629-cu illər) müharibə başladı. Yenə də İran məğlub oldu, Bizans erməni vilayətləri bütün Şərq hissəsini öz himayəsinə daxil etdi.

Yeri gəlmişkən, ərəblərin işğalı dövründə (640-cı ildən) coğrafi ad olan Ərməniyyədə hakim sinif feodal knyazlıqlar (naxararxlar) və onlara tabe kiçik torpaq sahibləri (azatlar) olmuşdur. Adonsun hesablamalarına görə knyaz ailələrinin sayı 50-yə çatmışdır. Onlar öz ərazilərində tam müstəqilliyə malik olmuşlar. Bizim zəmanəmizə gəlib çatan knyaz adları (naxararxlar) aşağıdakılar olmuşdur: Kamsarakanlar, Mamikonyanlar, Sionilər, Baqratunilər, Rektounilər, Ardzrunilor, Apaxunilər, Vaxevunilər, Qmunilər. Bu knyazların əsilləri müxtəlif mənşəlidirlər. Məsələn, Kamsarakanlar fars mənşəlidirlər, Mamikonyanlar Orta Asiyadan gəlmişlər, Baqratunilər yəhudi mənşəlidir, Ardzunilər suriyalı, yalnız Sionilər erməni mənşəli olmuşlar.

Müharibə zamanı knyazların qoşunları İran tərəfindən təyin olunmuş böyük knyaza tabe olurdu. Bu lazımi birləşmə həmişə saxlanılırdı. Kiçik feodallar öz ərazilərini özləri idarə edirdilər. Ancaq mərkəzi hakimiyyətdən tələb olunduqda hərbi qüvvələrini onun ixtiyarına verirdilər. Kəndlilər qul vəziyyətində idilər. Sasanilər mövcud sistemi saxlayaraq, feodallar arasında mübarizədən öz məqsədləri üçün istifadə edirdilər.

Bizanslar isə əksinə, yerli feodalların hakimiyyətini və hökmranlığı əllərindən alaraq mərkəzi hakimiyyətə tabe edirdilər, yerli əhalini imperiyanın başqa rayonlarına və ya boş torpaqlara köçürürdülər.

Ərəblərin ilk görünüşü 639 və ya 640-cı illərə təsadüf edir. Dvin şəhərinin ərəblər tərəfindən tutulması 642 ilə aid edilir və qeyd edilir ki, 12 min erməni öldürülmüş və 35 min erməni əsir götürülmüşdür.

Ərəblərin fasiləsiz basqınları nəticəsində 653-cü ildə erməni vilayəti ərəblərin hakimiyyətinə keçdi.

654-cü ildə Bizans imperatoru II Konstantin Dvini ərəblərdən aldı, ancaq ərəblərlə əməkdaşlıq edən yerli feodalların müqavimətilə rastlaşdılar, şəhəri tərk etməyi lazım bildilər.

690-cı ildə ərəblər Aşot Baqratunini erməni vilayətinə başçı qoydu. Ölkə bu vaxt qərbdən bizansların, şimaldan xəzərlərin, cənubdan ərəblərin arasıkəsilməz hücumlarına məruz qalırdı.

Xəlifə Vəlidin hökmranlığı dövründə ərəb sərkərdəsi Məhəmməd ibn Mərvan 705-ci ildə bizanslıları məğlub edərək, erməni vilayətini tutdu, hökmran naxararxları bütövlükdə məhv etdi.

Bu vaxtdan Dvin ərəb hökmdarlarının tabeliyinə keçdi.

885-ci ildən erməni rahibləri içərisindən seçilmiş Baqratuni nəslindən olan Aşota əl-Mütaməd feodalların xahişi ilə çar titulu verdi. Bu ərəb hökmranlığının götürülməsi deyildir.

Baqratunilərin hakimiyyətinin yalnız adı var idi, erməni feodalları ona tabe olmurdular. Mütləq idarəçi xəlifə canişinləri idilər ki, onlar da vaxtdan vaxta Baqratunilərin çıxışlarına qarşı çıxırdılar.

970-ci ildə Bizans Ermənistanın imperiyaya qaytarılması uğrunda mübarizəsinə başladı.

1020-ci ildən türk oğuz tayfalarının Ermənistana hücumu başladı. Oğuzların ilk zərbəsi Van gölü ətrafındakı torpaqları tutmuş Vaspurakan knyazlığına endirildi. Knyazlığın sahibi Seneqerim Hovanes Bizans imperatoru II Vasiliyə onun torpağının Bizansa qatılmasını xahiş etdi. İmperator cavabında Sivaşın qatılmasını irəli sürdü. Knyaz oraya-yeni əraziyə 14 min kişini-qadın və uşaqları ilə gətirib Bizansın tabeliyinə keçdi.

II Vasiliy Ermənistanın digər yerlərini birləşdirməyi davam etdi. 1025-ci ildə-ölüm gününə qədər, o, ölkənin üç hissəsini tutdu, baqratunilərin Ani knyazlığının tutulmasını isə başa çatdıra bilmədi. Baqratunilərin knyazlarından Abas və Davidin hakimiyyətləri, o cümlədən Qars, Faşir və Göyçə sahilini tutmuş Sioni nəslindən olan knyaz Qriqorinin hakimiyyəti nisbətən müstəqil qaldı.

Ani knyazının ölümündən sonra II Vasilinin vəliəhdi Mixail ona vəd edilən torpaqların verilməsini tələb etdi, ancaq ölmüş knyazın oğlu II Xaçik atasının iradəsini yerinə yetirilməsini rədd etdi. Mixail öldü, o knyazdan qisas ala bilmədi, ancaq onun yerinə keçən Konstantin Monomax 1045-ci ildə Anini istila etdi.

Həmin ildə Səlcuq sultanının əmisi oğlu Toğrul Qutalmış Gəncə yaxınlığında Bizans ordusunu məğlub etdi. İmperator Konstantin Monomax bu vaxt 50 minlik erməni ordusunu məhv etməklə məşğul idi.

Səlcuq ordusu hücumları dayandırmadı və yeni torpaqlar tutdu. Türklərə qarşı gürcülər və bizanslılar müqavimət göstərirdi. Ermənilər isə Bizans tərəfindən dağıdılmış və məhv edilmişdir, türklərə qarşı bu müqavimətlərdə iştirak edə bilmədi.

Nəhayət, 26 avqust 1071-ci ildə Malazgirtdə Bizans ordusu həlledici məğlubiyyətə uğradı. Ordu başçısı Roman Diogen əsir düşdü və bütün erməni vilayəti beləliklə səlcuqların hakimiyyətinə keçdi.

Coğrafi rayon adlanan Ərməniyyə 1157-ci ilə qədər Səlcuq imperiyasının tərkibində qaldı. Sonra bu vilayət İraq səlcuqlarının əlinə keçdi və 1194-cü ilə qədər onların idarəsində mövcudluğunu saxladı. Sonralar bura Xarəzm şahlarının hakimiyyətinə daxil oldu. Onlardan da bu bölgə Elxanilərə keçdi.

Elxanilər dövləti dağıldıqdan sonra 1334-cü ildə erməni vilayətinin coğrafi ərazisi Calairlilərə keçdi, 1383-cü ildə oranı Teymurləng, Teymurun ölümündən sonra Qaraqoyunlu dövləti (1410-1468), Ağqoyunlu dövləti (1468-1501), sonra isə Səfəvi dövləti (1501-1736) tutdu. 1514-cü ildə Sultan Səlim Ərzincanı, Ərzurumu, Axiskanı, Bayaziti alaraq, 23 avqust 1514-cü ildə Çaldıran döyüşündə qələbə çalıb Təbrizə daxil oldu, lakin tez oranı tərk etdi. O,1515-ci ildə Kemaxı və Diyarbəkiri, 1517-ci ildə isə Mardini tutdu. Sultan Səlim yeni ərazilər ələ keçirərək 28 may 1555-ci il müqaviləsinə görə səfəvilərdən Şərqi Anadolu və İraq Osmanlı imperiyasının tərkibinə keçdi.

Beləliklə, aydın oldu ki, bizim eradan əvvəl IV əsrdən başlayaraq coğrafi ad olan Ermənistanda bu günə qədər də digər xalqlar kimi erməni adlanan xalq da yaşamışdır. Lakin onların mənşəyi bu gün də aydınlaşmamışdır. Həmçinin Ermənistanın ən çox hansı bölgələrində və nə qədər yaşamaları məlum deyildir. Bu bölgə - Ermənistan Makedoniyalı İsgəndərin fəthinə - eradan əvvəl 331-ci ilə qədər əhəmənilər imperiyasının bir əyaləti olmuşdur. İsgəndərin ölümündən sonra onun imperiyası sərkərdələri arasında bölüşdürülərkən Ermənistan Solyusların hakimiyyətinə keçmişdir.

Qeyd edilən tarixi həqiqətlər və faktlara əsaslanılarsa Ermənistanda hər hansı bir müstəqil dövlət və ya vahid erməni xalqı təsəvvür etmək mümkün deyildir. Yalnız yuxarıda göstərildiyi kimi, Tiqranın idarəçiliyinin 30 ili müddətində Ermənistan müstəqil olmuşdur. Lakin onun tərkibində feodal hakimiyyətli knyazlar olmuşdur ki, onların da erməni olduqlarını söyləmək çətindir. Yalnız o dəqiqdir ki, Ermənistanda yaşayanlar yalnız erməni olmamışlar.

Ona görə burada hər hansı bir erməni dövlətinin varlığı nə onun tarixi haqqında söhbət gedə bilməz.

Ermənilər mənşələrinin qədimliyini dinə və dilə bağlayırlar. Xristian dini və ya digər bir din heç də xalqların tarixinə, yaxud onların millət kimi formalaşmasına səbəb ola bilməz. Dilə gəldikdə, o tarixən dəyişən fenomendir. Bu erməni dilinin öz keçirdiyi tarix belə sübut edir ki, millətin qədimliyi aborigen olması dillə də müəyyənləşə bilməz. Bu dəyişən fenomen elə ən bariz nümunəsini erməni dilinin özündə görürük: qədim erməni dili qrabar (aristokratiya dili), müasir erməni dili (aşxarabar). Bunlar tamamilə müxtəlif dillərdir.

Bu araşdırma və mülahizə filologiya elmləri doktoru Firudin Cəlilovun mülahizə və araşdırmalarında bir daha sübut olunur. O qeyd edir:

Ermənilər kimdir, haradan və nə vaxt gəliblər, hansı inkişaf yollarını keçiblər, hansı xalqlarla əlaqələri olub və s. əvvəla, biz «erməni» ilə «hay» məsələsini bir-birindən ayırmalıyıq. Yəni tarixdə olub bir erməni xalqı, bir də hay xalqı - yəni o ermənilərin bu ermənilərə dəxli yoxdur. O ermənilər Fərat çayının yuxarı hissələrində yaşayırdılar, bölgənin də adı Ərmən idi. Sonra onların böyük bir hissəsi Azərbaycana, buradan isə Orta Asiyaya köçdülər. Hətta ermənilər Baykal gölünün yanına qədər getdilər. Bu gün Baykal gölünün ətrafındakı silsilə dağlar Ərmən dağları adlanır. Bu gün başqırların içində Ərmən boyaları var....Bugünkü ermənilər, yəni haylar, mən öz yazılarımda onları psevdoermənilər adlandırıram, gəlib Ərmən bölgəsində yaşayandan sonra artıq onlara Ərmən bölgəsinin əhalisi mənasında ərməni deyirlər. Bu tarix haradasa bizim eranın IV-V əsrlərinə təsadüfdir. Haylar özlərinin əlifbasını hazırlayandan və xristianlığı qəbul edəndən son azəri türklərinin yaşadığı torpaqlarda yaşamağa başladılar....Biz onlara erməni deyirik, amma onlar özləri özlərinə heç vaxt erməni deməyiblər. Gürcülər onlara "samexi", kürdlər «filə» deyirlər. Əslində bu söz ərəbcədən götürülüb, mənası fəhlə deməkdir...Kilsələrdə onların tarixi yazılmağa başlayanda, bu torpaqlarda izlərindən əvvəl yaşamış ərmənilərin tarixini öz adlarına çıxmağa başladılar. Ona görə də onlarda belə bir şovinizm hissi yarandı ki, onlar böyük və qədim xalqdırlar. Kilsə bu günə qədər erməni toplusunu milli şovinizm yoluna yönəldən bir qurumdur.

Akademik Cəmil Quliyevin araşdırmalarında qeyd edilən mülahizə bir daha izah edilir ki, planetdə bəzi ölkələr orada yaşayan xalqın adı ilə adlanır, bəzi xalqların adları isə yaşadıqları ölkənin adı ilə adlanır. Ermənilər II mülahizəyə aiddir. Akademik sözünə davam edərək qeyd edir: "Armeniya"-coğrafi zonanın, regionun adıdır. Eramızdan əvvəl «Armina» (qədim yunan» Armeniya») adlanan ərazidə xetlərdən müxtəlif dilli qəbilələr məskunlaşmış, bu tarixi diyar xetlərdən başlamış, fars, makedoniya, yunan, bizans, ərəb, nəhayət səlcuq və osman hakimlərini görmüşdür. «Ermənistan» («Armeniya») adı, «Armyane» etonomi də heç bir əlaqəsi yoxdur, onlar özlərini «hay» adlandırırlar və hətta alman alimi və yazıçısı Erix Fayql alman və fransız dilində 2000-ci ildə nəşr olunmuş «Pravda o terrore» (armyanskiy terrorizm-istokii prinsipi) kitabında yazır: «Onlar (haylar-red.) Balkandan gəlmiş. Hay xalqı bu regionda əhalinin heç vaxt çoxluğunu təşkil etməyib». Bu fikir dünya xalqlarına həsr olunmuş ensiklopedik ədəbiyyatda da qeyd olunur.

Yeri gəlmişkən, ermənilər harada sıx və ya seyrək yaşamalarından asılı olmayaraq oradakı tarixi abidələri həmişə öz adlarına çıxırlar. Bu minvalla Qərbi Azərbaycanda və Qarabağda olan alban kilsələrini erməniləşdirmişlər və Cənubu Zaqafqaziyada bütün tarixi abidələri öz adlarına çıxmışlar.

Urartu dövləti dağıldıqdan sonra onun xarabalıqlarına yiyələnib, yerli əhalinin qalığının bir qismini haylaşdırdılar (Əriatrı, Nairi, Dayanı tayfalarının qalıq qismini). Bu faktı tarix elmləri doktoru Dmitri Furman «Noy» məcmuəsinin redaktoru Vardvan Varcapetyanın suallarına cavab verərkən təsdiq etmişdir: «Ermənilərin əcdadları Urartu torpaqlarına yollanarkən başqa xalqlar onları durdura bilərdilər. Lakin tarixdə heç zaman müstəqil dövlətçiliyə malik ola bilmədilər. Coğrafi məkanlarından asılı olaraq Şərqin və Qərbin işğalçı dövlətlərinin alətinə və bəzi hallarda isə vassalına çevrildilər.»

Araşdırmalardan aydın olur ki, Ermənistan deyilən ərazidə müxtəlif xalqlar və müxtəlif dövlətlər olmuşdur. Oraya haylar (bəzən isə «hayk») sonralar gəlmişlər. Hazırda ermənilər özlərini «hay» və sayca az və çox olmasından asılı olmayaraq harada olursa-olsun yaşadıqları ərazini «Hayastan» adlandırırlar və Ermənistan» (Armenien) sözünü «Hayastan»ın tərcüməsi kimi təbliğ edirlər. Aydındır ki, «Ermənistan» sözünün ermənilərə aidiyyəti yoxdur və haylar oranın aborigen əhalisi deyildirlər, tarixən orada yaşayan xalqlardan azlıq təşkil etmişlər.

Ermənistan adlanan bu coğrafi ərazi həm qədim dövrlərdə, həm də müasir dövrdə müxtəlif xalqlar yaşamış və yaşayırlar.

Bununla yanaşı, ərazi coğrafi durumuna görə Şərq və Qərbin maraq obyekti olmuşdur. Bu ərazidə həmişə müharibələr baş vermişdir. Müharibə aparan dövlətlərin qələbə və ya məğlubiyyətindən, yaranmış tarixi şəraitdən ermənilər öz maraqlarına uyğun istifadə etmişlər. Erməni knyazlıqları məğlub olan tərəfin müvəqqəti sahibsiz qalmış ərazisində müstəqillik, qalib tərəfdə isə tabeçilik nümayiş etdirmişlər. Özlərini müstəqil elan edən knyazlıqların bir həftə, bir ay və ya 6 ay ömrü olmuşdur. Hətta erməni tarixçilərinin özləri belə, məsələn Moisey Xoranetsi H.Pastırmacyan, L.Nalbandian, R.Hovanisyan və başqaları müasir ermənilərin bir xalq olaraq coğrafi ərazi olan Ermənistanla heç bir əlaqəsi olmadığını demişlər.

Məşhur tarixçilərdən Herodot, A.J.Tronbe, A.Qatterias, J.de Morqan, F.Makler, D.Lanq və başqaları Ermənistan və ermənilər mövzusuna toxunaraq qeyd etmişlər ki, qədim Anadolu torpaqlarında heç bir xalqla əlaqəsi olmayan bir neçə coğrafi

bölgə adları olub və onlardan biri də «Ermənistan» deyilən toponimik ərazidir. Həmin torpaqlarda zaman-zaman müxtəlif xalqlar yaşayıb. Buradan da belə bir nəticəyə gəlmək olur ki, qədim oğuz məskəni indiki Ermənistanın qədim «Ermənistan» adı ilə heç bir bağlılığı yoxdur və bu torpaqlara ermənilərin sahib çıxmaları tarixi ədalətsizlikdir.

Qeyd etmək lazımdır ki, həmişə dindən (xristian dinindən) istifadə edən ermənilər dinini qəbul etdikləri Bizans imperatorluğu dövründə daha ağır yaşayış tərzi keçirmişlər. Onların xəyanətlərinə görə tez-tez yerlərini dəyişmişlər.

Bizans imperatoru II Yustinian erməniləri müxtəlif ərazilərə, Sasani hökmdarı II Şapur (VI əsr) 700 ermənini İranın ərazisinə köçürmüşdü. Bizans imperatoru Mavriki (582-602-ci illər) 570-591-ci illər arasında İranla gedən müharibədə İrana qalib gəldi və sərhəd Ermənistanın Zanq və Qarniç çaylarından müəyyən edildi. Mavriki tutduğu ərazilərdən erməniləri təcili olaraq təmizlədi, onları Frakiyaya və digər bəlgələrə sürgün etdi.

VIII yüzillikdə V Konstantin ermənilərin kütləvi köçürülməsini təşkil etmişdir.

VII əsrdə ərəblər 642-ci ildə Dvini tutdular, 12 min erməni öldürdülər və 35 min ermənini əsir götürdülər, bəzi erməniləri isə sonrakı illərdə ərəb ölkələrinə köçürdülər.

X əsrdə imperator II Vasili erməniləri Makedoniyaya, Fessaliyaya, Bolqarıstana köçürmüşdür.

Kilikiyaya səlib yürüşləri zamanı çoxsaylı erməniləri Kiprə, Kritə, İtaliyaya monqolların istilası dövründə isə Kazana və Həştərxana köçürülmüşlər.

I Şah Abbas imperiyanın ucqarlarından erməniləri İranın mərkəzi bölgələrinə köçürmüşdür. İranda yaşayan ermənilər Türkmənçay müqaviləsindən sonra küllü miqdarda Rusiya imperiyası tərkibinə daxil olan İrəvan, Qarabağ, Gəncə xanlıqları ərazilərinə və Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərinə köçürülmüşdür.

Yeri gəlmişkən, mühacir ermənilər üçün Rusiya İrəvanda, Naxçıvanda, Qarbağda 200 min desyatin ən yararlı torpaq sahəsi ayırdı. Onlardan 20 il vergi alınmayacağını vəd etmişlər.

Bununla yanaşı, Rusiya 1788-ci ildə Kırımdakı bütün erməni ailələrini Rusiyanın müxtəlif ərazilərinə köçürüb, onların yerinə rusları yerləşdirdi.

## 3. KİLİKİYA ÇARLIĞI

Müstəqil erməni Kilikiya çarlığının tarixi haqqında çoxlu yazılar mövcuddur. Kilikiya çarlığının tarixi Anadolu səlcuqlarının, Bizasın, Suriyanın, Atabəylərin, səlib yürüşlərinin, məmlüklərin tarixi ilə sıx bağlıdır. Erməni Kilikiya çarlığı haqqında Avetis Sanciyanın əsərində geniş məlumat vardır (A.K.Sancian. The Armenian Communites in Syrla under Ottoman Dominion «Cambridge (Mass), 1965).

Hənin kitabdan Kamuran Gürünün verdiyi məlumatlarla qısa şəkildə tanış olaq:

Erməni kilsəsi Bizansdan ayrıldıqdan sonra erməni millətçiliyinin və etnik birləşməsinin mərkəzinə çevrildi. Bunu başa düşən zadəgan və ruhani hakimiyyətli Bizans erməni-feodal ailələrinin ləğvinə yönəlmiş assimilyasiya siyasətinin davamı olaraq müstəqil erməni kilsəsinin ləğvinə çalışdı. O bu məqsədə nail olmaq üçün əlindən gələni etdi. Bu vasitələrdən ən başlıcası Ermənistanın Qərbindən erməni əhalisini başqa bölgələrə, yunanlar tərəfindən zəbt edilmiş torpaqlara və Bizansın digər rayonlarına köçürülməsi idi [38].

Ermənistanın ərəblər tərəfindən işğalı VII Əsrin sonlarından IX əsrin ortalarına qədər davam etdi ki, bununla da erməni-Suriya münasibətlərinin yeni mərhələsi başladı. 639-640-cı illərdə ərəblərin hücumları nəticəsində zəbt edilmiş torpaqlarda çaxnaşmalar ara vermirdi, ona görə yerli əhali arasında Urfa, Antakya və Şimali Suriyaya kütləvi köç başlandı. Bizansdan fərqli olaraq ərəblər erməni kilsəsinə qarşı heç də mənfi münasibət bəsləmirdi. Bundan başqa ərəblər 711-713-cü illərdə imperator Filipp tərəfindən sürülmüş böyük miqdarda ermənilərin geri qayıtmalarına şərait yaratdılar, həmçinin Şimali Suriyadan da əhalinin köçürülməsini həyata keçirdilər. Onların əksəriyyətini Torosda və Mesopotamiyada və yunanların hücumlarından qorunmaq üçün ərəblərin tabeçiliyində olan yeni ərazilərin sərhədlərində yerləşdirdilər.

XI əsrin əvvəllərində ərəb xilafətinin zəifləməsindən istifadə edən Bizans tədricən Ermənistanın torpaqlarını tutmağa başladı, tutulmuş ərazinin sakinlərini isə Sivaş, Qeysəriyyə və Kappadokidə yerləşdirdi. Feodallarla bərabər kəndlilərin böyük kütləsi də deportasiya edilirdi ki, onlar da bu yeni yerlərdə əvvəlcədən məskun olmuş həmtayfaları ilə get-gedə qaynayıb qarışdılar.

Bizans hökuməti zadəgan ermənilərin bəzilərindən böyük sərhədlərin idarəçilərini təyin etdi və onlara orduda komandir vəzifələri verdi. Çox keçmədən Bizasın zəifləməsindəıı asılı olaraq vəzifədə olan bu ermənilər mərkəzə tabe olmaqdan boyun qaçırdılar. Ruben 1080-ci ildə Kilikiya müstəqil knyazlığını elan etdi ki, bu da Bizans və ərəb ölkələri arasında yerləşən ən çox vəzifəli feodal quruluşlu knyazlardan biri idi. Bu dövlətin qurulması Səlib yürüşləri zamanı yaranmış Urfa, Antaka, Trablos knyazlıqları, Frank Fələstin krallığı ilə əməkdaşlığın nəticəsi kimi Suriya ermənilərinin müstəqilliyi nöqteyi-nəzərdən onların tarixində dönüş nöqtəsi oldu. Güclü dövlətlər əhatəsində olan Kilikiya erməni knyazlığının yarandığı gündən dinc dövrləri az olmuşdur. Latınların (səlibçilərin-red.) Orta Şərqdən qovulmasından sonra zəifliyinə baxmayaraq, Kilikiya bir xristian dövləti kimi özünü müdafiə edə bilmiş knyaz Levon II (1187-1219) düşmən əhatəsində müvəffəqiyyətlə qaldığından Almaniya imperatoru VI Henrix və Roma Papası III Selestin ona çarlıq tacı göndərmişlər.

Beləliklə, ermənilər tarixi Ermənistanda müstəqilliklərinin itirilməsinə məhəl qoymadan sonradan yeni vətənə yiyələnməklə Aralıq dənizi sahillərində öz çarlıqlarını bərpa etdilər. Kilikiya dövləti II Levonun idarəçiliyi müddətinin ən ali yüksəlişində yaşayaraq hökmranlığın Kiçik Ermənistan adı altında İsauriyadan (indiki Antaliya) Anamosa qədər genişləndirmiş və öz adına uyğun olaraq erməni icmasının birliyini doğrultmuşdur.

---

[38] Kamiran G. Erməni dosyesi, s.3.

Yeri gəlmişkən, Avetis Sanciyan bu mülahizələrində bir qədər ənənəvi erməni xəstəliyinə qapanaraq saxtakarlığa yol verir. Belə ki, yuxarıdakı qeydlərimizdə, Ermənistanın qısa ömürlü müstəqilliyinin dəqiq müddəti və zamanı. Həmçinin vaxtilə mövcud olmuş erməni knyazlarının Kilikiya torpaqlarında mövcud feodal knyazlıqlarla əlaqəsinin olmadığı da aydın həqiqətdir.

XIII əsrin birinci yarısında monqol-tatarlar Ermənistandan keçərək Anadoluya çıxdılar. Kilikiyanın bütövlüyünü saxlamaq üçün çar Xetum 1247-ci ildə İsyuk xanla və sonralardan 1253-cü ildə onun varisi Menqu xanla hərbi müqaviləyə girdi. 1250-ci ildə erməni hərbi hissələri I Xetumun rəhbərliyi altında Hülakü xanın ordusu ilə Hələbi, Xamanı, Xomasanı, Dəməşqi və digər Suriya şəhərlərini tutdular. 1260-cı ildə monqollar məmlüklər tərəfindən məğlubiyyətə uğradılar. 1266-cı ildə məmlüklər Kilikiyanı tutdular, onun əhalisinin bir hissəsini qırdılar, bir hissəsini isə əsir görürüb Misirə apardılar.

1274-1275-ci illərdə məmlük sultanı Bəybars Kilikiyaya yeni yürüş etdi. Əsas zərbə Tarsusda vuruldu və Misirə 10 min əsir aparıldı. Monqollar Xetumun hərbi hissələri ilə birlikdə Suriyaya bir neçə yürüşlər edərək Xoms və Dəməşq döyüşlərində bəzi müvəffəqiyyətlərə nail oldular, ancaq 1303-cü ildə Dəməşq divarları önündə həlledici məğlubiyyətə uğradılar.

1342-ci ilə qədər Kilikiya çarlığı Ruben və Xetumun erməni əsilli nəsli tərəfindən idarə olunurdu. Axırıncı nümayəndə Xetumun nəslindən Levon IV olmuşdur ki, onun oğul varisi olmamışdır, vəliəhd IV Levonun qadın qohumu Kipr çarı II Henrixin qardaşı oğlu Qui de Yusin olmuşdur. Beləliklə, erməni knyazlarının taxt-tacı fransız nəslinin idarəçiliyinə keçdi və erməni çarlığı digər bir tərəfdən katolik kilsəsinin idarəçiliyi altına girdi.

1375-ci ildə Sis Kilikiya dövlət iqamətgahını tutdu və məmlüklər erməni Kilikiya dövlətini öz imperiyalarına qatdılar. Sisin zəbti 40 min adamın əsir götürülməsi oldu ki, onların da bir hissəsi Hələbə sürüldü.[39]

Beləliklə, Kilikiya çarlığının 300 illik mövcudluğuna 1375-ci ildə məmlüklər tərəfindən son qoyuldu.

Bu torpaqların fəthi türklər-Osmanlılar tərəfindən 1516-cı ildə oldu. Həmin ildə Sultan Səlimin komandanlığı altında Mərcidabik və Ridani döyüşlərində məmlüklərin imperiyasına səlcuqlar tərəfindən son qoyuldu.

Beləliklə, aşağıdakı mülahizələrə gəlmək olar: Erməni əsilli Avetis Sanciyanın araşdırmalarından aydın olur ki, yuxarıda qeyd edilən torpaqlar Şərqdə ermənilərin müəyyən tarixi dövrlərdə gah vassal, gah müstəqil olan knyazlıqları məhv edildikdən 470 il sonra və Qərbdə Kilikiya çarlığı dağıldığı vaxtdan yalnız 150 il sonra türklər tərəfindən fəth edilmişdir. Bu torpaqlardakı erməni əhalisi Osmanlı imperiyasına qədər öz dinamik inkişafını və müstəqilliyini saxlaya bilməmişdir. Belə ki, bu mövzuya dair ədəbiyyatların heç birində XVI əsrin birinci yarısına qədər qeyd edilən torpaqlarda ermənilərin daim sakin olduqları və müstəqil dövlətləri haqqında tutarlı məlumat yoxdur.

Tarixən daim mühacir həyatına üstünlük verən ermənilər qaraçılarla birlikdə güman ki, Şimali Hindistandan əsrlərlə köçkün düşmüşlər. Qaraçılardan ayrıldıqdan sonra ermənilər Urartu dövlətinin son tənəzzülü dövründə Anadolunun Şimal Şərqində yerləşən Tavr dağları ətəyində yarımköçəri həyat sürərək Urartu zadəganlarına xidmət göstərmişlər. Digər bir mənbədə deyilir: Ermənilər e.ə. 2-ci minillikdə Kiçik Asiyanın Şimal-Şərqində yaşamışlar. Bu ölkə Hett (e.ə. XVI-XV əsrlər) kitabələrində Armatana, sonralar isə (e.ə. XIV-XIII əsrlər) Hayasa adlanırdı. Bu mülahizələr də sübutunu tapmır.

Ermənilər xalq kimi əsasən e.ə. 1-ci minilliyin 2-ci yarısında formalaşmışlar. (ASE, IV cild, səh. 81). Bizim eranın XIX əsrinin əvvəllərindən isə ermənilər qismən qədim Oğuz-alban yurdunun ayrılmaz hissəsi olan Qərbi Azərbaycan (indiki Ermənistan) və Zaqafqaziyanın digər ərazisinə gəlib, get-gedə alban, udin, aysori, urum və digər Qafqaz xalqlarının maddi mədəniyyət irsinə həyasızcasına sahib çıxmağa can atmışlar. «Böyük Hayastan» planı ilə nəzərdə tutduqları ərazilərə özlərinin həqiqi varisliyini əsaslandırmaq məqsədi ilə özlərini gah sami, gah avropeid kimi qələmə verməyə çalışmışlar və böyük bir ərazini (Şərqi Anadolu, Şimali Suriya, Şimali İraq, Qərbi Azərbaycan və bütün Zaqafqaziya Qafqaz sıra dağlarına qədər) «Böyük Hayastan» adlandırmışlar.

Ermənilərin adlarına çıxdıqları torpaqlar Urartunun süqutundan sonra e.ə. VI əsrin axırıncı rübündə Əhəmənilər, e.ə. III əsrin sonundan Selevkilər dövlətinə tabe edilmişdir.

Selevkilər (Solyuslar) Maqnesiya yaxınlığındakı döyüşdə (e.ə. 190-cı il) romalılara məğlub olduqdan sonra, Artaşet yaranmış tarixi şəraitdən istifadə edib müstəqil erməni dövlətini elan etdi. Bu müstəqillik isə qonşu dövlətlərin gah himayəçiliyinə, gah da tabeçiliyinə keçirdi. Nəhayət, II Tiqranın hakimiyyəti dövründə (e.ə. 96-66-cı illər) romalılarla müharibədə haylar demək olar ki, bütün torpaqları itirdilər və e.ə. 66-cı ildə Roma imperiyasına tabeçiliyi qəbuletməyə məcbur oldular.

E.ə. I əsrdən hayların dağınıq halda yaşadıqları ərazilər Roma və Parfiya çarlığı arasında mübarizə meydanına çevrildi. Bizim eranın 62-ci ilində «Ermənistan» deyilən ərazidə Arşaqilər sülaləsi hakimiyyətə keçdi. III əsrin 2-ci yarışında isə Arşaqilər Sasanilər dövlətindən asılı vəziyyətə düşdü. Bu asılılıq bəzən mübarizələrlə nəticələnirdi. Sasanilərə qarşı bu mübarizədə haylar Ermənistanı IV əsrdə müstəqil dövlət elan etdilər. Bunun da çox ömrü olmadı. 387-ci ildə Ermənistan Roma və Sasanilər arasında bölüşdürüldü. Lakin tabeçilik şəraitində erməni çarları mövcud idi. Bu formal çarlıqlar 391-ci ildə erməni vilayətinin Qərbi, 428-ci ildə isə Şərqi vassal knyazlıqları ləğv edildi. Qərbi Ermənistanı Roma sərkərdəsi, Şərqi Ermənistanı isə Sasani canişini (Mərzban) idarə edirdi.

VI əsrin sonunda Sasanilər Ermənistanın çox hissəsini Bizansa güzəştə getdilər. Bizans imperiyası daxilində yenə də formal titul «çarlıq» qalırdı. VII əsrin sonunda Ərəb qoşunları Zaqafqaziyanı işğal edib «Ermənistanı», Kartili və Qafqaz Albaniyasını bir əmirlikdə (Ərməniyyə) birləşdirdilər. Ərəb Xilafəti zəifləyən kimi Bizanslılar «Ermənistanı» XI əsrin birinci yarısında işğal etdi. XI əsrin ortalarında Səlcuq hücumları başlandı. XI əsrin 70-80-ci illərində erməni vilayəti Bizansdan alındı. Bu arada ermənilər fürsətdən istifadə edib. Aralıq dənizi sahilində (Kilikiyada) Rubenilərin hakimiyyəti altında erməni çarlığı elan etdilər. Bu çarlıq da yenə də mərkəzi hakimiyyətə tabe olurdu.

---

[39] Kamiran G. Erməni dosyesi, s.18.

Kilikiya çarları: - II Levon (1185-1219), I Hetumun (1226-1270) və III Levon (1271-1289), IV Levonun qadın qohumu fransız II Henrix Qui de Lusin və onun sülalələri 1375-ci ilə qədər davam etdi.

XIII əsrin sonunda Səlcuq dövləti dağıldı, erməni Kilikiya «Çarları» və digər erməni əhalisi Monqol-tatarlara tabe olaraq Elxanilər dövlətinin tərkibinə daxil oldular. Nəticədə müstəqil olmayan Klikiya «çarlığı» da ləğv edildi. XIV əsrin əvvəllərində ermənilərin bir hissasi Osmanlı dövlətinin tərkibində, digər hissəsi İranin tərkibində XV əsrin əvvəllərindən Qaraqoyunlu sonra isə Ağqoyunlular dövlətinə tabe edildilər.

XVI əsrdən ermənilər (İran ərazisində olanlar) Səfəvilər dövlətinin tərkibində yaşadılar. I Şah Abbas (1587-1629) çoxlu erməni ailəsini Gürcüstan və Azərbaycana köçürürdü, onlar üçün iş yerləri açırdı. Bu məqsədlə Şamaxıda və Tiflisdə sənətkarlıq emalatxanaları fəaliyyətə başladı.

1639-cu ildə Türkiyə və İran arasındakı sülh müqaviləsinə görə erməni vilayətinin Qərbi Türkiyəyə, Şərqi isə İrana verildi. (ASE, IV cild, Səh. 81-85).

Oxucular özləri müəyyənləşdirə bilər «Böyük Ermənistan» nə vaxt və harada mövcud olmuşdur? Bu bir xülyadır ki, bu xülya erməni xalqını tarix boyu xəstəliyi etmişdir. Onlar «Böyük Ermənistan» xəyalı ilə yaşayır və onun uğrunda mübarizə edir və türkləri əbədi düşmən timsalında təbliğ edirlər. Ermənilərin pataloji xəstəliyi türkə qarşı hiylə və yalandır.

Ermənilər yarandıqları gündən uydurma «Böyük Ermənistan» uğrunda bütün tarixi məqamlardan istifadə edərək mübarizə aparıb qurbanlar vermişlər. Bu işdə Rus İmperiyası ermənilərə böyük dəstək vermişdir. Məsələn, İsrail Ori XVIII əsrin 20-ci illərində I Pyotrla «Böyük Ermənistan» ideyasını irəli sürdü. 1761-ci ildə İsrail Orinin davamçısı İosif Emin «Böyük Ermənistan»ın bərpası üçün Rusiya hökuməti ilə danışıqlar apardı.

1813-cü ildə Şimali Azərbaycan xanlıqları, Naxçıvan və İrəvan xanlıqları isə 1828-ci ildə Türkmənçay sülh müqaviləsinə görə Rusiyaya birləşdirildi. Ermənilər həmin torpaqlara və Zaqafqaziyanın digər bölgələrinə köçürüldü. Budur erməni xalqının tarixi. Ermənilər qeyd edilən ərazilərin «Hayastana» aid olmasının ərəb mənbələrinə də əsaslanırlar ki, ərəblər onların torpaqlarının adını «Ərməniyə», özlərinin adını isə «ərmən» qoymuşlar. Lakin «ərməniyə» sözü isə ərəb coğrafi elmində «ərmən» sözündən olub, «ərmən» sözü isə Zaqafqaziyada və Şərqi Anadoluda türk emogenezində iştirak edən tayfalarına (ərmənlər, qıpçaqlar, bolqarlar, skiflər və s.) verilən ümumi addır. Bu sözün isə haylara heç bir aidiyyatı yoxdur. Ərəb istilası dövründə işğal edilmiş əraziləri vahid mərkəzdən idarə etmək məqsədi ilə Şimal-Şərqi Anadolu «Ərməniyə I», Cənubu-şərqi Zaqafqaziya «Ərməniyə II», şimal-Qərbi Zaqafqaziya isə «Ərməniyə III» adlandırılmışdır. Həmin ərazilər həm də «Ermənistan» (Ə.-I), Azərbaycan (Ə.-II), Gürcüstan (Ə.-III) adlanırdı. Ermənilər özlərini həm də «ərmən» adlandıraraq ərəb işğalının bu şərti ərazi bölgəsini xarici aləmdə «ərməniyə», daxili aləmdə isə «hayastan» adlandırıb torpaq iddiasına düşmüşlər.

## 4. ERMƏNİ KİLSƏSİ HAQQINDA

**Toynbi yazır: «Səmavi dinlər sivilizasiyalar dağıldıqda yaranır, dövlətin siyasi çərçivəsi marağında inkişaf edir, dövlət sivilizasiyanın geriləməsi və məhvi zamanı onu bərpa etməyə cəhd edir» (A.Y.Toynbee. Or.cit., r.381).**

Buradan belə bir qanunauyğunluq meydana çıxır: dövlət dinin dövlət ideologiyasına çevrilməsinə səy göstərir. Dinisə öz növbəsində dövlətin möhkəmləndirilməsi və güclənməsinə xidmət edir.

Bu baxımdan Ermənistanda mövcud olan vassal knyazlar din qəbul etmək ehtiyacında olmuşlar. Bizans və İran arasında həmişə mübahisəli torpaq olan Ermənistanın qərbində Bizanslar, şərqində isə Sasanilər, Ərşaqilər sülaləsi hökmranlıq etmişlər. Ermənistan hər iki dövlətin vaxtdan-vaxta hökmranlığında olmuşdur. Sasani Ərşaqi knyazları İran və Bizansın dindən dövlət siyasətində istifadə etmək təcrübəsini görürdülər və onlar da hökmranlıq etdikləri xalq arasında dinin yayılmasına tərəfdar olmuşlar. Bu baxımdan 301-ci ildə xristianlıq Ermənistanda knyaz III Trdat tərəfindən qəbul olunmuşdur. Baxmayaraq ki, Sasanilər İranda məzdəkizm dininə qulluq edirdilər. Knyaz III Trdatın xristianlığı qəbul etməsi o demək deyildir ki, Ermənistan xalqı xristianlığı qəbul etmişdir. Ermənistanda feodallar və xalq arasında xristianlığın yayılması uzun zaman çəkmişdir.

Əfsanəyə görə Ermənistanda xristianlığın yayılması mömin Qriqorinin adı ilə bağlı olmuşdur. O erməni vilayətində çarlıq etmiş Ərşaqilərin nəslindən olmuşdur. Mömin Qriqori 257-ci ildə anadan olmuşdur. Onun atası Anak İran şahının tapşırığı ilə II Trdatı ov zamanı öldürmüşdür. Ölüm ayağında II Trdat vəsiyyət edir ki, Anakın bütün nəslini kəssinlər. Bu vaxt Qriqori Qeysəriyyəyə qaça bilmiş və qardaşının xristian himayəçisi yanında sığınacaq tapmışdır. Burada xristian erməni qadın knyazı ilə evlənmişdir və onların 2 uşağı olmuşdur. Sonra Qriqori Ermənistana qayıtmış və xristianlığı yaymağa başlamışdır (Y.de Morgan. Or.cit., r.102).

Əfsanə daha maraqlıdır. «Bu vaxt erməni knyazı III Trdat xristianlığın qəddar düşməni kimi qərara gəlmişdir ki, Qriqorini öldürsün. Qriqori isə öz xristianlığını elan edərək hazırlanmış qarşıdurmaya mane olmağa çalışır. Knyaz öyrəndi ki, təhlükəyə məruz qalmış Qriqori onun atasını öldürən Anakın oğludur, onu Varqarsabad zindanına salmaq qərarına gəldi və iş icra olundu. O anda Trdatın ağlı başından sıçradı və özünü qaban kimi apardı. Heç bir həkim Trdatın şüurunu müalicə edə bilmədi. Bu vaxt Trdatın bacısının yuxusuna mələk girir və məsləhət görür ki, Qriqoriyə müraciət etsin. Zindandan buraxılan Qriqori knyazı müalicə edir və III Tridat ailəsi və tabeliyində olan 190 min adamla xristianlığı qəbul edir» (Y.A.Or.cit, r.46-55).

Bu 301-ci ildə baş vermişdir, ancaq Qriqori erməni kilsəsinin başçısı kimi Qeysəriyyəyə getdi, orada o Leonti tərəfindən patriarx elan edildi. Qriqori geri qayıdarkən bir çox şəhərlərdə dayanaraq məbədləri kilsələrə çevirdi, minlərlə dindarları xaçdan keçirdi və müqəddəsləri təyin etdi (Y.de Morgan. Or.cit, r.102).

Erməni kilsəsi Eçmiədzində yerləşmişdir. O siyasi məqsəd güdən bir ruhani mərkəzidir. Bu səbəbdən katolikosluq 485-ci ildə Dvin şəhərində, 901-ci ildə isə Anidə, 1147-ci ildə Kilikiyada Rumqalaya yerləşdi. Bir çox vaxtlarda katolikos

Axtamarda qərar tutdu, buradan isə Arqinə (Ani yaxınlığında şəhər) getdi. Yalnız patriarx Axtamarda olarkən özünü katolikos adlandırdı və bu katolikosat erməni kilsəsinin toplanışlarının qərarlarına tabe olmadan 1895-ci ilə qədər yaşadısa da, faktiki mövcudluğu katolikos Xaçatur Siroyanın ölümünə qədər davam etmişdir, formal olaraq katolikosat Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti tərəfindən ləğv edildi.

Ümumiyyətlə, Osmanlı imperiyası dövründə üç katolikosat fəaliyyət göstərmişdir. Digər ikisi - biri İstanbulda, digəri isə Yerusəlimdə mövcud olmuşdur.

Bu gün erməni kilsə təşkilatçıları iki katolikosluq - Eçmiədzin və Antaliyada fəaliyyətdədirlər, ikincisi Eçmiədzin katolikosluğu formal tabedir. Ancaq faktik tabeçilik yoxdur.

Yeri gəlmişkən, ilahiyyatçı Kronştatdski yazır: «Proslavlığın qaydalarından çoxdan uzaq düşən erməni kilsəsi İsa kilsəsindən tam təcrid olunub ki, bu da din üçün ən qorxulu meyldir. Yüksək rütbəli kilsə xadimləri tərəfindən ayinlərdə bir sıra qeyri pravoslav əməllərə yol verilir. Məsələn, Liturgiyanın duzlu çöræklə və su qatılmamış çaxırla keçirilməsi».

Proxorşikov isə «Xalq ruhu» əfsanəsində yazır: «Erməni kilsəsi özünü çoxdan xristian aləmindən təcrid edib və birmillətli kilsəyə çevrilib. İndi bu kilsə başqa bidətçilərlə - Roma katolik kilsəsinin papistləri ilə yaxınlaşmağa gedir».

Beləliklə, məhz bu dövrdən başlayaraq erməni kilsəsi ermənilərin maraqlarını, mənafelərini xristian dinindən, Allahdan və İsadan üstün tutaraq, tarix boyu təkmillətli din və kilsə yaratmağa nail oldular. İndi erməni kilsəsi yalnız xristianlığa etiqad edənlərin deyil, həm də eyni inama, eyni mənəvi dəyərlərə və eyni prinsiplər ətrafında birləşən bütün xaç suyuna çəkilmiş ermənilərin birliyidir.

Ermənişünas alimlərin araşdırmalarından məlum olur ki, erməni knyazları və erməni kilsəsi həmişə İranın, Bizasın və ərəblərin tabeçiliyi altında olmuş, onların ictimai və siyasi həyatda fəaliyyətləri məhdudlaşdırılmışdır.

Lakin Səlcuq türkləri Anadolunu ərəblərdən və Bizansdan aldıqdan sonra ermənilər mədəni muxtariyyətə sahib ola bilmişlər. Türklər Anadolunu fəth edərkən heç bir erməni müqavimətinə rast gəlməmişlər. Çünki qeyd edilən imperiyalar ermənilərin müstəqilliyinə və mədəni muxtariyyətinə imkan verməmişlər. Ermənilər məcburən müharibələrdə gözləmə mövqeyində müşahidəçi rolu oynamışlar. Məlumdur ki, Türkiyə sultanı 1461-ci ildə erməni yepiskopu Ovakimi Bursadan İstanbula apardı və ona erməni patriarxı adını verdi.

Buna qədər, 1453-cü ildə İstanbulda pravoslav patriarxlığı yaradılmışdır və patriarx II Gennadi təyin olmuşdur. Patriarxlar sultan tərəfindən təyin edilirdi və onun qarşısında cavabdeh idilər. Pravoslav patriarxlığı İsanı insan allahı kimi qəbul edən bütün xristianların üzündə cəmləşdirilirdi. Qriqorian patriarxlığı isə xristianlığın bütün monofizit axınını əhatə edirdi. Beləliklə, erməni patriarxının hökmranlığı ermənilərdən başqa imperiya ətrafında yaşayan suriyalıları, yakobitləri, kortları və həbəşləri əhatə edirdi.

Ermənilər Osmanlı imperiyasında əmin-amanlıq içərisində yaşayırdılar və əsaslı heç bir şikayətləri yox idi. A.Sanciyan yazırdı: «Patriarxlığın İstanbulda yerləşdirilməsindən və oraya çoxlu ermənilərin köçürülməsindən sonra İstanbul ermənilərin ruhani və dini mərkəzinə çevrildi. XIX əsrin başlanğıcında burada ermənilərin sayı 150 minə çatdı. Bu dünyada ən böyük erməni icması idi".[40]

Göründüyü kimi, Osmanlı imperiyası dövründə erməni xalqının mədəniyyəti və erməni kilsəsi imperiyanın hər yerində müstəqil olaraq azad fəaliyyətdə olmuşdur. Ancaq Qərb dövlətlərinin antitürk siyasəti sayəsində xristian pravoslav və katolik missionerləri XIX əsrin ortalarında erməni hərəkatına və erməni kilsəsinə antitürk münasibətləri aşılayaraq yeni bir məsələ-«erməni məsələsi» deyilən məsələ formalaşdırdılar. Bu da dini faktlara əsaslanırdı.

Həqiqətən türklər və xristian xalqları arasında din faktoru xeyli rol oynamışdır. Xristianlar türklərə qarşı həmişə necə bir müsəlman kimi düşmən münasibət bəsləmişlər. Həmin münasibəti türklər də xristianlara bəsləmişlər.

Bu faktor Qərbin Türkiyəyə daimi düşmənçiliyini göstərir. Bu ona görə olmuşdır ki, vaxtilə Türkiyə Avropada qüvvətli dövlətlərdən biri idi. Yalnız Türkiyə zəiflədikdən sonra qorxu aradan qalxdı, ancaq düşmənçilik qaldı.

Qərb dövlətləri Osmanlı dövlətini xristianlar üçün ən təhlükəli düşmən hesab edirdilər. Papa Piy II Səlib yürüşlərindən öncə «humanistlik» göstərib Osmanlı probleminin ən sadə həlli vasitəsini axtarmışdır. O Sultan Məhəmmədə şəxsi məktubunda təklif edir ki, öz vətəndaşları ilə xristianlığı qəbul etsin, əvəzində o Avropa Asiyasının böyük rəhbəri və müdafiəçisi elan ediləcək. Məktub avropalıların Türkiyəyə münasibətinin simvolu kimi qeyd edilə bilər. Avropa digər fatehçilərdən heç bir şeyi ilə fərqlənməyən sultanın tutduğu torpaqların onda qalmasına razılıq verirdi ki, o yalnız xristianlığı qəbul etsin (F.Valyi. Revolutionsin Islam. London, r.27-29).

## 5. TÜRK VƏ ERMƏNİ MÜNASİBƏTLƏRİ QƏRB TƏDQİQATÇILARININ ARAŞDIRMALARINDAN

**A.Povell:** «Türklər həmdinləri olan ərəblərdən fərqli olaraq fanatik deyildirlər. Osmanlı imperiyası tarixində XIII-XVI əsrlərdə Avropa dövlətlərinin tarixindən fərqli olaraq dini zəmində qəbuledilməz kütləvi qırğın hallarına elə də rast gəlinmir. Düşünməyə dəyər, səlibçilər Fələstində olarkən müdafiəsiz müsəlman əsirlərini qırmış, inkvizisiya İspaniyada təsəvvürəgəlməz dəhşətlər törətmişdi. Kromvelin protestant əsgərləri İrland katoliklərini məhv etdilər, Fransada katolik kralının əmri ilə hugenotları əzdilər, Avropanın bütün ölkələrində qanlı yəhudi talanları baş alıb gedirdi. Kiçik Asiyada bu zaman müsəlmanlar, xristianlar və yəhudilər sülh və dostluq şəraitində yaşayırdılar».

**E.Jak:** «Yalandırmı, türklər orta əsrlərdə xristian İspaniya və İtaliyadan öz behiştinə yəhudi qaçqınlarını buraxdılar. Osmanlı sultanları Səlim və Süleyman onları İstanbulda və Salonikdə yerləşdirdilər, onlara Kiprdə məskunlaşmaq və Fələstində Tiberiya gölü yaxınlığında ilk yəhudi məskəni salmaq imkanı verdilər».

[40] Kamiran G. Erməni dosyesi, s. 372

**F.Valyi:** «İslam idarəçiliyinin ən parlaq təzahürü müsəlman ölkələrində xristianların və digər din nümayəndələrinin, din azlıqlarının təqib olunmasına qarşı sipəridir, onlar burada azad, öz dini qaydalarını icra etmək hüquqlarına malikdirlər. XV əsrin sonunda təqibə məruz qalmış İspan yəhudiləri Türkiyədə sığınacaq tapdılar. Transilvaniya unitaristləri fanatik Habsburq rahiblərinin zülmündən Türkiyə himayəçiliyini üstün tutdular. XVII əsrdə Sileziya protestantları ümidlə Türkiyəyə müraciət etdilər ki, müsəlmanların himayəçiliyində öz dini azadlıqlarını saxlamağa nəzarət etsin. 1736-cı ildə Rusiyada pravoslav kilsəsinin təqibi nəticəsində köhnə dini təriqətçilər Türkiyəyə yığıldılar».

Osmanlı imperiyasında başqa dinlərə insanların din azadlığı və himayəçiliyini hətta Pastırmacyan da boynuna alır:

«Böyük sultanların hakimiyyəti dövründə xristian icmasının məhdud hüquqları nəzarət altında idi və məhkəmə qərəzsiz olaraq ədalətin keşiyində dayanırdı. Ermənilər dəfələrlə burada himayəçilik altında idi. Rumın tarixçisi Yoqra yazır ki, sultan III Murad var-gücü ilə ortodoksallığına (inamına sabit - Y.Q.) görə güclə qovulmağa düçar olmuş Eflak ermənilərinin mühafizəsinə qalxdı. II Süleymanın vaxtında xristianlığa inam gətirən kəndlilər Osmanlı imperiyasında Avropa kəndlilərindən pis yaşamırdılar».

Osmanlı hökuməti tərəfindən ermənilər göstərilən bu və ya digər qayğı və güzəştlər barədə erməni **Mkrtıç Dadiyan** 1867-ci ildə yazmışdır: Patriarx nəinki ruhanidir. O, həm də icmanın kübar lideridir. O, bütün ruhani səlahiyyətlərini, eləcə də bütün arxiyepiskoplar və yepiskoplar kimi, Eçmiədzin kilsəsindən alırdı. İstanbul patriarxlığına 50-yə qədər yeparxiya daxildir. 1860-cı ilə qədər - yenidən təşkil olunmağa qədər patriarx və yepiskopları öz sərəncamı ilə təyin edirdi. O, yepiskopları tabe olduqları katolikosla yüksək rütbələrdən məhrum etmək hüququna malik idi. Bundan başqa, o, yepiskopların saqqallarını kəsmək (yəni saqqaldan məhrum etmək) hüququna da malik idi.

O, sultan hökuməti qarşısında öz dindaşlarından qeyri-müsəlman dindarlara olan vergini-xəracı toplamaq vəzifəsinə də cəlb olunmuşdur. Onun vəzifələri içərisində öz icmasında olan mübahisələri məhkəmə-istintaq yolu ilə həll etmək hüququ da var idi.

Patriarxın bu iki rolu başqa qüvvələr tərəfindən rəqabətə rast gəlməyəndə, o vaxşı nəticələr və çoxlu faydalar verirdi. Bundan başqa İstanbulda erməni aristokratlarının nümayəndələrini təmsil edən Milli Şura fəaliyyət göstərirdi. Bu şura sonsuz anlaşılmazlıqların və fitnə-fəsadların mənbəyinə çevrildi.

1839-cu ilə qədər **Matevos Çuxaçyan** patriarxlığı dövründə milli şura yenidən təşkil olundu. Onun sayı 30 nəfərdən ibarət müəyyən edildi, onlardan 16 nəfəri aristokratlardan, 14 nəfəri isə dini icmalardan idi. Axırıncıları patriarx təyin edirdi. 1847-ci ildə təkrar bir təşkil olunma həyata keçirildi. Patriarxa deputat seçmək hüququ verildi: biri ruhanilərdən, digəri isə aristokratlardan: qalanları isə seçki ilə seçilirdi. Bu dəyişiklik sultanın fərmanı ilə təsdiq edildi və 9 mart 1847-ci ildə o işıq üzü gördü. Bu, aristokratlara ağır zərbə idi.

1848-ci ildə patriarx Matevos patriarxlıqdan uzaqlaşdırıldı, aristokratların narazılığına baxmayaraq bu vəzifə əvvəlcədən işləmiş Akop Serobyana verildi.

1856-cı ildə bu patriarxa islahat Manifesti verildi. Verilmiş Manifestdən istifadə edən ermənilər yeni «Milli Nizamnamə» qəbul etmək və tam olaraq aristokratiyanın təsirini ləğv etmək qərarına gəldilər. 1859-cu ildə şuraya seçkilərdə aristokratların böyük bir dəstəyi kənarda qaldı. Yeni şura yeni Nizamnamə hazırlamaq üçün xüsusi komissiya yaratdı. Komissiyanın işi qəti olaraq aristokratiya və digər qruplar arasında olan narazılıqlar üzə çıxartdı ki, patriarx Gevork Keresteciyan istefaya çıxdı. Onun yerinə seçilən Serqıs Kuymciyan narazılıqlara düçar oldu. Nəhayət, 24 may 1860-cı ildə şura nizamnamə layihəsi qəbul etdi və onu dövlətin təsdiqinə göndərdi. Nizamnamə az dəyişikliklərlə 17 mart 1863-cü ildə sultanın xususi fərmanı ilə təsdiq edildi (M.B.Dadian. Le Societe Armeniene Contemroraine. Revue des deux Mondes, 1867, s.85).

M.Dadyan yazısını belə yekunlaşdırır: «Ermənilər başqa cəmiyyətlərdən fərqli olaraq xristian inamlarını saxladılar, öz dillərini, adətlərini, ənənələrini qorudular. Onları ehatə edən vasitələrin təsirinə düşmədilər. Qərbi Asiyanın ticarəti onların əlində idi, onlar həmişə səyahət edirdilər, onların əlaqələri çox geniş idi. Onlar Asiya və Avropanın arasında vasitəçi idilər, əgər mümkün olsa ifadə etmək olar ki, onlar Qərb mədəniyyətinin ötürücüsü idilər» (s.85-86).

Bu güzəştlərin və səmimi münasibətlərin müqabilində əksinə nə Rusiya, nə də digər böyük dövlətlər Türkiyədə erməni icmasına heç bir diqqət və dəstək göstərmədilər. Rusiya cəhd edirdi ki, Türkiyədə yunan-pravoslav kilsəsini himayədarlığa götürsün və bununla da Osmanlı imperiyasının daxili işlərinə qarışsın Fransa da bu mövqedə dayanıb Türkiyə katoliklərini müdafiə edirdi.

Hələ 27 fevral 1830-cu ildə erməni katolik icmasını Türkiyə hökuməti rəsmi tanımışdı və 22 dekabr 1831-ci ildə onun rəhbəri patriarx Adofos Çukuryan təyin edildi. Mərkəz əvvəlcə Adanada, sonra isə İstanbulda yerləşdirildi.

Həmçinin 1859-cu ildə sultanın fərmanı ilə müstəqil erməni protestant icması yaradıldı. Nəticə olaraq onu demək olar ki, M.Dadyaninin yazısında məlum olur ki, ermənilərin Osmanlı dövlətinə qarşı heç bir iddiaları olmamışdır. Onlar bütün daxili işlərinin və həmçinin dini məsələlərin həllində müstəqil olmuşlar, dövlət isə onların işlərinə qarışmamışdır, qeyd edilən dövrdə xarici qüvvələrin hadisələrin gedişinə təsiri olmamışdır.

Görək daim erməniləri muxtariyyət şüarı altında Türkiyəyə qarşı səfərbər edən Rusiya ermənilərə və erməni kilsəsinə qarşı necə olmuşdur.

11 mart 1836-cı ildə çarın fərmanı ilə Rusiyada erməni katolikosluğunun hüquq və vəzifələri müəyyən edilmişdir... Katolikos yalnız qabaqcadan dövlətin nümayəndəsinin iştirakı ilə Sinod tərəfindən baxılmış, həlledici səslə qəbul edilmiş dini işlərlə məşğul olmalıdır.

Katolikos xarici kilsələrlə məktublaşma hüququnu yalnız Rusiya Xarici İşlər Nazirliyi vasitəsilə əldə edə bilərdi. Katolikos çar tərəfindən erməni kilsəsinin seçilmiş iki nümayəndəsinin, o cümlədən xarici nümayəndələrin birindən təyin edilirdi.

Nə katolikosun, nə də patriarxların dini məsələlərin həllində heç bir hüquq və imtiyazı yox idi.

Ruslaşdırma siyasətinin gücləndirilməsi və erməni millətçiliyinin hər hansı görünüşünün ciddi təzyiqinə sürüklənmiş Eçmiədzin öz sonrakı taleyi haqqında düşünməkdən məhrum olmuşdur ki, bu da siyasi arenadan silinmək demək idi.

## 6. ERMƏNİLƏR VƏ ONLARIN DİNİ HAQQINDA DİGƏR MÜLAHİZƏLƏR

**Bir daha ermənilərin torpaq saxtakarlıqları haqqında.**

Türk-erməni əlaqələrini obyektiv düşüncə tərzi ilə şərh edən avstriyalı tarixçı professor Erix Fayql düzgün olaraq qeyd edir ki, Ermənistan bütün tarixi boyü müstəqil qərar qəbul etmək iqtidarında olmayan qeyri-müstəqil dövlət olmuşdur. Xüsusilə gündə bir dövlət dini dəyişmək məsələsində.

Ümumiyyətlə, «milli kilsə» nədir? Milli kilsə katolik kilsəsindən ayrı şəkildə mövcud olan kilsədir. Bu millətdən ayrı da ola bilər, millətə vahidlik təşkil edə də bilər. Lakin katolik (ümumi) kilsə malik olduğu dünyagörüşündən çıxış edərək bu milli kilsələri tanımır. Çünki katolik kilsə «İncil»də verilən tövsiyəyə uyğun olaraq hərəkət edir. Həmin tövsiyyədə yalnız bir irqin, yaxud sinfin nümayəndələrini «bütün xalqları» maarifləndirmək məsləhət görülür. Milli kilsə anlayışı isə yox, beynəlmiləllik anlayışına tam ziddir.

2001-ci il Qriqoryan kilsəsi üçün yubiley ili deyil. Bu hadisə dünya tarixinin zarafatlarındandır. Hətta az-çox savada malik ermənilər belə bu gün 301-ci ilin "dünyanın ilk xristian dövlətinin - Ermənistan» yaranması tarixi olmadığını və ola bilməyəcəyini bilir. 301-ci ili «quruluş» ili kəlməsi tamamilə milliyətçi bir mifdir. Bu halda yunan sözü olan «mif», yaxud «mu ho» rəvayət, yaxud məsəl kimi tərcümə oluna bilər. Çağdaş yunan dilində də bu kəlmə həm də yalan mənasını verir. «Yalan demək» nə deməkdir? - «Qəsdən həqiqət olmayanı söyləmək!»

Ermənilərin 301-ci ilin ilk xristian dövlətinin quruluş ili olaraq qeyd etmələrinin səbəbi isə başqadır. Çünki ilk xristian dövlətinə sahiblik bəzi haqlar meydana gətirir. Bu da qonşu xalqlara öz mənfi təsirini göstərə bilir. Bu təsir Qafqaz Albaniyasından tutmuş Osmanlı imperiyası tərkibində olarkən «milləti-sadiq» adını alaraq törədilmiş qiyamlara, 1905-1906-cı illərdə, eləcə də 1918-ci ildə Bakıda törədilmiş Mart qırğınına, Gürcüstana qarşı işğalçı müharibəyə, Daşnaqsütyun, Hnçak, ASALA və s. erməni terror təşkilatlarının zaman-zaman Qafqazda, xüsusilə Azərbaycan və Türkiyə ərazilərində törətdikləri kütləvi qırğınlara, terror hadisələrinə, 1948-1953-cü illərdə, 1988-1990-cı illərdə Azərbaycanlıların öz tarixi dədə-baba yurdlarından deportasiya olunmasına, Azərbaycanın Qərbinin işğalına, milliyyətindən asılı olmayaraq bütün əhalini oradan qovulmasınadək uzanmaqdadır.

Qarabağda ermənilərin törətdiyi insanlıq tarixində misli görünməmiş kütləvi qırğınlar, vəhşiliklər, bütün bunlar sözdə bir şahidlik əfsanəsinin və bir-birini təkrar edən yubileylərin (1700-cü il dönümü) sıx pərdəsi arxasında həyata keçirilməkdədir. Məqsəd isə başqalarının torpaqlarının işğalını legitimləşdirməkdir.

Hər halda 2001-ci ilin sentyabrında Papa Eçmiədzinə edəcəyi səfəri zamanı bu uydurma yubileyin baş şahidi oldu. Bunun isə mənasız və gərəksiz olacağını qabaqcadan söyləmək üçün heç də kahin olmaq gərək deyildi. Yaxşı olardı ki, Papa bu yanlış, uydurma bilgilərlə tarixi reallıqlardan, xüsusilə Azərbaycana qarşı aparılan işğalçı müharibədən dünya ictimaiyyətini uzaqlaşdırmaq istəyən erməniləri deyil, bunun əvəzində hər şeyini itirərək dözülməz şəraitdə qaçqın düşərgələrində həyat keçirən bir milyondan çox Azərbaycanlı didərginin taleyini düşünsün.

Özlərini qədim Urartu dövlətinin varisi hesab edən ermənilər hazırkı İrəvanın şərqindəki Təpəbaşında azəri tərəkəmələrinin çaylaq daşından tikilmiş, hazırda torpaq altında qalmış yaylaq evciklərini uydurma «Erebuni» şəhərinin xarabalıqları adlandırdılar. Bu adı İrəvan (Yerevan) şəhərinə adekvat ad kimi uydurdular. Həmçinin sarı torpaqla suvaqlanmış suvaqlar üzərində gəzəl otundan hazırlanmış boya ilə boyanmış primitiv bəzək işarələrini qədim urartu-erməni yazıları adlandırdılar. Bu yazıların oxunmasını «vergi» verilmiş 12 yaşlı uşağın qiraət etməsi ilə izah etdilər.

Qeyd etmək lazımdır ki, İrəvanda və onun ətrafında qədim tikinti xarabalıqları çoxdur. Ermənilər əvvəlcə həmin xarabalıqlarda qazıntı işi apardılar. Kərpic və yonulmuş daşlara etibar etmədilər ki, ola bilsin həmin əşyalar onlara lazım olan 3 min il tarixi təsdiq edə bilməsin. Məhz bu baxımdan tərəkəmələrin çaylaq daşından tikdikləri kiçik evcikləri seçdilər. Artıq süməl, girdə çaylaq daşlarının tarixini müəyyən etmək qeyri-mümkündür.

Nəhayət, 1968-cı ildə İrəvan şəhərinə 2753 il yaş verdilər, təntənəli yubiley keçirdilər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ermənilər əski erməni əlifbası ilə şəhərin salınma tarixini yazmış və onu şüşə qabın içərisində torpağa basdırmışdılar. Lakin həmin şüşə qabın II Yekaterina zamanında Rusiyada istehsal olunduğu sübut edildikdən sonra ifşa olundular. Erməni tarixçilərinin İrəvan şəhərinin əski azərbaycanlı şəhəri olması faktını danmaq cəhdləri bir daha puça çıxdı.

Burada 3 rəqəmi maraq doğurur. Bu o deməkdir ki, şəhərin tarixi dəqiqdir. Ancaq «3» rəqəmi inandırıcı məqsəd üçün qondarılmışdır, elə bunun özü o tarixin saxtakarlığını sübut edir. Ermənilər İrəvanın saxta tarixini illərlə təbliğ etdilər, dünya tarixçilərinin və turistlərinin nəzər-diqqətini İrəvana cəlb etdilər. Halbuki, nə İrəvan, nə də indiki «Ermənistan» nə Urartunun, nə də ermənilərin olubdur. Onlar əzəli Azərbaycan torpaqlarıdır.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, keçən əsrin 70-ci illərində ermənilər İrəvan şəhərinin tarixini Londonda dünya tarixçilərinin konqresində təsdiqlədə bilmədilər. Onlara cavab verildi ki, ermənilər urartuların varisi deyildir və 2753 yaş İrəvanın tarixi kimi sübut yoxdur.

Həmçinin ABŞ-dakı erməni mərkəzi tərəfindən təşkil edilmiş konfransda məşhur sovetşünas, Azərbaycan məsələləri üzrə mütəxəssis Amerika alimi, professor Todeuş Svyatoxovskinin məruzəsində qeyd edilmişdir: «Azərbaycanda yaşayan ermənilər də daxil olmaqla Zaqafqaziyada yaşayan bütün ermənilər köklü xalq deyil, gəlmədirlər. Onların böyük hissəsi XIX əsrdə İran və Türkiyədən köçürülüblər».

Azərbaycan SSR Mərkəzi Tarix Arxivinin elmi-məlumat kitabxanasında Sergey Qlinkanın «Opisanie pereseleniya armyan Azerbaydjanskix v predelı Rossii» 140 səhifəlik kitabının 48-ci səhifəsində qeyd edilir ki, 1828-ci il martın 9-da rus ordusu Təbrizi tərk etdi və polkovnik Lazarev erməniləri İrandan köçürmək üçün müvəkkil təyin edildi. Kitabın 49-cu

səhifəsində isə göstərilir ki, ermənilərin İrandan Rusiyaya köçürülməsi dünya səlnaməsində indiyə qədər yeganə haldır. Lazarev 1828-ci il martın 30-da rus və erməni dilində yazılmış xüsusi təlimat imzaladı. Kitabın 92-ci səhifəsində göstərilir: «Üç ay yarım ərzində Arazın bəri tayına 80 min ailə köçmüş və bu məqsədlə gümüş pulla 14 min çervon pul xərclənmişdir».

Ermənilərin İrəvan, Naxçıvan və Qarabağda yerləşdirilməsi haqqında xüsusi təlimat kitabın 115-ci səhifəsində verilmişdir.

Həmçinin A.Qriboyedovun əsərlərinin 2-ci cildinin (M., 1971) 339-344-ci səhifələrində göstərilir ki, rus-iran (1826-1828) və rus-türk (1828-1829) müharibələrindən sonra 130 min erməni İran və Türkiyədən Zaqafqaziyaya köçürülmüşdür.

Çar məmuru N. İ. Şavrovun «Zaqafqaziyada rus məsələsinə yeni baxış» (P. 1911) kitabında göstərilir ki, 1828-ci ildən 1830-cu ilə qədər Zaqafqaziyaya 40 mindən artıq İran ermənisi və 84.600 Türkiyə ermənisi köçürülüb və onların erməni əhalisinin çox az olduğu ən yaxşı dövlət torpaqlarında-Yelizavetpol və İrəvan quberniyalarında belə Tiflis quberniyasının Borçalı və Axıska bölgələrində yerləşdirdik. Nəzərə almaq lazımdır ki, rəsmi köçürülmüş 124.000 ermənidən başqa buraya xeyli miqdarda «qeyri rəsmi köçürülmüş ermənilər də axışmışdılar və onları ümumi sayı» 200 mindən artıq idi. İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 mindən artıq erməni əhalisinin 1 milyondan çoxu məmləkətin yerli əhalisinə mənsub deyil və bizim tərəfimizdən yerləşdirilib (Xalq qəzeti, 24.01.2002. № 19, (29984), səh 5).

1831-ci ildə çar Rusiyası müharibədə əldə etdiyi qənimətin inventarizasiyasını keçirmişdir. Aydın olmuşdur ki, indiki Ermənistan ərazisinin o zamanlar işğal olunmuş Qırxbulaq, Zəngibasar, Gəmibasar, Vedibasar, Dərəkənd, Saatlı, Talin, Sərdarabad, Aparan, Dərəçiçək, Göycə və Dərələyəz mahallarında 420 kənd dağıdılmış, cəmisi 317 kənd qalmışdır. 1873-cü ilədək təbii artım və kənardan gətirilənlər hesabına 148 yeni erməni kəndi salınmışdır. Aparılan hesablamalara görə 1931-ci ildə bu ərazidə azərbaycan türkləri yaşayan kəndlərin sayı 208 ədəd azalmışdır.

Cənubu Qafqazın xəritəsini saxtalaşdırmaq üçün ermənilər tarix boyu «dəridən-qabıqdan» çıxıblar. Lakin tarixi sənədlər və canlı şahidlər onların xülyasını təkzib edirlər. 1938-ci ildə «Pravda» qəzetinin xüsusi müxbiri Kovalyov Basarkeçər rayonunun Pəmbək kəndinə getmiş, 150 yaşlı Kalvay (Kərbəlayi) Kazım və onun 140 yaşlı xanımı Rəxşəndə nənədən müsahibə almışdır... Kalvay Kazım deyib ki, 1828-ci ildə Rusiya İrəvanı və Göyçə mahalını işğal etdikdən sonra İran və Türkiyə ermənilərini bizim Göyçəyə də gətirdilər. Ona qədər bizim ermənilər haqqında heç bir təsəvvürümüz yox idi...

Tarixi faktlar da sübut edir ki, adına «Ermənistan» deyilən bu diyar antik dövrdən Azərbaycan torpağı olmuşdur. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqları Rusiya tərəfindən zəbt edilib, erməni vilayəti elan olunmuş, Türkiyə və İrandan köçürülmüş ermənilər burada yerləşdirilmişdilər.

Ermənilər «Böyük Ermənistan» xülyasını gerçəkləşdirmək məqsədi ilə həm tarixi dövrlərdə, həm də müasir dövrdə tarixi geocoğrafi baxımdan saxtalaşdırmaqla məşğul olub, müxtəlif formalarda miflər, illüziyalar, saxta sənəd və xəritələr düzəldirlər. Onlar özlərini bizim eradan əvvəl Şərqi Anadoluda, Zaqafqaziyada və 3 dəniz (Qara dəniz, Ağ dəniz və Xəzər dənizi) arasında olan dövlətlərin varisi hesab edirlər.

Məsələn, eradan əvvəl 312-364-cü illərdə Qərbi Asiyada mövcud olmuş ellinizm dövlətlərindən biri olan Selevkilərin ərazilərinin müəyyən hissəsini özlərinə çıxırlar. Bu müddəa heç bir tarixi sənəddə əks olunmamışdır. Belə ki, həmin dövlətin tərkibində «erməni» etnosu adı işlənmir. BSE (Böyük Sovet Ensklopediyası) da deyilir: «Selevkilər dövləti ən çox böyüdüyü dövrlərdə Suriyadan başqa Mesopotamiyanı, Kiçik Asiyanın bir hissəsini, İranın dağlıq sahəsini, Orta Asiyanın bir hissəsini özündə birləşdirirdi».

«E.ə. 220-ci ildə Selevkilər hökmdarı III Antiox Ervandit çarlığını zəbt etdi və onu Mərkəzi və Cənubu Armeniaya (Ermənistan) birləşdirdi. Beləliklə, e.ə. III əsrdə bütün erməni torpaqları Selevkilər hökmdarlığı altında birləşdirildi. Bu birləşdirilmiş ərazilər Böyük Ermənistan adı daşımağa başladı». (III, 11, b) Göründüyü kimi, erməni dövlət yox, ermənilər yaşayan torpaqlardan söhbət gedir.... «Böyük Ermənistan» sözünün isə haylara aidiyyəti yoxdur. Bu barədə yuxarıda geniş danışmışıq.

Həmçinin VII əsrdə (698-700-cü illər) ilk dəfə işğala məruz qalan ermənilərin yaşadıqları torpaqlar Ərməniyyə adlandı. İşğal genişləndikdən sonra bütün Zaqafqaziya şərti olaraq yuxarıda deyildiyi kimi Ərməniyyə III, Ərməniyyə II adı altında xilafətə birləşdirildi. Ermənilərin dövlətçiliyi 1918-ci ilin mayında yaranmaqla Azərbaycan torpaqları üzərində quruldu.

Göründüyü kimi, «Ermənistan» deyilən mövhum dövlət və ya çarlıq deyil, coğrafi ərazi olduğunu bir daha göstərir. Ermənistanın coğrafi ərazi adı olduğu haqda müxtəlif tarixi mənbələrdə belə məlumatlar çoxdur.

**K.P.Patkanov** ermənilərin bəşəriyyət tarixindəki mövqeyi haqqında yazır:

«Şübhə yoxdur ki, Ermənistan on qədim dövrlərdən məskunlaşmış və dünyanın sivilizasiyalı xalqlarının mərkəzi olub, eyni zamanda son zamanlaradək Qərb və Şərqin toqquşduğu yer olmuşdur. Buna baxmayaraq, Ermənistan bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamış, onun adı ölkənin coğrafi termini olub, güclü qonşu dövlətlərin: assuriyalıların, midiyalıların, iranlıların, yunanların, monqolların, rusların... öz mübahisələrini hell etdikləri yer olmuşdur».

**V.P.Veliçko** yazır: «Həmişə dəyişkən sərhədləri olan şübhəli erməni hökmdarları hər vaxt güclü qonşu ölkələrdən asılı olub və həmişə sistematik olaraq onlara xəyanət edib. ...Hara ona mənfəətlidir, ora onun Vətənidir».

Tarixi mənbələrin göstərdiyi kimi, tarixdə erməni dövləti olmadığı kimi, onun tarixi də olmayıb. Məhz buna görə də saxtakar erməni tarixçiləri «Ermənistan tarixi» əvəzinə, həmişə «Erməni xalqının tarixi»ni yazmağa məcbur olmuşlar.

**Şavrov, Mayevski, Şopen, Qlinka** və başqalarının tədqiqatları göstərir ki, Qafqazda ermənilər köklü əhali olmamışdır.

Orta əsrdən bəri dağınıq halda yaşayan, Zaqafqaziya və Yaxın Şərqdə cürbəcür sənətkarlıq və nökərçiliklə məşğul olan ermənilər haqda V.P.Veliçko yazır: «İşğal olunan ərazilərin yerli əhalisi rişxəndlə şikayətlənib bizə deyirdilər ki, bizi bizim dünənki nökərlərimiz olan ermənilər üçün işğal edən ruslar haradadırlar? Dövləti bu yaramaz adamlara vermək üçün vuruşmağa dəyərdimi?».

Erməni müəlliflərinin özləri faktlarla özlərinin işğalçı Rusiya imperiyası tərəfindən Qafqaza köçürülməsi və Azərbaycan torpaqlarında yerləşdirilməsi həqiqətini deməyə məcbur olublar.

Məsələn, Qafqaz xalqlarının tarixini tədqiq edən erməni tarixçisi **B.İşxanyan** yazır:

Tarixi qədimlik təsəvvürünə görə, ermənilərin Böyük Ermənistan hesab edilən həqiqi Vətəni, Rusiya hüdudlarından kənarda, daha doğrusu, Kiçik Asiyada yerləşir... Dağlıq Qarabağda yaşayan ermənilərə gəlincə, onların bir hissəsi aborigen olub, xristian dinini qoruyub-saxlayan qədim albanların nəslindəndir, bir hissəsi isə təqib və hücumlardan qurtarmaq üçün Azərbaycan torpaqları sığınacaqlarına çevrilən İran və Türkiyə qaçqınlarıdır».[41]

Ermənilərin epizodik hallar istisna olmaqla Şimali Azərbaycan torpaqlarına XIX əsrin əvvəllərindən, xüsusən 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsindən sonra intensiv və ardıcıl şəkildə gəldiklərini göstərən faktları, sənədləri **Parsamyan Korkodyan, İşxanyan** və yazıçı olmaqdan çox provaksiyaçı kimi tanınan **Zori Balayan «Ocaq»** əsərində özü də təsdiq edir. O yazır:

1. **«Qəsəbədə (Nor Xarbeddə - müəll.) az qala Yer kürəsinin hər yerindən gələn ermənilər yaşayır».**
2. **«Yerevan - bir nəslin gözünün qarşısında yaradılan, sakinləri gəlmə olan bir şəhərdir».**
3. **«Yetmiş beş qəsəbədə yerli sakinlərlə görüşlərim oldu. Bu qəsəbələrin əksəriyyətinin dünyaya gəlmə tarixi dəqiq bəllidir-1828-ci il. Bəzi rayonlar böyük dostluğun canlı tarixidir. 1828-ci il olmasaydı, məşhur müqavilə olmasaydı (Türkmənçay müqaviləsi-Y.Q.), Qriboyedov və Abovyan olmasaydı, rus əsgərləri olmasaydı, bu gün müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni ocaqları olmayacaqdı».**
4. **«Ermənistanda kəndlərin əksəriyyəti ya min, min illərlə, ya da düz yüz əlli ildir ki, mövcuddur».**
5. **«Beləliklə, on yeddi inzibati rayonu keçərkən, mən bir dənə də olsun taleyi bu və ya başqa yolla böyük tarixlə - 1828-ci illə bağlı olmayan yaşayış məntəqəsi görmədim».**
6. **«Təkcə son onillikdə Vətənə iki yüz mindən çox erməni köçmüşdür».**
7. **«Demək olar ki, bölgədə yaşayanların hamısı - Qars və Vandan, Muş və Bitlisdən, Qərbi Ermənistanın başqa əyalətlərindəndir».**
8. **«Hesablanıb ki, Axuryan (keçmiş adı Düzkənd - Y.Q.) rayonuna Qərbi Ermənistanın səksəndən çox yaşayış məntəqəsindən vaxtilə türk yatağanlarından qaçıb qurtaran ermənilər gəlmişdir».**
9. **« Spitak rayonu böyük bayrama hazırlaşır. Az qala onun iyirmi yaşayış məntəqəsinin hamısı - 1828-1830-cu və ya 1877-1878-ci illərdə yaradılıb».**

Göründüyü kimi, Zori Balayan Qərbi Azərbaycanın kiçik bir hissəsini (indiki Ermənistanı gəzərək orada min illərlə ermənilərin yaşadığını desə də və buna dəlil-sübut bilmədiyi üçün dolayı yolla boynuna alır ki, bu «Ermənistan» Azərbaycan torpağıdır. Qərbi Azərbaycanlılar yaxşı bilirlər ki, «Ermənistanın» Rusiya ilhaq edilməsinin 150 illik yubileyi (1978) münasibətilə bütün yaşayış məntəqələrinin girəcəyinə 1828-ci il rəqəmi ucaldılmışdır. Bu ilhaqın vaxtaşırı bayram edilməsi münasibətilə qoyulan abidələr yuvarlaq rəqəmlərlə göstərilir - 100, 120, 130, 140. Baxmayaraq, Dağlıq Qarabağda ucaldılan belə abidələrin bəzilərinin rəqəmləri suvansa da, pozulsa da izi itirmək üçün bəziləri dağıdılsa da fotosurətləri o vaxtkı Ermənistan SSR-nin, o cümlədən Azərbaycan SSR-in qəzetlərində qalır...

Tanınmış rus alimi **S.P.Petruşevski,** erməni müəllifi **Q.M.Ter-Serkisyanla** Yuxarı (dağlıq) Qarabağda və Zəngəzurda sovet dövründə etnoqrafik səfərdən sonra bu qənaətə gəlirlər **«Qarabağ heç vaxt erməni mədəniyyəti mərkəzi olmamışdır».** Qarabağ mədəniyyəti kamil və qədim mədəniyyət olub Azərbaycan xalqına məxsusdur».

Təsadüfi deyil ki, erməni müəllifi B.İşxanyan da Yuxarı (dağlıq) Qarabağı haqlı olaraq ermənilərin «həqiqi vətəni», yaxud «əzəli ərazisi» hesab etmir.

Qarabağ son orta yüzilliklərdə Arra (Aranın) tərkibində onun dağlıq və dağətəyi bölgədir.

Yeri gəlmişkən, XX əsr Erməni şovinizmin lideri **Anastas Mikoyan** «Ermənistanın» bir daha türk torpaqları olduğunu təsdiqləmişdir. Belə ki, Mikoyan Zəngəzuru həmişə nəzarət altında saxlayırdı. O, 1960-cı illərdə Zəngəzura daha tez-tez gəlirdi Bir dəfə Gorus şəhərinə gələrkən Xınzirək kəndinin camaatı yığışıb onun yanına şikayətə gedirlər. Mikoyana çatdırdılar ki, köhnə Xınzirək kəndinin camaatı kəndin yaxınlığındakı düzənlikdə özlərinə torpaq götürüb, ev tikmək istəyirlər. Lakin kolxoz sədri camaata 7 paydan (700kv.m) artıq torpaq vermir. Bu torpaqda da ancaq ev tikmək olar. Həyatyanı sahə üçün yer qalmır. Mikoyan kolxoz sədrini tapdırıb, iclas keçirir, iclasda ona deyir ki, «ay itin balası, bu torpaqlar sənin atanın torpaqları deyil, Türk torpaqlarıdır. Onu almışıq ki, xalqımız rahat yaşasın».

Rusiya imperiyası azərbaycanlılardan başqa Kırım tatarları, Kazan tatarları, çərkəzlər, abxazlar, çeçenlər, acarlar, ahıska türkləri, kabarda-balkarlar, qazaxlar, özbəklər, türkmənlər və başqalarını ya tam, ya da qismən yurd-yuvalarını, vətənlərini işğal etmiş, yadlara vermiş və bunların heç birinə görə ittiham edilməmişdir.

Qeyd edilən müddəalarla saysız-hesabsız erməni saxtakarlıqlarını üzə çıxaran tədqiqatçı **Castin Makkarti** yazır: 1828 və 1854-cü illərdə ruslar iki dəfə Şərqi Anadoluya hücum etmiş, hər iki dəfə yerli ermənilər onların tərəfini saxlamışlar. Hər iki halda ruslar çıxıb getməli olanda özləri ilə 100 min eməni tərəfdarını Qafqaza gətirmiş, onları qovulmuş müsəlmanların evlərində yerləşdirmişlər (hazırda Ermənistan Respublikasının ərazisi olan İrəvan quberniyasında 1828-ci ilə kimi əhalisinin 80 faizi müsəlmanlar idi). O, sözünə davam edərək yazır - əlbəttə, gətirilən bu rəqəmlər dəqiq olmaya bilər və əlavə araşdırmalar lazımdır, lakin biz dəqiq bilirik ki, 1820-ci ildən 1920-ci ilədək təxminən 600 min erməni rus imperiyasının ərazisinə köçürülmüşdür. 2 milyon müsəlman isə Rusiyadan getmişdir. ...Tarixi həqiqət budur ki, rus imperiyasının sərhədlərinin genişləndirilməsi Qafqazda və Şərqi Anadoluda yaşayan xalqların ənənəvi nisbətini alt-üst etmişdir. Burada bütün millətlər əzaba düçar olmuşdur. **Maraqlıdır ki, müsəlmanları genosid təşəbbüsçüsü kimi görmək istəyənlər heç vəchlə onların özlərinin genosid qurbanları olduğunu etiraf etmək istəmirlər.**

---

[41] İşxanyan B. Qafqaz xalqları (rusca), S.P, - b 1916

Sizi əmin edirəm ki, dediklərimin hamısı həqiqətdir, qısa da olsa bu, insan əzabları haqqında tarixdə belə əhvalatların çoxunda olduğu kimi, burada da nə qəhrəman var, nə cəllad, yalnız qurbanlar vardır, insan qurbanları, onların türk və ya emənі olduqlarının məsələnin mahiyyətinə dəxli yoxdur.

Lakin bu tarixi həqiqət belə nəql olunmamalıdır. İnsan bədbəxtlikləri haqqında həqiqətin yerini hansısa bir əfsanə tutmuşdur: zalım türk və xeyirxah erməni haqqında əfsanə! Əfsanədə emənі əzabları haqqında hekayələr əbədiləşdirilmişdir. Əksər hallarda həmin hekayətlər həqiqətə uyğundur, lakin onlar bir dəfə də türklərin daha böyük əzabları barədə söz açmırlar. Erməni olmayan millətlər də bu əfsanəyə inanmışlar, çünki o, vəhşi türk haqqında qədim əfsanə ilə səsləşir.

Beş əsr ərzində türk görəndə tük tökən avropalı üçün bu erməni əfsanəsi haradasa öz ünvanına düşür.1500 ildən çox bir dövrdə vassal dövlətçiliyini itirmiş, XIX yüzilliyin axırlarında və XX yüzilliyin əvvəllərində Rusiyanın, İngiltərənin, Fransanın yalançı vədlərinə inanıb Türkiyədə muxtariyyət ala bilməyən ermənilər erməni-türk münaqişəsindən sonra Qafqaza gələrək burada təkcə muxtariyyət əldə etmək deyil, hətta dənizdən-dənizə Böyük Ermənistan yaratmaq iddiasına düşdülər. Buna haqq qazandırmaq üçün onlar Ermənistan adlanan bu ərazidə ermənilərin çoxluq təşkil etdiklərini sübuta yetirməli idilər. Bu məqsədlə 1894-1896-cı illərdə genişlənən erməni-türk münaqişələri, antitürk əhval-ruhiyyəsi öz əks-sədasını 1905-ci ildəki erməni-müsəlman müharibəsində azərbaycanlıların soyqırımında tapdı. Təəssüf ki, C.Makkarti azərbaycanlıların sonrakı taleyini qələmə ala bilmədi.

Xalqların, o cümlədən Azərbaycan xalqının başına gələn bu faciə və müsibətlər əsası I Pyotr tərəfindən qoyulmuş Rus imperiyasının irtica siyasətinin nəticəsidir. Deli Petronun «Vəsiyyətnamə»si yaxın Şərqi, Ağ dənizi, Hind okeanını, Kiçik Asiyanı işğal etmək, İstanbulu imperiyanın paytaxtı etmək, xalqları məhv etmək idi. Bu «Vəsiyyətnamə» dünyada ən şovinist imperiya olan Rusiya dövləti tərəfindən zaman-zaman həyata keçirilməkdədir.

Rusiya hökmdarları Türkiyə və İranı daxildən parçalamaq üçün bu ölkələrdə yaşayan ən nadürüst, çörək itirən, haramzadə tayfa olan ermənilərdən ustalıqla istifadə ediblər və hazırda da edirlər. Məsələn, bu yaxınlarda (7 iyul 2001-ci ildə) İrəvanda olan Rusiya Federasiyasının Dövlət Dumasının sədri Sleznyov müxbirlərin sualına cavab olaraq demişdir ki, əgər Dağlıq Qarabağ Ermənistanın tərkibinə daxil olarsa, onda onu Belarusiya-Rusiya İttifaqına qəbul etmək mümkündür.

Göründüyü kimi, indiki «demokratik» Rusiya imperiya xofundan əl çəkmir və xalqları bir-birinə salmaqla öz məqsədlərini həyata keçirməkdədir. Baxmayaraq ki, o, Dağlıq Qarabağ məsələsi üzrə ATƏT-in Minsk qrupunun həmsədridir. Belə olduqda Rusiya Federasiyasının üçüncü rəhbəri kimi Sleznyovun bu bəyanatı, Dağlıq Qarabağ probleminin çözümünü daha da dolaşdırmaq deyilmi?

2002-ci ildə Ermənistan prezidenti R.Koçaryan bəyanat verdi ki, Dağlıq Qarabağ ya müstəqil dövlət olmalıdır, ya Ermənistan Respublikasına birləşdirilməlidir. Bu heç də təsadüfi bəyanat deyildir. Bu bəyanat Moskvanın Dağlıq Qarabağ barədə yeritdiyi siyasətin təzahürüdür.

Qeyd edilən mülahizələr-yəni ermənilərin Zaqafqaziya, o cümlədən Qərbi Azərbaycana və Şərqi Anadoluya gəlmələri və tutduqları torpaqların türk torpaqları olmaları ermənilərin öz mənbələrində bir daha belə sübut olunur. V yüzillikdə yaşamış erməni tarixçisi Xorenli Movsesin verdiyi məlumata görə hələ Miladdan əvvəl II yüzillikdə bulqar-türk soyları Zaqafqaziyanın müxtəlif yerlərində məskun olmuşlar. O göstərir ki, indi də, yəni onun yaşadığı V yüzillikdə də onların adları ilə bağlı toponimlər qalmaqdadır. O, bu əraziyə gəlmiş bulqar-türk soylarının başçısının Bayandur Bulqar Vənd olduğunu göstərir. Erməni tarixçisinin bu dəlilləri müasir yer adları ilə - toponimləri ilə təsdiq olunur. Məsələn, Ordubad rayonunda Vənənd, Zəngəzurda Vənənli, Lerik rayonunda Vənədi, Lənkəranda Bulqar çay Füzuli rayonunda Yağlıvənd, Papravənd, Xocavənd, Dərbənd, Şimali Qafqazda Qaradərvənd və s. vəndlə qurtaran şəhər və kənd adları mövcuddur.

Beləliklə, tarixi faktlar və tarix göstərir ki, türk xalqlarının, o cümlədən müasir Türkiyənin və Azərbaycanın qədim dövlətçiliyi və böyük coğrafi əraziləri olmuşdur. Ancaq ermənilərin tarixən coğrafi vətənləri olmamışdır. Onlar köçəri halda Şərqi Anadolunun və Yaxın Şərqin müxtəlif regionlarında yaşamışlar, hazırda da dünyanın müxtəlif yerlərinə səpələnmişlər. Onların (ermənilərin) hazırda üçdə biri Qərbi Azərbaycanın İrəvan Xanlığı ərazisində məskunlaşıblar. Dövlətçilikləri isə 1918-1920-ci illərdə 30 ay müddətində olmuşdur. Hazırda isə 1991-ci ildən müstəqil olsa da, dövlət kimi özünü qələmə verən Ermənistan əslində Rusiya Federasiyasının bir quberniyasıdır.

Ancaq erməni şovinist tarixçiləri dəridən-qabıqdan çıxıb saxta tarix düzəldiblər ki, onlar yuxarıda qeyd edilən ərazilərdə aborigen və ən qədim dövlətçiliyə malik olan yeganə bir xalqdır. Buna isə sübut yoxdur.

A.A.Xaçaturyanın «Ermənistanın VIII-XVII əsrlər ərəb kitabələri mətnləri» əsərinə akademik Z.Bünyadovun verdiyi rəydə deyilir ki, dövlətin mövcudluğunun əsasını onun pulunun olması təsdiqləyir. Tarixdə nə müstəqil erməni dövləti olmadığı kimi, onun tarixi də olmayıb, nə də vahid və daimi əraziləri olmayıb. Məhz ona görə də saxta ərazi və onun saxta tarixini yazmışlar. O tarix də heç bir əraziyə uyğun gəlmədiyi üçün «Erməni xalqının tarixi» adlanır.

Lakin qeyd edilən bu və digər tarixi sənəd və faktlara baxmayaraq aşağıdakı saxta xəritə və saxta ideologiya ilə illüziya və böhtanla erməni şovinist ideoloqlarının yazı və çıxışları müasir dövrdə də səngimək bilmir. Bunlardan bəzilərini qeyd etmək yerinə düşər.

## 7. MÜASİR ERMƏNİSTAN HAQQINDA

*Müasir Ermənistan İrəvan xanlığının torpaqları üzərində yaradılmışdır*

Tarixən müstəqil coğrafi əraziləri və müstəqil dövləti, heç bir dövlətçilik ənənəsi olmayan ermənilər böyük dövlətlərin maraqları toqquşanda vəziyyətdən və tarixi şəraitdən istifadə etmişlər. Belə bir növbəti şərait Dünya müharibəsində də yarandı. Bütün dünyanı çulğamış müharibə dövründə Antanta İttifaqı Almaniya-Avstriya-Macarıstan-Türkiyə-Bolqarıstan birliyinə qarşı müharibədə qələbə qazanmaq üçün Osmanlı imperiyasında yaşayan ermənilərin müstəqil erməni dövləti yaratmaq ideya və intriqan məqsədindən istifadə edib dünya ermənilərini müharibəyə cəlb etdi. Şəraiti yaxşı canlandırmaq üçün deməliyik ki,

Rusiyanın Qafqaz cəbhəsində vuruşan 750 min döyüşçünün 250 mini erməni könüllüləri idi. Antantanın digər dövlətlərinin ordularının tərkibində isə 50 min erməni könüllüləri və Andronikin 500 «qisas ordusu» vardı.

Müharibənin gedişində Rusiyada çevriliş baş verdi. Müharibədən çıxan bolşevik Rusiyası Brest-Litovski (mart 1918) sülh müqaviləsinə görə Qərbdə və Qafqazda bir çox əraziləri itirərək ordusunu həmin ərazilərdən apardı. Zaqafqaziyada yarım milyon rus ordusunun silahı ermənilərə qaldı.

Yaranmış vəziyyətdən Zaqafqaziya xalqları istifadə edərək özlərini müstəqil dövlət elan etdilər. Heç bir əraziləri olmayan ermənilər də keçmiş İrəvan xanlığı torpaqlarında təşkil edilmiş İrəvan quberniyasında əhalinin etnik demoqrafik tərkibinə əhəmiyyət verməyərək silahlı ordu gücü ilə müstəqil erməni dövləti elan etdilər.

Çox keçmədən yenə də tarixi şərait dəyişdi. 1920-ci ilin noyabrında Sovet Rusiyası Zəngəzurdan hücuma keçib İrəvanı tutdu. Ermənilər siyasəti dəyişdilər, indi artıq bolşeviklərlə ittifaqa girdilər. Təcavüzkar «Böyük Ermənistan» xülyası yeni tamam başqa şəraitdə dirçədilməkdə idi.

Beləliklə, Ermənistan özünü 1920-ci ilin 29 noyabrında müttəfiq respublika elan etdi. 1922-ci il martın 12-dən 1936-ci il dekabrın 5-dək ZSFSR tərkibində olmuşdur. 1936-cı il dekabrın 5-dən formal olaraq müstəqil müttəfiq respublika kimi SSRİ tərkibində mövcud olmuşdur.

Ermənistan Zaqafqaziyanın cənub hissəsindədir, şimaldan Gürcüstan, cənub-şərqdə Azərbaycan, Qərbdə Türkiyə, cənubda İranla həmsərhəddir. Sahəsi 29,8 min kvadrat kilometr, əhalisi 3 milyon 310 (1979), paytaxtı İrəvan şəhəridir.

Müasir Ermənistana gəldikdə işğalçı və terrorçu bir dövlətdir. Azərbaycanın 13.334 kvadrat kilometr ərazisini işğal etmişdir.

Ermənistan da digər Zaqafqaziya Respublikaları kimi prezident üsuli-idarəsinə (5 ildən bir), ali qanunvericilik orqanına (parlamentə-5 ildən bir seçilir) və Nazirlər Kabinetinə malikdir. Lakin seçki sistemində formallığı və saxtakarlığı Avropa Şurası təsdiq etmişdir.

Ermənilər bu gün də «Böyük Ermənistan» xülyası ilə yaşayırlar. Ermənilərin tərtib etdiyi saxta xəritə üç dənizi (Qara dəniz, Ağ dəniz, Xəzər dənizi) birləşdirən «Böyük Ermənistanı» əhatə edir. Bu təcavüzkar xəritə nəinki Orta Şərqi, bütün Zaqafqaziya və Anadolunu, və digər maraqlanan dövlətləri də fakt qarşısında qoymuşdur.

1919-cu ildə Daşnaqsütyun orqanı olan «Joqovurdu dzain» qəzetində Zaqafqaziya Ermənistanın sərhəddi verilmişdi. Belə ki, qəzet «Qarabağ, Axalkalaki və Qoris» məsələlərində Ermənilərin etnoqrafik hüquqlarına istinad edərək, Zaqafqaziya Ermənistanının sərhəddini verir: «Böyük İrəvan quberniyası, bütövlükdə Qars ərazisi, Tiflis quberniyasının aşağıdakı rayonları, Axalkalaki qəzasının iki hissəsi, Tapaxuri gölündən şimala yerləşən ərazi, Borjum kənd cəmiyyətinin kiçik hissəsi, Sxaro, Qori qəzasının ətrafındakı dağlar, Sağcdan və bu qəzadan şimalda yerləşən Borçalı qəzasının bir hissəsi-qərb hissəsi. Arqavan dağının 8 verstliyində bu sektoru Ulu dağın zirvəsi ilə birləşdirən düz xətt boyunca qərb hissəsi. Akriqar dağından başlayaraq, Xram çayının axını boyu dəmiryoluna kimi Borçalı qəzasının şimal hissəsi, belə ki, Bolnis-Xocel və Şulaveri sərhədlərindən cənubda qalır». Ermənilərin fikrincə, qədim İberiya, orta əsrlər Gürcüstanına yox onlara məxsus imiş.

Bu saxta «xəritə»də Gürcüstana nisbətən, daha çox Azərbaycan əraziləri erməni torpaqları kimi göstərilmişdir. Azərbaycanın göbəyi olan qədim Gəncə quberniyasının bir hissəsi: a) Qazax qəzasının cənub hissəsi, belə ki, Koqub, Uzun Tala və Qulani sərhəddən cənubda qalır. b) Gəncə qəzasının cənub hissəsi, belə ki, Çardaxlı sərhəddən cənubda qalır. v) Cavanşir qəzasının cənub-qərb hissəsi. Şuşa qəzasının şimal hissəsi, deməli Ağdam və Qacar Ermənistanın tərkibinə daxil olur. d) Cəbrayıl qəzasının bir hissəsi Vəng, Hadrut, Edilli və Aragül kəndləri ilə e) Qəzanın cənub qərbində yerləşən Kirs dağları, Şahverdilər kəndi və Araz üstündə yerləşən stansiya istisna olmaqla, Zəngəzur qəzası».

Lakin müasir daşnaqlar bu xəritə ilə kifayətlənmirlər. Belə ki, indiki münaqişənin başlanğıcında 1988-ci il iyun ayının 6-da «Qarabağ» komitəsinin qurultayında erməni ideoloqlarından nə Z. Balayan, nə də İ. Vazgen keçmiş daşnaqların bu ərazi proqramları ilə razılaşmayaraq bunu qısa, yəni minimum proqram hesab etdilər. Balayanın fikrincə, Gürcülər Qafqaz dağlarının arxasına sıxışdırılmalı, Azərbaycanlılar isə ölkəni tərk edib Xəzər dənizinin o tayına köçürülməli idilər. Bütün çıxışında Azərbaycanı hədəf seçən Zori Balayan saxta dəlillərlə dinləyicilərini inandırmağa çalışırdı ki, Gəncəbasar, Mil, Muğan, Şirvan torpaqları dənizə kimi ermənilərə məxsus olub. Əsrin əvvəlində Naxçıvanda əsasən ermənilərin yaşadığını tarixə məlum olmayan dəlilərlə sübut etməyə çalışdı. Dağlıq Qarabağda yaşayan ermənilərin dillərində dəyişikliyin olmasını qızlarının başqa millətlərlə ailə qurub dildən, dindən uzaqlaşması ilə əlaqələndirərək türkləşməyə doğru getdiyini iddia etdi. Balayanın fikrincə, müsəlman ölkələrində doğumun çoxalması, xristianlar üçün təhlükə yaradır, milli qeyrətlərini tapdalayıb qürur hisslərini ləkələyirdi.

I Vazgenin əli şimaldan yığılmırdı; Dağıstan, Armavir, Rostov, Naxçıvanı (Rostov vilayəti) da Ermənistanın olmalıdır, deyirdi. Bir vaxtlar Rus-Türk müharibələrində istila olunarkən çarizm bu torpaqlarda hakimiyyətini saxlamaq, həmin türk-müsəlman torpaqlarını birdəfəlik özününkü etmək məqsədilə ora erməniləri köçürmüşdü. İndi «millət rəhbəri» onun mənəvi atası millətin oralara dağılıb çoxalması ilə məskunlaşması və rəhbər vəzifələrdə çoxluq təşkil etməsi ilə buna nail olmağı irəli sürürdü. Göründüyü üzrə «Böyük Ermənistan» xəritəsi fantastik dərəcədə böyüməkdədir.

## İRƏVANIN TARİXİNƏ SƏYAHƏT

İrəvan qalasını ucaldan, möhtəşəm abidələr yaradan xalqın kimliyi haqqında obyektiv təsəvvür əldə etmək üçün İrəvanın qədim tarixinə aid məlum faktları yığcam şəkildə nəzərdən keçirək.

Qədim mənbələrdə Yerevan (yaxud İrəvan) adı çəkilmir. İrəvan adı ilk dəfə eramızın VII əsrinə aid erməni mənbəyində çəkilir. «Abrahamın çağırdığı yığıncağda İrəvanlı David də iştirak edirdi» («Kiru txtotsi» kitabı sənədlər toplusu, s. 151).

Qaraqoyunluların və Ağqoyunluların hökmdarlığı dövründə coğrafi mövqeyinə, yerli şəraitinə görə İrəvan, Çuxur Səd vilayətinin inzibati mərkəzi olub.

Şəhərə söykənmiş Cəfərabad (Arqavand) kəndində olan bir türbə həmin dövrün yadigarıdır. Türbə bişmiş kərpicdən və daşdan tikilib. Kitabədə Ərnir Səidin və onun uğlu Pir Hüseynin adları çəkilir. Hüseyn Pir Yaqub bəydən əvvəl Çuxur Səd vilayətinin əmiri olub. Kitabədə həmçinin Qaraqoyunlular sülaləsinin başçısı Qara Yusifin (1410-1420) sərkərdəliyindən bəhs olunur, onun oğlu Pir Budağın böyük hökmdar olması qeyd edilir. Şəksiz ki, türbə Qara Yusifin Teymuriləri məğlub edib Kürün cənubundakı Azərbaycan torpaqlarını, Gürcüstanı, Şərqi Anadolunu, Ərəb İraqını ələ keçirdikdən sonra öz oğlu Pir Budağı Təbrizdə padşahlıq taxtına oturtmaq haqqında verdiyi fərmanla əlaqədar ucaldılmışdır.

İrəvanda qala, yeni binalar tikmək, abadlıq işləri aparıb şəhəri möhkəmləndirmək haqqında Şah İsmayılın Rəvanqulu xana ciddi tapşırıqlar verməsindən söhbət açan Yervand Şahəziz bu qənaətə gəlmişdir ki, İrəvan və Rəvanqulu adları arasında heç bir əlaqə yoxdur, çünki İrəvanın adı VII əsrdən bəllidir. Məhəmməd Xudabəndə (1578-1587) dövründə şəhər torpaqlarını suvarmaq üçün iri bir göl (uzunluğu 400, eni 250 sajin) tikilmiş, yeni arxlar çəkilmişdir. 1678-ci ildə tikilən, Sovet hakimiyyəti illərində bərpa olunan, indi S.Şaumyanın adını daşıyan bu gölə yerli əhali yenə də «Toxmaq» gölü deyir. «Toxmaq» o zaman İrəvan hökmdarı olmuş Mahmud xanın ləqəbidir. 1605-ci ildə Şah Abbas İrəvanı Osmanlılardan aldıqdan sonra Əmirqulu xanı buraya hökmdar təyin etmişdir. Həmin dövrdə yaşamış erməni tarixçisi Zəkəriyyə yazır: Əmirqulu xan (digər adı Əmirgünə) Yerevana sahib olan kimi quruculuq işlərinə başladı, şənlik yaratdı, qala tikdi, saray ucaltdı, bağ-bağça, bostan saldı, arxlar çəkdirib şəhərin suyunu artırdı.

1679-cu il iyunun 4-də zəlzələ İrəvanı yerlə-yeksan etmişdi. İrəvanın yeni hökmdarı təyin olunmuş Zal xanı təbrik etmək üçün zəlzələdən bir qədər əvvəl buraya gəlmiş Əylisli Zəkəriyyə həmin hadisəni belə qələmə almışdır: daşı daş üstə qalmadı, məscidlər, karvansaralar, kilsələr dağıdıldı, qala yerlə-yeksan oldu, körpülər yatdı, sular batdı, ölən qalandan çox oldu. Ətrafda it-pişik də gözə dəymirdi. Abbasqulu xanın kürəkəni Zal xan çapar göndərib bu sitəm haqqında dörd yana xəbər yaydı. Gəncədən 800 adam gəldi. Məhəmməd xan Naxçıvandan böyük bir dəstə gətirdi. Bərdədən, Zəyəmdən, Makudan, Təbrizdən, qonşu xanlıqlar və sultanlıqlardan o qədər adam gəlmişdi ki, qala ətrafında tərpənməyə yer yox idi. Azərbaycan vəziri Mirzə İbrahim iyulun 1-də Təbrizdən gəlib İrəvanda əyləşdi. Qala yenidən ucaldı, daha möhkəm oldu, arxlar çəkildi, körpülər salındı, məscidləri, karvansaraları, kilsələri yenidən tikdilər. Şəhər dirçəldi, əhali bərpa olunmuş evlərə qayıtmağa başladı. Yerlə-yeksan olmuş şəhəri dirçəldənlər, viranəlik-xarabəlik üzərində daha möhkəm qala, daha görkəmli, daha gözəl imarətlər ucaldanlar, Bərdədən, Zəyəmdən, Təbrizdən, Makudan, Naxçıvandan köməyə gələnlərdəmi fars imiş? Bəs onda yeni tikilən arxların, yeni tikilən məscidlərin, karvansaraların, yeni salınan meydançaların, bağ-bağatın, əkin yerlərinin adları niyə farsca deyil? Yuxarıda adları çəkilən səyyahların, həmçinin Avqust Fon Haqsthauzenin, İ.Şopenin, Uvarovanın və İrəvan haqqında söhbət açmış başqa səyyah və tədqiqatçıların əsərlərində göstərilən yerli adlarına diqqət yetirək: Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Təpəbaşı, Dəmirbulan Bağçalar, Yoncalıq və Börkçülər (bulaqlar), Gedərçay, Qırxbulaq, Zəngi (çaylar), Dərə Dəlmə, Dəmirbulaq, Dərəkənd, Şəhər və Abbas (bağlar). Məscid meydanı Zal xan meydanı, Fəhlə meydanı, Böyük meydan, Şəhər meydanı, Göy məscid Qala məscidi, Hacı bəyin məscidi, Zal xan məscidi, Günlüklü məscid, Günbəzli məscid, Şəhər məscidi, Novruzəli məscidi, Hüseynəli məscidi, Qanlı təpə, Üçtəpə Qızıl təpə...

Şəksiz ki, əcnəbi səyyahlar və tədqiqatçıların eynən işlətdikləri bu adların hər birinin öz «tarixçəsi», başqa sözlə, «tarixi informasiyası» vardır.

Bu informasiyanın, bu bilginin öyrənilib ümumiləşdirilməsi və müasirləşdirilib mədəniyyət fondumuza fəal daxil edilməsi vaxtı çoxdan gəlib çatmışdır. İrəvanın məhəllələri, bulaqları, çayları, bağları, dağ və təpələri indi də el arasında (bir qismi isə rəsmi sənədlərdə) öz adlarını qoruyub saxlamışdır. Məsələn, İ.Şopenin verdiyi məlumata görə XVIII əsrdə İrəvanın üç iri məhəllәsi olmuşdur: Şəhər, Təpəbaşı, Dəmirbulaq. Eyni adı yaşadan həmin məhəllələr indi də şəhərin iri məhəllələri sayılmaqdadır. XVIII əsr səyyahlarının təsvir etdikləri şilə (qırmızı parça) boyayanlar, sabun bişirənlər, göy rəngli parça boyayanların məhəllələri yenə əvvəlki kimi «Şiləçi», «Sabunçu», «Boyaqçı» adlarını daşıyır.

İrəvanda, həm də xanlığın bütün ərazisində fars, ərəb, erməni dili deyil, məhz Azərbaycan türkcəsinin üstün təsir gücünə malik olduğunu və geniş yayıldığını aşağıdakı faktlar da sübut edir. Matenadaranın arxiv fondunda (Kilsə divani, səh. 290, 319) saxlanılan məktubu 1784-cü ildə kahin Qukas yazmışdır. Məktubda Gürcüstana-II İrakliyə, Bayazidə İsak paşaya göndərilmiş toxumların siyahısı verilmiş, miqdar və qiyməti göstərilmişdir. Qəribə görünsə də faktdır ki, milliyyətcə erməni olan kilsə xadimi, toxumların demək olar, hamısının adını azərbaycanca yazmışdır: «buğda, qarpız, qara qarpız, yonca, xiyar, ispanaq, reyhan, badımcan, gül...».

Sərdar Hüseyn xanın (1807-1827) vaxtında İrəvan xanlığı 15 mahala bölünmüşdü: Qırxbulaq, Zəngibasar, Gəmibasar, Vedibasar, Şərur, Dərəkənd, Saatlı, Sürməli, Talışə (Talin), Seyidli, Sərdarabad, Kərbibasar, Abaran, Dərə-çiçək, Göyçə mahallarına.

Xanlığın ərazisi, sərhədləri haqqında söhbət açılan bütün əsərlərdən, hətta dərsliklərdə yer adları bu qaydada verilmişdir: «Arpa çayından Qızıl kilsə kəndinədək...», «Hacı Bayraməli kəndindən Qəbir dağadək...», «Koroğlu dağından Arazboyu Naxçıvanadək, Şərurədək...» Yaxud xanlığa daxil olan mahalların (nahiyələrin) adlarına fikir verək: Qırxbulaq, Vedibasar, Şərur, Sürməli, Saatlı, Seyidli, Sərdarabad, Talin, Zəngibasar, Abaran, Dərəçiçək, Dərəkənd, Gəmibasar, Göyçə.

Beləliklə, İrəvan şəhərdaxili tarixi adlara diqqət yetirək:

**Məhəllə adları:** Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Təpəbaşı, Dabbaqlar, Şallaqlar, Dəyirmanlar, Qəriblər, Dəmirbulaq, Bağçalar, Yoncalıq, Börkçülər, Məscid dalı, Qəbiristan, Rüstəmxan.

**Karvansaralar:** Gürcü, Culfa, Sərdar, Tağlı, Sulu, Susuz, Hacı Əli, Kömürçü, Əfsar, Şeyxülislam.

**Bulaqlar:** Dəmirbulaq, Qırxbulaq, Dəlməbulaq, Sərdar.

**Çaylar:** Gedərçay, Qırxbulaq, Zəngi, Məmur kanalı, Abihəyat çayı. İrəvan qalasının ruslar tərəfindən alınmasından vəcdə gələn erməni aşığı Hovsepin təmiz azərbaycan türkcəsində yazmasını heç də təsadüfi hesab etmək olmaz.

*Nikolay Pavloviçin taxtına, həm tacına qurban,*
*Hökmü hər padşahdan aldığı xəracına qurban,*
*Bir Nerses xəlifənin etdiyi illacına qurban...*

O dövrün maddi abidələri də belə bir həqiqəti ifadə edir ki, təkcə İrəvanda deyil, Ermənistanda yaşayıb-yaratmış, bizim günlərədək gəlib çatan yadigarlar qoyub getmiş azərbaycanlıların sayı çox olmuşdur. Bunu Sisyan rayonunun Urud kəndində 1503-1504, 1578, 1579, 1581-ci illərdən qalan xatirə abidələri bir daha təsdiq edir. Abidələrin üstündə yazılmış:

Bir cavani nazənin məskənidir bu məzar,
Eyləmiş nazik tənin xakiylə yeksən ruzigar

və «daşı Vəli yazdı» sözləri ozan, xəttat babalarımızın bədiilik dünyasından qopub müasirlik rüzgarına qovuşan hənirtisi deyilmi?!

İrəvanın qədim tarixinə dair əldə olan məlumat çox azdır. Bunun bir səbəbi iranlılarla osmanlılar arasında fasilələrlə 366 il davam edən müharibələr, şəhərin 14 dəfə əldən-ələ keçməsi də, nəhayət, 4 iyun 1679-cu il zəlzələsində dağılmasıdır.

İrəvanın dövrümüzədək gəlib çatmayan memarlıq və təsviri sənət örnəkləri haqqında məlumatların çoxu da zəlzələdən sonrakı illərə aiddir. Kərpicdən və daşdan zövqlə bina edilmiş şəbəkəli, tağlı, dördkünc karvansaralar öz orijinallığı və üslub zənginliyi, bol-bol su çiləyən qəşəng fəvvarələri və ümumi memarlıq quruluşu ilə hamını valeh etmiş, şəhərin həm möhtəşəm, həm də ən gözəl tikililəri sayılmışdır. Gürcü karvansarasının 78, Culfa və Sərdar karvansaralarının hərəsinin 38, Tağlı, Sulu və Susuz karvansaralarının üçünün birlikdə 74, Hacı Əli karvansarasının isə 40 dükanı olmuşdur. J.Şarden xan sarayından 500 addım o tərəfdə boylanan karvansaranı («on gözəl bir imarət») kimi qələmə alaraq yazmışdır ki, 800 addımlıq giriş yolu boyunca dükanlar düzülmüş bu binanın içində irili-xırdalı daha üç tikili, yanında gözəl bir məscid və iki qəhvəxana vardır.

Şəhərin o zamankı memarlıq simasına İrəvan qalası xüsusi rövnəq vermişdir. Öz dövrünün yüksək memarlıq-bədii sənətkarlıq nümunələri olan qala, onun üfüqlərə dirəklənmiş 50-60 bürcü, qala içindəki saray, güzgülü salon, bəzəkli gəlinə bənzəyən qoşa-qoşa məscidlər, iki-üç mərtəbəli binalar, yüksək zövqlə tikilmiş kişi və qadın hamamları, uzunluğu 15, eni 5 sajin, dərinliyi 3 arşın olan mərmər hovuz, bəzəkli «Təbriz qapısı», ornament motivləri, gül-çiçək rəsmləri, portret təsvirləri, səyyahlarının hamısını, həmçinin yazıçı A.S.Qriboyedovu, rəssamlar V.Moşkovu və Q.Qaqarini valeh etmişdi.

Təbrizdə Cahan şahın xatirəsinə onun arvadı Xatun Canbəyimin ucaltdırdığı Göy məscid XV əsr Azərbaycan memarlıq sənətinin şah əsəridir. Təsadüfi deyildir ki, Taverniyen onu «islamın firuzəsi» adlandırmışdır. Bu da təsadüfi deyildir ki, həmin məscidi 1465-ci ildə Azərbaycan memarı Nemətulla tikmişdir. O zamanlar Heratın məşhur mədrəsəsini tikən Hacı Əli Hafiz, Məşhəddə Məcnun şah məscidi ucaldan Əhməd Şəmistan, Səmərqənddə Bibixanım məscidinin bina edilməsində böyük ad qazanmış Azərbaycan memarları və sənətkarları təkcə Azərbaycanda deyil, bütün Şərqdə tanınmışdılar. Gəncədəki Şah Abbas və İrəvandakı Göy məscidi də məhz elə həmin memarlıq məktəbi və sənətinin örnəkləri saymaq mümkündür.

İrəvanda xan sarayının rəsmlərini, otaqlarını və güzgülü salonun divarlarındakı süjetli kompozisiyaları XIX əsrin 50-ci illərində bərpa edən, Fətəli xanın, Abbas Mirzənin, Hüseynqulu xanın, Həsən xanın... portretlərini yağlı boya ilə yenidən kətan üzərində çəkib divara yapışdıran həmyerlimiz Mirzə Qədim İrəvani (1825-1875) olmuşdur. Onu biz fars, çinli, yaponiyalı kimi yox, irəvanlı dülgər, taxta üzərində oyma ustası Məhəmməd Hüseyn kişinin oğlu, teleqrafçı Mirzə Qədim kimi, təsviri sənət məktəbimizin rəşidi-rövşəni Mirzə Qədim İrəvani kimi tanıyırıq.

Təkcə memarlıqda, təsviri sənətdə deyil, əkinçilikdə və maarifçilikdə də Ermənistanda yaşayan azərbaycanlılar tanınmış və ad qazanmışdılar.

İrəvan Yaxın Şərqdə və Qafqazda mühüm şəhərlərdən biri olmuşdur. Burada məktəblər, mədrəsələr, sonralardan azərbaycanlılar üçün gimnaziya və seminariya fəaliyyət göstərmişdir ki, onların tarixin müəyyən məqamlarında dünya əhəmiyyətli alim və ixtiraçıların, maarif və mədəniyyət xadimlərinin yetişdirilməsində əzəli rolları danılmazdır.

**İ.Şopen 1837-ci ildə «Ermənistan vilayətində maarifin vəziyyəti haqqında» adlı məqaləsində İrəvan mədrəsəsi haqqında yazırdı: «Gənclər bədii ədəbiyyatla daha çox məşğul olurlar. Onlardan bir çoxu Rudəki, Firdovsi, Ənvəri, Nizami, Cami, Hafiz, Sədi və digər məşhur söz ustalarının əsərlərini əzbərdən bilirdilər. Hələrə həsr edilmiş xüsusi şerlər qoşurlar. Öz əqlini poeziyanın ən əsas cəhətlərinə həsr edən bir Mirzə isə özünə Mirzə Bülbül təxəllüsü götürmüşdür».**

«Qafqaz» qəzeti (27 noyabr 1851-ci il, N-90) yazırdı ki, İrəvan quberniyasının Şərur mahalından Əbdürza Mərhəm Londonda təşkil olunmuş sərgidə iştirak etmiş, yerli toxum sortlarından yetişdirdiyi pambıqdan alınmış parça üçün yüksək mükafata layiq görülmüşdür. İrəvanda anadan olmuş İsa Sultan Nəcəf oğlu Şaxtaxtinski 1871 -ci ildə Peterburqda Əkinçilik İnstitutuna daxil olmuş, 1875-ci ildə İsveçrədə kənd təsərrüfatı və meşəçilik elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1877-ci ildə o, Tiflisdə Mixelson mətbəəsində «Kavkazski almanax»ı çap etdirmiş, «Tiflisski vestnik» qəzeti redaksiyasında siyasi məsələlər şöbəsinin müdiri olmuşdur. İsa Sultanın qardaşı Əbülfəth (1855-1913) Peterburq Universitetində G.V.Plexanovla bir vaxtda oxumuş, 1883-cü ildə Heydelberq Universitetini qurtarmış, bakalavr adı almış, həm də V.Hötenin «Gənc Verterin iztirabları» əsərini ilk dəfə azərbaycancaya çevirmişdir.

Sovet dövründə də yalnız İrəvan şəhərindən nəinki respublika miqyasında hətta dünya əhəmiyyətli ada malik olan akademiklər, alimlər və digər mədəniyyət və maarif işçiləri yetirmişlər.

Zülmkar hökmdarlara, talançı-qəsbkarlara qarşı ardı-arası kəsilməyən döyüşlərdə həlak olmuş şəhid babalarımızın min-min məzarı bu ölkənin hər yerində, İrəvan dağlarının ətəklərində mürgüləməkdədir. Bu diyar dastanının bir üzü qəzəb oyadıb, könül dağlayan, o biri üzü nikbin səslənib ürəkdə iftixar çırağı yandıran hər səhifəsində biçib-əkən, qurub-tikən atalarımızın izləri duyulur. Bu torpağın insan əli ilə yaradılmış hər bəzək-düzəyinin hüsnündə alın tərimizin, yalçın qayaların

zümrüd sinəsindən keçən hər yolçunun ayaq səsində, çayların-çeşmələrin zümzüməsində hünərimizin, yorğun boylanan köhnə və təzə imarətinin divarlarında quruculuq-sənətkarlıq əzmimizin min bir hənirtisi eşidilməkdədir.

Bunu heç vaxt, heç kəs, heç bir vəchlə inkar edə bilməz. Ona görə inkar edə bilməz ki, ötən dövrlər hələ bir yana, Qərbi Azərbaycan Rusiyanın tərkibinə daxil olanda İrəvanda təqribən 9 minlik şəhər əhalisinin 7 min nəfərindən çoxu azərbaycanlı olmuşdur. XIX əsrin sonunda İrəvan quberniyası Qafqazda yaşayan azərbaycanlıların sayı baxımından Bakı və Yelizavetpol quberniyalarından sonra üçüncü yeri tutmuşdur. Rusiya imperiyasında birinci dəfə keçirilən əhalinin siyahıya alınmasına görə 1897-ci ildə burada 313178 Azərbaycanlı yaşamışdır.

XIX əsrin birinci rübündə rus qoşunları İrəvan xanlığına daxil olanda burada olan 20 oturaq və köçəri türk tayfaları haqqında məlumat verilir. İşğal dövründə İrəvan xanlığının işğala qarşı müqavimətindən də danışılır (bax: S.V.Şostakoviç «Diplomatiçeskaya deyatelnost A.S.Qriboyedova», Moskva, 1960). Rus işğalından bir qədər sonra-1830-cu ildə aparılan siyahıya almadan bəlli olur ki, xanlığın mərkəzi İrəvanın əsas əhalisi azərbaycanlılar olmuşdur. Daha dəqiq desək, şəhərdə 7331 nəfər azərbaycanlı, 4484 nəfər gəlmə erməni, 105 nəfər isə başqa millətlərin nümayəndələri yaşayırdı.

1827-ci ildə Baş komandan qraf F.İ.Paskeviç imperatora göndərdiyi məktubda yazırdı: «İrəvan qalasında və mahalında Məhəmməd dinindən olan 10 min və xristian dinindən olan 3 min ailə yaşayır». 17 aprel 1828-ci ildə isə o general Dibiçə göndərdiyi raportunda yazırdı: «Cənubi Azərbaycandan Qarabağa 279, İrəvan mahalına isə 948 xristian ailəsi gətirilib».

İrəvan xanları daim azərbaycanlılardan ibarət olmuşdur. 1860-cı ildə bir yerdə şəkilləri çəkilmiş 11 İrəvan xanının hamısı azərbaycanlıdır. Bu faktın özü də təsdiq edir ki, orada dominant millət yalnız azərbaycanlılar olub.

İrəvan xanları həyata heç də biganə qalmamışlar. Qədim Şərq şəhərinin abadlığı üçün xeyli quruculuq işləri aparmışlar. XX əsrin 40-50-ci illərinədək gəlib çatmış məscid, onlarla karvansara, hamam, bazarlar, şəhəri iki hissəyə bölən Gedərçay adlı çay üzərində salman tağlı daş körpülər ötən əsrlərin yadigarlarıdır. Şəhərin möhtəşəm qalasını maarifçilərdən biri «min yaşlı, min başlı div» adlandırırdı.

Qədim şəhərin qəlbə yatımlı məhəllə adları olmuşdur: Şəhər məhəlləsi, Hacı Novruzəli məhəlləsi, Dəmirbulağ, Təpəbaşı, Dərə kəndi, Çolmənçi, Toxmaxgöl, Şiləçi və s. məhəllələrdən küçələrə verilən adlar burada yaşayanları xarakterizə etməyə imkan verirdi: Sallaxlar, Dabbaqlar, Qəriblər, Sabunçular, Cındafüruşlar və sair küçə adları.

Erməni akademiki B.S.Ovanesyan yazmışdır ki, XIX əsrin sonunda İrəvan şəhərində yaşayan əhalinin 75 faizi azərbaycanlılar, 25 faizi isə ermənilər olmuşlar. O zaman İrəvan şəhərində ermənilərin iki kilsəsi, azərbaycanlıların 16 məscidi olmuşdur. Daha sonra, Ermənistan KP-nin ikinci katibi işləmiş Hrand Martirosyan kitabında 1829-1899-1959-cu illərdə Ermənistanda mövcud olan şəhər və kəndlərin siyahısını vermiş, o illərdə həmin kənd və şəhərlərdə nə qədər əhali yaşadığını və hansı millətə mənsub olduğunu göstərmişdir...

Hrand Martirosyanın yazdığına görə 1829-cu ildə Ermənistanın şəhər və kəndlərində 85 faiz azərbaycanlı 15 faiz erməni əhalisi olmuş, 1959-cu ildə isə Ermənistanda yaşayan azərbaycanlıların sayı 15 faizə düşmüşdür. 1829-cu ildə Ermənistandakı şəhər və kəndlərin coğrafi adlarının 95 faizi Azərbaycan dilində olduğu halda, 1959-cu ildə 45 faizə enmişdir. və s.

S.Sərdariniyanın yuxarıda adı çəkilən kitabında İrəvanın həmişə «xalis» erməni şəhəri olduğunu iddia edən erməni müəlliflərinə cavab olaraq ötən əsrin əvvəllərində Qahirədə çıxan «Hikmət» qəzetindən belə bir iqtibas gətirilir ki, «1905-ci ildə Qafqazda müsəlmanların sayı 3 milyon 208 min 875 nəfər idi ki, bunun da 352351 nəfəri təkcə İrəvan vilayətində yaşayan müsəlmanlardan ibarət olmuşdur». Həmin dövrdə (XX əsrin əvvəllərində) Fransa hökumətində nazir vəzifəsində çalışan İrana, Azərbaycana və Qafqaza səyahətə çıxmış Ojen Oben yazır: «Qəzvindən şimala doğru hərəkət etdikcə hər yerdə fars dili əvəzinə türk dilinin işləndiyini... Təbrizdə, İrəvanda, Tiflisdə və Bakıda danışanların azəri türkcəsində aparıldığını gördüm».

Həmin kitabın «İrəvanda müsəlman soyqırımı» adlanan bölməsində 1918-ci il Bakıdakı soyqırımı ilə yanaşı, bütün kütləvi qətllər, talanlar, zorakılıqlar haqda mövcud həqiqətlər nəzərə çatdırılır və qeyd olunur ki, 1918-ci il qırğını zamanı təkcə İrəvan mahalında və onun ətrafındakı yaşayış məntəqələrində 211 kənd yerlə-yeksan edilmiş, evlərə od vurulmuş, 300 minə qədər insan qətlə yetirilmişdi. Qətliamlar Zəngəzurda, Qarsda və Göyçədə, bütün əhalinin 45 faizi, Meğridə 57 faiz, Qafanda 53,4 faiz, Masisdə (Zəngibasar) 33,2 faiz, Çəmbərəkənddə (Krasnoselskdə) 51,5 faiz, Sisiyanda (Qarakilsə) 30,1 faiz, Yexeqnadzorda (Dərələyəzdə) 18,8 faiz, Quqarkda (Pəmbək) 28,8 faiz, Kalininoda (Dağ Borçalı) 29,1 faiz, Əzizbəyovda (indi Qayk) 27,7 faiz yerli türklərdən ibarət olmuşdur. Müəllif bir sıra mənbələrə, o cümlədən elə erməni tədqiqatçısı Anahid Ter Minasyana istinadən qeyd edir ki, ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişdilər və onların müəyyən bir əraziləri də olmamışdır. Ermənilərin illər boyu dönmədən apardığı etnik təmizləmə işi nəticəsində bu gün Ermənistan deyilən ərazidə bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

Yüzlərlə Azərbaycanlı ziyalı, elm, maarif, mədəniyyət, incəsənət xadimi, o cümlədən Güneydən olan İrəvanın baş müctəhidi, tanınmış Qazi Mirzə Abdulla, ədib və pedaqoq Mirzə Cabbar Bağçaban, böyük maarifçi Mircəfər Raşidi, Əhmədi doktor Nicat və başqaları özlərini və ailələrini zorla erməni bıçağından xilas edə bilmişlər. Bu şəxsiyyətlərin hər birinin acı xatirəsi o faciəli tarixin unudulmaz salnaməsidir. Çox təəssüf ki, bu salnamələr və acı xatirələr bugünədək toplanıb bizim nəslə təqdim edilməmişdir.

Qərbi Azərbaycanın türk torpaqları olması, İrəvanın azəri şəhəri olması və orada həmişə, bütün zamanlarda azəri türkləri yaşamasını yenə erməni mənbəyi təsdiq edir. Kahin Hovhannes Şahxatunyan «1441-ci ildən 1828-ci ilədək İrəvan xanlığını kimlər idarə etmişlər?» sualını verib, aşağıdakı siyahını tərtib etmişdir.

1. Əmir Səd - XIV əsrin axırı - 1410;
2. Pir Hüseyn - Əmir Sədin oğlu - 1410-cu ildən;
3. Pir Yaqub (Sevandakı kilsənin qapısı üzərindəki daşda ədalətli xan kimi Yaqubun adı həkk edilmişdir. Bu abidə 1988-ci ilə qədər qalırdı) - Pir Hüseynin oğlu - 1420-ci il;
4. Əbdül-Pir Hüseynin oğlu - 1430-cu illərdə;

5. Uzun Həsən - 1471;
6. Yaqub bəy - Cahan şahın əmri ilə 1440-cı il;
7. Həsən Əli Qaraqoyunlu - 1460-cı illərdən;
8. Həsənbəy Bayandurun nəvəsi - 1475;
9. Div Sultan Rumlı - 1515-ci ildən;
10. Hüseynxan Sultan - 1550-ci islədək;
11. Şahqulu Sultan Ustaclı - 1550-1575;
12. Lala paşa «Qara Mustafa» adlı Sultan Murad dövrü -1577;
13. Mahmudxan «Toxmaq». Xudavənd şah dövrü - 1576-1583;
14. Fərhad paşa (Sultan Murad dövrü)-1583-cü il;
15. Məhəmməd Şərif paşa - 1604-cü ilədək;
16. Əmirquna Xan Qacar (Şah Abbas dövrü) - 1605-1625;
17. Təhməzqulu (Əmirqunanın oğlu)-1635;
18. Murtuza paşa (Sultan Murad bəy dövrü) - 1635;
19. Kəlbəli xan - 1636-1639;
20. Məmmədxan xan - (Çağata Götük) - 1639-1648;
21. Xosrov xan - 1648-1852;
22. Məhəmmədqulu xan - (Lala bəyin oğlu) - 1652-1656;
23. Nəcəfqulu xan - 1656-1663;
24. Abasqulu xan (Əmirqunanın oğlu) - 1663-1666;
25. Sonqulu xan - 1666-1674;
26. Sarıxan bəy - İki il əvəz edir - 1674-1675;
27. Səfiqulu xan (Təbrizli Rüstəm xanın oğlu) - 1675-1679;
28. Zalxan-1679-1688;
29. Murtuzaqulu xan - (Naxçıvanlı Məhəmmədrza xanın oğlu) - 1675-1679;
30. Məmmədqulu xan - 1691-1694;
31. Zöhrabxan-1691;
32. Fərzəli xan - Əmirqunanın nəvəsi - Sultan Əhməd dövrü-1694-1700;
33. Zöhrab xan - 1700-1705;
34. Əbdül Məhəmmədxan-1705-1709;
35. Mehrəli xan - 1709-19;
36. Allahqulu xan - 1719 - 1725;
37. Rəcəb paşa - 1725-1728;
38. İbrahim və Mustafa paşalar - 1728-1734;
39. Əli paşa - 1734;
40. Hacı Hüseyn paşa - Əli paşanın müavini - 1734;
41. Məmmədqulu xan - 1735-1736;
42. Pirməhəmməd xan - 1736;
43. Xəlilxan-1752-1755;
44. Həsənəli xan Qacar - 1755-1762;
45. Hüseynəli xan (Həsənəli xanın qardaşı) - 1762-1983;
46. Qulaməli xan-(Hüseynəli xanın oğlu) - 1783-1784;
47. Məhəmməd xan - 1805-1806;
48. Mehdiqulu xan - 1805-1806;
49. Məhəmməd xan Marağalı -1806-1807;
50. Hüseyn xan Qacar qardaşı Həsən xanla -1807-1827. (Erməni sovet ensiklopediyası III c, s.571.) İrəvan vilayətlərini idarə etmiş hakimlərin siyahısından da göründüyü kimi, Qərbi Azərbaycan hazırda «Ermənistan» deyilən torpağın aborigen əhalisi azərbaycan türkləri olmuş, torpaq isə Azərbaycanın ayrılmaz bir hissəsi olmuşdur.

Erməni alimi Zaven Korkodyan l932-ci ildə nəşr etdirdiyi «Sovet Ermənistanın əhalisi 1831-1931» adlı statistik məlumat kitabında yazırdı: «1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1866-cı ildə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2 faizi azərbaycanlı olmuşdur». Ermənistan Mərkəzi Statistika İdarəsi tərəfindən 1962-ci ildə nəşr olunmuş məlumatda bildirilirdi ki, XIX əsrin əvvəllərində İrəvanda yaşayan 10 min əhalinin 7 min nəfəri azərbaycanlılar idi. İrəvan xanlığını yuxarıda göstərilən faktla 418 il idarə edən 50 nəfərin hamısı azərbaycanlı idi. 1931-ci ildəki siyahıyaalma zamanı təkcə İrəvan şəhərində əhalinin 58 faizi azərbaycanlı olmuşdur. 1921-ci ildən sonra Göyçə, Şəmsəddin və Zəngəzur mahalının Qafan, Gorus, Sisyan və Mehri rayonları da Ermənistana verilmiş və beləliklə də orada yaşayan Azərbaycanlıların sayı 800 min nəfəri ötmüşdü.

1925-ci ilin dekabr ayında Ermənistan SSR yaradılmasının 5-ci ildönümünə həsr olunmuş təntənəli iclasdakı məruzədə İrəvan şəhəri ətrafında mövcud olan 8 Azərbaycan rayonunun adı çəkilmişdi: Vedi, Dəvəli, Qarabağlar, Çimkənd, Uluxanlı, Basarkeçər, Qəmərli və Zəngibasar (Sonrakı illərdə isə həmin rayonların adları ermənilər tərəfindən dəyişdirilmişdir).[42]

[42] «Yeni Azərbaycan» qəzeti, 12.01.2002.

1828-ci ildə Türkmənçay müqaviləsindən sonra azəri türkləri İran və Türkiyədən gələn ermənilərə öz isti qucağını açdılar; Qarabağın dağlıq hissəsində onlara yer verdilər. Ermənilər möhkəmlənəndən sonra Qarabağı erməni torpağı elan edib, yaşayış məntəqələrinin türk adlarını dəyişdirib, onlara erməni adları verdilər. O zamandan Qafqazın qüzeyində geniş türk yurdu Kuban nəhri boyunda, - indiki Krasnodarda, Müasir Armavirdə, Rostov-Donda ermənilər məskən salmağa başladılar- 1988-ci ildə tamamilə əsassız olaraq başladıqları Qarabağ münaqişəsindən sonra isə istər Azərbaycandan, istərsə də Ermənistandan Şimali Qafqaza daha çox erməni köçdü. «Arqumenti i faktı» qəzetində göstərilirdi ki, hazırda Şimali Qafqazda 1,5 milyona qədər erməni yaşayır.[43]

Beləliklə, 200 il rus hökmranlığı dövründə İrəvan xanlığının torpaqları tam erməniləşdi, bir nəfər də olsa azərbaycanlı qalmadı. Bu münasibətlə R.Caparidze yazmışdır:

«Bu vaxtacan görmüşdük ki, adam adamın şey-şüyünü oğurlaya bilər, bütöv bir xalqın tarixini həyasızcasına oğurlayıb mənimsəmək isə təzə şeydir».

## AZƏRBAYCAN VƏ ANADOLU TÜRKLƏRİNİN SOYQIRIMI

Qərb dövlətləri, ələlxüsus, Rusiya öz mənafeləri üçün azlıq təşkil edən millətlərdən, o cümlədən ermənilərdən istifadə edərək müxtəlif vasitələrlə onların millətçilik hisslərini qızışdırmağa çalışmışlar və hazırda da çalışırlar. XIX əsrin başlanğıcında Vanda, Ərzurumda, Bakıda və başqa ərazilərdə on minlərlə türkü qətlə yetirən ermənilər 1970-ci ildən etibarən yenidən terrorlar törədərək müxtəlif ölkələrdə çalışan bir çox türk diplomatını öldürməyə başlamışdılar.

Soyqırım dövrləri və yaddaşlara həkk olunmuş faciələr:

I dövr- 1801-1828-ci illər (Gürcüstan və Şimali Azərbaycanın işğalından 1828-ci ilə qədərki dövr); II dövr - 1828-ci ildən 1917-ci ilə qədərki dövr;

III dövr - 1917-ci ildən 1991-ci ilə qədərki dövr;

IV dövr - 1991-ci ilin dekabrından 1994-cü ilin mayına qədərki dövr.

Qeyd edilən dövrlərdə aşağıdakı faciələr olmuşdur. I faciə -1813-cü il Gülüstan sülh müqaviləsi; II faciə - 1828-ci il Türkmənçay sülh müqaviləsi; III faciə -1853-1856-cı illərdə (Rus-Türk müharibəsi dövrü); IV faciə -1877-1878-ci illərdə (Rus-Türk müharibəsi dövrü); V faciə -1905-1907-ci illərdə (erməni-müsəlman davası); VI faciə -1914-1920-ci illərdə türk xalqlarının soyqırımı; VII faciə -1937-1945-ci illərdə (Repressiya və II Dünya müharibəsi dövrü); VIII faciə- 1948-1953-cü illərdə (Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası dövrü); IX faciə -1988-1991-cu illərdə (Qərbi Azərbaycandan azərbaycanlıların son deportasiyası dövrü); X faciə -1990 (20 Yanvar), XI faciə-Xocalı soyqırımı-1992 (26 fevral).

Hər dövrün özünəməxsus faciə mərhələləri olmuşdur. Qısa da olsa bu dövr və mərhələlərə kitabda toxunulur.

Minilliklər tarixi olan Azərbaycan yerləşdiyi geopolitik mövqeyindən asılı olaraq daim iri dövlətlərin maraq dairəsində olub. Azərbaycan xalqının keşməkeşli tarixi boyunca, yadelli işğalçılara qarşı layiqli müqavimət göstərilməsinə və bəzən də bu amilin meydana çıxması üçün vahid birliyin olmaması faktoru ərazilərimizin işğalı ilə müşayiət olunub.

Tariximizin ən çətin və mürəkkəb dövrlərindən biri XVIII əsrin sonu- XIX əsrin əvvəlləri sayıla bilər; XVIII əsrin I yarısından başlayaraq Azərbaycanda Səfəvilər imperiyasının süqutu ilə çar Rusiyasının Cənubu Qafqazı işğal etmək siyasəti eyni vaxta təsadüf edir. I Pyotrun və digər rus çarlarının bütün cəhdlərinə baxmayaraq, XVIII əsrdə Azərbaycan ərazilərində mövcud olmuş xanlıqlar işğalın qarşısını ala bilmişdir. Lakin Azərbaycan xanlıqları arasında mərkəzləşdirilmiş dövlətin yaradılması naminə vahid mövqeyin nümayiş etdirilməməsi gələcək illərdəki işğala mane ola bilməmiş və XVIII əsrin sonu XIX əsrin əvvəllərində Rusiya regionda növbəti işğalçılıq siyasətinə başlamışdır.

Rusiya Cənubu Qafqazı, o cümlədən, Azərbaycanı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizində ağalığa nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusilə də faydalı qazıntı yataqları elminə məlum idi. Təsadüfi deyildir ki, II Yekaterina hökuməti Azərbaycanın sərvətlərinin mənimsənilməsinin onun işğalı ilə mümkün ola biləcəyi ilə bağlayırdı.

Cənubu Qafqazın siyasi və hərbi strateji əhəmiyyəti də böyük idi. Qafqazın işğalı uzun əsrlərdən bəri mövcud olan rus-türk rəqabətində Rusiyanın üstünlüyü demək idi. Bundan əlavə ingilis-rus rəqabəti də Cənubu Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırırdı. Rusiyanın işğalçılıq siyasəti nəticəsində 1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi.

Ermənilərin aşkar təhlükə doğuran siyasəti nəticəsində Qazax, Şəmsəddin, Borçalı və Pəmbək bölgələrində yaşayan 2300-ə yaxın azərbaycanlı bəylərinin ailəsi işğala dözməyərək Gəncə xanlığına köçməyə məcbur olurlar. Lakin artıq Gəncə Rusiyanın işğalçılıq planında növbəti mərhələ idi. 1803-cü ilin mart-aprelində Car-Balakənin işğalından sonra çar Rusiyası Gəncəyə hücuma başladı. Şəmkirin zəbt olunmasından sonra növbə Gəncəyə çatdı. 1804-cü il yanvarın 3-də Cavad xanın qəhrəmancasına ölümündən sonra Gəncə xanlığı ləğv edildi. Bundan sonra isə ruslar başda Sisyanov olmaqla Azərbaycanın Nuxa (Şəki) və Qarabağ xanlıqlarına təzyiqlər etməyə başladılar.

Bu dövrdə Qarabağ xanlığının daxili və xarici vəziyyəti son dərəcə pisləşmişdi. Bunun nəticəsində 1805-ci il mayın 14-də Rusiya ilə Qarabağ xanlığı arasında 11 maddədən ibarət Kürəkçay müqaviləsi imzalandı. Xanlıq xarici siyasət hüququndan məhrum edilsə də, daxili idarəçiliyi özündə saxlaya bildi. Mayın 21-də isə Şəki xanlığı ruslar tərəfindən işğal edildi. Bundan sonra 1805-ci ilin dekabrında Şirvan, 1806-cı ilin iyununda Dərbənd, 1806-cı ilin oktyabrında Bakının işğalı ilə

[43] R.Qaraxanlı. Ermənistan terroru dəstəkləyən dövlət olduğunu bir daha təsdiqlədi.-«Yeni Azərbaycan», 28.11.2001, № 2 226 (1205).

ruslar 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinə qədər Azərbaycanın tam işğalı üçün özünə lazımi zəmin hazırladı.[44]

Azərbaycanlıların indi Ermənistan adlanan yerdə ilk deportasiyası 1801-ci ilə düşür. Bu, sonrakı dövrlərdə millətimizə vurulacaq ən ağır zərbələrin bünövrəsi olub. 1804-cü ildə I Aleksandrın çarlığı dövründə rus qoşunlarının aramsız hücumlarına məruz qalan 6 min nəfərə qədər azərbaycanlı Loru-Pəmbəkdən Qarsa köçüb. Həmçinin 1801-1805-ci illər ərzində buradan Vedibasar bölgəsinə beş min əhali köç etmişdir. Ümumiyyətlə, Loru-Pəmbək bölgəsini 1801-1831-ci illər ərzində Böyük Qara Kilsə (Vanadzor 22 kənd,), Hamamlı (Spitak 35 kənd), Calaloğlu (Stepanavan 19 kənd) bölgəsinin, daha doğrusu, Loru-Pəmbək mahalının 76 kəndindən 9 kənd qalmışdır ki, bunların da taleyi 1988-ci il faciəsi ilə bitdi.

Lakin Rusiya tərkibinə qatılan Loru-Pəmbək qəzasının tabeliyi çar Rusiyasına çox baha başa gəldi. Belə ki, 6 rayonu - Böyük Qara Kilsə, (Quqark), Calaloğlu (Stepanovan), Hamamlı (Spitak), Allahverdi, Dağborçalı (Vornsovka, sonra Kalinin), Barni (Noyemberyan), əhatə edən bu bölgənin əhalisi Rusiya hökmranlığına tabe olmamışdır. Onlar həmişə üsyan qaldırmış və dəfələrlə rus ordusunu ərazidən qovmuşlar.

İrəvan xanlığının dəstək və köməyi ilə yerli əhali qanlı döyüşlər aparmışlar. Döyüşlər 1828-ci ilə - İrəvan xanlığının süqutuna qədər davam etmişdir.

Bu döyüşlərdən biri də Loru-Pəmbək bölgəsinə daxil olan Saral kəndinin 1 km yaxınlığında Pəmbək çayının sahilində olmuşdur. Xalq azadlıq mübarizəsinə köməyə gələn İrəvan xanlığının bir dəstə hərbi hissəsi Hallavar dərəsindən keçib Saral kəndi yaxınlığında yerləşən rus hərbi hissəsinə hücuma keçmişdir. 1804-cü ilin yazında baş verən bu döyüşdə başda general Suslov olmaqla 114 rus əsgər və zabiti öldürülmüş, qalanları isə əsir götürülmüşdür. Saralkənd camaatı həlak olan işğalçıları top qəbir halında dəfn etmişlər, lakin hərbi hissə komandiri Suslovu və bəzi zabitləri tək-tək dəfn etmişlər.

Burası da maraqlıdır ki, 1856-cı ildə Suslovun qız nəvəsi Sankt-Peterburqdan gəlib babasının son döyüş yerində onun qəbrini axtarmışdır. Qəbir çox idi, Suslovun məzarını tapmaqda ona kəndin on yaşlı sakini Çilovdar Nəsib kömək etmişdir. Həlak olan rusların dəfni onun başçılığı ilə həyata keçirilmişdir. Ona görə də komandirin başı üstünə o birilərinə nisbətən böyük çaylaq daş qoymuşdur. Suslovun nəvəsi Saral kəndində qalaraq babasının qəbri üstünə qara daşdan abidə qoymuşdur. Ona görə yerli əhali həmin abidəyə «Qara mühacər» deyirdilər.

Ermənistanın Rusiyaya birləşməsinin 150 illiyi münasibətilə (1978-ci ildə) köhnə abidə qalmaqla, yeni bir abidə qoydular. Orada xatirə yazılarında rus əsgərləri erməni xalqını Türk və İran zülmündən əbədi olaraq xilas edildiyi bildirilir. İndi orada Qarabağda həlak olan işğalçı ermənilərin qəbristanlığı salınmışdır.

1826-1828-ci illərdə Rusiya ilə İran arasında müharibənin yekununda bağlanan «Türkmənçay» müqaviləsinə (10.02.1828) görə İrəvan və Naxçıvan xanlıqlarının ərazisi Rusiyanın tabeliyinə keçdi. Çar bu müqaviləni 1828-ci ilin martın 20-də təsdiq edib, ertəsi gün martın 21-də İrəvan və Naxçıvan xanlıqları ərazisində yeni inzibati vahid erməni vilayəti yaradılması haqqında fərman vermişdir. Faciə budur ki, erməni yaşamayan ərazilər erməni vilayəti adlandı. Yeri gəlmişkən, həmin iki xanlığın ərazisində siyahıya alınmış 1111 yaşayış məntəqəsindən cəmi 62 kənddə ermənilər yaşayırdı. Erməni tarixçilərinin özləri də etiraf edirlər ki, rusların İrəvan və Naxçıvan xanlıqlarının ərazilərini işğal etmələrinədək həmin ərazilərdə cəmi 25 min erməni yaşamışdır. I Nikolayın bu hərəkəti ulu babası I Pyotrun hələ 1725-ci ildə yazmış bədnam vəsiyyətnaməsinin reallaşdırılması idi. Həmin vəsiyyətnamədə deyilir ki, Rusiya o zaman güclü dövlət ola bilir ki, onun paytaxtı Avropa və Asiya ölkələri xəzinələrinin açan rolunu oynayan İstanbul olsun.

## QƏRB QÜVVƏLƏRİNİN OSMANLI DÖVLƏTİNİ BÖLÜŞDÜRMƏK SİYASƏTİ

1579-cu ildən Məhəmməd paşa Sokullunun ölümündən sonra Osmanlı imperiyası öz tarixində 4 mərhələdən keçmişdir: təşəkkül (1299-1453), yüksəliş (1453-1579), durğunluq (1579-1699) və iflas (1699-1918) 1699-cu ildən-Karloviski müqaviləsindən 1918-ci ilə qədərki dövr-imperiyanın darmadağın edilməsi, yəni 30 oktyabr 1918-ci il sülh müqaviləsinə qədər olan dövr hesab edilir.

Osmanlı imperiyasının təşəkkül dövründə gücünə görə onunla müqayisə edilə bilən heç bir dövlət yox idi. Hətta onun inkişaf dövründə də Rusiya və İngiltərə beynəlxalq aləmdə əhəmiyyətli rol oynamırdılar. l699-cu ildən sonra isə Osmanlı imperiyasının işlərinə Avropa dövlətləri qarışmağa başladılar.

I Pyotrun çarlığı dövründə (1682-1725) Rusiya Avropanın diqqətini özünə cəlb etdi. I Pyotr Rusiya üçün üç böyük məqsəd müəyyənləşdirmişdi: Baltik dənizinə və Qara dənizə çıxmaq, həmçinin Polşanı tutmaq. O ölümünə qədər bunlardan yalnız birini həyata keçirdi. Onlardan: Niştadt sülhünə görə, o, isveçlərdən Baltik sahillərini aldı. Baxmayaraq 1699-cu ildə o, Azov qalasını almışdı, ancaq onu 1711-ci il Prit sülh müqaviləsi şərtlərinə əsasən geri-türklərə qaytarmalı oldu. Pyotrun planlarını II Yekaterina (1762-1796) yerinə yetirməli oldu. Onun hakimiyyəti dövründə 1795-ci ildə Polşa, Rusiya, Avstriya və Prusiya arasında bölüşdürüldü və öz mövcudluğunu itirdi. Polşanın belə bir vəziyyətə düşməsi bir növ Kiçik Qaynarca sülhünün nəticəsi idi. Türkiyə artıq Polşadan əl çəkmişdi və 1768-1774-cü illər rus-türk müharibəsində uduzmuşdu, zəif düşmüşdü. Fransa isə daxili qarışıqlıqla əlaqədar işə qarışa bilməmişdi.

Rusiyanın cənub dənizlərinə çıxması cəhdi məlum idi, ancaq onun yolu hamıya məlum deyildi. Onun yolu iki istiqamətdə müəyyənləşdirilmişdir: birincisi-boğazlar vasitəsi ilə Aralıq dənizinə çıxmaq, ikincisi-su yollarından istifadə etməklə Hindistana çatmaq. Hindistan okeanına çatmaq planı Anna İvanovnanın çarlığı dövründə (1730-1740) işlənildi, onun yerinə yetirilməsi Krılova tapşırıldı. Ancaq ikincinin həyata keçirilməsi böyük çətinliklər yarada bilərdi.

1734-cü il planına görə, Buxaranın, Səmərqəndin və Bədaxşanın fəthi və bundan sonra Əfqanıstana daxil olmaq nəzərdə tutulurdu. Sonuncu ölkəyə hücum 1980-ci ildə, 246 ildən sonra baş tutdusa, 1988-ci ildə məğlubiyyətlə başa çatdı.

---

[44] «Yeni Azərbaycan» qəzeti, 14.05.2002.

I Pyotrun Osmanlı imperiyasına qarşı məkrli siyasətinin qısa ifadəsi budur: imkan daxilində Osmanlı imperiyasının hesabına Rusiya ərazilərini genişləndirmək, İstanbulu tutmaq, Bizansı bərpa etmək, rus çarını bütün pravoslav dünyasının yeganə liderinə çevirmək planları idi.

II Yekaterinaya qədər Rusiya təkbaşına Osmanlı imperiyası ilə mübarizə apara bilmirdi.

Rusiya Osmanlı imperiyasına hər bir hərbi müdaxilədən əvvəl sultanın himayəsində olan pravoslavların qiyamını hazırlayırdı və sonra onların müdafiəçisi kimi çıxış edirdi, bundan sonra müharibə elan edirdi. Məsələn, 1806-cı il müharibəsinə serblərin üsyanı, 1828-ci il müharibəsinə isə yunanların üsyanı bəhanə oldu. Xiristian məbədlərinin problemi Kırım müharibəsinə və Hersoqovina üsyanı isə 1877-ci il müharibələrinə səbəb oldu.

1756-cı ildə Rusiya və İngiltərə dostluq haqqında müqavilə bağladılar... II Yekaterina Baltik donanmasını Türkiyə sahillərinə göndərdi. 1768-1774-cü illər rus-türk müharibəsində Rusiya ingilis gəmilərini icarəyə götürdü, Çeşmə körfəzində döyüşə ingilis admiralı Jemuel Qrey komandanlıq edirdi. Qeyd edilən müharibədə Türkiyə məğlub oldu. O Kiçik Qaynarca sülhünü bağlamalı oldu.

**Kiçik Qaynarca** sülhü Osmanlı imperiyasının qüdrətinə son qoydu. Onun yerinə Avropada Rusiya və Avstriya keçdi, Türkiyəyə qarşı beynəlxalq siyasət formalaşdırmağa girişdilər. Fransa inqilabı və Napoleonun yürüşləri bu siyasətdə İngiltərənin və Fransanın iştirakına mane oldu. Alman knyazlıqlarının birləşdirilməsi nəticəsində 1870-ci ildən sonra Almaniya böyük dövlətlər sırasına keçdi və Osmanlı imperiyasının aqibətində iştiraka qoşuldu.

Bu tarixi gedişatı prosesində «erməni məsələsi» tədricən Avropa əhəmiyyətinə keçdi və Berlin konqresində müzakirə olundu.

Lakin Osmanlı imperiyasının parçalanması planı Kiçik Qaynarca sülhündən sonra bəzən gizli, bəzən isə açıq şəkildə özünü büruzə verirdi.

1783-cü ildə Rusiya Gürcüstanın qərb knyazlıqları ilə müqavilə bağladı və onları öz təsiri altına aldı. 1787-ci ildə Rusiya imperatoru II Yekaterina Avstriya imperatoru II Frans-İosiflə Kırımda görüşüb «Yunan proyekti» adı altında Osmanlı imperiyasının bölüşdürülməsi planını müzakirə etdilər. Plana görə Bessarabiyada pravoslav knyazlığı yaradılmalı, Buq və Dnepr çayı arasında olan ərazilər Rusiyaya verilməli, Serbiya, Bosniya, Hersoqovina isə Avstriyaya verilməli, Moraviya, Krit və Kipr Venesiyaya keçməli, Konstantinopol tutulduqdan sonra müstəqil Bizans bərpa edilməli idi.[45]

Bu və ya digər səbəblərdən Osmanlı imperiyası 13 avqust 1787-ci ildə Rusiyaya müharibə elan etdi. Avstriya rusların tərəfindən çıxış edib müharibəyə qoşuldu. Müharibə 9 yanvar 1792-ci ildə **Yassa sülh müqaviləsi** ilə başa çatdı. Döyüşlər Qafqazda da gedirdi, lakin bu müharibədə ərazi dəyişiklikləri olmadı. 1787-1892-ci illər türk-rus müharibəsində İngiltərə siyasətini dəyişdi. İngiltərə baş naziri Vilyam Pitt Rusiyanın Cənuba soxulması və onun Qara dənizdə güclü dövlət olmaq təhlükəsini dərk etdi. Ona görə Osmanlı imperiyasını dəstəkləməyi lazım bildi. O, bu məqsədlə avstro-rus ittifaqını pozmağı bacardı. Fransa və Prussiyanı tərəfinə çəkdi və Rusiyaya təzyiq göstərməyə başladı, müharibənin qurtarmasına və Odessanın qaytarılmasına nail oldu.

1801-ci ildə Rusiya Gürcüstanı özünə birləşdirdi.

1806-cı ilin dekabrında Buq hadisələri ilə əlaqədar olaraq növbəti türk-rus müharibəsi başladı. Müharibə 1812-ci ildə **Buxararest müqaviləsi** ilə sona çatdı. Həmin müharibədə Rusiya Qafqazda Suramdan Qərbə Rion çayı vadisinə yiyələndi.

1806-1812-ci illər rus-türk müharibəsində İngiltərə Fransa ilə mübarizədə tək qalmamaq xatirinə 1806-cı ildə Rusiyanın tərəfini saxladı, həm də öz donanması Mərmərə dənizinə gətirdi. 1807-ci ildə Tilzit müqaviləsindən sonra türk-ingilis dostluğu canlandı. 1812-ci ildə **Vyana** konqresində İngiltərə Osmanlı imperiyasının maraqlarının müdafiəsini öz öhdəsinə götürür. **Metternix** konqresində Rusiyanın güclənməsi təhlükəsi nəzərə alınaraq Avstriya nümayəndəsinin dəstəyi ilə İngiltərə rus çarı Aleksandrın Osmanlı sərhədlərinin dəyişdirilməsi niyyətini rədd etməyə nail olur. Ruslar tərəfindən törədilmiş və Osmanlı imperiyasını ağır vəziyyətə salmış yunanların üsyanından istifadə edən Rusiya 1828-ci ildə ona müharibə elan etdi. 26 apreldə başlamış müharibə 2 cəbhədə (Balkan, Qafqaz) gedirdi.

14 sentyabr 1828-ci ildə **Ədirnə sülh müqaviləsinə** görə **Qara dəniz sahilləri** boyu **türk qalaları (Anapa, Poti), həmçinin Axıska, Axılkələk və Akçura** bülgələri Rusiyaya keçdi. Osmanlı imperiyası Gürcüstanın Rusiya tərkibinə Türkiyədən keçməsini tanıdı. Bu müharibədə Qafqaz tam Rusiyaya keçdi. Müqaviləyə görə, 100 min erməni Qafqaza (İrəvan xanlığına, Axılkələk, Axıska və s.) köçürüldü və yerli müsəlman əhaliyə də Türkiyəyə köçmək icazəsi verildi.

Yunan inqilabında İngiltərə Yunanıstanı dəstəkləyirdi. Bununla bərabər, İngiltərə Rusiyanın mövqeyində durmağı məqsədəuyğun hesab etmirdi. Baş nazir Ceninq düşünürdü ki, Yunanıstan onsuz da müstəqillik alacaqdır, həmçinin Rusiyanın yeni yarana bilən Aralıq dənizi dövlətlərinə təsirini zəiflətməyi məqsədəuyğun hesab edirdi. Yunan inqilabı dövründə başlamış 1828-1829-cu illər türk-rus müharibəsində İngiltərə qarışmadı, lakin Bessarabiyanın Rusiya tərəfindən tutulması, həm də Qafqaza soxulması həm İngiltərəni, həm də Avstriyanı narahat edirdi. Həmçinin İngiltərə Rusiyanın bu yürüşlərini Hindistan müstəmləkəsinə təhlükə hesab edirdi.

Bu səbəbə görə İngiltərə 1853-cü ildə ingilis səfiri ilə söhbətdə I Nikolayın Türkiyəni bölmək haqqında nəzərdə tutulan təklifini rədd edir və Kırım müharibəsində Osmanlı imperiyasının tərəfində çıxış edir. Rusiya bu sövdələşmədə İngiltərəyə Krit və Misirin ikisinin arasında bölünməsini, özü isə Bessarabiyanı, Serbiyanı və Bolqarıstanı özünə birləşdirməyi təklif edir.

1774-cü ildən etibarən Rusiya Osmanlı imperiyasında olan pravoslav və slavyan elementlərin himayədarı və təbii olaraq onların dövlətə qarşı hər hansı bir qiyam və üsyanların hərbi yolla müdaxilə etməklə dəstəkləyirdi. İtaliyanın birləşməsindən sonra onun torpağının bir hissəsini ələ keçirmiş Avstriya Bosniya və Hersoqovina barədə torpaq iddiasında olmağa başladı və onların ələ keçirilməsi üçün Avstriya-Macarıstanda kifayət qədər yaşayan slovaklarla dilbirliyi əldə etməyə

[45] Kamuran Gürün. Erməni dosyesi (rusca), B., 1993, səh. 372.

başladı. Vəziyyəti ölçüb-biçən Rusiya 1875-ci ildə üç monarxla görüşündə (II Aleksandr, Vilhelm, Frans-İosif) Osmanlı imperiyasında xristianların baş verə bilən üsyanları zamanı «humanitar qarışma» prinsipi təklif etdi. Bu görüşün mahiyyəti ondan ibarət olmuşdur ki, Osmanlı dövlətinin baş vermiş üsyanların yatırılması üçün təklif olunan köməkdən dini xadimlər imtina etsinlər.

1875-ci ildə Hersoqovinada, oradan da 1876-cı ildə Bolqarıstana və Serbiyaya keçən üsyanı dövlət yatırarkən Rusiya işə qarışdı və qabaqcadan düşünülmüş kimi, 1877-ci ildə Türkiyəyə müharibə elan etdi. Bu müharibədə Türkiyə məğlub oldu, ağır sülh şərtləri ilə Sanstefano sülh müqaviləsini bağladı.

Lakin Qərb dövlətləri bu müqaviləni tanımaq istəmədilər, Berlin konqresi çağırdılar. Berlin müqaviləsinə görə, Rumıniya, Bolqarıstan, Serbiya əvvəlcə muxtariyyət, sonra isə müstəqillik aldılar.

Berlin konqresinin 61-ci maddəsinə görə, Türkiyə reforma keçirməli və ermənilərə muxtariyyət verməli idi. Lakin ermənilərin iddia etdikləri torpaqlarda azlıq təşkil etdikləri üçün muxtariyyətləri təmin oluna bilməzdi. Ona görə əhalinin siyahıya alınması prosesi bir qədər «erməni məsələsi»ni gecikdirirdi. Bu gecikmədən istifadə edən Qərb dövlətləri Böyük Portadan həm «erməni məsələsi»nin tezləşdirilməsini tələb edirdilər, həm erməni üsyanları və çıxışları təşkil edirdilər, onların dəstəyilə millətlərarası münaqişələr, erməni-müsəlman qarşıdurmaları başlamışdı. Osmanlı imperiyasının torpaqlarını, onun vassal muxtar dövlətlərini ələ keçirirdilər. Hətta Türkiyəni müəyyən qədər müdafiə edən İngiltərə də yaranan situasiyalardan istifadə edərək gah könüllü, gah da təcavüzə keçərək yeni torpaqlar ələ keçirirdi.

Məsələn, 1881-ci ildə Fransa Tunisi tutdu, həmin ildə Teseliya Yunanıstana verildi, 1882-ci ildə İngiltərə Misiri işğal etdi, 1885-ci ildə Türkiyə Yunanıstanla müharibədə qalib çıxdısa, Kritə muxtariyyət verməli oldu. Əbülhəmid baş vermiş hadisələrdən baş çıxara bilmədi. O, Afrikada zəifliyini hiss edərək Anadolunu Qərbin iddialarından müdafiə etmək qərarında idi.

Türkiyənin belə bir vəziyyətində Qərb dövlətləri onu yenidən bölüşdürmək planı hazırladılar. Belə ki, Rusiyanın, Avstriyanın və digər Qərb dövlətlərinin Osmanlı imperiyasını parçalamaq cəhdlərinin əksinə çıxan İngiltərə Qladstonun mart 1880-cı ildə hakimiyyətə gəlməsi ilə siyasətini dəyişdi. Daha doğrusu, Almaniyaya qarşı üçlərin Antanta razılıq sazişi (Rusiya-Fransa-İngiltərə) bağlandı (1904-1907-ci illərdə üçlüklər tərəfindən gizli rəsmiləşdirildi). Həmçinin Türkiyənin bölüşdürülməsi əleyhinə çıxan Almaniya uzun müqavimətdən sonra 1913-cü ildə Rusiyanın təklifini qəbul etdi. Birinci Dünya müharibəsinin başlanmasına qədər Türkiyənin bölüşdürülməsi planı razılaşdırıldı.

## ERMƏNİLƏRİN ANADOLUNU PARÇALAMAQ VƏ «BÖYÜK ERMƏNİSTAN» PLANI ÜZRƏ FƏALİYYƏTLƏRİ

1870-ci ilə qədər nə Rusiyanın, nə də başqa Qərb dövlətlərinin siyasətində ermənilərin əhəmiyyətli bir yeri və rolu olmamışdır. Rus-erməni işbirliyi əsasən Türkmənçay müqaviləsi ilə nəticələnən İran-Rusiya müharibəsindən sonra başlamış və inkişaf etmişdir. Rusiyanın yeritdiyi siyasət İngiltərənin bölgədəki təsirinə hesablanmışdı. Bu siyasətin yeridilməsilə ermənilər gizli sürətdə dəstəklənmiş, ancaq qəti şəkildə bir güc, tamam və ya yarı müstəqil bir varlıq kimi ortaya çıxmalarına, görünmələrinə imkan verilməmişdir.

Bunun qarşılığı olaraq Fransa özünü erməniləri dəstəkləyən və yardım edən dövlət kimi göstərərək nəticədən asılı olaraq hansı şəkildəsə fayda qazanmaq siyasəti yeritmişdir. 1877-1878-ci illərdə Osmanlı-Rusiya müharibəsində Şərqi Anadoluda yaşayan ermənilərdən istifadə etmək yolunu tutan Rusiyadan ermənilər müharibə bitdikdən sonra xidmətlərinin qarşılığı olaraq aşağıdakıları tələb etmişdilər:

1. Fərata qədər olan bölgənin müharibədən sonra Türkiyəyə verilməməsi və bu ərazilərin Ararat eli ilə birləşdirilərək Rusiyanın tabeliyində olan bir Ermənistan qurulması.

2. Ərazi ilhaq olunmayacağı təqdirdə, bolqar milləti üçün nəzərdə tutulan imtiyazların erməni toplumuna da aid edilməsi.

3. İşğal edilən torpaqlar boşaldılacağı halda, Osmanlı dövlətindən islahat üçün maddi təminat alınması və islahatın başa çatmasına qədər rus ordusunun işğal etdiyi türk torpaqlarını boşaltınaması.

Ermənilərin bu tələbləri öncə Yaşılköy, sonradan isə Berlin müqavilələrində hallandırılacaq və beləliklə, erməni məsələsi Avropa arenasına çıxarılacaqdı.

1876-1877-ci illərdə Osmanlı-rus müharibəsindən əvvəl və sonra çar hökuməti ermənilərə vəd edirdi ki, «Qərbi Ermənistan»ı (Şərqi Anadolunu) Türkiyədən qoparıb «Şərqi Ermənistan»la (Qərbi Azərbaycanla) birləşdirib «Böyük Ermənistan» yaradacaq. Bu da Türkiyədə daxili bandanın fəallaşmasına səbəb oldu. Nəticədə bu müharibədə Türkiyə məğlub oldu.

Lakin ermənilər məqsədlərinə - Şərqi Anadoluda muxtariyyət almaq məqsədinə çatmadılar. Bunun da siyasi səbəbi vardır. Bu barədə V.Qurko-Kryajin qeyd edir: «Rusiyaya gəlincə o, həmin dövrdə Zaqafqaziyada ruslaşdırma siyasəti yeridirdi və «Asiyada ermənilərin müstəsna üstünlüklərə malik olacağı ərazilər yaradılması» ideyasının əleyhinə açıq-aydın çıxış edirdi. Bundan başqa, Bolqarıstan barəsində niyyəti baş tutmamışdı. Bolqarıstan çar Rusiyasının köməyi sayəsində azad edilsə də, onun vassalı olmaq istəmirdi. Bunu görən çar diplomatiyası knyaz Lobanov-Rostovskinin dili ilə bildirdi ki, o «digər Bolqarıstan» yaradılmasına yol verməyəcək».

Məlumdur ki, 1877-1878-ci illər rus-türk müharibəsində Rusiya Qərb dövlətlərinin dəstəyi və hərtərəfli köməyi nəticəsində Türkiyə məğlub oldu və ağır sülh şərtləri ilə razılaşdı. Lakin Qərb dövlətləri üçün müharibənin nəticələri gözlənilməz oldu və Rusiyanın qalib nailiyyətləri ilə hesablaşmadılar. Qərb dövlətləri San-Stefano sülh müqaviləsinə yenidən baxılmasına nail oldular. 1878-ci il iyunun 13-də Berlin Konqresi çağırıldı. Həmin konqresə ermənilər nümayəndə

göndərməyə nail oldular ki, Osmanlı imperiyası daxilində muxtariyyət alsınlar. Nümayəndə heyətinin başçısı arxiyepiskov Mkrtıç Xrimyan olmuşdur. Ona sual verirlər ki, siz hansı dildə danışacaqsınız? Siz heç bir dili bilmirsiniz? Arxiyepiskop bu suala çox dərin mənalı bir cavab verərək demişdir: «Siz narahat olmayın, mən orada hamının çox asan başa düşdüyü bir dildə danışacağam - ağlayacağam».

Yenə ruslar 1878-ci ilin yayında böyük dövlətlərin Berlin konfransında məğlubiyyətləri ilə əlaqədar olaraq yenə də erməniləri müdafiə etmiş, San-Stefano sülh müqaviləsinin 16-cı Berlin konfransının 61-ci maddələrində Muxtar Ermənistanın yaradılması fikrinin müdafiəçisi olmuşlar.

Əvvəlki rus-türk müharibələrində məqsədlərinə çatmayan ermənilər, baxmayaraq bu müharibələrdə böyük canfəşanlıqla iştirak etmişlər və qurbanlar vermişlər yenidən Rusiyanın təhriki və təbliğatına - «Böyük Ermənistan»ın gerçəkləşəcəyi köməyinə ümid bəsləyərək Qərb dövlətlərinin maddi və fiziki yardımı sayəsində Türkiyədə daxili bandaları artırıb fəallaşdırdılar. 1895-ci ildən qətlə, qan tökməyə başlamış ermənilər Qumqapıda, Musabəydə, Merzifonda, Çorum Qeysəriyyə, Yozqat və İstanbulda nümayişlər keçirmiş, Osmanlı bankını ələ keçirmiş, Zeytun, Van Elazığ, Muş və başqa yerlərdə qiyam və vəhşiliklər törətdilər. Lakin İkinci Konstitusiyanın elanı ilə ermənilərə bəzi əlavə imtiyazlar verildi.

Konstitusiyanın elanı ilə ümumi əfvdən sonra həddən ziyadə sərsəri, qatil və cinayətkar ünsürlər, təşkilatçı ermənilər İstanbula axışmış, onların çoxuna hətta dövlət idarələrində iş də verilmişdi. Nəticədə qısa müddətdə ortaya bir sıra qəbul oluna bilməyəcək yeni tələblər çıxdı.

Belə tələbləri qəbul etdirmək üçün üsyançı təşkilatlar, o cümlədən Qnçaq və Daşnaq komitələri hər tərəfdə şöbələr açır, gizlicə silahlanırdılar. Kilsələr isə bu komitələri öz himayəsi altına alır və siyasi alətə çevirirdilər. Erməni müxalifət komitələri Osmanlı dövlətini tanımayacaqlarını həyasızlıqla bütün dünyaya elan etdilər. Bu məqsədlə hətta erməni məktəblərindən də istifadə olundu. Türklərə qarşı kin, nifrət toxumları əkir, tarix və coğrafiya dərsliklərində dövlət çevrilişi ideyalarını aşılayırdılar.

Erməni təşkilatları silahlı dəstələr yaradır, partlayıcı maddə istehsalını bacaran mütəxəssislər hazırlamaq üçün Amerikaya adamlar göndərirdilər. Bu adamlar hər cür qətllər törədir, sonra da «ermənilər qətlə yetirilirlər»-deyə bütün dünyaya səs salır, Qərb dövlətlərinin himayəsinə keçmək istədiklərini bildirirdilər. Onların əsas məqsədi üsyan və inqilablar ilə Anadoluda üstünlük qazanaraq Erməni dövləti qurmaq idi.

Çox çəkmədi ermənilərin mənfur niyyətləri həqiqətə çevrildi. Rusiya Avropadan diqqətini cənuba çevirdi. Yeri gəlmişkən arası kəsilməz Rus-Türk (tarixdə 12 rus-türk müharibəsi olmuşdur) və Rus-İran müharibələrində ermənilər yaşadıqları dövlətlərə asi çıxırdılar, onları arxadan vurdular. Məqsəd ondan ibarət olmuşdur ki, Yaxın Şərqdə xristian dövlətlərinin qələbəsi zəmində «Böyük Ermənistan» dövləti yaratsınlar. Təcavüzkar xəritə çəkib öz xalqına və digər xristian dövlətlərina təbliğ etdilər. Hazırda da təbliğ edirlər ki, guya Ermənistan tarixən Yaxın Şərqdə qüdrətli bir dövlətçiliyə malik olmuşdur. Uydurma xəritə 3 dəniz sərhədindən başlayır - Ağ dəniz, Qara dəniz, Xəzər dənizi, Cənubu Qafqazı, Şərqi Anadolunu və Ərəbistan çöllərinə qədər əraziləri əhatə edir. Həmin xəritə hazırda çox tirajla da çap edilir və dünyanın hər yerində təbliğ edilir. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk dəfə ABŞ səfər edərkən Azərbaycanın xəritəsini çətinliklə əldə etdiyini vurğulamışdır.

Yeri gəlmişkən, Parisdə çıxan «Liberasyon» qəzetində dərc olunmuş «Yerevan millətçilərin yedəyində gedir» sərlövhəli məqalədən bəzi məqamları oxuculara çatdırmaq məqsədəuyğundur.

Məqalədə deyilir: Qarşımda bir rəsm var. Orada xəyali bir ölkə, Qara dənizdən Xəzərədək uzanan Şimalı İranın və Türkiyənin xeyli ərazisini əhatə edən böyük, geniş bir şahlıq təsvir olunmuşdur. Bu fantastik rəsm mifik dərəcədə sonsuz Ermanistanı tərənnüm edir. Altında qısa bir yazı vardır: «Tarixi Ermənistan, eramızdan əvvəl 2107-ci il».

Bu, saxta xəritədir. Tarix dərsliklərinin heç birində çox qədim dövrlərdən söhbət açılarkən Ermənistanı xatırlamırlar. Buna baxmayaraq, həmin xəritə Yerevanda bütün mənzilləri bəzəyir. Belə xəritələrə hər yerdə: restoranların girişində, qadınlarn otaqlarında, siyasi partiyaların mənzil-qərargahlarında və s. rast gəlmək mümkündür.

«Böyük Ermənistan» haqqında arzu yenə aktual olmuşdur. Daşnak liderlərindən biri Baqrat Sidoyan etiraf edir: «Çar böyük Tiqran dövründəki antik Ermənistanın sərhədlərini bərpa etmək arzumuzdur. Lakin bizim proqramımız Sevr müqaviləsində müəyyən olunmuş Ermənistandır». Bu sözlərdən sonra o, Azərbaycanın müfəssəl xəritəsini göstərir. Ermənilərin bu yaxınlarda tutduqları zonalar həmin xəritədə ciddi-cəhdiə ştrixlənmişdir.

Uzun müddət Kaliforniyada qaldıqdan sonra Ermənistana qayıdan daşnaqların lideri Apo Porikyan deyir: «Böyük Ermənistan arzusu bizim milli şüurumuzun bir hissəsidir. Ermənilər ilk dəfə olaraq belə bir hissdən yaxa qurtarmışlar ki, onlar əbədi uğursuzluğa məhkumdurlar.

Qatı millətçilər utopik layihələr tərtib edirlər: yalnız Dağlıq Qarabağ deyil, həm də Naxçıvanı, Anadolunun bir hissəsini və Gürcüstanın cənub rayonlarını geri almaq xəyalına düşüblər-bütün bunlar «tarixi erməni torpaqlarıdır»...

«Böyük Ermənistan» ideyası XIX əsrin sonlarında məhz Qərb dövlətlərinin havadarlığı ilə geniş vüsət almağa başladı. Bu ideya Qərb dövlətlərinin məxfi hazırladığı böyük «Şərq məsələsi» işinin variantlarından olan perspektivli «Erməni məsələsi»nə daxil edilmişdi. Qərb dövlətləri Osmanlı dövlətini təhrik edirdilər ki, ermənilərə imperiya daxilində muxtariyyət versin. Bu məqsədlə 23 dekabr 1896-cı ildə o zamankı böyük dövlətlərin-İngiltərə, Fransa, Almaniya, Avstriya-Macarıstan, İtaliya, Yaponiya və s. səfirliklərinin İstanbul yığıncağı çağırıldı. Konqres ərəfəsində beynəlxalq müşahidəçilərin iştirakı ilə Şərqi Anadoluda əhalinin milli tərkibi yoxlanıldı. Məlum oldu ki, ermənilərin muxtariyyət istədiyi 6 sancaqda erməni əhalisi digər xristianlarla birlikdə 20 faiz təşkil edirdi. Ermənilərin iddia etdikləri 6 vilayətdə əhalinin demoqrafik tərkibi barədə 5 iyul 1880-cı ildə Abidin paşa Qərb dövlətlərinin notasına cavabında yazmışdır: «Sizin nəzərinizə çatdırıram ki, Van, Diyarbəkir, Bitlis, Ərzurum və Sivaş əyalətlərində dövlət qeydiyyatının nəticəsi aşağıdakı tərkibdə olmuşdur: 17% erməni, 4% digər

millətlər və 79% müsəlman».[46] Hüquqi və sosial bazası çatmadığı üçün İstanbul yığıncağında «erməni məsələsi» deyilən məsələyə son qoyuldu.

Lakin ermənilər öz iddia və ideyalarından dönmədilər. Onların Osmanlı dövlətinin bütün sahələrində aparıcı qüvvəyə malik olduqlarına baxmayaraq üzə bir, ənsəyə iki üsulundan istifadə edib separatçılıq və satqınçılıqla məşğul olurdular. Bu hal Birinci Dünya müharibəsi ərəfəsində daha da fəallaşdı.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ermənilər hansı dövlətin himayəsində yaşayıblarsa, o dövlətin çətin məqamında ona qarşı satqın çıxmışlar. O cümlədən Osmanlı imperiyasının, İran imperiyasının, Rus imperiyasının, Sovet imperiyasının dağılmasında zirək ermənilər arxadan və altdan vurmaqla böyük rol oynamışlar.

Ermənilər həmişə yaranmış situasiyalardan məharətlə istifadə etmişlər. Məsələn, A.İ.Mikoyan əmisinin tapşırığı ilə 1920-ci ilin sentyabrında həbs edilmiş 26-ların siyahısını ingilislərə verdi, özünü azad elətdirdi, Rusiyaya qaçdı. Rusiyada baş vermiş qarışıqlıqlardan istifadə edərək o, özünün 26-lardan olduğunu və qaçdığını bildirdi. Kreml çağırılmamış qonağı çox hörmətlə qəbul edib, ondan satqınçı kimi ölənə qədər istifadə etdi. O isə özünü «26-ların» yadigarı olaraq bir saylı bolşevik lideri kimi lovğa aparırdı və hər cür avantüralar törədirdi. Bu baxımdan bir dəfə İ.Stalin onu yanına çağırıb hədə ilə deyir: «Tarix öz qaranlıqlığı və unutqanlığı ilə maraqlıdır ki, necə olmuşdur ki, 26 Bakı komissarları güllələnmişdir, onlardan yalnız sən - Mikoyan - sağ qalmışdır. Anastas, sən bizi bu tarixə qayıtmağa məcbur etmə![47]

Bundan sonra o, öz millətinin geninə qayıdır - özünü qısqanc, qorxaq aparır və ikiüzlülükdən çoxüzlülüyə keçir.

## «BÖYÜK ERMƏNİSTAN» UĞRUNDA ERMƏNİ TERRORÇU TƏŞKİLATLARININ QƏSDLƏRİ

Ermənilərin öz yaşadıqları ərazilərdə pozuculuq fəaliyyəti əvvəllər gizli, bəzən də yarımgizli xarakter daşıyırdısa, XIX əsrin əvvəllərindən Rusiya ilə müharibələrdə Türkiyənin uğursuzluqlarından sonrakı dövrdə tam açıq şəkildə özünü göstərməyə başladı. Rusiyanın, İngiltərənin və Fransanın əlində alət olan ermənilər türklərə arxadan zərbə vuran əsas qüvvəyə çevrilmiş oldular.

Bu vəziyyət, şübhəsiz Türkiyədə də ermənilərlə əvvəlki münasibətlərin mənfi istiqamətdə dəyişməsinə səbəb olmaya bilməzdi. Türkiyədə getdikcə öz nüfuzunu itirən ermənilər Rusiyanın hamiliyi ilə 1828-1830-cu illərdə və İrəvan quberniyalarına böyük kütlə halında köçüb yerləşdilər və hər bir fürsətdən istifadə edərək Türkiyəyə və türklərə qarşı düşmənçilik əməllərini davam etdirirlər.

1844-cü ildən etibarən İstanbul erməni patriarxlığı Rusiyanın əlaltısı olan Eçmiədzin katolikosuna tabe olduğunu bildirdi. Ermənilərin bu xəyanətkarlığı sonralar: 1853-1856-cı, 1877-1878-ci illərdəki Rusiya-Osmanlı müharibələrində və nəhayət 1914-1918-ci illərdəki Birinci Dünya müharibəsi dövründə xüsusilə güclənmiş oldu. Bu müddət ərzində Osmanlı imperiyasının müxtəlif bölgələrində tez-tez erməni üsyanları olurdu.

Burada bir faktı da qeyd etmək olar. Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyasında yaşayan ermənilər vergidən imtina ediblər, dağlara çəkiliblər, qarət edib yığdıqlarını çarın ordusuna veriblər. Belə ki, 1915-1917-ci illərdə Ərzincanda gedən döyüşlərdə iştirak etmiş bir rus top komandirinin ermənilərlə bağlı 82 səhifəlik yazısı var. Burada ermənilərin türkləri necə qırdıqları, həm də ruslara necə kələk gəldikləri, at minib necə qaçdıqları və s. yazılıb, ermənilər haqqında ən kəskin ifadələr işlədilib.[48]

Həyata keçirdiyi qanlı vəhşiliklərə görə erməni terrorizmi istənilən terrorçu təşkilatlarını geridə qoyub. Əbəs yerə deyilmir ki, məhz ermənilər Yaxın Şərqdəki terrorçu qruplara terror dərsi keçiblər. Ötən 200 illikdə ermənilər bir neçə terrorçu mahiyyətli təşkilatların əsasını qoyublar.

Hazırda Ermənistanda siyasi partiya qismində fəaliyyət göstərən Erməni İnqilab Federasiyası Daşnaqsütyun (EIFD) da əsasında terrorçuluq duran prinsiplər üzərində formalaşıb.

1890-cı ildə Tiflisdəki qurultayda yaradılıb. Məqsədi «erməni torpağı» sandığı Şərqi Anadolunun iqtisadi və siyasi müstəqilliyinə nail olmaqdır. Cənubu Qafqazın müxtəlif şəhərlərində, İran, Türkiyə və Avropa ölkələrində özəkləri vardır.

Bu qurum terroru müstəqillik uğrunda yeganə mübarizə metodu kimi qiymətləndirir. Vaxtilə İranda hazırlanmış xüsusi döyüşçülər Türkiyəyə göndərilirdi, onlar orada qiyam qaldırır və silahlı münaqişələr törədirdilər.

«Daşnaqsütyun» partiyasının 1907-ci ildə qəbul olunmuş nizamnaməsində deyilirdi: Hər il ən azı 50 silahlı yoldaş hazırlanmalı (maddə 122). Nizamnamənin I47. 151-ci maddələri terrorçu döyüş dəstələri hazırlanmasını nəzərdə tutur. Hər dəstə on nəfərdən ibarət olmalıdır. Qrupa daxil olan daşnaq döyüşçü silahını hazır saxlamalı və təcili verilən tapşırığı yerinə yetirməkdə vaxt itirməməlidir. «Terror» başlığı altında verilmiş 155-157-ci maddələrdə siyasi və təşkilati terrordan bəhs olunur.

Osmanlı Türkiyəsi ərazisində erməni komitələri, gizli fəaliyyət göstərən terrorçu təşkilatlar hələ 1880-ci illərdən yaradılmaqda idi. İstanbulda 1860-cı ildə yaradılan ilk erməni cəmiyyəti «Xeyriyyə cəmiyyəti» adlanırdı. Lakin onun təşkilatçıları X.Şişmanyan və M.Beşikdaşyan Zeytun qırğınlarının fəal iştirakçıları olmuşlar.

---

[46] Kamuran Gürün. Erməni dosyesi (rusca), B., 1993. səh. 149.

[47] lOnostь, N 6, S.85-R. Medvedov. Ot lliça do illiça (bez infarkta i paraliça) Eleadbeya «Stalin», Riqa 1922, Str.. 102 (Xarakteristika A.Mikoana) («Azerbaydcan» qəzeti, 6.11.89, № 4, s. 4, 7).

[48] Validə İsmayılova. Ağlayan daşlar.- «Azərbaycan», 26.03.2002, № 67 (3079).

1885-ci ildə M.Portakalyan tərəfindən yaradılmış «Armenakan» partiyasının Proqramında deyilirdi: «Yalnız ermənilər bu partiyanın üzvü ola bilərlər. Ali məqsədə nail olmaq üçün erməni millətçiləri birləşməli, partiya üzvləri silahdan istifadə etməyi öyrənməli, partizan dəstələri düzəltməlidirlər»...

«Hnçak» partiyasının nizamnaməsinin 4-cü maddəsində Türkiyədə inqilab terror vasitəsilə baş verməlidir. Terror xalqda ruh yüksəkliyi yaratmaq üçün gərəkdir. Terror xalqı müdafiə etmək metodudur. Xalqın etimadını qazanmaq vasitəsidir. Partiya Osmanlı dövlətinə qarşı terroru dəstəkləyir. Terror obyektləri sırasına türk hökuməti məmurlarını və erməni mənşəli məmurları, casusları da daxil etmək gərəkdir. (5) Terroru təşkil etmək üçün xüsusi təşkilat yaradılmalıdır. (9) Türkiyə Ermənistanında müstəqillik əldə ediləndən sonra Rusiya və İran Ermənistanında da inqilab davam edəcək və Federativ Ermənistan yaradılacaqdır. 1887-ci ilin avqustunda bu proqram qəbul olundu və Cenevrədə «Hnçak» partiyası təsis olundu.

1887-ci ildə Hnçak (Zəng), 1890-cı ildə isə Daşnaqsütyun partiyalarınnı yaranması ilə erməni pozuculuq hərəkatı vahid mərkəzdən idarə olunmağa başladı.

İlk belə üsyan 1890-cı ildə Ərzurumda və Qumqapıda başladı. Bundan sonra 1892-1893-cü illərdə Qeysəriyyədə, Yozqatda, Çorumda, Mərzifonda, 1894-cü ildə Sasunda, 1895-ci ildə İstanbulda, Zeytunda, 1896-cı ildə Vanda, 1903-cü ildə yenidən Sivaşda, 1909-cu ildə Adanada erməni üsyanları oldu.

1890-cı il iyulun 15-də «Hnçak» partiyasının tapşırığı ilə İstanbulda baş verən terror aksiyasında 17 nəfər ölən və yaralanan oldu. 1895-ci il iyulun 12-də İstanbulda hnçakçılar türk uşaqları oxuyan məktəbi, 30 evi, 20 dükanı, avqust ayında Amasiyada 58 evi, 165 dükanı yandırdılar. Oktyabrın 2-də Trabzonda komendant Həmid paşaya, sabiq qubemator Bəhri paşaya qarşı sui-qəsd təşkil etdilər. Oktyabrın 21-də Ərzurum bazasını dağıtdılar, onlarla müsəlman qətlə yetirildi. 1905-ci ildə Sultan Əbdül Həmidə sui-qəsd təşkil etdilər. Hadisənin qısa şərhi:

Avropanın mərkəzi şəhərlərindən birində Sultan Həmidə sui-qəsd təşkil olunur. Bu sui-qəsddə bir neçə qeyri-müsəlman, o cümlədən bir erməni komitəsi iştirak ediblər. Onların arasında belçikalı İön Türkler də olub. Bunu 21 iyul 1905-ci ildə həyata keçirirlər.

Sultan hər cümə günü Ulduz Camesində namazını qıldıqdan sonra bir dəqiqə qırx iki saniyəyə bağça önündə saxlanan maşına çatması gözlənilirdi...

Vyana şəhərində istehsal olunmuş, içində 80 kq dinamitlə 20 kq kiçik dəmir çilikləri yerləşdirilmiş bir şəxsi maşını bağça qapısının yanında saxlayıb uzaqlaşdılar. Sultan Həmid camedən çıxanda Şeyxülislam Cəmaləddin Əfəndi ilə rastlaşdı.

Onlar pilləkənin başında qısa söhbət edirdilər. Bu zaman güclü partlayış baş verir. Şəxsi maşın çilik-çilik olub ətrafa dağılır. Təntənəli tədbirdə iştirak etmək üçün buraya toplaşan suvari alayının atları hürkür, nazirlər, paşalar, tədbirə dəvət olunanların hamısı bir-birinə qarışır. Elə bu vaxt: «Qorxmayın»,-deyə Sultan Həmidin gur səsi eşidilir. Ətrafa sakitlik çökür. Sultan Həmid heç bir təlaş keçirmədən, heç nə olmamış kimi, öz səltənət maşınına oturub izdihamın gurultulu alqışları altında saraya doğru getdi...

Sui-qəsd baş tutsaydı, Qaraköy körpüsünün, Tunel və ona bənzər obyektlərin partladılması və İstanbulda çox təhlükəli ixtişaşın törədilməsi planlaşdırılmışdı.

Sui-qəsddə iştirak edən belçikalı anarxist həbs edilir. Ona edam hökmü kəsilir. Sultan Həmid isə onu əfv edir. Onu bu sui-qəsdə məcbur edən ermənilərə qarşı mübarizəyə yönəldir, Avropa ermənilərinin fəaliyyəti barədə məlumat toplamağa təhrik edir. Bunun vəzifə borcu olduğunu ona anladır. Bu adam da gizli «Ulduz» təşkilatının süqutuna qədər vəzifə borcunu ləyaqətlə yerinə yetirir.

## ERMƏNİLƏRİN TERRORÇULUQ FƏALİYYƏTLƏRİ
## 1878-1896-CI İLLƏRDƏ TÜRKİYƏDƏ ERMƏNİ ÜSYANLARI

Erməni komitələri içərisində «Hnçak» daha fəal idi. 1891-ci ildə onun fəaliyyəti Şərq Federasiyasından (Şərqi Anadolu) qərbə doğru yayıldı. O, Makedoniya, Albaniya, Krit və Yunanıstan qiyamçıları ilə birləşdi.

İstanbulda «Hnçak»ın iki təşkilatı vardır: İdarə və İcraçı. İdarənin təlimatına görə, Türkiyədə bütün qiyamların direktivləri onun tərəfindən hazırlanırdı. İcraçı, yəni İcra Komitəsi İdarənin direktivlərini alaraq aksiyalar təşkil edirdi. İdarənin və İcra Komitəsinin üzvləri bir-birlərini tanımırdılar, onlar arasında əlaqə yaradan şəxs hər iki idarənin üzvü idi. Bu federasiya çərçivəsində 1891-ci ilin iyulunda Afinada antitürk nümayişi keçirildi. Təşkilatçılar içərisində ən çox fərqlənən Mixran Damadyanın rəhbərliyi ilə 1892-ci il ərzində Türkiyənin bir çox rayonlarında yeni hadisələr baş verdi. Baş vermiş hadisələr sonrakı üsyan və təxribatlara zəmin hazırladı.

Beləliklə, 1895-1896-cı illər ərzində bir çox çaxnaşmalar və üsyanlar Türkiyənin bütün mərkəzi şəhərlərini bürüdü.

Yalnız 1895-ci il ərzində aşağıdakı şəhərlərdə (vilayətlər mötərizədə verilmişdir) üsyan və ya qiyamçıların xronologiyasını vermək yerinə düşər:

29 sentyabr - Divriqi, 2 oktyabr - Trabzon, 6 oktyabr - Eqin, 7 oktyabr - Dəvəli, 9 oktyabr - Akhisar, 21 oktyabr - Ərzincan, 25 oktyabr - Bitlis, 26 oktyabr - Bayburt, 27 oktyabr - Maraş, 29 oktyabr - Urfa, 30 oktyabr - Ərzurum, 2 noyabr - Diyarbəkir, 2 noyabr - Siverek, 4 noyabr - Malatya, 7 noyabr - Xarput, 9 noyabr - Ərəbkir, 15 noyabr - Merzifon, 15 noyabr - Sivaş, 16 noyabr - Antep, 18 noyabr - Maraş, 22 noyabr - Muş, 3 dekabr - Kaysəri, 3 dekabr - Yozqat.

Beləliklə, 1895-ci il ərzində Osmanlı imperiyasının Anadolu bölgəsinin 24 mühüm şəhərində mütəşəkkil olaraq eyni vaxtda və bəzən bir-birinin ardınca «Hnçaq» və digər erməni komitələri üsyanlar və iğtişaşlar həyata keçirdilər. Bunların nəticələri haqqında xarici konsul və səfirliklər, o cümlədən ayrı-ayrı o zamankı yazarlar və hökumət idarələri geniş məlumat verirlər ki, onlar haqqında qısa da olsa oxucuların nəzərinə çatdırmaq məqsədəuyğundur.

1. İstanbulda ingilis səfiri Henri Leyerd Berlin konqresindən (1878) bir ay sonra yazmışdır: «Biz artıq 1877-ci ildə məlumat verdik ki, patriarx ingilis səfiri ilə söhbətində Avropanın diqqətini cəlb etmək üçün erməni üsyanının mümkünlüyünü qeyd etmişdir».

«1878-ci ildə Zeytun üsyanı göstərdi ki, ermənilər Anadoluda serb və bolqar qismində süni problem yaratmağa hazırlaşırlar».

2. İngilis hərbi konsulu Kapitan Kleyton 12 oktyabr 1880-ci ildə Vandan məlumat verir ki, Ermənistanda Türkiyə ermənilərini silahlandırmaq üçün sərəncamında agentura və sərhəddən silah keçirən xüsusi cəmiyyət yaradılmışdır.

3. İngilis hərbi konsulu Ərzurumdan 24 noyabr 1880-ci ildə məlumat verir. Rusiyada silah toplantısı faktı qəti olaraq düzdür. Şübhəsiz ki, bu silah Rusiyada istifadə edilməyəcək, o Türkiyədə yaşayan ermənilər üçündür. Məlumatı Ərzurumdakı rus konsulu da təsdiq edir.

4. İngilis hərbi konsulu Vandan 1880-ci ildə yenə öz səfirliklərinə xəbər verir: rus mayoru Kamsarqandan aldığı məlumata görə, ermənilər üsyana hazırlaşırlar, ancaq rus səfirliyi onları ehtiyatlı olmağa çağırır.

5. Ərzurumda ingilis hərbi konsulu Everett ermənilərin üsyana hazırlaşmasını iki sənəd əsasında məlumat verir: sənədin biri sahibinə aiddir ki, könüllü gəlmişdir; ikinci sənəd isə onun vəzifəsini bildirir. Everett həm də bildirir ki, zahiri görünüşünə görə sənəd Rusiyada çap edilmişdir. Sənəddəki məlumatdan aydın olur ki, o dekabr 1880-ci il və avqust 1881-ci illər arasında yazılmışdır.

1882-ci ilin iyununda Everett etibarlı mənbələrə əsaslanaraq məlumat verir ki, ermənilər əhalini milli ruhda üsyana hazırlayır. Bu iş böyük ərazidə Muşa və Vana qədər, oradan da cənuba qədər olan ərazi nəzərdə tutulur ki, hərəkatın mərkəzi Vandır. O Rusiyanın dəstəyi ilə, Vanda hərbi konsul Kamsaraqanın vasitəsilə müşayiət olunur.

6. 9 dekabr 1882-ci ildə Ərzurum konsulu Eyrs məlumat verir ki, suiqəsdçilər araşdırılarkən Portakalyan Türkiyədən xaricə qaçdı. O, Marseldə 1885-ci ildə «Ermənistan» qəzeti çıxardı. Portakalyanın yaxınlarından kim olduğu bilinməyən Avetisyan tezliklə Vana qayıtdı və «Armenakan» adlanan partiyanın adını qoydu (sonralar bu partiya «Ramqavar» adlandı).

Portakalyanın dalınca Marseldəki bir qrup erməni İngiltərədə «Hayastan» qəzeti çıxardılar, bir qədər vaxtdan sonra onlar ingilis-erməni komitəsi yaratdılar ki, onun tərkibinə bir çox leyboristlər daxil oldu. O komitə tezliklə erməni təbliğatçılarının ən başlıcalarından biri oldu.

Portakalyan 1848-ci ildə İstanbulda anadan olmuşdur. O çox illərini Vanda keçirmişdir. Orada o məktəb açaraq terrorçular nəsli hazırlayırdı. Onun partiyasının orqanı olan «Armeniya» qəzetinin yayımı 1885-ci ildə Türkiyədə və 1886-cı ildə isə Rusiyada qadağan edildi.

Beləliklə, yuxarıda deyildiyi kimi, 1885-ci ildə «Armenakan», 1887-ci ildə isə İsveçrədə «Hnçak» və «Həyat» onun ardınca isə «Daşnaqsütyun» («İttifaq») partiyaları yaradıldı. Üsyana bütün hazırlıq bu vaxtdan bu partiya və komitələrin əlində idi.

7. Osmanlı imperiyasında ilk erməni cəmiyyəti 1860-cı ildə İstanbulda «Xeyriyyə ittifaqı» adı altında yaradıldı. İttifaqın məqsədi Kilikiyanın yüksəldilməsi və inkişaf etdirilməsi idi.

1870 və 1880-ci illər arasında Vanda «Araratçılar», Muşda «Məktəb hə vəskarları» və «Şərq», Ərzurumda «Millətçi qadınlar» cəmiyyətləri yarandı, sonradan bu cəmiyyətlər «Birləşmiş erməni cəmiyyəti» adlandırıldı. Bütün bu cəmiyyətlər sosial problemlərlə məşğul idilər. Bunlarla yanaşı, Vanda «Qara xaç» cəmiyyəti (1878), 1881-ci ildən Ərzurumda «Vətən müdafiəçiləri» cəmiyyətləri də fəaliyyət gətirirdilər.

Maraqlı odur ki, qeyd edilən partiyaların hər birinin nizamnaməsində terrorçuluğa yol verilir. Bu da maraqlıdır ki, «Vətən müdafiəsi» partiyasının keçmiş sədri Qerek Çiqn «Daşnaqsütyun» partiyasının nizamnaməsinin yenidən təsdiqində terrorçuluq maddəsinə qarşı çıxmışdır. «Daşnaqsütyun» partiyasının ilk təşkilatlarının qərarı ilə «kim bizimlə deyil, o bizim əksimizədir» nizamnamə prinsipinə uyğun olaraq Aram Aramyan tərəfindən öldürüldü və ona heç bir iş açılmadı.

8.1927-ci ildə Amerikada çıxan «Hayrenik» qəzetində Ərzurum hadisələrinin ildönümü münasibətilə yazılmışdır: «1890-cı ildə Sanasaryan məktəbinin əsasını qoyan öldü. Hökumətə çatdırılmışdır ki, məktəbdə silah emalatxanası mövcuddur. Şübhələnilirdi ki, aparıcılar erməni katolik dindarlarıdır. Yoxlamaya qədər iki saat ərzində «Vətən müdafiəçiləri» təşkilatının üzvləri təcili olaraq şübhə doğura bilən bütün əşyaları, tarixi kitabları, dəftərləri və digər diqqət cəlb edən əmlakları binadan çıxartdılar. Axtarış nəticə vermədi...»

9. Hnçakçılar həqiqi olaraq inanırdılar ki, Kumkap hadisələri mütləq Avropanın diqqətini cəlb edəcəkdir. «Hnçak» qəzeti 1890-cı il sentyabrın 7-də yazmışdır: «Erməni marağına uyğun gəlmədiyinə görə onlar Avropanın bütün təkliflərini rədd edirlər. Ermənilər son damla qanlarına qədər mübarizəni davam etdirməyə hazırdırlar».

10. İstanbuldakı alman səfiri 28 sentyabr 1890-cı ildə ingilis həmkarı ilə söhbəti barədə Berlinə yazmışdır: «Ser Uilyam Uayt (ingilis səfiri) deyir ki, Ermənistanın muxtariyyatla idarə edilməsi ideyasını xaricdəki komitələr irəli sürürlər, həmçinin İngiltərədəkilər də və bu yalnız Qladston tərəfindən hökumətin fikrini nəzərə almadan dəstəklənir. Bu yaxınlarda liberal partiyasından erməni himayədarlarından biri, mister Vilyam Semmer buraya gəldi. O, ingilis səfirinə məlumat verdi ki, Qladston və mən də Solsberi hökumətinin fəaliyyətinin çətinləşməsi üçün erməni məsələsindən istifadə edirik».

11. 1891-ci ildə Əbdül Həmid cinayət törətmiş ermənilər üçün ümumi amnistiya elan etdi. İstanbulda azad edilmiş 75 erməni patriarxlığa gəldilər və söz verdilər ki, bir daha asayişin pozulmasında iştirak etməyəcəklər.

Lakin «Hnçak» agentləri öz fəaliyyətlərini davam etdirdilər. Xarici antitürk təbliğatı isə güclənirdi, yalan fikirlər yayılırdı ki, ermənilər güc zoruna islama riayət etdirilirlər.

Bu barədə İzmirdəki erməni yepiskopu demişdir: «Demək lazımdır ki, Osmanlı hökuməti heç vaxt bizi incitməmiş, dinimizi qadağan etməmiş, ancaq ermənilərin İslamı qəbul etmək arzularını bildirənləri ruhani liderlərə göndərmək göstərişi verilmişdir ki, bu da bizim əxlaqi vəzifəmizdir. Mən İzmir yepiskopu kimi bu müvafiq hallarla şəxsən çox rastlaşmışam».

12.1892-ci ildə İngiltərədə Qladston hakimiyyətə gəldi. Erməni millətçiləri fəallaşdılar. 1892-ci ilin dekabrında Van qubernatoruna sui-qəsd etdilər.

13.1893-cü ilin yanvarında bir çox şəhərlərdə divarlara intibahnamələr yapışdırdılar.

14. 1894-cü ilin dekabrında Yozqatda erməni qiyamı oldu.

15.1894-cü ilin 27 aprelində patriarx Aşikyana sui-qəsd edildi. Terrorist-erməni həbs edildi. Bu hadisədən sonra patriarx vəzifəsindən imtina etdi.

16. 4 avqust 1894-cü ildə qaçaq erməni bandası poçt karetasına hücum etdilər, poçtalyonu öldürdülər.

17.1894-cü ildə Sasun üsyanı başladı.

Üsyana Muş, Kilpa və Livandan da qoşuldular. Onların sayı 300 oldu.

18 a) 1 iyul 1895-ci ildə Merzifon şəhərində varlı erməni Qarapet Quyumcyanı «Hnçak» komitəsi ilə əməkdaşlıq etmədiyi üçün öldürdülər.

12 iyulda isə Merzifonda türk moktəbini yandırdılar, yanğın qonşu tikililəri bürüdü, 30 ev, 20 dükan və 3 karvansara evi yandırıldı.

b) Avqustda Amasiyada yanğınlar törədildi və 58 ev, 165 dükan, karvansara, məscid-məktəb, dərviş sövmiyyəsi və türk məktəbi yandı.

Anadoluda bütün ingilis konsulları 1895-ci ilin iyul-avqust aylarında məlumat verdilər ki, komitələrin fəaliyyətləri istənilən vaxtlarda görünməmiş nəticələr törətməyə qadirdir. Çoxsaylı məlumatlar verməyə ehtiyac qalmır; arzu edənlər onlarla «Türkiyə» jurnalının N 1 (1896), N 2 (1896) saylarında tanış ola bilərlər.

Erməni komitələri 1895-ci ilin 29 sentyabr- 3 dekabr müddəti arasında Türkiyənin 24 şəhərində erməni-müsəlman toqquşmasını təşkil etmişdilər.

19.Trabzon hadisələri 20 sentyabr 1895-ci ildə iki silahlı ermənininin Vanın keçmiş qubernatoru Bəhri paşaya və Trabzonun komendantı Həmdi paşaya hücumları nəticəsində baş verdi.

20. Ərzincandakı iğtişaşlar 21 oktyabr 1895-ci ildə həftə bazarında ermənilərin bir neçə müsəlmam öldürmələri ilə başladı.

21. Bitlisdə hiddət 25 oktyabr 1895-ci ildə ermənilərin məscidlərə cümə namazına toplanan müsəlmanlara hücumu nəticəsində oldu. Araşdırmadan aydın oldu ki, aksiyanın təşkilatçısı protestant missioner Gevork olmuşdur.

22. Maraşda toqquşma 27 oktyabr 1895-ci ildə ermənilərin müsəlmanları açıq-aşkar güllələmələri ilə başladı.

23. Ərzurum hadisələri 30 oktyabr 1895-ci ildə silahlı ermənilərin qubernator iqamətgahına hücumu və sarayın keşikçi jandarmalarının öldürülməsi nəticəsində baş verdi. Ataş həm də hadisə yerindən qaçan əsgərlərə də açılırdı.

24. Diyarbəkirdə həyəcanlar 2 noyabr 1895-ci ildə ermənilərin cümə namazına duran müsəlmanlara ataş açması ilə baş verdi. Sonra məscid-mədrəsəni bürüyən yanğın ticarət sırasına keçdi. Ataşla 100 dükan məhv edildi, onların 90 faizi müsəlmanların idi.

25. 4 noyabr 1895-ci ildə Xarputda dəllək-erməni Sarkis yanına gələn Xemo adlı türk müştərinin ülgüclə boğazını kəsdi və şəhərdə qarışıqlıq baş verdi.

Xarputda həyəcan 7 noyabrda küçədən keçənlərə Baxçiyan Qriqorun evindən açılan ataş nəticəsində, başda müəllim Mustafa əfəndi olmaqla 4 müsəlmanın yaralanması nəticəsində baş verdi.

Beləliklə, türk mənbələrinə görə, 1895-ci ildə öldürülənlərin sayı 10617 nəfər olmuşdur.

26. Zeytun üsyanı 24 oktyabr 1895-ci ildə başladı və 28 yanvar 1896-cı ildə qurtardı. Şəhər kazarmasında yerləşən 50 zabit və 600 əsgər qəflətən hücuma məruz qalaraq əsir düşmüşlər. Üsyançı Ağasi gündəliyinə yazmışdır ki, əsirlər vəhşiləşmiş, qadınlar tərəfindən doğram-doğram edilmişdir.

Üsyançı Ağasi Zeytun üsyanı haqqında gündəliyində qeyd edir: Üsyan ərzində türklər 13.000 əsgər, onlarla bərabər 20.000 dinc insan itirdilər, biz isə 125 nəfəri itirdik ki, onlardan 65-i atışma zamanı öldürülmüşdür».

27.1895-ci il iyunun 14-dən 15-nə keçən gecə Van üsyanı başladı. Üsyan 24 iyununa qədər davam etdi. Üsyanın nəticəsində ümumi itki yaralılardan: 363 müsəlman 71-i isə erməni olmuşdur. Ümumiyyətlə, Van hadisələrində öldürülənlərin sayı 2133 nəfər, yaralıların sayı isə 404 nəfər olmuşdur.

28. Osmanlı bankına hücum. Terror aktlarının davamı olaraq 1896-cı ildə avqustun 26-da ermənilər Osmanlı bankına hücum etdilər. Bu aksiya daşnaqların məsləhəti ilə olmuşdur.

Hücumun rəhbərləri, təşkilatçıları və hazırlığı Qafqazdan gəlmiş 3 erməni-Varto, Mar və Boris olmuşdur. Onlara qoşulmuş Armen Qaro və Afinadan gəlmiş Qaregin Pastırmacyan qoşuldu. Pastırmacyan 1908-ci ildə Ərzurumdan Türkiyə məclisinə deputat seçilmiş, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində türklərə qarşı vuruşan erməni bandasının başçılarından olmuşdur. Bank direktorunun katibi F.A.Baker sonradan öyrənib bunları yazmışdır: «İstanbuldakı Osmanlı bankına hücum xaricdəki komitələr (erməni terror təşkilatları-red.) tərəfindən hücumdan 3 ay əvvəl hazırlanmış, icraçılar da İstanbula hücumdan 3 ay qabaq gəlmişlər. Bombalar Türkiyənin özündə hazırlanmışdır. Hücum saat 13-də başlamış, bankın keşikçi polislərinin müdafiəsini zəiflətmək üçün, əvvəlcə yaxında olan polis məntəqəsinə hücum edilmişdir...»

Varantyan «Daşnaqsütyun tarixi» adlı kitabında (səh.160-163) yazır: «26 avqust səhər saat 6.30. Hücum etmək üçün 5 nəfər kifayət idi. Çiynimizdə bomba dolu kisələr, əlimizdə tapançalar tez çıxdıq. Banka yaxınlaşdıq, birinci dəstənin bombalarının partlayışını və ataşlərini eşitdik. Biz banka soxulduq. Bizi qarətçi hesab etdilər. Mən dedim ki, onlar qorxmasınlar. Bombalar gözlənilən səmərəni vermədi, adamları tez öldürmədi, onları ancaq hissələrə böldü, yaralılar toz içərisində qıc olub əzab çəkirdilər. Mən və Qaro direktorun kabinetinə daxil olduq və öz şərtlərimizi diqtə etdik. Biz tələb etdik ki, bizim tələblərimiz böyük dövlətlərin iştirakı ilə yerinə yetirilsin və bu hücumun iştirakçıları təqib olunmasın, əks təqdirdə

bankı bütün işçiləri ilə partladacağıq. Biz 17 nəfər qaldıq, hücum edənlərdən 3 nəfər həlak oldu, 6 nəfər isə yaralandı. Düşmənin itkisi böyük idi».[49]

Bankın direktoru ser Edqar Vinsent rus səfirliyinin baş tərcüməçisi Maksimovla danışıqlar üçün həyətə düşdülər. Ermənilər ölkədən çıxmaq üçün qarantiya aldılar. 17 nəfər bandit Maksimovun müşayiəti ilə bankın binasından çıxdı və ser Edqarın villasında gizləndilər. Fransız gəmisi «Jironda» onları tez Marselə çatdırdı.

Banka hücum belə bitdi. Lakin erməni partlayışları və gülləleri müsəlmanları İstanbulda ayağa qaldırdı. Şəhərdə həyəcanlar bir neçə gün davam etdi.

Qərb dövlətləri xəbər verirdilər ki, bank hadisələrində 4000-6000 erməni öldürülmüşdür. Bu tamamilə böhtandır. Tədqiqatçılar müəyyən etmişlər ki, bir neçə gün ərzində 172 nəfər öldürülmüşdür.

İngilis sənədlərində göstərilmişdir ki, türk hökumətinin məlumatına görə, 125 əsgər ölmüş, 25 nəfər əsgər yaralanmışdır. Həmin sənədlərdə göstərilir ki, baş vermiş hadisələrlə əlaqədar 300 müsəlman həbs edilmişdir.

29. 1904-cü ilin aprelində Andronikin başçılığı ilə ikinci Sasun üsyanı başladı. Erməni mənbələri göstərir ki, 14,16,22 aprel, 2 may, 17 iyul döyüşlərində 932 (1132) türk öldürülmüş, ermənilərin itkisi isə 19 nəfər olmuşdur.

30. Sultanın həyatına sui-qəsd 21 iyul 1905-ci ildə oldu. Avtomobildə qoyulmuş bomba Sultan gələnə qədər partlamışdır. Sultanın xilası şeyxülislamla görüşüb söhbət etməsi nəticəsində olmuşdur.

**Papazyan yazmışdır:** «Türkiyədə Əbdül Həmidə sui-qəsd daşnaqların inqilabi fəaliyyətlərinin son həddi idi. Bu daşnaqların növbəti qəhrəmanlıqları düşüncəsiz aksiya idi. Başlanmış iş ermənilərə heç bir fayda gətirmədi, məhz uğursuzluq bizim xalqı dəhşətli faciədən qurtardı».

Beləliklə, onu da qeyd etmək yerinə düşər ki, Şərqi Anadoluda «rəsmi» erməni terrorrizm taktikasından istifadə haqqında Avropa rəsmlərinin təqdim etdiyi çoxsaylı sənəd-sübut nümunələri vardır. Orada əslində nələrin baş verməsi haqqında çoxlu Qərb diplomatı və konsulluq nümayəndələrinin (amerikalılar da daxil olmaqla) hesabatları vardır. Onlar belə bir nəticəyə gəlmişlər ki, üsyanların müsəlman qətllərini və qırğınlarını erməni inqilabçı cəmiyyətləri həyata keçirmişdir. Rəsmilər belə bir inamlarını etiraf etmişlər ki, ermənilərin həyata keçirdikləri kütləvi qırğınların bir səbəbi bu əraziyə Avropanın müdaxiləsini təmin etmək olmuşdur.

Ermənilər həm özləri dinc sakinləri öldürür və qırğın törədir, həm də həmişə imkan tapıb özlərinin öldürülməsi haqqında vay-küy hesabatları göndərirdilər. Hovanissiyana görə,Türkiyədə yaşayan ermənilərdən fərqli olaraq Rusiya erməniləri əvvəlcədən müharibənin başlanmasını alqışlayırdı. Romanovların erməniपərəst siyasətinin xəttinə müvafiq olaraq onlar Türkiyə Ermənistanını təmizləyəndən sonra ermənilərə görünməmiş inkişaf vəd etmiş «Nikolayın vassallığı altında» məqam gözləyirdilər, böyük nikbinlik içərisində olan ermənilər nəinki nizami rus qoşunlarına 100.000 nəfərdən artıq adam verdilər, həm də Qərbi Ermənistanı «azad etmək» üçün 7 könüllü batalyon yaratdılar.

1890-cı illərin axırlarına yaxın «Hnçaq» meydandan çıxdı və 1890-cı illərdəki tarmar erməni millətçi burjuaziyasının təbəqələşməsi rəhbər «Daşnaqsütyun» partiyasını siyasəti dəyişdirməyə məcbur etdipartiya ümumtürkiyə inqilabi hərəkatında dayaq axtarmağa başladı: Gənc türklərlə saziş bağladı; 1907-ci ildə daşnaqların təşəbbüsü ilə Osmanlı imperiyasının bütün müxalifətçi partiyalarının Parisdə qurultayı keçirildi. Qurultayda dövlət çevrilişi planı işlənib hazırlandı.

Çevriliş 1908-ci ildə həyata keçirildi, lakin daşnaqların gözlədikləri nəticə vermədi.

Birinci Balkan müharibəsi (1912) Osmanlı dövlətini çox böyük çətinliklərlə qarşılaşdırmışdı. Ermənilər Qərbdə bolqarlarla müharibə zamanı rusların Şərqi Anadolunu işğal etdiklərinə və buradakı vilayətlərin ermənilərə veriləcəyinə ümid bəsləyirdilər. Erməni-rus gizli danışıqlarının planı belə idi ki, ruslar Şərqi Anadoluya girdikləri vaxt böyük qırğın törətsinlər.

Lakin bu plan baş tutmadı. Bunun da səbəbi alman-türk müttəfiqliyinin formalaşması idi. Artıq BBB (Berlin-Bağdad-Bəsra) dəmir yolu başa çatırdı. Alman inhisarları Osmanlı imperiyasında çox böyük investisiyalar qoymuşdular. Bunu Rusiya real dərk edirdi. Rusiya hiss edirdi ki, əvvəlki rus-türk müharibələrində olduğu kimi Almaniyadan kömək və dəstək ala bilməyəcək.

Rus ordusunun sərhədi keçə bilməməsi ermənilərdə ruh düşkünlüyü yaratsa da, onlar öz kinlərini türklərin üzərinə tökəcəkləri günləri səbirsizliklə gözləyirdilər. Rusiyadan umduqlarını ala bilməyən erməni təşkilatları məqsədlərinə çatmaq üçün başqa yollar aramağa başladılar. Bu yolun da ən əlverişlisi terrorçuluq və silahlanmaq idi.

Balkan müharibələrində də ermənilərin gözlədikləri nəticə əldə olunmadı. 1912-ci ilin dekabrında Vandakı rus konsulu general Mayevski öz hökumətinə bildirmişdi ki, «Daşnaq» komitəsi hər vasitə ilə Türkiyədə daxili ziddiyyətləri qızışdırır və beləliklə Avropa və Rusiyanın da müdaxiləsi üçün zəmin hazırlayır. Məlumdur ki, Türkiyə 1914-cü ilin noyabrında Almaniya-Avstriya bloku tərəfində Birinci Dünya müharibəsinə qoşuldu. Antanta dövlətləri Türkiyəni həmin blokun ən zəif həlqəsi sayır və ona qarşı hərbi əməliyyatlarla yanaşı daxildən erməni təxribatından da məharətlə istifadə edirdi.

Birinci Dünya müharibəsindən 95 il keçsə də hələ də mübahisə gedir ki, bu müharibədə Türkiyə iştirak etməyə bilərdimi? Bu mümkün deyildir. Tarixdə məlum olur ki, Antanta dövlətləri Türkiyənin bölünməsinə hələ XIX əsrin sonlarında gizli yığıncaqlarında qərar vermişlər. Halbuki həmin dövrdə Türkiyənin Antanta tərəfindən təşkil edilmiş və Rusiya tərəfindən maliyyələşdirilmiş erməni terror və üsyanlarına başı qarışmışdı.

Bununla yanaşı, Birinci Dünya müharibəsi ərəfəsində Türkiyə öz coğrafi vəziyyətinin Qərb dövlətlərinin marağında olduğunu hiss edərək müttəfiq axtarmalı oldu. Ona görə 1914-cü ildə Osmanlı imperiyası qarşı-qarşıya duran dövlətlərin hər hansı biri ilə müqavilə bağlamağa cəhd edirdi. Burada əsas fikir üçlüklərlə saziş bağlamaq idi. Bu sazişin tərəfdarları çox az idi. Yalnız Ənvər paşa razı qalmırdı.

---

[49] Kamuran Gürün. Erməni dosyesi (rusca), B., 1993, sə. 204.

Camal paşa, Tələt paşa, Cavit bəy Üçlüklərlə sazişə girmək istəyirdilər. Fransa və İngiltərə ilə sazişə girməyə çox cəhd göstərildi, lakin baş tutmadı. Bu məqamda Almaniyaya müraciət olundu. Bu zaman Almaniya görür-qoy edib belə bir qənaətə gəldi ki, Türkiyə onun üçün yalnız yük ola bilər.

1914-cü ilin 23 iyulunda Ənvər paşa Almaniya səfirliyindən təkidlə xahiş etdi ki, alman-türk ittifaqının yaranmasına kömək etsin. Artıq Dünya müharibələri astanada idi. Müharibə 1 avqust 1914-cü ildə başladı. Almaniya və Türkiyə arasında avqust 1914-cü ildə müttəfiqlik müqaviləsi bağlandı. Bu müqavilə əslində müharibəyə qoşulmaq yox, rus təhlükəsinə qarşı yönəlmişdir. Lakin Türkiyə müharibəyə 31 oktyabr 1914-cü ildə qoşuldu.

Erməni millətçi komitələri 1914-cü il noyabrın 1-də Osmanlı dövlətinin Almaniya-Avstriya-Macarıstan tərəfində Birinci Dünya müharibəsinə qoşulması yaranmış şəraiti özlərinin «Böyük Ermənistan» planını həyata keçirmək üçün çox münasib bir fürsət sayırdılar.

Yeri gəlmişkən, ermənilər II Dünya müharibəsində Almaniyaya qoşulmayan Türkiyəni həmişə qınayır və söyürdülər ki, qoşulsa idi, qərb torpaqlarımızı (Türkiyənin 6 vilayəti nəzərdə tutulur) qaytarmış olardıq.

Hələ 1914-cü ilin iyununda erməni komitələri bu haqda gizli qərar çıxarmışdılar. Onların bu niyyətini əvvəlcədən açıq-aşkar hiss edən Osmanlı hökuməti həmin ilin avqustunda Ərzurumda daşnaq rəhbərliyi ilə danışıq apardı. Daşnaqlar and-aman etdilər ki, ermənilərin üsyana hazırlaşdıqlarına dair xəbərlər doğru deyil və onlar Osmanlı dövlətinə «öz təbəəlik sədaqətinə sadiqdirlər».

Eyni zamanda Eçmiədzin katolikosu Qafqaz canişini general Vorontsov-Daşkova Türkiyə ilə müharibədə ermənilərin qeydsiz-şərtsiz Rusiyanın xidmətində olacağına təminat verirdi.

Rusiyanın Türkiyəyə müharibə elan etməsindən dərhal sonra daşnaq komitəsi özünün orqanı «Horizon»da belə bir rəsmi bəyanatla çıxış etdi: «Ermənilər zərrəcə tərəddüd etmədən Antanta dövlətlərinin tərəfindədirlər və özlərinin bütün silahlı qüvvələrini Rusiyanın əmrinə tabe etmiş, eyni zamanda könüllü alaylar yaratmışlar».

Daşnaq komitəsi isə özünün bütün təşkilatlarına belə bir təminat vermişdi: «Ruslar sərhədi keçdikdə və Osmanlı orduları geri çəkilməyə başladıqda hər yerdə üsyana başlayıb. Osmanlı ordusunu iki atəş arasına qoymalı. Osmanlı orduları əks hücuma keçib irəliləyərsə, erməni döyüşçüləri ayrı-ayrı dəstələr təşkil edib türklərə qarşı partizan müharibəsi aparmalıdırlar».

Bununla əlaqədar olaraq erməni siyasi dairələri Rusiyadan üz çevirmələrinə baxmayaraq yenə də istiqaməti dəyişdilər və özlərinin ilkin dayaq bazasına - Rusiyaya üz tutdular. Bu dəfə çar hökuməti məmnuniyyətlə onlara meyl göstərdi. Dünya müharibəsi yaxınlaşırdı; Milyukovun ifadəsincə «Rusiya ilə Türkiyə arasındakı yolayrıcında məskən salmış» ermənilər böyük siyasi əhəmiyyət kəsb etdilər. 1913-cü ildə rus diplomatları mütəşəkkil erməni burjuaziyası ilə saziş bağladılar və «məzlum ermənilərin müdafiəsi» uğrunda çıxış edərək Anadolunun Şərq vilayətlərində islahatlar keçirilməsi tələbini irəli sürdülər. Almaniyanın müdafiə etdiyi Türkiyə hökuməti inadlı müqavimətdən sonra 1914-cü ildə islahatlar haqqında saziş imzalamağa məcbur oldu. Həmin sazişə görə, ermənilər dövlətlərin, birinci növbədə Rusiyanın nəzarəti altında idarəetmə, dil, hərbi mükəlləfiyyət və sahələrdə çox geniş muxtariyyət almalı idilər.

Rusiyanın bu müdaxiləsi saziş imzalanandan azacıq sonra başlanmış dünya müharibəsi zamanı ermənilərin vəziyyətini xeyli asanlaşdırdı (Bax: V.Qurko-Kryatin. «Erməni məsələsi»).

«Hnçaq» partiyası mərkəzi komitəsi də bütün üzvlərinə və yerli özəklərə Rusiyanın təbii müttəfiqi kimi Qafqazda, Şərqi Anadoluda və Kilikiyada Antantanın qələbəsini təmin etmək üçün bütün imkan və vasitələri işə salmaq göstərişi vermişdi. Anadolu vilayətlərindəki ermənilərin illərdən bəri xüsusi anbarlarda, kilsə zirzəmilərində və məktəb binalarında yığıb saxladıqları, habelə qəfləti hücum nəticəsində ələ keçirdikləri silahlarla təchiz olunmuş quldur dəstələri, kişilərinin əksəriyyəti səfərbərliyə alındığından müdafiəsiz qalan türk kəndlərini talayır, uşaq, qadın və qocaları vəhşiliklə qətlə yetirir, ordunun keçəcəyi yolları, körpüləri dağıdırdılar.

Yeri gəlmişkən, ermənilər hətta ruslar tərəfindən işğal olunmuş ərazilərdə köməksiz, arxasız qalmış əhaliyə qarşı qırğın törədirdilər.

Rusiyanın Qafqaz ordusu sıralarında xüsusi «könüllülər» alayı kimi daxil olmuş erməni hissələrinin Anadoludakı vəhşilikləri o dərəcədə həddini aşmışdı ki, hətta rus komandanlığı bu alaylardan bir neçəsini cəbhədən arxaya köçürməli olmuşdu.

Rusiya ordusu ilə birlikdə Türkiyə sərhədlərini keçən ilk erməni hərbi hissələrinə Armen Karo ləqəbli, Osmanlı dövlət məclisinin keçmiş üzvü Karagin Pastırmacıyan komandanlıq edirdi.

Osmanlı dövlət məclisinin digər üzvü Murad ləqəbli Hamparsum Boyacıyan isə türk ordusunun arxasında geniş təxribatçılıq və soyğunçuluq işləri ilə məşğul olan erməni quldur dəstələrinin başçısı idi.

Bu dəstələr təkcə türkləri deyil, eyni zamanda Anadoluda yaşayan yunanları (Trabzonda) və hətta yəhudiləri (Hakkaridə) də soyub talamışdılar.

İngilis yazıçısı Dikson-Conson deyir: «Erməni könüllülərinin silahlı dəstələri 1915-ci ilin martından əvvəldə ölkədə fəaliyyət göstərirdi. «Ermənilərin dostları» və Lord Brays onları paltar və sursatla təmin etmək üçün hələ qırğından qabaq pul buraxılmasını tələb edirdilər. Bundan başqa, çar Rusiyası da erməniləri silahlandırır və üsyanı qızışdırmağa kömək edirdi. Məsələn, Van erməniləri türklərin Sarıqamışdakı məğlubiyyətindən sonra belə hesab edirdilər ki, artıq Rusiyanın tam qələbəsi təmin edilmişdir və onların fürsəti gəlib çatmışdır. Rus agentləri və «öz inqilabçıları» tərəfindən təhrik olunan ermənilər qiyam qaldırdılar. «Tayms» müxbirinin etirafına görə, onlar yerli hakimlərin başısoyuqluğundan istifadə edərək, «nəhayət Van şəhərini tutdular və öz düşmənlərindən qanlı intiqam aldılar». İyun ayında ermənilər xəyanət yolu ilə şəhəri ruslara təslim etdilər. Dikson-Conson etiraf edir ki, Kiçik Asiyanın başqa yerlərində də təşkil olunmuş üsyanlar baş verirdi. «Yunayted-press» (ABŞ) agentliyinin müxbiri Henri Vuda görə, ermənilər təkcə üsyan qaldırmamışdılar. Faktiki olaraq onlar Vanı və bir neçə mühüm şəhəri tutmuşdular.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ermənilər Vanda müsəlmanları elə qırmışlar ki, itkin düşmüşlərdən başqa 30 min meyid tapılıb basdırılmışdır.

Müxbir qeyd edir ki, türk hakimiyyət orqanları Zeytunda erməni gənclərini hərbi xidmətə səfərbərliyə almaq istəyəndə onlar (ermənilər) qiyam edib 300 nəfər əsgər öldürmüşdülər.

## I DÜNYA MÜHARİBƏSİ CƏBHƏLƏRİNDƏ TÜRKLƏRİN VƏZİYYƏTİ VƏ ERMƏNİ TERRORUNUN GÜCLƏNMƏSİ

> «Ermənilər qırğınlar törədir, ancaq bunu boyük bəla hesab etmirdilər. Təki, qırğınlar Avropanın diqqətinə yetərli olsun» - Erməni dövlət xadimi Arkanaz Mravyan, «Daşnaqsütyunun böhranı» əsərindən.
>
> «Ermənistanın müsəlman və rus kəndlərini onlar odla, qılıncla məhv etdilər... Daşnaq ordusunun başında duran kimlər idi? Aram və Rubendən, Martiros və Pilosadək nadan, talançı, quldur xmbapetlər. Bu ordu silahsız müsəlmanlara divan tutmaqda, dinc əhalini çapıb-talamaqda məharətli və cəsarətli idi...»
>
> ***(Aleksandr Myasnikyan. «Seçilmiş əsərləri, səh. 354-365.)***

Daşnaq əlaltıları I Dünya müharibəsinin ilk günlərindən Rus çarizmindən erməni xalqı üçün böyük lütf və güzəştlər gözləyirdilər. 1915-ci ildə Vorontsov-Daşkovun yerinə 11 Nikolayın əmisi böyük knyaz Nikolay Nikolayeviç təyin edildi. Ermənilər onun qəbulunda oldular və sədaqət andı təqdim etdilər. Andda deyilirdi: «...Biz ürəkdən inanırıq ki, böyük knyaz öz qətiyyəti və əzmkarlığı ilə birdəfəlik türk hökumətinin axırına çıxacaq. Bu ümidlə də biz rus ordusunun keçmiş baş komandanını salamlayır və deyirik: xoş gəlmisiniz».

1914-cü ildə Osmanlı dövlətinin 1 Dünya müharibəsinə qoşulması (29.X.1914) və səfərbərlik elan etməsilə əlaqədar ermənilər ruslarla razılaşmalarma görə Anadolunun daxilində üsyan qaldırmalı və türk ordusunu arxadan vurmalı idi. Beləliklə, səfərbərlik başlandıqda türk ordusu sıralarındakı erməni əsgərləri silahları ilə rus ordusuna birləşməlidilər. Orduya alınmayanlar isə rusların xeyrinə casusluq edir və hərbi hissələr düzəldib türk ordusunu arxadan vururdular.

Həmçinin ermənilər türk kəndlərini, şəhərlərini, digər yaşayış məntəqələrini yandırmağa, dağıtmağa, qadın və uşaqları öldürməyə başladılar. 1915-ci ildə rusların Şərqi Anadoluya girmələri ilə ermənilərin etdikləri zülm də artdı. Rus orduları ilə birlikdə Van, Bitlis, Ərzurum, Ərzincan, Qars və bir çox başqa vilayətlərdə amansız qırğınlar törətdilər. Şərqi Anadolu bir anda xarabalığa çevrildi. Bəzi vilayətlər yerlə-yeksan edildi.

Bundan sonra yalnız 1915-ci il ərzində 1 milyona qədər türk yerindən, yurdundan köçmək məcburiyyətində qaldı. Onların bir qismi yollarda yoxsulluq, səfalət və xəstəliklərdən tələf oldu.[50] Birinci Dünya müharibəsinə məcburən qoşulan Türkiyəni Antanta (Fransa, İngiltərə, Rusiya) çoxdan məxfi planlarında öz aralarında bölüşdürmüşdülər. Bu bölgünün həyata keçirilməsində ermənilərdən geniş miqyaslı istifadə olunması da nəzərdə tutulurdu. Onlar hərbi qüvvələrini daha çox Türkiyəyə yönəltdilər ki, qısa vaxt ərzində Almaniyanı təkləsinlər. Beləliklə Türkiyəni Antantaya qarşı suda və quruda 9 cəbhədə, üstəgəl arxa cəbhədəki erməni və ərəb qiyamçıları ilə vuruşurdu.

Ermənilər daxildə də silahlandırıldı. Onu demək kifayətdir ki, İngiltərə hökuməti İran, Mesopotamiya, Suriya ərazilərindən ermənilərə 100 min tüfəng ötürmüşdü. Artıq müharibənin gedişində həm daxilində Osmanlı imperiyası, həm də cəbhələrdə Antanta ordusu tərkibində silahlı erməni alayları görünməyə başladı. Osmanlı ordusunda xidmət edən ermənilər fərarilik edib, cəbhələrdə Antantanın tərəfinə keçdilər. Antanta məhz ermənilərin böyük köməyi sayəsində Türkiyəni Qafqaz və Mesopotamiya cəbhələrində ağır məğlubiyyətlərə uğratdılar. Yalnız onu demək kifayətdir ki, Sarıqamış meşələrində 90 min (60 mini İstanbul qarnizonu idi) türk əsgəri ermənilərin satqınlığı ucbatından həlak oldu.

C.Kirokosyan «Gənc türkçülər: tarixin məhkəməsi qarşısında» kitabında ingilis diplomatı Rober Sesilin ermənilərin xeyrinə olan sözlərini nümunə gətirir: «Ermənilər Rusiya əleyhinə döyüşməkdən imtina etdilər və türk hökuməti 1915-ci ildə onlara divan tutdu. Əhalinin üçdə iki hissəsi qəddarcasına sürgün edildi».

Əgər türk hökuməti səfərbərlik elan edirdisə, onda Türkiyədə yaşayan bütün xalqlar, o cümlədən ermənilər də bu əmrə tabe olmalı idilər. Axı, hər bir ölkədə orduda xidmət etməkdən boyun qaçırmaq fərarilik sayılır. Üstəlik hansı hökumət razı olardı ki, öz təbəələri ona qarşı silah qaldırsın?

Lakin C. Kiroqosyan ermənilərə haqq qazandıraraq qeyd edir ki, hətta alman imperatoru II Vilhelm də Əbdül Həmidin öz azğınlaşmış təbəələrinə qarşı yönəltdiyi cəza tədbirlərinə haqq qazandırırdı. C. Kirokosyanın o zamankı məlumatına gorə, ermənilərin üçdə ikisi qovulmuşdur. Türkiyədə cəmi 1.018.000 erməni yaşayırdı. Deməк bunun 678,5 mini sürgün edilmişdi. Bəs, onda 1,5 milyon erməninin öldürüldüyü haqqında uydurma rəqəm haradan yaranıb?

**«Qan tökməsək azadlığa qovuşa bilmərik»** şüarını erməni liderləri hələ XIX əsrin 80-ci illərindən fəaliyyət proqramı kimi qəbul etmişdilər. Qan tökmək yolu ilə «erməni məsələsini» həll etmək və «Böyük Ermənistan» yaratmaq üçün 250 minlik erməni silahlı könüllüləri rus ordusu ilə birlikdə 1914-cü il noyabrın 4-də Türkiyə torpaqlarına soxuldular. Dörd gün sonra Ərzurum rayonunda Köprü köyünü tutdular. 1915-ci il yanvarın 3-4-də Sarıqamışı, 1916-cı il fevralın 16-da Ərzurumu, martın 17-də İsfahanı (İran), aprelin 18-də Trabzonu zəbt etdilər, mayın 2-3-də Xoy və Dilmanda yerli əhaliyə

[50] Türk dünyası tarix dərgisi, 1987, N2 - «Erməni genosidi»nin mənbəyi.

divan tutdular. Van və Urmiya gölləri aralarındakı əraziləri əda qaladılar, iyunun 25-də Ərzincanı, avqustun 23-də Muşu ələ keçirdilər.

Həsənqala, Sarıqamış, Ərdəhan, Qars, İzmir, İrəvan, Ərzincan, Trabzon ətrafında ermənilər müsəlman kəndlərini yerlə-yeksan edir, yandırır, əhalini fərqinə varmadan qılıncdan keçirirdilər. Dinc əhalini zorla evlərə, məscidlərə doldurur, diri-diri yandırırdılar. Qocaları və uşaqları torpağa basdırır, hamilə qadınların qarnını yırtıb körpə balaların ətindən yeməyə məcbur edirdilər. General Harborda göndərdiyi məktubunda Kazım Qarabəkir yazırdı: "Ordumuz fevralın 22-də Mamaxatunu azad etdi. Burada biz sağ qalmış bir nəfərə rast gəlmədik. Bütün əhalini qırıblar, meyidləri bir quyuya doldurublar".

Alaga kənddə gördüklərimizi isə təsəvvürümüzə gətirmək belə mümkün deyildir. Gözlərimiz önündə dəhşətli bir mənzərə canlandı: əcaib hala salınmış
meyidlərin döşləri..., bütün uşaqların bədəni süngülərlə dəlik-deşik edilib... Qocaları və qadınları sobaya doldurub diri-diri yandırıblar. Gəncləri balta ilə şaqqalayıb asıblar. Həmvətənlərimizin bu faciəsi insanın qəlbinə dağ çəkir...»

Törətdikləri bu vəhşiliklərə görə xəcalət çəkmək, cinayət məsuliyyətinə cəlb olunmaq əvəzinə dünya ictimaiyyətini «zavallı xalqı türk zülmündən xilas etməyə» çağıran erməni könüllüləri haqqında Amerika tarixçisi Stenford Corc Şou yazırdı ki, rus ordusu mayın 14-də Vana çatdı. Öndə gələn erməni könüllüləri idi. İki gün ərzində onlar yerli müsəlman əhalisini qətlə yetirdilər. Vanda erməni dövləti yaratdılar. Bu dövlətin bərqərar olacağına inanırdılar. Ona görə ki, şəhərdə qırılan qırılmış, qaçan qaçmışdı, müsəlman qalmamışdı. Yaranmış vəziyyət o dövrün erməni mətbuatını, katolikosunu, erməni siyasi partiyalarını tamam-kamal qane etməkdəydi. «Hayastan» qəzeti (6 iyun 1915) dünya ermənilərini əldə olunan «böyük qələbə» münasibətilə təbrik edir, bir gecədə minə yaxın ölü və yaralı verən savaşı bütün tariximizdə belə görünməmiş «şanlı qələbə» adlandırırdılar. Qəzet dünya ermənilərini «qanlı əhdə» sadiq qalmağa, durmadan vuruşmağa, türk analarını ağlar qoymağa, daha çox türk evlərini yıxmağa çağırırdı.

Katolikos V Gevork qürrələnə-qürrələnə xəbər verirdi ki, 1915-ci ilin aprelində Vanda başlayan qiyamda 10.000 nəfərdən artıq silahlı erməni iştirak edir. Əslində qiyamçı ermənilərin sayı katolikosun dediyindən xeyli artıq idi. Apreldə ətraf yaşayış. məntəqələrindən 4.000 nəfər könüllü silahlı qiyamçı şəhərə daxil olmuşdu. Mayın əvvəlində yeni-yeni dəstələr gələrək Van şəhərini hərtərəfli mühasirəyə aldılar.

Çox keçmədən (17 may) Van valisi Cövdət bəyə geri çəkilmək barədə əmr verildi. Müsəlmanlar Vanı tərk etdilər. Aram Manukyan şəhərin valisi, general qubernatoru təyin edildi. Ermənilər axın-axın Vana toplaşmağa başladılar. Tezliklə onların sayı 25.000 nəfərə çatdı. Azğınlaşan erməni silahlı dəstələri qiyama qalxıb ətraf kəndləri dağıdır, talan edir, müsəlmanları qılıncdan keçirirdilər. Türk ordusu bir neçə cəbhədə vuruşurdu. Buna baxmayaraq, o, imkan tapıb iyulun 22-də hücumla Vanı geri aldı.

1915-ci ilin avqustunda rus ordusu yenidən Vanı işğal etdi. 1916-cı il fevralın 16-da ruslar Ərzurumu da tutdular. Hücumlar davam edir, kəndlər qarət edilir, evlər yandırılır, dinc əhali soyqırıma məruz qoyulurdu. **S.C.Şou yazırdı: «...bütün müharibə ərzində ən dəhşətli qırğın başladı. Milyondan çox müsəlman kəndli camaatı öldü... Ərzincana doğru çəkilən Osmanlı ordusu ilə birlikdə getməyə cəhd edən minlərlə qaçqın yolda parça-tikə edildi...»**

Erməni könüllü silahlı dəstələri Muş süqut edəndə qana susamış vəhşilər kimi "İntiqamımızı aldıq" deyə şəhərin dörd tərəfindən bağırır, rast gəldikləri müsəlmanları yerindəcə qətlə yetirirdi. Ətrafdakı 15 kəndin sakinlərini erməni könüllüləri ağır at nalları ilə nallayaraq Hazal gölünə tökmüşlər. Anadolunun içərilərinə qaçan xəstələri, uşaqları, qadınları yolda tutub Təkkə monastırına toplayaraq diri-diri yandırmışlar. Gənc qızların döşlərini kəsib olmazın əzabıyla öldürmüşlər. Beşikdə yaralı körpənin ağzına anasının ermənilər tərəfindən kəsilmiş döşünü tıxamışlar. Şeyx Əbdülqaffar Əfəndinin başının dərisini soymağa başlamışlar və zavallı şeyx buna dözməyərək keçinmişdir. Erməni quldurları Dikili-Taş deyilən yerdə yüzə yaxın uşağın və qadının başını kəsmişlər (Malevil J). Ərzurum, Qars, Van, Bitlis, Muş, Sivaş, Ankara regionların məzarıstanlarında on minlərlə şəhid müsəlman uyumaqdadır...

Qəddarlıqda ad çıxarmış Andronik və Zavriyevin 1918-ci il fevralın 10-da Ərzurumda təşkil etdikləri qırğınlar bəşər tarixində silinməz qanlı ləkə kimi qalacaqdır. Şəhərin hər tərəfinə səpələnmiş quldur dəstələri qoca və cavana, qadına və uşaqlara fərq qoymadan rast gəldikləri müsəlmanları yol çəkmək bəhanəsi ilə Qars qapısının önünə gətirmiş, orada hamısını soyub-talamış və əvvəlcədən qazıb hazırladıqları xəndəklərə doldurmuşlar. Qarnizondakı erməni əsgərlərinin hamısı evləri qarət etməyə, adamları öldürməyə, qadın və qızların ləyaqətinə toxunmağa başlamışlar. Bu vəhşiliklər 14 gün davam etmişdir.

Türk ordusu şəhəri işğalçı quldur dəstələrindən azad edəndə küçələrdə 2.127 kişi cəsədini dəfn etməli olmuşdur. Təkcə Qars qapısı qarşısında 250 cəsəd tapılmışdı. Cəsədlər üzərindəki balta, süngü, mərmi yaraları, oyulmuş gözlər, kəsilmiş əzalar şəhidlərin işgəncələrlə öldürüldüklərindən xəbər verirdi. Ərzurumda 8.000-dən çox günahsız insan-qoca, qadın, uşaq, kişi qanına qəltan edilmişdi.

General Odişnlidzenin dediyinə görə, Ərzincanda «Tamamilə müdafiəsiz olan səkkiz yüzdən artıq türk qətlə yetirilmişdir. Böyük çuxurlar qazılmış və biçarə türkləri bu çuxurların yanına qovaraq heyvan kimi boğazlamış və çuxurlara doldurmuşlar. Hər qrupu bir erməni sayırmış: «Yetmiş oldu? On nəfər də kəs» deyincə daha on nəfər kəsilərək çuxurlara doldurmuşlar. Ermənilər səksən nəfər biçarəni bir evə doldurub qapıdan çıxararkən bir-bir başlarını parçalayırlarmış.

Ermənilər «erməni məsələsi»ni bu yolla həll etməyə başlamışdılar. Bir tərəfdə haray-həşir qoparır, «muxtariyyat, azadlıq» deyə dünya ictimaiyyətinin fikrini tamamilə bambaşqa məcraya yönəltmək istəyir, digər tərəfdən də etnik təmizləmə, qəddar soyqırım tədbirləri həyata keçirirdilər. 1918-ci il sentyabrın 25-də «Azərbaycan» qəzeti bu məkrli siyasət barəsində öz oxucusuna deyirdi:

«Türkiyənin Avropa müharibəsində iştirakı ilə daşnaqlar öz arzularının həyata keçirilməsi imkanını görürdülər. Ancaq Böyük Ermənistanın yaradılması etnik təmiz ərazi yaradılmasını tələb edirdi. Beləliklə, öncə Qars vilayətində, sonra isə rus qoşunlarının Kiçik Asiya ərazilərinin içərisinə yeridilməsi ilə Türkiyə ərazisində müsəlman əhalisinin ardıcıl qırğınına başlayır... Ruslar getdilər, ancaq ingilislər yaxındadırlar. Erməni hərbi hissələri cəbhəyə getmək əvəzinə İrəvan quberniyasının

tərkibində qalırlar və top atəşi ilə yüzlərlə müsəlman kəndlərini dağıdırlar, həm də zorla təmizlənmiş əraziyə erməni qaçqınlar yerləşdirirlər. Böyük Sürməli qəzası müsəlman əhalisindən təmizlənir. Naxçıvan şəhəri dağıdılır. Bakı şəhərində müsəlman əhalisinin öz dəhşətləri... 6.000-dən çox müsəlman uşaq və qadın öldürülür, bütöv məhəllələr atəşlə məhv edilir. Şamaxı qəzasına cəza ekspedisiyası göndərilir. Şamaxı və onlarla kənd atəşə və qılınca verilir, əhali isə qətl edilir...Və bununla eyni vaxtda daşnaqsakanlar dünyanın hər tərəfinə ermənilərin müsəlmanlar tərəfindən qırılması barədə teleqram göndərirlər».

1917-ci ildə baş verən fevral və oktyabr çevrilişləri cəbhədə vəziyyətin dəyişməsinə səbəb oldu. Dekabr ayında «Brest-Litovsk» müqaviləsi imzalandı. Rus qoşunları işğal etdikləri Osmanlı torpaqlarından geri çəkilməli oldu. Qafqaz cəbhəsinin rus qoşunları ilə birlikdə erməni silahlı drujinaları da Türkiyə torpaqlarından uzaqlaşmağa məhkum idi. Hətta bu drujinaların təxris olunması haqqında sərəncam da verilmişdi. Belə bir şəraitdə tükənmək bilməyən iştahla zəbt etdikləri torpaqlardan çıxmağa məcbur olan könüllü silahlı ermənilər yol boyu müsəlman əhalisini qətl-qarətə məruz qoymağa başladılar. Qars vilayətində 82, İrəvan quberniyasında 211 müsəlman kəndini dağıdıb yandırdılar. Əhalinin bir xeyli qismi qətlə yetirildi, qalanları ölüm-işgəncə təhlükəsindən xilas olmaq üçün doğma ata-baba ocağını tərk etməli oldu.

*Qarsı tərk etməkdə olan yunanlar bu müsibəti müstəsna dəqiqliklə qələmə almışlar: «Türk ordusu qarşısından geri çəkilən silahlı erməni qaçqınları ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək hərşeyi atəş və qılıncdan keçirir, təsəvvürə gəlməz bir dəhşət və fəlakət törədirdilər. «Qalib» erməni ordusu hərbi qənimətləri, yəni süngü ucuna taxılmış südəmər uşaqlarla keçdikləri yolların ətrafına çılpaq soyundurulmuş müsəlman qadınlarını düzürdülər. Bu cəhənnəm əzabından ağlını itirmiş qadın və uşaqların ürəkparçalayan iniltilərini, qocaların ümidsiz nalələrini dinləmək üçün adamın qəlbi daş olmalıdır».*

## OSMANLI HÖKUMƏTİNİN MÜDAFİƏ TƏDBİRLƏRİ<br>TƏHCİR QANUNU

Uzun illərdir ki, erməni ideoloqları dünyanı inandırmaq istəyirlər ki, 1915-ci ildə Osmanlı ərazisində «zavallı» erməni xalqına qarşı dövlət səviyyəsində qırğın törədilmişdir. SSRİ dağılana qədər bu təbliğat bilavasitə Türkiyə Respublikasına qarşı yönəlmişdi.

*Əslində soyqırımına məruz qalan kimlər olmuşdur? Birinci Dünya müharibəsi ərəfəsində hər şəkildə aydın idi ki, müharibə başlanacağı təqdirdə ermənilər Osmanlı dövlətini müdafiə etməyəcəklər. Çünki çar Rusiyası müharibənin nəticəsindən asılı olmayaraq Osmanlı ərazisində erməni muxtar dövlətinin yaradılmasına söz vermiş və bununla erməniləri Türkiyəyə qarşı müharibəyə cəlb edə bilmişdi. I Dünya müharibəsi ərəfəsində II Nikolayın Qafqaza gəlişi və erməniləri ittifaqa çağırması məsələni daha da qətiləşdirdi. Çar Tiflisdəki nitqini bu cümlələrlə bitirmişdi: «Qoy erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin». Beləliklə, II Nikolayın bu qərəzli və təhrikçi çıxışı ermənilərin Rusiya tərəfindən Türkiyəyə qarşı müharibədə iştirakını təmin etdi.*

Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin yerli türklərə qarşı qətl-qarətə keçməsinə şərait yaratdı. Rus ordusunun tərkibində xidmət edən erməni əsgərləri yerli ermənilərlə birləşərək heç bir günahı olmayan on minlərlə dinc əhalini qətlə yetirir və onları öz yurdlarından didərgin salırdılar. Ermənilərin yerli əhaliyə divan tutması Osmanlı dövlətini müəyyən müdafiə tədbirləri görməyə məcbur etdi. Belə ki, 1915-ci il mayın ortalarında döyüş meydanı olan Van, Bitlis və Ərzurumdan erməni əhalisi uzaqlaşdırıldı.

Yeri gəlmişkən, ermənilərin Şərqi Anadolu torpaqlarından köç etdirilməsi məsələsi ayrı-ayrı zamanlarda və elə indinin özündə də bir-birinə əks olan müddəalarla izah edilir. Belə ki, erməni üsyanlarının «Təhcir» qanunundan irəli gəldiyini söyləyirlər. Ancaq tarix sübut edir ki, erməni üsyanları dünya müharibəsindən daha qabaq Qərb dövlətlərinin, başlıcası isə Rusiyanın dəstəyi ilə başladıqları üsyanların davamı idi. Bu münasibətlə erməni müəlliflərindən Vahan Boryan qeyd edirdi: *«Daşnaq komitəsi Rusiyanın imperialist əməllərinə xidmət üçün və onunla ittifaqa girərək türk millətini məhv etmək üçün ortaya çıxmışdır.»*

Məhşur erməni yazıçısı Leo Tiflisdə 1915-ci ildə nəşr olunmuş «Erməni məsələsi sənədləri» adlı əsərində ermənilərin türklərə qarşı vuruşmalarından bəhs edərək açıq yazırdı ki, erməni üsyanları «Təhcir» dən xeyli əvvəl başlamışdır. Muşda və Ovada 7 min erməni silahlandırılmışdı. Bir çoxları türk ordusundan öz silahları ilə qaçmışdılar. Rus ordusu yaxınlaşdıqca Muş bölgəsində səfərbər edilmiş erməni gəncləri üsyan bayrağını qaldırmağa hazır idilər.

Beləliklə, Dünya müharibəsinin ilk aylarında, «Təhcir» dən 7 ay qabaq Şərqi Anadolunun ermənilər yaşayan bütün ərazilərində üsyanlar başlamışdı. Hətta Qeysəriyyədə, Amasiyada Yozqatda, İzmitdə, Bursada, paytaxt İstanbulda və başqa yerlərdə ermənilər dinc əhaliyə hücum edib öldürürdülər. Fədakarlıq kimi qələmə verdikləri satqınlıqlarını ermənilərin özləri və mətbuatları da etiraf edirdilər. Məsələn, rusların Osmanlı dövlətinə müharibə etməsindən dərhal sonra Daşnaq partiyasının orqanı olan «Horizon» qəzeti belə bir məlumat yaymışdır: «Ermənilər Türkiyəni parçalamaq istəyən dövlətlərin yanında dərhal yer almışlar, bütün güclərini tərəddüt etmədən Rusiyanın əmrinə vermişlər. Ayrıca könüllü alaylar da təşkil etmişlər. Buna görə də ruslar sərhəddi keçərkən Osmanlı orduları həmin iki od arasına alınmalıdır. Osmanlı ordularının irəliləməsi halında isə erməni əsgərləri silahları ilə birlikdə dəstələr təşkil edib ruslarla birləşməlidirlər». (Leo, həmin topluda, səh 207).

Antantanın təbliğat maşını və erməni millətçiləri isə sübut etmək istəyirdilər ki, I Dünya müharibəsi illərində Osmanlı ərazisində guya bir milyondan artıq erməni öldürülmüşdü. Bunun üçün fakt kimi müharibəyə qədər burada 2,5 milyon erməni yaşadığı göstərilirdi. Halbuki Osmanlı dövlətinin rəsmi məlumatına görə, müharibəyə qədər bu ərazidə 1,3 milyon erməni yaşayırdı. Müharibə zamanı yarım milyon erməni Türkiyədən Qafqaza və başqa yerlərə köçdü. Ehtimal etmək olar ki, ölənlərin sayı 300 min nəfər olmuşdu. Təbii ki, buraya aclıqdan, soyuqdan ölənlər və itkin düşənlər də daxil idi. «Tayms» qəzeti yazırdı: «Bu bir danılmaz həqiqətdir ki, müharibə illərində iki milyon türkün həyatına son qoyulmuşdu».

Osmanlı ərazisində müsəlman əhalisinə qarşı ilk soyqırımı 1915-ci il martın 14-də Van şəhərində törədildi. İki gün ərzində şəhərin müsəlman əhalisi qılıncdan keçirildi, onlara olmazın əzablar verildi. Rus ordusunun himayəsi altında «Erməni

Van dövləti» yaradıldı. Van soyqırımından sonra erməni və rus ordusunun birləşmələrinin Bitlis vilayətinə hücumları başladı. Mosula qədər böyük bir ərazi erməni daşnaq qüvvələrinin işğalı altına düşdü.

1915-ci il iyulun ortalarından etibarən ermənilərin bu ərazilərdə törətdikləri cinayətlərin sayı-hesabı yox idi. Bundan sonra Osmanlı ordusunun əks-hücumu nəticəsində geri çəkilən rus erməni ordusu ilə birlikdə erməni əhalisi də bu əraziləri tərk etməyə başladı. 200.000 erməni əhalisi rus ordusunun müşayiəti ilə Cənubu Qafqaz istiqamətinə üz tutdu.

Həm obyektivlik baxımından, həm də sənədlərin əksəriyyəti qeyri-müsəlman müəlliflərinə məxsus olduğuna görə ABŞ konqresi kitabxanasına dair Bristolun sənədlərində qeyd olunur: «dəqiq statistik mənbələrdən bizə məlumdur ki, 1912-1922-ci illər ərzində 600 minə yaxın erməni həlak olmuşdur. 1,5-2 milyon ermənin ölümü ilə bağlı fikirlər fərziyyədən başqa bir şey deyildi. Müharibə gedən ərazidə insanların ölümü və itkin düşməsi adi bir haldır.» Bu sənədlərdə həmçinin göstərilir ki, o dövrdə 2,5 milyon türkün həyatına son qoyulmuşdu. Türklərin ölümü və öldürülməsi ermənilərin ölümündən daha faciəli olmuşdu.

Yuxarıda sadalanan faktlardan belə nəticəyə gəlmək olar ki, I Dünya müharibəsi illərində Osmanlı ərazisində ermənilər yox, yerli türk əhalisi soyqırıma məruz qalmışdır.[51]

Xarici dövlətlərin dəstəyi ilə erməni üsyançıları Anadolu daxilində türk ordusunun müharibə vəziyyətində olmasından istifadə edərək türk qətliamları törətməkdə davam etmişlər. Bu üsyan sırasında baş vermiş qətliamlardan biri ilə bağlı fransız Rafael de Nöğqalisi xatirələrində belə deyir: «Van valisi Gövdət bəy Vandan ayrıldıqdan sonra ermənilərin oraya hakim olduqlarını və bütün müsəlmanları - qoca, qadın və uşaqları qılıncdan keçirdiklərini öyrəndik. Halbuki heç bir yerdə bu dərəcədə alçaq hərəkətlər görünməmişdir. Bu durum mənə Vandakı belə bir olayı xatırlatdı. Bir gün, tabeliyimdə olan bir neçə zabitlə top atəşlərini gözləyərkən yandakı evin damında yaşlı bir müsəlman qadın paltar asırdı. Ermənilər onu görər-görməz üstünə atəş yağdırdılar və bu ixtiyar qadının vücudunu deşik-deşik edərək öldürdülər.

Bundan sonra da bizə atəş açdılar. Ermənilər zavallı bir qadını öldürməkdən zövq duymuşdular».

1915-ci ilin bahar aylarında Osmanlı dövləti bütün cəbhələrdə müharibə edirdi. Ərəb yarımadasında, İraqda, İranda, Qaliçyada və Çanaqqalada qanlı çarpışmalar gedirdi. Düşmən dövlətlərinin İstanbula girmək üçün yenilməz donanmalarla dənizdən göstərdikləri keçid təşəbbüslərinin 18 mart böyük dəniz qələbəsi ilə qarşısı alınmışdır. Bundan sonra düşmən 25 apreldə Gəlibolu yarımadasına əsgər çıxararaq, boğaz müdafiəsini qurudan yarmağa çalışırdı, məmləkət yaşamaq və ya məhv olmaq uğrunda vuruşurdu.

Erməni partiya, komitə və cəmiyyətləri vahid fəsad mərkəzləri halında, erməni üsyançılarına qiyamlar, təxribatlar və çaxnaşmalar törətməkdə istiqamət verməklə bütün yurdda, xüsusilə Şərqi Anadoluda müharibə cəbhəsini və arxa cəbhəni ağır vəziyyətə salmaqla məğlubiyyətə şərait yaratmaq istəyirdilər.

Hökumətin bu hərəkətlərin qarşısını almaq tədbirləri bir nəticə vermirdi. Bu durumda Daxili İşlər Nazirliyi erməni partiya, komitə və cəmiyyətlərinin bağlanması, əmlaklarının müsadirə olunması, başçılarının nəzarətdə saxlanılması, daha fəallarının hərbi məhkəməyə cəlb edilməsi və günahkarların cəzalandırılması haqqında bir qərar verdi.

Ermənilər nə üçün 24 apreli «erməni soyqırımı günü» adlandırırlar? Faktlar və sənədlər göstərir ki, erməni köçü haqqında qərar 1915-ci ilin mayında verilmişdir. Köç isə tədricən 2 il (1915-1916-cı illər) ərzində olmuşdur. Əslində isə ermənilər 24 apreli bayram günü kimi qeyd etməli idilər. Belə ki, həmin gün ermənilər dövlət çevrilişi həyata keçirməli və «24 aprel»i Anadoluda erməni dövlətinin yaranması günü kimi qeyd etməli idilər.

Lakin ermənilərin bir saylı düşməni hesab edilən türklər və onların sahib olduğu Osmanlı hökuməti müharibənin ölüm-dirim günlərində yatmırdılar. Osmanlı dövlətinin çevik və açıq gözlüyünün nəticəsi olaraq ermənilərin məkrli məqsəd və planları aşkar edildi, onlar nəzarət altına alındılar. Elə ermənilərin gözlədikləri gün -24 aprel 1915-ci ildə erməni komitələrinin və terror başçılarının əsas idarəçiləri olan 2345 nəfər həbs edildi. Ermənilərin «Erməni dövləti günü» «Vay günləri»nə çevrildi.

Burası da maraqlıdır ki, həbs həyata keçirilən gün Eçmiədzin katolikosu ABŞ prezidentinə teleqram göndərmişdir. Teleqramın məzmunu belə olmuşdur:

**«Hörmətli prezident. Türkiyə Ermənistanından gələn son məlumata görə, orada ermənilərin qırğını başlamışdır və təşkil olunmuş təqiblər erməni xalqının mövcudluğunu təhlükədə qoymuşdur. Ali həzrətləri, bu ağır anda sizin nəcib hisslərinizə mənim və erməni xalqının ehtiyacı vardır. Xahiş edirəm ki, insanlıq və xristian mərhəməti naminə təcili olaraq Sizin böyük respublikanın diplomatik köməyi ilə işə qarışasınız və mənim xalqımı Türkiyədə türk fanatizminin törətdiyi özbaşınalıqlardan müdafiə edəsiniz.**

**Gevork, bütün ermənilərin arxipastoru və katolikosu.»** [52]

Teleqram ünvanına 24 apreldə çatmışdır. Bu sübut edir ki, o əvvəlcədən hazırlanmışdır. İş ondadır ki, Amerika səfiri İstanbuldakı həbs haqqında teleqramı aprelin 27-də vermişdir, ancaq katolikos, görünür ki, hazırlanmış cəza tədbirlərini bilirmiş və o teleqramını qabaqcadan göndərmişdir. Bunu həbs edilmişlərin günahları təsdiq edir.

Yeri gəlmişkən, köçürülmə tədbiri ermənilərin dağıdıcı fəaliyyətlərini Türkiyədə dayandıra bilmədi. Ona görə qəbul edilmiş qərar ölkənin digər vilayətlərində də tətbiq olunmalı oldu. Başqa çıxış yolu yox idi, hər yanı üsyan alovları bürümüşdü. 23 iyul 1915-ci ildə-Boğazlıyanda, 1 avqustda-Fındıqcıqda (Maraş), 9 avqustda-Hərmüşdə (Urfa), 14 sentyabrda-Musa Dağda (Antalya), 29 sentyabrda-Urfanın özündə, 7 fevral 1916-cı ildə-İslahidə, 4 aprel 1916-cı ildə-Akdaqmadeniyada, 9 aprel 1916-cı ildə - Tosedə üsyanlar fəryad edirdi, kəndlər, şəhərlər yandırılır, dağıdılır və əhalisi öldürülürdü.

Ənvər paşa 2 may 1915-ci ildə Daxili İşlər Nazirliyinə göndərdiyi məktubda yazırdı: «Van gölü ətrafındakı ermənilər üsyanları davam etdirmək üçün hər an toplu və hazır bir vəziyyətdədirlər. Toplu halında olan ermənilərin bu yerlərdən çıxarılaraq, üsyan yuvasının dağıdılmasını düşünürəm. Ruslar 20 aprel 1915-ci ildə öz sərhədləri daxilində olan müsəlmanları

---

[51]Azərtac. Ermənistanın xüsusi xidmət idarələri Azərbaycanlı girovları terrorçuluğa sövq etməyə cəhd göstərmişlər. - «Respublika», 29.11.2001, N2 272 (13091).

[52] Kamuran Gürün. Erməni dosyesi (rusca), B., 1993. s. 260.

səfil bir halda sərhədlərimizdən içəri keçirmişlər. Həm buna qarşı olaraq və həm də yuxarıda göstərdiyim səbəbi qabaqlamaq üçün, ya bu erməniləri ailələri ilə birlikdə rus sərhədləri daxilinə göndərmək, yaxud erməniləri və ailələrini Anadolu içində müxtəlif yerlərə dağıtmaq gərəkdir».[53]

Buna görə cəbhələrdə müharibənin etibarlı şəkildə davam etdirilə bilməsi və bütün bölgədə asayişin saxlanması üçün erməni araqarışdıranlarının həmin bölgələrdən çıxarılması gündəmə gəlir. Məclis tətildə olduğu üçün hökumət 27 may 1915-ci ildə köçürülmə haqqında qanun qüvvəsində bir qərar çıxarır. Bu qərar 1915-ci il 15 sentyabrda parlament tərəfindən təsdiq edilir. Bu qanunun lazımınca və ədalətli şəkildə yerinə yetirilməsi üçün təcili iki qətnamə çıxarılmışdır. Bunlardan biri insanlara, digəri daşınmaz əmlaka aid məsələlərlə əlaqədar idi.

«Köç» qanununa görə burada yaşayan əhali ölkənin müharibə içində olmayan digər bir ərazisinə köçürülməli idi. Bu əslində yer dəyişdirmə hərəkəti idi, özlüyündə müharibə gedən dövlətlərdə belə təcrübə mövcud olmuşdur, bir sıra ölkələr belə qanunlarla hərəkət etmişdir. Buna misal olaraq, erməni "Təhcir"inə bənzəyən 1941-ci ilin 7 dekabr «Pearl Harbour»a göstərmək olar. Həmin gün Yaponiya «Pearl Harbour»a qəflətən hücum edərək Amerikan donanmasını məhv etmişdi. Bu hadisə sadəcə Yaponiya - ABŞ müharibəsinin bir olayı idi.

Amerika Birləşmiş Ştatları qorxurdu ki, ölkəsinin yapon əsilli vətəndaşla Yaponiyaya kömək edə bilər. ABŞ prezidenti Franklin Ruzvelt 19 fevral 1942-ci il tarixli 9066 saylı bir qərarla yapon əsilli amerikalıların ABŞ-ın qərb bölgəsindən Şərq bölgəsinə 2 günə köçürdü. Köçmək istəməyənləri zorla köçürdü. Ölkənin sahildən uzaq yerlərində bu köçkünlər üçün həbsxanaya bənzər bir düşərgə qurdu. Bu baxımdan ABŞ Qərb dövlətləri və digər dövlətlər Osmanlı dövlətinin «Təhcir» hərəkətini başa düşməlidirlər. Yenə həmin müharibənin başlanğıcında SSRİ-nin hər yerindən sovet almanlarının Sibirə uzaq arxaya sürgün edilməsi.

Erməni köçü humanist qanunlar əsasında yerinə yetirilmişdir. Ermənilərin yollarda malı - mülkü, həyatı qorunmuş son məntəqəyə - Suriya torpaqlarına çatdırılmışdır.

Təhcir qanunun humanistliyini oxuculara çatdırmaq məqsədə uyğundur.

**27 may 1915-ci il tarixli «Təhcir» («Köç») qanunu ilə nəzərdə tutulmuşdur:**

**1. Köçürülməsi lazım bilinənlər gedəcəkləri yerlərə qədər təhlükəsiz şəkildə aparılacaqdırlar;**

**2. Yollarda onların rahatlıqları, can və mal təhlükəsizlikləri təmin olunacaqdır;**

**3. Getdikləri yerlərdə tam yerləşdirilmələrinə qədər özlərinə köçkün ödənişindən, güzəranlarını və yeyib-içməklərini təmin etmək üçün hər cür yardım ediləcəkdir;**

**4. Maddi vəziyyətlərinə uyğun olaraq onlar mal və ərazi ilə təmin olunacaqlar;**

**5. Hökumət tərəfindən ev tikiləcəkdir;**

**6. Əkinçilərə toxumluq, sənətkar olanlara öz sənətləri ilə bağlı alətlər veriləcəkdir;**

**7. Özləri ilə apara bilmədikləri malların əvəzi malla ödənəcəkdir. Və bu olmadığı təqdirdə onlara həmin malların qarşılığı olaraq pul ödənəcəkdir;**

**8. Boşaldılan şəhər və qəsəbələrdə bulunan ermənilərə aid daşınmaz malların siyahısı tutulacaq, onların qiymətləri və miqdarı müəyyən edilərək köçkünlərə veriləcəkdir;**

**9. Köçkünlərin istifadəsində olan zeytunluq, tutluq, meyvə bağları, portağal bağçaları, dükanlar, fabrikalar, anbar və digər gəlir gətirəcək daşınmaz mallar satılacaq və ya kirayə veriləcək. Ondan gələn gəlir həmin köçkünlərə, mal sahiblərinə veriləcəkdir.**

Qəbul olunan «Təhcir» qanunun səhəri günü yəni 28 may 1915-ci ildə köçürülənlərin rahatlıqları, yedirilib-içirilmələri ilə bağlı əlavə tədbirlər də nəzərdə tutulurdu. Onları da belə sıralamaq mümkündür:

- *Köçürülməsi lazım olan xalqın göndərilmə işi yerli idarə məmurlarının ixtiyarına verilir;*
- *Köçürülənlər bütün heyvan və daşına biləcək mallarını özləri ilə apara bilərlər;*
- *Köç sırasında köçkünlərin can, mal təhlükəsizliklərinə, yedirilmə və istirahətlərinin təşkil edilməsinə keçdikləri yollarda çalışan məmurlar cavabdehdir;*
- *Köç sonunda köçkünlər əlverişli şəhər və kənd yerlərində yerləşdirilməlidir;*
- *Yeni yerləşmə bölgəsində köçkünlərə veriləcək ərazi yoxdursa onlar dövlət mallarından və əkinlərindən faydalanacaqlar;*
- *Müvəqqəti yerləşmə bölgəsinə yerləşincəyə qədər möhtac olanlara uyğun miqdarda hökümət yardımı ediləcək;*
- *Əkinçilik işləri ilə məşğul olanlara və sənətkarlara uyğun miqdarda texnika veriləcək və sərmayə ayrılacaqdır.*

Ermənilər Osmanlı dövlətinin verdiyi qanun və qərarları həmişə saxtalaşdırmağa çalışmışlar və əhalinin bu şəkildə ərazi dəyişdirilməsini «soyqırım» adlandıraraq böyük bir millətə türk millətinə böhtan atmışlar.

Qeyd etmək lazımdır ki, həm dövlət, həm də ictimai qəzetlərdə «Köç» qanununun maddələri şərh edilmişdir. O cümlədən erməni qəzetləri də buna geniş yer vermişdilər. «Hayrenik» qəzeti həmin maddələri şərhi ilə birlikdə dərc etmişdir.

Birinci maddədən göründüyü kimi burada nəzərdə tutulurdu ki, köç dövründə ordu və digər hərbi birliklərin rəhbərləri köçkünləri getdikləri yerlərə təhlükəsiz çatdırmalıdırlar. Belə də olmuşdur. «Təhcir» («Köç») qanunun bir xüsusiyyəti də ondan ibarət olmuşdur ki, burada erməni kəliməsi işlənməmişdir. Qanunda göstərildiyi kimi imperatorluq hüdudları içərisində hökumət icraatına qarşı çıxan, əmrlərə itaət etməyən, silahlı müqavimət edən, düşmənə casusluq edən hər kim varsa, ona qarşı görülmüş tədbir idi. Birinci Dünya müharibəsində bu işləri görən kimlər idi. Birinci növbədə ermənilər fürsətdən istifadə edib «Ermənistan dövləti» qurmaq naminə öz dövlətinə asi çıxmışlar. Vətəni qoruyan türk ordusunu arxadan vurmuşlar. Türk hökuməti bu səbəbdən də məcburiyyət üzündən lazım olan tədbirləri görmüş, «Təhcir» qanununu tədbiq etmişdir.

---

[53] Erməni «genosidi»nin mənbəyi -«Türk dünyası tarix dərgisi», 1987, № 2.

Türk Qurtuluş Savaşının davam etdiyi illərdə ermənilər 27 may 1915-ci il tarixli «Təhcir» qanununun baiskarı hesab etdikləri Osmanlı dövlət adamlarına sui-qəsd edirdilər. 15 mart 1921-ci ildə keçmiş Daxili İşlər Naziri Tələt Paşa Berlində Soğomon Teyleryan adlı bir terrorist tərəfindən öldürülmüşdür. Həmin ilin 5 dekabrında Xarici İşlər Naziri Səyid Halim Paşa Romada Arşavir Şirak tərəfindən öldürülmüşdür. 17 aprel 1922-ci ildə İttihad və Tərəqqi partiyasının fəallarından olan Bahəddin Şakir və Camal Əzmi Bəylər Berlində Aram Yergenyan tərəfindən qətl edilmişdir. 21 iyul 1922-ci ildə 4-cü ordu komutanı Camal Paşa və onun yavərləri Nüsrət və Sürəyya Tiflisdə iki erməni terrorçusu tərəfindən öldürülmüşdür.

Yeri gəlmişkən, Camal Paşa o zaman oğlu Behcət Camal bəyə məktubunda yazmışdır: «Mənim ermənilərə nə qədər yaxşı davrandığımı hamıdan çox bugünkü erməni patriki Zaven Əfəndi bilir. 1915-ci ildə dekabr ayında İstanbula gəldiyim zaman onun özü «Pera Palas» otelində məni ziyarət etdi. Bütün ermənilərin mənə təşəkkürünü çatdırdı». Bu sətirləri yazan şəxs ermənilər tərəfindən qəddarcasına öldürüldü.

Qanun ağır şəraitdə olsa da, insanlıqla və məsuliyyətlə yerinə yetirildi. Ancaq bütün ölkəni bürüyən sərt qış və müharibə ucbatından, yol və daşıma vasitələrinin azlığı, qida və dərman çatışmazlığı nəticəsində Daxili İşlər Nazirliyinin Baş Nazirliyə verdiyi 7 dekabr 1916-cı il raportuna görə, cəmi 703.000 nəfərin köçürüldüyü, bunlardan 300.000 nəfərin yollarda və yeni yaşayış məskənlərində öldüyü bildirilirdi.

İndi araşdırılmışdır ki, bu teleqramlar saxtadır. Bunu ermənilər təşkil etmişlər. Göründüyü kimi, soyqırım olduğu iddia edilən hadisə əslində ermənilərin müharibə zonalarında öz başçılarının hərəkətləri ucbatından ucdantutma qırılmaqdan qorunması üçün köçürülməsindən başqa bir şey deyildir. Bütün tarixi həqiqətlər göz önündə olduğu halda, bəzi fanatik ermənilər və onları dəstəkləyənlər hələ də bu əsassız iddialarla fəryad qoparmaqdadırlar.

Yalan uyduran ermənilər özləri də yaxşı bilirlər ki, onlar tabeliyində olduqları dövlətə qarşı xəyanət etdilər, müharibə aparan türk dövlətinin əleyhinə üsyanlar törətdilər, günahsız insanları qırdılar. Ancaq bunun əvəzində türklər daim onlara qarşı lütfkarlıq, xoş niyyətlilik göstərdi. Bütün hallar xarici dövlətlərə də yaxşı məlumdur. Ötən dövrdə elm adamlarının dövlət arxivlərindəki bu məxfi sənədlərlə tanış olması nəticəsində həqiqətlər bir daha aşkarlandı. Osmanlı daxilindəki erməni əhalisi, müharibə zamanı ermənilərin davranışları, xəyanətə yol verməları, arxada qarışıqlıq yaratdıqları üçün köçürüldükləri və heç bir soyqırım faktı olmadığı təsdiq edilmişdir.

Guya şikayət mövzusu sayıla biləcək hadisələrin ermənilər və onları təhrik və təşviq edən xarici qüvvələr tərəfindən uydurulduğu üzə çıxmışdır. Bütün bunlara baxmayaraq, həqiqətlər gizlədilərək yalan iddialar üstündə israr olunursa, bu yanlışlıq içində olan xəstə ruhluların və ağılsızların öz problemi sayılmalıdır .[54]

İngilis yazıçısı Dikson-Conson qeyd edir: «Aydındır ki, Türkiyə hökuməti öz rabitə yollarının təhlükəsizliyindən narahat idi. Onun qarşısında üsyançı təbəqələrini əməliyyat zonasından uzağa köçürmək və orada arxada saxlamaqdan başqa çıxış yolu yox idi. Labüd olan bu ehtiyat tədbiri ermənilər tərəfindən qaldırılan çoxlu iğtişaşlara səbəb oldu. Yerlərdə qalan müsəlmanlar müdafiə olunmaqda aciz idilər. Çünki nizami hissələr, polisin və cavanların çoxu cəbhədə idilər. Qiyamçıların Vanda törətdikləri vəhşiliklərdən xəbər tutan əhalini qəzəb bürüdü və onlar öz həyatları və ailələrinin həyatı üçün qorxurdular.»

Yazıçı göstərir ki, türk öz problemlərindən danışmağı mənliyinə sığışdırmır. Ancaq «erməni tərəfdarları» öldürülənlərin sayını şişirtmək və dəfələrlə təkrar etmək yolu ilə ictimaiyyəti qorxuya sala bildilər.

Şübhəsiz ki, Türkiyə hökumətinin tədbirlər görməsi vacib idi. Bu məqsədlə təhcir «yerdəyişdirmə» tədbiri seçildi. Təəssüf ki, bu söz bəziləri tərəfindən ermənilərə qarşı qırğın hadisəsi kimi qələmə verilmişdir.

Yuxarıda qısaca qeyd edildiyi kimi, silahlı erməni təcavüzlərini qabaqlamaq hüriyyət və istiqlalının keşiyini möhkəmlətmək üçün Osmanlı dövləti tədbir həyata keçirməli oldu. 1915-ci il mayın 27-də «Köçürtmə və yerləşdirmə haqqında» qanun verdi. Bu qanuna görə hökumətə və asayişin təmin edilməsinə qarşı silahlı təcavüz olarsa, ən şiddətli şəkildə cavab verməli, orduya qarşı təxribata və casusluğa görə o rayonun əhalisi qruplarla və ya kütləvi şəkildə başqa rayonlara köçürülüb yerləşdirilməli idi.

Ayrıca təlimatda daşınması mümkün olan malların köçürülənlərin özləriylə götürülməsinə icazə verildiyi göstərilir.

Türk hökuməti köçürtmə qərarını alarkən üsyana qoşulmayan, asayişi pozmayan əhaliyə qarşı yerlərdə heç bir tədbirə lüzum görməmişdi.

Təhcir hadisələrinin əsl cavabdehləri, şübhəsiz Rusiya, İngiltərə və Fransa olmuşdur. Xüsusilə Rusiyanın Osmanlı dövlətindən alınan yerlərdə suveren erməni dövləti yaratmaq vədi erməni təşkilatlarını bu məsələyə daha da həvəsləndirmişdi. Ancaq Rusiyanın əsl məqsədi ermənilərdən istifadə edərək özləri üçün cənub dənizlərinə yol açmaq idi. Bunu rus çarı öz bəyanatında açıq qeyd etmişdi. Erməni təşkilatçıları bu həqiqəti anlamadan Rusiyanın vədlərinə kor-koranə inanmışdılar. Ermənilərin müharibə zamanı xəyanətinə baxmayaraq, Osmanlı hökuməti təhcir olunan ermənilərin yerləşdirilməsi, hətta sağlamlıqları ilə əlaqədar tədbirlərin həyata keçirilməsinə dair xüsusi təlimat vermişdi.

Ermənilərin təhciri bütün dünya dövlətlərinə genosid kimi göstərilməsi inandırıcı olmadığına baxmayaraq, onlar yenə də təhcir məsələsini ortaya atmaqla müəyyən şeylər əldə etməyə çalışırlar.[55] Vəziyyətdən çıxış yolu tapan Osmanlı dövləti iki tədbir həyata keçirdi: cəbhə xətlərində ermənilər tərkisilah edilib evlərinə buraxıldı; cəbhə xətlərində yerləşən erməni əhalisi imperiyanın digər vilayətlərinə - Cənubu Anadoluya, Suriyaya, Livan, Fələstinə və sair yerlərə köçürüldü. Ermənilər köçərkən bütün əşya, mal-qaralarını özləri ilə aparıb daha əlverişli torpaqlarda yerləşdilər.

Yeri gəlmişkən, bir epizodu qeyd etmək lazım gəlir: 1946-cı ildə Suriyadan Sovet Ermənistanına köçən bir erməni Quqark rayonunun Arçut kəndində ustalıq edirdi. O, ağlayaraq deyirdi: «Sovet təbliğatına aldandıq, yalnız onu demək kifayətdir ki, Suriyada 12 hektar bağım var idi».

---

[54] Elnur Paşa - Əfsanələrə söykənən ideologiya.-«Yeni Azərbaycan», 08.10.2002, № 190 (1418).
[55] Erməni genosidinin mənbəyi».- Türk dünyası tarix dergisi, İstanbul, 1987, № 2.

Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyası daxilində ermənilərin köçürülməsi müharibənin qanunları üzündən irəli gəlmişdi. Bu köç heç də təkcə erməni satqınlığı ucbatından olmamışdır. İkinci Dünya müharibəsində Sovetlər hökuməti də özünün alman əhalisini ərazisinin Qərbindən Şərqinə köçürmüşdür.

Ermənilərin köçürülməsi haqqında Osmanlı dövlətinin 14 may 1915-ci il tarixli qanunu bir qədər gec də olsa, hər halda yerində verilmişdi ki, milyonlarla türkün həyatının xilas edilməsinə, dövlətin isə təhlükəsizliyinin möhkəmləndirilməsinə kömək etmişdi. Türk ordusu bu köçürmədən sonra cinahlardan və arxadan tam arxayın olaraq döyüşə bilmişdir. Türk milləti ancaq bu köçürmə sayəsində məhv olmaqdan xilas edilmişdir.

**Bu baxımdan Mustafa Kamal Atatürk Amerika jurnalisti Klarensanın** ermənilər barədəki sorğusunda verdiyi cavab bir daha ermənilərin satqınlığını sübut edir. Müsahibə 24 fevral 1921-ci ildə «Strit» qəzetində dərc edilmişdir.» Ermənilərin köçürülməsi qərəzkarlar (Qərb dövlətləri nəzərdə tutulur - red.) tərəfindən yaradılmış nəhəng yipertrofiyaya nümunə olmaq kimi dəyərləndirilə bilər.

Çar ordusunun böyük hücumunun başlanğıcında daşnaq erməni komitəsi bizim ordunun arxasında erməni əhalisi içərisində qiyam qaldırdı. Say və silahlı qüvvələr cəhətdən üstün olan düşmən qarşısından geri çəkilməli olduq, biz həmişə iki atəş arasında qaldıq. Bizim araba karvanlarımızı və yaralı dəstələrimizi amansızcasına məhv etdilər, arxada olan körpülər və yollar dağıdılırdı, türk kəndlərində isə terror hökm sürürdü.

Bu cinayətlərin günahkarları, bandalar və imkanlı ermənilərdən formalaşmış dəstələr silah gəzdirirdilər. Onlar erməni kəndləri tərəfindən silah, sursat və ərzaqla təmin edilirdi. Bu təminat hələ dinc dövrdə böyük dövlətlər tərəfindən ermənilərə verilmiş güzəşt və imtiyazlardan istifadə edilərək həyata keçirilmişdir.

Uzaq İrlandiyada aparılan sülh şərtlərində İngiltərənin fəaliyyətini sakitliklə seyr edən dünya ictimaiyyəti ermənilərin köçürülməsi barədə məcburən qəbul edilmiş qərarla əlaqədar bizdən narazılıq etmək hüququna malik ola bilməz».

Bu son mülahizə aşağıdakı o dövrün mətbuat və canlı şahidləri tərəfindən öz təsdiqini tapır:

1. Doyçe Alqemayrıe Zayrunq (Deutsch Allgemeine Zeitung) qəzetinin 1921-ci il tarixli 291-ci sayında bu barədə belə yazılmışdı: «Ermənilərdən çox danışılır, lakin öldürülən çoxsaylı türklərdən heç danışılmır. Ermənilərin türklərə etdikləri zülmlərdən də, qırğınlardan da çox az danışılır. Məsələn, dəfələrlə kəndin bütün türk sakinlərinin gözləri ermənilər tərəfindən çıxarılmışdı. 1915-ci ilin aprelində (yada salın, bu tarix «ermənilərin soyqırımı» ilə necə də eyni vaxta düşür.-İ.M.K.M) türk əsirlərinin daşınması üçün istifadə olunan vaqonlar stansiyalarda günlərlə «unudulurdu»(!). Bir müddət sonra vaqonların qapıları açıldıqda, türk əsirlərinin cəsədləri ilə dolu olduğu aşkarlanırdı. Belə düşmənlərə qarşı türklərin məzlum bir quzu kimi olmaları mümkün deyildi...»

2. Rus ordusunun Ərzurum və Dəvəboynu istehkam mövqeyi komandiri olmuş podpolkovnik Tvyordoxlebov sonralar göstərmişdi ki, rus zabitləri müdaxilə etməsəydilər, türk ordusu Ərzurumu geri aldığı zaman şəhərdə bir nəfər belə türk tapmayacaqdı. Erməni liderləri bu vəhşiliklərindən iftixarla danışırdılar. ABŞ-da dorc olunan «Hnçak» qəzetinin 24 may 1915-ci il tarixli sayında cəbhə bölgələrindən alınan erməni məlumatlarında deyilirdi: «Vanı əldə etdik, qalanı aldıq. Vanda 1.500-ə qədər qadın və uşaqdan başqa türk qalmayıb». Bununla ermənilər Van şəhərinin türk əhalisini qırdıqlarını etiraf edirdilər .

3.18 may 1915-ci ildə Van alındıqdan sonra rus çarı Bayazet cəbhəsinin komandanına teleqram göndərərək demişdir: «Van əhalisinə fədakarlıqlarına görə mənim təşəkkürümü çatdır».

Yeri gəlmişkən, özünü humanist kimi və pravoslav təriqətinə himayədarlıq edən çar II Nikolay nə üçün ermənilərin Vanda 30 min günahsız dinc əhalinin-müsəlmanın kütləvi qətlə yetirilməsi barədə təəssüf hiss keçirmədi.

Axı, bütün xristian təriqətləri və İncil günahlı, günahsız insanların qətlə yetirməsinə icazə vermir. Atalar burada deyib: «Gülmə qırıq qasığa. Bir gün gələr başına. Həmin çarın özü də ailəsi ilə birlikdə (7 nəfər) günahsız qətlin qurbanı oldu.

Rus çarının yuxarıdakı teleqramına Paris qəzeti «Tempo» 13 avqust 1915-ci ildə səs verərək yazmışdır: «Müharibənin ilk anında Aram rahatlığını və işini buraxaraq silaha sarıldı və Vanda üsyana rəhbərlik etdi. İndi vilayəti tutmuş Rusiya müharibədə özlərinə parlaqlıq qazanmış ermənilərə təşəkkür əlaməti olaraq Aramı qubernator təyin etdi.» «Sole de Midi» qəzeti 9 fevral 1916-cı ildə yazırdı: «Bizə gələn məlumata görə Sazonov Dumada bəyan edib ki, 10.000-ə qədər erməni başda Aram Manukyan olmaqla Vanda türk ordusuna qarşı bir ay müqavimət göstərib, rus ordusunun gəlişinə qədər onu geri oturdub.

30.000 erməni inqilabçıları Sasun dağlarında rus ordu hissələrinin və erməni könüllülərinin gəlməsini gözləyərək 9 aydır ümidsiz mübarizə aparır. Min erməni, Kilikiyada ingilis-fransız köməyini gözləyir». Həmçinin Sazonov demişdir: «Ermənilər bu müharibədə ruslarla birlikdə Osmanlı imperiyası ilə vuruşurlar».

Bir sözlə, şübhə yoxdur ki, Türkiyə erməniləri türk dövlətinə qarşı düşmən mövqeyində dayanmışlar. Onlar özləri bunu sonradan Sevr danışıqlarında boyunlarına almışlar.

4. Yuxarıda qeyd edilən nöqteyi-nəzərdən o dövrdə rürk baş qərargahının rəisi general Bronsartın xatirələrindən «Doyçe Alqemayrıe Çaytunq» qəzeti (4 iyul 1921-ci il) yazmışdır: «Ermənilərin yaşadıqları rayonlar tutularkən aşkar oldu ki, orada külli miqdarda vərəqələr, fitnəkar kitabçalar, döyüş sursatı, partlayıcı maddələr və s. sübut edirdi ki, üsyanların hazırlanması və maliyyələşdirilməsi qabaqcadan ruslar tərəfindən olmuşdur. Əldə məlumat vardır ki, İstanbulda türk dövlətinin yüksək rütbəli məmur və hərbçilərinə sui-qəsd hazırlanmışdır.

Müsəlmanların silahı yox idi; ordusu isə cəbhələrdə vuruşurdu ona görə ermənilərin əlinə müdafiəsiz müsəlmanları dəhşətcəsinə qırmaq fürsəti düşmüşdür. Ermənilər ruslarla qarşı dayanmış Şərq ordusunun cinahlarından və arxadan hücumlarına hədd qoymurdular, onlar bölgənin dinc müsəlmanlarını məhv edirdilər. Mənə türklərin adına yazılmış olan qəddarlıqlardan ermənilərin bir çox üstün vəhşilikləri məlumdur».

5. Türkə qarşı ciddi xof münasibətdə olan Xasse Arfa yazır: «1914-cü il-də Sarıqamışda türklərin məğlubiyyətindən və ruslar tərəfindən türk torpaqlarının işğalından sonra tərkibi Qafqaz və Türkiyə ermənilərindən ibarət çoxlu könüllü alaylar gəldi. Bunlardan (alaylardan-red.) birinin komandiri, əvəzi olmayan qaniçən Andronik idi... Bu ermənilər kürdlər tərəfindən

öldürülmüş həmyerlilərinin intiqamını almaq məqsədilə görünməmiş vəhşiliklər törətdilər. 1915 və 1918-ci illər arasında onlar tərəfindən Türkiyənin şərq vilayətlərində 600.000 kürd öldürülmüşdür.»

Bir sözlə, ermənilərin köçürülməsinə səbəb, onların düşmən dəyirmanına su tökmələri olmuşdur. Yollarda onların əzab-əziyyətlərə düçar olması təbiidir. Qeyd etmək yerinə düşər ki, 1988-1990-cı illərdə azərbaycanlılar deportasiya edilərkən onları ermənilər yollarda güllə-baran etdilər, götürdükləri əmlakları, yanların da olan pul və qızıl əşyaları müsadirə etdilər, Sovet ordusunun zirehli maşını ilə müşayiət edilməsinə baxmayaraq, onlar-azərbaycanlılar (250 min) 500 itki Azərbaycan torpaqlarına çatdılar. Həmin vaxt nə müharibə vardı, nə də üsyan, Sovet hökuməti isə dünyaya qapı açmışdır. Ancaq müharibənin qanunları vardır: qarsı qarşıya vuruşan tərəf bir-birini məhv etmək üçün hər vasitədən istifadə edir. Belə bir məqamda günahsız qurbanlar olur. Məsələn, Xirosima və Naqasaki şəhərlərinin əhalisinin atom bombası patlayışı nəticəsində həlak olması və ya alman təyyarələri tərəfindən bombalanan Londonun dinc əhalisinin həlak olması müharibə vaxtı baş verən və sair hadisələrdə həlak olan insanlar müharibə qurbanlarının əlamətidir Sadalanan hadisələrin qurbanları əsgər deyil, sivil əhali idilər.

Türkiyə isə öz daxili düşmənini öldürmək istəməmiş, onların yerini dəyişdirmişdir. Dövrün şərait və imkanları öyrənilərsə, yollarda həlak olanları soyqırımı adlandırmaq həqiqətdən uzaq və ədalətsizlikdir. Belə olduğu təqdirdə türklər və azərbaycanlılar da ermənilər tərəfindən soyqırıma uğradılmasını bəyan etməlidirlər.

1915-1917-ci illərlə cəbhə xəttlərindən köçmüş ermənilər öz havadarları tərəfindən dəstəklənərək özlərini soyqırıma məruz qalmış kimi qələmə verirlər. Bu yalançı mifin məqsədi Türkiyədən torpaq və təzminat almaq, «Böyük Ermənistan» adlı təcavüzkar xəritəni praktik olaraq gerçəkləşdirməkdir. Bu baxımdan həmişə Şərqə düşmən kəsilən Qərb dövlətləri yuxarıda deyilən məqsədlərə çatmaq üçün yalançı mifdən »erməni soyqırımı» mifindən istifadə etmək təşəbbüsündə bulunurlar.

Yeri gəlmişkən, tarixən ermənilər heç vaxt yaşadıqları ərazilərdə müstəqil dövlət qura bilməmişlər, tabe olduqları dövlətə isə asi çıxdıqlarından sürgünlərə məruz qalmışlar. Bu mülahizə aşağıdakı tarixi faktlarla sübut edilə bilər.

Deportasiya ermənilərin alınlarına yazılmış təbii xəstəliklərdən biridir ki, bu xəstəliyə onlar alışmışlar və zaman-zaman bunsuz yaşaya bilmirlər. Nəsə çəkməyə adət edən insan kimi ermənilər də deportasiyaya adət etmişlər. Bu adəti isə təkrar dadmaq üçün yeganə bir yol tapmışlar ki, bu da erməni məkri, erməni satqınlığıdır. Bəzi insan və xalqlara məxsus olan bu iki ünsür erməni xalqında daha qabarıq şəkildə büruzə verir.

Ermənilərin hansı yuvanın quşu olduğunu yaşadıqları dövlətlərdə onlara münasibətdən də söyləmək olar. Belə ki, yaşadıqları ərazilərdə mövcud olan dövlətin tərkibində əsikirlər və sonra ona asi çıxırlar. Həmin dövlət məcbur olur ki, cəza tətbiq etsin. Cəzanın isə asan və müəyyən qədər humanist forması deportasiyadır.

Qeyd etmək lazımdır ki, həmişə dindən (xristian dinindən) istifadə edən ermənilər dinini qəbul etdikləri Bizans imperatorluğu dövründə daha ağır yaşayış tərzi keçirmişlər. Onların xəyanətlərinə gorə tez-tez yerlərini dəyişmişlər.

Bizans imperatoru II Yustinian erməniləri müxtəlif ərazilərə köçürmüşdü. Sasani hökmdarı II Şapur (VI əsr) 700 ermənini İranın ərazisinə, Bizans imperatoru Mavriki (582-602-ci illər) 570-591-ci illər arasında İranla gedən müharibədə İrana gəldi və sərhəd Ermənistanın Zanq və Qarniç çaylarından müəyyən edildi. Mavriki tutduğu ərazilərdən erməniləri təcili olaraq təmizlədi, onları Frakiyaya və digər bölgələrə sürgün etdi.

VIII yüzillikdə V Konstantin ermənilərin kütləvi köçürülməsini təşkil etmişdir.

VII əsrdə ərəblər 642-ci ildə Dvini tutdular, 12 min erməni öldürdülər və 35 min ermənini əsir götürdülər, digər çox saylı erməniləri sonrakı illərdə ərəb ölkələrinə köçürmüşlər.

X əsrdə imperator II Vasili erməniləri Makedoniyaya, Fessaliyaya, Bolqarıstana köçürmüşdür.

Kilikiyaya səlib yürüşləri zamanı çoxsaylı erməniləri Kiprə, Kritə, İtaliyaya, monqolların istilası dövründə isə Kazana və Həştərxana köçürülmüşlər.

I Şah Abbas imperiyanın ucqarlarından erməniləri İranın mərkəzi bölgələrinə köçürmüşdür. İranda yaşayan ermənilər Türkmənçay müqaviləsindən sonra külli miqdarda Rusiya imperiyası tərkibinə daxil olan İrəvan, Qarabağ, Gəncə xanlıqları ərazilərinə və Gürcüstanın Azərbaycanlılar yaşayan ərazilərinə köçürülmüşdür.

Yeri gəlmişkən, mühacir ermənilər üçün Rusiya İrəvanda, Naxçıvanda, Qarabağda 200 min desyatin ən yararlı torpaq sahəsi ayırdı. Onlardan 20 il vergi alınmayacağını vəd etmişlər.

Bununla yanaşı, Rusiya 1788-ci ildə Krımdakı bütün erməni ailələrini Rusiyanın müxtəlif ərazilərinə köçürüb, onların yerinə rusları yerləşdirdi.

Ayrı-ayrı dövlət və dövlət xadimlərinin ermənilərə münasibətlərindən də aydın olur ki, erməni harada olursa-olsun, imkan düşən kimi ermənilik-satqınlıq xislətini büruzə verir. Bu, Osmanlı imperatorluğunda daha qabarıq və daha dəhşətli olmuşdur.

Hamıya məlumdur ki, erməni terror ordusu dünyanın əksər dövlətlərində formalaşır və istədikləri dövlətlərin ərazilərində terror aktları həyata keçirir. Bu həmin yaşadıqları dövlətə asi çıxmaq deyildirmi?

## OSMANLI DÖVLƏTİNİN BÖLÜŞDÜRÜLMƏSİ PLANLARI

Birinci Dünya müharibəsindən qabaq Osmanlı imperiyasının üzərində üçlərin (Rusiya, Fransa və İngiltərə) nüfuz dairəsi və ermənilərə muxtariyyat verilməsi siyasəti pərdəsi arxasında birbaşa onun torpaqlarının bölüşdürülməsi danışıqları gedirdi. Bu danışıqlar məxfi surətdə Antantanın aralarında və tək-tək öz daxillərində gedirdi.

Elə ki, Türkiyə ermənilərin köçürülməsinə qərar verdi, Rusiya Kilikiya da daxil olmaqla ermənilərin Osmanlı imperiyasında yaşayan bütün ərazilərə sahib olmaq iddiasını qaldırdı. Rus çarı demişdir: «Mən onlara (ermənilərə) yenidən

türk əsarəti geydirə bilmərəm. Ermənistanın mənim ölkəmə birləşdirilməsinə gəldikdə? Bu yalnız ermənilərin özlərinin arzularının açıq və aydın ifadə edilməsində ola bilər əks təqdirdə mən onların muxtariyyat idarəçiliyini təmin edə bilərəm».

Ancaq çar 15 mart 1915-ci ildə Kilikiyanın Fransaya verilməsinə də razı oldu.

**FAKT: Ərzurum rus ordusu tərəfindən işğal olunduqdan sonra komendantlığın ermənilərin Ərzurumda yaşamaq hüququnu rədd edən əmri verilmişdir. Həmçinin II Nikolay Tiflisdə 1914-cü ildə ermənilərə müstəqillik verilməsi vədinin əksinə olaraq 1915-ci ilin axırında demişdir: «Rusiyada Yakut məsələsi olmadığı kimi, erməni məsələsi də yoxdur». Buradan Rusiyanın əsl niyyətlərini təsəvvür etmək mümkündür.**

Osmanlı imperiyasının bolüşdürülməsi ingilis-rus (1915), ingilis-fransız (3 yanvar 1916), fransız-rus (26 aprel 1916) və ingilis-rus (may 1916) danışıqlarında müzakirə edilmiş və qərara alınmışdır.

Maraqlıdır ki, bu görüşlərdə ermənilər və Ermənistan haqqında heç bir danışıq getməmişdir. Ermənistan kimi nəzərdə tutulan ərazinin Fransa və Rusiya arasında bölüşdürülməsi planlaşdırılmışdır. Bu onu göstərir ki, bu dövlətlərin ermənilərin köçürülməsi barədə Türkiyənin qərarına heç də mənfi münasibət bəsləməmişlər. Bu erməni kartı üzərində mənfəət güdmək məqsədi ilə Türkiyəyə qarşı hərbi fəaliyyətin aparılması idi.

Türkiyənin bölüşdürülməsi danışıqlarında Fransa tərəfdən Beyrutda Fransanın baş konsulu işləmiş Jorj Piko, İngiltərə tərəfdən-Şərq üzrə ixtisasçı Mark Sayks, Rusiyanın Xarici İşlər Naziri Sazonov iştirak etmişdir. Əldə olunmuş razılaşma Sayks-Piko müqaviləsi adlandı.

Rusiya və İngiltərə nümayəndələri arasında ilk görüş 12 mart 1915-ci ildə oldu. Danışıqlar İstanbulun və Boğazların (Bosfor-700 m, Dardanel-1300 m) Rusiyaya verilməsinə aid idi. İngiltərə o şərtlə razılaşmışdır ki, ticarət gəmilərinin maneəsiz olaraq Boğazlardan keçmələri və İranda bitərəf adlanan rayonun İngiltərənin nüfuz dairəsinə verilməsi nəzərdə tutulmuşdur.

3 yanvar 1916-cı ildə fransızlar və ingilislər razılığa gəldilər ki, İngiltərə İraqın cənub bölgəsini, Bağdad və Bəsrə daxil olmaqla almalı, Beyrut və Suriyanı Fransa götürməli, orada başçı Əmir Məkki Hüseyn olmaqla hər iki dövlətin protektoratı yaradılmalı idi. Fələstin beynəlmiləlləşdirilir və o üçbucaq şəklində Suriyadan uzanaraq Kilikiya və Sivaşa qədər ərazilər Fransaya aid edilirdi.

26 aprel 1916-cı ildə Fransa və Rusiya razılaşdılar ki, Rusiya ingilis-fransız danışıqlarını tanıyır, özü isə Ərzurum, Trabzon, Van, Bitlis və Bitlisdən Qara dəniz sahillərinə qədər müəyyən əraziləri götürür. Bundan başqa, Rusiyaya Muş, Siirt, Dəclə çayı vadisi verilirdi. Bunun müqabilində Aladağ və Qeysəriyyə, Yıldızdağ və Zara, Etin və Harput arasındakı ərazilər Fransaya aid edilirdi.

Nəhayət, rus-fransız sövdələşməsinə oxşar 16 sentyabr 1916-cı ildə rus-ingilis sövdələşməsi bağlandı.

Üçlər ittifaqına qoşulmuş İtaliyaya isə «Osmanlı mirası» (Qərbi Anadolu- red) deyilən ərazidən pay olaraq Antalya verilməli idi. Bundan başqa, İtaliya əlavə bölgə-Aydın (İzmir daxil olmaqla) vilayətini tələb edirdi. Rusiya isə buna etiraz edirdi ki, belə olduqda Türkiyə məhv edilir. Sencanmur danışıqlarına görə (19-21 aprel 1917-ci il) İzmir İtaliyaya verilirdi, ancaq Rusiya buna razı qalmadı və məsələ açıq qaldı. Sonradan isə Aydın vilayətinin Yunanıstana «hədiyyə» edilməsi imkanı yarandı. Türkiyənin işğalından sonra bu vəziyyət İtaliya və onun müttəfiqləri arasında narazılıqlar yaratdı.

Qeyd edilən müqavilələrin danışıqlarında heç bir ölkə erməniləri yada salmadı. Rusiyada inqilab (25 oktyabr 1917-ci il) baş verdikdən sonra, o, müharibədən çıxdı və Türkiyənin Rusiyaya verilməsi nəzərdə tutulan ərazilərində Ermənistan düzəltmək ideyası meydana çıxdı.

Maraqlıdır ki, təxminən 2 noyabr 1917-ci ildə də ingilis hökuməti tərəfindən Fələstin ərazisində yəhudi milli ərazisi adı altında Balfur deklarasiyası irəli sürüldü. İngilislərin bu addımı 1918-ci ilin yanvarında Əmir Hüseynlə razılaşdırılmışdır. Ondan təminat alınmışdır ki, ərəblər yəhudilərə hörmətlə yanaşacaqlar.

Məlumdur ki, Yəhudi dövləti yalnız İkinci Dünya müharibəsindən sonra yarana bildi. Əgər Balfurun planı o zaman baş tutsa idi, Fələstin torpağında bu qədər nahaq qanlar və dəhşətli münaqişələr olmazdı.

Mudros müqaviləsinə görə, türk ordusu tərksilah edilməli və təslim olmalı idi. Müqavilənin şərtləri 30 oktyabr 1918-ci ildən 15 may 1919-cu ilədək yerinə yetirilməli idi. Bu müddət ərzində Fransa Adananı işğal etdi, İngiltərə - Urfanı, Maraşı və Antepi, sonradan bunlar Fransaya verildi. İtaliya əsgərləri Antalya və Konyada, igilislər-Merzifonda, Samsunda, Mosulda və Soryada ağalıq edirdilər.

Müqavilə öz fəaliyyətini 15 may 1919-cu ildə dayandırdı. Həmin vaxt yunan ordusu İzmirə hücum etmişdi.

Mustafa Kamal paşa 19 mayda Samsuna gəldi. Həmin gün milli-azadlıq günü kimi qeyd edilir.

Milli hərəkatın məqsədi 11 sentyabr 1919-cu ildə Sivas konqresində elan edildi. Konqresin qərarı belə idi:

**1. 30 oktyabr 1918-ci ildə Osmanlı dövləti ilə Antanta arasında bağlanmış sərhədlər müqaviləsi yerinə yetirilə bilməz, qeyd edilən sərhəd və torpaqlarda müsəlmanlar çoxluq təşkil edir, Osmanlı ölkəsi vahid** və **tamdır, o parçalana bilməz;**

**2. Osmanlı dövlətinin bütövlüyünün və xalqın müstəqilliyinin cavabdehi kimi xilafət və sultanlıq güclü milli ordunun yaranmasını lazım bilir və xalqın iradəsi ilə rəhbərlik etməlidir;**

**3. Rəhbərlik hər hansı təcavüzü və vətənin hər hansı bir hissəsinə hücumu, həmçinin yunanların və ermənilərin vətənimizin sərhədlərində, Aydın, Manisin, Balıkəsir cəbhəsində müstəqil qurumların yaranmasına istiqamətlənən cəhdləri dəf etməklə qarşılayır;**

**4. Bərabər hüquq çərçivəsində keçmiş vaxtlardan bəri birlikdə (müsəlmanlara-Y.Q.) yaşamış qeyri müsəlmanlara və digər hər hansı icmaya heç bir siyasi imtiyaz verilmir və bu bizim cəmiyyətdə qəbul edilməzdir.**

Konqresin 20 yanvar 1920-ci il qərarı İstanbulda axırıncı Osmanlı məclisində təsdiq olundu.

İngilislər 16 mart 1920-ci ildə İstanbulu tutduqdan sonra parlament buraxıldı, həbs edilmiş deputatlar Maltaya sürgün edildilər. Böyük Millət Məclisi 23 apreldə Ankarada toplandı. O ilk iclasını keçirib Mustafa Kamal paşanı sədr seçdi və milli mübarizə mərkəzi Ankarada yerləşdi.

Mudros müqaviləsinə görə, sərhəd boyu türk ordusunun əsgər heyətini və döyüş sursatını, ölkənin ümumi vəziyyətini Mustafa Kamal paşa səciyyələndirdi.

«Anadoluda iki hərbi inspeksiya təşkil edilmişdir. Müqavilə qüvvəyə minərkən hərbi hissələr tərkisilah edilmiş və qeyri döyüş vəziyyətinə salınmışdır. İkinci inspeksiya dövründə Konya vilayətinin mərkəzində yerləşən hərbi birləşmələr belə vəziyyətdədir:

12-ci ordu Konyadakı ştabı ilə Afon Karahisarda bir diviziyaya (23-cü) malikdir. Dənizlidə yerləşən 17-ci ordunun İzmirdə əsir alınmış 57-ci diviziyası da 12-ci orduya verilmişdir.

2-ci ordunun Ankarada diviziyası (24-cü) vardır, digəri (11-ci) Niqdədir, İzmirdə olan 1-ci diviziya ştabı ilə birlikdə Ankaradakı 25-ci orduya verilib. İstanbulda isə 10-cu Qafqaz diviziyası yerləşir.

Balıkəsirdəki 61-ci ordu və 56-cı diviziya İstanbulda yerləşən 14-cü orduya tabe edilmişdir. Onun ştabı Bandırmada yerləşir.

3-cü inspeksiyanın inspektoru mən idim. Ştabla birlikdə Samsunda yerləşirdik. Mənim sərəncamıma iki ordu verilmişdir. Onlardan biri (3-cü ordu) Sivaşda yerləşir. Ordunun ştabı, 5-ci Qafqaz diviziyasında yerləşən Amasiyadır, 15-ci diviziyanın ştabı Samsundadır, digər 15-ci ordu Ərzuruma hərəkət edir... Onun 9-cu diviziyasının komandanlığı Ərzurumdadır, 3-cü diviziya Trabzondadır. Digər 2 diviziya-12-ci və 11-ci Həsənqala və Bayazit sərhədlərindədir.

Diyarbəkirdə yerləşən 14-cü ordu 2 diviziya ilə sərbəst olaraq bilavasitə İstanbula tabedir. Bu diviziyaların biri (2-ci) Siirtdə, digəri (5-ci) Mardində yerləşirdi.»

Ordu komandiri Kazım Qarabəkir paşa xatirələrində yazır ki, Şərq cəbhəsini qoruyan 15-ci ordunun əsgər heyəti 17.860 nəfərə çatırdı.

Milli Azadlıq müharibəsi bu qüvvələrlə başlamışdır. Əvvəlcə Şərq cəbhəsi təşkil olundu, sonra Qərb cəbhəsi təşkil olundu. O, 11 oktyabr 1922-ci ildə Mudan müqaviləsi ilə qurtardı.

Beləliklə, 19 may və 11 sentyabr 1919-cu ildə öz məqsədini bəyan edən Milli Azadlıq müharibəsi 3 il 4 ay 22 gün davam etdi.

Şərq cəbhəsinin komandanı (1914-1918-ci illər və 1919-1922-ci illər) Kazım Qarabəkir paşa «Bizim azadlıq müharibəmiz» kitabında (memuarında) erməni terroruna dair yazır:

«30 iyun 1919-cu ildə Bayazit cəbhəsinin komandanından məlumat gəldi ki, ermənilər Naxçıvanı tutublar və yerli əhalini qırırlar. Əhali kömək istəyir. Mən Roulinsona (Şərqi Anadoluda İngiltərənin rezidenti-red.) etirazımı bildirdim. O dedi ki, Qafqazda ingilis hissələri qalmayıb, heç bir şey edə bilmərəm. Mən Bayazitdə və Vanda yerləşən 11-ci diviziyanın komandanlığına teleqram göndərdim.

Qarabəkir paşanın yazısında oxunur: «Bu gün (3 iyulda) İstanbul mətbuatında aydın olur ki, Qafqazdan 12 nəfərdən ibarət amerikalı komissiya vəziyyəti öyrənmək üçün bizim şəhərə gəldi. O məruzənin xülasəsində yazılmışdır:

1) Ermənistanda ermənilərin olmadığı halda burada erməni hökuməti yaratmaq məqsədəuyğun deyildir.
2) Ermənistanın maliyyə vəziyyəti aydındır. Maliyyə dəstəyi olmadan hökumət yaşaya bilməz.

Qeyd edilən vəziyyətdə olan Ermənistandan məlumat gəlmişdir: 5 və 6 iyulda ermənilər İrəvanın yaxınlığında böyük türk kəndi Böyük Vəli kəndinə hücuma başladılar, ancaq məğlubiyyətə uğrayaraq 800 ölüm və 1.200 yaralı itkisi verməklə geri çəkilməyi lazım biliblər. Türklər (azərbaycanlılar) 6 pulemyot, çoxsaylı güllə ələ keçiriblər. Türklərin əlinə əməliyyat rəhbəri generalın gizli əmri də düşmüşdür. Orada bütün müsəlmanların öldürülməsi və onların cəsədlərinin Araza atılması əmri verilmişdir. Əmrin imzası-general-mayor Şelkovnikov olmuşdur.

İrəvandan hadisə yerinə 2 ingilis zabiti gəlmişdir, onlar erməni və müsəlmanlar arasında sülh yaratmaq istəmişlər və qeyd etmişlər: «müsəlmanların ermənilərdən qarət etdikləri silah ingilislərə məxsusdur. Türklərdən silahlar alınmış və itmişdir. Müsəlmanlar aydınlaşdırdılar ki, bu zabitlər ingilis paltarı geymiş ermənilər olmuşdur. Ermənilər hazırlaşaraq yenidən hücuma keçmişlər. Heç bir silaha, heç bir vasitəyə malik olmayan ermənilər ingilislərin dəstəyinə arxalanaraq qarşılarına açıq-aydın ümidsiz vəzifələr qoyurdular. Onlar Amerikanın, İngiltərənin və Fransanın köməyi ilə Sivaşı almaq xülyası yaradırlar. Ermənilər İzmiri almış yunanlara müraciət edirlər ki, Qızılirmaqda qarşılaşsınlar, onların əllərini sıxsınlar, İrmakı türk qanı ilə qırmızı bəzəsinlər. Ermənilər və yunanlar kilsələrə toplaşırlar və and içirlər ki, türklərin nəfəsini kəsəcəklər. Görünür ki, bütün sivil dünyası bu «qırmızı günü» gözləyirlər.» (Yazı 8 iyul 1919-cu ilə aiddir, qeyd edilən kitabda, səh.71). Başqa bir məlumatda deyilir:

«8 iyulda ermənilər haqqında bir çox məlumatlar daxil oldu. Onlar müsəlman kəndlərini yandırmağa başlayıblar və sərhədə qədər bütün ərazilərdə bütün əhalinin başını kəsmişlər. Bu gecə Roulinson Həsənqalada oldu. Daxil olan məlumatlar göstərir ki, ermənilərin hərəkatı ingilislərin təşəbbüsü nəticəsində olmuşdur. Mən Roulinsona zəng etdim və tələb etdim ki, Sarıqamışa getsin və informasiyanın həqiqiliyini öz gözləri ilə yəqin etsin, ancaq bununla kifayətlənməyib yazdım:

**a) Qağızmandan və dairədən olan qaçqınlar ermənilərin həmin yerdə müsəlmanları qırmaqları haqqında məlumat verir.**

**b) 4 iyulda (1919 - red.) onlar Qars və Oltu arasında yerləşən Ağcaqalanın 4 kəndinə hücum etmişlər, kəndin birinin əhalisinin başını kəsməklə tam məhv ediblər, qalan 3 kənddən isə 60 nəfərin başını kəsmişlər. Hücum edənlərin sərəncamında beş top, yeddi pulemyot olmuşdur. Onlara komandanlıq edən Arşak adlı şəxs olmuşdur.**

**c) Ermənilər tərəfindən müsəlman kəndi Yüzquşdan olan bacı və qardaş, bacının qızı əsir götürülmüşdür.**

**ç) Ermənilər Qarayurt rayonunda müsəlmanları öldürürlər. Xahiş edirəm baş vermiş hadisəyə təcili olaraq ölçü götürülsün və günahkar şəxsləri məsuliyyətə cəlb edilsin. Hörmətlə, Kazım Qarabəkir».**

İstanbulun işğalı ürəklənmiş ermənilərdə fəallıq yaratdı. İşğal vaxtı ingilislər bütün dünyaya səs salırdılar ki, guya hər yerdə erməniləri qırırlar. Səs-küy altında real olaraq müsəlmanlar məhv edilirdilər. Kazım Qarabəkir paşa 1920-ci ilin fevralında yazırdı: «Bizim ordunun, əhalinin gözü qarşısında bir çox müsəlman kəndləri erməni top və pulemyotların atəşi

altında olurdu. Məlumdur ki, 28 müsəlman kəndi qeyd edilən ərazidə darmadağın edilmişdir, 200 nəfər öldürülmüşdür, əmlakları talan edilmişdir, mal-qara aparılmışdır, Gümrüdən gənc insanlar Qarsa qovulmuşdur, yüzlərlə qaçqın qadın və uşaqlar dağlara çəkilmişlər, müsəlmanların həyatına, əmlakına, şərəfinə və ləyaqətinə yönəlmiş bu sui-qəsd davam edir».

28 mart l920-ci ildə Qarabəkir paşa Mustafa Kamal paşaya aşağıdakı məzmunda teleqram göndərmişdir: «Agentur məlumat alınmışdır: ...19 martdan başlayaraq Ordubadın, Naxçıvanın və Vedibasarın müsəlmanlarının üzərinə qəflətən kütləvi hücum etmişlər. Bu üç rayonun müsəlmanları öz hüquq və şərəflərini qorumağa qalxmışlar, düşmənə qəhrəmanlıqla müqavimət göstərmişlər və ona sarsıdıcı zərbə vurmuşlar. Vedibasarın müsəlmanları gözlənilməz tərzdə çoxsaylı düşməni darmadağın etmişlər, 4 pulemyot və digər trofeyalar ələ keçirmişlər. Onlar təlaş içərisində qaçan erməniləri paytaxtları İrəvanın *7-8* km məsafəsində yerləşən bağlara qədər qovmuşlar və ermənilər tərəfindən müdafiə məqsədilə düzəldilən maneələrə çatmışlar, orada gecələyərək xəncər və bıçaqla teleqrafları doğramışlar. Müsəlman dəstələri öz ölkələrinə qayıtmışlar. Kazım Qarabəkir».

Ermənilərin Qərbi Azərbaycanda və Şərqi Anadoluda apardıqları terrorların qarşısını almaq üçün Kazım Qarabəkir paşa hücum planı hazırladı. Plan 26 aprel 1920-ci ildə hazır oldu. Lakin müəyyən siyasi və ordu quruculuğu sahəsindəki çatışmazlıq ucbatından Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal paşa hücuma icazə vermirdi.

Aşağıdakı teleqramın məzmunundan bunu aydın hiss etmək olur. «Ankara. 10.5.1336 (10.5.1920 - red.). Ordu komandanı Kazım Qarabəkir paşaya 56 və 67 şifroqrama cavab.

1. Milli Məclisin diqqəti ona yönəlmişdir ki, bolşeviklərlə təmasda olmaqla əlaqədar olaraq, onlarla siyasi və maddi əlaqələrin yaranması imkan vermir ki, sərhəddə hərbi fəaliyyət keçirilsin. Hücum fikir ayrılığı yarada bilər.

2. Cənab Bəkir Şamı və Yusif Kamal sabah Ankaradan Ərzuruma gedəcək. Onların tabeliyinə müvafiq əsgəri hissənin verilməsi xahiş olunur. Böyük Millət Məclisinin sədri Mustafa Kamal».

Mayın 26-da hərbi birləşmələr yeni məlumatlar almışlar. Onların əsasında Kazım Qarabəkir paşanın aşağıdakı yazısı tərtib olunmuşdur:

«1) Potiyə gürcü ordusu toplanır. Bolşeviklərin fəaliyyəti Poti, Suxumi və Samcirdə fövqəladə fəallaşırlar. Yunanlar kiçik gəmilərlə qaçırlar.

2) Qarsın şimalında Çaxmaq kəndində erməni birləşmələri yerləşir; tərkibi piyadalardan, topçu hissələrindən və 200 süvaridən ibarətdir. Ermənilər yerli əhalini talayırlar və evləri yandırırlar.

3) Ermənilər Yuxarı Kotanlı, Aşağı Kotanlı, Oluqlu, Kəmərli, Tuzulca, Vucuqlu, Subxanazad, Qars ətrafı əhalidən: İqdır, Çavlaka, Paslı, Qaracar və digərlərindən-cəmi 27 müsəlman kəndlərinin əhalisindən adambaşına 97 manat təzminat tələb edirlər, yanayırlar ki, rədd edərsinizsə, Çaxmaqın taleyi təkrar olunar.

4) Erməni zülmünün altında olan müsəlmanlar, həm də qonşu malakan kəndləri bizim sərhəddə olan hərbi hissələrə müraciət edirlər ki, onları erməni qəddarlığından və vəhşiliklərindən həyatlarını və şərəflərini qorusunlar. Müəyyən edilmişdir ki, bizim hüdudlardan kənarda olan müsəlmanları fiziki məhv edirlər, onların əmlakını talayırlar. **Kazım Qarabəkir».**

Sonra Kazım Qarabəkir paşa Ankaraya şifrəli məktub verir ki, hücumu 16 iyun 1920-ci ildə başlasınlar.

22 iyun 1920-ci ildə Ankaradan hücumun təxirə salınması barədə direktiv gəlir. Lakin iyunun 27-də ermənilər Oltu rayonundan Tuzla istiqamətinə hücuma keçdilər. Lakin geri oturuldular. 30 iyunda ermənilər Oltanı top atəşinə tutdular, 1 iyulda ermənilər Bardıza rayonunu atəşə tutdular, 8 türk öldü. 8 iyulda Düygün yuksəkliyinə iki dəfə həmlə etdilər. Ermənilər Naxçıvana hücumu genişləndirdilər. 22 və 28 iyulda Qağızmanı atəşə tutdular, 9 sentyabrda ermənilər neytral ərazini tutdular.

## YALANÇI «ERMƏNİ SOYQIRIMI» VƏ TARİXİ HƏQİQƏTLƏR

Tarixçilər müasir terrorizm məsələsinə münasibətdə fəaliyyətlərində adətən bir soyuqluq hiss olunur. Orta Şərq tarixçiləri erməni terrorizmi məsələsinə şərh verməkdən boyun qaçırsa da, erməni zorakılığını şərh edərkən tarixdən yan keçmək olmur

Erməni terrorçularının məqsədi, hər halda, onlar belə düşünürlər, keçmişdə baş verən ədalətsizliyə görə qisas almaqdır... Erməni terroruna kömək edənlər məsələn, Sovet İttifaqı (C.Makkartinin bu əsəri 1984-cü ildə Ankarada ingiliscədən tərcümə edilib çapdan çıxmışdır-red.) Türkiyə və NATO-nu dağıtmaq istəyir. Onlar erməni zorakılığından qazanırlar, ermənilərin özü isə bundan udmur və udmayacaqlar. Vaxtilə Sovet İttifaqı hüdudularından kənarda 3 milyondan az erməni yaşayır. Yeni yaranmış Ermənistana onların nə vaxtsa çox cüzi hissəsi köçər. Bu gün həmin ərazidə 11 milyondan artıq müsəlman-türk yaşayır. Anadoluda erməni dövləti yaratmaq üçün bu 11 milyon müsəlman qırılmalıdırmı? Mümkün deyil!

Erməni terrorçuları həmçinin deyə bilməzlər ki, onlar öz xalqının rifahı, azadlığı, yaxud da soydaşlarının siyasi zülmdən qurtulması uğrunda mübarizə aparırlar. Heç kim iddia edə bilməz ki, bu gün Türkiyədə yaşayan ermənilər siyasi cəhətdən təqib olunurlar. Hər haida, terrorçular Türkiyədə yaşayan ermənilər haqqında düşünəndə onları «əsl erməni» saymırlar, çünki burada könüllü yaşayırlar. Əgər erməni terrorçuları öz qardaşlarını siyasi əsarətdən qurtarmaq istəyirlərsə, hərəkətlərini Türkiyəyə yox, Rusiyaya qarşı yönəltməlidirlər.

Beləliklə, aydın görünür ki, erməni terrorizminin real siyasi məqsədi yoxdur. Abstrakt siyasi iddia-Ərzuruma və ya Xarputa «qayıtmaq» iddiası ilə isə düşünən erməni terrorizmi yalnız qisas arzusunun məhsuludur.

Ermənilər türkləri çoxsaylı cinayətlərdə günahlandırırlar. Onlardan ikisi başlıca əhəmiyyət kəsb edir: Türkiyənin Şərqi Anadoluda erməni dövlətini və Birinci Dünya müharibəsi zamanı və ondan sonra 1,5 milyon (və ya artıq) erməninin güman edilən genosidini tanımaması.

Bu, tarixi iddialardır. Onu təkcə ermənilər yox, Qərbi Avropa və Amerikanın bir çox vətəndaşları etiraf ediblər. Bu iddialar günahsız türk diplomatlarının öldürülməsinə belə səbəb olub, çünki erməni terrorizmi bu qətlləri cinayət yox, bəraətverici qisas hesab edir.

Terrorçuları tutmaq yolu ilə erməni terrorizmini zərərsizləşdirmək zəruridir, amma bu, yalnız xəstəliyin simptomlarını müalicə etməkdir. Xəstəliyin özü qalır. Nə qədər ki, uşaqlara onların əcdadalarının düşmənlərinə nifrət etməyi öyrədəcəklər, terrorizm toxumları yaşayacaq. Erməni terrorizminin əsası pis tarixdir. Son nəhayətdə yalnız yaxşı tarix bu xəstəliyi sağaldar...

Ermənilərin tarixində qaranlıq səhifələr çoxdur. Özü də mən qarşıma birbaşa erməni tarixini öyrənməyi məqsəd qoymamışam. Osmanlı imperiyasının tarixinin 300 il ərzində yazılması və imperiyada məhz kimlərin yaşaması barədə bir kəlmə söz açılmaması faktı bir demokrat kimi məni heyran etdi. Kitabda Anadolunun əhali tərkibini öyrənməyə başladım və dəqiqləşdirdim ki, burada ermənidən çox müsəlman həlak olub. Buna isə genosid kimi baxmaq olmaz.

C.Makkartinin araşdırmaları, türklər və ermənilər barədə adi mübahisələri yalana çıxaran xeyli fakt aşkar etdi. Bu faktlar erməni əhalisi barədə statistik rəqəmlərindən götürülüb. Həmin rəqəmlər heç bir siyasi və təbliğati nifrət niyyəti güdmədən dəqiq məlumat əldə etmək üçün hökumət tərəfindən toplanıb. Özü də müharibə başlanandan qabaq yığılıb və Osmanlı hökuməti heç təsəvvürə gətirməzdi ki, bir vaxt bu rəqəmlər erməni problemi ilə bağlı mübahisələrdə lazım olacaq. Statistika adi işdir və bu işlə dünyanın bütün dövlətləri məşğul olur. 70 il ərzində bu rəqəmlər heç kimə lazım olmayıb. Siyasətçilər, terrorçular və erməni alimləri öz uydurmalarını bu dəqiq rəqəmlərdən üstün tutublar. Onlar təkid edirlər ki, milyonlarla erməni qətlə yetirilib və ya qovulub. Real statistika başqa söz deyir. **Birincisi,** XIX əsr xəritələrində «Ermənistan» yazılmasına və həqiqəti bilmək imkanından məhrum Avropa siyasətçilərinin təsdiq etməsinə baxmayaraq, Osmanlı imperiyasında Ermənistan adlı dövlət olmayıb.

Xəyali «Türkiyə Ermənistanı» adlandırılan ərazi altı vilayət-Van, Bitlis, Elaziq, Diyarbəkir, Sivaş, Ərzurum kimi məlum idi. 1912-ci ildə bu altı vilayətdə cəmi 870 min erməni yaşayırdı. Ermənilər həmin vilayətlərin əhalisinin beşdə birini təşkil edirdilər. Bir çox əyalətlərdə müsəlmanlar sayca ermənilərdən altı dəfə çox idilər. Bundan əlavə, ermənilər təkcə şərqdə yaşamır, bütün Osmanlı imperiyası ərazisinə səpələnmişdilər. Əgər bütün imperiya ərazisindəki erməniləri bu altı vilayətə toplasaydın, yenə də Şərqi Anadoluda müsəlmanlar onlardan iki dəfə çox olardı. Bu nisbətlə dövlət yaratmağın mümkünsüzlüyü göz qabağındadır.

**İkincisi,** ermənilərin yalançı genosidi haqqında: Tələt paşanın bu yaxınlarda tapılmış şəxsi gündəliyi də sübut edir ki, heç kim Osmanlı erməniləri barədə nə isə düşünmürmüş.

1915-ci ilin aprelində uzun sürən Rus-Türk müharibələrinin son mərhələsi başlandı. Müharibəyə münasibətdə Osmanlı imperiyasında yaşayan ermənilərin liderləri ikili taktika yürütməyə başladılar: biznesmenlər, ruhanilər və müəllimlər bəyan etdilər ki, bitərəf qalırlar. Erməni inqilabçı qruplaşmaları antiosmanlı fəaliyyətlərini gücləndirdilər. Digər tərəfdən, Rusiya imperiyasında yaşayan ermənilər «Osmanlı Ermənistanını» tutmaq və öz qardaşları ilə birləşmək üçün rus qüvvələrinə qoşuldular.

Həm osmanlılar, həm də ruslar müharibəyə hazırlaşaraq sərhədboyu əraziləri əhalidən təmizləməyə başladılar. Osmanlı hökuməti əvvəlki müharibələrdə ermənilərin Rusiyanı müdafiə etdiyini unutmadığı üçün onları hərbi əməliyyatlar aparılacağı güman olunan yerlərdən köçürdü. Bu gün əxlaq nöqteyi-nəzərindən bu addımı səhv sayanlar tapılsa da, hər halda, heç kim inkar etməz ki, Osmanlı hökuməti Anadolu ermənilərinin əksəriyyətinə etibar etməməkdə haqlı idi. Ermənilər xaincəsinə hərəkət etmiş; 1828, 1854, 1877-ci illərdə əraziyə soxulmuş rus qoşunlarına kömək etmişdilər.

Ermənilərin köçürülməsi başlandı. Onlar Osmanlı dövlətinin zəif olduğu yerlərdə və hərbi əməliyyat zonalarında daha çox əziyyət çəkirdilər. Çünki kürd qoluzorlularının və ya məmurlarının zorakılığına məruz qaldılar. Maraqlı burasıdır ki, sonuncular müsəlman idi, vaxtilə Rusiya imperiyasından çıxarılmışdılar torpaqları isə Qafqazda ermənilər tərəfindən tutulmuşdu. Osmanlı hakimiyyətinin güclü olduğu cənub rayonlarında isə belə hadisələr az olurdu və qaçqınlar sağ-salamat Suriyaya çatdırılırdı.

Köçürülmə başlanmazdan əvvəl Osmanlı qüvvələrinin ilk hücumu iflasa uğradı və ruslar geniş əks-hücuma keçdilər. Bundan istifadə edən erməni qiyamçıları Osmanlı ordusunun arxasında Van şəhərini hücum edib minlərlə müsəlmanı oradan qovdular. Tezliklə rus ordusunun işğal etdiyi ərazilərdən daha 800 mirt müsəlman qaçqını onlara qoşuldu. Müharibənin qurtarmasına yaxın Qafqazdan sürgün edilmiş 400 min türk bu qaçqınların taleyinə şərik çıxır.

Müharibələrdən sonra Şərqi Anadoludan və Qafqazdan qovulmuş 1,2 mln. müsəlman vardı. Şərqi Anadolunun milyondan artıq müsəlman əhalisi də 130 min qafqazlı qaçqın müsəlman kimi tələf oldu.

Vaxtilə altı vilayətdə yaşayan 870 min erməni tezliklə qaçqına çevrildi və ya dünyasını dəyişdi. Ümumiyyətlə, Anadoluda 600 min erməni, 2,5 mln. müsəlman həlak olub. Müharibə zonasından kənarda yerləşən və rus ordusu olmayan yerdə Sivaş vilayətində isə ermənilər 180 min nəfər müsəlmanı son nəfərinədək qətlə yetirmişlər. Əgər bu genosid idisə, çox qəribə genosiddir: «Qurban»dan daha çox qatil olub... İmperiyanın paytaxtı İstanbulda ermənilərin başından bir tük belə əskik olmadı. Bu gün də İstanbulda həmin ermənilərin törəmələri yaşayır. Vaxtilə Türk-müsəlman şəhəri İrəvanda indi bir nəfər də türk yaşamırsa, niyə burada soyqırımdan danışılmasın.

Qeyd edək ki, Rusiyanın siyasətinin iki aspekti vardı: müsəlmanların sürgün edilməsi onların yerində və xristianların məskunlaşdırılması. 1828-ci illə 1920-ci il arasında 2 milyondan artıq müsəlman zorla öz torpaqlarından qovulub, öldürülənlərin sayı müəyyən olunmayıb. Ərazsi istila olunan bu xalqlar Osmanlı imperiyasına köç edib yerləşmişlər. Bu prosesin gedişində bütöv xalqlar - Kırım tatarları, abxazlar, çərkəzlər öz əcdadlarının topaqlarında yaşamaqdan məhrum oldular.

Rusiya müstəmləkə siyasətinin başqa bir dayağı Kırımın, tarixi Qıpçaq Çölünün və Qafqazın xristianlarla məskunlaşdırılması idi. Slavyan xristianları Kırım və Şimali Qafqazda məskunlaşdılar. Ermənilər Cənubu Qafqaza dəvət olundular.

1820-29-cu illər müharibəsi başlananda ruslar ermənilərə türklərlə müharibədə köməyin əvəzinə onlara muxtariyyat vəd etmişdilər. Ruslar 1828 və 1854-cü illərdə iki dəfə Şərqi Anadolu ərazisinə soxulublar. Geri çəkilərkən isə Qafqaza 100 min erməni aparmış, yaxud həlak olmuş türklərin yerinə yerləşdirmişlər (İrəvan əyalətində, hazırda Ermənistan Sovet Respublikasında 1828-ci ilə qədər yerli əhalinin 80 faizi müsəlman idi).

1977-78-ci illər müharibəsində Rusiya Qars-Ərdəhan ərazisini tutub müsəlmanları qovdu və buraya 70 min erməni yerləşdirdi. Onların çoxu Anadoludan gəlmişdi. 1895-96-cı illər hadisələri zamanı Rusiya Qafqazına təxminən 60 min erməni köçürüldü. Nəhayət, Birinci Dünya müharibəsi dövrünün miqrasiyasında bərabər mübadilə-Şərqi Anadoludan 400 min erməni, Qafqazdan 400 min müsəlman.

Əlbəttə, rəqəmləri təhqiqat nəticəsində dəqiqləşdirməyə ehtiyac var. Ancaq biz bilirik ki, 1820-ci ildən 1920-ci ilə qədər olan dövrdə Rusiyaya 600 min erməni, Rusiyadan Türkiyəyə isə iki milyon müsəlman köçmüşdür. Yenə də əzabkeşlik birtərəfli deyil.

Tarixi həqiqət ondan ibarətdir ki, Rusiya imperiyasının genişləndirilməsi Qafqaz və Şərqi Anadolu xalqlarının ənənəvi balansını pozub. Rəqəmlərin dili ilə danışsaq, Kırım və Qafqaz müsəlmanları daha çox zillət çəkib. Əgər hansısa xalq soyqırıma məruz qalıbsa, bu-Kırım tatarlarıdır. Onların öz torpaqlarında məhvi böyük Yekaterina ilə başlayıb, İosif Stalinlə qurtarıb. Hər halda, qəribədir, kimlər ki, müsəlmanları soyqırımında günahlandırır, müsəlmanları kütləvi qırğın qurbanı, soyqırımı kimi qəbul etmirlər.

Problemin həlli çox mürəkkəbdir, həqiqəti qorxmadan səsləndirmək lazımdır. Ona görə «qorxmadan» deyirəm ki, amerikalı professor Stenford Şou və ailəsi ermənilərin taleyi barədə fərqli inamına görə fiziki zorakılığa məruz qalmışdır. Adamların qorxulu türk barədə mifə güclü inamını nəzərə alsaq, çətin ki, həqiqət qəbul olunsun. Ancaq nə olur-olsun həqiqət deyilməlidir. Xüsusilə Avropa və Amerika alimləri tarixi obyektiv öyrənməyə çağırmalıdırlar. Bu zaman türklər bütün arxivləri açaraq tələb etməlidirlər ki, ruslar və ermənilər də müvafiq addım atsınlar. Problemin həlli tez başa gəlməyəcək, bəhanənin ədalətsizliyini gənc ermənilər dərk edənə qədər çox vaxt keçəcək...

Mən əvvəldə dedim ki, Erməni terrorizminə qarşı ən yaxşı silah tarixin öyrənilməşidir. Daha doğrusu, həqiqət ən yaxşı silahdır.

«Zaqafqaziya ölkələrinin ən böyük və ən çox əhalisi olanı, həm də ən rəngarəngi Azərbaycan idi»; ermənilər bu qonşunun torpaqlarını daha çox qəsb etmişdir.

«1919-cu ildə avropalılar və ermənilər Azərbaycan haqqında çox az bilirdilər və bəzi qəzet hesabatlarında onlardan bəhs edilərkən əleyhinə danışılır, onları ya tartar, ya da tatar adlandırır, Azərbaycanlıları geri qalmış müsəlman fanatiklər olduqları və türk planı əsasında erməniləri qırıb çatdıqları haqqında fikir yaradırdılar». Deməyə ehtiyac yoxdur ki, muzdlu erməni agentləri bu dedi-qodunu bütün xristian dünyasına yaymışdılar. Səhifəaltı izahlarda Hovanissyan iki erməni qonşusunun birlikdə necə gelib xristian mövqeyini qorumağa cəhd göstərməsi haqqında məlumat verir.

«1919-cu ilin oktyabrında Gürcüstan və Azərbaycan nümayəndə heyətləri onların məsələsində Amerikanın mövqeyini ifadə edən keçmiş Nyu-York konqresmeni Volter M.Çendlerin fəaliyyətini müdafiə edirdilər. Onlar erməni təbliğatı nəticəsində yaranmış pis təsiri aradan qaldırmağa çalışırdılar. Çendler təklif etdi ki, mümkün olan hər şey edilməlidir ki, ermənilərin düşməncəsinə apardığı fəaliyyətləri neytrallaşdırılsın və iflic olsun və Ermənistanın müstəqilliyi üçün onun bütün sərhədləri boyu Amerika nəzarətinin həyata keçirilməsində onla fikirləri üst-üstə düşsün».

Çox güman ki, bəşər tarixində elə bir ölkə olmamışdır ki, Ermənistan kimi yalnız danışmaqla bu qədər xarici yardım ala bilsin. Görəsən xristian millətlərinin ictimai fikrinə nüfuz edərək heç nəyin hesabına nəsə almaq üçün erməni liderləri nə qədər pul xərcləmişdir.

«Digər tərəfdən, Hind ordusundakı çoxlu Britaniya zabiti müsəlmanlarla yaxın təmasa girmiş, gürcü və ermənilər kimi Asiya xristianlarının müəyyən rəğbətini qazanmış, ruslara isə bel bağlamamışdı».

Belə zabitlərdən biri polkovnik-leytenant Klaud B. Stouks idi. Hovanissyan yazır ki, «Tehranda keçmiş hərbi attaşe və Asiyada bir il xidmət etmiş zabit olan Stouks 1919-cu ilin payız tərxisindən sonra Bakıda qalmış və noyabrda Uodrop missiyasına cəlb edilənədək qeyri-rəsmi siyasi müşahidəçi kimi fəaliyyət göstərmişdir. Onun şəxsində Azərbaycan hökuməti sadiq müttəfiq tapmışdır. O, inanırdı ki, azərbaycanlılar anadangəlmə anti-bolşevikdirlər və təhlükəli pantürkçü, panislamçı ideologiyadan uzaqlaşdırıla bilərlər. O vaxt Böyük Britaniya tərəfindən müdafiə edilən sabit milli ölkələr yaradıla bilərdi».

Hətta belə bir məsələ həqiqətə çevrilsəydi belə, erməni liderləri ona məhəl qoymayacaqdı. Ermənilər bəyan etmişdi ki, «yalnız türkləri və azərbaycanlıları bir-birindən ayrı salmaqla erməni dirçəlişi təminat ala bilər».

I Dünya müharibəsi ərzində, 1918-ci ildə Ermənistandakı təxminən 350.000 müsəlman ac-yalavac qaçqına çevrildi, onların üçdə biri «Osmanlı sərhədləri boyu evsiz-eşiksiz, dilənçi kökündə yaşayırdı».

Erməni hakimiyyəti altında olan türk əhalisinə qarşı dözülməz münasibətə arabir Azərbaycan Xarici İşlər Nazirliyi və mətbuat etiraz bildirirdi. Başıpozuqların törətdiyi vəhşiliklərin qarşısını almaq üçün Ermənistanın hakim qüvvələrinin heç nə etməməsi bir yana qalsın, İrəvan hökuməti dərin ehtiyac içərisində olan müsəlmanlara məhəl qoymur, onlara ev, tibbi diqqət və iş verməkdən imtina edirdi. Paytaxtın içərisində və ətrafında olan təxminən 15.000 qayğıya möhtac adamın təxminən 2.500 nəfərindən azına gün ərzində bir qab şorba verilirdi. Üstəlik, erməni xeyriyyə agentlikləri yaxşı bilirdi ki, xəstəliyin yıxdığı Türkiyə erməniləri İrəvanın müsəlman məhəllələrindəki baraklara doluşmuşdur və onlar yoluxaraq yerli sakinləri məhv edəcəkdir.

Avqustun 1-də Azərbaycanın İrəvandakı nümayəndəsi Xan Tekinski 1918-cı ilin əvvəlindən bəri 300 müsəlman kəndinin dağıdılması haqqında bəyanat verdi. Orada göstərilirdi ki, ermənilərin yeganə siyasəti kişiləri, qadınları və uşaqları kütləvi surətdə qırmaqdan ibarət idi və müsəlmanların çəkdikləri əzablar elə dəhşətli idi ki, minlərlə adam Azərbaycana qaçmağa cəhd göstərirdi. Əllərinə silah alıb erməni quldurlarına qarşı mübarizə aparanlar isə sadəcə öz həyatlarını, mal-mülklərini qorumağa çalışırdılar.

Ermənilərin guya qurbanlar vermiş köməksiz xalq olması haqqında yaratdıqları yalanı puça çıxarmaq üçün və həmin ərazidəki xalqları erməni nəzarətində olacaqları təqdirdə nələr gözlənildiyi haqqında Parisdə azərbaycanlılar da təbliğat kompaniyası aparırdılar. Avqustun 20-də Topçubaşov sülh konfransına xəbərdarlıq etdi ki, Qafqazdakı etnik və ərazi xarakterli məsələlər terror və qorxu siyasəti altında radikalcasına dəyişikliyə uğrayır. İrəvan və Qars əyalətlərində erməni təcavüzü... müsəlman əhalisinin məhvi və «özünütəyin» prinsipini həyata keçirmək məqsədi daşıyır. Məsələn, yenicə aşkara çıxmışdır ki, altı kəndin kişiləri öldürülmüş, onların qadınları isə «erməni döyüşçülərinə» hədiyyə edilmişdir. Azərbaycan öz torpaqlarının bir hissəsinin və adamlarının itkisi hesabına başa gələn belə vəhşiliklərə daha dözə bilməz.

Semyuel Vimsin qeyd edir: bir fikir verin, erməni alimi öz ölkəsinin müsəlmanların əleyhinə öz hərəkətlərini «vəhşilik» adlandırır. Ermənilər 1918 və 1919-cu illərdə müsəlmanların başına açdıqları dəhşətli işlərə görə üzr istəməlidirlər. Onlar gərək 1992-ci ildə evlərindən və təsərrüfatlarından zorakılıqla qovulmuş 1 milyondan artıq müsəlmanın torpaqlarını geri qaytarsınlar.

Erməni xristianlarının müsəlmanlara qarşı genosid törətməsi haqqında sübutlar çoxdur. Oktyabrda məlumatlar verilmişdi ki, Qars ərazisində əksəri qadın və uşaqlar olan 25.000 müsəlman qaçqının vəziyyəti dəhşətli haldadır. Ermənistanın paytaxtında daha 13.000 nəfər, paytaxt ətrafındakı kəndlərdə isə 50.000 müsəlman qaçqını erməni xristianlarının nəzarəti altında idi. Erməni xristianlarının paytaxtın Cənubundakı ərazidə heç bir yaşayış vasitəsi olmayan 70.000-dən 80.000 nəfərədək müsəlman qaçqını var idi və erməni rəhbərliyi onlara hər hansı bir yardım göstərməkdən imtina edirdi.(ABŞ tarixçisi Semyuel Vimsinin «Ermənistan: Böyük yalan xiristian-terrorist dövlətinin tapmacası» kitabından, XI fəsil).

Ermənilərin qatilliyindən bəhs edən erməni müəllifləri də var. Öz erməni müttəfiqləri ilə eyni tərəfdə vuruşmuş rusların dediklərini də saf-çürük edin. Rusların ordu zabitləri ermənilərin nələr etdiyinin şahidi olmuşdur və Moskvadakı rus arxivləri həmin şahidlərin məlumatları ilə doludur. Burada yüzlərlə erməni genosid kampaniyasının yalnız biri haqqında danışılır. Bir anlığa Ermənistan parlamenti spikerinin bəyanatını əks tərəfdən saf-çürük edin:

1. «Tarixin belə bir dövrü olmuşdur ki, qoca dünyanın ən qədim xalqlarından olan ermənilər Qərb mədəniyyətini zənginləşdirmişdir». Qərb ölkələri daim «erməni dərdinə» həssaslıq göstərib. Ermənilər də onların incə damarını tutaraq həmişə onlardan bəhrələnib. Bunun qədim tarixə nə dəxli var? (Özü də bu adamlar heç nəyin müqabilində get-gedə daha çox pul qoparmaq istəyirlər).

2. «Müttəfiqlər üçün Ermənistanın tək olmadığını və onun düşmənlərinin cəzasız qalmayacağını nümayiş etdirməyin məqamı yetişmişdi». Osmanlı İmperiyası, Gürcüstan və ya Azərbaycanla heç vaxt müharibə aparmamış Birləşmiş Ştatlar nə üçün Ermənistandan ötrü bu xalqları cəzalandırmalı idi? (Ermənistan diktatorların Amerikadan öz gücünü nümayiş etdirməsi tələbinin heç bir mənası yoxdur).

«Asan qələbədən və azsaylı olsa da, müttəfiq qoşunların Ermənistana girməsindən vəcdə gələn «qara qüvvələr» gənc respublikanı yıxmaq üçün cəhdlər göstərirdi». Hər şeydən əvvəl, ermənilərin həqiqətən respublikası var idi. Onlarda tamamilə Sovet İttifaqına bənzəyən diktator hökuməti mövcud idi. İkincisi, qalib müttəfiqlər hər hansı diktatorların istəyinə görə deyil, özlərinin düzgün bildiyi əsaslarda qərarlar çıxarırdılar. Üçüncüsü, müharibə başa çatandan sonra öz qoşularını geri qaytarmaq qərarı müttəfiq xalqların qərarı idi.

Daha çox torpaq qamarlamaq məqsədilə erməni liderlərinin öz qonşularına (xristian və ya müsəlman olmasından asılı olmayaraq) hücum əməliyyatları keçirməsi üçün müttəfiqlər öz hərbi qüvvələrini geri qaytarmağa borclu deyildi. Dördüncüsü, Osmanlılarla münasibətin ən yaxşısını qurmaq tamamilə müttəfiqlərin hüququ idi. Beşincisi, «qara qüvvələr» gənc respublikanı yıxmağa cəhdlər göstərirdi».

«Qara qüvvələr» - Ermənistan öz qonşusu Gürcüstana qəfildən, əsassız və xaincəsinə hücum etdi.

«Qara qüvvələr» - Erməni liderləri öz xalqının beş yüz ildən artıq dinc və əminamanlıq şəraitində yaşadığı Osmanlı imperiyasında qiyamlar təşkil etdilər.

«Qara qüvvələr» - Osmanlı imperiyasını hərbi zorakılıqla yıxmaq cəhdində erməni liderləri Rusiya qüvvələri ilə birləşdilər.

«Qara qüvvələr» - Erməni Kilsəsi üsyana, vəhşiliyə, terrorizmə və başqa xalqların torpaqlarını tutmağa xeyir-dua verir.

Erməni liderləri isə haray-həşir salır ki, «qara qüvvələr» Ermənistanı yıxmağa çalışır. «Qara qüvvələr» elə ermənilərin özü idi!

Kiminsə şeytan əməlləri ilə məşğul olması və öz günah dolu əməllərini başqasının boynuna qoyması haqqında klassik nümunədir! Tarixin şahidliyinə əsaslanan həqiqət isə budur ki, xristian Gürcüstanına, müsəlman Osmanlısına və ya müsəlman Azərbaycanına hücum etməyin əslində erməni quldur yığnağı üçün fərqi olmamışdır.

Bunlar başqasına məxsus olan torpaqları qamarlamaq istəyən terrorçular idi və onlar istəyirdi ki, nə qədər ki, ermənilər öz qonşularının torpaqlarını oğurlayır, talan edir və qamarlayır Amerika və müttəfiqlər onları müdafiə etsinlər.

Azərbaycan torpaqlarının 20 faizini tutmaq və bir milyondan artıq müsəlmanı ev-eşiyindən qovmaq üçün Amerika Birləşmiş Ştatları Ermənistana 1.4 milyard dollardan artıq pul vermişdir. Eyni zamanda Azərbaycan öz torpaqlarını və əhalisinin ev-eşiyini qorumağa cəhd göstərdiyinə görə Amerika onlara verəsi xarici yardımı kəsmişdir. Bu, erməni quldurlarının tərəfini saxlamaqdan savayı bir şey deyildir.

«Dünya müharibəsindən qabaq Zəngəzur əhalisinin təxminən yarısı müsəlman, yarısı xristian idi». Baxın görün bu əraziləri müsəlmanlardan təmizləmək üçün ermənilər hansı istəklərdən çıxmışdır; «Müsəlman heyvandarlarının yaz və yay köçü zamanı onların əleyhinə olan erməni quldurları dəfələrlə öz xarakterlərini göstərdilər. Həkəri vadisində kiçik atlı qruplarla birləşən tərəkəmələri azərbaycanlı və türk zabitləri müşayiət edirdi. Bu dəstələr çoxsaylı dağ cığırlarına sıxışdırılır və dönə-dönə erməni dığalarının hücumuna məruz qalırdı».

ABŞ tarixçisinin erməni saxtakarlığına və vəhşətlərini ifşa edən bu əsəri bir daha erməni ləyaqətsizliyinin şərəfsizliyinin paxırını açır. Müəllif ermənilər tərəfindən Azərbaycan torpaqlarının tarixi irsinin dağılması və mənimsənilməsini faktlarla sübut edir.

Min illər ərzində müsəlman heyvandarları hər yaz və yayda öz sürülərini dağlara qaldırırdılar. İndi erməni professoru onları «köçəri» adlandırır və erməni quldurları onların varlığına son qoymaq istəyirdi. Məgər bu «öz qonşunu özün kimi sev» xristian hərəkətinə bənzəyirdimi. Azərbaycan alayları Zəngəzur sərhədinə yığışanda Bakıdakı qəzetlər o ərazidən olan müsəlman qaçqınları çıxılmaz vəziyyəti haqqında ağlaşırdı. Onlar hadisələri təhlil edərək yazırdılar ki, Andronik «Paşa» və digər ermənilərin vəhşilikləri başlanandan bəri yüz yaşayış məntəqəsindən çoxu dağıdılmış və ən azı 40.000 adam evsiz-eşiksiz qalmışdır. Heyvandarları təhlükə altında qaldığı və həm tərəkəmələrin, həm də heyvan sürülərinin bürküdən boğulan düzənliklərdə xəstəlikdən tələf olması haqda xəbərdarlıq edən Xosrov bəy Sultanov yaylaqdakı otlaqlara qalxan yolları kəsmiş «erməni quldurlarına» dərs vermək üçün öz hökumətinə yalvarırdı...

Azərbaycanlılar xristian ermənilərin terrorçu əməlləri haqqında danışmağa başladılar. Onlar danışmaya bilməzdilər. «Bakı qəzetləri erməni qəddarlığı haqqında haray çəkən başlıqlar altında yazılar verməklə qara camaatı müharibə əhvalına hazırlayır və konfliktin həlli üçün komissiya yaratmaq haqqında İrəvanın çağırışının qarşısını almaq məqsədi daşıyırdı».

Bu, əsl erməni üsulu idi - ordunun gücü ilə aldığının, işğal etdiyi Azərbaycan torpağının və məhv etdiyi adamların müqabilində danışıqlar masası istəmək! Azərbaycanın cavabı birbaşa və sərrast oldu: «Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat veririk ki, Zəngəzur qəzasının özü Azərbaycan Respublikası ərazisinin bir hissəsidir və ona görə də Ermənistan hökumətinin qeyd olunan notasında qaldırılan məsələ Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə kimi qəbuledilməzdir. Azərbaycan hökuməti hansı vacib cavab tədbirlərini görəcəyi haqqında Ermənistana cavab verməyi özünə borc bilmir.

Ermənilərin belə dəhşətli hərəkətləri haqqında məlumat verən Azərbaycan qəzetlərini hansı tarixçi alim «ağlaşırdı» sözü ilə təsvir edər, hansı tarixçi alim belə vəhşi erməni təcavüzü haqqında xəbərlər verən Azərbaycan qəzetlərini «erməni qəddarlığı haqqında haray salan başlıqlar altında yazılar verməklə qara camaatı müharibə əhvalına hazırlayırdı...» təsvirini verərdi. Azərbaycanın hərbi naziri Xosrov bəy Sultanov Zəngəzur sakinlərinə ünvanlanmış rus, türk və erməni dillərində dərc etdirdiyi vərəqədə çoxsaylı kəndləri xarabazara çevirərək minlərlə günahsız adamı yer-yurdundan didərgin salan «qara qüvvələri» ittiham edir və Zəngəzur ermənilərini özlərini vətənpərvər adlandıran, əslində isə əraziyə dağıntı və əzab gətirən ələlərindən (ermənilərdən - Y.Q.) yaxa qurtarmağa səsləyirdi. Azərbaycan idarəçiliyinin ərazidə qırğınlar və quldarlıq qaydaları tətbiq edecəyi haqqında yayılan şaiyələrin əsassız olduğu Qarabağda sübuta yetirilmişdir; indi orada insanlar istədikləri kimi əmin-amanlıqda yaşayırlar. Qarabağ kimi Zəngəzur qəzası da ərzaq və təchizat sarıdan Yevlax yolundan asılıdır və təcrid olunmuş şəkildə özünü saxlamağa qadir deyil.

Sultanov provakasiya yolundan uzaqlaşmaq haqqında ermənilərə xəbərdarlıq edir, əks təqdirdə onlara kömək etməyəcəyini və son nəticədə hamının İrəvana qaçacağını söyləyirdi. «Zəngəzur camaatı, fəhlələr və kəndlilər, mən sizə üz tuturam... nümayiş etdirin ki, sizin anarxist və avantürist elementlərlə heç bir əlaqəniz yoxdur. Elə olarsa, mən sizə şəxsiyyət və əmlak toxunulmazlığı təminatı verirəm və mən həmişə sözümün sahibi olmuşam. Lakin əgər siz qanundan kənar elementlərlə əlaqəyə inad göstərəcəksinizsə, sizi Azərbaycan Respublikasının qanunlarına zorla tabe etdirmək üçün mənim kifayət qədər imkanlarım vardır. Belə olarsa, töküləcək qan üçün məsuliyyət sizin üzərinizdə qalacaqdır».

Ermənilər sadəcə olaraq gec başa düşürlər. Onlar beş yüz ildən artıq müddətdə Osmanlılarla sülh şəraitində yaşayandan sonra da eyni hərəkəti etmişdilər.

Onlar əsrlər ərzində sülh şəraitində yaşadıqları gürcülərlə də eyni hərəkəti etmişdilər.

İndi isə onlar eyni səhvi təkrar edir, başqa birisinin-bu dəfə Azərbaycanın torpağını tutmaq iştahlarını ödəmək üçün insanların qanını tökməkdən çəkinmirdilər.

Və müharibə başlandı: erməni qoşunları hücuma keçən kimi «Tüğtan keçidini açaraq Nejdenin başçılığı altında Zəngəzuru iki hissəyə ayıran Bərgüşad-Gehvadzor vadiləri boyunca olan kəndlərdəki müsəlman partizanlarını və kəndlilərini qırıb-çatmağa başladılar».

Xristian erməniləri adlandırılan adamlar 1915-ci ildə guya müsəlmanların onları qırması haqqında dediklərini əslində özləri həyata keçirdilər. 1915-ci il yalançı hay-küyü haqqında isə üstündən qırx üç il keçəndən sonra onlar «genosid» deyə bağırmağa başladılar. Bir baxın, xristian erməniləri müsəlman azərbaycanlıları müharibə zonasından qovurdular. Sonra isə, özünü «xristian» adlandıran bu adamlar azərbaycanlıları yalnız ona görə qovurdular ki, onlar sadəcə müsəlman idilər və ermənilər müsəlmanların başına açdıqları terror hadisələrinin hesabını aparmırdılar. Sadə bir sual soruşulmalıdır: Ermənilərin etdiklərini İisus Xrist də edərdimi? (Əlbəttə ki, yox!)

Noyabrın 16-da Oliver Uordrop Britaniya rəsmilərinə xəbər verdi ki, ermənilər «güman ki, erkən qələbəyə arxayın olaraq barışığa meyllənmək istəmədilər və indi hadisələr onların əleyhinə yönəlmişdir. Tatarları dəhşətli terrora düçar edən və Azərbaycanın ictimai fikrini minlərlə müsəlmanm qaçqına çevrilməsinə yönəltmək üçün təbliğat aparan ermənilər də günahsız deyillər».

«Admiral Bristol İstanbulda Haskelə şikayətlənirdi ki, amerikanlar faktlarla təbliğat arasında fərq qoya bilmirlər, belə ki, onlar Türkiyə və Azərbaycanın Qarabağ-Zəngəzur-Naxçıvanı birləşdirən torpaq körpüsü haqqında əsas planı ilə bağlı olaraq erməni xəttini qəbul etmişlər».

Şərur-Naxçıvan müsəlmanlarının ağır vəziyyəti onların liderləri arasında fikir ayrılığına səbəb oldu. Ərazidə yarımmuxtariyyat təşkil etmək üçün göndərilən azərbaycanlı zabit Səməd bəy Camalinski şikayətlənirdi ki, fars agentləri minlərlə müsəlman qaçqını Araz çayını keçməyə təşviq edir, əvəzində isə onlara sakitlik, kömək və torpaq vədi verirlər. O, Usubbəyovun kabinetinə müraciət edərək ərazini müdafiə etmək və əhaliyə yardım göstərmək üçün canlı qüvvə və pul göndərməyi tələb edirdi; əks təqdirdə, əgər çoxlu sayda adamlar İrana keçsəydi, ermənilər Araz vadisini yenidən işğal edər,

Zəngəzura aşan keçidi tutmağa nail olar və beləliklə bütün Azərbaycanı təhlükə altına alardılar. Camalinski Azərbaycan rəsmilərinin əleyhinə gedən və diktatora çevrilmək istəyən kapitan Xəlil bəyi günahlandırırdı.

Ermənilər isə bir qara qəpik də ödəmədən öz hansısa qonşusunun torpağını qamarlayandan sonra torpağı əllərində saxlamaq üçün sülh danışıqlarına getmək istəyirdilər. Diktator ermənilər tərəfindən söylənmiş bu saxta nağıla nəzər salın: Tarix boyu siyasi və coğrafi amillər Ermənistanı əzablara düçar etmişdir, lakin 1917-ci ildəki Böyük Rus İnqilabı xalqlara mədəni birliklər kimi öz sərvətlərinə sahib çıxmaq imkanı bəxş etdi. İndi öz azadlığını və müstəqilliyini tələb edən ermənilər başa düşdülər ki, bu məqsədə aparan yol öz qonşuları ilə harmonik münasibətlərdən keçir. Zaqafqaziyada bütün millətlərin azadlığı olmadan bir respublikanın azadlığı mümkün deyildir.

## 1905-1907-Cİ İLLƏRDƏ AZƏRBAYCAN TÜRKLƏRİNİN SOYQIRIMI

Rus-yapon müharibəsində məğlub olmuş Rusiya imperiyasında xalq çıxışlar və o cümlədən milli azadlıq hərəkatları baş verdi. Bu iki amilin qarşısını almaq üçün çar Rusiyası rus şovinizmi dirçəlişi və xalqları bir-birinə qırdırmaq siyasət; həyata keçirməyə başladı. Bu siyasəti birinci növbədə Qafqazda həyata keçirmək labüd sayıldı. Belə bir vəziyyətdən ermənilər istifadə etməyə vaxt və şərait tapdılar. Çar Rusiyası erməniləri gizli surətdə silahlandırdı və tarixdə belə adlanan «erməni-müsəlman davası» təşkil etdi. Azərbaycanlılarla ermənilər arasında ilk toqquşma Bakı şəhərindən başlayaraq Şuşaya, Zəngəzura, İrəvan, Tiflis, Naxçıvan, Ordubad Eçmiədzin, Cavanşir, Qazax qəzalarına yayıldı.

XX əsrin əvvəlindən bəri, "erməni məsələsi" Cənubu Qafqazda partlamağa hazır olan bir barıt çəlləyinə dönmüşdü. Əvvəla qeyd edək ki, 1905-ci ildə Qafqazda türklər yaşayan kəndlərin sayı 5.910 idi. İrəvan quberniyasında 860, Yelizavetpol quberniyasında 1.173, Bakı quberniyasında 1.111 müsəlman-türk kəndinin olması erməni şovinistlərini bərk narahat etməkdəydi. Ümumiyyətlə, XX əsrin əvvəllərində Cənubu Qafqazda 54 qəza vardı. Bunlardan cəmi beşində ermənilər üstünlük təşkil edirdilər. Buna görə də, erməni silahlı dəstələri azərbaycanlılar yaşayan kəndlərə hücum edir, əhalini qırır, qovur və beləliklə say üstünlüyünə nail olmağa çalışırdılar ki, gələcəkdə muxtariyyat, müstəqil erməni dövləti yaratmaq imkanı əldə edə bilsinlər. Bu kəndlərin, bu torpaqların ermənilərə qalmasının yeganə yolunu daşnaqlar silahlı toqquşmada görürdülər. Məhz bu məqsədlə də onlar Şimali və Cənubi Azərbaycanın müxtəlif bölgələrində yerli dövlət və erməni təşkilatları erməniləri silahlandırır və azərbaycanlılara qarşı savaşa təhrik edirdilər.

Hərtərəfli hazırlıq gördükdən sonra ermənilər 1905-ci il fevralın ilk günlərindən Bakıda qırğın törətdilər; çox keçmədən İrəvanda iğtişaşlar kütləvi xarakter aldı. Naxçıvan, Zəngəzur erməni silahlı dəstələrinin hücumlarına məruz qaldılar. Kəndləri dağıdır, yandırır, günahsız insanları qılıncdan keçirirdilər. Yerli əhali ata-baba yurdunu tərk etməyə, qaçqınçılıq yolunu tutmağa başladılar. İrəvandan göndərilən bir xəbərdə deyilirdi: «Hər tərəfdən qəbiristanlığa cənazələr gətirilir. Çoxu müsəlmandır. Ölənlər və yaralananların sayı artmaqdadır. Bütun günü atəş səsləri eşidilməkdədir. Bir tatarın evinə bomba atıblar, 24 nəfər ölüb və yaralanıb. Təpəbaşı məhəlləsində tatarların evlərini bombalayıblar, çoxlu adam tələf olub. Zəngi dərəsində öldürülənlər çoxdur. Azərbaycanlılar küçəyə çıxmaqdan qorxurlar. Çoxları şəhəri tərk edib.»

Məqsəd də elə şəhəri tərk etdirmək idi. «Erməni məsələsi» XX əsrin əvvəlində adətən bu yolla həll edilirdi. Təkcə İrəvan şəhərində deyil, quberniyanın azərbaycanlılar yaşayan bütün şəhərlərində vəziyyət belə idi. Eçmiədzin qəza rəisinin verdiyi bir xəbərdə deyilirdi: «800 Toroslu erməni müsəlman kəndinə hücum edib. Kəndi darmadağın ediblər. 53 nəfəri öldürüb və yandırıblar. 27 nəfər yaralanıb. 255 kəndin bütün ot tayaları, taxıl zəmiləri yandırılıb.» Həmin xəbərdə deyilirdi: Daşnaqsütyun partiyası üzdə barışıq üçün hər iki xalqa müraciət etsə də, altdan-üstdən terrorçuluq əməllərini həyata keçirməkdədir.»

Ümumiyyətlə, 1905-1906-cı illərdəki erməni-müsəlman davasında İrəvan və Yelizavetpol quberniyalarında 200-dən artıq kəndi ermənilər yerlə yeksan etmiş və əhalisini soyqırıma məruz qoymuşlar. «Daşnaqsütyun» partiyasının liderləri "erməni məsələsi" ni həll etmək, «Böyük Ermənistan» xülyasını reallaşdırmaq üçün bütün yerli təşkilatlara göstəriş göndərərək tələb etmişdi ki, İrəvan, Gəncə və Qarabağ mahallarında olan bütün türk kəndlərini viran qoysunlar, bu kəndləri yerli əhalidən, yəni azərbaycanlılardan birdəfəlik təmizləsinlər.

1905-1906-cı illərin erməni-müsəlman qırğınlarına həsr olunmuş «Qanlı sənələr» əsərində görkəmli yazıçı M.S.Ordubadi yazırdı: «1905-ci il iyun ayının 9-da ermənilər azərbaycanlılar yaşayan Təkiyə kəndinə hücum etmişlər. Müsəlmanlar tamamilə silahsız, ermənilər isə mükəmməl silahlı olmuşlar. Ona görə də kəndin sakinləri kəndi boşaldıb, arvad-uşaqlarını götürüb dağlara çıxmışlar. Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn Qazızadənin böyük imarətinə od vurulmuş, iki yüz cild Quran və müqəddəs kitablar da yandırılmışdı. Eçmiədzində 9 məşhur azərbaycanlı kəndi dağıdılsa da hökumət heç bir tədbir görməmişdi.»

Azərbaycanlı kəndlərinin dağıdılması eyni zamanda çar hökumətinin istəyi idi. Çar məmurları da milli ədavəti qızışdırmaqla bir tərəfdən canlanmaqda olan azadlıq hərəkatının boğulmasına, digər tərəfdən də boşaldılmış müsəlman kəndlərində xristianların məskunlaşmasına imkan yaradırdılar. Elə həmin gün ermənilər Xələc, Saldaşı, İncəvar, Daş nov kəndlərini dağıdıb viran qoymuş, əhaliyə divan tutmuşlar. Qaçıb xilas olanlar Qatar kəndinə pənah gətirmişlər. Lakin 1906-cı il avqust ayının 1-də ermənilər hər tərəfdən Qatar kəndini mühasirəyə alıb atəşə tutmuşlar.

Erməni şovinistləri 750 evdən, 3.500 nəfərdən ibarət Qatar kəndini dağıtdıqdan sonra, Oxçu çayı sahillərində yerləşən türk kəndlərini viran edib, Zəngəzur qəzasının açarı olan Oxçu, Şabadin, Aralıq, Pirdavdan və Atqız kəndlərini qarət etmişlər. Böyük ədib avqustun 13-də ermənilərin törətdiyi vəhşilik haqqında yazır: «Ağlaşma səsi dağların təpəsindən ermənilərin səngərlərinədək əks-səda verirdi. Saqqarsuda sığınmış camaatm başı üstündən sübh çağı bir dəstə «ya Əli, ya Əli» fəryadlarıyla onlara sarı gəldiyindən avam və çaşmış camaat müsəlmanlar «bu gələn qoşun islam qoşunudur» deyərək güman edib ağlaya-ağlaya onların qarşısına çıxırlar. Gələn dəstə isə ermənilər imiş, müsəlmanları qırmağa başlayırlar. Bu vaxtdan

dörd islam köylərində də qırğın baş verdiyindən Saqqarsuyun başına qədər fəryad, nalə sədalarının müsibətli şəkildə əks etdiyini qaçıb Ordubada gəlmiş kənd əhli olduğu kimi nəql edirdi. Saqqarsuyun ətrafında bir qan gölməçəsi göründüyündən o tərəfə gedirlər... Qanın üzü buz bağlasa da, daşın bir tərəfindən damcı-damcı sızırdı. Bu halı gördükdə camaat dəhşət bürüdü. Daşın arasında 62 nəfər qadın və uşaq cənazəsi bir-birinin üstə qalaq-qalaq tökülmüşdü...Az sonra qadın cəsədlərinin arasından bir sızıltı eşidildi... İki qıçlarından yaralanıb bihuş düşmüş bir qadının həyat və ölüm arasında ağır halından ah-zarın vücudu meydana çıxdı.»

Meydana çıxan həm də «Böyük Ermənistan» xülyasını gerçəkləşdirmək yolunda «Daşnaqsütyun» və «Hnçak» partiyasının yeritdikləri amansız siyasətin mahiyyəti idi. «Türksüz Ermənistan»a nail olmaq üçün ən qatı millətçilikdən, ən qəddar vəhşilikdən istifadə etmək bu partiyaların mübarizə şüarı olmuşdu. Bu vəhşilikləri M.S.Ordubadi belə qələmə almışdır: «Həsən Əfəndinin qətl yerindən bir az şimala doğru bir palaz parçası göründü. Bu camaatın hamısını ağlatdı. Zira palazı kənara çəkən kimi 15 nəfər üzərində çiçək, yəni abidə əlaməti sönməmiş körpə cocuqların kəsilmiş başları və bir para bir-birinə qarışmış bədənləri göründü Cənub səmtdə həddən artıq arvad-uşaq bədənləri tökülmüşdü, küləyin şiddətindən yüksək təpələrdən qarlar cənazələrin üstə yığılmışdı. Amma yenə bədənlərində son nəfəsi olan qətl olmuş məzlum bacıların qətrlənən qanlarından qarlar uzaqdan bahar lalələri kimi qızarırdı...»

Ədib bu vəhşiliklərin səbəbini də ermənilərin avtonomiya-idarə muxtariyyatı həvəsində olmaqlarında görür. «Erməni məsələsi»nin canı da məhz elə dənizdən-dənizə erməni dövləti yaratmaq «həvəsidir». XX əsrin əvvəlində bu «həvəs» nəticəsində törədilən iki qırğında təqribi hesablamalara görə öldürülən, yaralanan, ata-baba torpaqlarından didərgin düşən, digər təzyiq və məhrumiyyətlərə, amansız vəhşiliklərə məruz qalan azərbaycanlıların sayı iki milyona yaxındır. Daşnaqların bu siyasəti Birinci Dünya müharibəsi ərəfəsində daha geniş miqyas aldı.[56]

Müsəlman qırğınının dəhşəti bütün Qafqazı, İranı və Şərqi Anadolunu bürümüşdü. Bu münasibətlə Gəncə qubernatoru 1907-ci il avqustun 9-da Peterburqa məlumat verirdi ki, zavallı müsəlman kəndlilərinin üzərinə «təqribən yüzminlik ordu göndərmiş, Türkiyədən olan qaçqınlar və ancaq insan öldürməyə adət etmiş yerli başkəsənlərin demək olar, hamısı bu orduya qoşulmuşdur.

M.S.Ordubadinin «Qanlı sənələr» əsəri 1905-1907-ci illərdə bu dəhşətli hadisələrin bəzilərinə aydınlıq gətirir: 1906-cı ildə Qafan rayonunun Mədənbazarını dağıdıb Karxana kəndinə hücuma keçdilər, kəndin əhalisini qırdılar. Bundan kifayətlənməyən ermənilər qaçıb pünhan bir yerdə sığınacaq tapmış, oruza qədər qadını vəhşicəsinə qətlə yetirmişlər. Dəhşət burasındadır ki, qadınların tapılıb öldürülməsinə səbəb Pakizə adlı qadının Firuzə adlı məsum körpəsi olmuşdur. Uşaq ağlayarkən ermənilər hücuma keçmişlər və həmin 30 qadını qanına qəltan etmişlər.

Ümumiyyətlə, Qərbi Azərbaycanda olan 18 mahalda elə bir kənd, elə bir məntəqə yox idi ki, erməni təcavüzünə məruz qalmasın. Dərələyəz mahalının XIX əsrin axırlarından etibarən 154 kəndi vardı ki, bunlardan 45 kənd 1905-1907-cı illərdə yerlə-yeksan edilmişdir. Digər kəndlərin əhalisi isə İrana, Azərbaycana və Naxçıvana qaçmışlar. Yollarda erməni güllə-boranından 200 nəfər qətlə yetirilmişdir (Bu məlumatlar arxiv sənədlərində vardır).[57]

## I DÜNYA MÜHARİBƏSİNİN GEDİŞİNDƏ TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLARI
## «ERMƏNİ GENOSİDİ» MİFİNİN YARANMASI

**«Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış evləri viran edilmişdir» (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 dekabr 1997-ci ildə imzaladığı 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında» fərmanından).**

1914-cü ildə (1 avqust) bölünmüş dünyanı yenidən bölüşdürmək uğrunda nəhəng dövlətlər savaşa başladılar. Savaş 4 ildən də çox davam etdi. 33 dövlət dünya əhalisinin 75 faizi bu savaşa cəlb olunmuşdtır. Tərəflərdə iştirak edən hər bir dövlətin bir-birinə ziddiyyətli maraqları vardır. Antantanın marağında «erməni məsələsi» də mövcud idi. Bu baxımdan Rusiyanın marağı həm ermənilər üçün, həm də Rusiya üçün daha önəmli idi. Çar II Nikolay erməni katolikosu Gevorka demişdir: Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir.»

Çarın bu sözlərindən ruhlanan Rusiya erməniləri rus ordusuna 250 min əsgər verdilər. Fransa, İngiltərə və ABŞ ordularında 50 mindən çox erməni əsgəri vardır. Erməni ordusunun əsas fəaliyyəti soyqırımı idi. Antanta cəbhəsində olan erməni döyüşçüləri Türkiyədəki ermənilərə müraciət edir, onları da silahlı dəstələr düzəltməyə və müttəfiqlərin ordularına kömək etməyə, Türkiyəni türksüz qoymağa çağırırdılar. Antanta dövlətlərinin Osmanlı imperiyasından işğal etdikləri torpaqlarda ermənilərin əli ilə 3 milyondan çox (1,5 milyon türk, 600 min kürd, 1 milyon azəri türkü - 0,5 milyon Zaqafqaziyada, 0,5 milyon isə Anadoluda) əhalini soyqırımı etdirmişlər. Ermənilərin apardıqları soyqırımı çox dəhşətli olmuşdur. Bu dəhşətləri rus, fransız, ingilis və s. işğalçı ordularının generalları və zabitləri öz xatirə və memuarlarında dəfələrlə səsləmişlər.

Yeri gəlmişkən Bakıdakı yəhudi icmasının başçısı Gennadinin araşdırmalarında göstərilir ki, 1918-1920-ci illər arzində ermənilər Zaqafqaziyada 871 min günahsız insan-qoca, uşaq, qadın qətlə yetirmişlər. O cümlədən:

[56] Xocalı soyqırımı erməni terrorizminin kulminasiya nöqtəsidir.-«Xalq qəzeti», 24.01.2002, № 19 (29984)
[57] Soyqırım - «Respublika», 29. 03.2001

Azərbaycanlılar - 470 min
Ruslar -120 min
Gürcülər - 110 min
Yəhudilər, yunanlar, ləzgilər, kürdlər və digər etniklər - 171 min (Azərbaycan ictimai TV-nin 2006-cı ilin 20 sentiyabr xəbərlər verlişindən.)

Qeyd etmək yerinə düşər: Erməni-türk münasibətlərinə obyektiv yanaşan ABŞ professoru Castin Makkarti «Genosid olmuşdurmu?» kitabında çar Rusiyasının müstəmləkə siyasətini xarakterizə edərək yazır ki, 1828 və 1854-cü illərdə ruslar iki dəfə Şərqi Anadoluya hücum etmiş və hər iki dəfə yerli ermənilər onların tərəfini saxlamışdılar. Hər iki halda ruslar çıxıb getməli olanda özləri ilə 100 min erməni tərəfdarını Qafqaza gətirmiş, onları qovulmuş müsəlmanların evlərində yerləşdirmişlər. Professor sözünə davam edərək yazır: «...biz dəqiq bilirik ki, 1820-ci ildən 1920-ci ilədək təxminən 600 min erməni rus imperiyasının ərazisinə köçürülmüşdür. 2 milyon müsəlman isə Rusiyadan getmişdir».

Mayevski öz hökumətinə təqdim etdiyi rəsmi raportda «Ermənilər tərəfindən Türkiyədə həyata keçirilən faciənin məsuliyyəti, əvvəla, erməni komitələri ilə müştərək hərəkət edənlərin, saniyən, onları bu işə təşviqat edən əcnabi dövlətlərin üzərinə düşür» - deyirdi.

1919-cu ildə ABŞ prezidenti Vilsonun şəxsi tapşırığı ilə «erməni soyqırımını tədqiq edən general Harvard isə öz ölkəsinin senatına bu məzmunda sənəd təqdim etmişdir: «Ermənilərin iddia etdikləri soyqırımından kiçik iz belə yoxdur. Bunun əksinə olaraq ermənilər İrəvan və Qars bölgələrində, Güney Anadoluda türklərə qarşı soyqırımı və köçürmə siyasətini həyata keçirmişlər. Qara dənizdən İrana qədər uzanan türk sərhədlərini gəzdik, fəqət, erməni raportlarını təsdiqləyəcək heç bir şey bulmadıq».

V.İ.Lenin daşnaq hökumətinin böyük dövlətçilik iddiasından bəhs edərək yazırdı: «Türkiyəni Sovet Rusiyasına qarşı qaldırmağa, dostluq münasibətləri yaratmaq haqqında danışıqları pozmağa çalışan Antanta rəhbərləri fitnəkarlıqla daşnaq Ermənistanının Türkiyəyə hücumunu təşkil etmişdilər. Daşnaqlar Türkiyəyə qarşı təcavüzkar mövqe tutaraq, Kiçik Asiyanın təqribən yarısı daxil olmaqla, «Böyük Ermənistan» yaratmağa can atırdılar. 1920-ci il sentyabrın 24-də daşnaq hökuməti Türkiyəyə qarşı hərbi əməliyyata başladı».

Lakin V.İ.Lenin burasını da qeyd etmir ki, «cırtdan» bir dövlətin yeni yaranmış Türkiyə Respublikasına hücumu həmin Leninin qəyyumluğunun nəticəsi idi. Daşnaq ordusunun hücumu müvəffəqiyyət qazana bilmədi, çünki artıq Rusiya ordu göndərmək iqtidarında deyildi. Vəziyyətdən çıxış üçün daşnaqlar Türkiyə hökümətindən müharibənin müvəqqəti dayandırılmasını xahiş etdi. Türkiyə ordusunun komandanı Kazım Qarabəkir paşa döyüş əməliyyatlarının dekabrın 5-dək dayandırılmasına razılıq verdi. Türk komandanı döyüş əməliyyatlarını o şərtlə dayandırırdı ki, erməni daşnaq hökuməti məlum Sevr müqaviləsinin şərtlərindən imtina etsinlər. Daşnaq hökuməti bu təklifi qəbul etməyə məcbur oldu. Bu razılıq əldə edildikdən sonra 1920-ci il noyabrın 26-da müvafiq bəyanat qəbul olundu. Dekabrın 2-də isə daşnaq hökuməti 18 maddədən ibarət Aleksandropol müqaviləsini imzaladı. Türkiyə yollardan rüsum vermədən istifadə etmək hüququna malik oldu. Nəticə etibarilə Ermənistan daşnaq hökuməti Türkiyə Respublikasının vassalına çevrildi. Müqavilənin 4-cü maddəsində deyilirdi: «Dörd İmperialist dövlətlərinin təhrik və təzyiqi nəticəsində intizam və təhlükəsizliyi pozan hərəkətlərə bundan sonra imkan verməmək kimi xeyirxahlıq məqsədilə Yerevan (Ermənistan) hökuməti daxili təhlükəsizliyini «qorumaq» üçün lazımi səviyyədə yüngül silahlı jandarma qüvvəsi və ölkəni qorumağa ayrılan 8 dağ və ya səhra topu ilə 20 pulemyota malik muzdla tutulan 1.500 əsgərdən ibarət bir birlikdən artıq hərbi qüvvəyə malik olmayacağını öhdəsinə götürür. İrəvanda məcburi hərbi xidmət olmayacaqdır. Ermənistan Respublikası ölkəsini xarici düşmənlərdən qorumaq üçün müdafiəni möhkəmlətmək və burada istədiyi miqdarda ağır top yerləşdirməkdə sərbəstdir. Bu toplar arasında hərəkət edən orduda istifadə olunan 15 santimetr qısa lüləli ağır top ilə 15 santimetrlik uzun toplar və daha kiçik ölçülü hər hansı bir ağır atəşli silahlar işlədilməyəcəkdir» (Türkiyə-Ermənistan sülh müqaviləsi -»Azərbaycan», 7 fevral, 1991-ci il).

Həmçinin Ermənistan hökuməti hətta ölkə daxilində qayda-qanunu bərpa etmək məqsədilə Türkiyədən hərbi kömək istəməli idi.

Lakin ermənilərin böyük ustalıqla axtarıb tapdıqları etibarlı qəyyum-Rusiya hökuməti Aleksandropol müqavilələrini tanımaq istəmədi. Həm də noyabrın 29-da İrəvanda Sovet hökuməti elan edildi. Buna görə də daşnaq hökuməti danışıqları davam etdirmək hüququnu itirdi.

Türk xalqlarının (türk və azərbaycanlıların) soyqırımını planlı surətdə yerinə yetirən ermənilər yuxarıda deyilən kimi Antanta ordusu ilə xaricə köçmək qərarına gəlmişlər. Çünki onlar türklərlə bir yerdə yaşamaq umuru, yəni üz tutalcağı qoymamışlar. Qaçanların müasir törəmələri hay-haray salırlar ki, vaxtilə türklər onları qırmışlar. Əgər onlar soyqırıma uğradılmışsa, bəs hazırda 7 milyon erməni (1 milyon ABŞ-da, 400 min Fransada, 2 milyon Rusiyada,Türkiyədə müsəlman ermənilərdən başqa 400 minə yaxın xristian erməni, 3,5 milyon hazırkı «Ermənistan»da və s.) haradan gəlmişdir.

Lakin ermənilər təbliğ edirlər ki, Türkiyənin 6 vilayətində (sancağında) o zaman erməni əhalisi 80 % olmuşdur. Bu yalançı rəqəmlər vasitəsi ilə dünyanı inandırmağa çalışan ermənilər yazıya alırlar ki, 1915-1917-ci illərdə 1,5 milyon soyqırımı edilmişdir. Bu rəqəm müxtəlif dövrlərdə müxtəlif miqdarda göstərilir: keçən əsrin 40-cı illərində 300 min, 50-ci illərində 600 min, 60-cı illərin əvvəlində 800 min, 60-cı illərin ortalarında 1 milyon, sonralarda isə 1,5 milyon olduğu bildirilir.[58]

Erməni şovinistlərindən olan C.Kirokosyan «XIX əsrin sonlarında və I dünya müharibəsi dövründə erməni milli azadlıq hərəkatı» kitabında ermənilərin Türkiyənin 6 vilayətində 1.439.000 olduğunu və onların hamısının məhv edildiyini deyir. Halbuki, C. Makkartinin tədqiqatında həmin 6 vilayətdə 870 min erməni olmuşdur ki, bu da bütün əhalinin beşdə biri idi. Daha doğrusu, bizim tədqiqatlarda (bax: cədvəl) ermənilər həmin 6 vilayətdə olan əhalinin 20%-ni təşkil etmişlər.

---

[58] Kaputikyan. Oçerklər (EMEA-nın iclasında çıxış), İrəvan, 1988, səh. 46-48.

Bu münasibətlə Camal paşa yazırdı: «Tutaq ki, türk hökuməti Şərqi Anadoludan bir milyon yarım ermənini sürgün etdi və onların altı yüz mini yolda qılıncdan keçirildi, aclıqdan və xəstəlikdən həlak oldular. Bəs niyə maraqlanan yoxdur ki, ruslar Trabzon, Van və Bitlis vilayətlərinə hücum edəndə 2 milyon yarımdan çov kürd və türk ermənilər tərəfindən vəhşicəsinə öldürüldü.

Əgər türklər erməniləri öldürməkdə günahlandırılırsa, bəs onda bu qədər kürdü və türkü öldürən ermənilər niyə məsuliyyət daşımır? Yoxsa kürdlər və türklər insan sayılmırlar?

1918-ci ilin martında Dərələyəz mahalının Gül kəndindən Qılınclı tayfasından 150 nəfər adamı məscidə yığaraq od vurub yandırmışlar, Dərələyəzin Terp kəndinda bir gecədə 60 nəfər qətlə yetirmişlər. Həmin Terp kəndindən 98 yaşlı Rüstəm kişi deyirdi ki, bacımı kürəyimə atıb qaçanda güllə uşağa dəydi, ölmüş uşağı yolun kənarına qoyub qaçdım. Ermənilər kənddən çəkildikdən sonra qayıtdım ki, ölmüş uşağa 60-a qədər süngü vurmuşlar.

1918-ci ilin yayında tayqulaq Andronikin quldur dəstələri qəfil Zəngəzura hücuma keçdilər. Azərbaycanlılar yaşayan 115 kənd darmadağın edildi, 11 minə yaxın azərbaycanlı öldürüldü.

1918-ci il aprelin 29-da Gümrüdən Axılkələyə pənah gətirən 3 nəfər azərbaycanlını ermənilər qətlə yetirdilər. Həmin ildə Mehrinin 23, Gorusun 10, Qafanın 11 kəndi tam yandırılmışdır.

1918-1920-ci illərdə ermənilər təkcə Sisyan rayonunda 10.068 azərbaycanlı qırıblar. Onlardan 2.267-si körpə uşaq olublar.

1988-ci il noyabr ayında zəlzələdən bir neçə həftə qabaq 70 azərbaycanlı uşağı boruya doldurulub ağzını da qaynaqlayıblar, 25 uşağı isə avtobusda naməlum yerə aparıblar. Həmin ərəfədə (27.XI - 30.XI.1988) 350 nəfər öldürülüb. Lakin bunları Dünya bilmir.

Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Fövqəladə komissiyası müəyyən etmişdir ki, 1918-ci ildə Zəngəzurda 114, Qarabağda 117 kənd dağıdılıb, 13.356 nəfər öldürülüb, 304 nəfər diri-diri yandırılıb.[59]

Zaqafqaziya Seyminin komissiyası müəyyən etmişdir ki, İrəvan quberniyasında 211 kəndin azərbaycanlı əhalisi tamamilə qətlə yetirilib.

Arxiv sənədlərindən məlum olur ki, 1,5 milyondan çox Azərbaycanlı Qərbi Azərbaycanda qırılmış, köçürülmüşdür.

Ermənipərəst Qarbaçov idarəçiliyinin süni surətdə ortaya atdığı qondarma Qarabağ problemi ilə 1988-1989-cu illərdə 250 min azərbaycanlını etnik torpaqlarından, dədə-baba ocaqlarından deportasiya etdi və s.

1915-ci ildə cəbhədən 300 min erməni arxa cəbhəyə-təhlükəsiz yerə çıxarılmasına soyqırımı deyilir və bu 1,5-2 milyona qədər şişirdilib «erməni soyqırımı» adı verirlərsə həqiqətən 2 milyon yalnız azəri türkünün ermənilər tərəfindən soyqırımı və deportasiya edilməsini dünya ictimaiyyəti niyə qulaq ardına vurur?

Ermənilərin hər cür iddialarının haqsız olmasını ermənilərin özləri təsdiq edirlər. Məsələn: 1914-cü ildə Qahirədə çap olunmuş bir kitabda Ruben adlı erməni yazır ki, ermənilərin ən böyük bədbəxtliyi ondadır ki, azərbaycanlılarla qonşu olub.

Ermənilərin ədəbiyyatında, tarixində həmişə vurğulanıb ki, imkan daxilində indiki Ermənistanı türksüz qoymaq lazımdır. «Türksüz Ermənistan» şüarı, bir də dənizdən-dənizə Ermənistan» şüarı onların başlıca məqsədləridir. Onların ali məqsədləri budur ki, Aralıq dənizindən Qara dənizədək, Qara dənizdən də Xəzərə kimi olan ərazini alsınlar, «Böyük Ermənistanı» yaratsınlar. Halbuki «Böyük Ermənistan» adında heç bir dövlət olmayıb və onu bərpa etməkdən danışmaq da xülyadır.[60]

Bütün bu qırğınlar Rusiyanın təhriki ilə törədildi. Ruslar Osmanlı imperiyasının sərvətlərini ələ keçirmək və minillik tarixə malik qüdrətli bir xalqın haqqını tapdamaq istəyirdilər. Yalnız onlar iki xalqı bir-birinə düşmən edib qan dənizində boğdular: türklərə deyirdilər ki, özünüzü xilas etmək üçün ermənilərin axırına çıxın. Öz növbəsində erməniləri də qızışırdırdılar ki, türkləri öldürsəniz sayca çoxluq qazanarsınız. 600.000 erməni və 1.500.000 kürd və türk bu ağılsız siyasətin qurbanı oldu».

C.Kirokosyanın rəqəmlərini qəbul edək ki, 1915-ci ildə Osmanlı imperiyasında yaşayan 1,5 milyon erməni üç gün ərzində (23, 24, 25 aprel) soyqırımına məruz qalmışdır. Bəs, onda necə oldu ki, külli miqdarda erməni terrorçuları təşkil olunub 1916-cı ilin sentyabrında Urfada, Şəbinqarahasarda, Silifkidə, Fındıcıqda və sair yerlərdə üsyan qaldırdılar, orada insafsızcasına vəhşiliklə türkləri, hətta rəhmsizcəsinə qadın və uşaqları qətlə yetirdilər.[61]

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Osmanlı ordusunun tərkibi I Dünya müharibəsi dövründə 2.850.000 olmuşdur ki, 300 mini Qafqaz cəbhəsində döyüşürdü. Türk ordusundan 501.091 adam ölmüş, 891.304 adam isə yaralanmışdır. Oxucular götür-qoy etsinlər; kim soyqırıma məruz qalmışdır? [62]

Faktları erməni müəlliflərinin özləri də boyunlarına alırlar. A.Lalayan «Daşnaqsütun və 1914-1918-ci illərin imperialist müharibəsi» əsərində «könüllülər» hərəkatının yekununu xarakterizə edərək yazmışdır:

... «Könüllülər» hərəkatı onunla səciyyəlidir ki, qaniçən xmbabetlər (Komandanlar - red.) başda olmaqla daşnaq dəstələri türk qadınlarının və uşaqlarının, qocalarının və xəstələrin qırılmasında maksimum «cəsarətlilik» göstərmişlər. Daşnaq dəstələrinin tutduqları türk kəndləri canlı insanlardan «təmizlənib» eybəcər hala salınmış qurbanları ilə birlikdə xarabalığa çevrilmişdir. Yeni Bayazitdən olan daşnaq qəhrəmanlarından biri Valıram 1920-ci ildə öz «qoçaqlığını» belə təsvir etmişdir.

Mən Basarkeçərdə heç nəyi nəzərə almadan, türk əhalisini qırdım-deyə daşnaq «başkəsəni» lovğalanırdı, lakin bəzən gülləyə hayfım gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub

---

[59] Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. B., 1990, s. 190.
[60] Soyqırım-«Respublika», 29.03.2001.
[61] Əsgər Əliyev. Ermənilər muğamlarımızı da öz adlarına çıxıblar.-Azərbaycan Respublikasının mədəniyyət və siyasəti barədə milli məruzənin təqdimatı - «Xalq qəzeti», 13.11.2002, N2237 (24201).
[62] Kaçaznuni O.V. Daşnaksütun bolşe niçeqo delat. Tiflis 1927, s. 33.

üstündə ağır daşları tökəsən ki, onlardan əsər əlamət qalmasın. Bandit sözünə davam edərək deyir: mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları öldürüb doldurdum quyuya və üstünü də daşla doldurdum...[63]

Beləliklə, daşnaq könüllülər hərəkatının nəticələrindən biri on minlərlə türk zəhmətkeşinin qırılmasıdır».[64]

«Erməni soyqırımı» rəqəmlərinin çoxsaylı müxtəlifliyindən belə çıxır ki, ermənilərin ölüləri də doğuş qabiliyyətinə malikdir. Onların doğumu 50 il ərzində (1915-1965-ci illər) 300 mindən 1,5 milyona çatmışdır. Buradan belə qənaətə gəlmək olar ki, erməni ölülərinin doğması dünyanın 8-ci möcüzəsidir.

Bəs genosid olmuşdurmu???

**General Harbordun məlumatı:**

«Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlubiyyəti, Mudrosda (1918) müqavilə imzalanması vənəticədə Anadolunun Antanta dövlətləri tərəfindən işğal edilməsi, ermənilərdə yenidən müstəqil bir dövlət qurmaq arzusu oyatdı.

Qalib ölkələrin Türk ordusunun buraxılması və tərksilah edilməsi tələbləri onların bu ümidini daha da artırmışdı. Şərqi Anadoluda türklərin pis vəziyyətə düşə biləcəyini çox yaxşı dərk edən Kazım Qarabəkir Paşa komandanı olduğu 15-ci ordu korpusunu buraxmaq və tərksilah etmək əmrini yerinə yetirmədi. Beləliklə, türklər üçün müəyyən bir müdafiə imkanı yarandı. Lakin ermənilərlə müharibə labüd idi.

Qərb dövlətləri ermənilərin qırğına uğraması faktını təhqiq etmək üçün Türkiyəyə bir heyət göndərməyi qərara almışdılar. Heyət 1919-cu il sentyabrın 25-də general Harbordun rəhbərliyi altında Ərzuruma gəlmiş və tədqiqatlara başlamışdı. Gez kəndində Kazım Qarabəkir Paşa tərəfindən qarşılanan heyətə ermənilərin yox, türklərin qırğına düçar olması göstərilmişdi. Uzun illər erməni təbliğatının təsirilə onların xeyrinə qərar vermək arzusu ilə gəlmiş general Harbord, Kazım Qarabəkir Paşanın bütün hadisələri olduğu kimi göstərib aydınlaşdırması nəticəsində həqiqəti öz gözlərilə görüb düzgün nəticə çıxarmağa məcbur olmuşdu.

General Harbord sonralar verdiyi məlumatda türklərin ermənilərə qarşı heç bir genosid aktı aparmadıqlarını və ermənilərin Anadolunun heç bir yerində çoxluq təşkil etmədiyini bildirdi» (III, 6.).

## KÜTLƏVİ QIRĞINLAR (1914-1920-Cİ İLLƏR)

> «Tiflisdə gürcü menşeviklərinin təsirinə, Bakıda bolşeviklərin hegemonluğu altına düşsək də, biz hər iki halda milli maraqlarımızı, milli strategiyamızı nəzərə alıb getmişdik. Bunun nəticəsi idi ki, müsavatçılara öldürücü zərbələr vura bildik.»
>
> ***Hovanes Kaçaznuni***

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın tarixi torpaqlarında erməni şovinizmi planlı, düşünülmüş şəkildə soyqırımı həyata keçirməyə başladı. «Gəlmə erməni tendensiyası» XX əsrin əvvəllərindən etibarən məhz çar Rusiyası və bolşevik ideologiyasının ortaya atdığı millətlərarası münaqişə zəminində yarana biləcək problemlərlə istəyinə nail oldu.

Əsrin ilk illərində Azərbaycanda qanlı qırğınlar, terrorlar həyata keçirən erməni şovinistləri «Böyük Ermənistan» və «Dənizdən dənizə dövlət» prinsiplərini reallaşdırmaq üçün ilk dəfə 1905-1907-cı illərdə yerli azərbaycanlılara qarşı soyqırım və deportasiya siyasətini həyata keçirdilər. Həmin illərdə Qərbi Azərbaycanın İrəvan, Göyçə, Zəngəzur mahallarında həmçinin Gəncə, Qarabağ və başqa bölgələrdə köklü təmizləmə siyasətinin aparılması erməni millətçiləri və çar Rusiyasının əsas məqsədlərindən biri idi. Təəssüflə bildiririk ki, ermənilərin millətimizə qarşı törətdiyi bu kütləvi soyqırımı və deportasiya siyasəti birinci olsa da sonuncu olmadı.

Qərbi Azərbaycanda (indiki Ermənistanda) və Naxçıvanda yaşayan azərbaycanlıların qətli üçün ermənilər yenidən 3 diviziya yaratdılar.

Rusiyada Burjua Fevral (1917) inqilabından sonra Rusiyanın cəbhələrdə vəziyyəti ağırlaşdı. Rusiya Ordusu tərkibində vuruşan üç korpusdan ibarət 250 min erməni könüllüləri türk ordusunun rus ordusuna qarşı əks həmlələri nəticəsində pərən-pərən düşüb, quldur dəstələrinə çevrilərək rus hərbi birləşmələrinə səpələndilər və bunun nəticəsində türk-müsəlman soyqırımı işi zəiflədi. Çünki vahid komandanlıq həm rus ordusunun sərəncamında idi, həm də erməni qüvvələri parçalanmışdır.

Lakin «Böyük Ermənistan» xülyasını həyata keçirmək üçün ermənilər yeni planlar hazırladılar. Bu plana əsasən ilk növbədə türksüz ölkə yaratmaq lazım idi. Bu məqsədlə ermənilər azərbaycanlıları məhv etmək üçün pərakəndə quldur dəstələri ilə kifayətlənməyib, yenidən nizami ordu yaratmağı qərara aldılar. Bunun üçün 1917-ci ilin may ayında o zamankı Rusiya müvəqqəti hökumət başçısı Kerenskinin yanına nümayəndə göndərib, ondan xahiş etdilər ki, icazə verilsin rus ordusunda olan erməni könüllülərindən yeni ordu təşkil edib türklərə qarşı vuruşmağı gücləndirsinlər.

Ermənilər həm də müvəqqəti hökumətdən silah da tələb etdilər. Kerenski ermənilərin xahişini yerinə yetirib, tələblərini də təmin etdi. Bundan sonra ermənilər 1917-ci ilin mayında 35 min nəfərlik qoşun korpusu yaratdılar. General T.Nazaryan korpus komandiri, Dro Qanyan korpus komandirinin müavini təyin edildi. Korpus 3 diviziyaya bölündü. Diviziyalar arasında sahə bölgüsü aparıldı. Hansı diviziya, hansı bölgələrdəki azərbaycanlıları qırıb, yandırıb məhv etməlidisə, onlar müəyyənləşdirildi:

1. General Andronik Naxçıvan, Sisyan, Zəngəzur və Qarabağın dağlıq hissələrində;
2. General Arisyan və Dro Qanyan İrəvan, İrəvanətrafı, Zəngibasar, Eçmiədzin Qurudüzlü və Vedibasar rayonunun

[63] Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. B., 1990, s. 192-194.
[64] «Revolюционный Vostok», 1936, № 2, 3.

hissəsində, Qəmərli və Dərələyəz zonalarında;

3. Polkovnik Silikov-Silikyan Göyçə gölü ətrafı rayonlarında azərbaycanlıları məhv etməli idi. Bu alçaqlar elə bu plan əsasında da işə başladılar.

I Dünya müharibəsindən sonra ermənilərin Cənubu Qafqazda məkrli planlarını həyata keçirmək üçün əlverişli şərait yarandı. Türkiyə ərazisində erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura boyük miqdarda erməni köçüb gəlmişdi. Əlbəttə ki, Azərbaycanın Qərb ərazilərində məskunlaşan bu ermənilər hələ XVIII-XIX əsrlərdə olduğu kimi, bu dövrdə də yerli azərbaycanlıları müxtəlif vasitələrlə sıxışdırdılar. Təsadüfi deyildi ki, 1918-ci ilin mart ayına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdıldı. Məhz bu prossesdən sonra İrəvan quberinyası ərazisində erməni dövlətinin yaradılması, sonra da Azərbaycanın digər ərazilərinə qarşı torpaq iddiası mərhələsi başladı. Rus çarizminin ucqarlarda yeritdiyi müstəmləkə siyasəti ermənilərin, xüsusilə də, onların terrorçu təşkilatı olan «Daşnaqsütün»un fəaliyyətini «bir qədər» yüngülləşdirməyə çalışsa da, erməni şovinistləri Avropa ölkələrində «erməni məsələsi»nin siyasi aləmə daxil olmasını təmin edə bilmişdi. Hətta bunlar azmış kimi, Bakıya yığılmış erməni daşnaqları «Böyük Ermənistan» yaradılması üçün yeni taktika hazırladılar.

Əlbəttə bu prosseslər ardıcıl və düşünülmüş şəkildə həyata keçirilirdi. Odur ki, Rusiyada baş vermiş fevral burjua inqilabından sonra Bakıda bolşeviklər və daşnaqlar birgə hərəkət etməyə başladılar. Bu yaxınlıq hər şeydən əvvəl «Müsavat» partiyasının hakimiyyətə gəlməsinin qarşısını almaq və azərbaycanlılara qarşı növbəti soyqırımını həyata keçirmək məqsədi daşıyırdı.

Hələ ermənilər 1917-ci il Ümumqafqaz səviyyəsində keçirdikləri bir çox toplantılarda gürcülərə və azərbaycanlılara qarşı ərazi iddialarını açıq-aşkar səsləndirməyə başladılar. Həmin ildə erməni millətçiləri Tiflisdə keçirilən kəndli deputatların qurultayında «köçərilər» (elatlar) haqqında məsələni qaldıraraq Cənubu Qafqazın, inzibati cəhətdən yenidən bölüşdürülməsi təklifi ilə çıxış etdilər və Yelizavetpol (Gəncə) quberniyasının iki inzibati vahidə ayrılması iddeyasını ortaya atdılar. Bu təkliflərdə ermənilər ilk olaraq Yelizavetpol qəzasının dağlıq hissəsinin və Qarabağ, o cümlədən, Zəngəzurun da daxil edildiyi Qanri quberniyasının yaradılmasını təklif etdilər. Beləliklə, erməni daşnaqları Cənubu Qafqafqazın, ilk növbədə Gəncə quberniyasının yeni inzibati bölgüsü barədə səs-küy salmaqla əslində, «Böyük Ermənistan» nın xəritəsinin konturlarını çəkmiş oldular.

1917-ci ilin oktyabrında Tiflisdə keçirilən «Ümummilli erməni konfransı»ndakı əhval-ruhiyyə və səslənən fikirlər də çox tezliklə erməni-gürcü və erməni-azərbayanlı münasibətlərini xeyli gərginləşdirdi. Erməni tarixçilərindən O. Minasyan və başqaları bunun səbəblərini gürcü mətbuatının, ələlxüsus da, türklər və azərbayanlıların üstünə atsalar da, Cənubu Qafqazdakı siyasi-hərbi qarşıdurmanın əsas baiskarlarının erməni daşnaqları olmaları elə həmin dövrdə faktlar və sənədlərlə sübut edilmişdir. Lakin bolşeviklərin millətlərin huquq bərabərliyinə dair aldadıcı siyasəti, 1917-ci ilin dekabrında Lenin ermənilərin planlarının reallaşmasına şərait yaradan tədbirləri (S. Şaumyanın Qafqazın Fövqəladə Komissarı təyin olunması və onları daha da fəallaşdırdı.

Bu dövrdə Cənubu Qafqazdakı daxili və xarici siyasət, o cümlədən, sərhədlər məsələsi 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində keçirilən bir sıra danışıq və müqavilələr də (Ərzincan, Trabzon, Brest-Litovsk, Batum) mühüm yerlərdən birini tuturdu. Lakin ermənilər əldə edilən sazişlərə məhəl qoymayaraq xeyli silahlı qüvvə ilə Azərbaycan torpaqlarında, xüsusilə də İrəvan, Zəngəzur və Naxçıvan bölgələrində terror və zorakılığa başladılar. 1917-ci ilin dekabrından başlayaraq, erməni silahlı dəstələri Umudlu, Qaralar, Sırxavənd, Buruc, Çıraqlı və s. kəndlərə hücumlar edərək əhalini daşnaqlara tabe olmağa məcbur edirdilər. Azərbaycanlılardan müxtəlif vergilərin toplanması, əhalinin mal-qarasının oğurlanması bu vaxtdan sonra müntəzəm hal alır. 1917-ci ilin dekabrında erməni silahlı quldur dəstələri İrəvan, Zəngəzur, Naxçıvan və Qarabağın bir sıra kəndlərinə soxularaq sakinlərin evlərində keşikçilər qoymaqla yanaşı, onlardan tabe olmağı tələb edirdilər.

## MART 1918. BAKI QIRĞINI

1917-ci ilin dekabrın 16-da RSFSR Xalq Komissarları Soveti tərəfindən S.Şaumyanın Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilməsinin az təsiri olmadı. Onun bu işdə ən yaxın silahdaşları sağ eser S. Saakyan, daşnaqlardan Miricanyan, Arakelyan və başqaları idi. Bu zaman Şaumyana və digər bolşeviklərə Qafqazda sovetləşdirmə siyasətini həyata keçirmək və həmçinin də Türkiyədə rus ordusunun işgalı altında olan yerlərdə dırnaqarası «Ermənistan» yaratmaq tapşırığı verilmişdi. Bu məqsədlə Şaumyan 1918-ci il yanvarın 22-də Tiflisə gəldi. Qafqazı, habelə Zaqafqaziyanı milli demokratik hərəkatı bürüyürdü. Bu tərəfdən də Zaqafqaziya Seymi çağırılmışdı. Seym 1918-ci il fevralın 10-da toplandı. Onun tərkibi Zaqafqaziyada Müəssisələr Məclisinə seçilmiş «Müsavat», «İttihat», eser-menşevik və daşnaq deputatlarından ibarət idi. Hadisələrin bu cür cərəyan etməsinə qarşı çıxaraq Tiflisdə mitinqlər keçirməyə çalışan S. Şaumyan Zaqafqaziya Komissarlığı tərəfindən həbs olunacağını görərək tezliklə Bakıya qayıtdı və o, Bakı Sovetinin təşkili ilə məşğul oldu.

Tarixi faktlar göstərir ki, Bakı Kommunası heç bir milli kökləri olmayan, yerli əhalidən, müsəlman kütləsindən təcrid olunmuş Qırmızı Rusiyanın, Erməni millətçilərinin mənafeyinə xidmət edən anti-demokratik, anti-Azərbaycan siyasəti yeridən, xüsusən Bakını Sovet Rusiyasının hakimiyyətçiliyinə tabe etdirməyə çalışan və Azərbaycanın istiqlalına qarşı inadla mübarizə aparan Qondarma hökumət idi.

Xalq Komissarları Sovetində əsas həlledici rəhbər mövqelər ermənilərin əlində cəmləşmişdi. S. Şaumyan Xalq Komissarları Sovetinin sədri və Xarici İşlər komissarı, Q.Korqanov Hərbi-Dəniz İşləri komissarı, A. Karinyan (Qabrielyan) Ədliyyə komissarı kimi aparıcı vəzifələri tutmuşdular. Bakı kommunasının rəhbər eşelonun Avetisyan, Kostandyan, Osipyan, Əmiryan, Ter-Saakyan, Nuricanyan, Mikoyan və digər daşnaqpərəst ermənilər də daxil idilər.

Bakı komendatlığının hərbi birləşmələrinin başında da əsasən erməni bolşevik və daşnaq partiyalarının üzvləri dayanırdı. İctimai rəy yaradan vasitələrin, qəzetlərin aparıcı işləri ermənilər idi. Sovet Rusiyası ilə bütün əlaqələr və danışıqlar

ermənilərə etibar edilmişdi. Azərbaycanın ictimai-siyasi vəziyyəti, Bakıya hərbi-hissələrin, silahın və döyüş sursatının göndərilməsi, Bakı neftinin Sovet Rusiyasına daşınması barədə Leninlə şəxsi danışıqlar da əsasən ermənilər vasitəsilə aparıldı. Bakı XKS-nin tərkibində Bakı, Cavad, Lənkəran, Quba, Dərbənd qəza komissarlıqları istisna olmaqla, cəmi 3 azərbaycanlı vardı. (Nərimanan Nərimanov -şəhər təsərrüfatı komissarı, M.Əzizbəyov-quberniya komissarı və M.Vəzirov - torpaq komissarı). Bu da həmin hökumətin yerli əhaliyə, ölkəyə nə qədər uzaq olduğunu göstərirdi.

Başda Şaumyan olmaqla silahlı daşnaq təşkilatından istifadə edərək konkret şəraitdə «Müsavat»ı siyasi mübarizədən çəkindirmək üçün tədbirlər planı hazırladı. Bu planlardan biri şəhərdəki erməniləri silahlandırmaq, azərbaycanlıları tərkisilah etmək idi.

1918-ci ilin əvvəllərində Bakıda yaradılmış Sovet hərbi hissələri ilə yanaşı xeyli silahlı erməni əsgərləri də toplanmışdı. Şaumyanın ixtiyarında özünün dediyi kimi 10.000-ə qədər (6.000 Sovet, 4.000 daşnaq) silahlı qüvvə var idi. Qırğın ərəfəsində erməni silahlı qüvvələrinin sayı bütövlükdə 20.000 nəfəri keçmişdi. Bundan başqa rus ordusu inqilab zamanı Qafqazdan çəkilərkən onun bütün silah və təhcizatı erməni daşnaqlarının əlinə keçmişdir. Demək olar bu qədər qüvvənin qarşısında azərbaycanlılar silahsız qalmışdı.

1918-ci ilin martın 3-də bolşeviklərin Almaniya ilə imzaladıqları Brest-Litovski sülhündən sonra Qars, Ərdəhan və Batumun Türkiyəyə qaytarılması nəticəsində burada yerləşən rus ordusu və onun tərkibindəki erməni dəstələri adı çəkilən əraziləri tərk etməli oldular. Həmin hissələr Bakı dəmiryolu ilə hərəkət edərkən Şəmkir, Gəncə və digər ərazilərdə 200-dən çox kənd və yaşayış məntəqəsini qarət edərək Bakıya gətirdilər. «Böyük Ermənistan» yaratmaq üçün «Türksüz Ermənistan» tezisini həyata keçirməyi planlaşdıran Şaumyan və onun havadarları isə bu şansı əldən verməməyi qərara aldılar.

Şaumyan erməni əsgərlərinin Bakıda saxlanmasına nail oldu. Bakıda toplaşan böyük sayda erməni-daşnaq silahlılarının qarşısında duran əsas maneə isə azərbaycanlıların Lənkəranda könüllülərdən ibarət yaratdıqları milli hərbi bölüklər idi. Məhz bolşevik və ermənilər də ilk zərbəni bu nizamsız orduya vurdular. Buna bəhanə isə Lənkəranda xidmət edən Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsini gətirən yoldaşları və onlara başçılıq edən Talışinskinin Bakıda görünməsi oldu. Şaumyanın göstərişi ilə Bakı Sovetinin qırımızı qvardiyası matrosları «Evelina» gəmisindəki müsəlman əsgər və zabitləri həbs etdilər. Müsəlman əsgərlərinin həbsi üçün onların Bakıdakı rus əhalisinə qarşı hücuma keçəcəyi barədə şaiyə ermənilərin əlində olan Bakı Soveti tərəfindən asanlıqla həyata keçirildi. Bu hadisə Azərbaycanın digər bölgələrində də narazılıqla qarşılandı. Lakin əsgərlərin bir qrupu dəfndə iştirak etdilər və geriyə dönmək üçün Bakı Soveti onlara 24 saat vaxt verdi. Bu ultimatium Bakının müsəlman əhalisini bərk tərpətdi. Əhali ermənilərin də tərkisilah olunmasını tələb edirdi. Bütün bu hadisələr martın 17-ə qədərki dövrdə baş versə də, şəhərdəki ermənilər artıq iki gün əvvəlcə silahlandırılmışdılar. Elə həmin gün ermənilər növbəti hiylə işlətdilər. Martın 17-də (köhnə stillə) Azərbaycan Milli Şurasının «İsmailiyyə» binasında keçirilən iclasında erməni milli şurasının üzvləri-Ter-Mikoelyan, Taqianisov və başqaları baş verən hadisələri bolşeviklərin adına yazaraq onlara qarşı mübarizə aparmaq təklifi ilə çıxış etdilər. Aydın məsələdir ki, bu niyyətin arxasında ermənilərin müsəlmanları bolşeviklərə qarşı qaldırıb, sonradan «vətəndaş müharibəsi» adı ilə bolşeviklərlə birləşmək və dinc əhalini qırmaq planı durmuşdu. Beləliklə, martın 18-də ermənilərin fitvası ilə «Müsavat» və erməni milli şurası bolşeviklərə qarşı birgə mübarizə aparmaq barədə razılığa gəldilər. Həmin gün Bakı Sovetinin azərbaycanlı əsgərlərinin tərkisilah edilməsi üçün 24 saatlıq ultimatumun vaxtı bitirdi. Müsəlman nümayəndələri qanlı toqquşmalara yol verilməməsi üçün icraiyyə komitəsinin tələbini qəbul etdiklərini bildirdikləri ərəfədə şəhərin Şamaxinka deyilən ərazisində artıq erməni silahlıları azərbaycanlıları qırmağa başlamışdı. Daşnaq-bolşevik dəstələri birləşərək martın 21-dək azərbaycanlılara qarşı soyqırımı həyata keçirdilər. Martın 20-də daşnaq Əmiryan Tatevosun başçılığı ilə «İsmailiyyə» binası yandırıldı. Bu işi A. Mikoyanın başçılıq etdiyi «Qırmızı Qvardiya» dəstələri, «İnqilabi əks inqilabdan müdafiə» adı ilə çıxış edib, yerinə yetirirdilər. Müsəlman Xeyriyyə Cəmiyyəti, «Xalq evi», «Kaspi», «Açıq söz» qəzetlərinin redaksiyalarına basqın edildi.

Martın 19-da isə azərbaycanlı nümayəndələr Bakı Sovetinə, şəxsən Şaumyana müraciət edərək mühafizəsiz müsəlmanlara qarşı qırğına son qoymağı xahiş etdilər.

Lakin bildirdiyimiz kimi, azərbaycanlıların qətlə yetirilməsi martın 21-dək davam etdi. Kütləvi terrorun dayandırılması isə Türküstan polkunun və rusiyalı dənizçilərin Bakı Sovetinin tabeçiliyindən çıxacağı ilə bağlı xəbərdarlıqdan sonra Çaparidzenin işə qarışmasından sonra baş verdi. Lakin daşnaqlar səngimək bilmirdilər. Odur ki, martın 30-dan başlayaraq ermənilər növbəti qırğınlara başladılar. Yenə də əsas hədəf «Müsavat», Azərbaycan Milli Şurası və bunlara güvənən azərbaycanlılar, bütövlükdə müsəlman əhalisi idi.

Martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri şəhəri gəmilərdən yaylım atəşinə tutdular. Bunun ardınca silahlı daşnaqlar azərbaycanlıların evlərinə soxularaq amansız qətllərin, vəhşiliklərin əsas səbəbkarlarına və icraçılarına çevrildilər. Bu hücumda yenə də bəhanə azərbaycanlı əsgərlər oldu. Belə ki, həmin gün bolşevik və daşnaqların planına uyğun olaraq Bakıdakı azərbaycan əsgərlərə atəş açıldı. Müsəlman əsgərləri müqavimət göstərsələr də, heç bir şeyə nail ola bilmədilər. Bundan sonra aprelin 1-dək ermənilərin əlinə keçən bütün azərbaycanlılar kütləvi şəkildə qətlə yetirildilər. Martın 31-də Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti Azərbaycan Milli Şurasına ultimatum göndərərək sovetlərin hakimiyyətini tanımağı və ona tabe olmağı, Bakı ərazisindən «vəhşi diviziya»nın çıxarılmasını, Bakı-Tiflis və Bakı-Port-Petrovsk dəmiryolu xətinin sovetlərin nəzarətinə keçməsini bəyan etdi.[65]

Beləliklə, 1918-ci il martın 30-da ilk atəş Bakı soyqırımının başlanğıcı oldu Azərbaycan ziyalıları bu faciənin qarşısını almaq üçün yenə əllərindən gələni edirdilər. Məsələn, N.Nərimanov aprel ayının 1-də Şaumyana müraciətlə belə demişdi: «Yoldaş, siz də, mən də müsəlmanların halını bilirik. Hərgah bir iğtişaş başlanarsa ayaq altında qalan fəqir-füqəra olacaqdır. Həmin fiqir-füqəra ki, siz də və mən də onun yolunda işləyirik. Ona binaən sizdən təvəqqə edirəm, sizə yalvarıram,

[65] Abid Tahirli. Mühacirlər mart qırğını haqqında..., -«Xalq qəzeti», 28.03.2002, № 069(24033). Əkrəm Zeynalov. 1918-ci ilin Mart qırğını - «Respublika» № 69 (1405) 28.03.2002.

bu işi sülh ilə qurtarınız». Şaumyan guya Nərimanovun fikrinə şərik çıxdığını, qırğını yatırmaq üçün var qüvvəsini bildirsə də, bu riyakarlıqdan başqa bir şey deyildi. Beləliklə, Bakıda gecə-gündüz davam edən bu üç gün ərzində 17.000-dən artıq azəri türkü vəhşicəsinə qətlə yetirildi. Şaumyan həmkar Azərbaycanlı bolşeviklərini eşitməyərək qırğını kütləvi şəkildə Azərbaycanın digər rayonlarında da davam etdirdi. Bu qırğınlar 1918-ci il 15 sentyabra qədər, İslam ordusu Bakıya daxil olana qədər davam etdi.[66]

# MART QIRĞINI HAQQINDA ŞAHİD İFADƏLƏRİ

**Mart qırğınlarının şahidi olan Mir Cəfər Pişəvəri yazırdı: «Mən 1918-ci ilin mart ayında daşnaqların vəhşiliklərini, günahsız adamların, xüsusən bitərəf iranlıların öldürülüb, karvansaralarda meyidlərin yandırılmasını öz gözümlə görmüşəm. Bu çox faciəli və nifrətəlayiq bir hərəkat idi».**

**O dövrdə Bakıda olmuş başqa bir xarici səyyah isə qeyd edirdi ki, ancaq azərbaycanlılar yaşayan məhəllələrə hücum edən ermənilər adamları öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, evləri yandırır, usaqları yanan evlərə atır, diri-diri yandırırlar. Üç-dörd günlük südəmər uşaqları süngüyə taxırdılar. Onlarda, bir sözlə, nə uşağa, nə qocaya, nə də qadına rəhm etmək yox idi.** Nərimanov həmin günləri belə təsvir edir: «Müsəlman hətta bolşevik olsaydı, ona aman vermirdilər. Daşnaqlar deyirdilər: Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olması kifayətdir».[67]

«İstiqlal» qəzetinin 1993-cü il aprel ayının 1-dəki sayında «V.Nuhoğlu» imzası ilə təqdim edilən «31 Mart» adlı məqalə bəşər tarixində görünməyən erməni vəhşiliyini təsəvvür etmək üçün dəyərli mənbədir. Müəllif həmin günlərin şahidi «mart günlərini fotolarla təsbit etmiş» bir çox iranlı, polyak, gürcü və s. əcnəbiləri tanıyır və yazdıqlarından da daha çox onlara istinad edir.

Yazı isə belə başlayır: «1918-ci il 22 martda Bakının «İsmailiyyə» binasının möhtəşəm salonunu milli musiqi, rəqs, qəhqəhə, sevinc və gülüş səsi titrədirdi... Millət Novruz bayramını qarşılamaqda idi.

Bir həftə sonra, 31 martda isə, o tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatlarının, kitabxana, qiraətxana, yetimlər evinin yerləşmiş olduğu bu qoca saray quru bir vücud halında matəm içindəydi. Yandırılmışdı. Yandırılan bir tək «İsmailiyyə» deyildi: türklərə məxsus bütün mətbəələr, mətbuat idarələri, milli teatr binaları, məktəblər, xəstəxanalar, məscidlər, milli-mədəni müəssisələr yerlə yeksan edilmişdi».

Müəllif bir həftə içərisində Bakının simasını tanınmaz dərəcədə dəyişdiyini, 15 min günahsız türkün qanı axıdıldığını kədərlə qeyd edir, qəzəblə yazır: «Günün "qəhrəmanları" Şaumyan, Avakyan, Arakelyan, Ter-Mikoelyan, Saakyan, Lalayan, Amazasp, Əmiryan və s. idi».

Yuxarıda adı çəkilən məqalədə V.Nuhoğlu yazırdı: «Bakı faciəsini gözləri ilə gormüş M.Kulka adlı əcnəbinin dediklərini qələmə alıram: «Erməni əsgərləri müsəlman məhəllələrinə girib əhalini öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, uşaqları odun içərisinə ataraq diri-diri yandırır, üç-dörd günlük südəmər körpələri isə süngülərinə taxırdılar.»»

**Erməni vəhşiliyini gözləri ilə görən şahid nəql edir ki, öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq çılpaq bir şəkildə küçələrə sürüyür, bədənlərinə tüfəngin qundağı ilə zərbə endirirdilər. Heç kimə rəhm etmirdilər, uşaqlar kimi ixtiyarlara da aman yox idi.**

**Məqalə müəllifi fotolarda əksini tapmış dəhşətli mənzərələri isə belə təsvir edir: «Mələk qədər sevimli bir azərbaycanlı körpə Bakının bir divarına mıxlanmışdır. Mıx körpənin düz ürəyinin iistündən vurulmuşdur; bir yığın qızılı. oğlanlı uşaq ölüləri, üzərində qocaman çoban köpəkləri, onlardan biri məsum bir körpəni gəmirir..., çılpaq bir qadın ölü vəziyyətdə yerə sərilmiş, bu ölü vücudun qurumuş döşlərini bir yavru əmməkdədir».**

Müəllif bütün bunlardan sonra yazır ki, mən minlərlə qız və qadınların əsir gotürüldüyünü, «Rekord» teatrının o gün məhşəri andıran mənzərələrini və s. qeyd etmirəm. Çünki 31 martı xatırlamaq və canldandırmaq üçün bunlar da kifayətdir...

Azərbaycan Kültür Dərnəyinin 1952-ci ildə Ankarada nəşr etdiyi «Azərbaycan» jurnalı 31 Mart faciəsinə dəfələrlə toxunmuş, bu tarixi cinayətin əsl mahiyyətini açıb göstərmiş, bolşeviklərin fitvası ilə ermənilərin törətdiyi vəhşilikləri lənətləmişlər.

Bu mənada M.B.Məmmədzadənin jurnalın 1958-ci il 2-3-cü sayında dərc olunmuş «Qafqaz məmləkətləri istiqlal elanın 40-cı ildönümü münasibəti ilə» adlı iri tədqiqat əsəri xüsusi əhəmiyyət kəsb edir. Müəllif Rusiyada 1917-ci il fevral inqilabından sonra Qafqazdakı vəziyyət, Müvəqqəti Qafqaz Hökuməti, Cənubu Qafqaz Seymi, Qafqaz istiqlalının elan edilməsi və s. haqqında dolğun tarixi faktlara, etibarlı mənbələrə əsaslanaraq, sanballı elmi əsər qələmə almışdır. Əsərin bir hissəsi «Qanlı bir qətliamdan sonra Bakıda qurulan Sovet hökuməti» adlanır.

M.B.Məmmədzadə yazır ki, azərbaycanlılar çarlıq dövründə əsgəri mükəlləfiyyətdən azad olunduqları üçün onların silahlı qüvvələri yox idi. Bu vəziyyətdən bolşeviklər və ermənilər istifadə edərək dinc əhaliyə qarşı misli görünməmiş vəhşilik törətdilər.

Məqalədə deyilir: «Silahlı çətələr silah və ərzaq axtarmaq bəhanəsilə ev-ev dolaşaraq kişiləri öldürür, qız-gəlinləri əsir götürür, hamilə qadınların qarnını süngüləyir, məscidləri, məktəbləri, mətbəələri, kitabxanaları, xəstəxanaları, teatrları və tarixi binaları, evləri yandırırlar. Hadisədə sinif mücadiləsi və yaxud proletariat inqilabı adı veriləcək heç bir nöqtə yoxdur. Mücadilə milli idi».

M.B.Məmmədzadə yazır ki, 30 və 31 mart, 1 apreldə üç gün üç gecə sürən soyqırımda sinif, zümrə, partiya, siyasi əqidə, yaş və cins fərqi gözləmədən yalnız türklər hədəfə alınmışdı.

---

[66] Vaqif Əmiraslanov. Tarixi yaddaşın bərpası-«Respublika», 15.03.2002

[67] Şikar Qasımov. Azərbaycanlıların soyqırımı və deportasiyası.-«Respublika»,26.03.2002, № 67(1403)

Bütün bunlar haqqında xarici konsullar tərəfindən təsbit edilmiş fotolar, raportlar, xatirə və digər materiallar vaxtilə toplanmış və qismən də nəşr edilmişdir.

M.B.Məmmədzadə göstərir ki, on minlərlə türkün şəhadəti ilə nəticələnən qətliam, təxribat və talandan sonra 25 apreldə təşkil olunan 11 nəfərlik Bakı Soveti hökumətində 5 erməni, 3 rus, 1 gürcü və yalnız birisi bolşevik olmaq üzrə 2 nəfər azərbaycanlı vardı.

Müəllif daha sonra hadisələri tarixi mənbələr vasitəsilə izləyir və yuxarıda adı çəkilən hissənin sonunda yazır: «Qafqaz Konfederasiyasının dağılmasından sonra azərbaycanlılar 4 iyun 1918-ci il tarixdə Türkiyə ilə bir saziş imzalanmış və bu müqavilənin 4-cü maddəsinə uyğun aldıqları əsgəri yardım sayəsində Gəncə qapılarına qədər irəliləyən düşməni geriyə püskürtmüş və apreldən 15 sentyabra qədər davam edən qanlı savaşı zəfərlə nəticələndirməyə müvəffəq olmuşlar. Azərbaycanlıların bu zəfəri bütün Qafqazı sovet vəhşətinə məruz qalmaqdan qurtarmışdı».

Heç şübhəsiz, müəllif burada «sovet vəhşəti» ifadəsini azərbaycanlıların bir millət kimi məhv edilməsi anlamında təqdim etmişdir. Doğrudan da, erməni quldurlarının Bakıdan başlanan qətliamı bir neçə istiqamətdə - Şamaxı, Göyçay, Salyan, Kürdəmir, Quba, Dəvəçi və başqa bölgələrdə amansızcasına davam etdirilir və dinc əhalinin qanına susamış erməni silahlıları istiqlal şəhəri Gəncəyə səmt götürürdülər. Digər tərəfdən Zəngəzuru işğal edib Qarabağa hücuma başlayan vəhşiliyi təsvirə gəlməz Andronikin də hədəfi ulu Gəncə idi. Tarixin bu amansız sınağından azərbaycanlıları qardaş türk əsgərinin süngüsü xilas etdi. “Azərbaycan” jurnalı sonralar da 31 Mart faciəsinə aid maraqlı materiallar dərc etmişdir. Səlcuq Alkının «Azərbaycan tarixində 15 sentyabr 1918-ci il» adlı məqaləsi («Azərbaycan» jurnalı, 311-ci nömrə, sentyabr-oktyabr 1966-cı il) türk əsgərlərinin yardımı ilə Bakının azad olunmasına həsr edilmişdi. Müəllif əvvəlcə həmin dövr Qafqazda, o cümlədən Azərbaycanda ictimai-siyasi, tarixi mənzərəni işıqlandırır, daha sonra şanlı türk əsgərlərinin şücaətindən, Bakının azad olunmasından ətraflı bəhs edir.

Səlcuq Alkın yazır ki, 1918-ci ildə ermənilər bir neçə il əvvəl, xüsusilə 1905-1907-ci illərdə həyata keçirdikləri qətliamı təkrar etmişlər. Müəllif mənbələrə istinad edərək bildirir ki, erməni çətələri adı çəkilən illərdə 50 min türkü qətl etmişlər.

## AZƏRBAYCANIN BÖLGƏLƏRİNDƏ QƏTLİAMLAR

Xarici İşlər naziri M.Hacınskinin Azərbaycan hökumətinə 15 iyul 1918-ci il tarixli məruzəsindən:

- Dörd aydır ki, Azərbaycanın müxtəlif əraziləri bolşevik adı altında erməni bandaları tərəfindən talan edilir, dinc müsəlman əhalinin həyatı görünməmiş vəhşiliklərə məruz qalır. Avropanın ictimai fikri isə həmin bandaların təşkilatçılarının yaydıqları yanlış məlumatlar sayəsində tamamilə səhv mövqeyə yönəldilir. Xüsusi təhqiqat komissiyası yaradılması vacibdir. Həmin komissiya aşağıdakı vəzifələri yerinə yetirməlidir.
- Bütün zorakılıq hallarının dəqiq qeydiyyatı;
- Həmin zorakılıqların baş vermə şəraiti;
- Günahkarların və dəymiş ziyanın həcminin müəyyənləşdirilməsi. Komissiya fövqəladə xarakter daşımalıdır və onun işi Avropa dillərində (rus, fransız, alman və əlbəttə ki, türk dillərində) yayımlanmalıdır.

Tanış ssenaridir. Ermənilər qırğın törədirlər. Ancaq elə təbliğat aparırlar ki, dünya ictimaiyyəti onu təqsirli bilmir, əksinə, məzlum, yazıq əzabkeş xalq kimi tanıyır. Təxminən 200 illik bir tarixə malik fəaliyyət proqramıdır və həmin proqram bu gün də işləyir.

Xarici işlər nazirinin məruzəsində xahiş edilirdi ki, həmin komissiya təcili təşkil edilməlidir. Çünki isti izlərlə çox şey aydınlaşdırmaq, istintaq aparmaq, fotoşəkillə çəkmək, digər inkaredilməz sübutlar tapmaq mümkündür. Vaxt ötsə, bu imkandan çıxa bilər. Cavab tez verildi. F.Xoyski 31 avqust 1918-ci il tarixdə Fövqəladə Təhqiqat Komissiyası yaradılması barədə sərəncam imzaladı. Həmin komissiya qısa vaxtda çox iş gördü. Bir neçə aydan sonra ilkin nəticə hazır idi.[68]

1918-ci ilin mart-aprel-may aylarında kütləvi qırğınlar törədilib. Daşnaqlar ağlasığmaz vəhşiliklər edib, hətta qeyri-türk etnoslara da divan tutublar. Bəlkə də Hamazasp kimi vəhşi bir insan hələ dünyaya gəlməyib. O, 200-dək adamı əlibağlı relslərin üzərinə düzərək üstündən qatar keçirib. Körpə uşaqları ağaclardan asdırıb 40 nəfərin başını kəsdirib. Erməni daşnaq birləşmələri Qubada 30 min nəfərə qədər dinc sakini qırmış, yüzlərlə kəndi talan etmişlər. Təəssüf ki, burada da ölənlərin sayı 7-8 min nəfər göstərilir.

Təkcə bir yerdə qulağı, burnu və digər orqanları kəsilmiş 57 qadının meyidi tapılmışdı. Üç yaşlı uşağı doğramış, 25 yaşlı gəlini diri-diri divara mıxlamışlar. Bu vəhşilikləri Korqanovla birlikdə Hamazaspın, Avetisyanın, Lalayevin, Petrovun quldur dəstələri törətmişlər.

Erməni daşnaq hərbi dəstələrinin törətdikləri milli qırğın uzun bir dövr ərzində Sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə və əksinqilab üzərində böyük qələbə kimi qələmə verilmişdir.[69]

Quba qəzasına daxil olan Dəvəçi, Siyəzən, Xaçmaz və Qubada yüzlərlə kənd talan olunduqdan sonra yandırılmış yerlə yeksan edilmişdir. Qəzada 13 min körpə, qoca, cavan qız-gəlin xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Qaniçən ermənilərdən ibarət olan quldur dəstəsi Qudyalçayın sol sahilində məskən salmış dinc dağ yəhudilərinə də divan tutmuşlar. Bu faktı araşdıran Qubadakı Qırmızı Qəsəbə sakini, Qubadan Milli Məclisə deputat seçilmiş Yevda Abramov bildirir ki, Azərbaycan ərazisində 3.000 nəfərdən dən çox dağ yəhudisini qaniçən ermənilər qətlə yetirilmişdir. Bunlardan 87 nəfəri Qırmızı Qəsəbə sakinidir. Çoxlu adam ömürlük şikəst olmuşdur. Meşələrdə gizlənənlərin isə çoxu həlak olmuşlur.

1918-ci il aprel ayının 21-də isə Cavad qəzasının Salyan şəhərində Sovet hakimiyyəti elan olundu.

[68] Abid Tahirli. Mühacirlər mart qırğını haqqında..., - «Xalq qəzeti», 28.03.2002, № 069 (24033).

[69] «Arena» -15-22 mart 2001; Alban ibadətgahları Naxçıvanda necə erməniləşdirilmişdir.«Respublika», 14.04.2002. № 84(1420).

Məşədi Əzizbəyovun rəhbərliyi ilə Bakıdan Salyana 240 nəfərlik hərbi dəstə, az sonra, aprelin 23-də isə bura Korqanovun göstərişi ilə Lənkərandan 200 nəfər döyüşçü və bir hərb gəmisi olmaqla başqa bir heyət göndərildi. Beləcə Rəşid Axundovun təşkilatçılığı ilə Salyanda Qızıl Qvardiya yaradıldı.

Tarixi mənbələr bu xəbəri də olduğu kimi qoruyub saxlamışdır ki, 1918-ci il 12 mayında Cavad qəzasının Xıllı kəndində Bakı Fəhlə, Qızıl Əsgər və matros deputatları Soveti İcraiyyə Komitəsinin komissarı Rəşid Cabbarovun sədrliyi ilə kəndli deputatların qurultayı keçirilmişdi. R. Cabbarovun sədrlik etdiyi həmin qurultaya Nəcəfqulu Ağayevlə Ağəli Əliyev katib seçilmişdilər. «İzvestiya Bakinskoqo Soveta « qəzetinin 13 iyun 1918-ci il tarixli sayında bu barədə ətraflı məlumat vardır. Qəzet, eyni zamanda, Rəşid Cabbarovun qurultaydakı çıxışını da dərc etmişdi. Cabbarov: «Bolşeviklər o adamdırlar ki, həqiqəti tələb edirlər. Onlar tələb edirlər ki, müharibələr olmasın, silahlar məhv edilsin, qan tökmək olmasın» - deyirdi.

O zalım, qaniçən «mələklərin», o ədəbsiz və balacaboy proletar imperatorunun istədiyi bu idi; silahlar məhv edilsin, qan tökmək olmasın, həqiqət olsun. Lakin yazının bu yerindəcə hələ çox Erməni-rus hərbi birləşmələri bura 2.000 nəfərlik əsgəri qüvvə, 12 pulemyot, 6 top, 2 hərbi və 1 nəqliyyat gəmisi ilə yeridilmişdi.

Hələ üstəlik yerli yad və bədməzhəb əhali arasında əlavə səfərbərlik həyata keçirilmiş, bu hesaba da əsgəri qüvvənin sayı 6.000 nəfərə çatdırılmışdı.

Ordunun tərkibi 200 nəfər gəlmə rusdan, 300 nəfər iranlıdan (tarixi mənbələrdə onlar iranlı, xalqın yaddaşında şahsevənlər, türk mənbələrində isə əcəmlər olaraq bildirilir), 1.500 nəfər ermənidən, qalan 4.000 nəfər isə yerli ruslardan (ruslar, əsasən malokanlardır-XIX əsrin sonu, XX əsrin əvvəllərində Neftçalada çar ordusunun böyük bir korpusu yerləşdirilmişdi) və yerli hümmətçilərdən ibarət təşkil olunmuşdu.

Xəzər dənizindən Kür çayı vasitəsi ilə Azərbaycanın içərilərinə doğru irəliləməklə daşnaq-bolşeviklər strateji mənafelərdən çıxış edirdilər. Bir tərəfdən Yevlax körpüsünün məhv edilməsi, bununla da Gəncə ilə Bakının arasındakı əlaqələrin qırılması, Qafqaz İslam Ordusu hissələrinin öz aralarındakı rabitənin itməsi, digər tərəfdən isə Muğanın bol taxıl ehtiyatına yiyələnməklə daşnaq-bolşevik qvardiyasını çörəklə təmin etmək, Bakı komissarları Sovetinin-Şaumyanın, qeyd etdiyimiz kimi, hərbi-strateji məqsədi bu idi.

İlk döyüşlər Salyan ətrafında - Qaradaşlıda baş vermişdi. Qaradaşlı Xəzərdən Kürboyu Salyana qədər sonuncu məntəqədir. Bunu hesaba alsaq, onda faciənin miqyası, törədilmiş genosidin əhatə dairəsi bizi xeyli sarsıdacaqdır. Kür çayına daxil planı erməni hərbi birləşmələri Bankə - Seyidlər - Uzunbabalı - Tatarməhlə -Xıllı - Abasallı - Qaralı – Qəzvinli - Qarabucaq - Surra - Ərəbbəbirxanlı - Cəngən - Qaraqaşlıya qədər hərəkət etmişdilər. Silahlı ermənin silahsız azərbaycanlı ilə təkbətək qaldığı ərazilərin adları bunlardır.

1918-ci ildə Qaraqaşlıda erməni zülmü nəticəsində sağ əli biləyindən kəsilmiş Süreyya Abbasova bu günlərəcən yaşadı. Sürəyya ananın söylədiyi vaqeələr qorxulu bir nağıl kimi indiyəcən xatirələri diksindirməkdə, yaddaşa sarmaşmaqdadır:

«Yay vaxtı idi. Kəndə küy düşdü ki, durmayın qaçın, ermənilər gəlir. Ailəm yanımda deyildi. Qaynım Ağakişi kənddən altı qadını və iki uşağı götürüb payi-piyada Babazənni dağına tərəf apardı. Ağakişinin də yoldaşı-on iki ilin gəlini nübaranlıq hamilə idi. Babazənninin çökəyində yığışıb sığınacaq tapdıq. Bir də gördü ki, bir nəfər atlı beş-altı nəfər piyada ilə gəlir. Silahlı idilər. Qabaqdakı kəndin adamı idi. Ermənilərə bələdçilik edirdi, imansız. Xülasə, çatar-çatmaz Ağakişini güllələdilər. Ağakişi yıxılanda gəlin sürünə-sürünə ərinə tərəf getdi. Başını qucaqlayıb oxşayanda gavur gəlini də qanına qəltan elədi. On iki ilin nübar hamiləsi ərinin qanına bələşdi. Camaatın arasındakı o iki tifil qucağıma qaçanda məni də vurdular. Çiynimdən, biləyimdən və dizimdən yaraladılar. Yerdə qalan on səkkiz nəfəri də qətlə yetirdilər, ermənilər. Üç gün, üç gecə meyidlərin arasında qaldım. Orucluq ayı idi» Sonra türklər gəlib meyidləri yığanda Sürəyya xanımı salamat tapmışdılar. Sürəyya Abbasova onu da deyirdi ki, ermənilərdən biri burda qalmışdı. Kürün qırağında qayalıqların arasında gizlənirdi. Kürə suya gedən gəlinlərdən biri həmin ermənin başını oraqla kəsmişdi.

Bir ay sonra kənddə taun xəstəliyi yayılıbmış. Böyük tələfatla nəticələnən xəstəliyin nişanəsidir ki, Misali qəbiristanlığında o ilin ölənləri ev-ev, ailəbə-ailə dəfn olunublar. Sonralar, 1948-ci ildə Bakıdan Sürəyyanı danışdırmağa adamlar gəlirmiş, arvaddan söhbətlərini dinləyib, nəyi isə qeyd edərmişlər və axırda da: «ermənilər deyildi sizi qıranlar, daşnaqlar idi» - deyib gedərmişlər.

Aşıq Qəhrəmanın da, Sürəyya Abbasovanın da müdhiş və qan boyalı xatirələri tarixin gözləri önündən çəkilməyəcək.

Qaraqaşlıdan bir az bəri tərəfə - Ərəb Bəbirxanlı kəndində 1918-ci ilin iyulunda ermənilər kəndin camaatını tikə-tikə doğramışdılar. «Əldə ölənlərin qəbirləri» elə bu adla da yaddaşlara köçüb qalıb. Bu da tarixin kitabı üçündür.[70]

Babazənni dağı ilə üz-üzə dayanıb Sürəyya Abbasovanın o qorxulu nağılını xatırladıqca gəlin nənələrimizə sığınacaq olmuş bu təbii məbədə salavat göndərdim. Köhnə tarix kitablarında bu dağ Qafqazın ən ünlü ziyarətgahlarından biri kimi yad olunur. Babazənni, Babizənən, Qadınlar qapısı. 1918-ci ildə olduğu kimi, ismətin, qızlığın, bakirəliyin sığındığı ÜMID QAPISI!

1918-ci ilin 27-28 iyununda isə Surra ilə Qarabucaq arasında çox şiddətli döyüşlər baş vermişdi. Qeyri-bərabər qüvvələrin təmsil olunduğu həmin bu döyüşdə türk-azərbaycan hərbi birləşməsi geri çəkilməyə məcbur olmuşdu. Həm də ki, bu dövüşdə erməniləri Kür çayından hərbi gəmilər müşayiət edirdi.

Surra-Qarabucaq məğlubiyyətindən sonra Qafqaz İslam Ordusundan bura əlavə qüvvələr cəlb edildi: bir piyada bölüyü, bir pulemyot taqımı və bir dağ topu.

Qaraqaşlıda mövqe tutan türk bölməsinin tərkibi 40 əsgərdən, 2 Maksim pulemyotundan və 2 topdan ibarət idi.

---

[70] Aqşin Məmmədov. Düşünmək məqamı...,-«Elm», 5.04.2002, № 9-10 (610-611).

Türk topçuları ermənilərə məxsus olan bir gəmini Qaraqaşlıda Kürün dönərli bir yerində məhv etmişdilər. Mən köhnə qaraqaşlıların bələdçiliyi ilə həmin əraziyə dönə-dönə tamaşa etmişəm. Buradakı dəyirman yerinin yaxınlığında öz şümşadlığını, əzəmət və yaşlılığını bu günəcən qoruyub saxlamış qos-qoca, Dədə Qorqud görkəmli bir palıd ağacı da var.

Səksən altı il əvvəl baş verənləri öz «gözləri» ilə görmüş bu palıd tarixin təbii tarixi sənədləri bu barədə iki versiyanın mümkünlüyünü ortaya çıxarmaqdadır:

- Türk ordusunun Qaraqaşlıdakı 40 nəfərlik bölməsinə türk zabiti Ramazan bəy, Bankədə döyüşən dəstəyə isə keçmiş çar ordusunun zabiti mayor Nazim Ramazanovun eyni istiqamətdə döyüşən dəstələrə komandirlik etmələri xalq arasında izzətli bir «Ramazan paşa»nın meydana gəlməsinə səbəb olmuşdur. O da var ki, Bankə döyüşlərinin nəticələri barədə 5-ci Qafqaz Firqə komandanlığına göndərilmiş raportu o zaman Ramazan bəy imzalamışdı.

Hər halda Ramazan paşa o illərin klassik bir komandan obrazı və ağır günlərin yaddaşlara həmişəlik misafir olmuş tapınaqlı şəxsiyyətidir.

Bankədəki savaş iki istiqamətdən başlanmışdı. Biz həmin yeri dəqiqliyi ilə müəyyənləşdirə bildik. Türklərin bir dəstəsi indi hərbi hissənin yerləşdiyi ərazidən, digər qismi isə bu günəcən faydasını el-obadan əsirgəməyən «Pirverdi kanalı»nın ətrafından hücum əməliyyatına başlamış və həlledici döyüşdə Ankarada nəşr olunan «Birinci dünya hərbində türk hərbi Kafkaz cəbhəsi 3-cü ordu hərəkatı» kitabında qeyd olunduğu kimi 600 erməni döyüşçüsünü məhv etmişdi.

Torpağın bağrına və xalqın yaddaşına Şamilin gümüş xəncəri kimi saplanmış həmin sonuncu döyüşdə baş verənlər unudulmazdır: ermənilər yerdə qalan silahları türkün əlinə keçməsin deyə, bədənlərinə sarıyır və silahla qarışıq Kürə tökülürdülər. Yaralı erməni ölüm ərəfəsində üstündəki pulları cırır, tikə-tikə edir ki, türk sonradan bu pullardan istifadə edə bilməsin.

Avqustun əvvəlində Bankəni tərk edən türklər burada silahlı bir bölüyün saxlanılmasını məqsədə müvafiq bilmişdilər.

Türk-Azərbaycan hərbi birləşmələri bu son döyüşdən 11 nəfər itki ilə və zəfərlə çıxdı. Şəhidlərin, Rüşdü bəy demişkən, mütavazə və həzin məzarı burda-Seyidlər qəbiristanındadır.

Rüşdü bəy xatirələrinin bu yerində Ramazan bəyin bu son döyüş barədə 5-ci Qafqaz Firqəsi komandanlığına yazdığı sənədi təqdim edir. Ramazan bəy yazırdı: «Qovulan düşməndən 4 makinalı tüfəng, 63 piyada tüfəngi, 100 sandıq piyada və top mərmisi, 7 kiçik vapur, bir miqdar benzin, duzlu balıq və s. əşya iqtinam edilmiş, biri erməni və digəri əcəmi olmaq üzrə əruz bir kişi əsir edilmişdir. Müfrəzədən ikisi milis (Azərbaycanlı könüllü) olmaq üzrə 11 şəhid, 1 zabitlə 13 məchur olmuşdur. Bu hərəkat və müharibədə 28-ci taborun 3-cü bölük komandiri, birinci mülazim Besri və 26-cı taborun 1-ci bölük komandan vəkili Həmdi əfəndilər ibrazi-fədakari eylədiklərindən təltifləri istənilmişdir».

Bu bizim tariximizdir. Unutduğumuz tarixin ən fərəhli anları bu sadə cümlələrin arxasında ümid işığı kimi yanır və nur saçır. 11 türk şəhidinin, 14 yaralı türk əsgərinin qanı ilə suvarılmış bir torpağın övladlarıyıq. O zaman təltif olunublar, yoxsa ki, yox, bilmirəm, heç olmasa bundan sonra biz o gecikmiş təltifləri sahiblərinin müqəddəs ruhlarına əmanət edək.

Yenə də Rüşdü bəyin xatirələrindəki sənədə qayıdaq. Ramazan bəy Bankə döyüşlərində rəşadət göstərmiş 28-ci taborun 1-ci bölük komandan vəkili Həmdi əfəndinin təltif olunmasını istəyirdi.

Mehman Süleymanlı yazır: «İyulun 26-da cənub qrupu ilə Kür çayı boyunda yerləşən Əhməd Həmdi bəyin dəstəsi arasında rabitə əlaqəsi yaradıldı. Ordu komandanlığının qərarına görə Cənub qrupu ilə irəlilədikcə Əhməd Həmdi bəyin dəstəsi də Hacıqabul-Bakı dəmir yoluna tərəf irəliləməkdə idi. Bolşevik-daşnak qüvvələri Əhməd Həmdi bəy dəstəsinin onlar üçün yarada biləcəyi təhlükən başa düşdükləri üçün iyulun 26-da heç bir döyüşsüz Hacıqabulu tərk etmək məcburiyyətində qaldılar. Çünki Əhməd Həmdi bəyin dəstəsinin bolşevik-daşnak qüvvələrinin arxasına keçdikləri halda, onlar mühasirəyə düşə bilərdilər.

Hacıqabulun itirilməsi bolşevik-daşnaq qüvvələri üçün növbəti strateji məntəqələrdən birinin itirilməsi demək idi və bununla bağlı Bakıdan aldığı teleqramı V.Lenin iyulun 29-da Moskvada Ümumittifaq İcraiyyə Komitəsinin, Moskva sovetinin, Moskvanın fabrik-zavod komitələrinin və Həmkarlar İttifaqının birgə iclasında dərin bir təəssüflə oxumuşdu. Leninə göndərilmiş həmin teleqramda bildirilirdi ki hərbi və dəniz komissarı Korqanovun əmri ilə iyulun 26-da bolşevik dəstəsi Hacıqabuldan Ələtə doğru geri çəkilmişdir. Kür çayı istiqamətindən çoxsaylı qüvvələrin irəlilədiyi xəbəri alınmışdır».

Mən Mehman Süleymanlının xatırlatdığı Əhməd Həmdi bəyin üzərində dayanmaq istərdim. Çox inandırıcıdır ki, o, Ramazan bəyin təltifini istədiyi Həmdi əfəndinin özüdür. Və məhz onun həyata keçirdiyi əməliyyat Moskvada Lenini sarsıtmışdı.

Ramazan bəy 11 şəhiddən bəhs edir. Bizdə uzun illər bu barədə müxtəlif saylar bildirmişdir: dörd şəhid, yeddi şəhid və s...

Amma 1918-ci ildə Bankə qəsəbəsi yaxınlığındakı 1-ci Mayak kəndində balıq vətəgəsində fəhlə işləyən Usub Məmmədovun xatirə səsi yazılmış lenti bir daha dinləməli oluram. Rəhmətlik Usub kişi elə Ramazan bəyin dediklərini deyir: «türklər on bir şəhid verdilər».

Deməli belə. Neftçala döyüşündə 11 türk əsgəri şəhid olmuşdur. Batıb-getmiş məzarlarda isə 10 nəfərin uyuduğu şəksizdir. Çünki Ramazan bəyin 5-ci Qafqaz Firqəsi komandanlığına verdiyi raportdan da göründüyü kimi həmin 11 nəfərdən ikisi azərbaycanlı könüllülər idi və Əfqan Həziyevin dediyinə görə, o iki nəfərdən birini 1918-ci ildə 18 yaşı olan şəhidi burda deyil, aparıb öz doğma kəndlərində-Çuxarılıda dəfn ediblərmiş.

«Türklərdən iki nəfəri qardaş idilər». Bunu da Əfqan kişi söylədi. «Qardaşlardan biri ağzına dəyən güllə yarasından keçindi» - deyə Əfqan kişi əlavə etdi. Söhbətlərini videolentlərə aldığım bütün köhnə neftçalalılar, xüsusilə rəhmətlik Hidayət Sadıqov erməni-müsəlman davasında yerə salınmış hərbi təyyarəni də xatırlayırdı.

5-ci Qafqaz Firqəsi ərkani-hərb rəisi Rüşdü bəy də xatirələrində Cavad qəzasının kəndlərini bombardıman edən iki düşmən təyyarəsindən bəhs edir.

Eyni zamanda o da məlumdur ki, 1918-ci il döyüşləri zamanı buralarda kəşfiyyatçı bir alman təyyarəsi həbs olunmuşdu.

Şəhid rürk əsgərlərinin dəfnində iştirak edən rəhmətlik Müseyb Rzayev söhbət edirdi ki, daşnaq-bolşeviklərin gəldiyi «Demosfen» gəmisinə Bankədə bir hərbi təyyarə də enmişdi.

Tarix zəngindir və olduqca qaradinməzdir.

Tarixi danışdırmaq zordur. Və zor olduğu qədər də zəruridir, qaçılmazdır.

Yenə də Bankəyə - 1918-ci ilə qayıdıram.

Batırılmış gəmilərin hesabına türklər Kürün mənsəbini ermənilərin üzünə bağladılar. Yevlax körpüsü burda xilas edildi. Gəncə ilə Bakının əlaqəsi burda qorundu. Aclıq çəkən Azərbaycan əhalisinin və döyüşən ordunun çörəklə təchizatına burda təminat verildi...

Yaddaşı köhnəlməyənlər türk əsgərinin oxuduğu marşları, mahnıları hələ də xatırlayır.

*Türkük ölürüz namusumuzla,*
*İntiqam doludur sinəmiz.*
*Açarıq şərq elin namımızla,*
*Boyayır hər yeri qanımız.*

*Yaşa, sən yaşa, Ənvər Paşa!*
*Məhv olsun düşmənin,*
*Cümləsi başdan-başa.*

*Ey gülü gülşən edən Sərvi rəvan Ənvər bəy!*
*Burda ölənlər, burda qalanlar*
*Bizim babamız, bizim babamız.*

Çoxdur belə artıq təbərrükə, tutiyaya çevrilmiş mahnılar, marşlar, türkülər və ruha dirilik gətirən, ehya verən təranələr. Bütün bunları mənə yüz yaşlı Əfqan kişi oxuyurdu. Özü də əsgəranə bir tərzdə oxuyurdu. Elə bil ki, 1918-ci il idi. Tatarməhlə civarından türk əsgərlərinin səsi gəlirdi: «Türküz ölürüz namusumuzla».

1918-ci ildə erməni gülləsi ilə sağ əlini biləyindən itirmiş Əfqan kişi onu da dedi ki, qardaşım Aslan erməni-müsəlman davasında-Şuşa qalasında şəhid olmuşdur.

Mən cümhuriyyət dövrü Azərbaycan əsgərinin, Şuşa qalasında şəhid olmuş yurddaşlarının və o cümlədən Aslan Həziyevin ruhuna fatihələr söyləyərək Əfqan kişidən ayrıldım.

Cümhuriyyət əsgəri!

Ruhu ürpədən və yalnız nisgilli xatirələr doğuran bu kövrək ünvanı ölüncəyədək Şərəflə daşıyan yurddaşımız Müseyib Rzayev də o illəri təfərrüatına qədər xatırlayırdı. Müseyib kişi Ramazan paşanı görmüşdü. «Demosfen» gəmisinin rənginəcən heç nə Müseyib Rzayevin yaddaşından silinməmişdi. «Demosfen» qırmızı idi, deyə onu qırmızı gəmi adlandırırdılar-deyirdi, rəhmətlik.

Şəhid türk əsgərlərinin dəfnində iştirak edən bu qoca, həmin məzarların yerini nişan verən sonuncu tarix yadigarı idi.

Müseyib Rzayev Cümhuriyyət əsgəri olmuşdu. Gəncədə xidmət etmişdir; «Üçüncü alayın üçüncü bölüyündə I taqımın əsgəri olmuşam»- deyirdi. Bölük komandirlərini də xatırlayırdı: Ziyadxan Naxçıvanski.

Müseyib kişi deyirdi ki, bir dəfə Gəncədə Nəsib bəy Yusifbəylini və Əliağa Şıxlinskini bir dəstə adamla bizim yanımıza gələrkən görmüşdüm. Mən Mehman Süleymanlının «Azərbaycan ordusu-1918-1920-ci illər» kitabını mütaliə edərkən bir daha inandım ki, düz deyirmiş, yaddaş təxminində yanılmırmış Müseyib Məhəmməd oğlu. Olub belə bir hadisə. 1918-ci ilin oktyabrında Nəsib bəy Yusifbəyli, Əliağa Şıxlinski ilə birgə Gəncədə olublar. Müseyib kişinin kimliklərini unutduğu o bir dəstə adamın içərisində şərafətli Nuru Paşanın atası Hacı Əhməd Paşa, Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy də var imiş.

Türklərin bu yurda gəlişi ilə bağlı digər bir tarix vəsiləsini də xatırlatmağa ehtiyac vardır.

Qafqaz İslam Ordusunu, el-oba təbirincə, türkləri bura kim dəvət etmişdir?

Uzun illərdir bu xüsusda iki nəfərin: qərini-ictihad Mir Bağır ağa ilə Mir Əşrəf ağanın adları ehtiramla yad olunur.

Söz yox ki, indi bunu hamı bilir, türk ordusu Azərbaycana 1918-ci ilin iyun ayının 4-də Osmanlı hökumətinin Ədliyyə Naziri Xəlil Menteşə, 3-cü ordunun komandiri Vəhib paşa ilə Məhəmməd Əmin Rəsulzadə və Cümhuriyyətin Xarici İşlər Naziri Məhəmməd Həsən Hacınski tərəfindən Batumda imzalanmış «Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi»nə əsasən dəvət oluımuşdu. Lakin bir neçə ay əvvəl, 1918-ci ilin martında İstiqlal Komitəsinin üzvü Nağı Şeyxzamanlı ilə Ömər Faiq Nemanzadə məhz bu barədə təcili danışıqlar aparmaq üçün Türkiyəyə göndərilmişdi.

Hərgah, Ağa Mir Bağır Ağazadənin bütün müsəlman şərqinə yayılmış nüfuzu insanlarda belə bir şəksiz inam doğurmuşdu ki, türkləri bura Mir Bağır Ağa dəvət etmişdir.

Hətta bu barədə konkret və aydın mülahizələr də yox deyildir:

- Mir Bağır ağa salyanlı qoçu Rəşidi türklərin ardıyca göndərdi ki, Rəşid Kür sahili kəndlərində baş verən müsibətlər barədə onları agah eləsin.

Adamlarımız bunu da inanaraq söyləyiblər ki, ermənilər Salyanı ona görə top atəşinə tutdular ki, salyanlılar Ağanı onlara təhvil versinlər.

Kim idi Mir Bağır ağa?

Ağazadə Mir Bağır ağa Mədinədə qərini-ictihad titulu qazanmış böyük bir ruhani, dövrünün görkəmli din xadimi idi və Nəcəfül-Əşrəf alimlərindən idi. Salyanda yaşayırdı və təbiidir ki, güvənilir bir nüfuza sahib idi.

Hüriyyət dövrü kimi yadda qalan zamanlarda 5 pristavlıqdan ibarət olan Cavadda qəza rəisi Məhəmməd bəy Süleymanbəyov qəzanı Salyan (şəhər pristavı Hacıyev, köməkçi Xəlil Məmmədov), Xıllı-Boylu Promisel kəndi (pristov Haqverdiyev, köməkçi Həsənov) Cavad, Muğan və Beləsuvar sahə pristavlıqlarının vasitəsi ilə idarə edirdi. Baxmayaraq ki, tarixi həqiqət belədir, hər halda Mir Bağır ağa ilə bütün el-oba hesablaşırdı və təbii: «Türkləri Ağa Mir Bağır ağa çağırdı»-inancı da xalqın qəlbinə fənadan dolmamışdı. Ağa çağıra bilərdi və Ağanı eşidərdilər. Ağa xalqı gavura qarşı səfərbər edə bilərdi və təbii ki, belə də olmuşdu.

(Bunu da unutmayaq ki, ermənilər birinci dəfə buralara gələndə Qaraqaşlıya qədər zorakılıqlar törədərək getmişdilər və Qaraqaşlı-Salyan istiqamətində, məhz Ağanın nüfuzunun bərqərar olduğu bölgədə qaçaq Usubun dəstəsi onları geri oturtmağa müvəffəq olmuşdu. Türklərin ardınca şəxsi gəmisini sürdürən də salyanlı sahibkar İmamverdi olmuşdu).

Salyanda Türklərə kömək edən və adı Azərbaycan hərb tarixinə daxil olmuş Sultan Hüseynzadə, könüllülərin türk ordusuna cəlb olunmasında böyük fədakarlıqlar göstərmiş Sərxan Şirvanlı da var idi. Bütün bunlar öz yerində. Hər halda 1937-ci ildə repressiya olunmuş kəramətlər sahibi Ağa Mir Bağır ağa o illərdə Salyanda idi və Qafqaz İslam Ordusunun həm də islami maraqlar üzərində hərəkət edən bir ordu olması, türk əsgərlərinin isə sadəcə müharibəyə deyil, müqəddəs müharibəyə, cihada qatılması onların Ağa Mir Bağır ağa ilə irtibatda olmasına çox-çox inam yaradır.

Ümumiyyətlə, Azərbaycanın 1918-ci ildə savaş meydanına çevrilmiş bütün bölgələrində bu kimi xalq elçiliyinə rast gəlinir.

Cavad qəzasının Qaraqaşlı-Bankə istiqamətlərində gedən döyüşlərdə türk zabitlərinə bələdçilik etmiş Ağapaşa adlı bir yurddaşımızın da ehtiramla anılmaq haqqı var.

1998-ci ildə respublikanın rəsmi dövlət qəzetlərindən birində həmin günlərdə Əli Bayramovun ermənilərə yardım göstərməsindən bəhs olunurdu.

Doğrudur, Əli Bayramov o vaxt «Demosfen» gəmisinin komandiri idi. Və tarix də şahiddir ki, «Demosfen» bura daşnaq-bolşevik ordusunun nəqliyyat vasitəsi olaraq gəlmişdi. («Demosfen» Əli Bayramovdan sonra da bu istiqamətlərdə çox üzmüşdü. Hətta, N.Nərimanov da 1922-ci ildə Bankə və Xıllıya həmin gəmi vasitəsi ilə gəlmişdi). Amma mən həmsöhbətim olmuş bütün adamlara Əli Bayramovu xatırlatdım və heç birindən də Əli Bayramov barədə bircə kəlmə də olsun yaddaş yarpağı qopara bilmədim. Təkcə Əfqan kişi söhbətarası qeyd elədi ki, «ermənilər yayda «Demosfen» gəmisi ilə gəlmişdilər. Gəminin içərisində bir nəfər var idi - Bakıdan, Məşədi Cavadın qonağı idi, İbrahim Xəlil adında. Gəmidən gizlicə silah töküldü qırağa. Bizə kömək üçün. Gəminin fəhləsi İbrahim Xəlil idi. Sonralar Məşədi Cavadgilə tez-tez gəlib gedərdi». Əfqan kişi söhbətinin bu yerinə çatanda mən incik bir sevinc hissi də keçirdim. Hər halda «Əli Bayramov bizi topa tutdu» kəlməsinin əvəzinə «Əli Bayramovun gəmisindəki fəhlə İbrahim Xəlil kömək üçün bizə gizlincə silah verirdi» - deyə eşitmək daha dərdsiz bir ovqat yaradır.

Ümumiyyətlə, həmin hadisələr zamanı türklərə kömək üçün yerli əhalidən də əsgərlər yığılmışdı. Yerli gənclərin səfərbər olunmasında o dövrdə Xıllıda siyasi fəaliyyət göstərən müsavatçıların da müstəsna xidmətləri olmuşdur.

Ağakişi Nağıyev kimi türklərə qoşulub gedənlər və bir daha geriyə qayıtmayanlar da var idi.

Bir az əvvəl qeyd etdiyim kimi, iyulun sonlarında Bankəni tərk edən türklər burada silahlı bir bölüyün saxlanılmasını təmin etmişdilər. Həmin bölüyün əsgərlərindən biri Çavuş Həsən isə sonralar Neftçalada qalıb, geriyə qayıtmayıb, evlənib ailə qurub, övlad-uşaq sahibi olub. Məzarı Qazaxdərəsi kəndindədir. Bəstəboy va sərt adam olan Həsən Çavuş sovet quruluşunu sona qədər qəbul edə bilmədi.

Və nəhayət, «gülü-gülşən edə sərvi-rəvan Ənvər bəy!»

Yazmın bu yerində mən onun müqəddəs ruhuna çirkab atanlara, paşanın mənəvi varlığına qarşı tətbiq edilmiş siyasi terrora, ədəbsiz, ədalətsiz və binəsib davranışlara münasibət bildirməkdən özümü güclə saxlasam da hər halda Yakov İliçovun «Türkiyə karvanı» kitabındakı şərəfsiz və riyakar mövqeyini lənətləmək istəyirəm İliçov yazırdı: «Ənvər paşanın qoşunları Ərzurumu, Sarıqamışı, Ərdəhanı, Qarsı Batumu zəbt etdi. Onlar payızda Bakıya soxuldular, şəhəri talan etdilər, camaata divan tutdular-35 min adam qırdılar. Şərq cəbhəsinə komandanlıq edən bir sultan paşasının buyruğu ilə qoşun hissələrinə keçib getdiyi bütün kəndlər xarabazarlığa çevrilmişdi».

Bu nadürüst və yalançı kitabın məhz, Azərbaycan türkcəsində nəşr olunduğuna görə, üzümüzü Dərgahi-həqqə tutub Ənvər paşanın və həmən o şərq cəbhəsi komandanı Mürsəl paşanın ruhu naminə bağışlanmamızı diləmək gec də olsa haqqaniyyət bir tövbə olardı. Paşaların nəcib ruhunun haqqıdır bu.

Neftçaladakı Qoltuq kəndi Xəzər dənizinin yaxasındadır. Və Ənvər paşa Türküstana son cihada gəmi vasitəsi ilə burdan keçib-getmişdir. Ənvər paşanı Qoltuq kəndində atamın əmisi, Sovet dönəminin ilk illərində-1920-27-ci illərdə Cavad qəzasının Fövqəladə Komissarı, sonralar isə İranda diplomatik vəzifələrdə çalışmış Orucəli Əbilov görmüşdü.

Ənvər paşanın ruhu Xəzərin bu sahillərində yaşayır. Və zaman durduqca, irqimizə və imanımıza sevgilər davam etdikcə bu mübarək ruh bizimlə birgə olacaqdır.

Allah Sənə qəni-qəni rəhmət eləsin, paşam!

M.Ə.Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» kitabında elə bil ki, haqdan demişdi: «əvət Azərbaycanın hər cəhətində şairin təsvir etdiyi «sarmaşıqlı bir məzar» bulursunuz ki... bu məzar, qardaş imdadına qoşan «TÜRK» məzarıdır».

Amma illər keçsə də Neftçaladakı Seyidlər qəbirstanlığında uyuyan şəhid türk əsgərlərinin məzarı hələ də mütəvaze və həzindir, baş daşlarısız, sarmaşıqlarsız və çiçəklərsizdir.

Həzin məzarlarda yatan mübarək insanların ruhu şad olsun. Tanrı Türkü Qorusun. Amin! [71](IV, 7).

# CƏNUBİ AZƏRBAYCANDA QIRĞINLAR

Faktlar əsasında sübut edilir ki, Cənubi Azərbaycanda törədilmiş erməni-aysor vəhşilikləri xristian dövlətlərinin müsəlmanlara qarşı yeritdikləri soyqırımı siyasətinin tərkib hissəsi idi.

Birinci Dünya müharibəsi ölkədəki ziddiyyətləri daha da kəskinləşdirmişdi. Antanta itifaqına daxil olan İngiltərə ilə Rusiyanın, Almaniya ilə Türkiyənin İran barəsində planları mövcud idi. ABŞ da öz növbəsində İranda nüfuzunu artırmağa çalışır və bu məqsədlə İrana göndərdiyi amerikan missionerləri fəaliyyətindən geniş istifadə edirdi.

Müharibə ərəfəsində göstərilən dövlətlərin hər biri öz xeyrinə Cənubi Azərbaycanın qərb bölgələrində kürdlər, aysorlar və ermənilər arasında milli zəmində toqquşma və qırğınlar törədirdilər.

Birinci Dünya müharibəsinin əvvəlində İran özünü bitərəf elan etməsinə baxmayaraq onun ərazisi, xüsusən Cənubi Azərbaycan hərbi əməliyyatlar meydanına çevrilmişdi. 1914-cü ilin axırında həm rus, həm də türk qoşunları Cənubi Azərbaycanın çox hissəsini tutmuşlar. Türkiyə hərbi hissələri ilə Cənubi Azərbaycan ərazisində olan rus qoşun dəstələri arasında toqquşma baş verirdi. Üstünlüyü ələ alan türk ordusu dekabrın 25-də Təbrizə daxil oldu. Bunula da İranın şimal-qərb bölgələri Birinci Dünya müharibəsinin Qafqaz cəbhəsinə daxil edilmiş oldu. Türk qoşunlarının 1915-ci ilin yanvarında Sarıqamış altında rus ordusu tərəfindən məğlub edilməsi alman-türk blokunun bu planını pozdu. Rus qoşunları türk hərbi hissələrini Cənubi Azərbaycandan çıxarmaq üçün hücuma keçdilər. Yanvarın 15-də türk qoşunları Cənubi Azərbaycanı tərk etməyə məcbur oldu. Yanvarın 17-20-də rus qoşunları Təbrizi tutduqdan sonra bütün Cənubi Azərbaycanı işğal etdilər.

**Erməni quldurlarının azərbaycanlılara qarşı vəhşilikləri.**

I Dünya müharibəsinin Cənubi Azərbaycanda yaratdığı mürəkkəb şəraitdən və qarışıqlıqdan istifadə edən erməni silahlı dəstələri aysorlarla birlikdə Xoy, Salmas, Soyuqbulaq və bu şəhərlərin ətraf kəndlərinə hücum edərək bazar və evləri çapıb-talamağa, günahsız və silahsız azərbaycan türklərini böyükdən-kiçiyə görünməyən vəhşiliklə qırmağa başladılar. Belə qırğınlar Urmiyada xüsusi qəddarlıqla həyata keçirilirdi. Yalnız türk ordu hissələrinin həmin bölgəyə daxil olması buradakı kəndlərin, Urmiya və b. şəhərlərin əhalisinin kütləvi şəkildə qətlə yetirməsinin qarşısını aldı. Lakin türk qoşunları bu yerlərdən getdikdən sonra Cənubi Azərbaycanın Türkiyə və İraqda həmsərhəd bölgələrində ermənilər, aysorlar və kürdlər azərbaycanlıları yenidən qırmağa başladılar. Bu qırğınlar bolşevik hökuməti tərəfindən rus hərbi hissələrinin çox pərakəndə şəkildə 1918-ci ilin əvvəlində İrandan çıxarıldığı vaxt çox dramatik və faciəli şəkil almışdı.

Aydındır ki, Birinci Dünya müharibəsinin iştirakçısı olan böyük dövlətlər Şərq ölkələrini yenidən nüfuz dairələrinə bölmək məsələsində vəhşi erməni quldurlarını, həmçinin aysorları və kürdləri öz əllərində alətə çevirmişdilər və onlardan istədikləri kimi istifadə edirdilər.

Rus hərbi hissələri Cənubi Azərbaycanı tərk etdikdən sonra ingilislər bu yerlərə öz xüsusi hərbi dəstələrini göndərdilər. 1918-ci ilin baharınadək onlar Zəncan, Miyanə, Xoy və Urmiyanı ələ keçirdilər. Eyni zamanda Cənubi Azərbaycanın şimal-qərbində bu dövlətlərin təhrikilə aysorlar, kürdlər və ermənilər azərbaycanlılara qarşı əsl mənada soyqırımı həyata keçirirdilər. Yalnız Urmiya bölgəsində ermənilər 150 min qocaları, qadınları və uşaqları, Xoy bölgəsində isə 50 min Azərbaycan əhalisini qətlə yetirmişlər. Türkiyə ərazisinin Şərqi Anadolu bölgəsində isə 200 min azəri türkünü qətlə yetirmişlər. Beləliklə Rusiya ərazisinə daxil olmayan Yaxın Şərq bölgəsində 400 min azəri türkü ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Azərbaycan Demokratik Partiyası Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə silahlı dəstələr həmin qırğınların qarşısının alınması üçün fəlakət yerlərinə-Şərəfxan Salman, Urmiya və b. bölgələrə göndərildi. Bu qüvvələr qırğının qarşısının alınmasında mühüm uğurlar qazandılar.

1918-ci ildə müzəffər türk qoşunlarının yenidən Cənubi Azərbaycana daxil olması növbəti dəfə soyqırımın qarşısını aldı.

Birinci Dünya müharibəsi bir çox ölkələr kimi İrana, Cənubi Azərbaycana da böyük dağıntılar, qırğınlar, bahalıq, qıtlıq, aclıq, müxtəlif xəstəliklər və s. bədbəxtliklər gətirdi. Müharibə Cənubi Azərbaycanın təsərrüfat həyatını tənəzzülə gətirib çıxartdı.

O faciəli günlərin canlı şahidlərindən olan Əli Dehqaninin farsca yazdığı «Zərdüşt Peyğəmbərin yurdu Urmiya» əsəri azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımın acı nəticələrindən bəhs edir.

Həmçinin Məhəmməd Təməddunin fars dilində yazdığı «Urmiya tarixi» əsərində də bu faciə barədə geniş yer verilir.

Daha bir qarşılıqlı mənbə - Kaviyanpurun «Urmiya tarixi» bu qanlı hadisələri başqa yöndə diqqətə çatdırır. Fars şovinizminin dahi təbliğatçısı kimi tanınan Seyid Əhməd Kəsrəvi «On səkkiz illik Azərbaycan tarixi» əsərində Azərbaycan xalqına qarşı aparılmış bu qırğın siyasətindən yan ötə bilməmişdir.

Ə.Kəsrəvinin kitabında qeyd edilir ki, Van gölü ətrafında asurlar Türkiyə kürdlərinə məğlub olub Cənubi Azərbaycan ərazisinə sığınırdılar. Yerli camaatın «cilo» adlandırdığı 25 min assuriyalı rusların xristian təəssübkeşliyi ilə Azərbaycan ərazisində yerləşdirilir. Onlar bir çox hallarda yerli əhalinin mal-mülkünü zorla əlindən alır, müqavimət göstərənləri isə qətlə yetirirlər. Bu işdə ermənilər daha fəal mövqe tuturlar, köməksiz və silahsız mülki əhali - azərbaycanlıları qətlə yetirirlər..- Kəsrəvi yazır: «12 min silo (assuriyalı) ailəsi başçıları Marşimonla (ciloların patriarxı -.red.) Osmanlı ərazilərindən gəldilər. 20 min erməni və assur ailəsi isə «Urmi, Salmas, Sulduz» ətrafından onlara qoşuldu. Üstəlik, 5-6 min erməni İrəvan, Van və Naxçıvandan gəlib bunlarla birləşdilər. Bunların 20 mini yaxşı döyüşən döyüşçü idi. 800 rus əsgəri isə Rusiyaya getməyib

[71] Bax: Azər Turan. Yeni Azərbaycan, 29.03.2002

qaldı. 72 fransız sərkərdəsi ilə xristianlara yol göstərirdilər. Ermәni və assurlardan təşkil olunmuş xristian qoşununun 25 ədəd topu da var idi.»

Ə.Kəsrəvi Urmiya qırğınını təsvir edir: Müharibə səhər tezdən başladı. Ermənilər Dialə və Cühud dağlarından şəhəri top atəşinə tutdular. Əhali xristianların da topunun olduğunu görüb qorxuya düşdü. Hər tərəfdən şəhərə yürüş etdilər. Əsgərxan, Mehdəlqədər, Yurddaş və Seyid Hüseyn bağı küçəsi yürüşə məruz qaldı. Evlər talanıb yandırıldı. Həmin gün axşam Qaradağlı silahlıları heç bir iş görmədən Urmiya, Salmas yolu ilə qaçdılar.

Azərbaycanlıların soyqırımın gözləri ilə görmüş Motemed-Əlvözərə öz qeydlərində belə məlumat verir: «Səhərə kimi atışma kəsilmədi. Səhər hökumət mərkəzinə gəldim. Raportlardan məlum oldu ki, gecə dəhşətli faciələr baş verib. Çilolar ermənilər hücum edib təxminən 500 evi odlayıblar, azərbaycanlı əhalini qətlə yetiriblər. Qırğın səhəri gün də davam etdi. Həmin gün qırğında 10 minə yaxın günahsız Azərbaycanlı qadın və uşaq qətlə yetirildi. Səhər tezdən başlandı qətl-qarət, nahardan sonra Mister Şedin dayanmaq əmrinə məhəl qoymadan davam etdirildi. Xristianlar istədikləri azərbaycanlıları öldürürdülər.

Həmin günlərin qanlı xronikasını əks etdirən salnamə kimi Əli Dehqaninin «Zərdüşt yurdu Urmiya» əsərində axır çərşənbə günü azərbaycanlıların başına gətirələn müsibətlər haqqında yazılardan:

Amerikanın Urmiyadakı konsulu Mister Şedin hiyləsi ilə tərkisilah olunmuş azərbaycanlılarla müzakirədən sonra urmiyalılar aldandıqlarını başa düşdülər.

Əli Dehqani daha sonra yazır: «Bu günü Günəş ili 12 26-cı il, İsfənd ayının 26-sı - axır çərşənbə (17 mart, 1918) Urmiya şəhərində erməni daşnaqları və Çiloların 10 min nəfərə yaxın azərbaycanlı qırğınının şahidiyəm».

Azərbaycanlılara qarşı soyqırımı təşkil edən ermənilər təkcə assurlardan deyil, yerli kürdlərin hərbi gücündən də istifadə etmək məqsədilə gizli danışıqlar aparırdılar. Bu işdə hiylə işlədib assur başçısı Marşimonu irəli verən ermənilər onun kürd lideri Simetko ilə görüşünü təşkil edirlər. Görüş zamanı sözləri çəp gəldiyindən Simetko Marsimonu vurub öldürür və ermənilərin bu məkrli təklifinə qarşı çıxır. Marşimonun ölümündən sonra hərbi hakimiyyətə erməni Ağa Petros başçılıq edir. Ə.Kəsrəvi yazır ki, Ağa Petrosun başçılığı ilə keçirilən bu qanlı ixtişaşlar zamanı Salmasda bircə abad kənd belə qalmadı. Çarəsiz qalan xalq öldürülür, imkanı olan qaçıb gedirdi. O gün olmurdu ki, Urmiyada adam qətlə yetirilməsin.

Ə.Kəsrəvi yazır: «Urmi, Salmas, Xoy şəhərləri və bu şəhərlər arasında olan kəndlərdə Azərbaycan türklərinin soyqırımı və talanlarının davam etdiyi bir vaxt Osmanlı Ordusu onların yardımına gəlir və azərbaycanlıların bəlkə də yox olmaq təhlükəsindən qurtarır. Osmanlı ordusu 1918-ci ilin iyun ayında Xoy şəhərinə çatır. Ordu oradan Salmasa doğru hərəkət edib erməni-assur birləşmələrinə həmlə edir. Petros bu döyüşə Urmiyadan topxana da gətirmişdi. Bir neçə günlük müharibədən sonra erməni ordusu dağıdıldı, onlar ailələrini, mal-qaralarını götürüb qaçmağa başladılar.

Həmin il Böyük Ermənistan yaratmaq fikrində olan daşnaq partiyasının başçısı Andronik Xoy şəhərini ələ keçirmək və erməni-assur qoşunlarına birləşmək üçün 8-000 nəfərlik hərbi qüvvə (onların 10.000 nəfərlik ailəsi ilə) Culfa yolundan Xoy şəhərinə tərəf hərəkət etdi. Ermənilər belə qərara gəlmişdilər ki, Xoy şəhərini tutub, onun əhalisini qırandan sonra on min erməni ailəsini burada məskunlaşdırmaqla Azərbaycanın bu hissəsini Ermənistana birləşdirsinlər...

Osmanlı Ordusu özünü Salmas tərəfdən Xoya çatdırdı. Bunu eşidən Xoy əhalisi sevinərək müqaviməti gücləndirdi. Nəhayət, Osmanlı qoşunu yetişərək topları dağ başında qurdu, erməni ordusunu atəşə tutdu. Ermənilər qalib olmaq ümidlərini itirib gəldikləri yolla geri dönüb qaçdılar.»

Lakin bu məğlubiyyətdə azərbaycanlıların soyqırımına son qoymadı. Erməni yeni planlar cızır, müdafiə həlqəsi zəif olan şəhərlərə lokal hücumlar edib, yeni faciələr törədirlər. Düşmənlər öz məkrli planlarında rusların Urmiya gölündəki hərbi gəmisindən istifadəni də nəzərdə tuturdular. O gəmi 180 nəfərlik erməni-assur hərbiçisinin əlində idi. Məqsəd bu gəmidə toplar yerləşdirilib Şərəfxana limanına çıxmaq, limandakı gəmiləri ələ keçirib yeni hərbi əməliyyata başlamaq idi. Bu niyyət qovuşmaq üçün onlar hər cür cinayətə əl atır, dinc əhalini, din xadimlərini belə qətlə yetirirdilər. Erməni-assurların gizli niyyətlərini faş edən Ağa Mirməhəmməd Pişnamaz Xalxalının qətli də erməni vəhşiliyinin bariz nümunəsi idi.

Əhməd Kəsrəvi qeyd edir ki, ermənilər Urmiyadan qaçarkən yollarda, kəndlərdə olmazın vəhşiliklər törədirdilər. O yazır: «... Onlar Osmanlı ordusunun yaxınlaşdığını görüb şəhəri tərk etdilər. Bu dəhşətli hadisələrdə ermənilər və assurlar 10 min nəfərdən çox Azərbaycanlını öldürdülər. Çarəsiz xalq altı ay zülm və işgəncələrdən sonra erməni və assurların qaçdığını görüb sevindi».

«Azərbaycanlılar faciənin ağır nəticələrini sonra görüb dərk etdilər. Qısa bir müddətdə Cənubi Azərbaycanda qətlə yetirilənlərin sayı o qədər böyük idi ki, onun necə acınacaqlı olduğunu qələmə almaq mümkün deyil. Qərb bölgəsinin şəhər və kəndləri yandırılıb viran edilmiş, 150 min azəri türkü qətlə yetirilmişdir»

Bu da tarixdə ağ ləkədir ki, özünü Birinci Dünya müharibəsində bitərəf elan etmiş İran dövlətinin suveren hüquqları və ərazi bütövlüyünə təcavüz edilmişdir. Bunu müharibədən yaranmış vəziyyət kimi qəbul etsək, bəs onda İranın ərazisində «əzabkeş» erməni hərbi birləşmələrinin azarbaycanlıları qırıb-çatdıqlarına necə don geydirmək olar. Bu «əzabkeş» xalq İran ərazisində etnik təmizləmə aparmaqla, «Böyük Ermənistan» yaratmaq istəmişdir. Nə üçün tarixin bu ağ ləkəsi «erməni soyqırımı» nağılına rəvac verən bəzi Qərb dövlətləri və həmçinin İranın öz tarixçiləri tərəfindən işıqlandırılmasın?! Yerli türk xalqını kütləvi qırıb-çatdığının unutdurulmasının mənası nədir?

## FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASININ SƏDRİ ƏLİƏKBƏR BƏY XASMƏMMƏDOVUN ƏDLİYYƏ NAZİRİNƏ MƏRUZƏSİ. 22 NOYABR 1918-Cİ İL

Fövqəladə Təhqiqat Komissiyasının apardığı istintaq aşağıdakıları müəyyən etmişdir: Şamaxıda müsəlmanlar ermənilər və malokanlarla keçmiş zamanlardan sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, onları incitməmiş və qonşuluq əlaqələrini saxlamağa çalışmışlar.

Fevral çevrilişindən sonra isə ermənilər yerli əsgər və fəhlə deputatları soveti ila əlaqəyə girmişlər. Ermənilər sovet nümayəndələrinin müsəlmanlara qarşı üçüncu şəxslər vasitəsilə qaldırdıqları hər cür fitnəkar çıxışları müdafiə etmişlər. Yerli komanda oradan getdikdə onlar gizli olaraq silah anbarlarını ələ keçirərək erməni və malokanlardan ibarət qarnizon təşkil etmişlər, öz kəndlərinə müxtəlif yollarla silah gətirib güclü surətdə silahlanmışdırlar. Silahı cəbhədən qayıdan əsgərlər gətirmişlər. Bütün bunlar müsəlmanları bərk həyəcanlandırmışdır. Onlar aydın görürdülər ki, ermənilər hücuma hazırlaşırlar. Şamaxı şəhərindən altı verst aralıdakı Mədrəsə kəndinə Zaqafqaziyanın digər qəzalarından erməni əsgərləri yığışırdı. Martın birinci yarısında məlumat alındı ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursatla, top və pulemyotlarla silahlanmış 2 mindən çox erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və erməni ictimai xadimlərindən ibarət nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin dəstə ilə görüşü malakan kəndi Qozluçayda (Hümili) olmuşdur. Dəstə silahı Şamaxı qarnizonuna verməkdən imtina etmiş və bildirmişdir ki, onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdir. Dəstə Şamaxının yanından keçib Mədrəsə kəndinə gedəcəyinə söz vermişdir.

Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün xalqlarının və ruhanilərin nümayəndələri yığışaraq and içirlər ki, sülh şəraitində yaşayıb qayda-qanunu pozmayacaqlar. Şamaxıda olan kəndli müsəlman könüllülər evlərinə dağılışmışlar. Martın 18-də sübh çağı Şamaxı ətarfından top atəşləri eşidilməyə başlayır. Aydın olur ki, gecə ikən şəhər cənubdan ermənilər, şimal-şərqdən isə malokanlar tərəfindən mühasirəyə alınmışdır, indi şəhərin müsəlman hissəsini bombalayırlar. Müsəlmanlar əvvəlcə müdafiə olunmaq istəyirlər, lakin topların qarşısında dayana biləcək vəziyyətdə olmadıqlarından geri çəkilirlər. Ermənilər şəhərə atəşi davam etdirir və hücum edirlər. Axşama yaxın onlar ən varlı hissəsi «Piran Şirvan»a daxil olurlar. Evlər yandırılır, yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə küçələrdə görünənlərin hamısı güllələnir.

Küçələrdə döşləri kəsilmiş və qarınları doğranmış qadınların meyidləri atılıb qalmışdı. Talan edilmiş əmlak araba və furqonlarla erməni və malokan kəndlərinə göndərilirdi. Bu vəhşiliklər Gəncə müsəlman qoşunları gələnə qədər davam etmişdir. Ermənilər malokan kəndi Qozluçaya çəkilirlər. Müsəlman qoşunları onları təqib edir. Aydın olur ki, ermənilər və malokanlar sayca onlardan qat-qat üstündür və onlar geri çəkilib Şamaxıdan çıxıb getməli olurlar. Bu qoşunlarla birlikdə Şamaxının demək olar ki, bütün əhalisi gedir, ancaq ən kasıb camaat-xəstələr, qocalar, qadınlar və uşaqlar qalır.

Müsəlman qoşunları gedəndən bir neçə gün sonra ermənilər Şamaxını 2-ci dəfə zəbt edirlər. Müəyyən edilmişdir ki, müsəlman qoşunları ilə getməyib şəhərdə qalan bütün kişilər, qadınlar və uşaqlar məhv edilmişdir. Hamı tərəfindən hörmət edilən Axund Cəfərqulu da vəhşicəsinə qətl edilmişdir. Erməni quldurları onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişlər. Ermənilər habelə onun evində və həyətində sıxınacaq tapmış çoxlu qadın və uşaqları da öldürmüşlər. Onun tamamilə yandırılmış evinin həyətində çoxlu xırda insan sümükləri də aşkar edilmişdir. Meyidlərin qalmış iri sümüklərini isə erməniləri türklər Şamaxıdan qovandan sonra toplayıb basdırmışdılar. Həyətdə indi də çürümüş meyidlərin boğucu iyi qalmışdır. Bundan başqa, yandırılmış evlərin və məscidlərin həyətlərində meyidlərin yanmış sümükləri toplanıb.

Məscidlərin həyətlərində şəhərin hər yerində yığılmış sümüklərin torpağa basdırıldığı təzə qəbirlər vardır. Şəhərin bütün hissəsi yandırılmışdır: yanğın hər şey məhv etmişdir. Müsəlman hissəsində bir dənə də olsun ev qalmamışdır. Şəhərin bütün müsəlman hissəsi indi xarabalığı, böyük küllüyü xatırladır.

Məscidlər və müqəddəs yerlərə də aman verilməmişdir: 13 məhəllə məscidi və böyük «Cümə məscidi» yandırılmışdır. Bu müsəlmanlar üçün təkcə ibadət yeri kimi deyil, həm də 800 il bundan əvvəl tikilmiş qədim memarlıq abidəsi kimi qiyrnətli idi. Şamaxı qəzasının 72 müsəlman kəndinin də taleyi belə olmuşdur.

Həmin dəhşətli günlər onilliklər arxasında qalıb. Onilliklər bu gün-sabah bir əsr olacaq. Ancaq indinin özündə Fövqəladə Təhqiqat Komissiyasının məlumatlarını şahid dindirilmələrini oxuyanda damarda qan donur.

Azərbaycan hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının dindirilmə protokollarından birində deyilir:

- Adım Siracəddin, familiyam Əfəndiyevdir. Şamaxı şəhərinin sakiniyəm. 48 yaşım var. 20 ildir ki, Bakı şəhərində ticarətlə məşğulam. Hər iki qırğın vaxtı Şamaxıda olmuşam. Məlumdur ki, ermənilərlə müsəlmanlar arasında ziddiyət çoxdan mövcuddur. Xüsusilə ermənilərin məkrli niyyəti 1905-1906-cı illərdə bütün kəskinliyi ilə aşkar olundu və o vaxtdan onlar yeni həmlələr üçün məqam gözləyirdilər. Rusiyadakı dövlət çevrilişi, bolşevik hərakatı, yaranmış anarxiya şəraiti onlara bu imkanı verdi. Onlar yaranmış şəraitdən istifadə etdilər. Daşnaqlar Bakı bolşeviklərini inandırdılar ki, müsəlmanlar köhnə rejimin tərəfdarıdırlar. Onlar nəinki Zaqafqaziyada bolşevik ideyalarının, ümumiyyətlə inqilabın düşmənidirlər. Onlar istədiklərinə nail oldular.

Ermənilərin eləcə də onların əsas nümayəndəsi olan Şaumyanın məqsədi ümumiyyətlə, Zaqafqaziyanın müsəlman əhalisini soyqırıma məruz qoymaq idi. Onlar bu arzularına nail ola bilmədilər. Bu məkrli niyyətlərini türklər gələnə qədər Bakı quberniyasında həyata keçirə bildilər.

Şaumyanın cinayətkar fəaliyyətində köməkçiləri, tərəfdarı çox idi. Onların ən fəalları Atarbəyov, Lalayev, Şamaxı Poçt-teleqraf kontorunun rəisi Gülbəndov və bərbər Ovanes idi. Hansı vasitələrləsə Bakı şəhərində İcrakom sədri olmuş Atarbəyov Şaumyanın əsas köməkçisi idi. Atarbəyovun da öz növbəsində Şamaxıda öz köməkçiləri çox idi. Onlar qısa

müddətdə Şamaxının bütün erməni kəndlərini silahlandırmışdılar. Gün olmurdu ki, erməni kəndləri Bakıdan bir neçə furqon silan almasınlar. Təxminən fevralın əvvəllərində Mədrəsə kəndində çoxsaylı erməni hərbi hissələrinin yerləşdirildiyi xəbərini eşidib, bir neçə həmyerlimlə Şamaxıya gəldik... Şəhər sübhdən top atəşinə tutuldu. Axşamüstü artıq ermənilər şəhərdə idilər. Qırğın, talan İsmayıl xan Ziyadxanovun dəstəsi Şamaxını azad edənədək davam etdi. İsmayıl xan geri çəkilərkən əhalini xəbərdar etdi ki, ermənilər yenidən qayıdacaqlar, şəhəri tərk etsinlər. Ancaq Göyçaydan gəlmiş axund camaatı sakitləşdirdi ki, ermənilərlə münasibət yaradacaq. 6 gün sonra isə Şamaxı həqiqətən erməni vəhşiliyinin və qəddarlığının qurbanı oldu. Həmin vəhşiliklərin təsviri çətindir. Ermənilər sanki insanı vəhşi heyvandan fərqləndirən bütün keyfiyyətləri itirmiş idilər. Küçələrdə müsəlman kişilərin, qadınların, uşaqların eybəcər hala salınmış meyidləri qalaqlanmışdı. Bu dəhşətli mənzərəni isə heç vaxt unuda bilməyəcəyəm. Küçələrdən birində iki yerə bölünmüş 3-4 yaşlı uşağın cəsədi yan-yana uzadılmış kişi və qadın meyidlərinin sinələri üstünə qoyulmuşdu... Mövsüm bəy Sadıqbəyov, Şamaxı sakini:

- Küçələrdə sürüdülən qadın və uşaq meyidlərini öz gözlərimlə görmüşəm. Ermənilərin vəhşiliklərinin sübutu tamam dağıdılmış Şamaxı şəhəri və qəddarlıqla qətlə yetirilmiş minlərlə qadın, uşaq və qoca meyidləri idi.

İbrahimxəlil Tapdıq oğlu, Şamaxı qəzasının müsəlman Mərəzəsi kəndinin starşinası:

- Kəndimiz malakan Mərəzəsinin bir verstliyində yerləşir. Şamaxıdakı birinci qırğında Gəncə müsəlmanları geri çəkildikdən sonra müşahidə etdik ki, malakan kəndinə yad adamların xüsusilə də böyük adamların axını var. Bakıya getmiş malakanlar geriyə hansısa şəxslərlə qayıtdılar. Onlar bizim kəndin ağsaqqallarını çağırtdıraraq kənd camaatında olan silahların bolşevik hökumətinə təhvil verilməsini tələb etdilər. Həmçinin bildirdilər ki, Bakıdan böyük rəislər gələcək. İki günlük möhlət alaraq vəziyyəti müzakirə etdik. Bəzilərimiz bu qənaətə gəldik ki, şübhəli adamlara aldanmayaq və qırğından qurtulmaq üçün «Qəbiristan» adlı qışlağa gedək. Camaatın əksəriyyəti kənddə qalaraq hadisələrin sonrakı gedişatını gözləməyi üstün tutdu. İki gündən sonra kəndin ağsaqqalları yenidən çağırıldılar və az keçmiş ermənilər kəndə hücum etdilər. Kənd talan edildi, 300 nəfər qətlə yetirildi. Camaatın qalanı Türklər gələnə qədər «Qönçə-bulaq» qışlağında gizləndilər.

Xüsusilə mühüm işlər üzrə məhkəmə müstəntiqi Komarovskinin Bakı şəhərindəki müttəfiq ordunun komandanına ünvanlanmış məlumatından:

-Şamaxı qırğınını törədənlərin başında duran Stepan Lalayev xüsusi qəddarlığı ilə fərqlənirdi. O, Şamaxı şəhərində müsəlman qadınların, uşaqların, qocaların qaçıb gizləndikləri məscidlərin hamısının mühasirəyə alınıb yandırılmasını, bayıra qaçanların güllələnməsini əmr etmişdi. Beləliklə, məscidlərə sığınanların hamısı yandırıldı, dəhşətlə qətlə yetirildi.

Lalayevin əmri ilə erməni əsgərləri gənc müsəlman qızlarını tutub onun Şamaxı şəhərindəki şəxsi evinə aparır, onları soyundurub zorla içirdərək rəqs etməyə məcbur edir, təhqirlərə məruz qoyduqdan sonra bəzilərini yerindəcə güllələyir, bəzilərini isə evin hündür balkonundan küçəyə ataraq öldürürdülər. Həmin təcavüzə məruz qalmış qızlardan yalnız 7 nəfəri türk qoşunları Şamaxıya daxil olduğu üçün xilas ola bilmişdilər.

Arxiv sənədləri hamısı qan qoxuludur.

Sağ qalmış Şamaxı sakinlərinin dedikləri ağlasığmaz dəhşət idi. Bütün bu dəhşətlər şahid ifadələrindən göründüyü kimi, əslən Şamaxılı olan Stepan Lalayevin əmri və iştirakı ilə həyata keçirilirdi:

- Erməni əsgərləri 8-10 nəfər müsəlmanı bir-birinə spiralvari bağlayır, sonra tüfənglərinin süngüsü ilə bir zərbəyə neçə adamı öldürmək yarışı keçirirdilər.

Öldürülən insanların kəllə qapaqları çıxarılır, əlləri, qolları, qulaq-burunları kəsilir, meyidlər təhqir edilirdi.

-Bakı şəhərində yaşayan şamaxılılardan Hacı Zamanov, Hacı Mir İsmayıl, Mir Həşimov və Məşədi Əbdül Hüseyn Nadirov İttifaq qoşunlarının Bakı komandanı Tomsona müraciətlə bildirirdilər ki, S. Lalayev öz bandası ilə Şamaxıya gələrkən yol boyu bütün kənd və qəsəbələri yerlə-yeksan etmişdir. Onlar dağıtdıqları kəndlərdə bütün kişiləri məhv edir, qadınlara və uşaqlara olmazın əzabların verirdilər. Qadınları və uşaqları ərlərinin, atalarının gözləri qarşısında tikə-tikə doğrayırdılar.

Yaşayış məntəqələri starşinaların, ağsaqqalların iştirakı ilə tərtib etdikləri aktlarda göstərilən rəqəmlər ermənilərin Şamaxıda əsl soyqırım əməliyyatı keçirdiklərinin sübut edir.

- 217 evlik Qubalı kəndində 250 kişi, 150 qadın, 135 uşaq qətlə yetirilib. Həmin rəqəmlər başqa aktlarda müvafiq olaraq belədir:

- 66 evlik Qaravəlli kəndi: 40 kişi, 50 qadın, 30 uşaq.
- 159 evlik Qonaqkənd: 25 kişi, 5 qadın, 4 uşaq.
- 600 evlik Quşçu kəndi: 192 kişi, 115 qadın, 25 uşaq.
- 358 evlik Ərəb-Qədim kəndi: 200 kişi, 100 qadın, 78 uşaq.
- 165 evlik Cəyirli kəndi: 40 kişi, 20 qadın, 15 uşaq.

Sündi kəndində 250 nəfər, Müsəlman Mərəzəsində 300 nəfər, Dilmanda 585 nəfər, Kalvada 500 nəfər, Tircanda 360 nəfər, Mücüdə 230 nəfər amansızlıqla qətlə yetirilmişdir. Ümumiyyətlə isə Fövqəladə Təhqiqat Komissiyasının arxiv sənədlərində Şamaxı qəzasının 58 kəndinin yerlə-yeksan edildiyi, 7 minə yaxın müsəlman əhalinin öldürüldüyü göstərilir. Öldürülənlərin 1.653 nəfəri qadın, 965 nəfəri uşaqdır.[72]

Bu rəqəmlərə quyularda sığınacaq tapmış insanların həlak olması daxil deyildir. Şamaxı sakini (Xutorda yaşamış) mərhum Əzizağanın məlumatında deyilirdi ki, Şamaxı əhalisinin müəyyən hissəsi erməni hücumu vaxtı taxıl quyularında sığınacaq tapmışlar. Bunların yerini əsir düşmüş udin, malokan və erməni əsilli adamlar xəbər vermişlər. Lalayanın dəstələri quyuları uçuraraq örtmüşlər və insanlar həlak olmuşlar. Həlak olanların qohumları sonralardan bəzi quyulardan meyidləri çıxarıb dəfn etmişlər.

[72] «Dünyaya Pəncərə», № 10, (71), 12-19.07, 2001.

# TÜRK SOYQIRIMLARININ BƏZİ MƏQAMLARINA DAİR FAKTLAR VƏ ŞAHİD İFADƏLƏRİ

*«...ermənilərin vəhşiliyinin həddi-hüdudu yoxdur. Onların yanında orta əsrin kədərli dəhşətləri çox solğun görünər. Adam inana bilmir ki, XX əsrdə bütün Avropada öz mədəniyyətindən dəm vuran bir xalq köməksiz dinc əhaliyə qarşı vəhşiliklərin bütün üsullarını tətbiq etmiş olsun. Hər gün quberniyanın hər yerindən alınan raportların, məlumatların yaratdığı dəhşətlərlə bu sətirləri yazmaq çətindir: qadınlar zorlanır, uşaqlar odda yandırılır, dillər, qulaqlar kəsilir, işgəncələr, təhqirlər» (Gəncə qubernatorunun məruzəsindən).*[73]

«Mən Basarkeçərdə heç nəyi nəzərə almadan, türk əhalisini qırdım, lakin bəzən gülləyə hayıfım gəlirdi. Bu köpəklərə qarşı ən düzgün vasitə odur ki, döyüşdən onra bütün sağ qalanları toplayıb su quyularına doldurub üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları bir yerə topladım, əvvəlcə hamısını quyuya atdım, sonra isə quyunu ağzınadək daşla doldurub işlərini bitirdim». Bu sətirləri Yuxarı Bayaziddən olan daşnaq «qəhrəmanlarından» biri Valıram 1920-ci ildə öz «qoçaqlığını» yuxarıdakı kimi təsvir etmişdir (A.Lalayan, «Daşnaqsütyun və 1914-1918-ci illərin imperialist rnüharibəsi» əsərindən).

Erməni tacirlərinin puluna həvəs göstərən rus məmurları 1828-ci ildə Pəmbək bölgəsinin Qarakilsə (Vanadzor) və Hamamlı (Spitak) rayonlarında 51 kənddən 48-nin əhalisinin köçürülməsinə nail olmuşlar. 1988-ci ildə bu bölgədə 9 kənd qalmışdır ki, onları da 27 noyabr 1988-ci ildə Quqark soyqırımına məruz qoyub tam deportasiya etdilər.

1801-ci ildən 1828-ci illər arasında Lori-Pəmbək mahalında 100-dən çox kəndin əhalisinin taleyi hələ də müəyyən edilməmişdir. Bu barədə Əziz Ələkbərovun yazılarında bəzi məqamlara rast gəlmək olur. Onun araşdırmalarında göstərilir ki, Vedibasar mahalına 1801-1828-ci illər arasında erməni-rus təcavüzü ucbatından Pəmbək mahalından 5.000 nəfər qaçqın düşmüşdür.[74]

Pəmbəkdə kəndlərə hücum etməkdən ehtiyatlanan ermənilər yolda-izdə, çöldə, yaylaqlarda rast gələn günahsız adamları qətlə yetirmişlər. Bu minvalla Saral kəndindən 5, Arçut kəndindən 6, Gözəldərə kəndindən 7, Hallavardan 12, Pəmbəkdən 16 nəfər sığırçı və çobanlar ermənilər tərəfindən qətlə yetirilib, mal-qara və qoyunlarını talamışlar.

Pəmbək mahalında 1918-ci ildə dəhşətli türk soyqırımının ardı-arası kəsilmirdi. Qafqaz cəbhəsində rus ordusunun silahına sahib olan və toplarla hücuma keçən ermənilərin əlindən kənd sakinləri dağlara, qayalıqlara qaçmaqla canlarını xilas etməyə çalışmışlar. Hətta beləkdəki uşaqlarını belə qoyub qaçanlar olmuşdu. Arçut kənd sakinlərinin məlumatına görə ermənilər Arıqölən çökəkliyində tullanmış 30 bələk uşağını süngü ilə qətlə yetirmişlər.

Soyqırımının ən dəhşətlisini ermənilər Pəmbək (indiki Şaumyan) kəndində həyata keçirmişlər. 1918-ci ilin Novruz bayramı günü gözlənilmədən erməni hərbi hissələri kəndi qəflətən mühasirəyə alaraq, iclas adı ilə 13 yaşından yuxarı 411 kişini qoyun yatağına toplamışlar. Ermənilər belə bir hiylə işlətmişlər: «Biz qonşuyuq. Sizə qarşı heç bir düşmənçilik münasibətimiz yoxdur. Ancaq gözlənilən təhlükədən sizi xilas etmək istəyirik. Belə ki, Sasundan (Türkiyə) erməni ordusu gəlib Qarakilsəyə çatmışdır. Sizin həyatınız təhlükədədir. Ona görə bütün kişilər silahları ilə birlikdə (13 yaşdan yuxarı) kəndin ucqarındakı komaya (tövlə) toplansınlar. Silahınızı və özünüzü müdafiə edək. Sasun qoşunları Dilicana getdikdən sonra evinizə qayıdarsınız». İmkansız qalmış camaat qonşularına inanmışlar. Ermənilər onların silahını siyahı üzrə təhvil almışlar, özlərini komaya doldurub «mühafizə» etmişlər. Sonra onlar qapı-bacanı kəsmiş, əvvəlcə gülləbaran etmiş, sonra isə bacalardan ot və neft töküb od vurmuşlar. 411 nəfər kişidən yalnız meyidlərin altında qalmış və ardınca kom tövləsinin buxarısından bir nəfər qaçıb canını qurtarmışdır (İndi həmin şəxsin Molla İsmayılın övladları Bakı şəhərində yaşayır). Kəndin digər sakinləri - qadınlar və uşaqlar hadisədən xəbər tutduqdan sonra kəndi tərk edib meşələrə, dağlara qaçmışlar, kiçik yaşlı uşaqlar meşələrdə soyuqdan həlak olmuşlar. Daşnaq hökuməti isə hadisədən bixəbər olduğunu bildirmişdir.

1918-ci il Pəmbək soyqırımı haqqında Ardıc kəndindən Balaxanım nənə (ərini və yeganə oğlunu ermənilər qətlə yetirmişlər) deyirdi: «Sovet hakimiyyəti qurulduqdan sonra bizə dost olan bir erməni evimizə gəlmişdi. Mən bu barədə söz açanda o dedi ki, o işin təşkili sizin Bakıda komissarlara başçılıq edən Şaumyanın tapşırığı ilə olmuşdur. Bu hadisə bütün türk kəndlərində olmalı idi. Ancaq onu eyni vaxtda həyata keçirə bilmədilər». Ümumiyyətlə, Pəmbək mahalında 9 azarbaycanlı kəndində həmin vaxtda 1.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. 1918-1920-ci illər müddətində Arçut kəndindən 60 nəfər həlak olmuşdur. Onlardan əsir düşmüş 12 nəfəri boğazlanmışlar. O zaman kənd 60 ailədən ibarət olmuşdur.(Müəllifin araşdırmalarından, şahid ifadələrinə əsasən).

Həmçinin 1918-ci il Novruz bayramı günündə Əştərək yaxınlığındakı Gözəldərə (Tülkügözəldərə) kəndinə ermənilər basqın etmişlər. Kəndin 600 nəfərdən çox sakinini qətlə yetirib kəndin bütün tikililərini tam yandırmışlar ki, evlərdə və quyularda gizlənənlər olar. Bu faciə Xatın və Xocalı faciələrini geridə qoyur. Hazırda kəndin xarabalığı mövcuddur. Həmin kənddən üç nəfər gənc qaça bilmişdir ki, bu gün onların Gürcüstanın Marneuli rayonunun Daştəpə kəndində nəsli-övladları yaşayır.

Birinci Dünya müharibəsi dövründə (1914-1918) indiki Ermənistan ərazisində elə Azərbaycanlı ailəsi yoxdur ki, erməni təcavüzünə məruz qalmamış olsun.

Əksər ailələr isə tamamilə məhv edilmişdir. Məsələn, Pəmbək bölgəsinin Arçut (Ardıc) kəndində bir ailənin itkisini demək yerinə düşər: İsgəndər oğlu Qazının 1918-ci ildə 13 nəfər ailəsi olmuşdur ki, bir oğlu (İsgəndər) 2 nəfər uşağı ilə, bir qızı (Güləmbər) 2 nəfər uşağı ilə qaçarkən yolda ermənilər tərəfindən faciəli surətdə qətlə yetirilmişdir.

Qərbi Azərbaycanda («Ermənistanda») türk (azərbaycan) soyqırımı erməni müəlliflərinin əsər və təəssüratlarında da sübut edilir. Bolşevik A.Lalayan yazır: «Ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlanmış, dövlət siyasəti

---

[73] Çarlz Eliot. Türkiyo Avropada, 1900, s.21.
[74] Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan B.,1994.

səviyyəsinə qaldırılmış və Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Onda təəccüblənməyə dəyərmi ki, ancaq Ermənistanda daşnaq hökuməti «özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918-noyabr 1920) azərbaycanlı əhalisinin 60%-ni qırmışdır» (İstoriçeskie zapiski).

1918-1920-ci illərdə «Ermənistan» (Qərbi Azərbaycan) azərbaycanlılarının başına gətirilən müsibətlər, günahsız adamların, qadınlar və uşaqların ağlasığmaz işgəncələrlə qətlə yetirilməsi haqqında şahidlik verən arxiv sənədləri də az deyildir: "Sisyan mahalının 1-ci polis sahəsinin müsəlman kəndləri, 2-ci sahənin kəndlərinin böyük əksəriyyəti, 3-cü, 4-cü, 5-ci sahələrinin kəndlərinin xeyli hissəsi tamamilə məhv edilmişdir. Bir çox kənd ermənilər tərəfindən tamamilə yerlə-yeksan edilmiş və 50.000 müsəlman qaçqını Cəbrayıl qəzasında sığınacaq tapmışdır».

Şahidlərin ifadəsinə və rəsmi sənədlərə əsasən Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmışdır. Göstərilən kəndlərdə 3.257 kişi, 2.276 qadın, 2.196 uşaq öldürülmüş, 1.060 kişi, 794 qadın, 425 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10.068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir. Lakin erməni vəhşiliyinin dəhşətli martiroloqu çətin ki, həqiqətə uyğun olmuş və bu rəqəm xeyli artırılmalıdır. Belə ki, qəzada baş verən bu qarma-qarışıqlıqda, müsəlmanların tələşlə qaçması qurbanların çoxunu hesablamağa imkan vermirdi.[75]

Şahidlərin ifadələrinə görə, ermənilərin qəzada törətdikləri aşağıdakı amansız vəhşiliklər müəyyən edilir:

1) Vağudi kəndində dəstənin erməni soldatlarına paylanmış 15 gözəl qız təhqir edilməklə öldürülmüşdür;

2) Həmin kənd dağıdılarkən sığınacaq axtaran 400 nəfər müsəlman məscidə doldurulmuş, əvvəlcə pəncərədən əldəqayırma bomba atılmış, sonra isə məscidə od vurulub bütün adamlar yandırılmışdır;

3) Həmin kənddə Qədimə Tahir qızı xəncərlə doğranmış, döşlərini kəsib elə onun öz doğma körpəsinin ağzına vermişlər;

4) Həmin kənddə Yolçu Şahhüseyn oğlunun tənassül üzvünü kəsərək onu öz ağzına qoymuşlar;

5) Həmin kənddə cavan qızlar Nisə Aman qızı, Əcəb Nuhbala qızı, Sona Cəfər qızı və Şahpəri Calal qızı zorlanmaqla öldürülmüşlər;

6) Həmin kəndin yanında Gülbəsti Qasım qızı öldürülmüş, döşləri kəsilmiş fəqərə sümüyünün arasına mıxlanmışdır;

7) Nüvədi kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan Əsədbəy Məlik Abbasovun sinəsinə süngü sancmışlar;

8) Həmin kənddə ermənilər kənddən qaçmaq istəyən qadın və uşaqların başını qılıncla və xəncərlə kəsmişlər;

9) Şəki kəndinin küçəsində döşləri kəsilmiş qadın meyidləri və iki yerə bölünmüş körpə uşaq meyidləri vardır;

10) İrmişli kəndini dağıdarkən ermənilər südəmər uşaqları süngüyə taxmış, meyidlərini tikə-tikə doğramışlar;

11) Ağudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb etmiş, qadınların döşünü kəsərək körpələrin ağzına soxmuşlar;

12) Ağudi kəndində ermənilər Qulaməli Şəkər oğlunun ayağını topuqdan kəsmiş, sonra süngu ilə dəlik-dəlik edərək canlı ikən ölüncəyə qədər yeriməyə məcbur etmişlər;

13) Həmin kənddə bütün gözəl qızlar zorlanmış və öldürülmüşlər;

14) Çullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 nəfəri qılıncdan keçirmişlər;

15) Bağırbəyli kəndində ermənilər 7 nəfər kişi və qadını bir evə dolduraraq vurub yandırmışlar;

16) Müsəlman kəndində meyidlər o qədər eybəcər hala salınmışdır ki, başsız, qolsuz, ayaqsız meyidlərin kimə məxsus olduğunu tanımaq olmurdu;

17) Qatar kəndində adlı-sanlı qoca Məşədi Qələndər Məşədi Qulu oğlu öldürülmüş, neft tökülmüş və yandırılmışdır;

18) Həmin kənddə ermənilər Kərbəlayi Allahverdi Hüseyn oğlunun əl-qolunu bağlayıb başını kəsmişlər;

19) Vartanidzor kəndində daha çox qadın və uşağı qılıncdan keçirmişlər;

20) Rəhman-Əfəndi kəndində (İrəvan quberniyası, Yeni Bayazid qəzası) qoca kişi İbrahim Hacı Hüseyn oğlunun sağ gözünü çıxarmış, meyidini yandırmışlar.

Zəngəzur qəzasının yüzdən artıq kəndinin dağıdılması, yüz minlərlə mal-qara oğurlanması, bağların, tarlaların məhv edilməsi müsəlman qəzasının iqtisadi vəziyyətini dilənçi vəziyyətinə salmış, 50.000-dən çox qaçqın Azərbaycanın kəndlərinə pənah gətirmişlər. Sadə hesablamalara görə qəzanın Azərbaycanlılarına 1 milyard manat zərər vurulmuşdur.[76]

Zəngəzurda baş verən hadisələr haqqında hər cür yalan məlumatları təkzib etmək üçün Azərbaycan Demokratik Cümhuriyyəti hökuməti aşağıdakı məlumatı verməyi vacib bilmişdir.

«Təqribən bir ilə yaxın Zəngəzur qəzası sahəsində yerli bolşevik əhval-ruhiyyəli ermənilərdən ibarət müxtəlif silahlı bandit dəstələri fəaliyyət göstərmişdir. Bu bandit dəstələri əhalini qorxudaraq və Azərbaycan hökumətini tanımayaraq müsəlman kəndlərini dağıtmış, öz doğma yurdlarını tərk etməyə məcbur olan və qonşu qəzalarda sığınacaq axtaran dinc əhalini qarət etmişlər. 60.000 nəfərdən artıq müsəlman qaçqınlar, yersiz-yurdsuz aclığın və soyuğun bütün sınaqlarını görmüşlər".[77]

Skotland-Liddel «Erməni-tatar sazişi. Qarabağa sülh gəlir» məqaləsində göstərir ki, mən yanvarda Şuşada olanda bir ingilis zabitinə dedim ki, hazırlaşıram Zəngəzur okruquna gedim və orada qaçqın müsəlmanların vəziyyətini öz gözümlə görüb əmin olum. Onların sayı 40.000 nəfərdən çox idi, hamısı ermənilərdən zərər çəkənlərdi.[78]

İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15.155 təsərrüfatı təmsil edən 199 kənd (100.626 nəfər) göstərilmişdir. Bu rəqəmlər Kavkazskiy kalendardan (1908-ci il) götürülmüşdür. 1908-1918-ci ilə qədər əhali artımı da hesablanaraq dağıdılmış kəndlərin əhalisi 135.000 nəfər təşkil etmişdir.[79]

[75] Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. B., 1990, s. 220
[76] Fond 970, siyahı s.10, iş 161, vərəq (V) 1-9.
[77] Fond 897,S l.İş 112. V. 19.
[78] Fond 894, S.10, işl, 103, V.10-19.
[79] Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. B., 1990, s. 220.

1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir.[80]

Ermənilər «dinc» Sovetlər dövründə də dinc durmadılar;

1948-ci ildə Ermənistan SSR-dən azərbaycan türklərinin kütləvi köçürülməsinə başlanıldı. Sovet hökumətinin türksüz Ermənistan planına rəvac verməyə başladılar. 10 mart 1948-ci il «Azərbaycanlılar Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürülsün qərarı ilə həyata keçirilirdi. Nəticədə 150.000 Azərbaycanlı Ermənistan SSR-dən Mil-Muğan düzlərinə və Ceyrançölə köçürüldü. Onların 50.000-ə yaxını-30 %-i iqlim şəraitinə dözməyib qırıldı. Yalnız 50.000-i Stalinin ölümündən sonra viran edilmiş yurd-yuvalarına qayıtdılar.

Göründüyü kimi, azərbaycanlıların kütləvi məhvi dövlət səviyyəsində əvvəlcədən düşünülmüş, planlı surətdə təşkil edilmişdir. Buna görə də həmin cinayətlər və onları törədənlər haqqında tədqiqatlar aparılmalı, cinayətkarlar və səbəbkarlar aşkar edilməli, Azərbaycanlı soyqırımı hüquqi qiymətini almalıdır.

Pəmbəkdə (Quqark) növbəti qırğın 1988-ci ilin noyabrın 27-30-u arasında oldu. Burada da qeyd edilən 9 kənddə 35 nəfər qətlə yetirilmişdir. Şaumyan (Vartan-Əli) kəndində 14 nəfəri milis sahə rəisinin rəhbərliyi altında öz həyətlərindəki bar ağacına sarıyıb, bədəninə benzin töküb diri-diri yandırdılar. Bunların içərisində Böyük Vətən müharibəsindən ordenlərlə qayıtmış, bir qol və bir ayağını itirmiş Qərib kişi də var idi.

Həmçinin 1988-ci ilin 30 noyabrında yola düşən avtobus kolonnasının güllələnməsi nəticəsində 14 nəfər həlak oldu. Hətta Saral kənd sakini Məsim kişinin özü ilə bərabər, ailə üzvlərinin 3 nəfəri həlak oldu. Lori-Pəmbək bölgəsində 64 nəfər azərbaycanlı həlak olmuşdur (rayonlar üzrə: Allahverdi - 4, Cəlaloğlu (Stepanovan) - 7, Hamamlı (Spitak)-15, Borana (Noyemberyan)-3, İcevan-6, Kalinino-8, Quqark-20. Qarakilsə (Kirovakan)-l). 179 kəndin var-dövlətləri talan edildi. Ümumiyyətlə: 500 nəfər itkin ilə 230.000 azəri türkü və 20.000 müsəlman kürdü BTR-lərdə çemodan köçü ilə deportasiya edildi. Yeri gəlmişkən, Ermənistan qaçqınlarından Qarabağ döyüşlərində isə 2.500 nəfər həlak olan və itkin düşənlər oldu ki, bu da respublikamız üzrə həlak olanların 12,5 faizini təşkil edir.

Beləliklə, 1988-1989-cu illər ərzində Qərbi Azərbaycanda (Ermənistan) 250.000 əhali çıxarıldı. Onların 40.000-i SSRİ-nin müxtəlif respublikalarına, 190.000-i isə Azərbaycana pənah gətirdi ki, bu da o zaman Azərbaycan əhalisinin 2,5 faizini təşkil edirdi. Müsəlman kürdləri isə 20.000 idi.

Son Pəmbək soyqırımının digər dəhşətli hadisələrindən biri də Leninakanın (Gümrünün) uşaq evində 1-14 yaş arasında olan 70 azərbaycanlı uşağın acı taleyi oldu. Uşaqlar Qazaxa gətirilərkən Spitakda onların bir hissəsi diri-diri böyük enkəsikli borulara doldurub ağzını qaynaqlamışdılar. Digər bir hissəsini (25 nəfər) isə naməlum istiqamətdə aparmışlar. 7 dekabr 1988-ci il zəlzələsində Fransadan gəlmiş xilasedici komanda itin izi ilə borunun qaynağını açdılar, dəhşəti gözləri ilə gördükdən sonra, heç bir kəlmə demədən, komanda geri, Parisə uçdu. Quqark soyqırımında digər dəhşətli hadisə 12 dekabr 1988-ci ildə Bakıdan kömək məqsədilə gələn təyyarənin Stenger raketi ilə vurulması oldu. 77 azərbaycanlı zabit həlak oldu. Bir nəfər təsadüfən sağ qalmışdır. O şikəst olsada bu qəddarlığın yeganə şahididir. Vaxtilə erməni terrorçuları Sovet hərbi hissəsindən 4 ədəd Stiger raketi qarət etmişdilər. İkinci raket ASALA Türkiyə hüdudlarından Leninakana uçan Yuqoslaviya təyyarəsini Türkiyə təyyarəsi hesab edib ona tuşladılar ki, 7 nəfər xilasedici komanda həlak oldu.

Nəticə olaraq demək olar ki, Qərbi Azərbaycandan («Ermənistan»dan) XIX əsrin 20-ci illərindən XX əsrin 1989-cu ilinədək Türkiyəyə, İrana, Şərqi Azərbaycana Gürcüstana, Şimali Qafqaza, Orta Asiyaya, «İran təbəəsi», «Türk təbəəsi» adı altında «xalq düşməni», «şübhəli ünsür» damğası ilə sürgün edilən, 1948-1953 və 1988-1989- cu illərdə öz vətənlərindən didərgin salınan azərbaycanlıların sayı 2 milyon nəfərdən çox olmuşdur. Bundan əlavə, 1905-1907-ci və 1918-1920-ci illərdə olan qanlı vuruşmalarda yarım milyon azərbaycanlı «Ermənistan» ərazisində qətlə yetirilib.

Beləliklə Qərbi Azərbaycanda ("Ermənistanda") sovet hakimiyyəti qurulanadək orada yaşayan azərbaycanlıların taleyinə nəsib olan da tarixən təkrar olunan eyni cür imperiya siyasətinin - bir zaman Çar Rusiyasının, bir zaman İngiltərənin, Fransanın təhriki ilə alovlanan milli ədavətin acı nəticələri idi. Əsrin yalnız birinci rübündə törədilmiş iki qırğında təqribi hesablamalara görə öldürülən, didərgin düşən və digər zərər çəkən azərbaycanlıların sayı iki milyona yaxındır. Lakin iyirminci ilin noyabrından sonra daşnaq hakimiyyətinin devrilməsi xəbərini eşidən Ermənistan azərbaycanlılan tədricən öz ata-baba yurdlarına qayıtmağa, keçmiş ədavəti unudaraq, ermənilərlə qonşuluq etməyə başladılar. 1920-ci ildə bütün Ermənistanda cəmi 10.000 azərbaycanlı qaldığı halda 1922-ci ildə qaçqınların qayıtması hesabına onların sayı 71.167 nəfər, 1931-ci ildə 105.898 nəfər olmuşdur.[81] XIX əsrin sonunda İrəvan quberniyası Qafqazda yaşayan Azərbaycanlıların sayı baxımından Bakı və Yelizavetpol (Gəncə) quberniyalarından sonra üçüncü yeri tutmuşdur. Rus imperiyasında birinci dəfə keçirilən əhalinin siyahıya alınmasına görə 1897-ci ildə burada («Ermənistanda») 313.178 azərbaycanlı yaşamışdır.[82]

Bizim axtarışlarımızdan məlum oldu ki, indiki Ermənistan xəritəsi üzrə azərbaycanlı və erməni əhalisinin sayı müəyyən dövrlərdə təxmini aşağıdakı sayda olmuşdur:

---

[80] Fond 894, S.10, iş 20, V.47-48.

[81] Erməni tarixi, Erevan, 1971, s.965.

[82] Erməni Sovet Ensiklopediyası (ermənicə), 1-12-ci cildlər, İrəvan. 1974-1984, c.3, s.385, 386, 571.

**Cədvəl 1.**

| İllər | Bütün əhali (nəfər) | Azərbaycanlılar (nəfər) | Ermənilər (nəfər) |
|---|---|---|---|
| 1831-ci il | 160.000 | 128.000 | 32.000 |
| 1913-ci il | 700.000 | 400.000 | 300.000 |
| 1931-ci il | 800.000 | 100.000 | 700.000 |
| 1941-ci il | 1.000.000 | 200.000 | 800.000 |
| 1948-ci il | 1.500.000 | 200.000 | 1.300.000 |
| 1969-ci il | 2.492.000 | 160.000 | 2.332.000 |
| 1989-ci il | 3.426.000 | 230.000 | 3.196.000 |
| 1990-ci il | 3.426.000 | 0 | 3.426.000 |

**Qeyd: Erməni əhalisinin tərkibində 3 faiz etniklər-kürdlər, aysorilər və ruslar vardır.**

**Cədvəl 2.**

| Yaşayış yerləri | Müsəlmanlar | Ermənilər | | | Cəmi əhali |
|---|---|---|---|---|---|
| | | Yerlilər | İrandan köçürülənlər | Türkiyədən köçürülənlər | |
| İrəvan şəhəri | 7.331 | 2.369 | 1.715 | 48 | 11.463 |
| Qırxbulaq | 383 | 1.396 | 1.043 | 231 | 3.053 |
| Zəngibasar | 5.418 | 603 | 2.360 | | 8.376 |
| Gəmibasar | 4.176 | 145 | 5.359 | | 9.680 |
| Vedibasar | 3.449 | 15 | 1.069 | | 4.533 |
| Şərur | 6.510 | | 1.757 | | 8.267 |
| Sürməli | 4.832 | 5.892 | 1.459 | 1.342 | 13.525 |
| Dərəkənd | 3.267 | 5 | | | 3.272 |
| Saatlı | 1.004 | | | | 1.004 |
| Talın | 420 | 416 | | 1.144 | 1.980 |
| Sərdarabad | 1.837 | 3.214 | 356 | 21 | 5.428 |
| Seyidli və Axsaxlı | 1.754 | 28 | | | 1.782 |
| Gümrübasar | 2.592 | 5.290 | 2.897 | 1.116 | 10.955 |
| Abaran | | 58 | 2.018 | 6.857 | 8.933 |
| Dərəçiçək | 1.300 | 552 | 3.535 | 3.268 | 8.650 |
| Göyçə (bir hissəsi) | 5.607 | 90 | | 8557 | 14.254 |
| CƏMİ | 49.876 | 20.073 | 23.568 | 21.639 | 115.155 |
| | | | Köçürülən ermənilərin cəmi: 45.207 | | |

# TÜRK SOYQIRIMLARININ MƏNFUR TƏŞKİLATÇILARI VƏ İCRAÇILARI CƏLLAD ANDRONİK (OZANYAN), DAŞNAK ŞAUMYAN

Onun adı XX əsrin əvvəllərində, 1918-1920-ci illərdəki qırğınlarla bir çəkilir. Sadəcə Andronik adı özü insanda xof və çaşqınlıq duyqusu oyadır və dərhal: o insa idimi? sualı ilə onun törətdiyi vəhşiliklər önündə bugün belə heyrət içində qalırsan Andronik öz dəstəsi ilə ilk və dəhşətli zərbəni Qars və Gümrü şəhərinə və bütün Şörəyel mahalına endirdikdən sonra İrəvan, Göyçə, Zəngəzur, Naxçıvan, Qarabağ və sair bölgələrdə bir-birinin ardınca qanlı qırğınlar törətmişdir. Bu dəhşətlərdən bir əsrə yaxın vaxt keçsə də onların acı və qorxunc təəssüratları nəsildən-nəsilə keçərək mənfur bir kabus kimi hafizələrdə yaşamaqdadır. Son dərəcə qəddar, xain xislətli erməni generalı Andronik Ozanyanın öz xarici havadarlarının himayəsinə arxalanaraq çoxsaylı silahlı quldur dəstələri ilə Qərbi Azərbaycana hücumu və törətdiyi cinayətlər də bunu əyani sübut edir.

Azərbaycanın qədim tarixi torpağında ermənilərin törətdikləri ağlasığmaz vəhşiliklər dövrü mətbuatda, arxiv sənədlərində öz əksini tapmışdır.

Hərgah XVIII əsrin əvvəllərində «Böyük Ermənistan» planının tərtibatçısı və rus imperatoru I Pyotra təqdim edəni İsrail Oryan olubsa, XX əsrin əvvəllərində imperator II Nikolay Romanovun iradəsi ilə onun bayraqdarı Andronik Ozanyan idi. Andronik Torosoviç Ozanyan 1865-ci ildə fevralın 25-də Türkiyənin Qarahisar şəhərinin yaxınlığında, Şapin kəndində sənətkar ailəsində anadan olub. Görünür, əsaslı təhsil ala bilməmişdir. Gənclikdən sərsəri həyat keçirmişdir. Avropa dövlətlərinin və xüsusən Qara dəniz boğazları ilə bilavasitə maraqlı olan rus çarlığının müdaxiləsi ilə yaranan bandaya daxil olan gənclərdən biri də Andronik Ozanyan idi.

1876-1878 il müharibəsində çar hökuməti ermənilərə vəd edir ki, «Qərbi Ermənistanı» Türkiyədən qoparıb «Şərqi Ermənistanla» birləşdirib «Böyük Ermənistan» yaradacaq.

Daxili bandada ələ keçən üsyançılardan Andronikin qulağı kəsilib buraxılır (1895). Əldən qurtaran Andronik Rusiyada sığınacaq tapıb bir müddət (1895-1897) Sevastopolda işləyib, sonra Zaqafqaziyaya (Tiflisə) keçir.

36 yaşlı Andronik çar agenti kimi bir dəstə banditlə 1901-ci ildə yenidən Şərqi Türkiyəyə qayıdıb 1904-cü ildə silahlı quldur dəstəsində Sasun üsyanında iştirak edir.

Türkiyədə artıq dayana bilməyən Andronik (üsyançılar izləndiyi üçün) Bolqarıstana qaçıb, Türkiyəyə qarşı 1912-1913-cü illər Balkan müharibəsində iştirak edir. Bu vaxt Birinci Dünya müharibəsi başlanır və Andronik Tiflisdə rus qərargahına gələrək Türkiyəyə qarşı vuruşacağını bildirir.

**1918-ci ildə Şöyəyel - Qars mahalının Vartanlı kəndində 5 aylıq körpəni qapının bir dirəyinə, o biri dirəyinə isə ananı nizə ilə taxaraq qanları ilə divara «Ürəyi əmlik quzu və toğlu əti istəyən türklər buyursunlar» yazmışdılar (O zamankı Gümrü şəhər sakini, bu yaxınlarda (2004-cü il) rəhmətə getmiş Nənəxanım nənənin ürək ağrısı ilə dediklərindən).**

Xoy şəhəri 300 nəfərlik türk qarnizonu tərəfindən müdafiə olunurdu. Qüvvlərin qeyri-bərabərliyindən qarnizon şəhərin müdafiəsindən əl çəkib Türkiyə ərazisinə çəkilir. Bu vaxt general-leytenant Nəzərbəyov Qars şəhərini və vilayətini tərk etməyə məcbur olur. Belə bir çıxılmaz şəraitdə general Andronik 1918-ci ilin iyun ayının axırlarında Xoy şəhərini tərk edir və 15.000 nəfərlik dəstə ilə Culfaya gəlib Naxçıvan ərazisinə basqın edir.

1918-ci il iyulun əvvəllərində Şaumyanın təbrik teleqramını alan Andronik Arazın sol sahilində Yayçı kəndinə quldurcasına basqın edir, əhalini qılıncdan keçirir.

İndi Yayçı kəndində 1.000-dən çox insan qəbri var. Bu qəbirstanlıq Andronikin etdiyi qətllərin qəbristanlığı adlanır. Andronik rast gəldiyi boyük müqavimətə baxmayaraq həmin quldur yürüşündə 30-dan çox kəndin əhalisini qırmış və kəndləri də yandırmışdı.

Andronikin quldur dəstəsi Çənnəbə, Aza, Yaycı, Çamaldın, Əbrqunus, Ərəzin, Çeşməbasar kəndlərində yerləşdirilir. Azərbaycanlılar dərbədər salınır, kəndlər yandırılıb viran qoyulur. Bu vaxt Tivili qaçaq Süleyman 25 nəfərlik dəstə düzəldərək daşnaq hissələrinə həmlələr edib at, silah və s. hərbi ləvazimatlar ələ keçirir. Bir sözlə, Süleymanın dəstəsi arxadan düşmən-daşnaq qoşununa böyük tələfat verir və dağlara çəkilirdilər.

İyul ayının ortalarında Andronik Nehrəm kəndinə basqın edərkən əhali Hacı Mehdi və Kalba Muxtarın başçılığı ilə qanlı döyüşə girir. Hacı Mehdi Bağırov (sənətcə nəccar) döyüşün mənəvi rəhbəri, Kərbalayi Muxtar isə komandanı olur (1930-cu ildə qolçomaq kimi sürgün olunub, sürgündə vəfat edib). Ətraf kəndlər - Ərəzin, Camaldın, Kırna, Bənəniyar və başqaları döyüşə girir, qaçaq Süleymanın dəstəsi isə orada Andronikin qoşununa həmlələr edirdi.

Əsas doyüş İmamzadə tərəfdə baş verir. Andronik cəhd edirdi ki, Nehrəm kəndinin kənarından keçib Təzəkənddə toplaşan 300 nəfərlik daşnaq silahlı dəstəsi ilə birləşsin. Lakin yerli əhali imkan vermirdi. Döyüşün cəngavərlərindən Heydərqulu Həsənli söhbətində xatırlayırdı:

«...Yaxşı silahlanmış dəstələrimiz var idi. Müdafiə komandanı Kərbəlayı Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzir, əhalini döyüşə qaldırır, atəş nöqtələrinə patron, çörək, su çatdırırdı.»

Mərhum Qasım Tağıyev, Nağı Qəhrəmanov, Hüseyn Əliyev və b. söhbətlərində deyirdilər ki, üç gün gecə-gündüz kənddə pulemyot gülləsi, top mərmisi yağış kimi tökülürdü. Andronikin qərargahı Çeşməbasar kəndində yerləşirdi. Kəndə gələn yollar tutulmuşdu. Biz uşaqlar qorxmadan döyüşçülərə patron, çörək, su daşıyırıq. 4 topdan istifadə edilirdi, topçu yox idi.

Nehrəm kənd əhalisinin müdafiə iradəsini qıra bilməyən general Andronik döyüşdən əl çəkib Naxçıvan şəhərinə hərəkət edir; şəhərin keçid yollarını, şəhərin yuxarı hissəsində kazarmaları və Kəngərli, Şərur tərəfdən gələn şosse yolunu tutur. Quldur general özü isə qərargahı ilə Naxçıvan şəhərinə maneəsiz daxil olur.

Andronik kazarmalarda qərar tutandan sonra bir neçə gün gözləyir, güman edir ki, şəhərin başçıları əllərində ağ bayraq, duz-çörəklə təslim aktını imzalamağa gələcək, şəhərin açarını ona verəcəklər. General ümid etdiyi kimi olmadığından 14 iyul 1918-ci il tarixdə belə bir əmr verir:

«1. Bu gündən öz dəstəmlə Mərkəzi Rusiya Respublikasının tabeliyinə və sərəncamına keçirəm;

2. Brest-Litovsk sülh müqaviləsinə əsasən Naxçıvan qəzası Rusiya Respublikasının tərkib hissəsi sayılır;

3. Qəzada hərbi vəziyyət elan olunur;

4. Qəzanın bütün əhalisi tərksilah edilsin;

5. Kimsə respublika hökumətini tanımazsa, onun düşməni sayılıb Rusiyanın satqını hesab edilərək ciddi cəzalandırılacaqdır».

Vəziyyətdən xəbərdar olan bolşevik donu geymiş daşnaq Şaumyan Bakıdan Andronikə belə bir teleqram göndərir: «Xalq qəhrəmanı Andronikə: Sizin teleqramınızı aldım, bütün mətni Moskvaya, Mərkəzi hökumətə çatdırdım, öz tərəfimdən sizin şəxsinizdə həqiqi xalq qəhrəmanını təbrik edirəm. Sizin bayrağınız altında döyüşən qəhrəman doyüşçülərə salam yetirin. Bakı proletariatı Amazaspın komandası altında Rusiya hökumətinin köməyi ilə Kürdəmir və Ağsu istiqamətində Türk bəy dəstələrinə qarşı qəhrəmancasına müharibə aparır. Şad olardım ki, sizə zəruri köməklik göstərəydim. Əlaqə saxlamaq üçün mümkünsə yollar arayın! Qafqaz fövqəladə komissarı... Şaumyan.».[83]

Tarixdə lənət və nifrətlə damğalanan Andronikin türk hərbi ekspedisiyası tərəfindən izləndiyindən Kalbalı Xan (məşhur sərkərdə Cəmşid Naxçıvanskinin böyük qardaşı) əhaliyə göstəriş verir ki, gərəksiz və köhnə silahlar yığılıb Andronikin qərargahına, kazarmalarına göndərilsin. Hər ehtimala qarşı döyüşə hazır olmalı! Döyüş mənim işarəmlə başlayacaq.

Belə ki, gün gəlib çatır. Andronikin qərargahı başa düşür ki, Naxçıvan şəhər əhalisi quldur dəstəsinə təslim olmayacaq, silahı yerə qoymayacaqdır. Andronik iyul ayının 18-də gecə yarısı şəhərə basqın-hücum əmri verir, döyüş «Cıdırlı» bağ tərəfdə başlayır. Hərbi əməliyyat sahəsi Şərur şosse yolundan Naxçıvan çayının sağ tərəfini-indiki Sovetabad kəndini əhatə edirdi.

Hərbi müdafiə əməliyyatına Tiflis Yunker məktəbini qurtaran Kalbalı Xan Cəfərqulu xan oğlu Naxçıvanski komandanlıq edirdi. Döyüşün son sıralarında cəbbəxana fəhlələri Salman, oğlanları Əliqoşun oğlu Həsən, Hambal Hüseynin oğlanları, demək olar ki, bütün əhali ayağa qalxır. Hacı Cabbar cəbhəyə döyüş sursatı göndərir (sonralar bolşeviklər tərəfindən güllələnmişdir).

Hərbi komandan Kalbalı xan döyüşü bağlarda aparırdı, bağlar bir müdafiə xətti-səngər sayılırdı. Döyüşün ikinci günü Kalbalı xan ayağından yaralanıb, döyüşdən çıxarılır.

Döyüşlərin üçüncü günü, saat 14 radələrində Duzdağ təpələrindən kazarmalara iki topdan atəş açılır. Mərminin ikincisi qərargahın yaxınlığında düşəndə Andronik demişdi ki, bu türk mərmisidir. Əmr verir ki, müharibə dayandırılsın. Kazarmalar yandırılıb tərk edilsin.

Doğrudan da, Androniki izləyən türk hərbi ekspedisiyası Xoy-Maku yolu ilə gəlib Ərəblər-Şahtaxtı ərazisindən Araz çayını keçib Duzdağ təpələrindən kazarmaları atəşə tutmuşlar.

Dövrünün yaşlı adamı Qafar Zamanov (sonra Bakıda təqaüddə yaşamış) daşnaq qoşunlarının gözlənilmədən Naxçıvan şəhərini tərk edib Sirab-Qahab dağlarına çəkilməsi və türklərin gəlməsini toy-bayram kimi təsvir edir. Xatırlayır ki, uşaqlar, qadınlar, əllərində su, yemək-içməklə böyük izdihamla qan qardaşlarını qarşılamağa axışırdı. O, qeyd edirdi ki, türk silahının səsini eşidən daşnaq qoşunu elə sürətlə dağlara çəkildi ki, guya belə quldur dəstə heç Naxçıvan şəhərinə basqın etməyib, viranəlik törətməyibdir.

Andronikin quldur dəstəsi daşnaqların ağalıq etdikləri Sisyan mahalına çəkilmək üçün Ordubad rayonunun dağ kəndlərinə - Tivi, Bist, Paraqa, Nəsirabad kəndlərinə toplaşır, «Qapıçıq» keçidindən aşmağa tələsirlər.

Tivi kəndində qərar tutan Andronik qaçaq Süleyman ilə hesablaşıb ondan intiqam almalı idi. Bu barədə Bist kəndindən olan dəmiryolçu, 1907-ci ildən «Hümmət» təşkilatının üzvü, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sabiq sədri (1929-1933) Lenin ordenli Məmməd əmi məqalənin müəlliflərinə verdiyi xatirəsində yazmışdır:

«Andronik öz quldur dəstəsi ilə Tivi kəndinə gələndə biz dağda gizlənmişdik. Ərbəqunuslu daşnaq Hayrikin qaçaq Süleymanla dostluğunu bilərək, onun vasitəsi ilə qonaqlıq təşkil edib, onu da qonaq dəvət edir. Qaçaq Süleyman Hayrikin hiyləsini anlamayaraq sadəlövcəsinə öz 25 nəfərlik dəstəsi ilə qonaqlıqda iştirak edir. Andronik öz canilərinə göz vurur, bir anda qaçaqların qolları bağlanıb ipə düzülür. Generalın işarəsilə qaçaqların boynunu vurub dərənin dibinə dığırladır». Məmməd əmi deyirdi ki, onların meyitlərini biz Andronik kəndi tərk edəndən sonra öz gözlərimizlə gördük.

Bu qanlı səhnəni Tivi kənd sakini İbiş kişi də söhbət (1944-də) edirdi. Qanlı hadisə nəsildən-nəslə keçib, daim xatırlanır. Andronik Naxçıvan vilayətinin kəndlərini talayıb mal-qarasını aparmış, odlayıb viran etmiş, əhalisini dərbədər etmişdir. Əldə olunan arxiv sənədlərindən görünür ki, Naxçıvan rayonunda 11, Ordubadda 9, Culfa rayonunda 3, beləliklə 30 kənd viran edilmiş, var-yoxu aparılmışdır.

Şərur müsəlman camaatı adından göndərilən müraciətdə deyilirdi: «Qəmərli, Sədərək, Dəmirçilər və digər kəndlərin əhalisini qılıncdan keçirmiş silahlı erməni dəstələri bizlərə tərəf üz tutublar. Şərur qadınları və uşaqları ev-eşiklərini tərk edərək qaçmaqla canlarını qurtarırlar. Araz çayının sahillərində yaşayan milyonlarla əhalinin xilası naminə böyük dövlətlərə, ilk növbədə İngiltərə və Amerikaya, Bakıya və Tiflisə müraciət edin. Qoy onlar ermənilərin vəhşiliyinə son qoysunlar və bizi onların əlindən mümkün qədər tez xilas etsinlər» («Azərbaycan» qəzeti, yanvar 1919-cu il).

[83] Jan-Pyer Alem. «Mən nə bilirəm?» Ermənistan kolleksiyası. RÜF, Paris, 1983, s.9.

Erməni tarixçisi C. Kirakosyan, Andronikin Naxçıvandakı viranəliklərini inkar edərək yazmışdır: «Andronikin bir neçə kəndlərdə olması (Ordubad Əylis yolunda, Yayçı, Düyülün, Qulubəy, Dizə) Türk emissarlarının o yerlərdəki fəaliyyəti və onun Naxçıvanın Sovet Rusiyasına tabeçiliyi əmrinə tabe olmaması və silahı verilməməsi faktı ilə əlaqədar idi».

Sirab dərəsində sığınacaq tapan 2.000 əhali son nəfərinə kimi atəşə tuturdu. İndi də o sahədə traktor işlədikcə yerdən insan sümüyü çıxır. Hələ də Androniki adı lənətlə yad edilir.

1918-ci ilin sentyabrında artıq Andronik Sisyanda bütün müsəlman kəndlərini dağıtmış, 50 min adam doğma ocağını tərk etməli olmuşdur. Canbuh və Xana dərələrinin qənşərində olan Qaraqışlaq kəndinin yüzlərlə sakini qılıncdan keçirilmişdir. Vağudi kəndində məscidə sığınmış 400 kənd sakinini od vurub yandırıblar Ağudi kəndində xristianlığı qəbul etməkdən imtina edən kişilərin hamısı vəhşicəsinə döyülmüş, qadınların döşləri kəsilmişdir. Bağırbəyli kəndində yeddi kişi və qadın bir damın içində diri-diri yandırılmış, meyidləri eybəcər hala salınmışdır.

Həmin günlərdə Qafan rayonunun Oxçu kənd əhalisinin başına gətirilən faciələr barədə Gəncə qubernatoruna 11 dekabr 1918-ci il tarixdə 300 saylı teleqramla xəbər verilmişdir.

Teleqramda deyilirdi: «Zəngəzur qəzası rəisinin məlumatına görə dekabrın 19-da Andronikin dəstəsi yerli ermənilərlə birlikdə Gığı dərəsində müslmanları qırırlar». Cəbrayıl-Zəngəzur zonası qəza rəisi Namazəliyevin teleqramında isə göstərilirdi ki, ingilis-fransız nümayəndə heyəti gedəndən sonra dekabrın 10-da ermənilər müsəlman kəndi olan Sabadinə və bir neçə başqa kəndlərə hücum etdilər. Andronikin kütləvi qırğınları ilə bağlı daha bir canlı fakt: Zəngəzur qəza rəisinin 114 saylı teleqramında deyilir: «Andronikin başçılığı ilə 30 müsəlman kəndinin əhalisi qırılıb, yandırılıb, kəndləri dağıdılıb, əmlakları talan edilib, qaçıb qurtara bilməyənlər vəhşicəsinə öldürülmüşdür».

Zəngəzur qəzasının rəisi Ağadadaşın 1919-cu ilin yanvar ayındakı teleqramında deyilir: «Quşçuluq, Əcilli, Əfsənli kəndləri ermənilər tərəfindən yanvarın birinci günlərindən dağılıb. Şəhərcik, Acağu mühasirə ediləndən sonra ermənilər tərəfindən alınmış Güzəlağ, Mollalı, Qobsud, Qarabaşlar, Baharlı, Gığı, Daşbaşı, Mahmudlu, Keybəsin, Kürüt, Pəyhan, Kirç, Ağbaş kəndləri ermənilər tərəfindən mühasirəyə alınmışdır”.[84]

Zəngəzur qəza rəisi Gəncə general-qubernatoruna 23 fevral 1919-cu il tarixli teleqramında xəbər verilirdi ki, Andronik silahlı dəstəsi ilə Həkəriyə hücum edib. Onun məqsədi Cəbrayıl və Şuşa qəzalarının dağlıq yerlərini, Asuran və Zəngəzuru, Xudafərin körpüsünü tutmaq idi (Bax: Azərb. SSR OİMDA, F. 894, siyah.7, i-8, v.29,31,32).

Zəngəzur qəzasında Andronikin quldur dəstələri 115 kəndi talan etmiş, dağıtmış və od vurub yandırmışlar. Bu faciə zamanı «3.257 kişi, 2.276 qadın, 2.196 uşaq öldürülmüş, 1.060 kişi, 794 qadın, 485 uşaq şikəst olmuş, yaxud yaralanmışdırlar. Bütövlükdə qəzada 10.068 adam öldürülmüş və şikəst olmuşdur. Andronik hücum etdiyi bütün ərazilərdən azərbaycanlıları çıxarmağa, burada Türkiyə dövlətinə qarşı qiyam etdiyinə görə qaçqın düşən erməniləri yerləşdirməyə çalışırdı. Məhz bu niyyətlə də öz himayədarlarının razılığı ilə Andronik Qarabağ qəzalarında da kütləvi qırğın keçirmiş, Azərbaycan kəndlərin dağıtmışdır.»

Cavanşir, Şuşa, Cəbrayıl, Zəngəzur qəzalarında və Gəncə quberniyasında Andronikin özbaşınalığı, törətdiyi qətllər və cinayətlər ingilis-fransız missiyasını müəyyən narahat etmirdi. Təkzib edilməz faktlar göstərir ki, Andronik qanlı əməllərində onlara güvənmişdir.

O, 1918-ci il noyabrın 22-də ingilis-fransız missiyasının yerləşdiyi Gorusa gəlib burada Zaqafqaziyada Antanta qoşunlarının baş komandanı, ingilis generalı Tomsonun sərəncamına əsasən qubernatorluq yaradır. Həmin sərəncamda Minkənddən üzüaşağı Zabuxçayadək, oradan Həkərə-Araz çayları boyunca Bazarçay istiqamətinə doğru İrəvan quberniyası, oradan da Naxçıvan qəzasınadək uzanan ərazi Andronikin qubernatorluğuna həvalə edilirdi.

Bu hadisə Andronikin daha da həyasızlaşmasına, əl-qol açmasına meydan açdı. Azərbaycan kəndlərinə basqın edən, dinc əhaliyə vəhşicəsinə divan tutan Andronikin silahlı quldur dəstələrinin davam edən zorakılığına, cinayətkar hərəkətlərinə ingilis-fransız missiyası qəti tədbir görmədi, onların genişmiqyaslı döyüş əməliyyatlarına etinasızlıq göstərdi.

Üzeyir Hacıbəyov «Azərbaycan» qəzetinin 15 dekabr 1918-ci il tarixli sayında «Andronikin məsələsi» məqaləsində başıpozuq generalın heç bir söz, nəsihət və xəbərdarlıqla, hətta ingilis hərbi komandanı, general-mayor Tomsonun təhdidlərinə belə məhəl qoymadan müsəlman kəndlərini dağıtmasını, əhalisinin öldürülməsini, özbaşınalığını şərh edir, onu quldur adlandırır, yazır ki, «bir quldurun yanına «deleqat» göndərmək, onu kağız vasitəsilə quldurluqdan mən qılmaq və ya həddini bildirmək üçün teleqram vasitəsilə təhdid etmək nə hökumətimizin şəninə layiqdir, nə ingilis komandasının və bir də məşhur məsəldir ki, «Quran oxumaqla donuz dandan çıxmaz», quldurların qabağına lazım olan qədər güc göndərmək istər ki, dəstəsini də, özünü də dəstgir edib məhkəmə qarşısına gətirsin və səzai cəzasına çatmaq üçün təhti-mühakiməyə verilsin». Üzeyir Hacıbəyov Qarabağda «zülmü sitəmə məruz qalan müsəlmanları tezliklə xilas etməyi», «vaqeənin getdikcə böyüyüb əngəl olmağına imkan verməmək üçün» Andronikin hərəkətlərini necə olursa-olsun dayandırmağı tələb edir. Xalqın tökülən qanlardan zara gəlib sülh istədiyi bir halda qan tökməyi rəzalət adlandırır, həmvətənlərinə üz tutub deyir: Özümüzü qorumalı, hüququmuzu elə möhkəmləndirməliyik ki, «Hər dəli qudurmuş soxulub bildiyini, istədiyini edə bilməsin.»

Həmin günlərdə Zəngəzur qəzasının rəisi Bakıya məlumat verirdi ki, «Böyük dövlətlərin missiyasının gözü qarşısında müsəlmanların vəhşicəsinə qırılması cəzasız qalır».

1919-cu il yanvarın 6-da Zəngəzurdan Gəncə general-qubernatoruna göndərilən teleqramda deyilir: «İngilis- Fransız missiyasının Gorusa gəlməsinə baxmayaraq, ermənilər bütün qəza boyu hücuma keçmişlər. Onlar əhalini öldürür, var-yoxunu əlindən alır, kəndləri viran edirlər».

Zəngəzur qəzasının idarə rəisi Mahmudbəyov isə Gəncə qubernatoruna 1919-cu il 28 yanvar tarixli rəsmi məlumatında həyəcanla bildirdi: «Zəngəzur qəzasında işə başlayan kimi, belə bir məlumat aldım ki, Kirətağ, Koşut, Qarabağ, Baharlı Kiş, Daşbaşlı kəndləri, habelə «Kiçik Dərəli» vadisində yerləşən 5 polis məntəqəsi Andronikin bir neçə yüz silahlı erməni quldur

---

[84] Əkrəm Rəhimli (Biye). Ermənilərə güneyli müəllifin tutarlı cavabı.- «Respublika», 17.01.2002-Ns 13 (1349)

dəstəsi tərəfindən mühasirəyə alınıb. Mən bu barədə Şuşa və Gorusda qərar tutan Britaniya missiyasına, habelə Azərbaycan Respublikasının Parlamentinə, daxili işlər nazirinə təcili xəbər verdilər» (Azərbaycan Respublikası Dövlət Arxivi, f.894, 465, vər.78-94).

«Azərbaycan» qəzeti 17 may 1919-cu il tarixli nömrəsində yazırdı ki, ilin əvvəlindən «Ararat Respublikasının» hərbi hissələri Göyçə rayonunun, Yeni Bayazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir. Məqsəd Göyçə gölünün şərq və şimal hissələrini burada yaşayan müsəlmanlardan təmizləməkdir.

Hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhali isə qırılmışdır. Göyçə müsəlmanlarını qırmağı qarşısına məqsəd qoymuş və bunu yerirtə yetirən erməni qoşunlarının atəşləri ilə bədbəxt müsəlman əhalisi rəhimsizcəsinə məhv olur. Erməni hökumətinin... öz təbəəliyində olan müsəlman vətəndaşlarına qarşı belə vəhşiliklərini gördükdə adam dəhşətə gəlir. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir... Qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər, əhalinin malı, dövləti ac-göz erməni qoşunları tərəfdən ələ keçirilib, öz aralarında bölüşdürülür... Erməni quldur dəstələri tərəfindən təqib olunanlar Gəncə qəzasının qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb məhv olurlar. «

...Artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hazırda Yeni Bayazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd aprel ayının 13-20 tarixlərində dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarı Yaqub, Baş Şorca, Aşağı Şorca, Soğangülü-ağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zər-zəbil, Çanəhmədli, İnəkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Qərib Qaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışdır. Bütün bu mal-dövlət hazırda ermənilərə qalıb: qarət edilmiş əmlak bir neçə milyardlar dəyərindədir.

Azərbaycan hökumətinə Ordubad və Yeni Bəyazid qəzalarından göndərilən saysız-hesabsız teleqram və məktublarda bildirilirdi ki, Andronikin başçılıq etdiyi hərbi hissələr kəndləri talan edir, dinc əhalini öldürür, min bir vəhşilik törədirlər. (Bax: Azərbaycan Respublikası Dövlət Arxivi, f.894, siyahı 485, vər 120-134)

1918-ci il iyulda Zəngəzurun azərbaycanlılar yaşayan kəndlərində əlləri qana batmış Andronikin növbəti hədəfi Qarabağ idi.

Nəhayət, çox keçmədən Andronik Şuşa qəzasına soxulmuş və Əsgərana gedən yolu kəsmişdir. O, həmin qəza camaatının başına minbir müsibət gətirmişdir. O vaxt Azərbaycanın silahlı qüvvələri daşnak-bolşevik qüvvələrinin əlində olan Bakı ətrafında cəmləşmişdi. Məhz bu səbəbdən Qarabağa əvvəlcə erməni-Azərbaycan nümayəndə heyəti göndərilmişdi. Lakin Andronik öz əməllərini davam etdirməkdə idi. Sentyabrda Bakıya köçən hökumət dərhal Andronikə qarşı hərbi qüvvə göndərilir. Ordumuz Androniki Şuşa və Zəngəzurdan sıxışdırıb çıxarır. Noyabrın ortalarında (1918) Türkiyə ordusu Azərbaycan hüdudlarını tərk edəndən sonra isə Andronik artıq noyabrın 23-də yenidən bu ərazidə qəddarlıq göstərməyə başlayır. Həmin vaxt kəndləri dağıdıb, yandırmaqla dinc əhaliyə nə qədər böyük ziyan vurduğu bizə bəllidir.

Hökumət buna etinasız qala bilməzdi. Vəziyyət ADR-in (Azərbaycan Demokratik Respublikası) parlamentində müzakirə olundu, hökumət mümkün olan bütün tədbirləri gördü. Müzakirələrdən sonra Parlament Hökumətdən Qarabağ əhalisinin əmin-amanlığı üçün təcili siyasi və hərbi tədbirlər görülməsini tələb edir. Lakin 25 minlik nizami ordusu sərhəd boyunca səpələnmiş hökumət ucqarlarında qəti tədbirlər görə bilmədi. Qarabağ və Zəngəzurdan fəryad dolu teleqram və məktubların ardı-arası kəsilmədi.

O, kəndləri dağıdıb-yandırırdı. Camaat qorxu içində yer-yurdlarını tərk edirdi. Yaşamaq üçün heç bir vəsait yox idi. Nümayəndə heyəti yenə də Andronikə müraciət etdi. Təklif belə oldu ki, tərəflər öz yerlərində qalsın, hücumları dayandırsın və silahlanmaya ara versinlər.

Andronikin ordusu quldur dəstəsindən savayı başqa bir şey deyildi. Onun məqsədi aydın idi. O, Zəngəzur və Şuşa qəzalarını Azərbaycandan ayırmaq və həmin qəzaları Ermənistanla birləşdirmək məqsədi güdürdü.

Daşnaq hökuməti Andronikin quldur dəstəsinin beynəlxalq çərçivəyə sığmayan qəddarlıqla dinc müsəlman əhalisinə qarşı cinayətkar hərəkətlərindən «narahatlıq keçirərək» taktiki gediş etmək, rüsvayçılıqdan can qurtarmaq məqsədilə diplomatik nümayəndələrinin dili ilə rəsmən bildirmişdi ki, «general Andronik erməni qoşunlarının siyahısından çıxarılıb», ona görə də «erməni hökuməti Andronikin hərəkətlərinə qətiyyən məsuliyyət daşımır» (Bax: «Naş put» qəzeti, 17 fevral 1919-cu il).

Andronikin general Biçexarovla sıx əlaqəsi də muzdlu ordu başçılarının bir mənbədən sədəqə aldıqlarını və idarə olunduqlarını sübut edir. «Azərbaycan» qəzetinin 7 fevral 1919-cu il tarixli nömrəsində Andronikin general Biçexarova teleqramı dərc olunmuşdur. Orada Andronik öz həmkarının ona göndərdiyi bir milyon manata görə yazır: «... Sizə öz dərin və səmimi təşəkkürümü bildirirəm ki, Siz mənim dəstəmi və yazıq qaçqınları unutmamışsınız». Andronik erməni xislətinə uyğun tərzdə «möhtac və yazıq» erməni qaçqınlarının halına göz yaşı töksə də Zəngəzurda bütün müsəlman kəndlərini talayır, var-yoxdan çıxarırdı.

Andronik qətllərdən və soyğunçuluqdan yayınan erməniləri də qəddarcasına cəzalandırırdı. Onları dar ağacından asıb öldürtürürdü.

Rus qoşunları komandanı, general Çernozubov yazır «... Hissə Andronikin başçılığı altında 1915-ci il aprelin 15-28-də Mixancığın (Dilmanın) məlum döyüşlərində iştirak etmiş, bunun sayəsində də Qafqazı düşmənin əlindən qurtarmışdır. Mən Andronikin şəxsində həmişə həm alovlu vətənpərvəri, həm Ermənistanın azadlığı uğrunda vuruşan döyüşçünü, həm də vətənini dərindən sevəni gördüm. (Bax: Erməni xalqının tarixi, VI cild, səh. 549). Rus generalı Çernozubov dinc müsəlmanlara divan tutan öz cəza dəstələri ilə keçdiyi yerləri xarabazara döndərən, qocaları, qadın və uşaqları rəhm etmədən qətlə yetirən bir vətənpərvər-döyüşçü adlandırması onun özünün rus şovinizmindən və müsəlmanlara qarşı düşmən münasibətindən irəli gəlmişdir.

Həmçinin 1918-ci ilin dekabrında Bakıda İngilis işğalçılarının komandanı general Tomson guya Azərbaycan kəndlərini daşnaq quldur dəstələri tərəfindən dağıdılmaqdan qorumaq məqsədi ilə Şuşaya və Gorusa bir neçə ingilis zabiti göndərmişdir. Əslində isə, ingilis zabitləri azərbaycanlılara qarşı Androniki və onun quldur dəstələrini müdafiə edirdilər.

İngilislərin Andronikin tərəfini saxlamasının əsas məqsədi hələ 1918-ci il dekabrın 11–də məlum olmuşdu. Həmin gün Azərbaycan kəndlərindən olan özünümüdafiə dəstələri ingilis-fransız missiyasının tələbi ilə öz mövqelərini tərk edib kəndlərinə qayıtmışlar. Bundan istifadə edən Andronik kəndlərə basqın etmiş, cinsindən və yaşından asılı olmayaraq kəndlərin bütün əhalisini vəhşicəsinə doğratmışdır. 12-dən çox kənd yandırılmış, əsir götürülmüşdür («Bakinski raboçi», N 17, 14 may 1924-cü il).

Azərbaycan kəndlərinin dağıdılıb viran qoyulması 1918-ci il dekabr ayı ərzində və 1919-cu ilin əvvəllərində də davam etdirilmişdir. Eyni zamanda ingilis-fransız missiyası Azərbaycan kəndlərinin mühafizəsi üçün heç bir tədbir görməmişdir. Cəzalandırılmayan Andronik isə Azərbaycan kəndlərini yandırır və əhalisini qılıncdan keçirirdi.

Belə bir şəraitdə Şuşada və Gorusda da ingilis misiyasının əməkdaşları Andronik üçün Qafqaz kəndindən Şuşaya qədər və ondan da o tərəfə yolun açılmasına çalışırdılar ki, Andronik daha çox qarət və qırğınlar etsin.[85]

İyulun 20-də S. Şaumyan Andronikə cavab teleqramında yazırdı: «Xalq rəhbəri Andronikə! Sizin teleqramı aldım. Tam mətnini Moskvaya göndərdim. Sizin şəxsinizdə həqiqi xalq qəhrəmanını salamlayıram» («İzvestiya» 24 iyul 1918).

Lakin belə bir adamı Q. V. Çiçerin yalnız Antantanın agenti kimi qiymətləndirir. Bu da ondan irəli gəlirdi ki, Andronik Zəngəzurda Sovet Ordusu (11-ci ordu) ilə vuruşmudu.

Andronik 11-ci Orduya məğlub olub Gümrü sülh müqaviləsinə də zidd çıxır. O qarşısında məğlub olduqları və sülh bağladıqları türklərlə vuruşmanı davam etdirmək istəyir. Andronikin son taleyi də belə oldu ki, o daşnaq hökumətinə etinasızlıq əlaməti olaraq qılıncını Eçmiədzin kilsəsinə təhvil verib xaricə - əvvəlcə Bolqarıstana, sonra Fransaya, sonra isə ABŞ-a qaçdı. ABŞ-ın Kaliforniya ştatında öldü (1927), orada Frezino şəhər qəbristanlığında dəfn edilir. Sonradan sümükləri gətirilib Fransada 1928-ci ildə Parisdəki Perlaşez qəbristanlığına köçürülmüşdür (1928). Qəbir daşının üstünə «erməni xalqının qəhrəmanı» sözü həkk olundu. Əslində Andronik erməni xalqına da fəlakət gətirmiş və başqa xalqlara, xüsusən qonşu xalqlara nifaq və nifrət yaratmışdır. O, Türk-müsəlman dinc əhalisini - əliyalın qocaları, qadınları, körpə uşaqları doğradığı üçün «xalq qəhrəmanı» adını almışdır. Əlbəttə, bir vaxt gələcək ki, bəşəriyyət bu «qəhrəmanı» lənətləyib «xalq düşməni» adını verəcəkdir.

Yeri gəlmişkən: Androniki dinc erməni əhalisi həmişə qınayıb, lənət edirdilər. Çünki Andronik mülki erməni əhalisinə də yeri gələndə divan tutmuşdur. Keçdiyi kənd və şəhərlərdə ona istədiyi kimi xidmət etməyən-əsgər, ərzaq, paltar və silah vermək istəməyən əhalini qırmış və əmlaklarını talan etmişdir. Belə kəndlərdən biri də indiki Dilican şəhəri olmuşdur. 1918-ci ilin mayında Voronsovkada (Kalinino) türk ordusunun qarşısından qaçaraq Dilicandan keçərkən Andronik onun tələblərini yerinə yetirməyən Dilicanlılara divan tutmuş, hərta həddi-buluğa çatmamış erməni qızlarını kazarmaya toplayıb zorlamışdılar.

Androniki qəhrəman kimi qələmə verənlər erməni dövlət və hökumət rəhbərləri, siyasət və hərb adamları olmuşdur. Məsələn, 1966-cı ilin yanvarında Ermənistan SSR-i Nazirlər Soveti yanında Arxiv İdarəsinin rəisi A.O.Azitunyan Andronik haqqında yeni bilgilər düzəltmək üçün Sovet İttifaqının donanma admiralı İ.S.İsakova müraciət edir. O həmin ilin fevralın 22-də cavab məktubunda yazır: «Sizə xatırlatmalıyam ki, Andronik Torosoviç Ozanyanın anadan olmasının 100 illiyi münasibəti ilə mən yazmağa təşəbbüs etdim, ancaq onun haqqında tarixi oçerkdən başqa bir şey yaza bilməzdim. Bunun üçün material toplamağa başladım və xüsusi olaraq bu məqsədlə iki dəfə marşal İ.X.Bağramyanla da görüşdüm... Bax ona görə də sizin göndərdiyiniz materiallar (çoxunu ilk dəfə görürəm) - ola bilsin ki, gələcəkdə yenə lazım olsun. Ancaq, xahiş edirəm yadda saxlayın ki, xalqımızın iftixarı olan bu oğlana qarşı mənim nə qədər hörmətim olmasına baxmayaraq məndən oçerkdən artıq bir şey gözləmək mümkün deyil. Bu missiyanı tarixçi-akademiklə siz öz üzərinizə götürməlisiniz».[86]

**Andronikin mülkü türk əhalisi üzərində həyata keçirdiyi amansız qətllər barədə Tiflis quberniyasının Lori rayonunun Cücə kəndinin sakini (1880-ci ildə anadan olmuş) Şirin oğlu Qara deyirdi: «Biz Səfərli yolu ilə sürünü sağ-salamat gətirib kəndə çıxardıq. Bu zaman eşitdik ki, Andronik türk ordusundan bir qrup erməni quldur dəstəsi düzəldib. Türkiyə torpağından qaçıb, sərhəddi keçib müsəlman kəndlərinin əhalilərini qırır. Oğul-uşağı işgəncə ilə öldürür.**

Türkiyə Avropa ölkələri hərbi birləşmələrinə qarşı bir neçə cəbhədə ölüm-dirim mübarizəsi apardığı bir dövrdə ölkənin xəyanətkar erməni təbəələri cəbhə bölgələrində təxribat edir, qiyam qaldırır, türk ordusunun müqavimətini zəifltəməyə çalışırdılar. 1915-ci ilin yanvarında Sarıqamış məğlubiyyətindən sonra Türkiyədə rus qoşunları tərkibində olan Qafqaz və Türkiyə ermənilərin könüllü dəstələri müsəlman əhalisinə qarşı xüsusi amansızlıqlar göstərirdi. Bu quldur dəstələrindən birinə qana susamış Andronik komandanlıq etmişdir. Onlar türk və kürdlərlə son dərəcə amansız rəftar etmiş, var-yoxlarını talamış, onları qəddarcasına öldürmüşlər. «Bu ermənilər kürdlər tərəfindən öldürülmüş soydaşlarının intiqamını almaq bəhanəsi ilə 1915-1918-ci illər arasında Türkiyənin Şərq vilayətlərində 600.000-dən çox kürdü qətlə yetirmişlər».[87]

1917-ci ildə Rusiya Ali Baş Komandanlığı tərəfindən Andronik Ozanyana general-mayor rütbəsi verilir.

Türkiyəyə qarşı formalaşan 4 erməni könüllü korpusundan birincisinə Andronik komandir təyin edilir. Erməni könüllüləri rus ordusu ilə Ərzurum, Sarıqamış, Qars, Van cəbhələrində çiyin-çiyinə vuruşdular. Bu zaman çar hökuməti daşnaq liderlərinə «Böyük Ermənistan» yaratmağı yenidən vəd edir.

General Baratovun ordusunda «Böyük Ermənistan» uğrunda can-başla vuruşan ermənilər bundan sonra Türkiyədən qovuldular. Türk ordusunun arxadan ermənilər tərəfindən vurulduğunu görən Sultan daxildəki erməniləri arxaya-Ərəb

[85] Teymur Əhmədov. Erməni xəyanəti (Qərbi Azərbaycanda general Andronik Ozanyanın qanlı əməlləri)-«Respublika» 29.03.2002.; «Vətən Səsi» qəzeti 1990, s.4-8.; Ataxan Paşayev. Andronik və onun fəaliyyəti haqqında rus zabitinin memuarı -«Respublika», 18.09.2001.
[86] Ataxan Paşayev. Andronik və onun fəaliyyəti haqqında rus zabitinin memuarı -«Respublika», 18.09.2001.
[87] Kamuran Gürün, Erməni dosyesi, s.260.

ölkələrinə köçürməyi qərara alır. Türklər Zəngin, Molla Süleyman, Alingert kəndlərində və Torpaqqala şəhərində erməni könüllülərinə və Rus qoşunlarına ağır zərbə endirib geri qovurlar. 1920-ci ilin dekabrına kimi daşnaq ordusunda qulluq edən İ. X. Baqramyan (marşal) öz xatirəsində yazır:

«Ərzurumun alınması nəticəsində Andronik hissələrinin Mərkəzi Zaqafqaziya cəbhəsindən qeyri-mütəşəkkil geri çəkilməsi «mənim xatirələrimdə silinməz qalıb». Ərzurumun məğlubiyyətindən sonra Andronik pozulmuş hissə ilə Xorasan cəbhəsinə çəkilir. Məqsəd Salmaş cəbhəsində müttəfiqlər ilə (İngiltərə, Fransa) birləşmək idi.

Baqramyan yazır: «Bir neçə saatdan sonra bizim divizyon Xorasana-general Andronikin qərargahına gəldi. Kapitan Əmirxanyan generalın yanına gedib, bizim gəldiyimizi çatdırdı. General bizi görən kimi çarpayıdan dik qalxıb diviziyanın gəlməsi barədə Əmirxanyanın raportunu qəbul etdi... Əllərimizi sıxıb divizyonun vəziyyətini soruşdu... General çox solğun idi... (İ. X. Baqramyan Mənim Xatirələrim, Yerevan, Aypetrat, 1971, səh. 57)».

Andronik Ərzurum məğlubiyyətindən sonra Sarıqamış - Qars vilayətinə hərəkət edir. Lakin türklərin ciddi müqavimətinə rast gəlir. Belə ki, 1917-ci ilin fevralında çar hakimiyyəti yıxıldıqdan sonra müharibə dayanır. General Baratovun ordusu rus-türk cəbhəsini tərk edərək öz mövqelərini türk hissələrinə verir. Erməni könülüləri də məcbur olur ki, mövqelərini tərk etsinlər.

Andronikin Türkiyədə Ərzurum qalasının komendantı olarkən oradakı məğlubiyyəti ilə yanaşı törətdiyi vəhşiliklər haqqında, 29 aprel 1918-ci ildə əsir düşmüş çar ordusunun podpolkovniki Tverdoxlebov belə yazır: «Onun çığır-bağır salmaqdan, hərb elmindən uzaq-uzaq göstərişlər verməkdən başqa elə bir istedadı yox idi. Andronik bütün gücünü yalnız rus zabitlərinin həyata keçirdikləri hücum əməliyyatlarından istifadə edərək Ərzurumda heç bir günahı olmayan mülki əhaliyə qarşı divan tutmağa verirdi. Ərzurumda bizim arxamızca gələn ermənilər, bu, qana susamış «azadlıq uğrunda mübariz» qorxaqlar müdafiəsiz qocaları, qadınları və uşaqları doğrayırdılar».[88]

Andronik Ərzurumda komendantlıq müddətində şəhərin, əyalətin mülki əhalisini cürbəcür hiylələrlə məhv etmişdir. Tverdoxlebov yazır: «Şəhərdə üsyana qarşı əks tədbir adı altında sakinləri həbs etməyə başlamışdılar.» Həbs edilənlərin həyatı nə dərəcədə təhlükəsizdir və bu həbsləri adamların Ərzincandakı kimi (mütəşəkkil surətdə, qoyun kimi başlarının kəsilməsinə yönəltməyibmi? - deyə polkovnik Morelə verdiyim suala o, belə cavab verdi ki, güman edilən türk üsyanının həbs edilmiş başçıları etibarlı mühafizə dəstəsi altında sağ-salamat uzaq arxa cəbhəyə, Tiflisə aparılacaq, bir hissəsi isə üsyana qarşı möhkəm təminat kimi, Ərzurumun özündə girov tək saxlanacaq... Sonra ondan soruşdum ki, milis nədən ötrü müsəlmanları toplayıb harasa aparır? Cavab verdi ki, dəmir yolunu təmizləmək üçün. Dedim ki, nə üçün camaatı indi, qaranlıqda, gecə vaxtı toplayır və əksər etibarilə isə yaramayan qocaları və şikəstləri aparırlar? Cavabı belə oldu ki, bu barədə ona heç nə məlum deyil, lakin öyrənəcək ki, nə məsələdir.

...Ərzurumu qoruduğumuz zaman arxamızda ermənilər bu qaniçən və azadlıq uğrunda qorxaq mübarizlər artıq köməksiz qocaları, qadın və uşaqları doğram-doğram edir və qəti fikirləşmirdilər ki, bununla onlar alçaqcasına bizi aldadır və nəinki bütün dünyada özlərini, həmçinin rus zabitlərinin də adını rüsvay edirdilər. ...Rus zabitləri döyüşdə hücum edən rəqibin qarşısını alaraq öz əllərilə topları mərmilərlə doldurub düşmənə tuşladıqları zaman erməni «döyüşçülər» onların arxasında silahsız adamları «uf» demədən qılıncdan keçirir və aradan çıxırdılar.

...«Cəsur» erməni süvarisi, demək olar, hamılıqla gecə, qaranlıqda döyüş meydanından qaçmış və Qars şosesinə çıxaraq canlarını qurtarmışlar. Onların qaçmağı əsən güclü yel, tufan kimi sürətli idi. Hətta tufan da, Ərzurumu ermənilərin özləri kimi belə sürətlə ermənilərdən təmizləyə bilməzdi».[89]

Ərzurumdan sonra Andronik ikinci dəfə Sarıqamış - Qars vuruşmalarında ciddi məğlubiyyətə uğrayır. Rus qoşunları tərəfindən müdafiə olunmayıb müttəfiqlər ilə birləşə bilmədiyindən Andronik cəbhəni tərk edib Xoy şəhərinə tərəf geri çəkildi.

İki hüquq məktəbi bitirmiş Şaumyan, qeyri-rəsmi məlumatlara görə, həmkar daşnaqlara tövsiyyə edirmiş ki, türk soyqırımını müvəffəqiyyətli və sürətli həyata keçirmək üçün mübarizəni bolşevizm «Sovet hakimiyyəti uğrunda» şüarları altında aparmaq, bu mübarizəyə digər türklərə və Türkiyəyə qarşı olan xalq və partiyaları da cəlb etmək əsas vəzifədir. S. Şaumyan həmin qeyd edilən məqsədə nail olurdu. O, türk soyqırımını Sovet hakimiyyətinə qarşı onların «asi» çıxışları ilə bağlayırdı. Bu barədə də Moskvaya Leninə yalan məlumatlar verirdi. Hətta sovet nə olduğunu bilməyən Andronik Naxçıvanda qırğın salıb burada sovet hakimiyyəti qurmağı haqqında Bakıya, Şaumyana teleqram vurduqda o da onu alqışlayıb, bu barədə Leninə rəsmi xəbər çatdırmışdı.

Halbuki, Naxçıvanda nə Sovet Hakimiyyəti qurulmuşdur, nə də orada əhali qalmışdır, nə də Andronik bolşevik-marksist idi. Belə saxtakarlıq və uydurmalar «Böyük Ermənistan» naminə qabaqcadan düşünülmüş plan idi ki, Şaumyanın apardığı türk soyqırımına Sovet Rusiyası da qoşulsun, ondan mənəvi, fiziki, hərbi və maddi yardım alsın.

Şaumyan 1917-ci ilin dekabrında Sovet Hökumətinin dekreti ilə Qafqaz İşləri üzrə Fövqəladə komissar təyin edilmiş, 1918-ci ilin aprelindən həm də Bakı Xalq Komissarları Sovetinə rəhbərlik edərək, «milliləşdirmə» tədbiri altında neft Bakısının türk zənginlərinin mal-mülkünü müsadirə edib mənimsəmiş, azərbaycanlıları soyırımına məruz qoymuşdur.

1918-ci ildə türk orusunun Bakıya gəlməsilə əlaqədar olaraq Orta Asiyaya, oradan da başqa ölkəyə qaçır. Onun ölümü hələlik müəmmalıdır, tam araşdırılmayıb. Deyilənlərə görə Krasnovodskidə (indi Türkmənbaşı) ingilislər Bakı komissarlarını həbs edir, əmlakları isə müsadirə edilir. Qeyri-rəsmi məlumatlara görə S. Şaumyan ailəsindən aralanır. Lakin bəzi qüvvələrin və apardıqları qızılın koməyi ilə komissarların bir çoxu Hindistana gedirlər. Onların 6 nəfərini isə (2 azərbaycanlı, 2 yunan, 2 yəhudi) S. Şaumyanın tapşırığı ilə onlardan aralayırlar. Qeyri-rəsmi məlumatlara görə Ağca-Qum çölündə güllələnən həmin 6 nəfər olub.

---

[88] Ataxan Paşayev. Andronik və onun fəaliyyəti haqqında rus zabitinin memuarı - «Respublika» 18.09.2001

[89] Bunları unutmayın.-«Yeni Azərbaycan», 17.04.2002. № 69 (1297).

Stepan Georgiyeviç Şaumyan 1878-ci ildə Tiflisdə anadan olmuş, orada realni məktəbi bitirmişdir. O mənşəcə İran ermənisidir. Ulu babası 1828-1830-cu illər köçürmələrində İrandan Lori-Pəmbək mahalının Calaloğlu kəndinə köçürülmüşdür. Sonralardan S.Şaumyanın atası Tiflisə köçmüşdür. Calaloğlu şəhəri 1930-cu ildə adı dəyişdirilmiş, onun adına Stepanavan qoyulmuşdur. Stepan Şaumyan 1901-ci ildə RSDFP şurasına qəbul olunmuş, 1902-ci ildə isə xaricə mühacirət etmişdir. Həmin il də Berlin Universitetinin fəlsəfə fakültəsində oxumuşdur. O, 1905-ci ildə Rusiyaya qayıtmış, Zaqafqaziyada «Böyük Ermənistan» xülyası üzrə bolşevik cildində erməni daşnaq təşkilatlarında çalışmağa başlamışdır. 1916-cı ildə Rusiyaya qayıtmışdır, 1917-ci ildə bolşevik cildi geymiş daşnaqlar qiyabi olaraq onu Bakı Fəhlə Deputataları Sovetinin sədri seçmişdir.

Ümumiyyətlə, komissarların müəmmalı ölümü və itgin düşməsi İ.Stalinin də nəzərinə çatmışdır. Bu barədə yuxarıda İ.Stalinin A.Mikoyanla söhbəti verilmişdir.

Akademik Ziya Bünyadov demişdir ki, 26 Bakı komissarları həqiqətini tapmamış və siyasi qiymətini almamış bir nağıldır; bu nağıl 70 ildir ki, xalq əfsanəsinə çevrilmişdir. Ona görə 26-ların həqiqi üzünü açmaq üçün uzun illər lazımdır. O da bu şərtlə ki, xalqdan gizli saxlanan arxivlər açılmalı və hər bir komissar haqqında düzgün arayış üzə çıxmalıdır.

Hələlik məlum faktlar sübut edir ki, Şaumyan daşnaq başçısı kimi «Böyük Ermənistan» xülyasını gerçəkləşdirmək məqsədi üçün bütün Zaqafqaziyada və Şimali İran və Şərqi Anadoluda etnik təmizləmə əməliyyatına rəhbərlik edirdi. O, hətta talanmış, dağıdılmış və əhalisi qırılmış kəndlərə yeni qüvvələr göndərərək, türk soyqırımının tam həyata keçirilməsinə çalışırdı. Bu barədə akademik Bünyadov qeyd edir.

Şaumyanın Hindistanda yaşaması barədə Ermənistanda keçən XX əsrin 70-ci illərində geniş şəkildə istər məxfi və istərsə də açıq söhbətlər gedirdi. Hətta deyirdilər ki, XX əsrin 70-ci illərində S. Şaumyan turist kimi Bakıda və Ermənistanda olub, hətta «26 komissarlar» adına qoyulan abidələri də bəyənməyib.

Hətta həmin illərdə belə bir söhbət də gedirdi ki, S.Şaumyan Hmdıstanda evlənib, bir oğlu olub, onun adı Gevork Şaumyan kimi gedirmiş. Bu adlı Dehlidə Hindistan vətəndaşının olmasını ermənilər təsdiq edirdilər. Bu sətirlərin müəllifi İrəvanda siyasi seminarda (1980) olarkən bu barədə ermənilər S. Şaumyan adına İrəvanda fəaliyyət göstərən Siyasi-Maarif evinin müdiri Priumyana sual verdilər. O cavab verdi ki, müxtəlif ölkələrdə Stepan, Gevork, Şaum və s. adını daşıyan minlərlə ermənilər vardır. Bu, söhbəti gedən şəxsin mövcudluğunu təsdiq edə bilməz.

**Azərbaycan xalqını soyqırımına məruz qoyan S.Şaumyan və onun cəlladları T.Amiryan, Q.Korqanov, S.Lalayan və b. 70 il Azərbaycanda sevdirilmiş, şəninə abidələr qoyulmuş, küçə, kənd, kolxoz, sovxoz və çox sayda mədəni-maarif ocaqları onların adları ilə adlandırılmışdır. Bu baxımdan Sovet İttifaqının dağılmasını Azərbaycan xalqı alqışlarla qarşılamalıdır ki, qanımıza bais olan bu məkrli düşmən bütlərinə səcdə etməkdən azad olundu.**

## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QURULMASI VƏ ERMƏNİLƏRİN FƏALLAŞMASI

1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı rus ordusunun zəbt etdivi İrəvan xanlığının yalnız bir hissəsində mövcud olan 737 yaşayış məntəqəsindən yalnız 38-də ermənilər yaşamış, 25 qarışıq kənd, qalanı isə sırf azərbaycanlı türklərə məxsus kənd olmuşdur. Müharibədə 420 kənd tamamilə dağıdılmış, əhalisi isə İrana köçməyə məcbur edilmiş, 1828-ci ilədək İrəvan qəzasında türklər 285.000 hektar ermənilər isə 7.548 hektar torpaq sahəsinə malik olmuşlar. İndiki Ermənistan ərazisində əvvəllər mövcud olan İrəvan quberniyasının İrəvan, Eçmiədzin, Yeni Bayazid, Aleksandropol qəzalarında, Gəncə quberniyasının Zəngəzur və Qazax-Dilican qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2.310 yaşayaş məntəqəsinin 2.000-i Azərbaycanlılara mənsub olmuşdur.[90]

1920-ci ilədək İrəvan qəzasının 99.000 əhalisinin 62.600 (66 faiz) Azərbaycanlı, 36.400 (34 faizi) erməni olmuşdur.

1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı dövründə Ermənistan indiki ərazisində yaşayan 575.000 azərbaycanlının 565.000 qırılmış və qovulmuşdur. Bu rəqəmi Z. Korkodyan özünün «Sovet Ermənistanının əhalisi 1831-1931» kitabında (səh.l84) təsdiq edir. «1920-ci ildə sovet hökumətinə daşnaqlardan cəmi 10.000 nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60.000 qaçqın qayıtdıqdan sonra azərbaycanlılar burada 72.596 nəfər təşkil etmişdir.»

Müəllif Birinci Dünya müharibəsi dövründə Ermənistan əhalisinin təhlilini verdikdən sonra daşnaq hökuməti siyasətinin nəticəsini aşağıdakı qaydada vermişdir:

**A. Dünya müharibəsinin nəticələri.**
Passiv;
1.1914-cü ildə 1.014.255.
2.1914-19-cu illərdə təbii artım 74.155.
3. Türkiyədən gələn mühacirlər. 300.000
4. Qars və Sürməlinin erməni və yezidi əhalisi 130.753.
Cəmi: 1.419.163.
**Aktiv;**
1. 1919-cu ildə əhali 961.677.
2. 1919-cu ilədək Ermənistanda qalan türklər 200.000.
3. Qars və Sürməli əhalisindən 1919-cu ilədək qalanlar 59.843.
Cəmi: 1.221.520.

[90] Əli Nəcəfzadə. Vətən həsrəti. B.1992

İtki: 297.643.

**B. Daşnaqların siyasətinin nəticələri;**

l. Əhali 961.677.
2. Daşnaqların təmizləmək siyasətinin nəticəsində 1919-cu ilədək qovulmuş türklər (azərbaycanlılar) 200.000.
3.1920-ci ildə qovulmuş türklər 60.000.
Aktiv;
1.1922-ci ildə əhali 772.052.
2. Əvvəlki itgi 297.643
Birlikdə 787.501 (II, 22, b).

Azərbaycan Respublikasının Baş Naziri Sülh konfransının sədrinə yazdığı məktubda (16-19 avqust 1919-cu il) Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının etnik tərkibi haqqında belə bir cədvəl var.(faizlə)

| | **Naxçıvan** | **Şərur-Dərələyoz** | **Sürməli** | **İrəvan** |
|---|---|---|---|---|
| Müsəlman-Azərbaycanlılar | 62,5 | 72,3 | 65,0 | 60,2 |
| Ermənilər | 36,7 | 27,4 | 30,4 | 37,4 |
| Digər millətlər | 0,8 | 0,4 | 1,6 | 2,4 |

Göründüyü kimi bütün qəzalarda türk soyqırımının qızğın çağında da belə azərbaycanlılar əksəriyyət təşkil etmişdir. Vedibasar və Millistanda əhalinin 90%-ni azərbaycanlılar təşkil etmişdir.

1919-cu ildə İrəvan quberniyası müsəlmanlarının amerikalılara müraciətində deyilir ki, 88 kənd dağıdılmış, 1.920 ev yandırılmış, 13.1970 kişi öldürülmüşdür.

İqdır və Eçmiədzin qəzalarında 60 kənd və onların bütün kişiləri, Göyçə mahalında 22 kənd və 60.000 adam, Yeni Bəyaziddə 84 kənd və 15.000 ev, İrəvan qəzasında bütün kəndlər, Eçmiədzin və Sürməli qəzalarında 96 kənd və qəsəbə, Zəngəzur qəzasında 115 kənd və 10.000-ə yaxın azərbaycanlı, o cümlədən 4.472 qadın və uşaq məhv edilmişdir.

1917-ci ilin dekabrından 1918-ci ilin iyununadək daşnaq ordusu İrəvan quberniyasında 200 azərbaycanlı kəndini qarət edib yandırmışlar. Sağ qalan əhali dağlara qaçırmış və orada acımdan və soyuqdan tələf olmuşlar. 100.000 nəfərədək Azərbaycanlı Sürməli, irəvan, Eçmiədzin, Şərur qəzalarını tərk etməli olmuşlar.

1919-cu ildə yayın axırınadək təkcə Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzaları üzrə var-yoxdan çıxmış azərbaycanlıların sayı 200.000 nəfərə çatmışdı. 1917-ci ilin dekabrından 1918-ci ilin avqustunadək Sisyan rayonunda 9 ay müddətində dağıdılan 15 kənddə 625 nəfər öldürülmüş, 51.390.000 manat zərər vurulmuşdu (Zəngəzur qəza rəisinin 20 oktyabr 1918-ci il 644 saylı raportundan - «Qruziya» qəzeti, 9 noyabr 1918-ci il).

Birinci Dünya müharibəsində tarixi məqamlardan. Antanta dövlətlərinin qələbəsindən, Rusiyada hakimiyyət dəyişikliyindən istifadə edərək ermənilər Versal sülh müqaviləsinin qərarı ilə, 0,5 milyon rus ordusunun silahını mənimsəyib bir çox türk ərazilərində (təxminən 60 min kv.km.) «Böyük Ermənistan» dövləti elan etdilər, Azərbaycanlıların və türklərin soyırımına başladılar. Versal sülh müqaviləsinə görə türk ordusu həmin torpaqları tərk etmişdi.

Ermənilər işğal etdikləri torpaqlarda kütləvi soyqırımı həyata keçirdilər. Demək olar ki, yarı Rusiya imperiyasına, yarı isə Osmanlı imperiyasına aid olan bu 60 min kv.km. sahədə bir türk qoymadılar.

Ermənilər soyqırımlarını, yunanlar yuxarıda təsvir etdiyi kimi həyata keçirdilər. Bu dövrdə azəri-türk soyqırımını sovet mətbuatı da etiraf edirdi. N. I. Buxarinin 1926-cı ildə tərtib etdiyi «Böyük Sovet Ensiklopediyası»ında yazılmışdır: «1920-ci ildə ingilislərdən silah alan erməni daşnaq hökuməti İrəvan bölgəsində və Qarsda müsəlman əhalisini qətlə yetirdi. Şərur-Dərələyəz, Qaraqurt, Sarıqamış elləri yandırıldı və külə çevrildi. Ermənilərin əsas məqsədləri Naxçıvan və Qarabağın onlara verilməsi idi.» (İ.İ.Buxarin, Böyük Sovet Ensiklopediyası, M.1926, cild 4, səh.438).

Lakin 1920-ci il iyunun 9-da Türkiyə qoşunları (Kazım Qarabəkir Paşanın komandanlığı ilə) Naxçıvan yaxınlığında əks hücuma keçdi, sentyabrın 29-da Sarıqamışı, sonra Ərdəhanı, oktyabrın 30-da Qarsı azad etdilər. Noyabrın 7-də Aleksandropolu, noyabrın 12-də Ağın stansiyasını tutdular və İrəvana hücum etdilər. Noyabrın 18-də daşnaq hökuməti sülh istədi.

Mustafa Kamal hökuməti dövründə bağlanan «Aleksandropol» («Gümrü») sülh müqaviləsinə görə, 4 iyun 1918-ci ildə Batumda Zaqafqaziya Seymində qəbul edilmiş sazişə görə Ermənistanın ərazisi 9 min kv.km olmaqla Türkiyənin vassalı kimi, mərkəzi İrəvan şəhəri olmaqla, erməni dövləti elan edildi. Nəhayət ki, ermənilər «Böyük Ermənistan» ideyasına qismən nail oldular.

«Gümrü» sülh müqaviləsinə görə, azərbaycanlıların soyqırımına son qoyulmalı, qaçqınlar öz ata-baba yurdlarına qayıtmalı idi.

Rusiya imperiyasının apardığı müharibə şəraitində bolşeviklər əzab çəkən xalqın əhval-ruhiyyəsindən istifadə edərək, hakimiyyəti zəbt etdilər. Bolşeviklərin rəhbəri V.İ.Lenin üç məsələ» Rusiyada məzlum xalqların hüquq bəyamnaməsi!», «Sülh!» və «Torpaq kəndlilərə!» şüarları altında zülm çəkən xalqı öz tərəfinə çəkdi.

11-ci rus ordusu ADR-i işğal etdi. V.İ.Lenin torpaq bölgüsünə başladı. Bu da bolşevizmin aldadıcı bir siyasəti idi. Kimini ağladırdı, kimini isə dəstəkləyib öz tərəfinə çəkir və yeri gələndə istifadə edirdi. V.İ.Leninin bu bədnam siyasəti nəticəsində Azərbaycan Ermənistana yenidən torpaq vermək məcburiyyəti qarşısında qaldı. Gəncə Quberniyasının Zəngəzur və

Göyçə mahalı, Şəmsəddin və Dilican bölgələri, həmçinin Tiflis Quberniyasının Borçalı qəzasının Lori-Pəmbək torpaqları «qardaş xalqa ehtiram və kömək» olaməti olaraq, Ermənistan SSR-yə verildi. Bu ədalətsizliyə qarşı səs qaldıran olmadı. Əksinə, Azərbaycanın bu «beynəlmiləlçilik təşəbbüsü» Nəriman Nərimanovun adına yazıldı.

Ancaq 11 -ci ordunun siyasi rəhbərləri Kirov, Orcenikidze, Mikoyan və başqalarının fitnə-fəsadları və Vİ.Leninin göstərişləri ilə Azərbaycan torpaqlarının ermənilərə verilməsi davam edirdi. Beləliklə, Ermənistanın ərazisi 9 min kv.km.-dən 29,8 kv.km-ə çatdırıldı. Bu artım 16,6 min kv.km.-i Azərbaycanın qərb bölgələrindən, 4,2 min kv.km.-i isə Gürcüstanın Borçalı qəzasıdan Lori-Pəmbək mahalı verildi. Borçalının dağlıq ərazilərinin Ermənistana verilməsinə Gürcüstan da reaksiya vermədi. Bu yəqin həmin torpaqlarda azərbaycanlıların yaşaması ilə əlaqədar idi. Bundan başqa, ermənilərin 1921-ci ildə Dağlıq Qarabağı Ermənıstana birləşdirmək cəhdləri baş tutmadıqda, ona muxtariyyat verilməsi məsələsini qaldırdılar. Həmin vaxt yüksək vəzifəyə təyin edilmək adı ilə Moskvaya çağırılan N.Nərimanovun ciddi etirazına baxmayaraq, ermənilər 1923-cü ildə Dağlıq Qarabağa muxtariyyat statusu verilməsinə nail oldular.

Bununla yanaşı, Azərbaycanın digər ərazilərində yaşayan ermənilərə geniş mədəni muxtariyyat verildi. Azərbaycan xalqının vətənpərvər oğlu Nəriman Nərimanov Dağlıq Qarabağda ermənilərə müxtariyyat verilməsinin əleyhinə çıxsa da heç bir nəticə əldə olunmadı. O qeyd edir ki, Dağlıq Qarabağda ermənilərə muxtariyyat verilməsi xalqlar dostluğuna ziyandır və regionda gələcəkdə Azərbaycan və erməni xalqı arasında qarşıdurma labüddür. N.Nərimanovun söz və təklifinə Moskva əhəmiyyət vermədi və xaç qardaşlarının arzularını yerinə yetirdi. Moskvada sözü keçməyən N. Nərimanov qeyd edir ki, Kremlin rəhbərləri bizdən çox ermənilərə, gürcülərə-Orcenikidzeyə, Stalinə, Myasnikyana və s. daha çox inanırlar.

Dahi vətənpərvərin uzaqgörənliyi 70 ildən sonra öz əksini tapdı.

Daşnaq cəsusları isə guya 1915-ci ildə baş vermiş «soyqırımı»nın günahkarlarını axtardılar. Onlar Türkiyənin və Azərbaycan Demokratik Respublikasının bir çox dövlət xadimlərini qətlə yetirdilər.

1921-ci ildə Almaniyanın Sarlottenburq şəhərində Soqomon Teyleryan tərəfindən Tələt Paşa, elə həmin il Arşavir Şərikyan tərəfindən Romada Türkiyənin keçmiş Baş Naziri Səyid Həlim Paşa, Şərikyan və Aram Yerkanyan tərəfindən Bəhaəddin Şakir Paşa, Camal Ağmin və Camal Paşa qətlə yetiriliblər. Tiflisdə, Bakıda, Gəncədə isə ADR-nin liderlərini - Nəsib bəy Yusifbəyli (1920-ci il aprelin 27-də gecə qətlə yetirildi), Fətəli Xan Xoyski (əsl adı Dümbüli - 1920-ci il iyun ayının 19-da Tiflis şəhərində ermənilər tərəfindən arxadan vurulub qətlə yetirilmişdir), Həsən bəy Ağayev (1920-ci il iyul ayının 19-da qətlə yetirildi) və sair liderlər bolşevik tapşırığı ilə erməni daşnaqları tərəfindən qətlə yetiriliblər.

1920-ci ildə İlya adlı erməni mənşəli bir hərbiçinin əmrilə şöhrətli generallarımız Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, general-qubernator Nərimanbəyov, İbrahim ağa Yusubov, Həmid Qaytabasi, Həbib bəy Səlimov, Şahzadə Kazım Mirzə Qacar, qardaşı Sədrəddin Mirzə və Süleyman bəy Sülkeyeviç gecə ikən yük maşınına mindirilib qeyri-müəyyən istiqamətə aparılıb. Təsadüf nəticəsində edamdan xilas olmuş Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovdan başqa hamısını 1920-ci il iyul ayının 16-da güllələyiblər.[91]

Ermənilər bu terrora öz bildikləri tərzdə haqq vermişlər.

**1937-ci ilin payızında Ermənistanda güclənən repressiyalar** dalğasının fonunda Azərbaycanlılar daha ağır zərbə almış oldular. Xalq düşmənlərini, trotskiçi-buxarinçi cəsusları ifşa etmək adı ilə A.Mikoyan, Y.M.Malenkov, N.Yejov və L.Beriya Ermənistana gəlmişlər. Mikoyanın rejissorluğu ilə keçirilən «təmizlənmə» prosesində Moskvaya belə məlumat vermişdilər ki, Ermənistanın Araz və Yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlılar guya elliklə Türkiyəyə köçmə fikrindədirlər. Ona görə də həmin ilin payızında Vedibasar, Zəngibasar, Eçmiədzin Noemberyan və Ağbaba rayonlarının Türkiyə ilə həmsərhəd olduğundan burada yaşayan azərbaycanlılar kütləvi surətdə repressiyaya məruz qaldılar. Minlərlə ailə sürgün edildi.

Yuxarıda qeyd edilən vaxtda A.Mikoyan, Y.M.Malenkov, N.Yejov və L.Beriyanın iştirakı ilə 11 minə yaxın insanın həbs olunması aktlaşdırılmışdır ki, onların 8 minə yaxını azərbaycanlı olmuşdur. O zamanlar azərbaycanlılar Ermənistan SSR-nin əhalisinin 10%-ni təkil edirdilər.

Ermənistanda 30-cu illərdə 10 mindən artıq azərbaycanlı repressiyaya, sürgünə, həbsə və güllələnməyə məruz qalmışdılar.

Bu hal Azərbaycan SSR-də daha dəhşətli olmuşdur. «1937-ci ildə bu faciə 20-ci illər faciəsinə nisbətən bir az da dərinləşib. Belə ki, briqada komandiri Cəmşid bəy Naxçıvanskini, general Qambay Vəzirovu, komissar Cabir Əliyevi, Heydər Vəzirovu, polkovnik Seyfulla Mehdiyevi, Cəlil Əliyevi, Murtuz Talıbzadəni, Şəmistan Əyyubovu və onlarca digər sərkərdələrimizi Avanesovlar qırdırmışlar».[92]

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCAN XALQININ ÜZLƏŞDİYİ FACİƏLƏR 1948-1953-cü və 1988-1991-ci illər

II Dünya müharibəsi dövründə Mikoyan başda olmaqla erməni daşnaq liderləri «Böyük Ermənistan» uğrunda ikibaşlı fəaliyyət göstərmişlər. Bir tərəfdən onlar Hitlerin qələbə çalacağına inanıb, ona Zaqafqaziyada iki dövlətin-erməni və gürcü dövlətlərinin qurulmasını təklif etmişlər. Bununla onlar Azərbaycan torpaqlarını mənimsəmək istəyirdilər. Digər tərəfdən isə Qələbə Sovet İttifaqı tərəfdə olarsa, Türkiyənin Qars vilayəti və ona yaxın ərazilərin Sovet Ermənistanına birləşdirilməsi planını cızırdılar. Hər iki halda azərbaycanlıların Zaqafqaziyadan Orta Asiyaya və Sibirə deportasiyasına cəhdlər edilirdi.

[91] R.Qaraxanlı. a) İlham Əliyevin siyasi fəallığı Ermənistanda narahatlıq doğurub. Ermənistan xüsusi xidmət orqanları Azərbaycanın dövlət adamlarına qarşı sui-qəsd planı hazırlayıblar. -«Yeni Azərbaycan», 29.11.2001, № 227 (1206)
[92]

Sonrakı planın ilk addımı müttəfiqlərin Tehran konfransında (28.XI-01.XII.1943) özünü büruzə verdi. Ermənilər konfransda xaricdəki ermənilərin Sovet Ermənistanına köçürülməsi razılığına nail oldular.

Məqsəd Türkiyədən torpaq qoparmaq və Ermənistandakı azərbaycanlıları xarici ermənilərin Sovet Ermənistanına köçü ilə əlaqədar deportasiya etmək idi. Məqsədin birinciliyinə nail olmaq üçün Sovet hökumətinə ermənilər təsir göstərdilər. Sovet hökuməti Türkiyə Respublikasına nota verib (1945) yuxarıda adı qeyd edilən ərazini (26,4 kv.km.) və boğazlara nəzarəti tələb etdi. Az qala Sovet İttifaqı və Türkiyə arasında müharibə olsun və III Dünya müharibəsi təhlükəsi yaransın. Böyük təhlükəni görən Stalin tələbindən imtina etdi. Beləliklə, ermənilərin bu məqsədi də puça çıxdı. Türkiyədən torpaq qoparmaq müşkül məsələyə çevrildikdən sonra ermənilər Sovet Azərbaycanın üzərinə düşdülər. 1945-ci ilin noyabrında Ermənistan KP MK katibi Q.Arutyunov İ.Stalinə məktubunda Qarabağın Ermənistan SSR-yə verilməsini xahiş etdi. Stalin həmin məktubu K.M.Malenkovun üstünə, Malenkov isə öz növbəsində Azərbaycan rəhbərliyinə göndərdi. Mir Cəfər Bağırov məktuba cavabında bildirdi ki, Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər (Zəngəzur, Göyçə, Borçalı, Dərbənd və sair) də onun özünə qaytarılsın. Bununla da emənilərin növbəti bu cəhdi də puça endirildi.

Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi cəhdi boşa çıxdıqdan sonra 1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsatətini əsas götürərək SSRİ hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verdi. İlk təbliğatın nəticəsində 130 min ermənin Ermənistana köçürülməsi müəyyən edildi. Köçə xarici erməni təşkilatları («Hnçaq», «Ramkavar» partiyaları, Ümumerməni Xeyriyyə İttifaqı) 1 milyon dollar pul xərclədilər. İlk axında 90 mindən artıq erməni (1946-cı ildə 50,9 min, 1947-ci ildə 35,4 min) gəldi. Sovet Ermənistanında hökumət onların yerləşdirilməsini siyasi məqsəd üçün gecikdirirdi. Onlar həftələrlə dəmiryol stansiyalarında qalırdılar. Bəhanə edirdilər ki, köçkünləri yerləşdirmək üçün şərait yoxdur. Ermənistan hökuməti çıxış yolunu Azərbaycanlıların kütləvi köçürülməsində tapdılar. Moskva isə erməni avantürasına rəvac verdi. Stalin SSRİ Nazirlər Soveti adından 23 dekabr 1947-ci ildə 4083 saylı qərar qəbul etdi: «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında». Azərbaycan SSR Nazirlər Soveti isə 2 fevral 1948-ci ildə köçürülmə haqqında müvafiq qərar qəbul etdi.

SSRİ Nazirlər Sovetinin yuxarıdakı qərarına aydınlıq gətirmək üçün 10 mart 1948-ci ildə yenidən ikinci qərar verdi. Çünki əvvəlki qərarda giriş və izahat yox idi. Lakin həm SSRİ hökumətinin, həm də Azərbaycan hökumətinin qərarları qeyri obyektiv olaraq, real həqiqət və şəraitə uyğun gəlmirdi.

1947-ci il 23 dekabr tarixli qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə «könüllülük» prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün.

Beləliklə, Qərbi Azərbaycanın azərbaycanlı əhalisinin növbəti deportasiyası başladı. Bu deportasiya son iki əsrdə Qərbi Azərbaycandan əhalinin soyqırımı və deportasiyası üzrə VII (1828,1856,1878,1905-1907,1918-1920,1937-1938,1948-1953) idi. Bu soyqırımı və deportasiya nəticəsində 150.000 azərbaycanlı əhali Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına və çətinliklə digər rayonlara səpələndi. Nəticədə 50.000 əhali qırıldı. 50.000 əhali isə Stalin öldükdən sonra dağıdılmış doğma yurdlarına qayıdıb, alaçıqlarda yaşamaqla köhnə yurd-yuvalarını bərpa etdilər. Bu hadisə də soyqırımının növbəti bir mərhələsi idi.(Müəllifin araşdırmalarından).

1948-1953-cü illər üzrə «könüllü» köçürülmə üç mərhələ üzrə həyata keçirilməli idi: I mərhələ 1948-1950, II mərhələ 1951-1952-ci illər, III mərhələ 1953-cü il. Birinci mərhələnin ilkin nəticələri uğursuzluqlara uğradı. Muğana köçürülən əhalinin əksəriyyəti-xüsusən qocalar və uşaqlar kütləvi surətdə hava və məişət şəraitinin pis olması ucbatından müxtəlif yoluxucu xəstəliklərə tutuldular və kütləvi ölüm halları baş verdi. Bu hadisədən xəbər tutan köçürülməmiş əhali çıxılmaz vəziyyətdə qaldılar. İmkansız əhali Azərbaycanın dağlıq rayonlarına, xüsusən Dağlıq Qarabağa köçmək arzularını bildirdilərsə, buna nail ola bilmədilər.

Lakin çox çətinliklə Pəmbək mahalının Barana (Noyemberyan) rayonunun bəzi kəndləri - Ləmbəli, Körpülü və s. Azərbaycan SSR-nin Qazax rayonunda məskunlaşmasına icazə aldılar. Bu xəbəri Pəmbək mahalının digər kəndləri xoş xəbər kimi qarşıladılar, onlar da vaxtından əvvəl «könüllü» köçə qoşuldular. O cümlədən bu sətirlərin müəllifinin ailəsi.

Lakin əhalini Ceyran Çöldə çadırlarda və vaqonlarda yerləşdirdilər. Oraya gündə bir dəfə maşınlarla su gətirirdilər. Daş-ağac tökürdülər ki, özünüzə ev tikin. Bir çox köçkünlər torpağı qazıb qoyun yatağı kimi evlər düzəltdilərsə, yaşayış mühiti çox acınacaqlı idi. Tikinti materialı üçün tökülmüş ağacları, taxtaları yandırırdılar. Hökumət qəsəbənin salınması üçün aciz idi. İmkansız qalmış əhali Qazax və Borçalı kəndlərinə dağıldılar. Geri, öz kəndinə qayıdanlar da oldu. Lakin onların evlərini dövlət inventarlaşdırıb xaricdən gələn ermənilərə verirdi. Hətta boş evlərə də sahibini buraxmırdılar. Noyemberyan rayonunun Ləmbəli kəndinin əhalisi Stalinin ölümünə qədər kəndin ətraf ərazilərində gecəqonduları tikib orada yaşadılar. Xruşşovdan cavab məktubu gəldikdən sonra Ləmbəli camaatı boş olan evlərində yerləşə bildilər.

Borçalı kəndlərinə dağılmış azərbaycanlıların isə taleyi heç gətirmədi. Onları 1951-ci ilin payızında vaqonlara doldurub Qazaxıstana sürdülər.

Yeri gəlmişkən bir həqiqəti də qeyd etmək yerinə düşər. Köçürülmə ilə əlaqədar olaraq Azərbaycan SSR-nin o zamankı rəhbərləri (M.C.Bağırov, T.Quliyev, N.Heydərov) çıxılmaz vəziyyətə düşmüşdülər. Çünki o dövrdə Azərbaycan xalqının iqtisadi-mədəni həyat səviyyəsi Zaqafqaziya respublikaları içərisində qat-qat aşağı səviyyədə idi. Az vaxt içərisində 100.000 əhalini yerləşdirmək asan problem deyildir. Bu «xalqlar atası» Stalinin iradəsi idi.

Bu müddəa bir epizodla sübut edilə bilər.

Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun məhkəməsi zamanı o həmin prosesi belə şərh etmişdi ki, 1947-ci ilin sonunda İ.Stalinin köməkçisi Poskrebışev ona zəng edib Stalinin onu çağırdığını söyləyir. O, Moskvaya gedir və Stalinin qəbul otağında H.Arutyunovla rastlaşır. Birlikdə Stalinin kabinetinə daxil olurlar. Stalin müqəddiməsiz - filansız deyir:

Bağırov, bilirsən ki, ermənilər xaricdən Ermənistana gəlirlər. Arutyunovun da torpağı yoxdur. Sən öz azərbaycanlılarını oradan götür, onları Muğanda, Mildə yerləşdirərsən.

M.C.Bağırov deyir ki, yoldaş Stalin, bu asan məsələ deyil. İcazə verin qayıdım, Bakıda yoldaşlarla da məsləhətləşim. Məsələni yoluna qoymağı götür-qoy edək.

Stalin onun bu cavabından əsəbiləşir və deyir:

Deyildi, əməl et! Qurtardı![93]

Xruşşovun da hakimiyyətinin son illərində «Böyük Ermənistan» ideyası Mikoyanın təşəbbüsü ilə Sovet idarə aparatının gündəliyinə qaldırıldı. Xruşşovun aqrar siyasətindən - SSRİ-nin iqtisadi regionlara bölünməsi siyasətindən istifadə edən Mikoyan ona təklif etdi ki, Ermənistan SSR-də və Naxçıvan MSSR-də iqtisadiyyatının əlverişli inkişafı üçün Naxçıvan MSSR-nin Ermənistan SSR-ə birləşdirilməsi vacibdir. Xruşşov bu işi Azərbaycan ziyalılarının müzakirəsinə verdi. Nəticədə iş baş tutmadı.

Bu illər Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibətdə müəyyən sabitlik baş verdi. Bu dövrdə respublikanın stalinçi rəhbərlərinə qarşı həyata keçirilən kəskin və ədalətli tədbirlər yerlərdə məsuliyyət hissini artırır, hər hansı bir ekstremist hərəkətin qarşısı alınırdı.

Lakin ermənilərin «mets yeğerni» adlandırdıqları 1915-ci il hadisələrinin 50-ci ildönümü yaxınlaşdıqca ərazi tələbləri, türklərə qarşı ögey münasibətlər baş qaldırmağa başlamışdı. Xüsusilə, Krımın Ukrayna SSR-ə verilməsindən sonra ekstremist tələblər geniş vüsət almışdı.

1962-1963-cü illərdə Ermənistan KP MK bürosunda Azərbaycan və Türkiyəyə torpaq iddiaları haqqında Moskvaya göndərilən ərizələrlə əlaqədar məsələlər müzakirə olunan zaman gizli söhbətlərdə belə bir fikir də söylənirdi ki, SSRİ Ali Sovetin Rəyasət Heyətinin sədri A.İ.Mikoyan Dağlıq Qarabağ Muxtar Vilayət Ermənistan SSR tərkibinə verilməsi məsələsini N.S.Xruşşov qarşısında qaldırmış, Xruşşov isə buna cavab olaraq demişdir ki, kifayət qədər hərbi avtomaşınlar ayırıb ermənilərin bir gecə ərzində Dağlıq Qarabağdan Ermənistana köçürülməsi barədə tapşırıq verə bilər. Təbiidir ki, belə kəskin reaksiya öz təsirini göstərmişdi.

Lakin 1964-cü ildə N.S.Xruşşovun hakimiyyətdən kənarlaşdırılması müvəqqəti sakitliyi pozdu. Ermənistanda «mets yeğerni» - «böyük qırğın» adlandırılan hadisəsinin 50-ci ildönümünü qeyd etməyə hazırlıq işləri genişləndi. Bu tədbiri keçirilməsində xarici ölkələrdə fəaliyyət göstərən daşnaq partiyasının və digər irticaçı-millətçi partiya və qrupların məqsədi, son qayəsi Ermənistan SSR-in rəhbərliyinin fəaliyyəti ilə üst-üstə düşür, hər iki tərəfdə aparılan təbliğat işi bu məqsədə yönəldilmişdi. Belə ki, iddia edirdilər ki, «qırğın» üçün Türkiyə hökuməti və xalqı məsuliyyət daşıyır, əzəli Ermənistan torpaqları yenidən birləşdirilməli «Böyük Ermənistan» dövləti yaradılmalıdır.

Gürcüstan SSR-in Boqdanovka rayonu, habelə ona həmsərhəd olan bölgələrin, Azərbaycan SSR Naxçıvan Muxtar Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazilərini, Türkiyə Cümhuriyyətinin böyük bir hissəsini - Qars, Ərdəhan, Trabzon, Qars, Bitlis, Van vilayətlərini Ermənistana birləşdirmək həm rəsmi dairələrdə, həm də kütlə tərəfindən irəli sürülür, qətnamələr, müraciətlər qəbul edilirdi.

Bütün əmək kollektivlərində, kolxoz və sovxozlarda, ali və orta məktəblərdə, hətta ibtidai siniflərdə belə tədbirlər, «mets yeğerni»nin 50-ci ildönümü erməni xalqının yekdilliyi və birliyi naminə yüksək səviyyədə keçirmək çağırışı səslənir, türklərə qarşı nifrət hissi təlqin edən kinofilmlər nümayiş etdirilir, kitablar çap olunurdu. Kütləvi mətbuat orqanları, radio və televiziya vasitələri ilə erməni xalqının müdrikliyi, qonşu xalqların köçəri və gəlmə olduqları barədə iri məqalələr çap edilir, verilişlər təşkil olunurdu. Guya 1915-ci ildə törədilmiş vəhşiliklər, qadınların döşünün kəsilməsi, uşaqların süngülərə taxılması barədə «gözləri ilə gördükləri» hadisələr haqqında, daha doğrusu ermənilərin türklərə tutduqları vəhşilikləri türklərin adına çıxıb şahidlik edir, televiziya ekranlarından erməni xalqını türklərə qarşı mübarizəyə qalxmağa çağırırdılar.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, artıq 1965-ci ildə gizli erməni terror Ordusu «ASALA» formalaşmışdır. Komandanlığı «Mets Yeğerni»nin 50 illiyinin və «xalq qəhrəmanı» Ozanyan Andronikin anadan olmasının 100 illiyi bayramını da eyni günə (24 aprel 1965-ci il) salaraq türk qırğınları salmaq planını cızmışdılar.

Planın proqramı belə idi, 24 aprel günü silahlı dəstələr Ermənistandakı azərbaycanlı kəndlərinə hücum etsinlər, dinc əhalini kütləvi surətdə qırsınlar. Eyni vaxtda Türkiyə sərhədlərində pozuculuq edib, hücumlar etsinlər, qırğınlar təşkil etsinlər, həmin vaxtı radio və televiziya ilə bütün dünyaya elan etsinlər ki, gizli silahlanmış Azərbaycanlılar erməni kəndlərinə hücum etmişlər, bunlara kömək məqsədilə türk ordusu sərhəddi pozub sovet sərhədçilərinə hücuma keçmişlər. Planda ASALA nəzərə alırdı ki, Sovet Ordusu münaqişəyə qoşulacaq, bu məqamdan istifadə edib Türkiyədən müəyyən torpaqları. Qars, Ərdəhan, İqdır və s. vilayətləri tutmaq mümkün olacaq.

NATO isə müharibəyə qoşulmaq əvəzinə münaqişənin sülh yolu ilə həll olunmasını irəli sürəcək. Nəticədə guya ermənilər «qədim» torpaqlarını beynəlxalq ictimaiyyətin təkidi və tələbi ilə əldə edəcəklər. «ASALA» əli silah tutan hər bir erməniyə öhdəlik qoymuşdur ki, ən azı bir azəri (türk) öldürsün.

Erməni daşnaqlarının bu sirli planları necə açıldı və qarşısı alındı?

Qonşu erməni kəndlərindən azərbaycanlılarla dost olan ermənilər azəraycanlı kəndlərinə gəlib görüşüb halallaşırdılar ki, biz sizi qıracağıq, bizi isə hökumət öldürəcək. Bu sözləri qonşu erməni kəndi Hacıqaradan (Lernapaddan) olan, uzun müddət Quqark rayonunun Arcut (Ardıc) kəndində baytar həkim işləmiş Çolak adlı erməni ağlaya-ağlaya deyirdi ki, məni sizin kəndə bələdçi təyin ediblər, mən qırğının təşkil proqramını həyata keçirmək üçün əsas aparıcı şəxs kimi cavabdehlik daşıyıram. Ancaq mən gəlib sizinlə görüşüb, sonra intihar edəcəm. Bunu oğlanlarına da demişəm. Mən bu kəndin çörəyini ayaqlaya bilmərəm.

---

93 Deportasiya, B.,1998, s.98.

Gürcüstandan və Azərbaycandan Moskvaya teleqramlar vurdular. Dövlət tədbir gördü. Bütün erməni və Azərbaycan kəndlərinə milis və hərbçi keşikçilər qoyuldu, orduya sayıq olmaq tapşırığı verildi. Ermənilər məcbur olub bu mənfur plandan əl çəkdilər. Lakin yuxarıda deyilən kimi İrəvanda Lenin Meydanında mitinq keçirdilər. Leninin heykəlinin çiyin və başına gül əvəzi nəcis qoydular. Hərbi hissədən dağılmaq əmri gələndə, başda keşiş Vazgen olmaqla nümayişçilər ayaqqabılarını əllərinə alıb, Eçmiədzin kilsəsinə yürüş etdilər (30 km-dən artıq yoldur), sonrakı günlər isə xüsusən, 1965-ci ilin 23-24-25-ci aprel günlərində keçirilən tədbirlər kulminasiya nöqtəsinə çatmışdır. İrəvan şəhərinin erməni əhalisi küçələrə çıxmış, genosid qurbanlarının xatirəsinə ucaldılmış memorial tikinti yerinə doğru axışırdı. Kütlənin özündə katolikosla birlikdə respublikanın rəhbərləri addımlayırdılar. Kütlənin başı üzərində qara parça ilə örtülmüş rəmzi tabut və «Böyük Ermənistan», «Qoparılmış ərazilər Ermənistana qaytarılmalıdır!», «İntiqam!», «İntiqam! «sözləri yazılmış şüarlar aparılırdı.

Bu hadisədən sonra Ermənistan SSR-nin azərbaycanlı əhalisi sıxışdırılmağa başlanıldı, xüsusən İrəvanda, Leninakanda, Kirovakanda, Qafanda avtobuslarda, bazarlarda, ictimai yerlərdə azərbaycanlılar təhqir olunur, döyülürdü.

Azərbaycanlılar Moskvaya, xüsusən Quqark rayonundan həm ərizə, teleqramlar vasitəsi ilə, həm də nümayəndə göndərmişlər. Azərbaycanlıların şikayəti Sovet İKP MK siyasi bürosunun iclasında müzakirə olundu; Quqark rayonunda «beynəlmiləl tərbiyənin vəziyyəti» mövzusunda məsələyə baxıldı və beynəlmiləl tərbiyəni yaxşılaşdırmaq üçün tövsiyələr edildi. Respublika miqyasında isə heç kim cəzalandırılmadı. Yalnız Ermənistan KP Mərkəzi Komitəsinin birinci katibi Y. N-Zarobyan vəzifədən azad edilərək, 1966-cı il fevral ayından SSRİ elektrotexnika sənayesi nazirinin müavini vəzifəsinə təyin olundu. Lakin Ermənistanda yaşayan azərbaycanlıların məşəqqətli həyatı olduğu kimi qaldı.

Təəssüf ki, uzun illər çar Rusiyasının və SSRİ-nin avantürist siyasəti sayəsində ermənilərin Qərbi Azərbaycan türklərinə qarşı tətbiq etdikləri 9 deportasiya və soyqırım siyasəti öz siyasi qiymətini dünya miqyasında tapmadı.

Türkiyədən və Azərbaycandan torpaq qoparmaq uğrundakı çarpışmalarda məğlub olan ermənilər mübarizə taktikasını dəyişdilər. Bu mübarizə yolunun biri köhnə taktikaları olan terrorçuluq, digəri isə «Böyük Ermənistan» uğrunda pul toplamaq idi. Onu da qeyd etmək lazımdır ki, daşnaq partiyası Yer kürəsində yeganə bir partiyadır ki, öz nizamnaməsində terrorçuluğa yer verir. Bu terrorçuluqla müəyyən niyyətlərinə çatırlar.

«Əzabkeş erməni xalqı»nın nəfinə pul yığılırdı. İanə həm xarici erməni diasporu tərəfindən, həm də SSRİ-də yaşayan erməni əhalisi tərəfindən toplanırdı. Həmçinin SSRİ-də pul müxtəlif ictimai təşkilatlar (tarixi abidələrin qorunması, təbiətin qorunması və s.) adından da toplanırdı. «Böyük Ermənistan» adına pul verməyən erməniləri hətta cəzalandırırdılar. Bunu 1988-ci il 28-29 fevralda Sumqayıt hadisəsi, 1990-cı ilin 13-17 yanvarında Bakı hadisələri sübut edə bilər. Ermənilər tərəfindən hazırlanan bu aksiyalarda ermənilər «Böyük Ermənistan» fonduna pul verməyən erməniləri qətlə yetirmişlər, həm də istintaqda müəyyən edilmişdir ki, qeyd edilən aksiyalar ermənilər tərəfindən Moskvanın razılığı ilə törədilmişdir.

Toplanan pullar Eçmiəzdin kilsəsinin adı ilə xarici banklara daxil edilirdi. 1965-ci ildə yalançı «erməni soyqırımı»nın 50 illiyini keçirərkən onlar açıq-açığına bəyan edirdilər ki, «Böyük Ermənistan» uğrunda 40 milyard ABŞ dolları dəyərində pul toplamışlar. Onlar deyirdilər ki, pul toplamaqda məqsəd odur ki, Türkiyədən və İrandan (Cənubi Azərbaycan nəzərdə tutulurdu). torpaqlarını alacaqlar.

Həmin toplanmış pulla daşnaqlar terrorçu erməni ordusu ASALA-nı yaratdılar. İndi isə xarici dövlətlərin parlamentlərində parlament deputatlarına pul xərcləyib uydurma «erməni soyqırımı» mifini tanıdırlar.

ASALA uzun müddət Sovet Ermənistanında gizli hazırlanırdı. Onun gizli silahlandırılması prosesi gedirdi. ASALA xarici ölkələrdə türk diplomatlarına qarşı terrorçuluq əməliyyatlarına başladı. Təkcə 1973-1986-cı illərdə beynəlxalq aləmdə türk diplomatları və rəsmilərinə qarşı 215 terrorçu aktı həyata keçirən erməni terror təşkilatı «ASALA» 1988-ci ildən Dağlıq Qarabağda və Azərbaycanın digər bölgələrində saysız miqdarda insan ölümündə əli vardır.

Sovet İttifaqında ASALA-nın ilk fəaliyyətləri Moskvada metronun partladılması, Ermənistanda hərbi silah anbarlarından silahların oğurlanması, Sumqayıt və Bakıda erməni talanları, Özbəkistanda SSRİ prokurorluğunun məsul işçisi Qdlyanın rəhbərliyi ilə Ahıska türklərinin talanı, Masis və Quqark soyqırımları və sair faktları qeyd etmək olar. ASALA açıq fəaliyyətə özünün törətdiyi Sumqayıt (1988) hadisəsindən sonra başladı, bəhanə də o oldu ki, Sovet dövləti kimi bir humanist bir dövlətin tərkibində erməniləri müsəlmanlar-türklər qırırlar. Nəticədə ASALA Rusiyanın köməyi ilə torpaqlarımızın 20 faizini işğal etdi və Azərbaycan dövlətinin boğazına 1 milyon qaçqın və köçkün bağladı. Bu «nailiyyətdə» Rusiya dövləti aparıcı rol oynamışdır.

Rusiya dini və strateji zəmində ermənilərin «xilaskarı» kimi çıxış edir, onlara iqtisadi, hərbi və mənəvi yardım göstərir. Rusiyanın köməyi ilə ermənilər Azərbaycan torpaqlarını işğal etdilər. Rusiya Ermənistanı yeni torpaqlar tutmağa həvəsləndirərək, onun ərazisini strateji bazasına çevirdi və Qarabağ düyünün daha da möhkəmləndirdi.

## 20 YANVAR FACİƏSİ

Bu faciə ermənilərin təşkili və təşəbbüsü ilə Moskvanın azərbaycanlılara qarşı soyqırımı idi. Respublikanın paytaxtı Bakı şəhərinə hücum edən Sovet ordusunun tərkibində kifayət qədər qabaqcadan hazırlıq məşqləri keçmiş ermənilər var idi. Bu sovet əsgəri adını daşıyan ermənilər Rostov vilayətindən, Krasnodar və Stavropol ölkələrindən səfərbər edilmişdir. Bu fakt Sovet imperiyasının Azərbaycan xalqına qarşı məkrini, paxırını aşkar etdi. Belə ki, çoxmillətli olan dövlətin başçıları münaqişədə olan xalqları bir-birinə qoymamalı idi. Beləliklə 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə tarixdə misli görünməmiş faciənin nəticəsi belə oldu: 170 nəfər öldürüldü, 400 nəfərdən çox insan yaralandı, 30 nəfər itkin düşdü. Ölüm halları sonrakı vaxtlarda da davam etdi. («İyirmi Yanvar» kitabından).

20 yanvara hazırlıq 1988-ci ildən başlanıb. Aydınlaşır ki, bu barədə M.Qarbaçov Müdafiə Naziri Dmitri Yazova verdiyi xüsusi göstərişə əsasən: «Armavirdə (Stavropolun qərb hissəsində) Livan ermənilərindən təşkil olunmuş «İz a-Din el-Kassam» terrorçu qrupun xristian qanadının liderlərindən olan Yusef Motarrekin başçılıq etdiyi 41 nəfərlik heyətə sovet hərbi

geyimi paylanırdı. Bu dəstə Müdafiə Nazirliyinin sənədlərində «Voennaya deleqati» kodu ilə hallandırılırdı. 1990-cı ilin yanvar ayının 14-də Armavirdəki 016 nömrəli hərbi hissədən, polkovnik Arkadi Fedoseyevin imzası ilə Şimali Qafqaz Hərbi Dairəsinə göndərilən məktubda isə (2019.11. saylı banderol. Şimali Qafqaz Hərbi Dairəsində «Dİ raspisani» adlı qovluq. səh. 147. Arxiv-1990-4) qeyd olunurdu ki, «Hərbi nümayəndələr» əmrə tabedilər. Heç bir «ÇP» yoxdur. Digər tərəfdən, həmin ərəfədə Taqanroqdan, Donetskdən, Krasnodardan, Razdandan, Moskva ətrafından... Azərbaycan istiqamətinə hərbi hissələr yaraqlanırdı.

SSRİ Mərkəzi Komitəsinin Baş Katibi M. S. Qarbaçovun 1988-ci ilin mart ayının 19-da Təhlükəsizlik Şurasında irəli sürdüyü təklifə əsasən, regionlarda, yəni respublikalarda rus millətinin şərəf və ləyaqətini qorumaq üçün «Narodnaya volya» təşkilatının özəkləri yaradılması qərarlaşdırıldı. Əlbəttə, burada söhbət hərbi hissələrdən gedirdi. Nəticədə 1988-ci ilin iyul ayının 24-də MN-i bu təşkilatın özəklərini hərbi hissələrdəki fəaliyyətləri üçün əmr verir. Avqust ayının 13-də Təhlükəsizlik Şurasında bu məsələyə yenidən qayıdılır.

Artıq 1989-cu ilin dekabr ayının 24-nə olan məlumata gorə MN.BQ-in (Müdafiyə Nazirliyi Baş Qərargahı) 1990-cı il yanvarın 10-da Marşal D. Yazova hazırladığı hesabatdan çıxarış. Bax: MN-arxiv-4, qovluq 26, səh.22), regionlarda rus millətinin Şərəf və ləyaqətini qorumaq üçün yaradılan «nizamlayıcı» (sənədlərdə belə adlanır) «Narodnaya volya»nın özəklərindən biri Həştərxanda, Volodarski yaşayış ərazisində yaradıldı. 1985-ci ildən 1988-ci ilədək MNDQ-də xidmət etmiş birinci dərəcəli kapitan Lyudvik Fyodroviç Paxomov özəyin rəhbəri təyin edildi. Kapitan L.F. Paxomova da Azərbaycan istiqamətində nəzərdə tutulan «dinc təlimdə» iştirak edəcəyi barədə xəbərdarlıq edildi. Məlumata görə, bu dəstənin də tərkibində artıq 70 nəfər qeydə alınmışdı. Onların əksəriyyəti də 80-ci illərdə Azərbaycanda hərbi xidmətdə olmuş və sonradan tərxis edilmiş zabitlər idi. Voladarski ərazisində onlar üçün kiçik bir təlim düşərgəsi də tikilmişdi. Onlar burada əsasən silahdan istifadə qaydalarını yada salır, yeni silah və güllələrlə tanış olurdular. Polkovnik Nikifirov isə «Narodnaya volya»çılara psixoloji problemləri aşılayır, taktiki döyüş qaydalandan bəhs edirdi. Bakıda isə hadisələr məhvərindən çıxırdı.

Nəticədə 1990-cı ilin yanvar ayının 12-i saat 16:10 radələrində Bakı Ümumqoşun məktəbinin zabitləri adından polkovnik D. Savelyev və siyasi şöbənin rəisi polkovnik O. Rusakov Moskvaya-Təhlükəsizlik Şurasına (M. Qorbaçova və D.Yazoa) aşağıdakı məzmunda teleqram vururlar: «...Obstanovka v Baku kontroliruetsya larodnım Frontom Azerbaydjana. Dlya razreşeniye nakopivşixso problem yeşo ne olnostyu ispolzovanı politiçeskie metodı. Mı uverenı, mojno ne dopustit v Baku toroy Rumıni...».

Yanvar ayının 16-da isə marşal D. Yazov Azərbaycan rəhbərliyinə cavab teleqramında yazırdı: «...Xoçu zaverit çto deystvi armii napravlenı na to, çto bı...razruşit rqanizaçionnıye strukturu rvuxşa k vlasti deateley Narodnoqo Fronta...»

Həmin gün, yəni 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıdan Moskvaya 357 zəng olunmuşdu. Kimin nə danışdığını, kimin kimə zəng etməsini tam bilməsək də, bu barədə də kifayət qədər material var...

Həmin an, yəni yanvar ayının 19-u, saat 19.00-da isə DQ kommunistlərin başçısı B.Gevorkov Bakıdakı mənzilindən Moskva ilə danışırdı. Yanında da Azərbaycan dövlət Təhlükəsizlik Komitəsinin kəşfiyyat rəhbərlərindən olan polkovnik Ağayan və polkovnik Septa.

Polkovnik Ağayan 1993-cü il sentyabr ayının 9-da Moskvada erməni diasporunun rəhbərləri ilə görüşündə 1990-cı ilin yanvar gecəsini xatırlayarkən qeyd edib: Biz həmin vaxt Gevorkovun Bakıdakı mənzilində idik. Onda o, telefonla «Şərqi lüro» ilə danışırdı...»[94]

Azərbaycan xalqına qarşı törədilən bu soyqırımın əsas məqsədlərindən biri Milli-Azadlıq hərəkatını qabaqlamaq idi. Belə ki, kommunist rejimi artıq özünü doğultmurdu, imperiyanın dağılması təhlükəsi yaranmışdı. Bu təhlükəni aradan qaldırmaq üçün Sovet hökuməti daxildə müəyyən qayda-qanun yaratmaq, o cümlədən xalqları bir-birinə qarşı qoymaq, yaranmış vəziyyətdən istifadə edib xalqların milli qürurunu, milli azadlıq ideyasını aradan qaldırmaq təşəbbüsündə bulunurdu.

M.Qorbaçov bu təşəbbüsə üç əlverişli vasitə-»aşkarlıq», «yenidən qurma» və demokratiya» ilə başladı. Milli məsələdə o, daha «irəli» gedib qeyd etdi ki, keçmiş sovet rəhbərləri milli məsələni düzgün həll etməmişlər. Ancaq o, öz konsepsiyasını açıq bildirmədi, praktiki olaraq siyasi oyunlar apardı. Bu oyunlardan biri İttifaq daxilində torpaq bölgüsündən başladı. O, gizli surətdə ermənilərlə danışıqlar aparıb, Dağlıq Qarabağın Ermənistana verilməsinə razılıq verdi. Bu işi həyata keçirmək məqsədi ilə müəyyən ardıcıl planların həyata keçirilməsi üçün Moskva müəyyən işlərin icrasına keçdi. Bu işlərdən biri də H. Əliyevi Moskva rəhbərliyindən uzaqlaşdırmaq idi.

H.Əliyev Moskva rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra ermənilər məxfi planlarını aşkar etdilər: Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini Moskvadan tələb etdilər. Moskva müxtəlif siyasi oyunlarda ermənilərə kömək etmək, azərbaycanlıları günahlandırmaq siyasəti apardı.

Sumqayıtda və Bakıda «erməni poqromu» deyilən aksiyalar təşkil etdilər. Moskvanın və ermənilərin məqsədi aşağıdakılardan ibarət idi: dünya ictimaiyyətinə çatdırsınlar ki, müsəlmanlar erməniləri yola vermirlər; azərbaycanlılar xristian-müsəlman qarşıdurması yaradıblar; ermənilər soyqırıma məruz qalıblar və s.

Azərbaycan xalqı vəziyyətdən çıxmaq üçün milli azadlıq şüarını irəli sürdü. Moskva bundan narahat idi. Artıq ciddi bir tədbir həyata keçirmək labüddür. Bu tədbirlərdən biri də ssenari üzrə Bakıda «erməni poqromu» təşkil etmək oldu.

13 yanvar 1990-cı ildə Bakıda keçirilən «erməni poqromunun» təşkilatçıları Azərbaycanın o zamankı rəhbərlərinin iştirakı ilə E. Primakov və digər Moskvadan gəlmiş emissarlar olmuşdurlar. Bu emissarlar hələ yanvarın 5-dən Bakıda idilər. Bakıya qoşun yeridilməsi planı hazırlandı. Çünki respublikanın o zamankı rəhbərləri Moskvaya məlumat vermişdilər ki, Azərbaycanda Sovet qruluşu təhlükədədir. Mitinqlərin və yürüşlərin ardı-arası kəsilmirdi.

Faciənin ertəsi günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlməklə xalqa həmrəyliyini bildirən fərdi pensiyaçı Heydər Əliyev Bəyanatında bu suala cavab verdi: «Belə qərarı qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk

[94] Hazırda da Ermənistan terrorçuluğu dövlət səviyyəsində aparılır. - «Respublika», 29.11.2001, No 272 (1309).

ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır». SSRİ Konstitusiyasında yazılmış «hər bir müttəfiq respublikanın suverenliyi toxunulmazdır» prinsipini pozan ölkənin ali siyasi rəhbərlərini günahkar sayan Heydər Əliyev bu sözlərinə görə, təzyiqlərə məruz qaldı.

Fəaliyyətinin əsasını xalqa xidmətdə görən bir siyasi xadim kimi o, hadisələrə siyasi qiymət verilməsi tələbinin təşəbbüskarı oldu.

Onun qətiyyətlə dediyi «təqsirkarlar həmin hadisələr başlanan dövrdə Azərbaycanda fəaliyyət göstərən rəhbərlik, onların məsuliyyətsizliyi və xalqa can yandırmamasıdır» sözlərində həqiqət vardır. Hələ Naxçıvanda işləyərkən taleyüklü məsələlərin həllində düzgün siyasət yeridən dövlət başçımız sonrakı fəaliyyətində haqlı olduğunu bir daha sübut etdi.

Moskvadakı havadarlarına yarınmaq istəyən vəzirovlar, mütəllibovlar xalqın qəzəbindən qorxaraq ölənlərin sayını azaldır, qana-qan deyən adamları aldadaraq sakitləşdirməyə çalışırdılar. Ancaq günahsız insanların naləsi üzərində qurulan hakimiyyətin aqibəti puç oldu.[95]

Dövlətçiliyimizə edilən qəsdin 20 Yanvar faciəsinin əsl mahiyyəti məhz H.Əliyevin düzgün siyasəti nəicəsində xalqa çatdırıldı.

H.Əliyev Qorbaçovu Azərbaycan xalqının qanına batmış cinayətkar, bu cinayətin qarşısını vaxtında almayan Vəzirovu, E.Qafarovanı, A.Mütəllibovu V.Polyaniçkonu, M.Məmmədovu, V.Hüseynovu ona dəstək verən xain sayırdı.

Təcrübəli siyasətçi olan ölkə başçımız hələ o illərdə 20 Yanvar hadisəsini İnsan Hüquqları Bəyannaməsinin pozulması kimi dəyərləndirərək, bu qırğın Azərbaycanın suveren hüquqlarına qəsd hesab edərək ona siyasi qiymət verilməsini tələb edirdi.

29 avqust 1991-ci il tarixli sessiyada H. Əliyevin çıxışını yada salaq: «...Buna siyasi qiymət vermək lazımdır. Bəs Azərbaycan rəhbərliyindən kimlər günahkardırlar. Bəli, bu şəxslər məlumdur. Vəzirov, Qafarova, Mütəllibov. Azərbaycan KP MK-nın başqa büro üzvləri... Əgər başqa qüvvələr də günahkardırsa-demokratik qüvvələr, Xalq cəbhəsi-onlara da siyasi qiymət vermək lazımdır». Öz xalqının sədaqətli oğlunun bağrından qopan bu sözlər milyonların ürəyində alovlanan qəzəbin açıq ifadəsi idi.

20 Yanvar faciəsinin təşkilində bir çoxlarının məqsədləri vardır:

1. Sovet imperiyası müxtəlif bəhanələrlə xalqların azadlıq və müstəqillik iradəsini qırmaq, insanları qul halında imperiyanın qanunlarına tabe etdirmək. Həmçinin imperiya ordusunu və şəxsi heyətin döyüş qabiliyyətini təkmilləşdirmək.

2. Hakimiyyətdə olan imperiya nökərlərinin məqsədi isə o idi ki, kifayət qədər insan qırğını olsun. Xalq Cəbhəsinin liderləri günahlandırılsın. Həbslər başlansın, xalqın vətənpərvərlik və müstəqillik hissləri zəifləsin. Qarışıq (beynəlmiləl) ailədən olan bu rəhbərlər kürsülərini möhkəmləndirsinlər. Hətta Moskva ermənıyə torpaqlarımızı nə qədərini versə belə, onlar səslərini çıxarmayacaqdılar. Onlar üçün Abşeron yarımadası da kifayət edərdi. Təki vəzifədə olsunlar.

Xalq Cəbhəsinin və digər formalaşmada olan cəmiyyətlərin isə məqsədi o idi ki, insan tələfatı olsun. Sovet qruluşunun iç üzü açılsın. Respublika və İttifaq rəhbərləri günahlandırılsın.

## YAXIN ŞƏRQDƏ ƏN DƏHŞƏTLİ TERRORÇU DÖVLƏT ERMƏNİSTANDIR

*Movses Xorenatsi «Ermənistan tarixi» (Yerevan, 1990, səh.85-89) kitabında iddia edir ki, (erməni Allahı) həmişə türk dünyasını bəlalardan xilas edib, təbii fəlakətlərdən qoruyub. Köçəri həyat sürdükləri üçün türklərə «Ararat dağının ətəklərində yaşamaq hüququ verib. Bununla belə o, ermənilərə tövsiyyə edir ki, «...hər bir türkü doğulduğu gündən ölümə məhkum edin. İmkan verməyin onlar dirilsin. Çünki dirilən türk bizim üçün fitnələr yaradıb, faciələr törədir...»*

*Ermənistan MEA-nın akademiki Harri Sarkisyan isə ermənilərə xatırladır.» ... Bilin və agah olun. Dünyaya gələn har bir erməni balası anlamalıdır ki, onun düşməni kimdir, dostu kim? Mən istəməzdim ki, övladlarımız hər gələnin üzünə qapı açsınlar. Erməni balası beşikdə dərk etməlidir ki, o, nə üçün doğulub, kimin üçün yaşayacaq. Bunun üçün hər bir erməni anası yenicə doğulan uşağının qulağına Böyük Tiqranın... və «Müqəddəs Ara»nın nəsihətlərini oxumalı, ona dua suyu içirməlidir...» (O.Adamyan: Moskva «Vestnik drevnyaya istoriya», 1984-cü il, səh. 46-51).*

*Yazıçı Silva Kapitukyan isə məsələni bir qədər konkretləşdirir. O yazır: «...Hayk bilməlidir ki, (Allahı sevən ermənilər) ailəsində dünyaya göz açan erməni yaşamaq üçün yox, öncə erməni millətinə kömək üçün doğulub. Buna görə yeni doğulan erməni uşağının qulağına bərkdən, lap bərkdən demək lazımdır: «Eyy, Aram... sənin düşmənin türkdür... Allahdan qabaq vətəndi, Vətəndən qabaq kilsədi. Kilsədən qabaq Böyük Tiqrandı. Böyük Tiqrandan qabaq «Böyük Ermənistandı»...»*

Terror qanla, canla bəslənən, vəhşətdən güc alan canavardır ki, onun sonu fəryadla nəticələnir. Tarixdə baş verən kütləvi köçlər və köçürmələr, arasıkəsilməyən müharibələr nəticəsində dünyanın 70-dən çox ölkələrində erməni koloniyaları yaradılmış, **erməni yepiskopal kilsəsi** (71 ölkədə erməni yepiskopluğu, onlarla kilsələri vardır), erməni icmalarında yeni məkan, sərvət uğrunda mübarizəyə və milli şovinist intiqam (qisas arzusu) aşılayan geniş ictimai-siyasi, qəti erməni millətçiliyi, «erməniizm» konsepsiyasını formalaşdırmaqda, onu törədən erməni nəsillərinin şüuruna, qanına daim yeritmək sahəsində əsaslı rol oynamış və indi də daha kəskin, mürtəce xarakter almış, bəşəriyyət üçün böyük təhlükə olan beynəlxalq terrorizmin-məkrli, maskalanmış qolu-erməni terrorizminə himayəçilik edir.

Erməni terrorizmi ta qədimdən erməni etnosunun planetdə yeni-yeni ərazilərdə bərqərarlaşdırılması, məskunlaşdırılması üçün ümdə vasitələrdən biri olmuş, bu gün də belədir. Erməni terrorizmi və erməni ekspansionizmi vəhdət

[95] Ruqiyə Əhmədova. Ermənilər ifşa olunur «Yeni Azərbaycan» 13.04.2002

təşkil edir. Erməni avantürizmi (təcavüzçülük, fırıldaqçılıq) və erməni ekstremizmi-ermənilərin siyasətdə ifrat tədbirlər keçirmək taktikasının bir-birinə bağlı iki qanadıdır.

Hətta dindarlıq, möminlik cəhdi-ermənilərin guya ilahidən, «Nuh»dan əmələ gəldiyini elan etməklə nəticələnir. Erməni daşnaqları Azərbaycana qarşı yeritdiyi əsassız torpaq iddiaları ilə tariximizin səhifələrində qanlı, dəhşətli hadisələrin təməlini qoydular. Bəşəriyyətin, dünya ictimaiyyətinin qarşılaşmadığı cinayətləri xüsusi qəddarlıqla həyata keçirmək istəyən erməni millətçiləri tarixin səhifələrində qalaqlanmış cinayətlərini ört-basdır etmək üçün müxtəlif vasitələrə əl atdılar.

Beynəlxalq aləmə özlərini yalandan yazıq, əzabkeş, məhrumiyyətlərə düçar olmuş xalq kimi göstərib görünməmiş faciələr həyata keçirərək kütləvi insan qırğınları təşkil etdilər. Xarici havadarlarının köməyindən istifadə edərək torpaqlarımızda qanlı, ağır cinayətlər törədən ermənilər zaman-zaman iddialarını «uğurla» təmin etdilər. Azərbaycanlıların tarixən məskunlaşdığı torpaqları zəbt edən ermənilər bu gün də «Böyük Ermənistan» yaratmaq ideyasından əl çəkmir, törətdikləri əməlləri ört-basdır etmək üçün müxtəlif vasitələrə əl atır, qanlı olayların bəşəriyyətdən gizli qalmasına çalışırlar. 1988-ci ildə yenidən torpaq siyasətlərini həyata keçirmək istəyən ermənilər Ermənistanda yaşayan azərbaycanlıları yurd-yuvasından didərgin salaraq, müxtəlif cinayət əməlləri törətdilər. «Ermənistan» torpaqlarında etnik təmizləmə əməliyyatı aparan ermənilər Azərbaycanın münbit, bərəkətli torpaqlarına qarşı iddia irəli sürdülər. «Qarabağ adlanan oyuna» Azərbaycanın tarixi torpaqları qatıldı. İnsanlar yurd-yuva saldıqları dədə-baba ocaqlarından mərhələ-mərhələ qovuldular. Torpaqlarımızda qanlı faciələr törədildi, Laçın, Şuşa, Kəlbəcər, Zəngilan və s. torpaqlarımız işğal olundu. Bu müsibətlərin içərisində Xocalı faciəsi ağırlığı, dəhşəti ilə seçilərək o biri faciələri geridə qoydu. Həmin faciənin üstündən 17 il keçsə də müdhiş gecənin dəhşətlərini yaşayan sakinlər hələ də o illəri əzabla xatırlayırlar.

Ermənistan hökuməti dövlət səviyyəsində «Böyük Ermənistan» xülyasına nail olmaq üçün terror məqsədini dörd istiqamətdə ayrı-ayrılıqda həyata keçirməyə çalışdı. Bu əməliyyat «4-T» adlanır: 1) Tanıtma (özünü terrorçu kimi tanıtdı); 2) Tanınma (yalançı soyqırımı dünyaya tanıtdı); 3) Təzminat (Türkiyədən təzminat tələbində oldu); 4) Torpaq (Türkiyədən torpaq istəmək). ASALA təşkilatı müxtəlif ölkələrdə 42 türk diplomatının həyatına son qoydu. Ancaq dünya buna göz yumdu. Ermənistan isə öz növbəsində terrora yeni qanadlar taxdı. Türkiyədə 40 minə yaxın günahsızı qanına qəltan etmiş PKK-nın və onun lideri Abdulla Ocalanın tərəfdar və onların cinayətlərinin icraçısı, müdafiəçisi və hamisi kimi çıxış etdi.

Erməni terrorizminin dövlət səviyyəsində həyata keçirilməsi get-gedə aşkarlanır. Məşhur erməni terrorçusu Monte Melkonyan dünyanın ən amansız terrorçusu kimi qara siyahılara düşsə də, Ermənistanda onu «Artsax azadlıq hərəkatının qəhrəmanı» kimi xatırlayırlar. 10 ildən çox «İnterpol»un axtarışında olan M. Melkonyan 1993-cü ildə Dağlıq Qarabağda Azərbaycan ordusu ilə döyüşlər zamanı Ağdam yaxınlığında azəri snayperi tərəfindən məhv edilmişdir. Yerevanda basdırılma mərasimində «Demokratik Ermənistan»ın bütün rəsmiləri, o cümlədən eks-prezident L.Ter-Petrosyan iştirak edib. Müdafiə Nazirliyinin məxfi diversiya mərkəzlərindən biri onun adı ilə bağlıdır.

Monte Melkoyan başqa rəsmi Yerevan Dağlıq Qarabağda həlak olmuş ASALA üzvü Parisdəki Türkiyə səfirliyinin ələ keçirilməsində iştirak etmiş Vazgen Sislyanın dəfnində iştirak edib.

Ümumiyyətlə, erməni terrorçularına rəsmi Yerevanın daimi qayğısı olub. Hələ prezidentliyə namizəd olan R. Köçəryan məşhur terrorçu, İrandan olan Qrant Markaryanın azadlığa buraxılmasına göstəriş verib. Markaryan İran vətəndaşı ola-ola 1991-ci ildə saxta sənədlərlə Ermənistana, oradan da Dağlıq Qarabağa gələrək Melkonyan və Sislyanla birgə hərbi əməliyyatlarda iştirak edib. Köçəryanın hələ Xankəndində olarkən onları «qəhrəman» adlandırması göstərir ki, azərbaycanlılara qarşı törədilən soyqırımda hazırda Ermənistanın prezidenti olan şəxs (S.Sarkisyan) də iştirak edib.

Hazırda bəşəriyyətin mübarizə apardığı əsas problemlərdən biri kimi terrorizm təhlükəsi hələ də öz qüvvəsində qalmaqdadır. Terrorçu təşkilatlara və terrorçuluğu dəstəkləyən bir çox qruplara qarşı mübarizə məqsədilə dünya ölkələrinin yaratdığı antiterror koalisiyasının bütün tədbirlərinə baxmayaraq cəmiyyət hələ də bu bəladan yaxa qurtara bilməyib. Terrorçuların ideya və məqsədlərinin hazırda konkret nədən ibarət olduğu da məlum deyil. Məhz buna görə də, terrorizmlə birdəfəlik mübarizə aparmaq mümkün deyil.

Məlumatlar «VVashrrofile» təşkilatının materiallarından götürülüb.

Dünya hələ də sentyabrın 11-də ABŞ-da baş vermiş terror aktlarının dəhşətli nəticələrindən əndişəlidir. Misli-bərabəri olmayan miqyasda, ağlasığmaz üsulla həyata keçirilmiş cinayət bütün bəşəriyyəti şok vəziyyətinə salmışdır.

Hazırda daha çox müzakirə-mübahisə doğuran məsələlər ABŞ-ın görəcəyi cavab tədbirləri, bu tədbirlərin nəticələri, dünya birliyinin terrorizmlə mübarizə istiqamətində gələcək səyləri ilə bağlıdır.

Amerika paytaxtından verilən məlumatlara görə, rəsmi Vaşinqton terror aktlarının təşkilatçılarına və onları dəstəkləyən ölkələrə qarşı sərt addımlar atmağı planlaşdırır.

ABŞ terrorçulara sığınacaq verən ölkələrin siyahısına Əfqanıstandan əlavə, Sudan, Yəmən, Livan, Pakistan, İraq kimi ölkələri də daxil etmişdir. Bu ölkələrdə terrorçuların hazırlıq keçdikləri təlim mərkəzlərinə də zərbə endiriləcəyi gözlənilir. Digər tərəfdən, terroru dəstəkləyən ölkələrə qarşı həm də iqtisadi-siyasi xarakterli tədbirlərin görülməsi də gündəlikdədir.

Bununla belə, müşahidəçilər terrorun ünvanının düzgün müəyyənləşdirilməsinə şübhə ilə yanaşırlar. Məsələ burasındadır ki, terror aktları baş verən kimi Usəma bin Ladenin, islam terrorçularının adları hallandırılmağa başlanıldı. Doğrudur, bir nömrəli terrorçu bundan əvvəl törədilmiş bir sıra terror əməliyyatlarında günahlandırılır və onun cəzalandırılması üçün kifayət qədər əsas var. Eyni zamanda İslama qarşı körtəbii təbliğat kampaniyası, islamın terrorizmlə eyniləşdirilməsi cəhdləri özünü açıq-aşkar büruzə verir. Rəsmi Vaşinqton islama və müsəlmanlara qarşı bu cür hərəkətlərdən çəkinməyə çağırsa da, təbliğat maşını öz işini görür.

Narahatlıq doğuran başqa bir məsələ terror aktlarına cavab tədbirlərinin adekvatlığıdır. Təbii ki, ABŞ xüsusi xidmət orqanlarının apardığı təhqiqatın nəticələri haqqında hələlik ictimaiyyətə müfəssəl məlumat verilmir. Kifayət qədər dəlil-sübut olmadan bu və ya digər ölkəyə qarşı hərbi xarakterli tədbirlərin görülməsi gələcəkdə ciddi fəsadlar törədə bilər. Terrora terrorla cavab verilməsi yaxşı heç nə vəd etmir; bu, yalnız Qərblə Şərq, Şimalla Cənub arasında qarşıdurmanı dərinləşdirə bilər.

Nə qədər təəssüfləndirici olsa da, terrora münasibətdə ikili standartlar mövcuddur. Terrorun təzahür formaları müxtəlifdir. Bu müxtəliflik terrorçu təşkilatların, terroru dəstəkləyən dövlətlərin müəyyənləşdirilməsində manevr imkanları yaradır.

Ötən illərin təcrübəsi belə bir faktı təsdiq edir ki, heç demə, terrorun, terrorçunun yaxşısı-pisi varmış. Qərbin və Şimalın fikrincə, erməni terrorizmi mövcud deyil. Halbuki Qərbdə ASALA, «Hnçak» və digər erməni terror təşkilatlarının üzvləri ötən əsrin 70-80-ci illərində 50-dən artıq türk diplomatını qətlə yetirmişlər. Nə qədər təəccüblü olsa da, Avropa dövlətləri 40 mindən artıq günahsız türkün ölümünə bais olmuş PKK lideri Abdulla Öcalan kimi peşəkar qatilidə insan hüquqları pərdəsinə bürümək istəyirlər.

## ERMƏNİ TERROR TƏŞKİLATI «ASALA»nın VƏHŞƏTİ

«Bizim üçün torpağın nə demək olduğunu anamızdan soruş. Böyük və müqəddəs anamız Ermənistanın bir parçası olan Arsak uğrunda biz «ASALA»nı yaratdıq».

Bu sözlər özəyi 1967-ci ildə Fransada qoyulmuş «ASALA» erməni terror təşkilatının «Qarabağ Deklarasiyası»ndan götürülmüşdür. Elə bu sözlər daim qana susayan «ASALA»nın nə demək olduğu barədə çox şeydən xəbər verir. Hər yerə burnunu soxmağın, zinhara gətirməyin bic və hiyləgər təşkilatı kimi ad çıxarmış «ASALA» daim fürsət axtarışmdadır. Həmişə ovunu gözləyəndir, qana yerikləyəndir. Ona görə də yırtıcıdır və caynaqları həmişə qan içindədir. «ASALA»nın çoxsaylı sayda qabaqcadan düşünülmüş planlı qərarları kütləvi qırğınlara, strateji obyektlərin dağıdılmasına ayrı-ayrı adamlara, obyektlerə qarşı qanlı aktların icrasına və digər zorakılıqlara rəvac vermişdir.

«ASALA» ilk öncə «Vətənpərvər erməni cəngavərləri» adlı 14 nəfərlik qrup halında olub. 1977-ci ildə isə «Erməni cəngavərləri» adı altında özünün qeyri-leqal yığıncağını keçirib. Maliyyə durumu heç vaxt pis olmayıb. 1979-cu ildən isə «ASALA» kimi terror aləminə qədəm qoyan bu qrupun ilk bitkin nizamnaməsi yazılıb. Bu şərəfsiz missiyanı isə vaxtilə Fransanın hərbi əks kəşfiyyatının informasiya və məlumatlar bürosunda işləmiş erməni mənşəli polkovnik Parre Cokomo yerinə yetirib. «Böyük və müqəddəs Ermənistan» adlanan bu 56 səhifəlik nizamnamə həm də «ASALA» üçün proqram sənədlə də beynəlxalq terrorizmə vəsiqə alıb, 1997-ci ildən Madriddə, İtaliyada, Vaşinqtonda qeyri-leqal keçirilən beynəlxalq terrorçu mərkəzlərinin yığıncaqlarının və digər tədbirlərin ən fəal iştirakçısına çevrilib.

1991-ci ildən «ASALA»nın nizamnaməsinə Xankəndinin Bolluca yaşayış məntəqəsində doğulmuş və Fransaya mühacirət etmiş «Artyom» ləqəbli universitet müəllimi Sencaq Ter-Melixyantsın yazdığı yeddi səhifəlik «Qarabağ Deklorasiyası» da əlavə olunub. «Daşnaqsütyun» radikal qanadının ən fəal üzvü olan Artyom 1992-ci ildən Xankəndindədir və həyata keçirilən neçə-neçə qanlı aktların iştirakçısına çevrilib.

İrandakı erməni icmasıyla da «ASALA»nı sıx tellər bağlayır. Bu şərəfsiz missiyanı milliyyətcə fars olan Ağa Bağır Nəsrullahi yerinə yetirir. Cənubi Azərbaycandakı erməni icmasının dini rəhbəri Nişan Topuzyanın yaxın dostu və məsləhətçisi olan Ağayi Bağır dəfələrlə Qarabağda da olub. Beynəlxalq terrorizmdə izini qoymuş «ASALA»çılar üstündə xaç və qartal caynağı olan gümüş nişanlar gəzdirirlər. Azərbaycanla bağlı törədilən hər bir terror aktında da «ASALA» izi görünür. Bu qanlı hadisələrdə «ASALA»nın Xankəndində qərar tutmuş və Yerevan təhlükəsizlik xidmətində çalışmış Səyavuş Baqdasaryanın rəhbəri olduğu «Şahin Caynağı» radikal qanadının adı daha çox hallanıb. Bu dəstədə dilimiz və Vətənimizi mükəmməl bilənlər, hazırda həm Qarabağda, həm də Yerevanda yüksək vəzifələrdə çalışanlar, hərbi sirlərin biliciləri toplaşıblar. İldən-ilə fəaliyyət diaqnozu genişlənən, daha çox qətllərə, insan tələfatına səbəb olan terror aktlarını həyata keçirən «Şahin caynağı» Suriyadan, Fransadan, Livandan, Amerikadan böyük maddi və hərbi yardımlar alır. Ümumiyyətlə, «ASALA»da bir-birindən fərqli olaraq dörd radikal qanad, dörd qrup fəaliyyət göstərir. «Tayva», «Ana», «Arsak üçün doğulanlar» və «Martiros igidləri»ndə heç kəsə tabe olmayan yüksək hərbi təlimlər keçmiş və erməni kilsələri tərəfindən «verbovka» olunmuş terrorçular fəaliyyət göstərir, onlar yalnız baş qərargahdan alınan qərarları icra edirlər.

Rəsmi dövlət sənədlərində «ASALA»nın adı nə Ermənistanda, nə də Qarabağda hallanır. Zahirən bu iş qapalı və məhdud pərdə arxasında görülür. Terror artıq Ermənistanın, «Arsak qəhrəmanları»nın dövlət siyasətinə çevrilib. Təəssüf ki, onun yuvasına, baş qərargahına çevrilmiş Yerevan indiyədək beynəlxalq terrorizmdə ittiham olunmayıb. Amma beynəlxalq aləm bilməlidir ki, hesabına dünyanın 27 ölkəsindən «humanitar köməklik» sel kimi axan, «ASALA» üçün Arsak yardım fondu Yerevanın ictimai-təminat Dövlət Departamentində yerləşir. Elə bircə bu, bir çox sirlərdən xəbər vermirmi? Bu, Ermənistan dövlətinin terroru dəstəkləməsi demək deyilmi?!.

Qarabağda möhkəmlənən «ASALA» terrorçu təşkilatı xarici ölkələrdəki erməni katolik kilsəsindən, Hüquqlar Assosasiyasından, Ümumdünya Yevankelist Şurasından, Erməni Missionerlər Birliyindən, Erməni Milli Komitəsindən, Erməni cəmiyyətindən maddi və fiziki yardımlar alır. Həmçinin onun Amerikada, İtaliyada, Fransada, Suriyada, Livanda, İsveçrədə, Hollandiyada fəaliyyət göstərən bu təşkilatların hər birinin dövlət və hökumət səviyyəsində nüfuzları var. Onların nəzərində «ASALA» Böyük və müqəddəs Ermənistan» uğrunda özlərini oda atan, məhv etməyə hazır olan vətənpərvərlərin təşkilatıdır.

«Qarabağ» bəyannaməsi əsasında öz işlərini quran «ASALA»nın vaxtilə Rusiya Federasiyasının hökumət dairələrindən xeyir-dua alan «Sadval» ləzgi separatçı təşkilatı ilə əlaqələri də diqqəti cəlb edir.

Bu, biabırçılıq və Allahsızlıqdır ki, «ASALA» ilə iş birliyi quranlar arasında müsəlmanlar da var. Hətta 2003-cü ildə fevral ayının 23-də Səid Məhəmməd Rəvan Şeyx Əfzəlləddinə qoşulub Yerevana qayıtdı, oradan da Yerevan Beyrut reysilə Livana uçdu. «Texnik» Məhəmməd Səlim isə hələ də Qarabağdadır. Alacağı tapşırığı gözləyir. Kilsə suyu ilə qüsul edən bu «müsəlman qardaşımız» görünür, harada, hansı torpaqda olduğunu, kimlərlə çörək kəsdiyini hələ bilmir, ya da dərk etmirlər. Amma nökər üçün fərq etməz-ya düşmənə xidmət edib qulluq göstər, ya da dosta.

Nəticə etibarilə belə bir fikir yaranır: erməni olan yerdə «Böyük Ermənistan» ideyası da olmalıdır. İndi o, Gürcüstanın Çavaxetiya bölgəsində də ilmə atır.

Axalkalakın küçə və meydanlarında, mənzil-istismar idarələrində «Böyük Ermənistan» xəritəsi satılır. Şəhərdə artıq «İdain» adlı «ASALA»ya xidmət edən bir dəstə də yaranıb. («Dövlətçilik» qəzeti, N 09 (762), 29.06-05.07, 2003, s.).

Azərbaycan ərazisində (Dağlıq Qarabağ, Bakı, Sumqayıt, Gəncə, Naxçıvan) «Artsaxın azadlığı uğrunda komitə» adlı təxribatçı və terrorçu dəstə 1988-ci ildən fəaliyyətə başladı. Ona qədər bu dəstənin üzvləri xaricdə, xüsusən Fransa, Livan və İranda.., Amerikada xeyriyyəçi işlərlə məşğul olurdu. 1982-ci ildən həmin ölkələrin qanunları çərçivəsində fəaliyyət göstərən bu erməni təşkilatının adı belə idi: «Artsax ermənilərinin xeyriyyə fondu...» 1985-ci il iyul ayının 22-dən etibarən bu təşkilat özünün Leondakı (Fransa) iqamətgahında konfransını keçirir və «ASALA» erməni terror təşkilatına yardımçı orqan kimi çalışmaqla «Artsaxın azadlığı uğrunda komitə» kimi formalaşır.

Bu zaman təşkilatın qarşısında üç mühüm vəzifə qoyulur:

a) Azarbaycan müxalifətində və KİV-də özəklərinin təşkili.

b) Azərbaycanda erməni ilə qohumluğu olan ictimai-siyasi xadimlərlə əlaqələrin qurulması və yaxud bərpası.

c) Şərqi Avropada geniş fəaliyyət göstərən «Erməni azadlıq hərəkatı»nın Yuqoslaviya və Polşadakı qərargahları ilə əlaqələrin genişləndirilməsi.

«Artsaxın azadlığı uğrunda komitə» Dağlıq Qarabağı silahla təmin edən təşkilat olmalı idi. Əslində 1989-1990-cı illərdə bu missiyanı yerinə yetirməyə başlayan təşkilat polkovnik Vazgen Baqramoviç Sisliyanın rəhbərliyi ilə Yuqoslaviyadan ilk silah sursatı alır. Silahın Xankəndinə daşınma yolu isə belə idi: Belqrad (Yuqoslaviya) - Tehran (İran) - Xankəndi (Dağlıq Qarabağ). (İndi bu yol həm də narkobiznes yoludur). «ASALA» polkovniki 1998-ci il fevral ayının 4-də Livanda *«Əl-Qaida» nəşriyyatında «MDB ölkələrindəki dostlarım...» kitabının 26-cı səhifəsində yazır. «...Mən Bakıda 1988-ci ildə-düz on il qabaq oldum. Hətta Azərbaycan dilini gözəl bildiyimdən, yerli adamlardan seçilmirdim. 1990-cı il fevral ayının 21-də mən müxalifət partiyalarından birinin üzvü oldum... Mənim albomumda Bakı müxalifətində dayanmış liderlərlə çəkdirdiyim fotoşəkillər var. Onların hamısını tanıyırammı?)... Onlar torpaqdan çox, ailədən çox, hakimiyyət uğrunda vuruşmağa hazır olan məntiqsiz və aciz uşaqlardır. Dağlıq Qarabağa gəlincə, o torpaq artıq bizimdir».*[96]

1990-cı ilin yanvarında sovet ordusunun Bakıda törətdiyi qırğına Qərb faktiki olaraq haqq qazandırdı. Eləcə də ermənilərin törətdiyi cinayət əməlləri -Dağlıq Qarabağ səmasında mülki şəxsləri daşıyan vertolyotların vurulması, Xocalı şəhərinin yerlə-yeksan edilməsi, Bakı metrosunun partladılması terror aktları sayılmır. Bu cinayətlərin təşkilatçılarının və icraçılarının demək olar ki, hamısının adları məlumdur. Ermənistan xüsusi xidmət orqanları əməkdaşlarının Bakı metrosunun partladılmasında əli olduğu istintaqla sübuta yetirilmişdir, partlayışın ilhamvericisi Z.Balayan İnterpol xəttilə beynəlxalq axtarışdadır. Terrorizmin Ermənistanın Dağlıq Qarabağda silahlı separatçılıq hərəkatını dəstəkləməsi faktdır. Amma nə qədər qeyri-məntiqi olsa da, ABŞ Dövlət Departamentinin siyahısında heç bir erməni terror təşkilatının adı yoxdur. Ermənistanın dövlət səviyyəsində terroru dəstəkləməsi sübuta yetirilsə də, həm də Dağlıq Qarabağın Qərbin və Rusiyanın Ermənistana rnünasibəti tamam başqa cürdür; ABŞ Ermənistana səxavətlə humanitar və texniki yardım göstərir, həm də Dağlıq Qarabağ separatçılarını da unutmur, Rusiya isə Ermənistana hərbi-siyasi dəstəyini əsirgəmir. Dağlıq Qarabağ separatçılarının lideri, Ermənistanın indiki prezidenti R.Köçəryana Fransanın ali ordeni təqdim edilib..(!)

Terrorizmə ikili münasibət nəticə etibarı ilə bu beynəlxalq problemin həllinə xidmət etmir. Elə ABŞ-da baş vermiş son terror aktlarının təşkilatçılarına qarşı planlaşdırılan hərbi əməliyyata heç də bütün dövlətlər eyni münasibət bəsləmir. Terroru dəstəklədiyi ehtimal edilən bəzi ölkələr bu və ya digər iri dövlətin tərəfdarı çıxır. Belə bir şəraitdə beynəlxalq terrorizmlə mübarizədə dünya birliyinin səfərbərliyindən danışmaq hələ xeyli tezdir. Hazırda ilk növbədə Qərbin və NATO-nun birgə səylərindən söhbət gedə bilər. Bu səylər indiki mərhələdə bütövlükdə beynəlxalq terrorizmdən çox konkret terror aktının konkret təşkilatçılarına qarşı yönəldilmişdir.

Baxmayaraq ki, Ermənistan dövlət səviyyəsində terror aktlarını törədir, işğal etdikləri Azərbaycan torpaqlarında yeni-yeni terror yuvalır yaradır. Bunu hətta Ermənistanın rəsmi və müxtəlif partiya rəhbərləri də öz çıxışlarında etiraf edirlər. Bununla yanaşı ABŞ yenə də terrora qarşı mübarizədə ikili standartlı siyasəti davam etdirir.

Məsələn: Dekabr ayının 16-da (2002-ci il) ABŞ-ın İmmiqrasiya və Naturallaşdırma Xidməti (TNX) ölkəyə gəlib-getmənin yeni qaydalarım dərc etmişdi. Orada terrorçu təşkilatları dəstəkləməkdə şübhəli hesab edilən dövlətlərin sırasına Ermənistanın da əlavə edilməsi müsbət hal olduğu halda, bu həqiqət ikili standart siyasətinin qurbanı oldu. Belə ki, İNX-nin tətbiq etdiyi qaydaya əsasən, ABŞ-a gedən 16 yaşından yuxarı Ermənistanın kişi vətəndaşları yoxlanmalı, qeydiyyatdan keçməli və s. pasport qaydalarının tələbləri ödənilməlidir.

Lakin ABŞ Ədliyyə Nazirliyinin bu qərarı erməni lobbisini hərəkətə gətirdi. Bir gün sonra ABŞ adminstarsiyası bəyan etdi ki, Ermənistanın adı səhvən siyahıya salınıb. ABŞ da bu idxal təslimçilikdir ki, ABŞ bir tərəfdən terrora qarşı mübarizə və müharibə aparır, digər tərəfdən isə erməni terroruna dəstək verir.

Halbuki, dekabrın 25-də İrəvanda dərc edilən «Aravod» («Səhər») qəzeti də Ermənistanın sabiq milli təhlükəsizlik naziri, Ümummilli Erməni Hərəkatı Partiyasının Siyasi Şurasının üzvü David Şahnazaryana istinadən yazmışdır ki, ABŞ-ın dövlət sistemində bu addım bilərəkdən atılmışdır... Bu da bir siyasətdir - əvvəlcə siyahıya daxil edilir, sonra çıxarılır. D.Şahnazaryan saxtakarlıqla şərhə çalışır: «Məndə olan məlumata görə, terrorçuluqla şübhəli bilinən Əfqanıstan mənşəli bir neçə şəxs ABŞ-a Ermənistan Respublikasının pasportu ilə daxil olur. Mənə elə gəlir ki, ələlxüsus bu cür faktlar ABŞ-ı Ermənistanı xəbərdarlıq etməyə vadar edib. Onsuz da son illərdə bənzər addımlar dəfələrlə atılmışdı və nəticədə Ermənistan qara siyahıya düşmüşdür. Ona görə də mən bunu (yəni ABŞ-ın Ermənistanın adın əvvəlcə terrora dəstək verən dövlətlər siyahısına salmasını, sonradan isə çıxarmasını) anlaşılmazlıq deyil, incə siyasət hesab edirəm.»

---

[96] Ermənilər dünya terror təşkilatlarında-«Respublika», 01.10. 2002, № 226 (1562).

Göründüyü kimi dolayı yolla olsada D. Şahnazaryanın dilindən Ermənistanın terrorçu dövlət olduğu etiraf olunur, Azərbaycanın işğal olunmuş ərazilərinin terror yuvalarına döndərildiyi təsdiq olunur.

Həmçinin terrorçuluqda şübhəli sayılan əfqan mənşəli şəxslərə Ermənistan pasportunun verilməsi o deməkdir ki, həqiqətən də terrorçular Dağlıq Qarabağda yuva salmışlar və bu artıq ABŞ-a məlumdur.

Şimali Atlantika Alyansı terrorizmin yuvalarını dağıtmağa hazırlaşır. Gözlənilən antiterror əməliyyatı ümumbəşəri bəlanın köklərinin məhv edilməsində ilk ciddi addım ola bilər. Çünki beynəlxalq terrorizmin şəbəkəsi olduqca genişdir. Yalnız problemə bütövlükdə dünya birliyinin obyektiv münasibəti onun tamamilə aradan qaldırılmasına şərait yaradar.[97]

Bununla yanaşı yadda saxlamaq lazımdır ki, daha amansız terrorçular isə Ermənistandadır.

1992-ci ilin fevralında Xocalıda vəhşi erməni terrorçuları 613 nəfər dinc sakini qətlə yetirdilər. 1.275 nəfəri əsir apardılar. Yeddi ailəni büsbütün məhv etdilər. 230 ailəni başsız qoydular. 200 nəfəri əlindən-ayağından məhrum etdilər. İnsanların neçə illərdən bəri məskən saldığı şəhəri yerlə-yeksan etdilər.

Bu qanlı faciədən düz on yeddi il keçir. Bu müddət ərzində həsrətdən, intizardan, haqlı gileydən Xocalıda daşlar da göyərib.

Demokratik dəyərlərin müdafiəçisi adlanan Amerika terrorçuluğa qarşı mübarizə ideyasını irəli sürdü. Ölkəsinə əl uzadan terrorçunun əlini kəsmək istəyi ilə az qala onun ayağı dəydiyi bütün dövlətləri bombalatmağa hazırdır. Dünya dövlətləri də bunu alqışlarla qarşılayır.

Həmişə gecikmələrimizdən istifadə edən erməni bu dəfə də Xocalı faciəsindən çəkilən kadrlardan özümüzə qarşı istifadə edir, dünyaya yayır ki guya bu onların şəhidləridi. Mərhum Çingiz Mustafayevin, Seyidağa Mövsümovun, Tahir Qarayevin çəkdikləri kadrlar erməni qəddarlığının ən canlı sübutu olduğu halda, biz bu sübut-dəlildən istifadə edə bilirikmi? Yox! Çünki indi çoxları bu qanlı cinayəti törədənləri dünyaya tanıtmaqdan daha çox bu qanlı cinayətə rəvac verənləri siyasi dustaq kimi tanıtmağa çalışır. Tarixin ibrət dərsi hər zaman bizlərə örnək olmalıdır. Bildiyimiz kimi demokratik bir dövlət-Amerika işğalçı Ermənistana hər il yardım etdiyi bir vaxtda Azərbaycanı bu yardımdan məhrum etmişdi. ABŞ-dakı senatorların ciddi-cəhdi sayəsində bu ədalətsizlik neçə il davam eləsə də nəhayət, Azərbaycanın siyasi xadimlərinin, diplomatlarının geri çəkilməməsi nəticəsində 2003-cü ilin yanvarın 25-də prezident Buş 907-ci düzəlişin dayandırılması haqqında sənədə imza atdı. Azərbaycan torpaqlarında işğala məruz qalmasına rəvac verən Rəhim Qazıyev, Ayaz Mütəllibov kimilərinin müdafiəçisinə çevrilir.

Həmin gün Ayaz Mütəllibov «Panika yaratmayın, Xocalıda cəmi iki nəfər həlak olub» demişdi. Burnundan uzağı görməyən «Ölkə başçısı»nın bu səhvi Azərbaycan xalqına baha başa gəldi; öz dərdimizə yalan dedik. Ayaz Mütəllibov isə Bakıdan daha çox Moskvaya xidmət etdiyi üçün Moskvaya da getdi. İndi Avropa Şurasına müraciət edib ölkəmizə qayıtması üçün imza topladığını bəyan eləyən Ayaz Mütəllibov bir şeyi bilməlidir. O imzaların içində heç bir Xocalının imzası ola bilməz. Çünki onları sizin yenidən Bakıya qayıtmağınız yox, bu işdə əli olanların cəzalandırılması düşündürür.

Qardaşlar, atalar «Ziyanın yarısından» deyib. Gəlin bu gün bütün qüvvəmizi düşmənlərimizi dünyaya tanıtmaq, haqqımızı tələb etməyə sərf edək. İşğalda olan torpaqlarımızı azad edək, ondan sonra vətənə naxələf çıxanların bağışlanması barədə düşünək.[98]

**Dost-dostunu arxadan vurması ən dəhşətli faciədir. «Sadval»ı ermənilər dəstəklədi.** «Sadval» separatçı ləzgi təşkilatının onlarla üzvü erməni xüsusi xidmət orqanlarında təlim keçir.

Erməni terrorçu təşkişlatları dünyadakı geniş şəbəkələri ilə tanınırlar. Təqribən 70-ci illərin əvvəllərindən başlayaraq başda «ASALA» olmaqla terrorçu strukturlar dünyanın bir sıra nöqtələrində türk diplomatlarına qarşı terror fəaliyyəti yürüdüblər. Tezliklə bu istiqamətdə onlarla təşkilat yaranır və hətta keçmiş SSRİ xüsusi xidmət orqanları tərəfindən dəstəklənirdi. Getdikcə genişlənən şəbəkə tək türk diplomatları ilə deyil, «erməni soyqırımı»nın qəbul edilməsi üçün şantaja əl ataraq digər ölkələrin vətəndaşlarına qarşı təcavüzə başlayır. Bu, ASALA-nın özündə belə narazılığa səbəb olub və parçalanma ilə nəticələnib.

Hələ ki, təsdiqlənməmiş versiyaya görə, mərhum akademikimiz Ziya Bünyadovun da qətlə yetirilməsində «Hizbullah» vasitəsilə ASALA-nın iştirakı olub. Belə ki, bu yaxınlarda Yerevandakı arxivlərdə ASALA-nın akademiklə maraqlanmasına dair faktlar aşkarlanıb. 1980-ci illərin sonlarında Ermənistan DTK-sı Z.Bünyadovun çıxışlarından İran ermənilərinin narahatçılıq keçirməsi və işə ASALA-nın qarışması haqqında məxfi məlumat əldə edib.

Genosid siyasəti və Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmələrlə yanaşı, Ermənistan olaraq cəbhə xəttindən yüzlərlə kilometr aralıda mülki şəxslərə qarşı, terror və diversiya aktları həyata keçirməkdə davam edir. Bunun nəticəsində isə yüzlərlə adam həyatını itirir, ömürlük əlil olur.

Məhkəmə dinləmələri və istintaq nəticəsində erməni terrorçu aktlarının, erməni terrorçu təşkilatlarının fəaliyyəti və onlara aid strukturların həyata keçirməsi və Ermənistan dövlətinin xüsusi xidmət orqanlarının isə onlara dəstək verməsi haqqında kifayət qədər material toplanıb. Mövcud faktlardan aşkar surətdə görünür ki, Ermənistanda terrorçuluq dövlət səviyyəsində qayğı görür. Bu məqsədlə hətta üçüncü ölkənin vətəndaşları, hərbi əsirlər və girovlardan istifadə olunur. Burada Azərbaycanda yaşayan etnik qrupların nümayəndələrinə xüsusi önəm verilir. Bir neçə fakta nəzər yetirək:

- 16 sentyabr 1989-cu il - Tbilisi-Bakı marşrutu ilə hərəkət edən avtobus partladılıb. 5 nəfər ölüb, 25 nəfər yaralanıb.
- 10 avqust 1990-cı il - Tbilisidən Ağdama gələn avtobus qoyulmuş partladıcı nəticəsində partladılıb. 20 nəfər həyatını itirib, 30-u yaralanıb.

Xatırladaq ki, bu aktların icraçıları Avanesyan A.M. və Tatevosyan M.M. həbs olunublar. Müəyyən olunub ki, bu terrorçu qrup 1991-ci ilin 1 iyulunda Ağdam-Tbilisi marşrutu ilə hərəkət edən avtobusda partlayış törətməyi planlaşdırırmış.

---

[97] Z.Quliyeva. «Düna terrorçuluğa qarşı mübarizə aparır» - «Azərbaycan» 5.03.2002.
[98] Z.Quliyeva. «Düna terrorçuluğa qarşı mübarizə aparır» - «Azərbaycan» 5.03.2002.

- 30 may 1991-ci il - Xasavyurd stansiyası (RF Dağıstan Respublikası) yaxınlığında Moskva-Bakı qatarı partladılıb. 11 nəfər ölüb, 22 nəfər yaralanıb.

- 31 iyul 1991-ci il - Dəmirtau stansiyası (Dağıstan Respublikası) yaxınlığında Moskva-Bakı sərnişin qatarında partlayış baş verib. 16 nəfər həyatını dəyişib, 20 nəfər yaralanıb.

- 8 yanvar 1992-ci il - Krasnovodskdan Bakıya gələn dəniz bərəsi partladılıb. 25 nəfər həlak olub, 88 nəfər ağır xəsarət alıb.

- 28 fevral 1993-cü il - Qudermes stansiyası yaxınlığında (Şimali Qafqaz) Kislovodsk-Bakı sərnişin qatarı partladılıb. 11 nəfər ölüb, 19 nəfər yaralanıb.

- 2 iyun 1993-cü il - Bakı dəmiryolu vağzalında sərnişin qatarı partladılıb. Dövlətə maddi ziyan vurulub. Partlayışın icraçısı Rusiya vətəndaşı İ. Xatkovski Bakıda həbs olunmuş və etiraf etmişdir ki, o Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Can Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək cəsusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərilmiş, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı almışdır. AR MTN və Rusiya Federal Əks-Kəşfiyyat Xidmətinin keçirdiyi birgə tədbirlər nəticəsində C. Ohanesyan, onun müavini mayor A. Qaloyan, Rusiya Federal Əks-Kəşfiyyat Xidmətinin əməkdaşı mayor B. Simonyan 1994-cü il mayın 13-də Moskva şəhərində tutulmuşlar. Həmin qrup tərəfindən 1991-1994-cü illər ərzində Rusiya ərazisindən Bakıya gələn dəmiryolu sərnişin qatarlarının partladılması və nəticədə 47 adamın həlak olması, 85 nəfərin isə yaralanması istintaqla tam sübuta yetirilmişdir.

Cinayotkar İ.A.Xatkovski 22 iyul 1994-cü ildə AR Ali Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla 8 il müddətinə azadlıqdan məhrum edilmişdir.

- 1 fevral 1994-cü il - Bakı dəmiryolu vağzalında terror aktı nəticəsində 3 nəfər ölüb, 20 nəfər yaralanıb.

- 9 fevral 1994-cü il - Xudat stansiyasında yük vaqonu partladılıb.

19 may 1994-cü il - Bakı metropoliteninin «20 Yanvar» stansiyasında törədilən partlayış nəticəsində 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. İstintaq müəyyən edib ki, partlayış Ermənistanın kəşfiyyat orqanları tərəfindən terrorçu-separatist təşkilat - «Sadval» vasitəsi ilə həyata keçirilib. Məhkəmədə sübut olunub ki, 1992-ci ildə Ermənistanın xüsusi xidmət orqanları «Sadval» rəhbərliyi ilə Azərbaycan ərazisində terror əməliyyatlarının maliyyələşdirilməsi haqqında razılığa gəliblər. 1992-ci ildə Ermənistandan Dağıstana «Sadval»çılar üçün vertolyotlarla silah-sursat, partlayıcı maddələr aparılıb. Nairi və Arzni rayonlarında Ermənistanın xüsusi xidmət orqanları tərəfindən hərbi təlim-məşq bazaları yaradılıb. Bu bazalarda erməni təşkilatlarının nəzarəti ilə 100-ə qədər «Sadval»çı hərbi təlim keçib. Onlardan 30-u Bakı metropoliteninin «20 Yanvar» stansiyasındakı partlayışına görə məsuliyyətə cəlb olunmuşdur.

-13 aprel 1994-cü il- »Dağıstanın ocaqları» stansiyasında sərnişin qatarı partladılıb, 6 nəfər həyatını itirib, 3 nəfər ağır yaralanıb.

- 3 iyul 1994-cü il - Bakı metropoliteninin «28 May» və «Gənclik» stansiyaları arasında qatarın partladılması nəticəsində 14 nəfər həlak olub, 54 nəfər müxtəlif dərəcəli yara alıb. Bu terror aktını Azərbaycan vətəndaşı, millətcə ləzgi olan Azər Aslanov törədib. A.Aslanov hərbi əməliyyatlar zamanı əsir götürülərək erməni xüsusi orqanlarına cəlb olunub. İstintaq vasitəsi ilə müəyyən olunub ki, A.Aslanovun «hazırlanması»nda erməni separatizminin ideoloqlarından biri Zori Balayan və Ermənistanın keçmiş prezidenti Robert Köçəryan şəxsən iştirak ediblər.

1994-cü ilin mayında əldə olunmuş atəşkəslə tək aktiv hərbi əməliyyatlar deyil, həm də terror fəaliyyətinə də son verilib. Bu, bir daha sübut edir ki, birbaşa hərbi təcavüz və terror Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi siyasətdir. Sülh tənzimləmə prosesinin süni tənzimlənməsi göstərir ki, hərbi əməliyyatlarının başlanılması təqdirində Ermənistan yenidən dövlət siyasətinin komponenti olaraq terrora əl atacaq. Yuxarıda göstərilən faktlar bütün situasiyanın cüzi hissəsini eks etdirir. Dünyada geniş erməni terroru şəbəkəsi mövcuddur və onun dövlət səviyyəsində dəstəklənməsi göstərir ki, Ermənistan ən son anında belə, bu yoldan imtina etməyəcək.[99]

Araşdırmalara görə, Ema Naçaryan (Sosial-Demokrat Partiyasının lideri), Mariya Nersesyan («Şamiranı»-qadın hərəkatının sədri), Artur Baqdasçaryan («Qanun» Partiyasının sədri), Paruyi Ayriyan (Milli özünü idarəetmə Birliyinin sədri), Ruben Nınaçanyan (Azad erməni missiyasının sədri), Vahan Avakyan (Erməni İnqilab Federasiyasının sədri)... 2002-ci il mayın 24-də «Yerevan məşvərəti»ndə bir qətnaməyə imza atdılar ki, qondarma Artsax (Xankəndi) Yerevan kimi müstəqil bir erməni respublikasının paytaxtı olmaq şansına malikdir. Ermənilərin siyasi liderlərindən olan Ruben Nınacanyan isə Sünik yaşayış məntəqəsindəki çıxışlarının birində iddia etdi ki, prezident Köçəryan Dağlıq Qarabağı bu günlərdə müstəqil respublika kimi tanıyacaq və ilin sonunda, dekabrın 22-də müstəqilliyinin 10 illiyini qeyd edəcək.

R.Nınacanyan bunu da elan etdi ki, artıq Dağlıq Qarabağ üçün müstəqil erməni respublikası kimi bütün dövlət atributları, o cümlədən gerbi, himni, bayrağı, pul vahidi də hazırlanıb.

Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ zonası nəzarətsiz zona elan edildiyindən bütün qanunlar bu fakt qarşısında acizdir. Və terrorizm Ermənistanın dövlət ideologiyası olduğundan işğal edilmiş Dağlıq Qarabağ da bu ideologiyanın çərçivəsinə salınıb. Məlumata görə, dünyanın 8 ölkəsinə məxsus terrorçu dəstələr bu çərçivədə özlərinin təlim düşərgələrini yaradıblar. Onlardan bəziləri haqqında qeyd etmək olar:

1.«Vətən qığılcımları» (Çin Xalq Respublikası, başçı Əbdülqafar Şəhriyar). Ərazi dairəsi: Qubadlı rayonu, Qal və Çərəli ərazisi (cənub istiqamətində).

2.«Kürd Konqresi» (başçı Öcalan nəslindən olan Zeynal Öcalan). Ərazi dairəsi: Laçın rayonu, Zabux kəndi (cənub istiqaməti).

---

[99] İsmət Miroğlu (professor). Qərbin iç üzü həqiqət güzgüsündə.- “Türkiyə” qəzeti, 21.06.1993, “Vətən Həsrəti”, № 13 (14), 2.07.1993.

3. «Xalq Azadlıq cəbhəsi» (Suriya, başçı Zamir Əl-Qisse) Ərazi dairəsi: Xocavənd, Qırmızı Bazar ərazisi (Qərb istiqaməti).

Separatçılar dünyanın səkkiz ölkəsində, o cümlədən Qarabağda terrorçu düşərgə yaradıblar.

Naxçıvana səfəri zamanı ölkə başçısı Ermənistanda terrorçu qrupların mövcudluğu barədə də danışdı. Heydər Əliyev dedi ki, belə qruplar Azərbaycanın işğal olunmuş ərazilərində də fəaliyyət göstərir, terrorçuların narkotik maddələrin yerləşdirilməsində və daşınmasında da rolları var.

Qarabağda terrorçu dəstələr mövcuddur. R. Novruzoğlunun sözlərinə görə, terrorçu qruplar xüsusi məktəb və təlimlər keçir. Separatçı ermənilərin əksəriyyəti də həmin terror təşkilatlarının üzvüdür: «Belə məktəblərdə, 1989-cu il iyunun 14-dən 1991-ci ilin mayın 19-dək müəyyən fasilələrlə Ermənistanın eks-baş naziri Vazgen Sərkisyanla, bugünkü prezident (o vaxt Ermənistan milli azadlıq hərəkatının lideri, «ASALA» üzvü) Robert Köçəryanla, bədnam yazıçı Zori Balayanla, Dağlıq Qarabağın Ermənistandakı nümayəndəsi Karen Mirzoyanla, Yerevan Strateji və Milli Araşdırmalar mərkəzinin icraçı direktoru Hrayr Hakopyanla, diplomat Naira Melkumyanla... birgə «təhsil alıb»lar (Vaşinqton. Milli Arxiv. 2001-ci ildə MK tərəfindən təqdim olunmuş materiallardan çıxarış. Texas ştatı Ostina şəhəri. Lindon Conson adına kitabxana. 2001-ci il FTB-in (Federal Təhlükəsizlik Tədqiqatı) materiallarından çıxarış).

4.«Vətən qığılcımları» (Çin Xalq Respublikası, başçı Əbdülqafar Şəhriyar). Ərazi dairəsi: Qubadlı rayonu, Qal və Çərəli ərazisi (cənub istiqamətində).

5.«Kürd Konqresi» (başçı Ocalan nəslindən olan Zeynal Öcalan). Ərazi dairəsi: Laçın rayonu, Zabux kəndi (cənub istiqaməti).

6. «Xalq Azadlıq cəbhəsi» (Suriya, başçı Zamir Əl-Qisse) Ərazi dairəsi: Xocavənd, Qırmızı Bazar ərazisi (Qərb istiqaməti).

1999-cu il iyulun 26-da Ermənistan Təhlükəsizlik Şurasının iclasında Ümummilli Erməni İnqilab Federasiyasının məsul katibi Qaham Manukyanın bu istiqamətdə hazırlanmış məktubu haqqında məlumat verildi. Doktor Q. Manukyan məktubunda təklif edir ki, Dağlıq Qarabağ ərazisindəki bu «qardaş təşkilatlarının» mərkəzləşdirilmiş Koordinasiya Şurası yaradılsın və bu şuranın baş qərargahı Xankəndində yerləşdirilsin (Livan. Özəl Xəbərlər Agentliyi: «AVM» «Ab-VVikala al Duvaliya». Məlumatın yayılma tarixi, 1999. VIII-4. Məlumatı İranın 2-ci telekanalı, 1999. VIII-9-da şərh edib)».[100]

## ERMƏNİ TERRORUNUN AZƏRBAYCANDA NƏTİCƏLƏRİ

Uzun müddətdən bəri Ermənistanın hərbi təcavüzünə və vaxtaşırı erməni terroruna məruz qalan Azərbaycan Respublikası öz haqq səsini, reallıqları dünya ictimaiyyətinə çatdırmağa, beynəlxalq birliyin və təşkilatların ədalətli dəstəyini qazanmağa çalışır. Avropa Şurasının Parlament Assambleyasının 2001-ci il sentyabr ayındakı sessiyasında Azərbaycan nümayəndə heyətinin başçısı cənab İlham Əliyevin çıxışında səslənən məqamlar və göstərilən konkret faktlar bu istiqamətdə ən əsaslı və təsirli tədbirlərdəndir. ABŞ-da baş vermiş hadisənin prizmasından Azərbaycana qarşı yönəldilən erməni terrorizmi indi daha aydın görünməyə və dünya tərəfindən anlanmağa başlamışdır. Yeri gəlmişkən, tamamilə yeni bir fakta da diqqət yetirilməsi məqsədəuyğun olardı. Məlum olduğu kimi, 2001-ci ilin ortalarından başlayaraq, mütəşəkkil cinayətkar dəstə tərəfindən terror aktları, inzibati orqanlara silahlı basqınlar, terror, qətllər yolu ilə respublikanın şimal-qərb bölgəsini dövlətin nəzarətindən çıxarmaq üçün çoxsaylı cəhdlər göstərilmiş, kriminogen durumun gərginləşməsinə təsir edən ağır cinayət hadisələri törədilmişdir. Əhalini qorxutmaq, diqqəti özlərinin zorakı - tamahyönlü cinayətkar niyyətlərindən yayındırmaq, bu hərəkətlərə etnik qarşıdurma xarakteri vermək məqsədilə ədavət toxumu səpən vərəqlər də yayılmış, bir tərəfdən Şeyx Şamilin büstü partladılmış, digər tərəfdən Azərbaycanlılara məxsus əmlak yandırılmışdır. Cinayətkar dəstənin əksər üzvləri tutulmuşdur. Diqqəti cəlb edən əsas məqam isə onlardan bəzilərinin Ermənistanın xüsusi xidmət orqanları ilə əlaqəsinin olması və Dağlıq Qarabağdakı xüsusi təlim mərkəzlərində hazırlıq keçməsidir.

Ötən əsrin 60-cı illərində yenidən fəallaşmağa başlayan erməni millətçilərinin terrorçuluq hərəkətləri 70-ci illərdən başlayaraq daha intensiv xarakter almışdır. Faktiki olaraq onlar bütün terror mərhələlərini keçərək, beynəlxalq terrorizmin ən yeni tarixinin yaradıcılarından olmuşlar.

1973-cü ildən etibarən dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatlarının xronikası və təfsilatı belədir; «Erməni genosidinin qisasçıları»; «Erməni gizli ordusu» (ASOA), «Ermənistanın azadetmə erməni gizli ordusu» (ASALA), «Erməni azadlıq hərəkatı» (AOD), «Erməni gənclər birliyi». Ümumiyyətlə, MDB məkanında 6, Avropada 12, Asiyada 8, Amerikada 14, Afrikada 3 erməni terror təşkilatı digər adlar altında 43-dən çox erməni terror təşkilatı yaradılmışdır. Bu təşkilatların əsas məqsədi dünya dövlətlərini terror təhlükəsi qarşısında qoymaqla» Böyük Ermənistan»ın yaradılmasıdır.

Əlavə məşğuliyyətləri: uşaq və qadın oğurluğu, silah alveri, narkoticarət, kütləvi qırğın silahları komponentlərinin təşkili və «qara bazar» lara çıxarılmasıdır.

Erməni terror təşkilatları vahid kordinasiv mərkəzindən idarə olunurlar. Hər bir terrorçu qrupun öhdəliyi, tapşırığı mövcuddur. Məsələn Dəməşqdə (Suriya) «Dəməşq erməniləri hərəkəti» Türkiyəyə qarşı formalaşıb və bu erməni silahlı təşkilatına «Miraj» ləqəbli Azad Asaturyan başçılıq edir.

Hətta məlumata görə «Dəməşq erməni hərəkatı» üzvlərindən 17 nəfəri Azərbaycan torpaqlarının, Dağlıq Qarabağın işğalında şəxsən iştirak edib. Bu barədə 1992-ci ildə rus hərbi kəşfiyyatçısı, polkovnik V. Savelyevin BMT-yə ünvanlanmış (1996-cı il) məktubunda da qeyd olunur.

[100] «Terrorizm Ermənistanın dövlət ideologiyasıdır». - «İki sahil» qəzeti, 20.06.2002, N 115 (3119).

Rövşən Novruzoğlunun araştırmalarından aydın olur ki, Ermənistanda bu gün fəaliyyət göstərən 246 qeyri-hökumət təşkilatından 63-ü ölkənin kəşfiyyat idarələri ilə birgə işləyirlər.

1973-1987-ci illərdə Amerika, Avropa və Asiya qitələrinin bir sıra ölkələrində Türkiyə vətəndaşlarına və nümayəndəliklərinə qarşı ermənilər tərəfindən ardıcıl surətdə çoxsaylı terror aktları törədilmişdir. Bundan başqa onlar özlərini tanıtmaq və maddi maraq naminə digər dövlətlərin xüsusi xidmət orqanlarının, habelə bəzi ərəb ölkələrində fəaliyyət göstərən terrorçuların da sifarişlərini yerinə yetirərək, müxtəlif vaxtlarda və yerlərdə terror aksiyaları həyata keçirmiş, «kamikadzelik» də etmişlər.

80-ci illərdən etibarən Azərbaycan da erməni terrorizminin hədəfinə çevrilmişdir. 1984-cü ildə Bakı şəhərində 106 saylı marşrut avtobusunun partladılması nəticəsində bir qadın (2 uşaq anası) ölmüş, bir neçə nəfər isə yaralanmışdır. Respublikanın hüquq-mühafizə orqanları tərəfindən görülən tədbirlər nəticəsində bu cinayəti törədən erməni terroristi Vartanov ifşa olunmuşdur. Bu ağır cinayət hadisəsi də erməni terror təşkilatlarının Azərbaycanın ərazisində faciəli cinayətlərinin təməli qoyulmuşdur. 1988-ci ildən başlayaraq, erməni terroristləri tərəfindən Azərbaycanın ərazisində törədilmiş təkcə terrorçuluq aktları zamanı 2 mindən artıq dinc sakin həlak olmuşdur.

**Ermənistanın xüsusi xidmət orqanları və erməni ekstremistləri tərəfindən aşağıda göstərilən bir sıra terrorçuluq aksiyaları hazırlanmış və həyata keçirilmişdir. Məsələn:**

1. 27 may 1989-cu ildə Yerevandan Bakıya gedən qatarda Ermənistan vətəndaşı V.Minosyandan partlayıcı qurğu görürülmüşdür. O, izahatında Bakıda terror həyata keçirmək niyyətində olduğunu bildirmişdir. Artıq həmin ilin iyul ayının 24-də Azərbaycan dəmiryolunun Kərçivan stansiyasında qatar partladılmışdır.

2. 16 sentyabr 1989-cu ildə Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, nəticədə 5 nəfər həlak olmuş, 25 nəfər isə yaralanmışdır.

3. 07 oktyabr 1989-cu ildə Xankəndi şəhərinin cənub hissəsində yerləşən Xəlifəçay çayı üzərində avtonəqliyyat körpüsü partladılmışdır. Cinayətkar A. Abramyan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri üzrə Məhkəmə Kollegiyasının 29 aprel 1992-ci il tarixli qərarı ilə əmlakı müsadirə edilməklə 15 il həbs cəzasına məhkum olunmuşdur.

4.19 yanvar 1990-cı ildə Ermənistanın Ararat rayonunun Yeraxs kəndi tərəfindən Naxçıvan MR-nın Şərur rayonunun Sədərək qəsəbəsi əvvəlcə toplardan atəşə tutulmuş, sonra isə silahlı basqın edilmişdir. Nəticədə qəsəbədəki şərab zavodu, məhsul dolu iki çən partladılmış, obyektlər yandırılmış, 5 yaşayış evi dağıdılmış, 6 nəfər dinc azərbaycanlı öldürülmüş, 23 nəfər isə yaralanmışdır.

5.13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci kilometrində Şuşa-Bakı reysi ilə hərəkət edən marşrut avtobusu partladılmış, nəticədə 13 nəfər yaralanmışdır.

6.11 iyul 1990-cı ildə Ağdərə rayonunun Qetavan və Çiraqkər kəndləri arasında hərbi naryadın müşaidəsi ilə Kəlbəcər şəhəri istiqamətində adamları daşıyan və xalq təsərrüfatı malları yüklənmiş maşın karvanına basqın edilmiş, nəticədə 3 nəfər həlak olmuş, 23 nəfər isə yaralanmışdır. İstintaq zamam müəyyən edilmişdir ki, terror aksiyasını Xankəndi şəhər sakinləri-»Napoleon» ləqəbli Ayriyan Arkadi Abramoviç və Babayan Samvel Andranikoviç törətmişlər. Onlar 1990-cı il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli və Kosalar kəndi arasında 3 nəfər azərbaycanlını qətlə yetirmişlər. Hər iki cinayətkar həbs olunmuş, 1992-ci il iyunun 19-da ölüm hökmünə məhkum edilmişlər. S. Babayan 1992-ci ilin iyulunda azərbaycanlı girov və əsirlərlə dəyişdirilmişdir (o, 1993-1999-cu illərdə qondarma DQR-nin müdafiə naziri olmuş, «prezident» A. Qukasyana qarşı sui-qəsddə təqsirli bilinir).

7. 11 iyul 1990-cı ildə Mardakert rayonunda bir qrup erməni terrorçusu tərəfindən Mirbəşir (Tərtor) rayonundan Kəlbəcərə gedən avtomaşın karvanı silahlı basqına məruz qalmış, nəticədə Zərdab, RDİŞ-nin rəis müavini Ş. Şükürov, hərbçi S. Mezentsev, vətəndaş Ç. İsmayılova öldürülmüş, 24 nəfər isə yaralanmışdır.

8.10 avqust 1990-cı ildə «Tibilisi-Ağdam» marşrutu üzrə hərəkət edən sərnişin avtobusu partladılmış, nəticədə 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Görülmüş tədbirlər nəticəsində terror törətmiş qrupun üzvləri həbs olunmuş, cinayətin təşkilatçısı A.Avanesyan AR AM-nin 27 may 1992-ci il tarixli qərarı ilə ən yüksək cəzaya - güllələnməyə, həmin qrupun üzvü M.Tatevosyan isə 15 il həbs cəzasına məhkum olunmuşdur.

İstintaq zamanı məlum olmuşdur ki, cinayətkarlar 1991-ci ilin iyulun 17-də «Ağdam-Tbilisi» marşrutu ilə hərəkət edən sərnişin avtobusunu da partlatmağı planlaşdırmış, lakin özlərindən asılı olmayan səbəbdən aksiyanı həyata keçirə bilməmişlər.

9. 15 sentyabr 1990-cı ildə Xankəndi şəhərində erməni terrorçu qrupu DQMV radio-televiziya mərkəzini partlatmışdır.

10. Ermənistan ərazisində fəaliyyət göstərən «Yerqraparx» terrorçu təşkilatının rəhbərliyinin göstərişi ilə onun üzvü M. Qriqoryan Eçmiədzin rayon sakinlərindən ibarət terrorçu qrup yaradaraq 1990-cı ilin noyabr ayında Azərbaycan ərazisinə göndərmişdir. Terror aktlarını həyata keçirməyə çalışan qrup Azərbaycanın hüquq mühafizə orqanları tərəfindən zərərsizləşdirilmişdir.

11. 9 yanvar 1991-ci ildə Laçın-Şuşa yolunun 5-ci kilometrində erməni terrorçuları tərəfindən «Molodyoj Azərbaydjana» qəzetinin müxbiri Salatın Əsgərova, hərbi qulluqçular - podpolkovnik S.Larionov, mayor İ.İvanov və serjant İ.Qoek qətlə yetirilmişlər. Cinayətkarlar - A.Mkrtçyan, Q.Petrosyan, A.Manaqasaryan, Q.Arutunyan və Q.Arustamyan 1993-cü il martın 23-də AR AM-nin qərarı ilə ən yüksək cəzaya - güllələnməyə məhkum edilmiş, terrorçu qrupun digər üzvləri isə müxtəlif müddətlərə azadlıqdan məhrum olunmuşlar.

12. 12 yanvar 1991-ci ildə Yevlax-Laçın yolunun 103-cü kilometrində 5471 saylı hərbi hissəsinin avtomaşınına silahlı basqın edilmiş, SSRİ DİN-də DQBİ-nin əməkdaşı polkovnik V. Qriqoryev öldürülmüşdür.

13. 19 yanvar 1991-ci ildə Xankəndi şəhərində A.Bağmanyan, S.Bağmanyan və A.Antonyan tərəfindən DQMV DİN-nin rəisi general-mayor V.Kavalyovu qətlə yetirmək məqsədilə sui-qəsd təşkil edilmişdir. Təsadüf nəticəsində ona xətər

yetirilməmişdir (20 noyabr 1991-ci ildə vertolyotun vurulması ilə əlaqədar məlum dəhşətli hadisə zamanı o da həlak olmuşdur).

14. 14 mart 1991-ci ildə Əsgəran rayonunun Xramort kəndi yaxınlığında Ağdam-Şuşa marşrutu ilə hərəkət edən avtobus erməni terrorçuları tərəfindən avtomatlardan atəşə tutulmuş, nəticədə 3 nəfər ölmüş, 4 nəfər isə yaralanmışdır.

15. 07 aprel 1991-ci ildə Gorus rayonu tərəfindən Qubadlı rayonunun yuxarı Cibikli kəndinə silahlı basqın nəticəsində hərbi komendantın müavini Y.Babək, vətəndaş Ş.Məmmədov və Y.Nəzərov öldürülmüş, 4 nəfər yaralanmışdır.

16. 18 aprel 1991-ci ildə Füzuli rayonunun Aşağı Divanalılar kəndində milis işçilərindən və hərbçilərdən ibarət naryada silahlı basqın edilmiş, nəticədə 3 nəfər öldürülmüş, 2 nəfər isə yaralanmışdır.

17. DQMV-nin xüsusi rayonunun hərbi komendantı general V. Safonov Azərbaycan-erməni münaqişəsində obyektiv mövqe tutduğuna, erməni terrorçularının tərkisilah edilməsi və zərərsizləşdirilməsi sahəsində fəaliyyətinə görə erməni terrorçuları onun qətlə yetirilməsi barədə qərar qəbul etmişlər. 08 aprel 1991-ci il tarixdə erməni millətçiləri bu məqsədlə terror aktı keçirərkən səhvən Rostov-Don şəhərindən Şimali Qafqaz və Zaqafqaziya üzrə Daxili Qoşunlar İdarəsinin rəis müavini polkovnik V. Blaxotini qətlə yetirmişlər. RF Rostov vilayət məhkəməsinin qərarı ilə S. Baqmanyan 12 il, A.Baqmanyan 15 il, A.Antonyan 15 il, K.Akopyan 4 il və K. Yeqiyan 2 il 9 ay müddətinə azadlıqdan məhrum edilmişlər.

18. 18 aprel 1991-ci ildə Xocavənd rayonunun «Amaras» kilsəsi yaxınlığında Q. Sarkisyanın başçılıq etdiyi erməni terrorçularının silahlı basqını nəticəsində milliyyətcə azərbaycanlı olan 3 nəfər milis işçisi həlak olmuşdur. Əsgəran qəsəbəsi ilə Ağdam şəhəri arasındakı körpü də 04.01.90-cı il tarixdə həmin qrup tərəfindən partladılmışdır.

19. 01 may 1991-ci ildə Bakı-Tiflis sərnişin qatarında Ermənistanın Noyemberyan rayon sakini S. Axnazaryan tutulmuş, ondan 16 güllə, fin bıçağı, Mingəçevir və Şəmkir SES-ləri, habelə digər obyektlər qeyd edilmiş xəritələr götürülmüşdür.

Keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində müəyyən edilmişdir ki, Noyemberyan rayonunda yerləşən təxribatçılıq tədris mərkəzində xüsusi təlim keçmiş S. Axnazaryanın rəhbərliyi altında 5 nəfərdən ibarət qrup Binə hava limanında terror aksiyası keçirmək üçün Bakı şəhərinə gəlmişdir. Lakin hava limanı gücləndirilmiş rejimdə mühafizə olunduğu üçün nəzərdə tutulmuş aksiyanı həyata keçirə bilməmişlər.

20. 09 may 1991-ci ildə Xankəndində erməni quldurları tərəfindən DQMV üzrə Azərbaycan Respublikasının Təşkilat komitəsinin üzvü V.Polyaniçko və başqalarına qarşı təşkil olunmuş sui-qəsd baş tutmamışdır. Buna baxmayaraq daim izlənilən V.Polyaniçko 1993-cü il avqustun 1-də Şimali Osetiyanın şəhərətrafı rayonunun Tarskoye kəndi yaxınlığında terror aktı nəticəsində qətlə yetirilmişdir.

21. 30 may 1991-ci ildə Dağıstanın Xasavyurd stansiyası yaxınlığında «Moskva-Bakı» sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

22. 31 iyul 1991-ci ildə Dağıstan-Temirtau stansiyası yaxınlığında «Moskva-Bakı» sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

23. 20 noyabr 1991-ci ildə Xocavənd rayonu Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən «Mi-8» vertolyotu vurulmuşdur. Vertolyotun bütün heyət üzvləri və sərnişinləri - AR-nın dövlət katibi, xalq deputatı T.İsmayılov, Baş nazirin müavini, xalq deputatı Z.Hacıyev, prezidentin dövlət müşaviri, xalq deputatı general-mayor M.Əsədov, Respublikanın Baş prokuroru, xalq deputatı, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri İ.Qayıbov, xalq deputatları V.Səfərov və V.Məmmədov, Prezident Aparatının şöbə müdiri O.Mirzəyev, Meliorasiya və Su Təsərrüfatı nazirinin birinci müavini Q.Namazəliyev, DQMV (Dağlıq Qarabağ Muxtar Vilayəti) prokuroru İ. Plavski, MTN-nin DQMV üzrə şöbə rəisi S. İmanov, DQMV-in DİI rəisi, general-mayor V.Kovaloyov, DQMV fövqəladə rayonunun komendantı N.Jinkin, dövlət katibinin köməkçisi R.Məmmədov, Azteleradionun əməkdaşı A.Mustafayev, A.Hüseynzadə və F.Şahbazov, həmin regiona sülhməramlı missiya ilə yollanan, RF-dən olan müşahidəçilər-general-mayor M.Lukaşov və pod-polkovnik V.Koçarov, Qazaxıstan Daxili İşlər Nazirinin birinci müavini, general-mayor S.Serikov həlak olmuşlar.

24. 08 yanvar 1992-ci ildə Krasnovodskdan Bakıya sərnişin daşıyan dəniz bərəsi partladılmış, nəticədə 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

25. 28 yanvar 1992-ci ildə erməni terrorçuları tərəfindən Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə uçan mülki vertolyot vurulmuş, əsasən qadın və uşaqlardan ibarət olan 41 sərnişin, həmçinin heyətin 3 üzvü həlak olmuşdur.

26. 28 fevral 1993-cü ildə Dağıstanın Qudermes stansiyası yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

27. 02 iyun 1993-cü ildə Bakı şəhər dəmiryol vağzalının ehtiyat yollarında sərnişin vaqonu partladılmış, dövlətə külli miqdarda ziyan dəymişdir. Tələfat olmamışdır.

28.01 fevral 1994-cü ildə Bakı şəhərinin dəmiryolu vağzalında Kislovodsk-Bakı sərnişin qatarı partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

29. 09 fevral 1994-cü ildə Xudat stansiyasında dəmiryol vaqonu partladılmış, xoşbəxtlikdən tələfat olmamışdır.

30. 18 mart 1994-cü ildə Xankəndidə erməni terroçuları tərəfindən diplomatlar və onların ailə üzvlərinin uçduğu İran HHQ-nə məxsus «Herkules» teyyarəsi vurulmuş, nəticədə 34 nəfər həlak olmuşdur

31. 19 mart 1994-cü ildə Bakı şəhəri «20 Yanvar» metro stansiyasında qatar partladılmış, nəticədə 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır.

Həmin terrorçuların 30 nəfəri Bakı metropoliteninin «20 Yanvar» stansiyasəndakı partlayışla əlaqədar cinayət məsuliyyətinə cəlb olunmuşdurlar.

32. 13 aprel 1994-cü ildə Dağıstan Respublikasının «Dağıstanski oqni» stansiyasında Moskva-Bakı sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

33. 03 iyul 1994-cü ildə Bakı metrosunun «28 May» və «Gənclik» stansiyaları arasında qatar partladılmış, nəticədə

14 nəfər həlak olmuş, 54 nəfər yaralanmışdır.

**Erməni millətçiləri tərəfindən bu illərdə yuxarıda sadalanan terrorçuluq aksiyalarından əlavə Azərbaycan Respublikasının ərazisində digər qanlı cinayətlər və təxribatlar da törədilmişdir. Onların bəzilərinin qeyd edilməsi məqsədəuyğun olardı:**

1. 19 oktyabr 1989-cu il Ermənistanın Sisyan rayonundan gəlmiş bir qrup cinayətkar tərəfindən Culfa rayonu Ərəfşə kəndindəki yaylaqda mal otaran Q. Bayramov və İ. Qafarov qətlə yetirilmişlər.

2. 17 noyabr 1989-cu il Hadrut rayonunun Tuğ kəndində orta məktəbin həyətində 9-cu sinif şagirdi T. Süleymanov bıçaqla ürək nahiyyəsindən vurularaq qətlə yetirilmişdir.

3. 29 noyabr 1989-cu ildən erməni quldurları tərəfindən Qubadlı rayonunda Q. Ələkbərov, T. Hümbətəliyev və M. Mehdiyev qətlə yetirilmişlər.

4. 13 yanvar 1990-cı ildə Ermənistanın Gorus rayonu tərəfindən Qubadlı rayonunun Seytaş kəndinə silahlı basqın edilmişdir. Nəticədə kənd sakinləri meşəyə qovulmuş, 2 ev yandırılmışdır.

5. 29 yanvar 1990-cı il İliç (Şərur) rayonunun Kərki kəndi işğal edilmişdir.

6. 31 yanvar 1990-cı ildə Ermənistanın Krasnoselsk rayonunun Artşevak kəndi tərəfindən basqın edilərək Gədəbəy rayon sakinləri A.Cəmilov, M. Vəliyev, A.Zeynalov, A.Qurbanov, İ.Hüseynov və F.Niftəliyev qətlə yetirilmişlər.

7. 4 mart 1990-cı ildə Şuşa şəhərini içməli su ilə təchiz edən Nəbilər -Şuşa su xətti erməni ekstremistləri tərəfindən partladılmışdır.

8. 24 mart 1990-cı ildə Qazax rayonunun Bağanis Ayrım kəndi Ermənistan tərəfindən əvvəlcə avtomat silahlarından və doludağıdan toplardan güclü atəşə tutulmuş, sonra isə silahlı basqına məruz qalmışdır. Nəticədə 5 nəfər dinc sakin diri-diri yandırılmış, 2 nəfər öldürülmüş, 1 nəfər yaralanmış, 13 yaşayış evi yandırılaraq əmlakı talan edilmişdir.

9. 28 mart 1990-cı ildə Ermənistanın Şəmşəddin rayonu tərəfindən Tovuz rayonunun Əlibəyli kəndini müxtəlif odlu silah növlərindən atəşə tutulmuş, 4 nəfər yerli sakin yaralanmışdır.

10. 26 iyun 1990-cı il Gədəbəy rayonunun Gəbyəli adlanan ərazisində erməni quldurları tərəfindən Nuriyev, Nağıyev və Orucov qətlə yetirilmişlər.

11.08 avqust 1990-cı ildə Hadrut rayonu ərazisindən avtomat və karabinlərlə silahlanmış quldurlar Laçın rayon ərazisində QAZ-53 markalı avtomaşını atəşə tutmuş, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

12.17 avqust 1990-cı ildə Noyemberyan rayonu ərazisindən Qazax rayon Aşağı Əskipara kəndi atəşə tutulmuş, nəticədə vətəndaş F. Mehdiyev öldürülmüş, 2 nəfər isə yaralanmışdır.

13.17 avqust 1990-cı ildə Yeksaoq və Qaladərəsi kəndləri ərazisində Şuşa rayonu Göytəpə kəndinə silahlı basqın edilmiş, 11 ev yandırılmışdır.

14. 19 avqust 1990-cı ildə erməni quldurları tərəfindən Qazax-Yuxarı Əskipara marşrutu ilə hərəkət edən avtobus atəşə tutulmuş, nəticədə milis nəfərlərindən Ş. Çobanov öldürülmüş, C. Məmmədov və daha 3 sərnişin yaralanmışdır.

15. 20 avqust 1990-cı ildə Qazax rayonunun Bağanis Ayrım və Aşağı Əskipara kəndlərinə silahlı basqın edilmiş, nəticədə 5477 saylı hərbi hissənin qərargah rəisinin müavini A. Pipatov öldürülmüş, 4 hərbçi və 4 vətəndaş yaralanmışdır.

16. 20 noyabr 1990-a ildə Ermənistanın Gorus rayonu tərəfindən Laçın rayonunun Hacılar, Zabux, Cağazur və Cicimli kəndləri avtomat, pulemyot, qumbara və mina atanlardan şiddətli atəşə tutulmuş, nəticədə 3 nəfər dinc sakin həlak olmuşdur.

17. 17 dekabr 1990-cı ildə İliç (Şərur) rayonunun Avuş və Axura kəndləri arasındakı yolda erməni quldurları tərəfindən pusqu qurularaq növbədən qayıdan RDİŞ-nin 2 əməkdaşı öldürülmüş, 1 nəfər isə ağır yaralanmışdır.

18. 1991-ci ilin yanvar ayında Ağdərə rayonunun Drombon kəndi yaxınlığında V. Qalayanın başçılıq etdiyi silahlı dəstə Kəlbəcər şəhərinə doğru hərəkət edən maşın karvanına silahlı basqın edərək benzin daşıyan maşının sürücüsünü qətlə yetirmişlər.

19. 23 aprel 1991-ci ildə Şuşakənd və Daşaltı istiqamətindən ermənilər tərəfindən Şuşa şəhəri doludağıdan toplarla atəşə tutulmuşdur. Nəticədə Abbasovlar ailəsinin 3 üzvü ağır yaralanmış, yaşayış evləri və binaları ciddi dağıntılara məruz qalmışdır.

20. 28 aprel 1991-ci ildə Ermənistanın Ararat rayonunun Sevakyan və Eraxs kəndləri tərəfindən doludağıdan toplar, reaktiv qurğular, zirehli hərbitexnika vasitələrindən Naxçıvan MR-nin Şərur rayonunun Sədərək qəsəbəsi güclü atəşə tutulmuş, 14 sakin yaralanmışdır.

21. 03 may 1991-ci ildə Ermənistanın Şəmsəddin rayonu ərazisindən Qazax rayonu ərazisinə 12 reaktiv mərmi atılmış, nəticədə 1 ev dağılmış, ev yiyəsi və onun həyat yoldaşı həlak olmuş, 2 nəfər isə yaralanmışdır.

22.1991 -ci il iyunun 27-dən 28-nə keçən gecə bir qrup erməni terrorçusu Martuni rayonunun Qaradağlı kəndinə basqın edərək 6 nəfər dinc sakini qətlə yetirmişlər.

23. 21 iyul 1991-ci ildə Ermənistanın Sisyan rayonu tərəfindən Laçın rayonunun «Əriməz» yaylağına zirehli hərbi texnikanın köməyi ilə silahlı basqın edilmişdir. 9 azərbaycanlı vəhşicəsinə öldürülərək yandırılmış, 3 nəfər yaralanmış, 13,5 min heyvan aparılmışdır.

24. 1991-ci ilin yayında erməni quldurları tərəfindən Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN DQ mayoru Xomiç qətlə yetirilmişdir.

25. 27 oktyabr 1991-ci ildə Ermənistanın Görus rayonunun Hindzorsk kəndi tərəfindən Qubadlı rayonunun Əliquluuşağı kəndi avtomat, pulemyot və toplardan atəşə tutulmuş, 2 yaşayış evi dağıdılmışdır

Ümumən 1988-1991-ci illərdə erməni terrorçuları və bandit birləşmələri tərəfindən Qarabağın və ətraf rayonların Azərbaycanlılar yaşayan məntəqələri 1.650 dəfə basqına və intensiv atəşlərə məruz qalmışdır. Bu cinayətkar qəsdlər

nəticəsində 383 nəfər həlak olmuş (84-ü hüquq-mühafizə orqanları əməkdaşı), 1.028 nəfər yaralanmış (183-ü hüquq mühafizə orqanları əməkdaşı), 1.280 müxtəlif obyekt və ev yandırılmış, dağıdılmışdır.

1992-ci ilin təkcə ilk 2 ayı ərzində 230 dəfə basqın edilmiş, nəticədə 117 nəfər həlak olmuş (16), 155 nəfər yaralanmış (93), 190 obyekt və ev yandırılmış, partladılmış və dağıdılmışdır. Bütün yuxarıda göstərilənlər hələ Qarabağda doyüş əməliyyatları başlamazdan əvvəl törədilmişdir.

1988-1989-cu illərdə azərbaycanlıların öz tarixi ərazilərindən deportasiyasının 3-cü böyük mərhələsinin başa çatdırılması Ermənistanın genosid siyasətinin tərkib hissəsi olmuşdur. Ağlasığmaz vəhşiliklərə və barbarcasına həyata keçirilən bu deportasiya zamanı 500 nəfərdən çox Azərbaycanlı qətlə yetirilmiş, istintaqa düşən 216 nəfər ölmuş, o cümlədən 57 qadın, 5 körpə və 18 azyaşlı qətlə yetirilmişdir. Onlardan 5-i qəsdən xəstəxanalarda, 76-sı işgəncələr nəticəsində, 11-i diri-diri yandırılmaqla, 3-ü suda boğulmaqla və s. öldürülmüşdür. 4 nəfərin isə öldürüldükdən sonra meyidləri yandırılmışdır.

26 fevral 1992-ci il - Xocalının işğal günü erməni terrorizminin, azərbaycanlılara qarşı genosid siyasətinin ən qanlı səhifələrindəndir. Təkcə həmin gün əsasən qocalardan, qadınlardan və uşaqlardan ibarət olan 613 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilmiş, 1.275 nəfər isə əsir götürülmüşdür. Bu kütləvi qırğın, vandalizm aktı zamanı 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmiş, diri-diri yandırılmış, başları kəsilmiş, yaxud başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, hamilə qadınlar süngü ilə deşik-deşik edilmişdirlər. Xəsarət alanlardan 487 nəfəri şikəst olmuşdur. Onlardan 76 nəfəri azyaşlıdır.

1992-1993-cü illərdə Ermənistan tərəfindən Azərbaycan Respublikasının aşağıdakı rayonları işğal edilmişdir:

- 26 fevral 1992-ci ildə Xocalı rayonu;
- 08 may 1992-ci ildə Şuşa şəhəri; -18may 1992-ci ildə Laçın rayonu;
- 02 aprel 1993-ci ildə Kəlbəcər rayonu;
- 23 iyul 1993-ci ildə Ağdam rayonu;
- 23 avqust 1993-ci ildə Füzuli rayonu;
- 23 avqust 1993-ci ildə Cəbrayıl rayonu;
- 31 avqust 1993-ci ildə Qubadlı rayonu;
- 29 oktyabr 1993-ci ildə Zəngilan rayonu;

Bütün bu hadisələr zamanı yüzlərlə soydaşımız vəhşicəsinə öldürülmüş, 5.000 nəfərdən çoxu isə əsir və girov götürülmüşdür.

Qeyd edilməlidir ki, 1970-ci illərin əvvəllərində erməni terror təşkilatları əsasən xarici ölkələrin ərazisində yaranırdısa, artıq 1988-1990-cı illərdə silahlı quldur birləşmələri (dəstələri) Ermənistanın paytaxtı Yerevan şəhərində də formalaşmağa başlamışdır. Ermənistanın daxili işlər naziri L.A.Qalastyan tərəfindən imzalanmış 11 iyul 1990-cı il tarixli rəsmi məlumata 10 min nəfərdən artıq terrorçudan ibarət, xüsusi formalara, rabitə və nəqliyyat vasitələrinə malik olan, qərargahları Yerevan şəhərində yerləşən «Erməni milli ordusu» (ANA), «Respublika partiyasının müstəqil ordusu» (NARP), «Milli ittifaq hərəkatı» (MUŞ), «David Sasunlu», «Qisasçılar», «Ermənilərin məhkəməsi» və s. bu kimi mobil silahlı birləşmələrin və onların birgə fəaliyyətlərinin əlaqələndirilməsi üçün isə «Hərbi şuranın» yaradılması göstərilmişdir. Həmin silahlı birləşmələrin məqsədləri adlarından da aydın göründüyü üçün əlavə şərhə ehtiyac duyulmur.

1990-cı ildə SSRİ Ali Sovetinin Millətlər Şurasının Milli və Millətlərarası münasibətlər üzrə Komissiyası tərəfindən hazırlanmış hesabat da diqqəti cəlb edir. Hesabata görə yalnız 1990-cı ilin yanvar ayında Ermənistanın ərazisində silah əldə edilməsi məqsədilə daxili işlər orqanlarına və hərbi hissələrə 131 basqın olunmuş, 6.179 ədəd odlu silah, o cümlədən 3 minomyot, 13 pulemyot, mindən artıq avtomat, 1.300-dək tüfəng, 1.300 tapança oğurlanmışdır. Bundan əlavə, 133 top və 17 raket qurğusu, 13 min raket və digər sursat, 556 qranat, 19 ədəd zirehli texnika, 21 ton partlayıcı maddə ələ keçirilmişdir. Azərbaycanda isə həmin müddət ərzində silah saxlanılan obyektlərə cəmi 13 basqın edilmiş, 3 pulemyot, 28 avtomat, 31 tüfəng, 23 tapança, 1 minomyot, 3 qumbara atan və 1 zirehli texnika oğurlanmışdır.[101]

Bunlarda da erməni əlinin olması güman edilir.

Ümumiyyətlə, 1973-cü ildən 2001-ci illər ərzində erməni terror təşkilatları təkcə hərbi Avropada 235 terror aktı, 70 qətl, 41 qətl cəhdi törətmişlər. Terror aksiyaları zamanı 454 nəfər yaralanıb, 105 mülki şəxs girov götürülüb.[102]

## XOCALI SOYQIRIMI - BƏŞƏRİYYƏTİN FACİƏSİDİR

Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağılasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşi aktıdır. Bu soyqırım eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi cinayətdir.

***Heydər ƏLİYEV,***
*Azərbaycan xalqının Ümum Milli Lideri.*

*Xocalı... Gecənin zülmət qaranlığında uşaq ağlayırmış, səsini məkrli düşmən olan ermənilər eşitməsin deyə ana ağlayan uşağını öldürmüşdür. 3 aylıq Salatını öz əlləriylə boğan ana və dörd saat sonra möcüzə ilə yenidən dirilən uşaqa -*

[101] Fərhad Vahabov. Erməni separatizmi, təcavüzkarlığı və terrorizmi haqqında məlum və naməlum həqiqətlər (silsilə məqalələr) - «Yeni Azərbaycan», 07.12.2001, № 233 (1212), s.5 və 08.12.2001, N 2 234 (1213).
[102] Eynulla Mədətli. Səməd Sərdariniyanın «İrəvan müsəlman yurdu olmuşdur» kitabı - «Azərbaycan», 01.12.2001, N2 274 (2987)

*Azərbaycanın Milli Qəhrəmanı jurnalist Salatın Əsgərovanın adı verilib. Xəstəxanada körpə Salatının mənə baxan gözləri. Qaçhaqaçda yaralı qardaşını düşmən əlinə keçməsin deyə onu öz təkidilə güllələyən qardaş. Ürəyinə, üz-gözünə süngü sancılmış bir uşaq... Donmuş ayaqları kəsilmiş 18 yaşında qız, üzünün dərisi soyulmuş meyid, gözləri çıxarılmış oğlan. Respublika xəstəxanasının qadın şöbəsi həkiminin tükürpədən söhbətləri. Ölmüş anasının döşünü əmən uşaq. Ağıla sığmayan vəhşiliyə, işgəncəyə tuş olan körpə, qadın, kişi, qoca meyidləri...*

*Şahidlərin biri deyirdi ki, saqqallı ermənilər tutulan əsir azəri qızlarının səslərini səsgücləndiricilərlə uzaqlara yayırdılar ki, eşidin, çox qeyrət, qeyrət deyirsiniz.*

«Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə öldürülmüş günahsız insan meyidləri gördük. Bunlar qadınlar, uşaqlar, qocalar və Xocalının keşikçiləri idi. Bizə alçaqdan uçan vertolyot verdilər. Xocalıda nə baş verdiyinin şahidi olduq. Bizi ermənilər sonra atəşə tutdular. Biz çəkilişi axıra çatdıra bilmədik. Bu dəhşətli faciə idi. Mən müharibədə çox şeylər olduğunu, alman əsgərinin qəddarlığını eşitmişəm, amma ermənilər onları ötüb keçiblər. Onlar 5-6 yaşlı uşaqları, dinc əhalini vəhşicəsinə öldürürlər».(Fransız jurnalisti Jan iv Yunet).

«26 fevralda mən yaralıları daşıyırdım. Mən özüm 200-ə qədər öldürülmüş və səpələnmiş adamları gördüm. Sonra uçduq, ölüləri götürmək istədik. Bizimlə bir yerli kapitan da var idi, adı yadımdan çıxıb. O, ölülər arasında özünün 4 yaşlı oğlunu tapdı. Onun beyni dağılmışdı. Kapitan ağlını itirdi. Götürə bilmədiyimiz başqa uşağın başı kəsilmişdi. Biz hər yerdə vəhşicəsinə təhqir olunmuş qadın, uşaq, qoca meyidləri gördük». (Mayor Leonid Kravets (rus təyyarəçisi).

«Azərbaycanlı soyqırımı» ifadəsi siyasi leksikonumuza məhz sabiq prezident Heydər Əliyevin xidmətləri sayəsində daxil olub. Heydər Əliyev bununla dahiyanə bir addım atdı, dünya ictimaiyyətinin diqqətini bizim üçün həyati əhəmiyyət kəsb edən bu məsələyə yönəltdi. Bütün dünya bu vaxta qədər yalnız «erməni soyqırımı" ifadəsini eşitmiş, bu yalanlara inanmağa məcbur edilmişdi. Azərbaycanlı soyqırımı barədə ilk məlumat və söhbətlər gündəliyə on bir il bundan əvvəl gətirildi. Bunun müəllifi Heydər Əliyev oldu. Heydər Əliyev 1998-ci il martın 26-da fərman imzalayaraq hər il martın 31-nin Azərbaycanlı soyqırımı günü kimi qeyd edilməsinin əsasını qoydu. Bu sənədin təbliğat baxımından müstəsna əhəmiyyəti var. Həmin fərman azərbaycanlı soyqırımına elmi və ictimai-siyasi çevrələr tərəfindən xüsusi diqqət yetirilməsinə bir çağırış idi. Bu sənəd azərbaycanlı soyqırımı məsələsinə yuridik və siyasi çalar verdi, onu dövlət siyasətinin predmeti səviyyəsinə qaldırdı. Prezidentin məlum fərmanının imzalanmasından 3 il sonra - 2001-ci ilin aprelində Azərbaycan Parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyəti azərbaycanlı soyqırımı məsələsini bu mötəbər qurumun tribunasından ilk dəfə olaraq qaldırdı. Azərbaycan Parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, YAP sədrinin birinci müavini, ARDNŞ-nin birinci vitse-prezidenti, MOK prezidenti İlham Əliyev (indiki Azərbaycan Respublikasının Prezidenti) 2001-ci il aprelin 24-dəki çıxışı AŞPA-da təmsil olunan Avropalı parlamentarlarını erməni vandalizmi, Qarabağ münaqişəsi, «DQR» ərazisinin terror və narkobiznes məkanına çevrilməsi, habelə Azərbaycan türklərinin soyqırımı barədə məlumatlandırdı.

Heydər Əliyevin 26 mart 1998-ci il tarixli məlum fərmanından sonra azərbaycanlı soyqırımı mövzusu ölkə ictimaiyyəti tərəfindən ön plana çəkildi, müəyyən işlər görüldü, 31 mart tarixinin Azərbaycanlı soyqırımı günü kimi qeyd olunması məqsədilə dünya ölkələrinin parlamentlərinə, habelə beynəlxalq təşkilatlara müraciətlər ünvanlandı. Təkcə 1998-ci il ərzində bu mövzu ilə bağlı 8 müxtəlif kitab, həmçinin Azərbaycan Parlamentinin iclasının stenoqramı çap olundu. Bütün bunlar erməni məkrinin ifşa olunması, azərbaycanlı soyqırımı faktının bütün dünyada qəbul etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, 1918-ci ilin mart qırğınları zamanı erməni daşnakları üç gün ərzində təkcə Bakıda 17.000 nəfər azərbaycanlını qətlə yetirmişdi. Bundan əlavə azərbaycanlılar Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Xaçmazda, Gəncədə, Qarabağda, İrəvanda və Naxçıvanda da kütləvi şəkildə genosidə məruz qalmış, nəticədə üst-üstə on minlərlə soydaşımız öldürülmüşdür. 31 mart Azərbaycanlı soyqırımı barədəki bütün tarixi faktlar Azərbaycan Respublikası Dövlət Arxivindəki 1061-ci və 276-cı fondlarda mərkəzləşdirilmiş qaydada toplanıb. Bu fondların materialları indiki gün üçün də aktualdır, çünki bu materiallar hazır materiallardır və onların dünya ictimaiyyətinin mühakiməsinə verilməsi əsl erməni xislətini açardı. 1918-ci ilin mart qırğını o qədər dəhşətli bir cinayət idi ki, hələ 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının rəhbərliyi bu qətliama ayrıca diqqət yetirmişdi. ADR Xarici İşlər Nazirliyi erməni təbliğatını neytrallaşdırmaq, ermənilərin vəhşiliyini bütün dünyaya göstərmək üçün Fövqəladə İstintaq Komissiyasının yaradılması təşəbbüsünü irəli sürdü və milli hökumət 1918-ci il avqustun 31-də bu komissiyanı yaratdı. Xəlil bəy Xasməmmədovun başçılıq etdiyi komissiya fəal işləyərək azərbaycanlı soyqırımı haqqında xeyli qiymətli material topladı. Həmin materiallar öz əhəmiyyətini bu gün də qoruyub saxlayır. Dövlət Arxivinin 1061-ci fondunda qorunan həmin materialları siyasi, hüquqi və mənəvi-tarixi qiymətləndirmə üçün mötəbər beynəlxalq təşkilatlara, o cümlədən BMT-yə, AŞPA-ya təqdim etmək elə də çətin deyil. Sadəcə olaraq bircə addım atmaq lazımdır.

Xocalı soyqırımının törədilməsinin əsl günahkarı erməni quldurları, erməni millətçiləri, erməni daşnaqlarıydı. Xocalı faciəsindən bir müddət əvvəl yəni fevralın 11-dən 12-nə keçən gecə Şuşanın Malıbəyli kəndi işğal edilmişdi. Bu kənd Xocalıdan cəmi 5 kilometr məsafədədir. Kəndin işğal olunmasına Ermənistanın keçmiş prezidenti R.Köçəryan və keçmiş müdafiə naziri S.Sarkisyan şəxsən rəhbərlik etmişdilər.

Xocalı soyqırımını ermənilər təkcə törətməyiblər. Bilirsiniz ki, Rusiyanın 366-cı alayı Xankəndidə yerləşirdi. Bu alayın zabit və praporşik heyətinin təxminən 40 faizi ermənilərdən ibarət idi. Əsl cinayətkarlar onlardır. Bu hərbi qüvvə Xocalı soyqırımında birbaşa günahkardır. Lakin qırğına dolayı yolla şərait yaradanlar, düşmənlərimizin öz niyyətlərini həyata keçirmələrinə «kömək edənlər» həm o dövrdəki Azərbaycan iqtidarı, həm də müxtəlif siyasi qüvvələrdir. Yəni onların bir-biri ilə didişməsi, tutaşması və mübarizəsi ermənilərə imkan verdi ki, Xocalını yerlə-yeksan etsinlər. Həmin zaman ölkədə rəhbərliyin başı hakimiyyət uğrunda mübarizəyə qarışmışdı.

1992-ci il martın 29-da isə Ballıca kəndini öz gözləri ilə görməyə gələn general-mayor Aleksandr Çindarov MDB üzrə Ümumi Qoşun qüvvələri komandanı marşal Şapoşinkova ünvanladığı məktubda qeyd edir:» Dağlıq Qarabağ ərazisində,

Xocalı sahəsində ermənilərlə birgə Ərəb ölkələrindən gəlmiş muzdlu əsgərlər də iştirak ediblər... Öldürülmüş adamlar arasında ərəb mənşəli terrorçuların cəsədlərinə rast gəldim. Bunlar ermənilər tərəfindən azərbaycanlılara qarşı vuruşan adamlardır. Bu qrupun əsl adı isə «Qara sentyabr»dır.

Əldə olunmuş məlumata görə, bu dəstənin üzvləri 366-cı alayın komandanı Yuri Zarviqarovun köməyilə RF-in hərbi-senaye komplekslərindən yığılan 3 kiloqram uranın Livana ötürülməsində fəal olublar. Bunun üçün dəstənin üzvləri İran ərazisindən istifadə ediblər...» (Risma. Qlavkom. OVS. SNQ-marşalu aviaçı t-u. Şapoşinkovu. E.İ. 1992. V-3. general-mayor A.İ.Çindarova: Arxiv. «OVS»-SNQ. Moskva. 1992. -N-1201-V.).[103]

Dağlıq Qarabağın bombalanmasında, daha dəqiq desək, yaşayış yerlərinin dağılmasında Tsinxvali və Telavi (Gürcüstan) vertolyot bazaları yaxından iştirak edib. Zaqafqaziya hərbi dairəsinin generalı Valeri Pasrikyevin 1992-ci il noyabrın 2-də imzaladığı sərancama əsasən, Telavi ərazisində hərbi vertolyotları idarə edəcək milliyyətcə erməni olan 16 pilot hazırlanırdı. Məlumata görə, «pilot» kurslarının maliyyə xərcləri Ermənistan Milli Azadlıq Hərakatının Krasnodarda qeyri-leqal fəaliyyət göstərən «Sevan» şöbəsi (Adler yaşayış ərazisi. Adler küçəsi 93.) tərəfindən ödənilib. Şöbənin başçısı «Doktor» ləqəbli Frunze Həzaryan eyni adlı bülletendə qəribə məlumat da verir: «... Kursa qəbul olunmuş ermənilərə əvvəlcədən elan olunmuşdur ki, onlar «Böyük Emənistan» uğrunda vuruşacaqlar. 1992-ci ilin yanvarın 9-da isə Beyrutda yaşayan Rafiq Aqabekoviç Qraynyan (o, Livana 1988-ci ildə mühacir olub) da «pilotlar» hazırlayan kursda müəllim kimi işə başlayır. 32 yaşlı milliyyətcə ərəb olan «Həmas» təşkilatından qovulmuş Zahid Əl-Məhəmməd (Nabiz) adlı birisi də kursda göründü. O, erməni dilində çətinliklə danışsa da, məhəbbət və ehtramını əsirgəmirdi. Ona 45 nömrəli vertolyot həvalə edildi... Biz artıq döyüşə Uazır idik...» (Adler: «Sevane» bülleteni. 1992.1-19).

1992-ci il fevralın 12-də və 16-da Rusiya prezidenti B. N. Yeltsin Telavi vertolyot bazasında kursu bitirmiş erməni pilotlarına yeni və dəqiq hərbi uçuşa malik olan «Mİ-24P» markalı vertolyotların verilməsi haqqında (7-ci ordunun Baş Komandanı) general-mayor Reuta göstəriş verir (Telavi: «Eskadriliya» qəzeti. 1992-ci il fevral. 20. N8). Döyüşə hazırlıq vəziyyətinə gətirilməsi məqsədilə, polkovnik Leonid Karpalovun başçılığı ilə iki «Mi-8» vertolyotu Gəncə vertolyot zavodunda təmirə göndərilir. Xocalı istiqamətdə hərbi hazırlığın təməli belə qoyulurdu...

Dağlıq Qarabağ istiqamətində döyüşə hazır vəziyyətdə dayanmış vertolyotlar üçün Bakıdan 200 ton (?) yanacaq da göndərilmişdi. Polkovnik Raqib Mühəmmədcanov yanacağın bölünməsi və döyüş vertolyotları arasında paylanması məsələlərinə nəzarət üçün ayrıldı.

1992-ci il fevralın 17-də Telavi hərbi bazasında ermənilərlə görüşən yazıçı-daşnaq Zori Balayan döyüşmək üçün silahlanmış ermənilərə başa salır ki, «Böyük Ermənistan» uğrunda kim vuruşursa, o-» Millətin və nəslin» tarixini yaradır.

1992-ci il fevralın 19-da isə general Reutin Moskvada aldığı 17 fevral tarixli, general A. N. Kovalyovun imzaladığı «2014 AK» nömrəli sərancama əsasən 16 erməni üçün 9 müxtəlif markalı (əsasən «Mİ-24P») hərbi vertolyot ayrıldı. Fevralın 22-də isə vertolyot eskadrilyası 366-cı alayın tərkibinə keçirildi.

Beləliklə, 1992-ci il fevralın 25-də Dağlıq Qarabağ səmasında hərbi planlarını quran Xocalını bombalayan vertolyot eskadriyasının siyahısı tərtib edildi:

- 39 nömrəli vertolyot: Pilot: Qalaqçiyan Romb Arurunoviç (Livan ermənisi.
İxtisasca inşaatçı olub).
- 40 nömrəli vertlyot: Pilot: Razdan Alekseyeviç Minoyan (Suriya ermənisi. İxtisasca mühəndis).
- 29 nömrəli vertolyot: Pilot: Zahid Əl-Məhəmməd (Livan vətəndaşı)
- 17 nömrəli vertolyot: Pilot: Pirimyan Suren Alekseyeviç (Yerevan, milisi (polis işçisi)).

Bu ancaq Xocalı rayon ərazisinə havadan zərbələr endirən vertolyotların siyahısıdır. O da məlum oldu ki, fevralın 25-i saat 16-dan 24-dək Xocalı ərazisinə bu vertolyotdan 89 dəfə raket buraxılıb.

Xocalı istiqamətində raketburaxan ilk vertolyot 29 nömrəli olub. Hərbi pilotlar arasında maaşlar da bölünmüşdü. Məsələn, Livan müsəlmanı Zahid Əl-Məhəmmədə 4.450 dollar aylıq ayrılmışdı. «Müsəlman qardaşımız» Xocalı ərazisinə atdığı hər bir raket üçün 280 dollar məbləğində mükafatlandırılmışdı.

1992-ci il fevralın 28-də döyüşdə fəallıq göstərdiklərinə görə, Zahid Əl-Məhəmməd və Pirimyan Suren Alekseyeviçə «Qızıl xaç» ordeni verildi. Martın 3-də isə 29 nömrəli vertolyotun pilot salonunda yanğın baş verir. Nəticədə pilot Zahid Əl-Məhəmməd ölür. Və MN Serj Sarkisyanın göstərişilə onun cəsədini Yerevana gətirilir. Zvartnots hava limanından azca aralı salınmış hərbi qəbristanlığında basdırırlar.

Bu da Qarabağ səmasında «vurnuxan», Xocalını viran qoyan bir pilotun taleyi...» [104]

1992-ci il fevralın 26-da Ermənistan Respublikasının silahlı birləşmələri Dağlıq Qarabağdakı yerli erməni quldurları və keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayı Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini sakinləri ilə birlikdə məhv edərək insanlığa silinməz ləkə olan soyqırımı aktı törətmişdir. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1.275 sakin-köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz zülmə və təhqirlərə məruz qoyulmuşlar. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və yandırmışlar.

Şahidlər təsdiq edirlər ki, həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək uşaq və qoca güllələnmiş, bəzi meyidlərdə bir neçə xəsarət yerləri aşkar edilmişdir ki, onlardan biri yaxın məsafədən baş nahiyəsinə yetirilmiş odlu silahla öldürülmüşdür. Bu da onu göstərir ki, yaralılar sonradan odlu silahla öldürülmüşdür. Bir neçə uşaq meyidinin qulaqları

[103] Ermənilər dünya terror təşkilatlarında - «Respublika», 01.10. 2002, № 226 (1562).
[104] İsrafil Məmmədov məsələsi. Müharibə illəri və erməni könüllüləri.-"Vətən Səsi" 31 (413), s.4

kəsilmişdir. Yaşlı qadının sifətinin sol yanağının dərisi soyulmuş, qoca kişinin kəllə sümüyü çıxarılmışdır. İlk dəfə 28 fevral 1992-ci ildə hadisə yerinə vertolyotla gələnlər 500 metr radiusda ərazinin meyidlərlə örtüldüyünü görmüşlər. Xocalı sakini Canan Orucov çoxsaylı insan tələfatı, xüsusən qadın və uşaqların öldürülməsi barədə məlumat vermişdir. Onun 16 yaşlı oğlu güllələnmiş, 23 yaşlı qızını əkiz uşaqları ilə birlikdə və ikinci 18 yaşlı hamilə qızını girov götürmüşlər.

Səriyyə Talıbova adlı şəxs göstərmişdir ki, erməni döyüşçüsünün qəbri üstündə 4 nəfər Axıska türkünün və 3 azərbaycanlının başını kəsmişlər. Valideynlərinin yanında uşaqlara işgəncə vermiş və onları öldürmüşlər. Milli hərbi geyimdə olan azərbaycanlı əsgərin diri-diri gözlərini oymuşlar.

Xocalıda mülki əhalinin məhv edilməsinin plana uyğun surətdə həyata keçirilməsini təsdiq edən faktlardan biri də odur ki, əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri ərazidən çıxış yollarında qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqularda qətlə yetirilmişlər.

Xocalı sakini Sənubər Ələkbərova Naxçıvanik kəndində qadın, qoca və uşaq meyidlərindən yaranmış təpəni heç vaxt unutmayacağını bildirir. Həmin kənddə ermənilərin qurduğu pusquya düşdükdən sonra onun əri, iki qızı-Sevinc və Hicran öldürülmüş, özü isə yaralanmışdır. Oradan 200 nəfər azərbaycanlı girov götürülmüşdür. Cəmil Məmmədov da girov düşmüş azərbaycanlılardan olmuşdur. Onun dırnaqlarını çıxarmış, təpiklə sifətinə xəsarət yetirmiş, nəvəsini isə ondan alıb götürmüş, anası və qızı xəbərsiz itkin düşmüşdür. Uşaqların zorla qrupdan alınıb başqa bir qrupa verilməsi də soyqırım cinayətinin obyektiv cəhəti təşkil edən əlamətlərdəndir.

«İzvestiya» qəzetinin müxbiri V.Belıx göstərmişdir ki, Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları kəsilmiş, kəllə sümükləri çıxarılmış, başları kəsilmiş meyidlərin şahidi olmuşdur.

Azərbaycan Müdafiə Nazirliyi tibbi xidmətinin rəisi Xanlar Hacıyev xidməti işi ilə əlaqədar çox ölüm və əzablarla qarşılaşsa da, Xocalı hadisələri zamanı törədilmiş vəhşiliklərdən dəhşətə gəlmişdir. Donmuş qızın üzünün bıçaqla kəsilməsi, döyüşçünün bağırsaqlarının çıxarılaraq qarışdırılması bu cür vəhşiliklərə misaldır.

Mayor Leonid Kroveç özü 200 meyid müşahidə etdiyini, onunla bir yerdə olan polis nəfərinin 4 yaşlı uşağının meyidini tapıb, başının əzildiyini gördükdə ağlını itirməsinin şahidi olmasını təsdiq etmişdir.

Moskva «Memorial» hüquq-müdafiə mərkəzinin Xocalı şəhərinin işğalı zamam insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatında göstərilir: «Qaçanlar ermənilərin pusqusuna düşmüş və güllə-baran edilmişlər... Dörd gün ərzində Ağdama 200 meyid gətirilmiş, onlarla meyiddə təhqirə məruzqalma əlamətləri olmuşdur. Dörd meyidin başının dərisinin soyulması və bir meyidin başının kəsildiyi qeydə alınmışdır. Ağdamda 181 meyid (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) dövlət məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertlərin rəyi ilə müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurulmaqla öldürülmüşdür... Ağdamda sanitar qatarı jurnalında qeydiyyatdan keçirilənlərin 598 nəfərində xəsarət və donma halları müşahidə olunmuşdur. Orada diri adamın baş dərisinin soyulması faktı qeydə alınmışdır». Sabiq prezident Ayaz Mütəllibov və Azərbaycan Respublikasının o dövrdəki digər rəhbərlərinin cinayətkar səhlənkarlığı erməni millətçilərinin bu ağır cinayət əməlini törətməsinə şərait yaratmışdır. Radikal üsullarla hakimiyyətə gəlməyə can atan müxalif qruplarla aparılan siyasi oyunlar və intriqalar nəticəsində Xocalının müdafiəsi lazımi səviyyədə təşkil edilməmiş, şəhərin dinc əhalisinə heç bir kömək göstərilməmişdir. «366-cı alay ermənilərlə birlikdə hamilə qadınları da güllələdilər». Rus polkovniki bunu etiraf edir.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş «Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiyada ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Bu kütləvi və amansız qırğın aktı Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü hədəfə almış, işğal və terror siyasətinin təzahürü olmaqla təkcə bizim xalqımıza deyil, bütövlükdə insanlığa qarşı cinayət aktıdır. Erməni millətçiləri Xocalı soyqırımı əməlini törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq məqsədi güdmüşlər. Lakin mənfur düşmən öz niyyətinə çata bilmədi. Təəssüf doğuran haldır ki, dövlətlər arasında sivil birgə yaşayış qaydalarının hakim olduğu XX əsrin sonlarında Ermənistan Respublikasının Azərbaycanın ərazi bütövlüyünə qəsd etməsinə, qonşu dövlətə torpaq iddialarını həyata keçirmək üçün işğalçılıq müharibəsi və etnik təmizləmə aparılmasına, Xocalı soyqırımı kimi dəhşətli cinayət törətməsinə dünya birliyi biganə yanaşmış, təcavüzkarın cilovlanması üçün təsirli beynəlxalq tədbirlər görülməmişdir. Qəsbkar dövlət ətrafında yaradılmış bu cəzasızlıq mühitinin nəticəsidir ki, indiyədək ölkəmizin ərazisinin 20 faizi-yəni Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyondan çox azərbaycanlı yerindən-yurdundan didərgin salınmışdır. İşğal olunmuş ərazilərin azad edilməsinə dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə - 822 853, 874 və 884 nömrəli qətnamələr nəzərdə tutulub, Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin sənədlərinə məhəl qoymayan Ermənistan Respublikası Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina edib. Dağlıq Qarabağ ərazinsində təkcə Ermənistandan deyil digər ölkələrdən də gələn terrorçuların hazırlanması, Azərbaycan xalqına qarşı yeni cinayətlərin təşkil edilməsi üçün düşərgələr yaradılmışdır. Burada narkotik vasitələrin dövriyyəsindən və nəqlindən əldə edilən gəlir terror məqsədləri üçün istifadə olunur. Azərbaycan xalqına qarşı soyqırımı və terror Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Erməni millətçiliyinin məqsədlərinə nail olmaq üçün heç bir çirkin vasitədən çəkinməyən terrorçu təşkilatların bu ölkədə sərbəst fəaliyyət göstərməsinə hər cür şərait yaradılmışdır.[105]

Ekspert Şurasının qənaətincə, Xocalı soyqırımının hüquqi nəticələrinə əsasən soyqırım cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür, cinayətin təkcə icraçıları deyil, soyqırımı törətməyə sui-qəsd, soyqırıma birbaşa və açıq təhrikçilik, soyqırımda iştirak etmək də cinayət məsuliyyəti doğurur. Həmçinin, hüquqi nəticələrə görə,

[105] Nardar Bayramlı. MM-də Xocalı soyqırımı haqqında daha bir bəyanat qəbul edildi.-«Yeni Azərbaycan», 27.02.2002, № 37 (1265)

soyqırım cinayətini törətməkdə əmrin icrasına istinad, şəxsi cinayət məsuliyyətindən azad etmir, cinayətin törədilməsinin qarşısının alınması üçün tədbir görməməyə görə rəhbər şəxs məsuliyyət daşıyır və s.

Beləliklə də, ermənilər tərəfindən Xocalıda Azərbaycanlılara qarşı törədilən bütün əməllər hüquq sənədlərinə uyğun olaraq soyqırım kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət işidir.

Xocalı faciəsinin beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin tərkib hissəsi olması faktının dünya ictimaiyyətinə çatdırılması məqsədilə Azərbaycan MEA İnsan Hüquqları Ekspert Şurası «Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin tərkib hisəsidir» adlı sənədi Türkiyə, Gürcüstan, Rusiya və digər dövlətlərin parlamentlərinə, BMT İnsan Hüquqları Ali Komissarlığına, Avropa Şurası Parlament Assambleyasına, AŞ İnsan Hüquqları Baş Direktorluğuna, ATƏT-in Parlament Assambleyası və Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna kimi beynəlxalq təşkilatlara, o cümlədən milli və beynəlxalq qeyri-hökumət insan hüquqları müdafiəsi təşkilatlarına, Azərbaycan diasporunu təmsil edən mərkəz və birliklərə göndərilmişdir.[106]

1992-ci il fevralın 9-da Rusiya MN-dən general Zarviqarovun adına telefonoqram gəlir. Saat 16.00 radələrində alınmış bu telefonoqramda alayda xidmət edən əsgərlərə ayrı-ayrı mükafat əvəzi maaş ödənilməklə yanaşı, zabitlərin də Rusiyanın istənilən ərazisində yeni mənzillərlə təmin ediləcəyi xəbəri verilirdi. Həmin gün «müşavir» Serj Babayan isə rus generalına Vaşinqtonda onun adına açılmış bank hesabının kitabçasını təqdim edir («Evkrapa» qəzeti. 1999.).[107]

Soyqırımda iştirak edən rus zabitlərinin adları açıqlanır. Xocalı soyqırımı ilə bağlı politoloq Rövşən Novruzoğlu «Olaylar» İnformasiya Agentliyinə açıqlamalar verib: «Araşdırmalarımıza görə, Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran rus polkovniki İvan Moiseyevin batalyonu olub. Bu batalyon da ermənilər arasında «İvanın vəhşi batalyonu» kimi tanınıb. Əldə etdiyimiz məlumatlardan bu da aydın olub ki, 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçib. Üstəlik Fransadan göndərilən 142 ədəd avtomat, 7.600 ədəd güllə, 460 ədəd bronejilet, 11 ton konservləşdirilmiş yemək, 1.200 cüt ayaqqabı (altı ölçüdə), 146 ədəd tapança... ermənilərin istifadəsinə verildi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylanıldı...»

...Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il martın 1-də Zaqafqaziya hərbi dairəsinin aviasiya komandanı general-mayor Lukaşovun əmrilə yandırıldı. Xocalı soyqırımında iştirak edən rus polkovniki V. Savelyev «Məxfi arayış»ında bütün bunlara toxunaraq xatırlayır: «...Ermənilər ruslara məxsus 02-19-MM nömrəli «Kamaz»la ərazidəki meyidləri yığıb Xocalıda tonqal qurdular... İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim. Mən sizə ermənilərə qoşularaq əsir azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm: Polkovnik B. Bayınukov - arxa cəbhə üzrə polk komandirinin müavini; Polkovnik İ.V.Moiseyev - birinci batalyonun komandiri; - Mayor S.İ.Ohanyan - ikinci batalyonun komandiri; - Mayor E.A.Nabonik - üçüncü batalyonun komandiri; Mayor V.İ.Çitçiyan-birinci batalyonun qərargah rəisi; Mayor V.Q.Hayriyan-polkun kəşfiyyat rəisi; Baş leytenant O. V. Mirzayan - rota komandiri; Baş leytenant S.V. Xrinxua-kəşfiyyat bölməsinin rəisi; Baş leytenant V.N.Qarmaştank rotası komandiri; Baş leytenant N.T. Hakonyan - rota komandiri; Baş leytenant V.A.Azıryan-batareya komandiri; Leytenant V.İ.Bondarev - kəşfiyyat rəisinin müavini; Leytenant A.İ.Kuçov-radiokimyəvi bölmənin rəisi; (Eləcə də 41 nəfər milliyyətcə erməni olan rütbəli şəxslər)»[108]

1992-ci il fevral ayının 24-də saat 21.15 dəqiqədə general rütbəsi almış Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, «regiondakı müharibə torpaq müharibəsi yox, islamın xrisrianlığa qarşı müharibəsidir».

1992-ci il fevral ayının 24-də saat 21.15 dəqiqədə general rütbəsi almış Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, «regiondakı müharibə torpaq müharibəsi yox, islamın xrisrianlığa qarşı müharibəsidir»

«Gizli erməni cəbhəsi»ndə isə komandanlıq Xaçik Vartanyana tapşırıldı. Bu vaxt 36 məşhur erməni firmasının başçıları kütləvi şəkildə yardım adı ilə «Gizli erməni cəbhəsi»nə 470 min dollar «yardım» etdilər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə (yanvar ayının 19-dan 20-nə keçən gecəni də unutmayın) Xocah yaşayış ərazisi işğal olundu.

Xocalı viran edildi. Beynəlxalq miqyaslı erməni icmalarının birgə hazırlığı «Böyük Ermənistan» planının birinci fazası, hərəkatın birinci bəndi erməni «Haydad» və «ASALA»çıları ilə birgə icra olundu. Rusiya, Ukrayna MN-nin hərbi-sənaye komplekslərində möhtəşəm yer tutan «T-80» tankının mühərriki, tərkibində kimyəvi silahlara məxsus başlığı olan mərmiləri, avtomat Kalaşnikova məxsus yeni «dairəvi» güllələr, vərəm və «Sibir xorası» əleyhinə vaksinlər... «bronijiletlər»... sınaqdan çıxarıldı.

Xocalı həm də sınaq poliqonu oldu. Atılan mərmilərdən cavanların ciyərləri tab gətirmir, partlayırdı... Yaşlılar arasında isə birbaşa sinir sistemi iflic olurdu, gözlər tutulur, qan damarları sıradan çıxırdı. Qadınlar isə ana südündən məhrum olur, kütləvi şəkildə zəhərlənib tələf olurdular... «Dairəvi» güllələr isə hədəfə dəyən kimi o hədəfdə qalmır, dövr edib yenidən çölə çıxırdı. Bu güllə qarşısına çıxan heç kimi sağ buraxmırdı...

«...Mən məndən on metr uzaqlıqda pulemyot gülləsindən yara almış 8-10 yaşında olan bir qıza kömək göstərə bilmədim. Mən o gündən qorxuram ki, Allah məni cəzalandıracaq. Lənətlənmiş günlər bir-birini əvəz edirdi» (366-cı rus alayının 02270 saylı «xüsusi şöbənin» polkovniki V.R.Savelyevin «məxfi arayış»ından).

---

[106] Prof. d-r. İsmət Miroğlu. «Qərbin iç üzü həqiqət güzgüsündə». - «Vətən Həsrəti» (Türkiyə qəzetindən), N 2 13 (14), 2.07.1993
[107] Eynulla Mədətli. Səməd Sərdariniyanın «İrəvan müsəlman yurdu olmuşdur» kitabı - «Azərbaycan», 01.12.2001, N2 274 (2987).
[108] Kimyəvi silahlar Xocalıda-«İki sahil» 26.02.2002, N 38 (3042).

## «ASALA» VƏ «HAYDAD» XOCALIDA

**Polkovnik V.R.Savelyev** 02270 nömrəli (DQ) hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına... sonda Baş Kəşfiyyat idarəsinə «Məxfi arayış»ını təqdim edir. O, son arayışlarını «zabit Puqaçov» imzası ilə göndərib.

Araşdırmalarımızm nəticəsi olaraq, bu arayışın mətnilə tanış olduq. Polkovnik erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək, fakt və sənədlərdə, «Agentura»nın gücü üə əldə etdiyi informasiyalarda bütün olub-keçənlərin şərhini verib, etiraf edir: «...Mən bütün bunları yazmaya bilmərəm. İnsanlarm, uşaq və qadınlarm, hamilə gəlinlərin gülədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy, azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım məxfi arayışı həm Kremlə, həm də MN BKİ-nin generallarına göndərdim. Biz rusların zabit şərəfi görün, necə ləkələndi...»

...Fransada çıxan «Frans katalikekkezia»-aylıq jurnalında «Hücumdan öncə» yazısını çap etdirən erməni jurnalisti Belain Siracyan yazır: «Xocalını gözlərimlə gördüm». Hər yerdən qan iyi gəlirdi. Qar üstündəki kimsəsiz, sahibsiz cəsədlərdən qorxdum... Qorxdum ki, bu qan üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmasın... Bu gün ruslar bizimlədir. Bəs sabah? Biz tənha qala bilərik» (1992-ci il 12 mart).

1992-ci ilin yanvarında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış «ASALA» erməni terrorçu təşkilatının bir qrup üzvü-26 nəfərlik dəstə, mayor Aşin Simonyanın başçılığı ilə Xankəndinə göndərildi. Onlar 366-cı alayın içərisində asanlıqla öz dayaqlarını qura bildilər. General Zarviqarova nəğd 36 min ABŞ dollarını tanışlıq üçün «hədiyyə» etdilər («Krunk» bülleteni, 1992-ci il). Məlumata görə, 23-cü diviziyanın komandiri, general-mayor Boris Budeykin polkovnik Zarviqarovu buna görə ittiham da edib. Dördüncü ordu komandanlığı qarşısında onun «zabit şərəfinə xəyanət» üstündə azad olunmasını, qovulmasını tələb edib.

Lakin bütün bu ittiham və tələblərə baxan yox idi. Çünki qanunlar işləmirdi.

Polkovnik V.Savelyev «Məxfi arayış»ında yazır: «...Əslində millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı alay ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda polkun ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı...»

...Məlumata görə, 1992-ci il fevral ayının 4-də Roma Papası II İohan Pavelin Dağlıq Qarabağ özünümüdafiə dəstələrinə (!) və rus qoşun birləşmələrinin generallarına, eləcə də «Diaspor könüllülərinə» (?) məxfi məktubu daxil olur. Roma Papası erməni müdafiə dəstələrinə «Allahdan aldığı gücü» göndərirdi. Ruslara, eləcə də xristian dünyasına anlatmağa çalışırdı ki, bu vuruşma «dini vuruşma»dır.

Roma Papası Dağlıq Qarabağ uğrunda vuruşması həm də «...Din uğrunda vuruşma» kimi qiymətləndirib yazırdı: «...İmkan olarsa, Xocalıya gəlib orada həlak olan erməni qardaşlarımın vuruş və döyüş məkanlarında baş əyəcəm...» (O, sentyabr ayının 25-də 2001-ci ildə Ermənistanda oldu... ölənlərin ruhuna dua oxuyub əklil qoydu.

Fevral ayının 25-dən 26-na keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V. Savelyev «Məxfi arayış»ında qeyd edir: «... Üçüncü batalyon Xocalı işğal olunan gecə müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı alay isə ərazidən çrxarılmadı. Ordu, sadəcə, tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. «Böyük Ermənistan» adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu, hələlik açıq qalmış bir məsələdir...» Polkovnik V. Savelyev daha sonra yazır: «...Alayın çıxarılmasında 608-609 hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın:

- General-polkovnik Qromov
- General-leytenant Qrekov
- General-leytenant Ohanyan
- İ.Andropov-deputat
- Polkovnik Zarviqarov
- Polkovnik Kraule.

Dördüncü ordu 23-cü motoatıcı diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratdı».

## İKİÜZLÜ SİYASƏT

Ermənistan uzun illərdir ki, Azərbaycana və Türkiyəyə qarşı terror aksiyaları törədir, minlərlə günahsız vətəndaşımızı öldürür! Hazırda Ermənistan tərəfindən işğal olunmuş və Azərbaycanın nəzarət edə bilmədiyi Dağlıq Qarabağın ərazisində beynəlxalq terrorçu qruplar hazırlanır, narkotik bitkilər becərilir. Ermənistan terrorçuların təlim-məşq bazalarının yerləşdirildiyi həmin ərazilərdən eyni zamanda narkotik bitkilərin tranziti məqsədilə də istifadə edir.

Qazanılan vəsait isə silah-sursat alınmasına, ölkənin millitaristləşdirilməsinə yönəldilir. Bu barədə İlham Əliyevin rəhbərlik etdiyi deputat qrupu AŞPA-da məlumat vermiş, rəsmi sənəd yayılmışdır. İndi Ermənistan riyakarlıq göstərərək terrorizmə qarşı çıxdığını bildirir. Lakin sözü ilə əməli üst-üstə düşmür, nəzarətində olan terrorçu qruplaşmaları və onların təlim-məşq bazalarını ləğv etmir.[109]

Yeri gəlmişkən, Ermənistan-Azərbaycan münaqişəsinə dair ATƏT-in Minsk Qrupu çərçivəsindəki tənzimləmə prosesi yenidən aktivlik fazasına qədəm qoyub. Həmsədr dövlətlər yenə kompromis və güzəştlərdən danışırlar. Ancaq nədənsə,

[109] Bəxtiyar Sadıqov. Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizənin fəal iştirakçısıdır. -«Azərbaycan», 11.01.2002. N 8 (3020).

kompromis çağırışlarmda da qeyri-bərabərlik elementləri hiss edilməkdədir. Güzəştlərdən danışan həmsədrlər münaqişə tərəflərinin statuslarını yaddan çıxarırlar: işğalçı Ermənistanla ərazisinin 20 faizi işğal olunan Azərbaycandan eyni addımlar gözlənilir. Ermənistanın kompromisinin nədən ibarət olduğunu anlamaq problem deyil. Azərbaycanın isə 20 faizi işğal olunub, bir milyonadək qaçqını var.

20 faiz ərazi və bir milyonadək qaçqın. Belə ciddi rəqəmləri tənzimləmə prosesini, demək olar ki, nəzərə almayan ATƏT-in Minsk qrupu nisbətən xırda statistik göstəricilərdən də «xəbərsiz»dir. Əslində bu Qarabağ müharibəsi yüzlərlə ailəni gözü yaşlı qoyub. Bugünkü rəsmi göstəricilərə əsasən 4.959 nəfər hərbi əməliyyatlar nəticəsində itkin düşüb və Ermənistan indi də onların mövcudluğunu inkar edir. Onlardan 71-i uşaq, 326-ı qadın, 358-i qocalardan ibarətdir. Beş minədək itkinin taleyindən heç bir məlumat yoxdur və Ermənistanın müharibə qurbanlarının müdafiəsi haqqında Cenevrə konvensiyasının prinsiplərinə dünya ictimaiyyətinin göz yumması bu gün də bir fakt kimi aktuallığını itirməyib.

**1994-cü il fevralın 16-da Ermənistan XİN-in yaydığı mətbuat açıqlamasında bildirilirdi ki, Yerevanda atışma zamanı əsirlikdən qaçan 40 nəfər azərbaycanlı öldürülüb. Təbii ki, bu absurd bir bəyanatdır. Ən azı ona görə ki, əsirlərin hansı şəraitdə saxlanılması baxımından onların zindanlardan qaçmaları mümkün deyil. Azərbaycan tərəfinin tələbi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə Bakıya gətirilən 10 hərbi əsirin meyidləri üzərində məhkəmə ekspertizası aparılıb. Əlavə laborator, məhkəmə-kimyəvi, məhkəmə-kistoloji, məhkəmə-bioloji və tibbi-kriminal təhqiqatlar nəticəsində müəyyən olunub ki, 8 meyidin baş hissəsində güllə yeri var, onlardan 3-nün başına güllə silahı dirəməklə vurulub, qalanları isə güllə yarasını çox yaxın məsafədən alıblar. Meyidlərdən birinin ürəyi, böyrəyi və bir qulağının olmaması aşkar olunub. Daha iki meyidin birinin hər iki, digərinin sağ qulağının kəsildiyi, başqa bir meyidin sinəsində güllə dəliyi, bir meyidin qabırğalarının sınması və halsızlıqdan həlak olması aşkarlanıb. Aprelin 7-8-i(1994) Britaniyanın «Həkimlər insan hüquqları uğrunda» təşkilatı, Beynəlxalq hüquq və sosial tibb akademiyası prezidiumunun üzvü Derek Pauderin təkrar təhqiqatında da eyni nəticələr əldə olunub.**

Azərbaycanda hazırda yüzlərlə erməni əsirliyindən dönən vətəndaşımız var. Onların əksəriyyəti fiziki cəhətdən əlildirlər. İçərilərində mənəvi əlillər də yox deyil. Onların bir neçəsi barədə qısa məlumat verək.

Erməni əsirliyindən dönən **Əmrəliyeva Arzu Binnət qızı** (hazırda Gəncə şəhərində yaşayır) danışır ki, aprelin 18-i 1993-cü ildə onunla əsirliyə düşən 30 nəfərdən 19-u yerindəcə güllələnib. Onların içində Arzunun həyat yoldaşı, anası, bacısı, qayınatası, qaynı, baldızı və əmisinin həyat yoldaşı olub.

57 yaşlı **Hüseynov Həsən Məcid oğlu** (Bakıda yaşayır) isə deyir ki, Horadizdə əsir düşən 40 nəfərdən 26-sı güllələnib. Kəlbəcərin işğalı zamanı MTN tərəfindən qeydə alınan radio danışıqlardan məlum olub ki, erməni komandirlərdən biri tabeçiliyində olanlara beynəlxalq təşkilatların nəzarətinə düşməsin deyə bütün əsir və girovları güllələməyi əmr etmişdir.

Əhmədov Binnət Abdulla oğlu (Kəlbəcər sakini, hazırda Gəncədə məskunlaşıb) 3 erməni hərbçisinin 10-dan çox həmvətənimizi öldürdüyünün şahidi olub.

62 yaşlı **Alışanov Budaq Əli oğlu** Drambon kəndində bir ermənin fiziki işlərdə işlətdiyi 5 nəfəri güllələdiyinin şahidi olub.

1994-cü il sentyabrın 15-də əsirlikdən dönən **Nuxayeva Rəisə Şirin qızı** danışır ki, əsirlikdə **Kərimova Səmayə** ona qarşı edilən təhqirlərə dözməyərək həyatını qəsdlə qurtarıb. Onun 2 yaşlı qızı **Nurlanənin** isə başından aldığı yaralardan gözləri kor olub.

15 yaşlı **Məmmədova Nəzakətin** gözü qarşısında atasının qulağı kəsilib, təhqir olunub. Şantaj nəticəsində Nəzakətin anası ağlını itirib. Qızını sonra ona 4 milyon rubla satıblar.

Füzuli rayonunun Kürdmahmudlu kəndinin sakini **Ağayev Mürvət Famil oğlunun** gözləri qarşısında oğlu Yaşar öldürülüb, özü döyülüb və qulağı kəsilib. Daha sonra əlləri bağlanan **Mürvət** kişini ağacdan asıblar və ayaqlarını tonqalda yandırıblar. Hazırda o Beyləqanda məskunlaşıb.

1994-cü ildə əsirlikden qayıdan **Əhmədovların** sözlərinə görə, gözləri qarşısında Füzuli rayonunun Qacar kəndinin 25 nəfər sakini güllələnib.

Kəlbəcərin işğalı zamanı əsirliyə düşən **Məmişova İmarətin** gözləri önündə 8 nəfər, o cümlədən onun 8 yaşlı oğlu Taleh erməni cəlladları tərəfindən yandırılıb. İmarətin digər oğlu-10 yaşlı **Yadigar** isə bir neçə uşaq, qadın və qoca ilə Xankəndinə aparılıb.

**Xuduyeva Gülsümün** sözlərinə görə, əsirliyə düşən həyat yoldaşı **Aslan Mirzəyev və qızı Afət Mirzəyeva** güllələnib. Afətin, 7 aylıq körpəsi qalıb. Anasına güllə dəyən zaman 7 aylıq **Babəkin** də gözünə qəlpə düşüb. Hazırda balaca Babəkin bir gözü görmür.

1926-cı il təvəllüdlü Şevelyev Vladimr 22 iyul 1993-cü ildə Ağdamda əsir düşüb. Sıravi sakinlərə qarşı ermənilərin kobud davranmayacağına inanan, üstəlik rus olduğundan ona toxunulmayacağını güman edən Şevelyev Ağdamda qalıb. Nəticədə anası, bacısı, xəstə qardaşı güllələnib. Onun sözlərinə görə, küçədə partladılmış tankın yanında qadın və uşaq meyidləri olub.

20 yaşlı **Atakişiyev Fərhadın** üzərində aparılmış məhkəmə-tibb ekspertizası zamanı müəyyən olunub ki, o, mütəmadi olaraq döyüldüyündən həyatını itirib.

Əsirliyə düşən insanların böyük hissəsini ailəliklə ermənilərin əlinə keçən şəxslər təşkil edir. Xocalının işğalı zamanı **Məmmədovlar** ailəsindən 6 nəfər, o cümlədən 3 qadın, Kəlbəcərin işğalında 15 nəfərdən ibarət **Quliyevlər** ailəsi, Füzulinin Gərazıllı kəndindən bir ailədən 19 nəfər (böyüyünün 80, kiçiyinin isə 4 yaşı olub) əsirliyə düşüb.

Rəsmi məlumatlara görə isə hazırda Ermənistanda 783 nəfər azərbaycanlı əsir var. Onlardan 18-i uşaq, 43 qadın, 56-sı isə yaşlı şəxslərdir.

Rəsmi statistikaya görə, əsirlikdə indiyədək 176 vətəndaşımız həlak olub.

Yeri gəlmişkən, 1994-cü ilin mayından, yəni atəşkəsin imzalanmasından sonra başlanan əsir dəyişmə prosesi ərzində Ermənistan daim heç bir əsirin saxlanılmadığı barədə bəyanat verib. Ancaq son 9 il ərzində 1.092 nəfər erməni əsirliyindən azad olunub. Əsirlərin əksəriyyəti uşaq, qadın və qocalardır. Bu etnik təmizləmə və soyqırımıdır.[110]

Ermənistanın xüsusi xidmət idarələri həmişə azərbaycanlı girovları terrorçuluğa sövq etməyə cəhd göstərmişlər.

2001-ci il noyabrın 28-də Milli Təhlükəsizlik Nazirliyində bu yaxınlarda Beynəlxalq Qızıl Xaç cəmiyyətinin köməyi ilə erməni əsirliyindən xilas edilmiş üç azərbaycanlı ilə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının sakinləri **Məhəmməd Ocaqverdiyev və Etibar Əliyev** Ermənistanla sərhəd yaxınlığında olarkən erməni hərbi qulluqçuları tərəfindən tutulmuşdular. Laçın rayonunun sakini **Barxudar Rüstəmov** Ermənistan silahlı qüvvələrinin işğal etdiyi doğma kəndinə baş çəkmək üçün erməni hərbçilərinə pul verib oraya getmiş və əsir alınmışdır.

Əsirlərin dediklərinə görə, onlar Yerevana aparılmış, orada olmazın təhqirlərə və işgəncələrə məruz qalmışlar. Ermənistan xüsusi xidmət idarələri əməkdaşlarının başlıca məqsədi vətəndaşlarımızı Azərbaycan ərazisində terror əməlləri törətməyə və ölkəmizin tanınmış siyasətçilərinə sui-qəsd etməyə sövq etmək idi.

**Məhəmməd Ocaqverdiyev** bildirmişdir ki, Ermənistanın xüsusi xidmət idarələri onları Azərbaycanda sıravi adamların hüquqları tapdandığına, iqtisadi sabitlik olmadığına görə Azərbaycan vətəndaşlarından imtina etmələri, onlara Ermənistanda siyasi sığınacaq verilməsi barədə məktubu işgəncələr nəticəsində Ermənistan televiziyası ilə oxumağa məcbur olmuşlar. Keçmiş girov vurğulamışdır ki, bununla da Ermənistanın xüsusi xidmət idarələri İlham Əliyevin beynəlxalq forumda çıxışı ərəfəsində onu nüfuzdan salmaq məqsədi güdürdü.

MTN hospitalının baş həkimi Rəhim Səfərov görüşdə çıxış edərək demişdir ki, azərbaycanlı girovlar naməlum mənşəli tibb preparatlarının təsirinə məruz qalmış onların bədənlərində yanıqlar, çapıqlar aşkara çıxarılmışdır.

MTN mətbuat xidmətinin rəhbəri Araz Qurbanov bildirmişdir ki, 1994-cü ildən bəri Ermənistan tərəfi onlarda cəmi 50 girov olduğunu etiraf etsə də, ötən dövrdə 1.100 vətəndaşımız əsirlikdən buraxılmışdır. Onlardan yalnız 14 nəfər xüsusi xidmət idarələri ilə əməkdaşlığa və terror aktları törətdiklərinə, hərbi əsirlərə qarşı təhqiramiz hərəkətlərinə görə məhkum olunmuşdurlar.

## ERMƏNİSTANDA ƏSİR DÜŞƏRGƏLƏRİ

Əsir düşərgələrində ermənilərin əsir və girov götürülmüş qadın və qızlarımıza edilən zülm və işgəncələrinin bəşər tarixində tayı-bərabəri olmamışdır.

Ermənilər Azərbaycana qarşı daima müharibə xofundadır. Atəşkəs və sülh danışıqları dövründə onların əsir düşərgələri tikmələri buna sübutdur.

Məlumata görə, ermənilər may ayının 26-da (2000-ci il Leğe knadsor yaşayış məntəqəsində (Ermənistanın cənub hissəsində) 400 nəfərlik qadın həbsxanası istifadəyə veriblər. Əsir götürülmüş azərbaycanlı qadınların təqribən 60 nəfəri burada saxlanılır. Bundan əlavə, Ermənistan və Dağlıq Qarabağ ərazisində 1994-2000-ci illər ərzində inşa edilən (əsasən Argentina, Portuqaliya, Əfqanıstan, Rusiya, İran, Çin fəhlələrinin əli ilə tikilən) və bilavasitə azərbaycanlıların salındığı əsir düşərgələrinin sayı hələlik aşağıdakı qədər müəyyənləşdirilmişdir:

1) Vardenis (Basarkeçər)-uşaq düşərgəsi (250 nəfərlik);
2) Qetaşen (Martuni rayon ərazisi-qərb hissədə) qadın düşərgəsi (380 nəfərlik);
3) Çermuq (Şərqi Ermənistan)-qadın düşərgəsi (250 nəfərlik);
4) Razdan (Qərbi Ermənistan)-uşaq düşərgəsi (180 nəfərlik);
5) Kəlbəcər ərazisi (Zar kəndində-cənub hissədə)-qadın düşərgəsi (150 nəfərlik);
6) Xankəndi ərazisi (Kərkicahanda-cənub hissədə)-uşaq düşərgəsi (180 nəfərlik). Hər düşərgənin ərazisində də ad və ünvanı məlum olmayan qəbirstanlıqlar salınıb. Məsələn Kərkicahan ərazisindən uşaq düşərgəsində ana və uşaqların birgə dəfn olunduğu qəbirlərin - adsız, ünvansız məzarların sayı hələ ki, 28-də dayanıb. (Rəşt şəhəri «Xəzər» məcmuəsi. İran, 1996-cı il, may, səh 26).

Araşdırmalara görə, 1992-ci ilin mayın 13-də isə İsfahanda erməni icmasının iclas salonunda fars mənşəli Yadigarinin Şuşadan çəkib gətirdiyi sənədli kadrlar nümayiş etdirildi. Həmin kadrlarda müxtəlif üsullarla öldürülmüş 114 azərbaycanlının taleyindən xəbər verilirdi. Mayın 14-də Tehran rəsmiləri həmin kadrları göstərməyi qadağan edir. Mayın 14-də Tehran vaxtı ilə saat 22:00-da rejissor Yadigari həmin sənədli (18 dəqiqəlik lenti) kadrları RF-nin Tehrandakı səfarətxanasında, diplomat Qudev soyadlı birisinə satır («Keyhan» qəzeti, «Müsahibə» yazısı. 1992 N214, səh.6).

Yadigari bunu da qeyd edir ki, Şuşanın qərbindəki Xəlfəli yaşayış məntəqəsində «...gördüklərimdən sarsıldım...» Rejissor Yadigari daha sonra qeyd edir: «...Mən bütün bunlar haqqında, ermənilərin Şuşada gəzib-dolaşan, öldürülmüş adamları təhqir edən ermənilərin və rusların «Lur» informasiya agentliyinə danışdım... Onlar isə öz işlərində idilər. Ölüləri soymaqla, onlara əzab-əziyyət verməklə məşğul idilər... Mən qərara aldım ki, çəkdiyim Şuşa kinosunu, heç olmazsa, Türkiyəyə ötürə bilim...»

**Haşiyə:** ***1993-cü ilin aprelin 19-da «Keyhan» qəzetinin 8-ci səhifəsində belə bir elan verilir ki, 37 yaşlı Əhməd Bağır Yadigari adlı cavan rejissor avtomobil qəzasından həlak olub...***

Rusiyanın Tehrandakı səfiri Vladimir Qudevin Ağaye Yadigaridən aldığı 18 dəqiqəlik sənədli lent isə XİN-ə, oradan da Baş Kəşfiyyat İdarəsinin arxivinə verilir.[111]

---

[110] Qaraxanlı. Ermənistanda 783 nəfər əsir var - «Yeni Azərbaycan», 18.07.2001.

Bütün bunları müşahidə edən və müəyyən mənada yarımçıq açıqlamalar verən İsveç diplomatı Lan Eliassonun fikrincə: «...Bütün beynəlxalq aləmdə həyəcan təbili çalınmalıdır. Mən Xankəndində azərbaycanlı əsirlərin... onlara verilən işgəncələrin şahidi oldum» .[112]

«Aztaq» qəzeti (Livan) 1992-ci il oktyabrın 4-də dərc etdiyi «Erməni əsirləri» adlı yazısında isə göstərir: « ...əsirlərin - Şuşada alınmış ilk əsirlərin sayı 16 nəfərdir. Onların hamısı uşaqlardır». Qəzet daha sonra yazır: «Bu uşaqlar qan içində qalmışdılar. Onların bir qisminin üstünə örtük çəkilmiş maşınlara yığıb, şəhərdən çıxartdılar...»

Bunu isə qəzetin erməni müxbiri (Bu qəzet ilk erməni qəzeti idi ki, Şuşada öz müxbir məntəqəsini yaratmışdı) Erem Lalayan yazırdı. Amma araşdırmalarımız bizim üçün başqa mənzərə açırdı. 1992-ci ilin noyabr ayının 4-də Ermənistan MN-in hərbi hospitalında həkim-cərrah işləyən Armen Baqdasaroviç Baqdasaryan keçirilən müşavirədə (müşavirə Bakı vaxtı ilə saat 17:30 dəqiqədə başladı, saat 21:10 dəqiqədə tamamlandı) Şuşada yaradılmış «amputasiya» otaqlarının bağlanmasını tələb edir (Bu faktı unutmayın)... Lakin müşavirə iştirakçılarının 11 nəfəri onun əleyhinə səs verdi və onun işdən çıxarılması məsələsini qoydular. 1992-ci ilin noyabr ayının 7-də hərbi həkim A. Baqdasaryan vəzifəsindən çıxarılır...

Amma erməni həkiminin etirafı həqiqi etiraf idi. Şuşada Dağlıq Qarabağın tarixində ilk amputasiya otağı yaradılmışdı. Bu otaqlarda güllə yarası almış və eləcə də döyüşlər zamanı əzilmiş, minaya düşmüş... uşaqların dağılmış əzaları kəsilib atılır, bəzən bilərəkdən onların gözlərini çıxarıb, barmaqlarını qırırdılar. Sonra şikəst, sıxıntıdan və ona-buna əl açıb dilənməkdən savayı heç bir işin qulpundan yapışa bilməyən... azsaylı uşaqlardan ibarət gəlir, varlanmaq mənbəyi kimi istifadə edilir.[113]

Yerevanda «amputasiya otaqları»ndan keçirilən... əlil və şikəst övladlarımızdan bəzilərinin adları tam olmasa da əldə edilmişdir:

1. Həsənova Zəhra Mürşid qızı (Qubadlı)
2. Qəhramanov Elçin Babayar oğlu (Qubadlı)
3. Zehniyev Həsən Almurad oğlu (Zəngilan)
4. Səfərova Aytəkin (Qubadlı)
5. Nağıyev Xurşid Əflatun oğlu (Cəbrayıl)
6. Balabəyov Canişin Əhmədağa oğlu (Zəngilan)
7. Məmmədova Zərintac Sakitağa qızı (Zəngilan) Bu uşaqların toplanmasında, bir yerə yığılmasında qeyri-leqal «Erməni Ayparası», onun lideri, keçmiş hərbiçi Yeqo Saaktyan xüsusi canfəşanlıq göstərib (“Ararat”. Erməni icmasının qəzeti. İsfahan. 2000)[114] «Amputasiya otaqları»ndan keçirilmiş sifətləri və bədənləri tanınmaz hala düşmüş, nitq və görmə, eşitmə qabiliyyətlərini itirmiş, ölənədək əlil arabalarında sürünmüş həmin uşaqların taleyi hələlik qapalı qalır...

Əldə edilən digər məlumatlara görə, Ermənistanın Nairi rayonu ərazisində (təqribən 1,5 km şimal istiqamətində) Lusoker qəsəbəsində («Sevan» gölü yaxınlığında), Dilican ərazisində... vaxtilə əsir alınmış (1992-1993 cü illər) qadın və qızlarımızın, şikəst olunmuş, əlil arabalarına «qoşulmuş» uşaqlarımızın xarici iş adamlarına satılması, «bağışlanması» üçün... xüsusi qulbazarları var...[115]

Moskvada çap olunan «Kriminal xronika» qəzeti yazırdı: «...Milli münaqişələr zamanı yüz minlərlə uşaq ata-anasını, ev-eşiklərini, isti ocaqlarını itirdi. Onlar kimsəsiz və tənha qaldılar. MDB məkanında bu faciənin əlamətlərinə Azərbaycanda, Tacikistanda, Moldovada, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda daha çox rast gəlinir. Bu atılmış və yaxud əsir alınmış uşaqlar müxtəlif qrup və birləşmələr tərəfindən satın alınır, «amputasiya edilir», «dilənçilik biznesi»ndə və yaxud üzv orqanlarının kəsilib satılması sahəsində fəaliyyət göstərən cərrah otaqlarında əsl gəlir mənbəyinə çevrilirlər...

Moskvada və Krasnodarda... «dilənçilik biznesi»də «işləyən», milliyəti bilinməyən şikəst və əlil uşaqların hər biri «xozeyinə» gündə 200 dollar və yaxud 400-450 min rubl «haqq» verir... Onların «amputasiya otaqları» isə Çexov rayonunun sanatoriyalarındadır...» («Kriminal xronika» qəzeti. 2000-ci il 4 fevral, səh.2.)

Almaniya Federal Kəşfiyyat Xidməti (BND) isə 2000-ci noyabrın 16-da ölkə başçısına altı səhifəlik hesabat göndərir. «Həyəcan təbili» çalan bu hesabatda göstərilir: «...Almaniya ərazisində RF-ə və digər MDB ölkələrinə məxsus «həkim-cani» qrupları haqqında məlumatlar, sənədlər əldə etmişik. Bu qruplar qadağan olunmuş yollarla uşaqların və yaşlı adamların sağlam orqanlarının alqı-satqısı ilə məşğuldurlar. Bu uşaqların bir qismini Almaniya ərazisinə erməni, gürcü və çeçen «iş adamları» gətirir. Onlar müharibə şəraitində itkin düşən və əsir alınmış şəxslərdir... RF-in, eləcə də digər MDB ölkələrinin kəşfiyyat xidmətləri bu işdə acizlik və gücsüzlük göstərirlər. (Berlin «Morqen» qəzeti.2000.XI-16.)

---

[111] Ermənilər dünya terror təşkilatlarında. «Respublika» qəz.09.10; 03,15.14,18, 22,26. 12.2002.
[112] Ermənilər dünya terror təşkilatlarında-«Respublika», 01.10. 2002, N 226 (1562).
[113] Ermənilər dünya terror təşkilatlarında. «Respublika» qəz.09.10; 03,15.14,18, 22,26. 12.2002.
[114] Azad Nəbiyev. Milli təəssübkeşlik, yoxsa erməni saxtakarlığı?!-«Azərbaycan müəllimi» qəzeti, No 51, 20-26.12.2002 N2 1,3,9. 01.2003.
[115] «Dünyaya Pəncərə», N 10, (71), 12-19.07, 2001.

# ERMƏNİ LOBBİSİ VƏ ONUN BƏDNAM FƏALİYYƏTLƏRİ

ABŞ-da yaşayan etnik qrup, icma, milli azlıqlar vaxtilə çıxdıqları ölkənin mənafeyi uğrunda mübarizə aparırlar. Bu məqsədlə onlar özlərinin bütün iqtisadi, siyasi, hüquqi vasitələrindən istifadə edirlər. Onların vətənlərinə Amerika tərəfindən iqtisadi, hərbi, humanitar yardım göstərilməsinə çalışırlar. Beləliklə, indi ABŞ-da ən qüvvətli lobbi İsrail lobbisidir. Sonra yunan, erməni, tayvan və s. lobbilər gəlir.

Lobbistlərin əsas vəzifələri hər hansı xalqın mədəniyyətini, müxtəlif sahələrdəki uğurlarını, həyat tərzini yaymaq, onun lehinə təbliğat aparmaq, ABŞ ictimai fikrində müsbət fikir oyatmaq, ABŞ-la öz ölkələri arasında münasibətləri yaxşılaşdırmağa çalışmaqdır. Lobbistlərin başqa millətlərdən olması xüsusi əhəmiyyət kəsb edir. Məsələn, erməni olmayan bir lobbini Ermənistanın lehinə təbliğatı daha da inandırıcı görünür (Robert Doul).

Ermənilərin ABŞ-da yaşayan digər etnik qruplardan fərqi ondadır ki, onlar ümumən ermənilərin mənafeyini müdafiə edirlər.

Ermənilər ABŞ-a XX əsrin əvvəllərindən gəlməyə başlamışlar. Təkcə 1924-cü ildə Sovet İttifaqından və Türkiyədən 100 minə yaxın erməni ABŞ-a köçmüşdür. İndi ermənilər əsasən Kaliforniya, Massaçusest və Nyu-York ştatlarında yaşayırlar. Ümumiyyətlə, ABŞ-da 800 minə qədər erməni yaşayır. Bəzi mənbələrdə bu rəqəmin 1 milyon olduğu göstərilir. Yeri gəlmişkən, ABŞ-a köçüb gedən və daimi yaşayış üçün (XIX əsrin 90-cı illərində) ABŞ vətəndaşlığını qəbul edən ermənilərin sayı 80 min nəfər idi. 1999-2000-ci illərdə isə bu rəqəm 650-700 min nəfərə çatıb. Bu da Ermənistan əhalisinin 20 faizini təşkil edir.

Ermənilər orada bir çox məktəb, kitabxana, xəstəxana, dini, mədəni cəmiyyətlər yaratmış, universitetlərdə erməni dili və tarixi kafedraları açmışlar. Demək olar ki, bütün sahələrdə xeyli kadrları var.

ABŞ-dakı erməni lobbisi iki əsas istiqamətdə fəaliyyət göstərir:

1. Ermənizm ideyaları yaymaq, erməni mədəniyyətini qorumaq və inkişaf etdirmək, ABŞ-da mühüm siyasi-iqtisadi mövqe qazanmaq.

2. Türk və azərbaycanlılar əleyhinə mübarizə aprmaq, Türkiyə və Azərbaycan ilə ABŞ-ın münasibətlərini pozmaq.

ABŞ-dakı ermənilər siyasi cəhətdən çox fəaldırlar. Onların əksəriyyəti Respublikaçılar Partiyasının üzvüləri və tərəfdarlarıdırlar.

ABŞ-ın siyasi tarixində ilk dəfə erməni mənşəli Stevi Derunyan 1952-ci illərdə Nyu-York şəhərində konqresə üzv seçilmişdir. 1978-ci ildə isə Şarl Paşayan adlı bir erməni ABŞ nümayəndələr məclisinin üzvü seçilmişdir. Bu vaxta qədər o, bır müddət orduda strateji informasiya xidmətində çalışmışdır.

Həmin dövrlərdən etibarən ermənilər ABŞ dövlət aparatında bir sıra məsul vəzifələr tutmağa başlamışlar. Məsələn, Karterin vaxtında Riçard Manukyan adlı bir erməni ən «sadiq» işə, «əsərləri qoruma» xidmətinin rəhbəri təyin edilmişdi.

Erməni lobbisinin ən fəal rəhbərlərindən olan Kaliforniya valisi Corc Dükməcyan səkkiz il bu vəzifədə işləmiş və 1991-ci ildə vəzifədən getmişdir. Kaliforniya ştatı məclisin üzvü Valter Karabyan ABŞ siyasi dairələrində sözü keçən nüfuzlu şəxsiyyət sayılır. Dükməcyan prezident Ronald Reyqanın seçki kompaniyasında yaxından iştirak etmiş, «erməni mənşəli amerikan seçicilər» komitəsinin rəhbəri olmuşdur.

Vəzifədən gedən valinin şərəfinə Los-Ancelesdə düzəldilmiş vida ziyafətində erməni mənşəli 600 amerikan iştirak etmişdir. Ziyafətdə Dükməcyan ümidvar olduğunu bildirmişdir ki, bundan əvvəl onunla əl-ələ verib ümumi iş görənlər ruhdan düşməsin.

Dükməcyanın səkkiz il ştat valisi olması nəticəsiz qalmamışdır. O, siyasətdə də, vəzifə borcunun icrasında da soydaşlarının rəyi ilə həmişə hesablaşmışdır.

Kaliforniyanın indiki ali məhkəməsinin 7 üzvündən ikisi ermənidir: Onlardan biri - Armen Arabyan, ilk dəfə hakim vəzifəsinə 1972-ci ildə ştatın o vaxtkı valisi Reyqan tərəfindən təyin edilmiş, sonra isə ali məhkəmənin tərkibinə düşmüşdür; Marlin Bekster (Dazaryan) valinin yanında 5 il yüksək vəzifədə işləmiş, sonra bu tərkibə daxil olmuşdur.

Son illərdə Kaliforniya ştatında erməni icması üzvlərinin artması meyli güclənmişdir. Yeni sakinlər Sovet Ermənistanından olan qaçqınlar, 1988-ci il zəlzələsindən zərər çəkənlər, Amerikanın başqa yerlərindən yır-yığış edib siyasi cəhətdən daha «qonaqpərvər» olan Kaliforniya ştatına gələnlərdir. Los-Ancelesdə çıxan «Armenian observer» qəzetinin redaktoru Keşişyanın fikrincə ABŞ-da yaşayan ermənilərin 400 mini bu ştatda yaşayır.

Ümumiyyətlə, xaricdə bir şəhərdə kök salmış erməni kaloniyaları arasında ən böyük Los-Ancelesdədir, daha doğrusu Hollivuddadır.

Ermənilər kino biznesində nəzərə çarpacaq iz qoymuşlar. Onların həvəs göstərdikləri başqa bir sahə isə kənd təsərrüfatıdır. Mərkəzi Kaliforniya fermerləri arasında şöhrət qazanmışlar. İndi kişmiş və qoz istehsalında tam inhisarı öz əllərində saxlayırlar.

Ermənilərin tanınmış lobbiçilərindən bir də ABŞ-ın BMT-dəki daimi nümayəndəsinin sabiq müavini Set Mumcyandır. O, BMT-nin insan hüquqları komissiyasında ABŞ-ı təmsil etmişdir.

Eduard Cərəcyan ABŞ-ın Moskvadakı səfirliyində üçüncü katib işləmişdir. 1991-ci ilin yayından isə o, ABŞ dövlət katibinin müavini olmuşdur.

1972-ci ildə prezident Nikson üçün çalışmış Ken Xaçikyan Reyqanın prezident seçkisində «mirzə» vəzifəsində işləmişdir.

Ağ evdə humanitar elmlər üzrə milli proqram və siyasət şöbəsinə Armen Taşdikyan adlı bir erməni rəhbərlik edir. O, əvvllər Ağ evdə sənət və ədəbiyyat şöbəsinin müdiri olmuşdur.

ABŞ-ın erməni lobbisinə Amerika erməni məclisi rəhbərlik edir. Məclisin Vaşinqtonda mərkəzi, Los-Ancelesdə şöbəsi var. Sədri Ross Vartanyandır..

Mərkəzi Bostonda olan erməni inqilab federasiyası, erməni demokratik liberal partiyası, sosial demokrat «Hnçak» partiyası, Kaliforniya erməni konqresi, erməni tərəqqi partiyası, erməni milli komitəsi kimi partiya və dərnəklər də birbaşa lobbi fəaliyyəti ilə bağlıdır.

Ermənilər ABŞ-da 30-dan artıq qəzet və jurnal buraxırlar. Ən əsasları bunlardır: «Hayrenik» («Vətən»), «Armenian Uikli», «Paykar» («Mübarizə»), «Armenian Riporter», «Armenian Observer», «Kaliforniya Kuryer», Nor Or», «Nor Aşxar» qəzetləri və «Ararat», «Armenian revyu» jurnalları.

Bundan başqa ermənicə verlişlər verən iki radiostansiya fəaliyyət göstərir.

ABŞ konqresində ermənipərəst siyasət yürüdən konqresmenlər: Frank Annunsio, Henri Viksman, Ceyms Hovard, Edvard Boland, Berni Frank.

Senatorlar: Alan Karaniston, Karl Levin, Pelli, Tom Kalçin, Edvard Kennedi 011 Saymen, Far Levin, Qan Koks, Kristofer Daq, Dan Xeyz, Con Kerri, Fren Rozenberq, Roy Liberman, Kliben Telli, Donald Friql.

Yeri gəlmişkən, ABŞ-a yayılan güclü informasiya axmı erməniləri haqlı göstərir və onlara rəğbət oyadırdı. Bu işdə ermənilərin dini mənsubiyyəti də mühüm rol oynayır. Hadisələr başlanandan orada belə bir yanlış fikir hökm sürürdü ki, azərbaycanlılar qədim erməni torpağı olan Qarabağı zəbt etmişlər və ermənilər azərbaycanlıların əlindən zara gəlmişlər. Qarabağ və Ermənistan blokadadadır və s.

Hadisələri ilk əvvəl kim başlamışdır? Kim iddia irəli sürür? Bu suallara cavab tapmaq çətindir.

Burada bir faktı da qeyd edək ki, 50 milyonluq Azərbaycan xalqının 7 milyonu mühacirətdədir və bütün dünyaya yayılıb, amma zirək ermənilərin ümumi sayı 7 milyonu keçmir.

**Azərbaycana və ümumən türk xalqlarına qarşı dünyada 869 irili-xırdalı erməni təşkilatı vardır.** Xeyriyyəçilik adı altında fəaliyyət göstərən bu hərbi-siyasi, strateji qrumların maliyyə yardımları, proqram və sənədləri, dünyaya «diplomatik» çıxışları bilavasitə aşağıdakı erməni diaspor mərkəzləri tərəfindən tənzimlənir: 1) Erməni Katolik Kilsəsi (dünyanın 56 ölkəsində mərkəzi var. 2001-ci ilin iyun ayının 4-dən Xankəndində özəyi yaradıldı); 2) Amerikanın Erməni Assambleyası (iyirmi iki ştatı əhatə edir. 2001-ci il iyul ayının 14-də Dağlıq Qarabağda mərkəzi yaradılıb); 3) Erməni Hüquqçularının Assambleyası (Avropa Ölkələri üzrə); 4) Erməni Ümumi Xeyriyyə İttifaqı (mərkəzi Nyu-York, London. 2001-ci il iyul ayının 29-da Dağlıq Qarabağda şöbəsi yaradılıb); 5) Erməni Ümumdünya Yevangelist Şurası (Avropa ölkələri üzrə); 6) Amerikanın Erməni Missioner Assosiasiyası (MDB ölkələri istiqamətində 2001-ci il avqust ayının 3-də Dağlıq Qarabağda yaradıldı); 7) Amerikanın Erməni Milli Komitəsi; 8) Humanitar yardım göstərilməsi üzrə Şimali Amerika Erməni Cəmiyyəti (Dağlıq Qarabağda 2001-ci il martın 3-də yaradılıb); 9) Erməni Apostol Kilsəsinin Şərqi Yeporxiyası; 10) Erməni Apostol Kilsəsinin Qərbi Yeporxiyası; 11) Vartan cəngavərləri (2001-ci ildə Dağlıq Qarabağda resmi leqal qaydada fəaliyyətə başladı).

Erməni lobbisi dünya siyasətinə ciddi şəkildə nüfuz edir. Hər vasitə ilə «Əzabkeş» xalqın qeydinə qalır. Erməni maraq və mənafeyinə lazım olan iqtisadi və siyasi yardım etməkdən çəkinmirlər. Dağlıq Qarabağ probleminin dinc yolla həllinə mane olurlar, erməni təcavüzünə haqq qazandırmağa çalışaraq Azərbaycanı təcavüzkar adlandırırlar.

## ERMƏNİLƏRİN 1988-1991-ci İLLƏR FƏALİYYƏTİ

Ermənistanda həyata keçirilən etnik təmizləmənin yeni kütləvi dalğası SSRİ-nin süqutunun son illərinə təsadüf etdi: 1988-ci ilin qışından başlayaraq Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə başlandı. «Türksüz Ermənistan» şüarı altında həyata keçirilən etnik təmizləmə nəticəsində Ermənistan hakim dairələrinin himayəsi və Moskvanın razılığı əsasında hazırki Ermənistan adlanan dövlətin ərazisindən 53 mindən artıq ailə, (49 min azərbaycanlı ailəsi, 4 min müsəlman kürdü ailəsi) 250 min nəfər (230 min azərbaycanlı, 20 min müsəlman kürdü) insan məcburi qaydada deportasiya edildi. Onların hamısı mənzil və əmlaklarından məhrum olundu.

**Qeyd.** Bundan başqa soyqırımının sonrakı mərhələlərində (Xocalıda, Malıbəylidə, Nüvədidə, Goranboyda, Ağcakənddə, Azərbaycanın digər işğal olunmuş ərazilərində Ermənistan azərbaycanlılarından 280-dən artıq dinc əhali qətlə yetirilmişdir). Həmçinin Gümrü (Leninakan) uşaq evindən olan 70 uşaq Spitakda diri-diri böyük enkəsikli borulara doldurulub borunun ağzı qaynaqlanmışdır. Qarabağ müharibəsində Ermənistan azərbaycanlılarından vuruşan vətənpərvərlərin 2.000-i həlak olmuşdur. Azərbaycanın yerli əhalisindən isə 20.000 insan (uşaq, qadın, qoca) şəhid olmuşdur.

1) Mənəvi və fiziki terror, ardı-arası kəsilməyən təqiblər, kütləvi qırğın təkcə Ermənistanda yaşayan azərbaycanlıları deyil, Azərbaycan dilində təhsil alan müsəlman kürdlərini də (20 minə yaxın), yezidiləri də, hətta rusları və malakanları da öz doğma yurdlarından didərgin salmışdır. Özünü demokrat adlandıran, demokratiyanın bayrağı altında hakimiyyət başına gələn L.Ter-Petrosyanın 1991-ci il avqustun əvvəllərində Abovyan (Kotayk) rayonuna gələrək orada yığcam yaşayan yezidilərlə görüşmək niyyəti də məhz elə bununla bağlıdı. Respublika prezidenti dünyaya səs yayılmasın deyə, burada yaşayan kürdlərə vədlər verir və onları öz yurdlarını tərk etməməyə çağırırdı.

2) Ermənistan azlıqda qalan millətlərin köçürülməsinə «Komsomolskaya pravda» qəzetinin «Qarabağ-müharibənin beşinci ili» (25 fevral 1992-ci il) məqaləsində çox obyektiv qiymət vermişdir: «Öz müqəddəratını təyin etmək anlayışının milli azlıqların öz dövlətini yaratmaq hüququnun üstünlüyü kimi başa düşülməsinin son dərəcə mücərrədliyi nə milli azlıqların mədəniyyətinin qorunub saxlanmasına, nə dünya birliyinin diqqətinin insan hüquqlarına qeyd-şərtsiz əməl olunmasına, yönəldilməsinə, nə də inteqrasiyaya və əməkdaşlığa deyil, məhz adamları ayıran sərhədlər naminə getdikcə artan qırğına labüd surətdə gətirib çıxaracaq və artıq gətirib çıxarmışdır. Elə o Ermənistanın özündə milli azlıqlar əslində qalmamışdır, azərbaycanlıların ardınca kürdləri də «müvəffəqiyyətlə» pərən-pərən salıb qovurlar...»

Qaçqınlığın fənalığı bir də onunla izah edilir ki, hökumət səviyyəsində, bütün rayonların partiya-sovet təşkilatlarının, inzibati orqanların bilavasitə iştirakı ilə, silah gücünə, qanlı qırğınlarla cəmi bir həftə ərzində Ermənistandan qovulan Azərbaycanlılar Azərbaycanın bütün rayonlarına elə səpələnmişlər ki, hər bir kəndin əhalisi bir neçə rayona və kəndə köçməli olmuş, bəzən qardaş da qardaşdan ayrı düşmüşdür. Ermənistanda mövcud olan 216 məktəbin 45.000 (1988) şagirdi və 14.000 müəllimi Azərbaycanın müxtəlif rayon və kəndlərinə səpələnmişdir.

4) Qaçqınların sayının dəqiqləşdirilməsi də axıra çatdırılmamışdır. İtirdikləri mülkiyyətin, evin, ev əşyalarının kompensasiyası hələ də ödənilməmişdir. İtkilərin hesablanması sahəsində də az iş görülmüşdür.

5) Əlbəttə, didərginlərin ana yurdunda qoyub gəldikləri sərvəti, varidatı dəqiq hesablamaq çətindir. Bu sahədə səhih məlumatlar toplamaq üçün geniş axtarış, ciddi tədqiqat, müfəssəl hesablamalar gərəkdir. Lakin hələlik belə imkanlar məhduddur. Problemin ciddiliyini nəzərə alaraq hələlik əlimizin altında olan elmi, statistik sənədlərə istinadən nə itirmişik və ya vətəndə nələrimiz qaldı suallarına qısaca olaraq aşağıdakı təqribi hesablamaları oxucuların diqqətinə çatdırırıq. Erməni sovet ensiklopediyasının məlumatlarına görə Ermənistanda 37 kənd rayonu vardır. 1988-ci ilədək bu rayonların 16-da Azərbaycanlılar qismən tam əksəriyyəti təşkil etmiş, qismən də yığcam yaşamışlar. Respublikanın digər rayon və şəhərlərində də xeyli azərbaycanlı yaşamışdır. Lakin onların öz ev-eşiklərini tərk edərkən qoyub gəldikləri, itirdikləri əmlakın hesablanması üçün əlimizdə sənədlər yoxdur. Hesablamalara görə azərbaycanlıların yığcam yaşadığı 16 rayonun ərazisi 15.467 kvadrat kilometrdir. Bunun 10 min kvadrat kilometrdən çoxu azərbaycanlıların məskunlaşdığı yerlərdir. Bu ərazidə azərbaycanlıların sırf 179 və 80 beynəlmiləl kəndi, 131 kolxoz və sovxozu bütün var-dövləti, mülkiyyəti ilə Ermənistanda qalmışdır. Təqribi hesablamalara görə didərginlərin Ermənistanda 677.850 ha torpaq fondu, 209.020 baş qaramal, 577.090 qoyun-keçi, 289.000 quş, ildə 3 milyon manat gəlir verən qızıl ala balıq sovxozu, 6.200 arı ailəsi, 3 min traktor, 450 kombayn, 4.600 yük maşını, 21.560 ha üzüm və meyvə bağları, 2 milyon kvadratmetr mənzil sahəsi, 50.000 ha həyətyanı torpaq sahəsi qalmışdır. Bundan əlavə sənaye müəssisələrində, kooperativ təşkilatlarında, şəhər təsərüfatlarında, mədəniyyət və maarif ocaqlarında azərbaycanlılara çatan pay bütövlükdə Ermənistana qalmışdır.

Kütləvi deportasiya insanların qətlə yetirilməsi və bədən xəsarəti alması ilə müşayət olunurdu. 3 gün ərzində -1988-ci ilin noyabr ayının 27-dən 30-dək Ermənistan SSRİ-nin Quqark (Böyük Qara kilsə), Spitak (Hamamlı), Stepanavan (Calaloğlu) rayonlarında 70 nəfər azərbaycanlı öldürülmüşdür. Onların 15-i Spitakın Saral və Qursalı kəndlərindən, 7 nəfəri Stepanavandan, 17 nəfər Quqarkın Vartan-Əli kəndindən, 49 nəfər Vardenis (Basar Keçər) rayonundan olmuşdur. Ümumiyyətlə, Azərbaycan Respublikası Prokurorluğunun məlumatlarına əsasən 1988-1989-cu illərdə Ermənistanda aparılan etnik təmizləmə dövründə 217 nəfər Azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir. Onlardan 49 nəfər divan tutulmaqdan qorxub qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla doyülüb öldürülmüş, 35 nəfər uzun işgəncələrdən sonra öldürülmüş, 15 nəfər diri-diri yandırılmış, 16 nəfər güllələnmiş, 10 nəfər təhqirlərə dözməyib infarktdan ölmüş, 2 nəfər xəstəxanada erməni həkimləri tərəfindən öldürülmüş, 3 nəfər suda boğulmuş, 1 nəfər asılmış, 1 (bir) nəfər əzablardan qurtarmaq üçün özünü öldürmüş, 1 nəfər elektriklə öldürülmüş, 2 nəfərin başı kəsilmiş, 29 nəfər qəsdən avtomobil altına salınmaqla öldürülmüş, 3 nəfər xəstəxanada olarkən tibbi xidmət göstərilməməsi nəticəsində ölmüş, 9 nəfər oğurlanmış və xəbərsiz itkin düşmüşdür.

Özünü sivilizasiyalı, insanpərvər, əzabkeş, az qala zavallı kimi qələmə verməyə yorulmadan cəhd göstərən erməni quldurlarının Ermənistanda azərbaycanlıların başına gətirdikləri son müsibətləri aydın təsəvvür etmək üçün təkzibedilməz dəlillər kimi aşağıdakı cədvəli oxucuların diqqətinə çatdırmağı zəruri hesab edirik. Bu cədvəl keçmiş Sovet prokurorluğuna və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallar əsasında tərtib edilmişdir və «Ülfət» (Azərbaycan həmkarlar ittifaqlarının orqanı) qəzetinin 22 fevral 1992-ci il tarixli nömrəsində dərc olunmuşdur.

| N | F.A.A. | Doğulduğu il | Doğulduğu yer | Öldüyü il | Ölümünün səbəbi |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | **İRƏVAN ŞƏHƏRİ** | | | |
| 1. | Kərimov Vaqif Kamil o. | 1933 | İrəvan ş. | 1988 | odlu silahla |
| 2. | Misgərov Vidadi Cəfər o. | 1956 | – | 1989 | işgəncə nəticəsində |
| 3. | Misgərova Elza Cəfər q. | 1955 | – | – | – |
| 4. | Muxtarova Solmaz Rəcəb q. | 1936 | – | – | – |
| | | **KİROVAKAN ŞƏHƏRİ** | | | |
| 1. | Hüseynov Telman Çoban o. | 1939 | Kirovakan ş. | 1988 | işgəncə nəticəsində |
| | | **ƏZİZBƏYOV RAYONU** | | | |
| 1. | Qurbanov Aloş Tarverdi o. | 1928 | Kabud k. | 1989 | işgəncə nəticəsində |
| 2. | Almuradov Qaraxan Nəcəf o. | 1908 | – | – | – |
| 3. | Həsənova Şəlalə Abbas q. | 1985 | – | – | – |
| 4. | Gəncimalıyev Ənvər Gəray o. | 1935 | – | – | – |
| 5. | Xıdırov Bilal Göyüş o. | 1939 | – | – | – |
| 6. | Şahquluyev Kamil Kərəm o. | 1937 | – | – | – |
| 7. | Baxşəliyeva Fatma Nəbi q. | 1929 | Qovuşuq k. | 1989 | – |
| 8. | Balakişiyev Söhbət Gəray o. | 1968 | – | 1988 | – |
| 9. | Cəlilova Hürzat Mahmud q. | 1918 | – | 1989 | – |
| 10. | Hüseynov Həsən Yusif o. | 1926 | – | 1988 | – |
| 11. | Muradov Nəcəfqulu İsmayıl o. | 1925 | – | 1989 | – |
| 12. | Xanlarov İlham Nadir o. | 1985 | – | – | – |
| 13. | Məmmədov Sabir Qurban o. | 1936 | Gülüdüz | 1988 | – |
| 14. | Yaqubov Yaqub Əli o. | 1922 | – | – | – |
| 15. | Gülnaz Əhməd q. | 1930 | – | 1989 | – |

| | | | | | |
|---|---|---|---|---|---|
| **AMASİYA RAYONU** | | | | | |
| 1. | Musayev Məmməd Musa o. | 1940 | Amasiya | 1988 | işgəncə nəticəsində |
| 2. | Abbasova Leyla Məmməd q. | 1908 | Güllübulaq k. | – | donmuşdur |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 3. | *Abbasova Mərdan Mürsəl q.* | *1910* | – | – | – |
| 4. | Abbasova Xatın Mürsəl q. | 1912 | – | – | – |
| 5. | Əliyeva Xədicə İsa q. | 1912 | – | – – | |
| 6. | Məmmədova Lalə | 1915 | – | – | – |
| 7. | Rüstəmov Nəbi Hüseyn o. | 1932 | Göllü k. | – | avtomobillə vurulmuşdur |
| 8. | Novruzov Elbəy Süleyman o. | 1936 | Çoxmak k. | – | işgəncə nəticəsində |
| 9. | Novruzova Roza Süleyman q. | 1942 | – | – | – |
| 10. | Həsənov Mühid Əli o. | 1959 | Əzizbəyov k. | – | – |
| 11. | Haqverdiyev Babək İbrahim o. | 1971 | – | – | asılmışdır. |
| **VEDİ (ARARAT) RAYONU** | | | | | |
| 1. | Nağıyev İqbal Miryaqub o. | 1908 | Şirazlı | 1988 | işgəncə nəticəsində |
| 2. | Əkbərin 2 aylıq oğlu | 1988 | – | – | – |
| 3. | Məmmədov Məhərrəm Səfər o. | 1906 | Vedi k. | – | – |
| 4. | Orucov Nizami İnqilab oğlu | 1956 | – | – | – |
| 5. | İsmayılov Gülnaz Məmməd q. | 1908 | – | – | – |
| **BASARKEÇƏR (VARDENIS) RAYONU** | | | | | |
| 1. | Əliyev Savalan Yunis o. | 1925 | Nərimanlı | 1935 | döyülüb öldürülmüşdür. |
| 2. | Əliyev Yunis Tahir o. | 1964 | – | – | donmuşdur. |
| 3. | Hsənov İsgəndər Bayraməli o. | 1910 | – | 1989 | döyülüb öldürülmüşdür |
| 4. | Cabbarov Vaqif Yusif o. | 1959 | – | 1990 | – |
| 5. | Elləzov Həsən Nəbi o. | 1920 | – | 1988 | tibbi yardım göstərməkdən imtina edildiyindən |
| 6. | Elləzov Qara Nəbi o. | 1923 | – | – | işgəncə nəticəsində |
| 7. | Isayeva Sevil Şahin q. | 1987 | Pəmbək k. | – | donmuşdur |
| 8. | Əliyev Zeynalabdın | 1930 | Daşkənd k. | – | intihara məcbur edilmişdir |
| 9. | Həsənov Sultan | 1928 | – | – | ürək partlaması |
| 10. | Əhmədov Firudin Həsən o. | 1926 | Qanlı k. | – | – |
| 11. | İbrahimov Mirzəağa İbad o. | 1927 | – | 1989 | donmuşdur |
| 12. | Abbasova Rüxsarə Əli q. | 1979 | Qoşabulaq | 1988 | döyülüb öldürülmüşdür |
| 13. | Əliyev Alı Alı o. | 1936 | – | 1989 | – |
| 14. | Cəfərov Tapdıq İsmayıl o. | 1950 | – | 1988 | elektrik cərəyanı ilə |
| 15. | Abbasov Teymur Sabir o. | 1983 | Aşağı Şorca | 1989 | odlu silahla |
| 16. | Əliyev Yusif İsbi o. | 1972 | – | 1988 | döyülüb öldürülmüşdür |

| | | | | | |
|---|---|---|---|---|---|
| 17. Hüseynova Leyla Mustafa q. | 1934 | – | – | – |
| 18. Məmmədov Bəndalı Hüseyn o. | 1923 | – | – | – |
| 19. Məmmədov Tahir Qasım o. | 1922 | – | – | – |
| 20. Məsimov Bahadur Hümbət o. | 1925 | – | – | – |
| 1 2 | 3 | 4 | 5 | 6 |
| 21. Hüseynova Xədicə İbrahim q. | 1933 | – | – | ürək partlaması |
| 22. Məmmədov İmamalı | 1928 | – | – | – |
| 23. Əliyev Mehralı İbrahim o. | 1935 | Şişqaya k. | – | donmuşdur |
| 24. Əliyev Şahin Qabil o. | 1973 | – | – | – |
| 25. Əsədova Züleyxa | 1942 | – | – | – |
| 26. Zeynalov İlyas Əmirxan o. | 1942 | – | – | – |
| 27. İbrahimov Əziz Cabbar o. | 1933 | – | – | – |
| 28. Əhmədov Tariyel Əhməd o. | 1934 | Böyük Məzrə | – | döyülüb öldürülmüşdür |
| 29. Orucov Əvəz Məmməd o. | 1934 | – | – | – |
| 30. Musayev Şamo Qaraca o. | 1928 | – | – | – |
| 31. Nəsibov Qurban Bəxtiyar o. | 1926 | – | – | – |
| 32. Nigar Cəbi q. | 1944 | – | – | – |
| 33. Sadıqov Qurban Həsən o. | 1945 | – | – | – |
| 34. Allahverdiyev Şəmsəddin İmam o. | 1937 | Zərkənd | – | avtomobillə vurulmuşdur |
| 35. Babayev Nəriman Şahməmməd o. | 1936 | – | – | döyülüb öldürülmüşdür |
| 36. İsmayılova Fəxrəndə Mehralı q. | 1978 | – | – | donmuşdur |
| 37. İsaqov Qədim Səməd o. | 1932 | – | – | döyülüb öldürülmüşdür |
| 38. Vaqif | 1930 | Zod k. | – | bədbəxt hadisə adı ilə |
| 39. Qocayev Teymur Ələsgər o. | 1930 | – | – | döyülüb öldürülmüşdür |
| 40. İsgəndərov İlham Məmməd o. | yeniyetm | – | – | – |
| 41. İsgəndərov İlqar Məmməd o. | – | – | – | – |
| 42. İsgəndərova Nübar Məmməd q. | – | – | – | – |
| 43. Ağayev Bəhram Ağababa o. | 1930 | Çaxırlı | – | intihar adı ilə |
| 44. Əliyev Səyyad Əli o. | 1930 | – | – | avtomobillə vurulmuşdur |
| 45. Quluyeva Tutu Allahverdi q. | 1919 | Sarıyaqub | – | döyülüb öldürülmüşdür |
| 46. Şüfiyev Mehti | 1920 | Subatan | – | donmuşdur |
| 47. Cəfərov Koroğlu Başir o. | 1932 | Qayabaşı | – | bədbəxt hadisə ilə |
| 48. Namazov Qoşun İbrahim o. | 1922 | – | – | – |
| 49. Xəlilov Məmməd Qulu o. | 1941 | – | – | döyülmə nəticəsində |
| **GORUS RAYONU** | | | | |
| 1. Cavanşir Rüstəm oğlu | 1916 | Gorus ş. | 1988 | döyülüb öldürülmüşdür |
| 2. Əsgərov Barxudar Əmrah o. | 1958 | Ağbulaq k. | – | işgəncə nəticəsində |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **QUQARK RAYONU** | | | | |
| 1. | Rüstəmov Elşad İsrafil o. | 1948 | Lermontov k. | 1988 | işgəncə nəticəsində |
| 2. | Mustafayev Ziyad Əli o. | 1941 | Gözəldərə | 1989 | – |
| 3. | Novruzova Bənövşə Kərəm q. | 1950 | Yuxarı | 1988 | kilsədə itkin düşüb |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 5. | Nəbiyeva Zöhrə İsmayıl q. | 1981 | Hallavar k. | – | yandırılmışdır |
| 6. | Qasımov Hüseyn İsa o. | 1920 | Arcut k. | – | döyülüb öldürülmüşdür |
| 7. | Qasımov Məmmədəli Musa o. | 1915 | – | – | odlu silahla |
| 8. | Məsimov Əhməd Hacı o. | 1940 | – | – | işgəncə nəticəsində |
| 9. | Xəlilova Gülsüm İsa q. | 1920 | – | – | döyülüb öldürülmüşdür |
| 10. | Nəbiyev Rəhim Mahmud o. | 1914 | Vartana k. | – | odlu silahla |
| 11. | ƏliyevAbdulla Oruc o. | 1932 | – | – | yandırılmışdır |
| 12. | Əliyev Mehralı İsmayıl o. | 1920 | – | – | – |
| 13. | Əliyeva Gülsüm Məmməd q. | 1912 | – | – | – |
| 14. | Əliyeva Fatma Əli q. | 1940 | – | – | – |
| 15. | Bəhrəmov Qərib İsmayıl o. | 1921 | – | – | – |
| 16. | Qazaxəliyev Əhməd İsmayıl o. | 1933 | – | – | – |
| 17. | Hüseynova Leyla Həsən q. | 1925 | – | – | – |
| 18. | İsgəndərov Alim Mehralı o. | 1971 | – | – | – |
| 19. | İsgəndərov Mehralı Posan o. | 1938 | – | – | – |
| 20. | İsgəndərov Süleyman Qəmbər o. | 1938 | – | – | – |
| 21. | Məmmədov Vaqif Şükür o. | 1941 | Arcut k. | 1989 | itkin düşmüşdür |
| | **YEHEQNADZOR RAYONU** | | | | |
| 1. | Nəsirov Vaqif Bədəl o. | 1952 | Sallı k. | 1988 | itkin düşmüşdür |
| 2. | Xəlilova Yasin | 1946 | – | – | – |
| | **KALİNİN RAYONU** | | | | |
| 1. | Əliyev Qara Həmid o. | 1943 | Kalinin ş. | 1988 | işgəncə nəticəsində |
| 2. | Əliyeva Sona Dahikir q. | 1953 | Kalinin ş. | 1989 | tibbi yardım göstərməkdən imtina edilmiş |
| 3. | Qaraboğaz Məhəmməd | 1925 | – | – | güllə ilə vurulub |
| 4. | Yolçiyev Əli Nuru o. | 1925 | – | – | işgəncə nəticəsində |
| 5. | Məmmədov Yasəmən Gülməmməd o. | 1962 | – | – | döyülüb öldürülmüşdür |
| 6. | Qurbanov Sadıq Bəhram o. | 1932 | Evli k. | – | – |
| 7. | Vəliyev Məmməd Musa o. | 1915 | – | – | – |
| 8. | Musayev Nəcəf Paşa o. | 1933 | – | – | donmuşdur |
| | **KRASNOSELO RAYONU** | | | | |
| 1. | Hacıyeva Fatma Əskər q. | 1922 | Ağbulaq k. | 1989 | donmuşdur |
| 2. | Camalov Behbut İman o. | 1988 | – | – | – |
| 3. | Camalova Şölə İman q. | 1983 | – | – | – |

| | | | | |
|---|---|---|---|---|
| 4. Zeynalova Urqiyə Sultanəli q. | 1954 | – | 1989 | – |
| 5. Əliyeva Zərnişan Sarı q. | 1932 | Əmirxeyir k. | – | – |
| 6. Ələsgərova Bahar Süleyman q. | 1920 | Ardanış k. | – | – |
| 7. İsmayılov Əli Abbasəli o. | 1920 | – | – | donmuşdur |
| 8. İsmayılov Səməd İsmayıl o. | 1930 | – | – | – |
| **1** **2** | **3** | **4** | **5** | **6** |
| 10. Xəlilova Firəngiz Hüseyn q. | 1922 | – | – | tibbi yardım göstərməkdən imtina edilmiş |
| 11. Əliyev Qələndər Mahmud o. | 1973 | Gölkənd | – | – |
| 12. Əhmədov Nəsir Albala o. | 1933 | – | – | döyülüb öldürülmüşdür |
| 13. Qocayev Cahan Alı o. | 1930 | – | – | – |
| 14. Şəmilov Nəsib Məcid o. | 1933 | – | – | işgəncə nəticəsində |
| 15. Sarıyev Barxudar Mirzə o. | 1910 | Cil k. | – | donmuşdur |
| 16. Mustafayev Ibrahim Məmməd o. | 1911 | – | – | döyülüb öldürülmüşdür |
| 17. Əhmədov Elcan Tağı o. | 1968 | Yanıqpəyə | – | – |
| **İCEVAN RAYONU** | | | | |
| 1. Qurbanov Tapdıq Nəbi o. | 1920 | Alaçıqqaya | 1988 | donmuşdur |
| 2. Orucov Oruc | 1922 | – | – | – |
| 3. Rüstəmov Yaqub Rüstəm o. | 1962 | Polad k. | – | – |
| 4. Orucova Tahirə Eldar q. | 1964 | – | – | odlu siahla |
| 5. Cabbarov Qasım Məmmədhəsən o. | 1930 | Salah k. | – | döyülüb öldürülmüşdür |
| 6. Yusifov Şəmməd Muxtar o. | 1936 | – | – | ürək partlaması |
| **ZƏNGİBASAR (MASİS) RAYONU** | | | | |
| 1. Ələkbərov Sabir Mehdi o. | 1958 | Masis ş. | 1988 | odlu silahla |
| 2. Həsənov Qəmbər Camal o. | 1934 | – | – | itkin düşmüşdür |
| 3. Qurbanov Abbas Əbdülhüseyn o. | 1934 | – | – | bədbəxt hadisə ilə |
| 4. Qurbanov Qurbanəli Əbdülhüseyn o. | 1946 | – | – | – |
| 5. Cabbarov Qasım Məmmədhəsən o. | 1930 | – | 1989 | odlu silahla |
| 6. Cəfərova Səfa Novruzəli q. | 1982 | – | 1988 | işgəncə nəticəsində |
| 7. Muxtarov Fəxrəddin Əsəd o. | 1968 | – | 1989 | döyülüb öldürülmüşdür |
| 8. Orucov Umudun o. | 1972 | – | 1988 | yandırılmışdır |
| 9. Mehtiyev Sabir Qurban o. | 1932 | Yeni Necili k. | – | odlu silahla |
| 10. Tağıyev Müşfiq Tağı o. | 1955 | Dostluq k. | 1988 | işgəncə nəticəsində |
| 11. Abbasov Bəxtiyar Məmməd o. | 1958 | Sarvanlar | – | avtomobillə vrulmuşdur |
| 12. Əliyev Abbas Mürsəl o. | 1914 | – | – | suda boğmuşlar |
| 13. Cəfərov Heydərəli Həsən o. | 1953 | Mehmandar | – | bədbəxt hadisə adı ilə |
| 14. Cəfərov Eldar Allahyar o. | 1976 | – | – | – |

| | | | | |
|---|---|---|---|---|
| 15. Cəfərova Səmurə Heydərəli q. | 1978 | – | – | – |
| 16. Cəfərova Ruqiyə Heydərəli q. | 1976 | – | – | – |
| 17. Əzizov Qurban Tahir o. | 1950 | Rəncbər k. | 1989 | döyülüb öldürülmüşdür |
| 18. Cəfərov Yasin Mütəllim o. | 1935 | – | – | – |
| 19. Rüstəmov Əli Rəhim o. 1949 | – | – | – | |
| 1 2 | 3 | 4 | 5 | 6 |
| 21. Əliyeva Alma | 1932 | Sarcalar | 1989 | – |
| 22. Nəcəfov Vəli | 1920 | Zəhmət | 1988 | ürək partlaması |
| **MEHRİ RAYONU** | | | | |
| 1. Qurbanov İzzət Bəşir o. | 1935 | Nüvədi k. | 1988 | tibbi yardım göstərməkdən imtina edilmiş |
| **NOYEMBERYAN RAYONU** | | | | |
| 1. Namazov Məmməd Baba o. | 1936 | Ləmbəli | 1989 | bədbəxt hadisə adı ilə |
| 2. Namazov Elmar Fəxrəddin o. | 1986 | – | – | – |
| 3. Şıxıyev Vəkil Sirac o. | 1901 | Y.Körpülü | – | döyülüb öldürülmüşdür |
| **AXTA (HRAZDAN) RAYONU** | | | | |
| 1. Abbasov Yaqub Bağır o. | 1957 | Axundov k. | 1988 | donmuşdur |
| 2. Abdullayeva Növrəstə Kərəm q. | 1952 | – | – | bədbəxt hadisə ilə |
| 3. Musayev Əsəd İsaq o. | 1953 | – | – | – |
| **SİSYAN RAYONU** | | | | |
| 1. Abdullayev Abdulla Əsəd o. | 1931 | Sisyan qəs. | 1988 | donmuşdur |
| 2. Babayeva Firuzə Həsən q. | 1920 | Sünik k. | – | – |
| 3. Əliyeva Əlisə Əmrah q. | 1925 | Şəki k. | – | – |
| 4. Əliyeva Güllü Ələkbər q. | 1930 | – | – | – |
| 5. Namazova Şahnisə Əziz q. | 1931 | – | – | – |
| **SPİTAK RAYONU** | | | | |
| 1. Ələkbərov Xıdır Budaq o. | 1957 | Spitak ş. | 1988 | itkin düşmüşdür |
| 2. Hümbətov Əli Hümbət o. | 1932 | Hallavar k. | 1989 | döyülüb öldürülmüşdür |
| 3. Balacayev Teymur Məsim o. | 1958 | Saral k. | 1988 | odlu silahla |
| 4. Balacayev Şahin Səyyad o. | 1979 | – | – | – |
| 5. Balacayeva Sürəyya Hüseyn q. | 1954 | – | – | işgəncə nəticəsində |
| 6. Əhmədov Məsim Əhmədov o. | 1948 | Qursalı | – | itkin düşmüşdür |
| 7. Baxşıyev Elman Fərman o. | 1956 | – | – | odlu silahla |
| 8. Daşdəmirov Rəhim Cabbar o. | 1932 | – | 1988 | işgəncə nəticəsində |
| 9. Mustafayev Şərif Məhərrəm o. | 1930 | – | – | tibbi yardım göstərməkdən imtina edilmiş |
| 10. İsmayılov İsmayıl | 75 yaş | – | 1988 | işgəncə nəticəsində |

| | | | | |
|---|---|---|---|---|
| | | | | öldürülmüşdür |
| 13. Məmmədova Tərgül Nəriman q. | 1958 | – | – | döyülüb öldürülmüşdür |
| 14. Paşayeva Nazı Zülfüqar q. | 1910 | – | – | donmuşdur |
| 15. Məmmədin arvadı Saray | 1956 | – | – | suda boğmuşlar |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | **STEPANAVAN RAYONU** | | | |
| 1. | Mustafayeva Bəsti İsrafil q. | 1934 | Her-her | 1989 | yandırılmışdır. |
| 2. | İsgəndərov Təmraz Yusif o. | 1928 | Kuybışev | – | odlu silahla |
| 3. | Xəlilov Şərif Cabbar o. | 1947 | – | – | işgəncə nəticəsində |
| 4. | Xəlilova Gilas Rüstəm q. | 1930 | Kuybışev | 1988 | işgəncə nəticəsində |
| 5. | Əliyeva Səmayə | 1942 | Xancağaz k. | – | suda boğmuşlar |
| 6. | Əmiraslanoa Qədir Nəbi o. | 1966 | Kirov k. | – | itkin düşmüşdür |
| 7. | Əsgərov Həmid Məmməd o. | 1946 | – | – | – |
| | | **ALLAHVERDİ (TUMANYAN) RAYONU** | | | |
| 1. | Məmmədov Tofiq Əli o. | 1986 | Allahverdi | 1988 | işgəncə nəticəsində |
| 2. | Əliyev Abbas Xoşməmməd o. | 1912 | Böyük Ayrım | – | – |
| 3. | Haqverdiyev Haqverdi Haqverdi o. | 1934 | – | – | – |
| 4. | Məmmədov Rəhman Əli o. | 1985 | Cils | – | tibbi yardım olmamışdır |

# ERMƏNİ ƏSARƏTİNDƏ QALAN ABİDƏLƏRİMİZ, ZİYARƏTGAHLARIMIZ

Qədim Azərbaycan torpaqları olan İrəvan, Göyçə, Zəngəzur mahalları və digər bölgələr əski alban və müsəlman abidələri ilə zəngin olmuşdur. Burada yüzə qədər irili-xırdalı məscid, türbə, onlarla karvansara, qala, hamam, daş körpü və bazarlar var idi. Keçmiş Şərq şəhəri olan İrəvanda əcdadlarımızın uyuduğu qədim qəbristanlıqlar və buradakı at, qoç heykəlləri, tarixin həqiqi sənədləri olan qədim toponimlər bu ərazilərin tarixən azərbaycanlılara məxsus olduğunu göstərən əsas faktorlardandır.

Tarixi mənbələrin göstərdiyinə görə 1877-1878-ci illərdə İrəvan şəhərində 8, İrəvan mahalında 18, Eçmiədzin qəzasında 17, Sürməlidə 18, Şərur-Dərələyəz qəzasında 47 məscid olmuşdur. 1827-ci ildə rus qoşunları İrəvan xanlığını işğal etdikdən və ermənilər bu əraziyə köçürüldükdən sonra müsəlman abidələrinin faciəsi başlanır.

İndiki Ermənistan Respublikasının Sisyan rayonundakı Urud kəndində abidələr ilk dəfə 1926-cı ildə məşhur Azərbaycan alimi A. Ələkbərov tərəfindən aşkar olunmuş, 1961-ci ildə isə ətraflı tədqiq edilmişdir. Qoç heykəlindən, sənduqələrdən ibarət Urud məqbərələrinin xronoloji çərçivəsi (1478-1611-ci illəri əhatə edir) çox böyükdür.

Buradakı abidələrin təsvirləri və kitabələri Qafqaz Albaniyası ərazisi olan Sünikdə yaşamış albanların türkləşməsini və müsəlmanlığı qəbul etdiklərini göstərir. İndiyə qədər ərəb yürüşlərinə kimi alban tayfalarının türkləşməsi haqqında bəzi arxeoloji və etnotoponimik məlumatlar olsa da, yazılı sənədlər yox idi. Urud abidələrinin araşdırılması, tapılması və bu abidələrin təsviri tutarlı bir dəlil oldu. Faktlar sübut etdi ki, alban tayfalarının bəzilərində islamdan əvvəl də türkləşmə prossesi getmiş və onlar islam dövründə müsəlmanlığı qəbul edərək bugünkü Azərbaycan xalqının təşəkkülündə iştirak etmişlər...

Qafqazın epiqrafik abidələrini öyrənən görkəmli tədqiqatçı, tarix elmləri doktoru Məşədi xanım Nemətova müxtəlif illərdə İrəvan abidələri haqqında məqalələrlə çıxış etmiş, «Əsrlərin daş yaddaşı» adlı kitabında bu bölgənin epiqrafik abidələri haqqında söhbət açmışdır. Urud kəndində qalan iki orta əsr xatirə abidəsi bu baxımdan xüsusilə maraqlıdır. Sənduqə formalı birinci qəbir daşının üzərində ərəb dilində yazı həkk olunmuşdur. Yazının tərcüməsi belədir: «Allah, Məhəmməd, Əli, Uğvay (alban) nəslindən olan kəndxuda Şıx Rzanın oğlu Əmrusəl, ramazan ayı, 883-cü il (miladi tarixilə 26 XII 1478-ci il). Bundan yüz il sonrakı tarixə aid olan qoç heykəlin başqa bir qəbir daşı üzərində ərəb əlifbası ilə Azərbaycan dilində kitabə həkk olunmuşdur. «Di gəl ki, yarı gördüm gözüyaşlı, sözü qanlı... Allah, Məhəmməd, Əli, Uğvan (ağvan) nəslindən İftixar... 986-cı il (miladi 1578-79-cu illər)... yoxdur bu dərdimə çarə».

Kəndxuda Şıx Rzanın oğlu Əmrusəlin sənduqə formalı 1478-ci il tarixli məzar daşında ərəbcə: «min övladı uğvan (alban)» sözləri yazılmışdır. Bu sözlər 1578-1579-cu il tarixli Əmirəmin oğlu İftixarın qoç heykəlli abidəsinin sağ tərəfində də təkrar olunur. Həmin yerdə İftixarla yanaşı iki qardaş Mehdiqar, Əliyar, əmisi Zülfüqar və başqa qohumları dəfn olunmuşdur.

Ermənistanın Zəngibasar (Masis) rayonundakı Cəfərabad (indiki Arqavan) kəndində qalmış qırmızı tufdan tikilmiş səkkiztilli türbə və onun kitabəsi çox maraqlıdır. Türbənin künbəzi hələ 1918-ci ildə çox yerdən tökülmüşdü. Deyilənlərə görə həmin yerdə Çuxur Səd vilayətinin əmirlərinə aid bir neçə möhtəşəm türbə olmuşdur. Onların daşlarından kənddəki binaların tikintisində istifadə edilmişdir. Vaxtilə burada mövcud olmuş müsəlman qəbristanlığındakı abidələrdən də heç biri qalmamışdır.

Məşədi xanım Nemətova yazır ki, Cəfərabad türbəsi, buraların keçmişindən söhbət açan yeganə tarixi abidə və sənət əsəridir. Türbəni yuxarıdan kəmərvari əhatə edən kitabəsi aydın iri süls elementli nəşx xətti ilə ərəbcə yazılmışdır. Kitabə istər bədii tərtibatına, istərsə də məzmun və xətt xüsusiyyətinə görə çox böyük əhəmiyyət kəsb edir. Abidə həm də həmin ərazidə çox mükəmməl, həkkaklıq, xəttatlıq məktəbinin mövcud olduğunu göstərir.

Kitabədə Çuxur Səd vilayətinin Saatlı tayfasından olan əmirləri Pir Hüseynin və atası Əmir Cədinin adları çəkilir. Bu vilayət XV-XVIII əsrlərdə Azərbaycan feodal dövlətlərindən Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin ərazisinə daxil olmuşdur. Elə XV əsrdə Çuxur Səd vilayətinin Saatlı tayfasından çıxmış əmirlər-Səd (1411-ci ilə qədər), onun oğlu Pir Hüseyn (1412-1414-cü illər) və nəvələri Pir Qaib və Avdul (1425) idarə etmişlər. Kitabədə deyilir ki, türbədə Əmir Sədin oğlu Hüseyn dəfn olunmuşdur. Burada Qaraqoyunlu hökmdarı Qara Yusif «noyon» (sərkərdə), Oğlu Pir Budaq isə «yüksək hökmdar» titulları ilə qeyd edilmişdir.

Pir Budağın padşah elan edilməsi formal xarakter daşımışdı. Qara Yusif bütün vilayətlərə sərəncam göndərmişdi ki, sikkələr Pir Budağın adına zərb olsun və cami məscidlərində xütbələr onun adına oxunsun. Cəfərabad türbəsinin kitabəsi məhz bu dövrə təsadüf edir. İrəvan və Çuxur Səd vilayətlərinin uzun müddət Azərbaycan dövlətlərinə daxil olduğunu hazırda İrəvanda qalmış Came məscidi, onun nəzdində olmuş Mədrəsə və digər kitabələr bir daha təsdiq edir.

**İrəvan məscidləri.** «Allah evi» adlandırdığımız məscidlər tarix boyu qədirbilən xalqımızın and yeri, inanc beşiyi olub. Lakin son 70 ildə müqəddəs məbədgahlarımız bu allahsız cəmiyyətə rəhbərlik edənlərin haqsız hücumlarına məruz qalıb, uçurulub, tarmar edilib. Ermənistana qatılmış o qədim torpaqlarımızda zamanın burulğanına düşüb salamat çıxan, əsrlərin amansız qasırğasına sinə gərib, davam gətirən neçə-neçə sənət incilərimiz XX yüzilliyin bilməcələrlə dolu girdabında son dənəsinə kimi dağıdılıb məhv edilmişdi.

İndi İrəvanda olan səkkiz möhtəşəm məsciddən yalnız 1988-ci ildə yandırılan iki məscidin qalıqları qalır. İrəvan məscidləri haqqında aşağıdakı məlumatlar vardır:

**Şah İsmayıl məscidi.** İrəvanda dövlət xərci ilə tikilmiş ilk məscid Şah İsmayılın (1501-1524) əmri ilə 1510-cu ildə ucaldılmışdır. Məscidin geniş həyəti, çarhovuzu, göydələn minarəsi olmuşdur. İçərisi isə xalı-xalçalarla bəzənirdi. 1918-ci ildə adamları məscidə salıb, qapısını qıfıllamış, sonra neft töküb yandırmışdılar.

**Xudabəndə məscidi.** İrəvanda ilk böyük məscid Səfəvi Məhəmməd şah Xudabəndə (1578-1587) tərəfindən tikdirilib. Bu inanc evinin uzunluğu 9 metr, eni 6 metr, hündürlüyü isə 12 metr idi. Çox da hündür olmayan bir minarəsi da varmış. Bişmiş qırmızı kərpicdən inşa edilmiş məscidin giriş qapısının üstündəki kitabədə fars dilində əbcəd hesabı ilə onun təmir olunma tarixi də göstərilib.

Sənge tarixe çu məqsud şod əz dur zəman,
Kordən xodid be tarixe qədim Əhməd xan.

Buradan aydın olur ki, məscid hicri tarixi ilə 1099-cu ildə, miladi ilə 1685-ci ildə Səfəvi hökmdarı şah Süleyman (1666-1694) tərəfindən təmir olunmuşdur. Yuxarıda göstərilən Əhməd xan sözü əbcəd hesabı ilə 704-cü hicri ilini əmələ gətirir ki, bu da Olcaytu Məhəmməd Xudabəndi Xulaqiydinin hakimiyyət illərinə düşür.

**Şah Abbas məscidi.** İrəvan məscidləri arasında əsl monumental sənət əsəri kimi Şah Abbas məscidi xüsusi yer turur. Xalq arasında ona Came məscidi də deyilir. Bu məscid Səfəvi birinci Şah Abbas (1587-1629) tərəfindən inşa etdirilib. Məscidin tikintisi 1606-cı ildə gəncəli memar Şeyx Bəhaəddinin layihəsi ilə həyata keçirilmişdir. Ona görə də İrəvanda və Gəncədə eyni vaxtda tikilən Şah Abbas məscidləri memarlıq cəhətdən bir-birinə çox oxşar olmuşdular. İrəvan sərdarı sarayının yaxınlığında yerləşən Şah Abbas məscidinə bitişik mədrəsə və ayrıca qonaq otağı da olub. 1915-1918-ci illərdə ermənilər tərəfindən qovulmuş bir neçə azərbaycanlı ailəsi bu məsciddə sığınacaq tapıb. Məscidin böyük həyəti və hovuzu var idi. Bu ehsanlıq tut bağından yalnız yetimlər, əlsiz-ayaqsızlar istifadə edərmiş. Məscidin kitabəsinə fars dilində bir beyt şer həsr olunub:

*Zəmane şah Abbas cənnətməkan,*
*Əzu kəşt abad mülke cahan.*

Yəni yeri cənnət olan Şah Abbasın vaxtında yer üzü abad oldu.

1923-cü ildən 1945-ci ilə qədər məsciddə dini mərasim keçirilməyib. Oradan başqa məqsədlər üçün istifadə olunub. 1918-ci ildə məsciddə olmuş Azərbaycan Arxeologiya Komitəsinin üzvü İsa bəy Əzimov məscidin kitabəsini oxuyub tarixini dəqiqləşdirmişdir. Arxeoloq yazır ki, məscidin günbəzi dağılmış, ətrafı viranə şəklinə salınmışdır.

**Göy məscid.** Son vaxtlaradək İrəvanda «Came göy məscid» adlı əzəmətli bir məbədimiz olub. Memarlıq biçimlərinin aydınlığı ilə seçilən ibadət və din xadimləri üçün yaşayış otaqları, qış və yay salonlarından ibarət abidəni mədrəsə və müxtəlif tikintilər əhatə eləyirmiş. Vaxtilə məscidin zəngin kitabxanası varmış və burada Şərq müdriklərinin müxtəlif mövzuda kitabları-dini kitablar da saxlanılırmış. Tarixi sənədlərdən bəlli olur ki, tikinti İrəvan hakimi Hacı Hüseynəli xan tərəfindən 1764-cü ildə inşa edilib və xalq arasında onun adı ilə tanınırmış. Hacı Hüseynəli xan tikilinin ustalarını abidələr şəhəri kimi tanınan qədim Təbrizdən dəvət etmişdi. Belə bir rəvayət söyləyirlər ki, ustalar məscidin bünövrəsinə çox vaxt sərf etdilər. Və bir gün şəhərə xəbər yayıldı ki, ustalar gecə ikən qaçıblar. Hüseynəli xan qalır çarəsiz. Bilmir necə eləsin? Başqa ustalar çağırılır. Gələnlər həmin quruluşdan baş aça bilməyirlər. Başqa bir dəstə gəlir.

...Birdən gözlənilməz hadisə baş verdi. Təbrizli sənətkarlar yenidən peyda oldular. Hüseynəli xan əsəbi halda: «Harada idiniz bu vaxta qədər? - deyə soruşduqda, ustalar cavab verdi:

- Xan, him yaxşı otursun deyə bir il gözləmək lazım idi. Bildik ki, sizin bu müddətə səbriniz çatmayacaq. Ona görə də gizlincə qaçdıq! İndi vaxt tamam olub, gəlmişik. Hüseynəli xan daha bir söz demədi».

Əvəzsiz sənət möcüzəsi sayılan Göy məscidin bərpasında, kitabəsinin yazılmasında və onun divarlarının bəzədilməsində böyük Azərbaycan rəssamı, memarı Mirzə Qədim İrəvaninin böyük rolu olmuşdur. XIX əsrin birinci yarısında Dəlil İrəvani adlı bir şairimizin qəsidəsindən bəllidir ki, İran şahı Fətəli şah zamanında məscid əsaslı bərpa olunmuşdur:

*Bina tarixini Dəlil yazıya aldı,*
*Ondan tarixi bir məscid yadigar qaldı.*

***(Hicri-qəməri 1238). Miladi 1822.***

Göstərilən tarix tikintinin təmir vaxtını bildirir və qəsidə bu işi görən Fətəli şaha mədhiyyədir. Məscid şəhərin mərkəzi bağının kənarında, azərbaycanlılar yaşayan məhəllənin əhatəsində yerləşirdi. İki əzəmətli minarəsi olan (biri 35 m, digəri 25 m) dördkünc tikilmiş məscid haqqında xarici və rus səyyahlarının maraqlı yol qeydləri qalmaqdadır. XVIII əsr fransız səyyahı Jan Şarenin yazdığına görə tikintinin əzəmətli bir qülləsini görüb. XIX əsrdə buraya gəlmiş ingilis səyyahı Linc 1910-cu ildə Tiflisdə çap edilən iki cildlik «Ermənistan» adlı əsərində yazır ki, mən İrəvanda olanda qüllənin birinin xarabalığı qalmışdı. Buraya külli miqdarda erməni ailələri köçürülmüşdü ki, onlar da türklərə məxsus abidələri vəhşicəsinə dağıdırdılar.

Məscidin həyətində böyük hovuz var idi, 1-1,5 metr hündürlükdə qalxan fəvvarələr hovuzun yaraşığını qat-qat artırırdı. Nəziri olanlar qəndi gətirib hovuza tökərdi. Camaat da şərbət kimi ondan istifadə edərdi. Dövrünün görkəmli ziyalıları həmişə Göy məscidin kitabxanasında yığışar, elmi mübahisələr, işgüzar söhbətlər edərmişlər.

1917-ci ildə İrəvanda Azərbaycan dilində çap olunan «Bürhane həqiqət» adlı iurnalın birinci nömrəsində də məscid haqqında maraqlı məlumat verilib. Müəllif göstərir ki, o vaxtlar Rusiyada nəşr olunan «Solntse Rossii» jurnalının hərbi müxbiri-fotoqrafı Teryan tikilinin fotoşəklini jurnalda «Van məbədi» kimi oxuculara təqdim etmişdir. Müəllif haqlı olaraq soruşur:

- Görəsən Qafqazda uşağa belə məlum olan İrəvan məscidinin «Van məbədi» kimi qələmə vermək və bütün Rusiya oxucularını çaş-baş salmaq Teryanın nəyinə gərəkdir? Bu cür fotoqraf və müxbirlik görəsən kimə lazımdır? Amma, görünür lazımmış; hər şey çox-çox əvvəllərdən, düşünülmüş planla aparılırmış. (Belə bir «səhv» elə həmin ildədə «Oqonyok» jurnalında Teryanın uzaqgörənliyi və bicliyi ucbatından təkrar olunmuşdu).

Came Göy məscidin içərisində və xaricində XX əsrin əvvəllərinə aid ərəb dilində yazılmış kitabələr vardır. Məscidin həyətində XVIII-XIX əsrdə bir neçə başdaşı formasında xatirə abidəsi toplanmış idi. Həmin abidələr güman ki, məscidin yanında dəfn olunan şəxsiyyətlərin olmuşdur.

1918-ci ildən üzü bəri Ermənistanda olan bütün müsəlman abidələrini əl altdan, bəzən də açıqcasına məhv edən vəhşi erməni millətçiləri 1988-ci ildə İrəvanın Göy məscidini üçüncü dəfə yandırdılar. Bina birinci dəfə 1918-ci ildə yandırılmışdı. İkinci dəfə isə 1955-ci ilin martında türk din xadimi Mahmud Aruz oğlunu və həyat yoldaşını, bir də 22 nəfər üləmanı həmin məscidlə birlikdə yandırmışdılar.[116]

Linçin «Ermənistan» adlı əsərindən öyrənirik ki, yuxarıda adını çəkdiyimiz bu məscidlərdən başqa İrəvanda Hacı Nəsrullah bəy məscidi və Ulu Came məscidi də olub. Səyyahın yazdığına görə Hacı Nəsrullah məscidi 1687-ci ildə Osmanlı türkləri tərəfindən inşa edilib. Həmin məscidin də böyükbağı, həyəti və ayrıca kitabxanası-mədrəsəsi olub. Həmin kitabxanada Şərqin dahi filosoflarının və şairlərinin əsərləri saxlanılırmış.

Bu faktı 1929-cu ildə İrəvan məscidlərinin tədqiqi ilə məşğul olan İsa Əzimbəyovun «Azərbaycan arxeologiya komitəsinin xəbərləri»ndə dərc etdirdiyi yazısı da təsdiq edir. Ulu Came məscidinin sonralardan adı İran şahı Fətəli şahın oğlu Abbas Mirzənin adını daşıyırdı.

Bu məscidlərdən başqa İrəvanda tarixi bizə məlum olmayan, lakin əsrimizin birinci rübündən mövcud olan Təpəbaşı məscidi (Abbasqulu xan tikdirib), Əsəd ağa məscidi (qadınlar klubu yanında, Əsəd ağa tikdirib), Çətirli məscid (Hacı Müzəffər ağa tikdirib), Körpü bulağı məscidi, Qala məscidi, Şəhər məscidi, Hacı Novruzəli bəy məscidi, Sərdar məscidi kimi abidələr əsrlər boyu yaşamışdı.

Bu «Allah evləri»ndə Hacı Şeyx Ələkbər, Mirzə Hüseyn, Molla Abbas, onun oğlu Molla Hüseyn, Molla Qasım, Üçmiəzdin uyezdinin qazısı ələmül-üləma (alimlərin bayraqdarı) Molla Məhəmmədəli Qazızadə kimi alim və şeyxlər işləyib fəaliyyət göstərmişlər. Sonralar bu abidələrin bəziləri baxımsızlıq üzündən dağılıb bəziləri isə erməni daşnaqları tərəfindən yerlə-yeksan edilib.

**Sərdar sarayı.** İrəvan şəhərində yerləşən «Sərdar sarayı» Şərq memarlıq abidələrinin on gözəl nümunəsi idi. Bu sarayı İrəvan sərdarı Hüseynəli xan tikdirmişdi. Tikintinin ustaları isə İrandan və Türkiyədən dəvət olunmuşdu. Sarayın baş memarı Mirzə Cəfər Xoylu Cənubi Azərbaycanın Xoy şəhərindən çağrılmışdı. Sonradan Hüseynəli xanın oğlu Məhəmməd xan 1791-ci ildə Güzgülü salonu və yay imarətini tikdirmişdir.

XIX əsrin sonlarında İrəvanda olmuş ingilis səyyahı və alimi X. F. B. Linç «Ermənistan» adlı iki cildlik əsərində xan sarayını təsvir etmişdir. Linç yazır ki, İrəvan sərdarının Xan sarayı abidə kimi çox maraqlıdır. Sərdarın sarayı həm də şəhərin müdafiə özəyi hesab olunurdu. Onun pəncərələri çaya tərəf açılır, çox uzun və böyük qonaq otağına malikdir. Ön divarlarının birində Sərdar Hüseyn xan, digərində farsların əfsanəvi qəhrəmanı Fərəməz təsvir olunmuşdu. Qalan iki divara isə portretlər həkk olunmuşdu. İran şahı Fətəli şah, onun oğlu Abbas Mirzə (1783-1833), Sərdar Hüseyn xan və qardaşı Mirzə Həsən xanın təsvirləri divarların yaraşığı hesab olunurdu. Rəssamın çəkdiyi sərdarların portretləri tarixçi alimlərimiz üçün xüsusi əhəmiyyətə malikdir. Müxtəlif rəngli bişmiş kərpiclərdən tikilmiş sarayın divarlarında həmçinin İran həməzənlərinin şəkilləri də çəkilmişdi. Bu şəkillər ona xüsusi gözəllik verirdi. Şəkillərdən göründüyü kimi İrəvan sərdarının saray interyerini bəzəyən dekorativ kompozisiyalar və haşiyə şəklində divarlara çəkilmiş süjetli təsvirlər Azərbaycan xalqının monumental təsviri sənətini şöhrətləndirmişdir. «Şüşəbənd» adı ilə tanınan xan sarayının güzgülü salonu-şəbəkəli tağların saysız-hesabsız güzgüləri ətrafa almaz kimi işıq saçırmış. Salonun tavanı və divarları başdan-başa bər-bəzəyə qərq olunubmuş. Gül-çiçək, quş rəsmləri kətan üzərində yağlı boya ilə işlənmişdi.

Sərdar sarayının divarlarına çəkilmiş əfsanəvi məişət təsviri və portretlər sübut edir ki, XVIII-XIX əsrlərdə Azərbaycan sənəti təkcə ornamental dekorativ motivlərlə deyil, həm də konkret məzmun daşıyan məişət təsvirləri və portretləri ilə zəngin olmuşdur. Dövrünün görkəmli rəssamı olan Mirzə Qədim İrəvani (1825-1875) 1850-ci ildə İrəvandakı sərdar sarayını bəzəyən monumental təsvirlər üzərində işləmişdir. Bundan başqa M. Q. İrəvaninin yağlı boya ilə çəkdiyi bu portretlər Azərbaycan dəzgah boyakarlığının ilk incilərindəndir. Sərdar sarayı 1913-1918-ci illərdə vəhşi ermənilər tərəfindən dağıdıldığı üçün bu portretlər 1913-cü ildə çıxardılıb Tiflisə apardılmış və hazırda həmin əsərlərdən bir neçəsi Tiflisdə Gürcüstan Dövlət İncəsənət muzeyində saxlanılır. Şəki, Şuşa və Lənkəran xan sarayları isə bu günə qədər gəlib çatmışlarsa da İrəvan xan sarayı 1918-ci ildə daşnaqlar tərəfindən tam dağıdılmışdır.

**Karvansaralar.** Sərdar, Şeyxülislam, Tağlı, Sulu, Hacı Əli, Kömürçü, Gürcü, Culfa, Susuz, Hacı İlyas və başqaları. Sərdar karvansarası 1805-ci ildə Sərdar Hüseyn (1801-1828) xan tərəfindən tikdirilib. Şeyxülislam karvansarası 1872-ci ildə Qafqazın Şeyxülislamı olan Fazil İrəvani tərəfindən tikdirilib. Gürcü karvansarası II İrakli tərəfindən tikdirilib.

**Körpülər.** Gedərçay adlı çay üzərində salınan tağlı daş körpü, Zəngi çayı üzərində salınan daş körpü, Vedi çayı üzərində salınan daş körpü və s.

**Qalalar.** Tarixi İrəvan vilayətində «Torpaqqala», «Gümrüqala», «Keçiqalası», «Ağcaqala», «Kafirqalası», «Bayburt qalası», «Qalabürcü» və «İrəvan qalası» kimi tarixi qalalar olmuşdur.

**Kafir qalası.** Vedidə yerləşən bu qalanın istehkamları təbii qayalardan yapılmışdır. Tarixi min illər bundan əvvələ gedib çıxan qalaya yalnız bircə yol olmuşdur. Ancaq buradan qalaya qalxmaq mümkün imiş. Yonulmamış daş yığınlarından ibarət hörgüsü olan bu qalanı qədim oğuz tayfaları ucaltmışlar. Heç bir suvağı, kəci olmayan bu cür qalaçalar «siklop abidələr» adlanır.

**Gümrü qalası.** Bu abidənin adı VIII əsr mənbələrində qala kimi çəkilir. Çay daşlarından və qırmızı kərpiclərdən tikilmişdir. Rus-İran müharibələrində dağıdılmışdır. 1837-ci ildə ruslar Gümrüdə Arpa çayının yüksək bir yerində hərbi qala tikirlər. 1840-cı ildə çar I Nikolayın arvadı Aleksandranın şərəfinə Gümrü «Aleksandropol», 1924-cü ildən isə Leninakan adlandırılmışlar.

**İrəvan qalası.** Tarixi qaynaqların verdiyi məlumata görə 810-cu (1407-1408-ci illər) ildə Əmir Teymurun istəklilərindən biri, tacir Xocacan Lahicani İrəvan torpağına qədəm basır. O, bərəkətli torpağı görüb, özünü bütün qohum-

---

[116] Diyakonov İ.M. Predistria armanskoqo naroda, Erevan, 1968. s.117.

əqrəbası ilə birlikdə burada məskən salır. Düyü becərə-becərə günü-gündən varlanır və bu məhlənin şəhərdə əsasını qoyur. Daha sonra 915-ci (1509-1510) ildə İran torpağının şahı İsmayıl şah öz vəziri Rəvanqulu xana həmin yerdə qala tikməyi tapşırır. O, 7 il ərzində bu qalanı ucaldır və şah qalaya Rəvan adı verir. Kərpic və daşdan tikilmiş bu gözəl qala Zəngi çayının sahilindədir. Sonradan «İrəvan» adlanır. Təbii ki, canlı danışıqda söz başında «r» səsinin tələffüzü çətinlik törətdiyindən həmişə «r» səsindən əvvəl sait səs əlavə edilir. Şifahi nitqimizdə buna aid misal çoxdur; Rza-irza, radio-iradio, Rəhim-irəhim və s. Tarixin keşməkeşli illərində qala dəfələrlə əldən-ələ keçir, dağılır, təmir edilir. Zəngi çayının sıldırım sahilində yerləşən bu qalanı möhkəm tikilmiş qala hasarı, küllü miqdarda istehkam və bürclər müdafiə edirdi. Quru tərəfdən qalanın dörd bir tərəfində xəndək qazılmış və su ilə doldurulmuşdu. İrəvan qalasının komandanı Sərdarın qardaşı «San xan» adı ilə məşhur olan Həsən xan idi. O, bir müddət əvvəl İrəvanı general Sisyanovun qoşunlarından qorumuşdu. Qala 1828-ci il Türkmənçay müqaviləsindən sonra dağıdılmışdır. Yalnız xarabalığı qalmışdır. Lakin qalanın maketi hazırlanıb Ermənistan tarix muzeyində nümayiş etdirilir ki, guya onların «torpaqlarında» yadellilərə belə qalalar tikmişlər.

## ERMƏNİ SAXTAKARLIĞI AZƏRBAYCAN ƏDƏBİYYATINDAN PLAGİATORLUQ

*Bəşərin beşiyi, ilk vətəni Ermənistandır.*
*Ən qədim xalq ermənidir; Ən qədim dil erməni dilidir.*

Göründüyü kimi bu şovinist millət özlərini zaman-zaman ermənilər torpaqlarımızla yanaşı mədəniyyətimizə də şərik çıxdılar. Elmi potensialımıza da göz dikdilər. Bu xalqdan nə desən gözləmək olar. Gələcək xoş rifahı üçün məharətlə yazıq obrazına girməyi bacaran ermənilərdən hətta öz olmayan soy kökünü danmağı belə gözləmək olar. Atalar demişdir: «Əslini danan haramzadadır».

Milli təəssübkeşliyimizin çatışmaması, həmçinin biganəliyimiz ucbatından ata-baba torpaqlarımız erməni quldurları tərəfindən zəbt edilib və özününküləşdirilib Bir ovuc Ermənistan torpağına qatılan ərazilərimizdə nəinki kənd, qəsəbə və şəhərlərin adları, hətta dağların, dərələrin, çayların, göllərin, düzlərin adları erməniləşdirilmişdir. İndi Ermənistan ərazisində Azərbaycan dilində səslənən bir ada təsadüf etmək mümkün deyil. Qondarma Ermənistanda yaşayan soydaşlarımız da ata-baba yurdlarından qovulub.

Şirniklənmiş üzdəniraq erməni alimləri, incəsənət, mədəniyyət adamlarının Azərbaycanın on qiymətli inciləri olan xalq ədəbiyyatı, digər ədəbiyyat və incəsənət nümunələrini öz adlarına çıxarmaları məsələsi təzə deyil. Son vaxtlar erməni saxtakarlarının daha bir iç üzü açılmışdır. Azərbaycanın milli sərvəti olan ən gözəl xalq ədəbiyyatı nümunələri-dastanlarımız, nağıllarımız, el mahnılarımız da, atalar sözlərimiz də saxtakarlığa məruz qalmışdır. Onlar kitab halında nəşr edilir, kasetlərə köçürülür və erməni ədəbiyyatı nümunələri kimi dünyaya yayılır. Saxtakarlar o qədər həyasızlaşmışlar ki, adı, ünvanı məlum olan bəstəkarlarımızın məşhur əsərlərini də kasetlərə köçürərək erməni incəsənəti nümunəsi kimi öz adlarına çıxmışlar. Bu cür saxtakarlığın hüququ yoxdur. Bizə elə gəlir ki, bu məsələ dövlət səviyyəsində həll edilməlidir. Xalq ədəbiyyatının toplanmasına və nəşrinə biganə olmağımızı da etiraf etməliyik. (Akademik Azad Nəbiyev.)

Tarixən Azərbaycan xalqına məxsus mədəni və maddi sərvətlər müxtəlif yollarla mənimsənilmiş və başqa ölkələrə daşınıb aparılmışdır. Burada bir sıra digər obyektiv səbəblərlə yanaşı, xalqın milli təəssübkeşliyinin yoxluğu və ya çatışmazlığı milli laqeydlik, yersiz qonaqpərvərlik, eləcə də sadəlövlük də az rol oynamamışdır. Bütün bu qəbahətlərin nəticəsində biz özümüzə məxsus milli sərvətləri, hətta torpaq ərazilərini, burada əcdadlarımıza məxsus mədəniyyət nümunələrini itirmiş, sadəlövlüyümüzdən və qonaqpərvərliyimizdən istifadə edərək, ölkəmizdə müvəqqəti sığınacaq tapmış ermənilər həmin ərazilərdə möhkəmləndikcə burada tarixən yaratdığımız maddi və mənəvi mədəniyyətimizə də sahib çıxmağa başlamışlar.

Bütün bunlar bizim gözümüzün qabağında zaman-zaman baş vermiş, bir sıra hallarda isə ermənilərin riyakar səmimiyyətinin milli təəssübkeşliyimizi üstələməsi etnik yaddaşımızın pozulması, milli tarixə və mədəniyyətimizə laqeyd və soyuqqanlı münasibətimiz sayəsində mümkün olmuşdur.

Türk tayfaları ərazilərində sığınacaq tapmış köçəri ermənilər folklor yaradıcılıqlarını, maarif və mədəniyyətlərinin inkişafını türk tayfalarının folklor yaradıcılığı, maarif və mədəniyyət örnəklərini yamsılamaq və özününküləşdirmək yolu ilə əldə etmişlər. Bu mülahizə aşağıdakı faktlarla özünü doğruldur:

**Erməni saxtakarları Azərbaycan nağıllarını özününküləşdirməyə müxtəlif yollar və vasitələrlə qədim dövrlərdən, xüsusən XIX əsrin 80-ci illərindən start göstərməyə başlamışlar.** Onlar ilk öncə Azərbaycan kəndlərində yaşayan ermənilər vasitəsilə milli nağıllarımızı erməni dilində yazıya alıb «Kavkaz», «Kavkazskiy vestnik» və s. qəzet və məcmuələrdə nəşr etdirmişlər.

Sonralar bu yolla erməni nağılı yaratmaq ənənəsi SMOMPK məcmuəsi səhifələrində davam etdirilmişdir. Qafqaz xalqlarının folklorunu yazıya alan A. Zaxarov, Qriqoryev və başqaları erməni informatorlarının azərbaycanlılardan eşitdiyi «Süsəngü», «Naxırçı», «Çoban Ədhəm» və s. nağıllarımızı yazıya alıb erməni nağılı adı altında çap etdirmişlər. Bu ənənə Azərbaycanda sığınacaq tapmış ermənilər içərisində yetişən və özünü «aşıq», «nağılçı», «dastançı» adlandıran erməni təqlidçiləri tərəfindən ardıcıl şəkildə davam etdirilmişdir.

Həmin «peşəkar ifaçılar» əslində Qafqazda yaşayan heç bir xalqa fərq qoymadan onların ayrı-ayrı informatorçularının dilindən eşitdiyi bütün nağılları erməni nağılı adı altında dövrün müxtəlif nəşrlərində öz adlarına çıxarmışlar. Belə ki, ermənilər Qafqaz xalqlarından abxazların «Xaytın nağılı» (SMOMPK, 10-cu bir, 2-ci bölmə, s.322-324); «Həcərqala qəhrəmanlığı» (yenə orada, s.210-216); «Tackumun nağılı» (SMOMPK, bir. 6, 2-ci bölmə, s. 109-118); minqrellərin «İgid və molla» (QS, s.362-365); «Axmağın nağılı» (SMOMPK, 10 bir, 3-cü bölmə, s. 14-16); kabardinlərin «Sənətlə baş saxlarsan» (SMOMPK, 27-ci bir., 2-ci bölmə, s.1-8); gürcülərin, dağ yəhudilərinin və bir sıra başqa xalqların nağıllarını erməni

söyləməsində yazıya alıb erməniləşdirmişlər. Bu yolla ermənilər XIX əsrin 80-ci illərindən başlayaraq bu günə qədər 100-dən artıq Azərbaycan nağılını saxtalaşdırıb öz adlarına çıxmışlar.[117]

Erməni xalq nağılları da Azərbaycan xalq nağıllarından uydurulmuşdur. Bunlar-nağıllar öz növləri (qəhrəmanlıq, məişət, sehirli, təbiət, heyvanat aləmi haqqında nağıllar və s.), ideya-məzmunları, süjet və motivləri və başqa cəhətləri ilə bir-birinə çox oxşardır.

Məlumdur ki, Azərbaycan nağılları xalqımızın ictimai-siyasi və iqtisadi həyatını onun məişətini düşüncə və arzularını geniş əks etdirirlər. Onlar mühüm ictimai vəzifə yerinə yetirirlər, onlar ictimai əməklə bağlıdırlar. Azərbaycan nağıllarında xalqın qəhrəman keçmişi, daxili və xarici düşmənlərə qarşı mübarizəsi öz əksini tapmış, təbiətin gözəllikləri-böyük və yaşıl dağlar, otlaqlar və çəmənliklər, barlı bağlar, həyatverici bulaqlar və çaylar təsvir edilmişdir. Həmin vəziyyət erməni nağıllarında da mövcuddur. Həmçinin nağılların söyləmə və qurtarma tərzləri də («biri varmış, biri yoxmuş», «az getdi, üz getdi, dərə-təpə düz getdi», «Onlar öz muradlarına çatdılar, siz də öz muradınıza çatın», «Onlar yedilər, içdilər, yerə keçdilər, siz də yeyin, için dörə keçin», «Göydən üç alma düşdü» və s.) eyni üsuldadır.

Heyvanlar aləmindən götürülmüş Azərbaycan alleqorik nağıllarda personajlar iki hissəyə bölünür:

1) Adamların və heyvanların birgə iştirak etdikləri nağıllar;

2) Personajları yalnız heyvanlardan ibarət olanlar; («Şəngülüm», «Canavar və tülkü», «Tülkünün həccə getməsi» və s.) bunlar həcmcə qısa olur, böyük tərbiyəvi məqsəd daşıyırdılar. Təmsillərdə olduğu kimi bu nağıllarda da heyvan adları altında insanlar anlaşılır, onların mənfi-müsbət surətləri göstərilir. Həmin bu nağıllarda tülkü canavarla, çaqqal xoruzla, ayı şirlə qarşılaşdırılır. Tülkü hiyləgərlik, qurd ac-gözlük, ayı kütlük, şir igidlik, ilan ziyankar, xoruz qoçaqlıq isimləri kimi çıxış edir. Eyni hal erməni nağıllarında da mövcuddur.

Həmçinin hər iki xalqın nağıllarında ən çox yayılmış surət tülkü (ermənicə-»ağves») surətidir. Hər iki xalqda o hiyləgərliyin timsalıdır. Lakin bəzən də insana ziyan deyil, xeyir gətirir.

Azərbaycanın əfsanəvi nağıllarında çox zaman şahların, vəzirlərin, tacirlərin özləri də iştirak edir, xalqı soyub talayırlar. Nağılların qəhrəmanları həm divlərlə və əjdahalarla, həm də qaniçən şahlarla, vəzirlərlə mübarizə aparıb qalib gəlirlər. Azərbaycan xalq nağıllarından «Kəl Həsən», «Qaraquş», «Məmməd», «Məlik Məmməd» və s., erməni xalq nağıllarında eyni adekvatda «Can Polad», «Hazaran bülbül», «Ovçu oğlu», «Balıqçı oğlu» və s.

Azərbaycan nağıllarındakı qüvvələr iki hissəyə bölünürlər. 1) Qəhrəmana kömək edən dost qüvvələr; 2) Ona düşmən olan şər qüvvələr. Nağıllardakı xalq qəhrəmanları məğlub edilməzdir. Qorxaqlıq, acizlik, düşmənə boyun əymək və s. alçaq sifətlər onlardan uzaqdır. Onlar alınmaz qalaları alır, bağlı qapıları açır, sehrləri pozur, tilsimləri qırırlar. Bu baxımdan Azərbaycan nağılları - «Qaraquş», «Kəl Həsən» nağılları, erməni nağılları - «Hazaran bülbül», «Quşpəri» eyni məzmuna və formaya malikdirlər.

Azərbaycan xalq nağıllarında qəhrəmanlara müsbət xasiyyətlər verilir, onlar mərd, dostluqda və yoldaşlıqda sədaqətli və vəfalı göstərirlər. «Məlik Məmməd», «Quş dili bilən İsgəndər haqqında nağıl», «Hatəm haqqında nağıl»da cərəyan edə hadisələr, qəhrəmanların xarakter və igidlikləri ermənilərin uydurduğu «Həyat al ması», «Yolçu», «Ovçu oğlu» nağıllarında cərəyan edən hadisələr və qəhrəmanlarr xarakteri üst-üstə düşür. Bu qəbildən qadınların siyasət və qoçaqlığına həsr edilmiş Azərbaycan xalq nağılı «Nüşapəri» erməni nağılı «Varditer» edilmişdir.

Azərbaycan və erməni sehirli və məişət nağıllarında bir sıra heyvanlar (at, göyərçin, qaranquş, ceyran və s.) müsbət surətlər kimi çıxış edirlər. Onlardan bəziləri qəhrəmanı gözləyir, lazım gələn kimi ona kömək edir, hissini açır və s. Azərbaycan nağıllarındakı əfsanəvi Simurq quşu və Hazaran bülbül adında çıxış edirlər. Bu quşlar qəhrəmanlara böyük yardım edirlər.

Nağıl qəhrəmanlarının düşmənləri içərisində divlər və əjdahalar əsas yer tuturlar. Divlər sehirli yerlərdə yaşayır, böyük qüvvəyə malik, hər cür cinayətlər etməyə hazır olurlar. Xalqı təcəssüm etdirən qəhrəmanlar isə həmişə ya fiziki qüvvə ilə, ya da fəndlə divləri məğlub edirlər. Divlərin canı şüşənin içindəki göyərçinlərdə olur. Onlar xalqa olmazın əzablar verir, gənc qızları qaçırdırlar.

Hər iki xalqın nağıllarında əjdahalar isə bulaq və çay kənarlarında, Simurq, Zümrüd və Hazaranbülbül quşlarının yuvası yanında, mağaralarda yaşayır, adətən əhalini sudan məhrum edirlər. Qəhramanlar bunlara qalib gəlirlər.

Məişət nağıllarında əməkçi insanların (odunçu, ovçu, balıqçı, zərgar və s.) müsbət surətləri ilə bərabər falçıların, qarıların, zülmkarların mənfi surətləri də verilir. Bu nağıllarda xalq satira yumordan mübarizə silahı kimi istifadə edərək onları ifşa edir. Sehirli nağıllardan fərqli olaraq bu nağıllarda qəhramanların mübarizəsi real şəraitə keçir, qalib gələnlər həmişə yoxsullar, məğlub olanlar varlılar, falçılar, keşiş və kəndxudalar olurlar.

Məsələn, Azərbaycan məişət nağıllarında «Sarı qovun», «Dəyirmançının arvadı» və s.-də məişət erməni nağıllarında «Dadbedad», «Yalançı», «Adam öz yorğanına görə ayağını uzadar», «Tənbəl» adlı nağıllarda hadisə və süjetlər, tərbiyə və tələblər eynidir.

Azərbaycan və erməni folklorunda ideya, mövzu, süjet və obrazların eyni olması ilə nəzərə çarpan nağıllardan «Məlik Məmməd», »Odunçu Əhməd», «Ustacan Əhməd», kimi Azərbaycan, «Həyat alması», «Qoçaq Nəzər» kimi erməni nağıllarını göstərmək olar. Bunlar «Həyat alması» «Məlik Məmməd»in, «Qoçaq Nəzər» isə «Ustacan Əhməd»in qarşılığıdır.

«Məlik Məmməd» və «Həyat alması» nağıllarının bütün ideya-bədii məzmunu eynidir. Hər iki nağılda eyni hadisələr təsvir edilir, bu hadisələrdə eyni personajlar iştirak edirlər. Həm erməni, həm də Azərbaycan nağılı eyni hadisə ilə başlayır. Padşah öz oğlanlarına tapşırır ki, həyat almasını oğurlayanı tutsunlar. Üç qardaş bir-bir gecələr alma ağacının qaravulunu çəkirlər. Böyük və ortancıl qardaşlar oğrunu tuta bilmirlər, çünki gecə onları yuxu tutur, yatırlar. Növbə kiçik qardaşa çatanda o, yatmamaq üçün barmağını kəsib yaraya duz basır. Səhərə yaxın o, alma oğrusunun divin gəldiyini görür və onu yaralayır.

[117] Bax: «Azərbaycan müəllimi», 22-26 dek. 2002.

Sonra divi məhv etmək üçün onun izi ilə gedir. Qardaşları da onunla gedirlər. Bir quyunun başına çalırlar. Əvvəl böyük, sonra ortancıl qardaş quyunun tərkinə enmək istəyir, lakin bacarmırlar. Kiçik qarda: qətiyyətlə enir və orada bir-bir üç divə rast gəlir, onları öldürür, əsir etdikləri qızlar (üç bacını) da götürüb quyunun ağzına gəlir. Bir-birindən gözəl olan bacılardan əvvəlcə ən böyüyünü quyudan çıxarırlar, sonra ortancılı, on sonda isə kiçik bacını. Onlardan ən gözəli kiçik bacı idi. Kiçik qardaş da onu sevib özü üçün götürmüşdü Buna görədə qardaşlar paxıllıq edərək onu quyunun tərkində buraxıb evə qayıtdı və atalarını aldadırlar ki, öz qardaşları divlə vuruşanda həlak oldu.

Quyuda qalan kiçik qardaş kiçik bacının sözlərinə əməl edərək oradan qurtulmağa çalışır. Lakin o qızın dediyi ağ qoyuna atılıb minə bilmir. Qara qoyun isə onu götürüb qaranlıq dünyaya atır. Burada o Zümrüd quşunun balalarını ilanda xilas edir və quş minnətdarlıq əlaməti olaraq onu qaranlıq dünyadan işıqlı dünyaya çıxarır. Nağılın həm Azərbaycan həm həm də erməni variantında təsvir edilən sonrakı hadisələr də eynidir. Kiçik qardaş nə qiymətə olursa-olsun evə çatmağa çalışır. Nəhayət o bütün maneələri aradan qaldırdıqdan sonra öz sevdiyi kiçik bacı ilə evlənir. Nağılın bu qısa şərhindən aydın göründüyü kimi onun hər iki variantında hadisələr təsvir olunur. Bu nağılın həmin variantları arasında başlıca fərq ondan ibarətdir ki, Azərbaycan variantında kiçik qardaş (Məlik Məmməd) öz xain qardaşlarını cəzalandırır, erməni variantında isə bağışlayır.

Erməni və Azərbaycan folklorunda qarşılıqlı nağıllardan olan «Qoçaq Nəzər» «Hax Nəzər», «Odunçu Əhməd» və «Ustacan Əhməd» eyni məzmuna malikdirlər. «Odunçu Əhməd» nağılının məzmunu «Qoçaq Nəzər» ermənin ağılının məzmununa çox yaxındır. Hadisələr elə inkişaf edir ki, Əhməd padşahın kürəkəni olur. Nəhayət müharibə başlanarkən padşah Əhmədi qoşun rəisi təyin edib döyüş meydanına göndərir. Əhməd fiziki cəhətdən güclü olsa da çox qorxaqdır. Bu qorxaqlıqda o, erməni nağılındakı Qoçaq Nəzərin doğma qardaşıdır. Müharibəyə getməyə onun nə halı, nə cəsarəti vardır. O, bir təhər bu işdən yaxa qurtarmaq istəyir. Ona görə də özü üçün ən arıq, ən qotur bir at seçir ki, yaxşı çapa bilməsin. Bunula belə çox qorxduğundan yıxılmamaq üçün özünü ata bağlayır. Qoşun hərəkət edir. Əhmədin gözlədiyinin əksinə olaraq onun atının ən sürətlə çapan bir at olduğu məlum olur. O, cilovu əlində saxlaya bilmir və at baş götürüb düşmən tərəfə qaçır. Əhməd ah dayandırmaq məqsədilə əlini atıb bir ağacdan yapışır. Lakin ağac kökündən qoparaq onun əlində qalır. Düşmən qoşunu ağacı yerindən qoparıb «hücum edən» «qəhrəmanın» gücünə heyran qalaraq, dəhşətə gəlir. Əhmədin qoşunu isə ruhlanaraq düşməni əzir. Əhmədin özü dəhşət içərisində bağırır ki, «üzəngi, üzəngi». O, demək istəyir ki, əlindən çıxmış üzəngini ona versinlər. Düşmən tərəfi padşahın adı üzəngi olduğundan o, «qəhrəmanın» «üzəngi», -deyə bağırtısını eşidərkən lap dəhşətə gəlir və belə güman edir ki, Əhməd onu tutmaq istəyir. Buna görə də o, baş götürüb qaçır. Eyni hadisə «Qoçaq Nəzər» erməni nağlında baş verir. «Haq Nəzər» adlı Azərbaycan nağılı haqqında da eyni sözü demək lazımdır.

«İsgəndərin buynuzu» adlı məşhur Azərbaycan nağılının da erməni variantı vardır. Hər iki variant arasında olan ən başlıca fərq ondan ibarətdir ki, erməni variantında padşah adsızdır.

**Ermənilər «Sasunlu David» dastanını «Koroğlu» dastanı əsasında yaratmışlar.** Onun izini itirmək üçün «Sasunlu David» dastanının VIII əsrə aid olduğunu demişlərsə, bu da elə ermənilərin özləri tərəfindən də qəbul edilməmişdir. Çünki dastanın hansı əsrə aid olmasına sübutlar və faktlar yoxdur. Çünki ermənilər dastanın tarixini düzgün desələr, onda onlar özləri boyunlarına almış olurlar ki, plagiyatorçulardır. Ancaq hər iki dastanda baş verən hadisələr və surətlər eyni oxşarlığa malik olduğu üçün qərara gəlmək olur ki, ermənilər «Sasunlu David» dastanını «Koroğlu» dastanından plagiyatorçuluqla yaratmışlar.

Məsələn, «Koroğlu»dakı Qıratla «Sasunlu David»dəki Kurkik Cəlali eyni mənbədən - dənizdən yaranmışlar. Davidin qılıncı ilə Koroğlunun qılıncı da bir-birinə bənzəyir. Onlar ildırımdan əmələ gəlmişlər. Davidin qılıncı dəniz dibindən götürüldüyünə baxmayaraq, onun da ildırım parçası kimi göydən düşdüyü söylənilir. Koroğlu dastanında qəhrəmanların qüvvət mənbəyi torpaq və sudur. Bu «Sasunlu David»də də elədir. Koroğlu Qoşa bulağın suyunu içib misilsiz güc əldə edir, «Sasunlu David»də də qəhrəmanlar həyatverici suyu içib qüvvətli olurlar. Hər iki dastanda sevgi məcəraləri də eynidir. Koroğlunun şücaət və mərdliyi xəbərini eşidəndən sonra ürəyi onu görmək arzusu ilə çırpınan xotkar qızı Nigar xanım əlinə ilk fursət düşən kimi-təsadüfən Bəlli Əhmədə rast gələrkən məktub yazıb onun vasitəsilə Koroğluya göndərir. Koroğlu məktubu alıb oxuyan kimi ona vurulur. Sonra o İstanbula gedir, Nigarı qaçıraraq Çənlibelə gətirir. «Sasunlu David»də də Davidin qəhrəmanlığını eşidən Xandut xatın aşığı onun yanına göndərir.

Aşıq Davidin yanında Xandutun gözəlliyini mahnıda tərifləyir, onun qəlbini eşq alovları ilə doldurur, bundan sonra David gedib Xandutu, tapır, nəhayət onunla evlənir. Hər iki dastanda təsvir olunur ki, hər iki qadın ərlərinə sadiq həyat yoldaşı olurlar, onların mübarizəsinə rəvac verirlər...

Qısa olaraq bu mülahizə barədə aşağıdakıları demək olar:

Əvvələn, «Kitabi-Dədə Qorqud»da işlənən türk sözlərini aşağıdakı şəkildə özününküləşdirmişlər: bəy-beq, hampa-hampa, pənir-banir, nişanlı-nşanadz, dayə-dayaq və s.

İkincisi, dastanın «Dirsə xan oğlu Buğac», «Qanturalı», «Təpəgöz», «Dəli Domrul» boylarının məzmunu erməni şifahi xalq ədəbiyyatına məzmunca eyni, formaca fərqli formalaşmışdır. Bunlardan bəziləri haqqında danışaq. «Dirsə xan oğlu Buğac»ın boyunda böyük nəzir-niyazdan sonra doğulan Buğacın anadan olması, böyüməsi, igid bir cavan olarkən atası ilə yola çıxması və bu zaman qırx namərdin ona qarşı təşkil etdikləri sui-qəsd, anasının dağ çiçəklərindən dərman qayırıb onu ölümdən xilas etməsi, nəhayət, Buğacın öz atasını qırx namərdlərin əlindən qurtarması haqqında nağıl edilir. Bütün bunlar erməni şifahi xalq ədəbiyyatında mövcuddur. «Qanturalı» boyunda isə gənc qəhrəmanın özünə qız axtarmağa çıxması, onu görüb, bəyəndikdən sonra mərdlik və cəsarət yolu ilə öz vətəninə gətirməsi haqqında danışılır. Bir çox erməni dastan və nağıllarında da bu motivə rast gəlmək olar («Sasunlu David» dastanı, nağıllar və s.). Bir çox qəhrəmanlar, xüsusən David evlənəcəkləri qızı qabaqcadan görüb bəyəndikdən sonra onu gətirmək uğrunda vuruşurlar.

«Təpəgöz» boyuna da bir sıra erməni nağılları ilə uyğun gəlir. Bu boyda Qonur qoca Sarı çobanın Pəri qızla izdivacından doğulan Təpəgözün böyüdükdən sonra bir vəhşi kimi camaata olmazın əziyyətlər verməsi, Oğuz elinin onun əlindən zəbun olması, nəhayət Busatın onu yeganə təhlükəli yeri olan gözündən vurub öldürməsi haqqında da danışılır. Erməni

şifahi xalq ədəbiyyatında da bu mövzuya rast gəlmək olar. «Təpəgöz boyun»da istər erməni, istərsə də Azərbaycan nağılında geniş yayılmış «Qaçaq Nəzər» motivlərinə oxşar bir moment də vardır. Məsələn, «Təpəgöz... qalxdı, bir ağacı yerindən qopardı. Artıq 50-60 adam həlak elədi» («Kitabi-Dədə Qorqud» səh. 116). Erməni xalq nağılındakı Qaçaq Nəzər də belə etmişdir.

O cümlədən, «Qaçaq Nəbi» dastanına uyğun olaraq ermənilər «Tanrıverdi dastanı» düzəltmişlər ki, guya Qaçaq Nəbi kimi Qaçaq Tanrıverdi də azadlıq uğrunda mübarizəyə qoşulmuşdur. Azərbaycan və erməni el sözləri və lətifələrində eyni tarixi şəxsiyyətlərin adlarına (Şah Abbas, Makedoniyalı İsgəndər, Şah İsmail və s.) rast gəlmək olar.

**Azərbaycan və erməni söz və lətifələri əksər hallarda üst-üstə düşürlər.**

Şifahi xalq ədəbiyyatının başqa janrları içərisində də ümumi-qarşılıqlı əsərlər vardır. Bunlardan el sözləri və Molla Nəsrəddin lətifələri xüsusi yer tutur. «Vuruşun kor vuruşuna oxşamır» adlı Azərbaycan el sözündə də deyilir:

«Bir xan at minib seyrə çıxmışdı, yolda bir kor dilənçiyə rast gəldi. Atdan endi. Dilənçiyə sataşmaq istədi. Əlinə ağac alıb, özünü korluğa qoydu və haman kor üz-üzə gedib, ona bərk toxundu. Kor dedi: «Bir az yavaş; mən koram, sən ki, kor deyilsən!».

Xan soruşdu: «Sən də korsan?. Dilənçi dedi: «Bəlü». Xan soruşdu: «Hara gedirsən?»-Dilənçi: «Şəhərə bəs sən hara gəlirsən?». Xan: «Şəhərdən». Dilənçi: «Şəhərdə nə var idi?».

Xan: «Xanın oğlunun toyu idi. Bir qiyamət idi. Fəqir-fuqaraya çoxlu pul paylayırdılar. Hətta qızıl da verdilər. Mən də bir qədər aldım.

Xan cibindən bir qızıl çıxardıb dilənçiyə uzatdı və dedi: «Bəlkə sən tanıdın, bu qızıldır ya nə?».

Kor qızılı əlinə alıb ağırlığından qızıl olduğunu hiss etdi və öz cibinə qoydu. Bir kəlmə də danışmayıb, yavaşca dalı-dalı çəkildi. Xan dedi: «Hə danışmayırsan? Qızılımı ver!»

Kor səssiz bir qədər də dala çəkildi. Xan dedi: «Mənim qızılımı apardın; mən indi əlimi sürtüb yerdən daş tapacağam və sənə atacağam: daşım sənə dəyəndə, səni incidər, qışqırarsan bilərəm ki, ha tərəfə qaçdın, gəlib səni tutaram».

Xan yerdən bir daş götürüb korun ayağının üstündən vurdu. Kor səsini çıxartmadı, ayağının birini götürüb, birini qoydu. Xan dedi: «Görünür daşım sənə dəymədi: ikinci daşı tapım. Əgər mən haqlıyamsa, daşım sənə dəyər». İkinci daş ilə korun o biri ayağını vurdu. Bu dəfə də kor səsini çıxartmadı. Xan dedi: «Allahın üç kəramindən, sifətini nişan alacağam». Kor bu sözü eşidəndə qorxusundan dedi: «A1 qızılını apar. Sənin vuruşun kor vuruşuna oxşamır!

Həmin el sözü tamamilə eyni şəkildə erməni xalqı arasında yayılmışdır. Hər iki variant arasında bircə fərq vardır. Azərbaycanda kora sataşmaq istəyən şəxsin xan olduğu göstərilir. Ermənicədə isə o, adi bir adamdır. Həm də kora sataşmaq deyil, onu yoxlamaq istəyir. Kora sataşmaq məsələsi Azərbaycan el sözünün mahiyyətindən irəli gəlmişdir. Xan surəti tələb edirdi ki, o, kor dilənçiyə sataşsın, nəinki onu yoxlasın. Bu el sözünü yaradan xalq «bir güllə ilə iki ov vurmuşdur». Həm kor dilənçinin acgözlüyünü, həm də xanın zülmkarlığını tənqid etmişdir.

Azərbaycan xalqının elə də başqa xalqlar arasında çox yayılmış ümumi folklor nümayədələrindən biri də Molla Nəsrəddinin lətifələridir. «Molla Nəsrəddin eşşəyinin quyruğu», «Molla Nəsrəddinin qazanı», «Molla Nəsrəddinin yorğanı», «Sən dişləmisən», «Dörd qıçlı olardıq» kimi lətifələr ermənicə və azərbaycanca eyni məzmuna malikdir. «Sən dişləmisən» adlı azərbaycanca lətifənin erməni variantı belədir:» Kəndlilər Molla Nəsrəddini hakim seçdilər. Onun yanına iki şikayətçi gəldi.

- Bu mənim burnumu dişlədi, - deyə onlardan biri şikayətləndi.

Yalan deyir, özü öz burnunu dişləyib, - digəri özünü təmizə çıxartdı.

Gedin bayıra, yarım saatdan sonra gəlin, hökmü verim, - deyə Molla şikayətçiləri bayıra çıxartdı, özü də bir başqa otağa keçib öz burnunu dişləmək istədi.O, çox o tərəf, bu tərəfə düşdü, çox fırlandı, əyilib-qalxdı ki, bəlkə burnu üstə düşüb onu dişləsin, amma mümkün olmadı, axırıncı dəfə təcrübədən keçirərkən sürüşdü, bir yaxşıca yerə düşdü və başını yardı. Molla dəsmalını çıxartdı, başını sarıdı və bayıra çıxaraq şikayətçiləri çağırdı.

- Sən düz deyirsən, - deyə o, birinciyə bəraət qazandırdı, çünki o, özü burnunu dişləmiş olsaydı sarımış olardı».

Bu lətifə Azərbaycan variantında tamamilə eyni məzmunda danışılır. Yalnız cüzi fərqlər nəzərə çarpır. Azərbaycan variantında Molla Nəsrəddini Topal Teymur hakim təyin edir. Sonra, erməni variantında burunun dişlənməsi haqqında söhbət getdiyi halda Azərbaycan variantında qulağın dişləndiyi göstərilir. Mahiyyət etibarilə əhəmiyyətsiz olan bu fərqlər həmin lətifənin hər iki variantının vahid məzmununa heç bir xələl gətirmir.

«Dörd qılçalı olardın» lətifəsi də erməni və Azərbaycan variantında eynidir.

Azərbaycan variantında deyilir:

«Günlərin birində bir nəfər Teymurgilə bir qaz gətirir. Teymur qazı bişirib hazırlamağı Mollaya tapşırır. Molla qazı hazırlayır, ancaq nəfsini saxlaya bilməyib qazın bir qıçını özü yeyir. (Erməni variantında lətifənin başlanğıcı belə verilir: Topal Teymur Nəsrəddinin yaşadığı şəhəri zəbt etdikdən sonra bütün şəhərlilər hədiyyələrlə onu görməyə gəlirlər. Molla da bir ördəyin tüklərini yoldu, qızartdı və apardı. Yolda ürəyi istədi, qızardılmış ördəyin bir budunu qoparıb yedi). Xörək ortalığa gəlir, Teymur baxır ki, qazın bir budu yoxdur. Üzünü Mollaya tutub soruşur:

- Molla, bəs, bu qazın bir qıçı hanı? Molla halını dəyişməyib cavab verir: - Necə yanı bir qıçı hanı? Qaz bir qıçlı olar də... Teymur - Nə sarsaq-sarsaq danışırsan, necə yəni qaz bir qıçlı olar? Molla - Başın üçün qaz bir qıçlı olar, - deyib Teymuru inandırmağa çalışır.

Teymur Mollanın bu hərəkətindən qəzəblənib qışqırmır, Molla görür iş şuluqdur. Birdən gözü sataşır pəncərəyə baxıb görür ki, çöldəki çayın başında bir dəstə çöl qazı var. Hamısı bir qıçlı durub özlərini günə verirlər. Tez üzünü Teymura tutub deyir: - Qibləyi-aləm sağ olsun, inanmırsan bax o qazlara, gör hamısı bir qıçlıdır, ya yox?

Bu vaxtda da kimsə bir güllə atır, qazların hamısı qaçmağa başlayır. (Erməni variantında deyilir ki, Teymurun özü bir boşqab götürüb ördəyin üstünə tullayır, ördək o biri ayağını da endirib qaçır.)Teymur bunu görüb deyir: - Hanı bir bax gör, bir qıçlıdırlar ya iki qıçlıdırlar?

Molla heç halını pozmayıb deyir: - O gülləni ki, onlara atdılar, sənə atsaydılar sən nə iki qıçlı, lap dörd qıçlı qaçardın». Erməni variantı da belə qurtarır:- »Əlbəttə,-deyə Molla tez cavab verdi, - O yekə boşqabı sənin də üstünə tullasan, sən də iki ayaqla qaçarsan».

Göründüyü kimi eyni lətifələrin hər iki variantı ideya və məzmun, süjet və kompazisiya nöqteyi-nəzərindən bir-birlərinə tamamilə uyğun gəlirlər. Mötərizədə göstərdiyimiz bəzi fərqlər isə əhəmiyyətsizdir.

**Ermənilərin ən çox sevdikləri folklor əsərlərindən biri Azərbaycan atalar sözüdür.** Ermənilər içərisində kütləvi surətdə yayılan Azərbaycan atalar sözü əsas etibarilə öz mənbəyində olan formanı saxlayır. Onda çox az dəyişişiklik edilir. Məsələn, «Kef sənin, kənd koxanın» atalar sözü ermənicə, işlədiləndə yalnız «Sən» kəlməsi ermənicəyə çevrilir və belə deyilir. «Kefi konne, kyandı kyoxvini» «Bir olsun pir olsun» atalar sözünün ermənicəsində «olsun» kəlməsi dəyişdirilir və belə deyilir; «Bir ili u pir ili», «Dəvə nalbəndə baxır» (yaxud, «Dəvə nalbəndə baxan kimi baxırsan»). Azərbaycan atalar sözünün ermənicəsində yalnız sonuncu kəlmə dəyişdirilir: «Daven nalbandin tars qaşa».

Ermənilərin çox istifadə etdiyi Azərbaycan atalar sözlərindən «Ya Həsən keçəl, ya keçəl Həsən», «Peşkaş atın dişlərinə baxmazlar», «Qatır həccə getməklə hacı olmaz» və s.

Erməni mənimsəmələrini ermənilərin özləri də təsdiq edirlər. Erməni Sovet folklorşünası A. T. Qanalanyan bu barədə belə yazır:

«Kefi konn e, kyandı kyoxvini», «Bir ili u «pir» ili» və «Həsən keçəl, keçəl Həsən» atalar sözləri ... müvafiq Azərbaycan atalar sözlərinin («Kef sənindir, kənd koxvanın», «Bir olsun pir olsun», «Ya Həsən keçəl, ya keçəl Həsən») erməniləşdirilmiş variantlarıdır. Yuxarıda dediklərimizi ən əvvəl, onunla təsdiq etmək olar ki, həmin atalar sözlərində olan «kənd, bir, pir (yaxşı, sədaqətli) sözləri və bəzən xüsusi adı ermənicə ayrıca işlədilmir və azərbaycanca gəlir».

Beləliklə, Azərbaycan dastan və nağıllarını, müdrik atalar sözlərini, lətifələrini mənimsəmişlər, onlara məftun olaraq, mövzu və motivləri yeni bir qüvvə, yeni bir bədii ehtirasla öz milli dillərində, milli təsvir vasitələrilə, öz ürəklərinə yatan tərzdə yenidən işləmişlər. Bu hadisə uzun əsrlər boyu davam etmiş, öz kökü etibarilə hər hansı bir xalqla bağlı olan dastan, nağıl, yaxud atalar sözü onu yenidən işləyərək erməniləşdirmişlər.

**Erməni plagiyatorçuluğunun bir növü də Azərbaycan folklor yaradıcılığından iqtibaslardır və qonşu ölkələrdə** Azərbaycan folklor yaradıcılığından iqtibas və köçürmələr içərisində Azərbaycan dastanları önəmli yer tutur.

Beləcə əsərlərdən qeyd etmək olar: «Əsli və Kərəm», «Leyli və Məcnun», «Aşiq Qərib», «Koroğlu» və s. Həmin əsərdə zülmə, əsarətə, ictimai haqsızlığa qarşı, azad həyat, azad məhəbbət uğrunda mübarizə aparan Azərbaycanlı qəhramanlara ermənilər tərəfindən həsəd aparılmışdır. Ermənilər çalışmışlar ki, içərilərindən də belə qəhrəmanlar çıxsın. Bu istiqamətdə istifadə olunmuşdur. Ermənilər iqtibaslara üstünlük vermişlər.

İqtibas olunmuş əsər və dastanlar içərisində «Koroğlu» ön sıradadır. Çünki, «Koroğlu» dastanında Koroğlu feodallara və türk paşalarına qarşı mübarizə aparmışdır. Ermənilər onun simasında erməni Koroğluları yetişdirmək istəmişlər.

İqtibas prosesində əsərə yeni variant düzəldib özününküləşdirmişlər.

Azərbaycan xalqının böyük sənətkarlıq abidəsi olan «Koroğlu» dastanı erməniləri ruhlandırmışdır. «Koroğlu» dastanını yüksək qiymətləndirən erməni sovet ədəbiyyatşünası X.Samvelyan onun erməni xalqı içərisində yayılmasının səbəblərini doğru olaraq dastanın böyük bir ictimai məzmuna malik olmasında xalqın arzu və istəklərini yüksək bədiyyatla tərənnüm etməsində görür.

XVII əsr erməni tarixçisi Arakel Davrijetsi (Təbrizli) Koroğlunun və onun bir çox dəlilərinin tarixi şəxsiyyətlər olduğunu təsdiq etmiş, Koroğlu üsyanlarının səbəblərini, iştirakçılarını, onların sayını və sairəni göstərmişdir.

«Koroğlu, bu haman Koroğludur ki, hal-hazırda aşıqlar tərəfindən ona saysız-hesabsız nəğmələr demişlər...» A.Davriyetsi Koroğlunu adı ilə yanaşı onun ən yaxın silahdaşlarından olan Gizir oğlu Mustafa bəyin, Qaraqaşın, Dəli Nəbinin, Yolasığmazın, Tanrıtanımazın, Köyəbaxan, Çıplağın, Qarasahatin, Ağacdanpirinin və başqalarının adlarını çəkir. O, qeyd edir ki, bu adamların hamısı osmanlılara qarşı üsyana qalxanlardır. Deməli ermənilərin Koroğlunu sevməsi, ermənilərin türk pataloji düşməninə qarşı çıxması ilə bağlı imiş.

Q.Ağayan «Koroğlu» dastanının xalq arasında geniş yayılmış variantından istifadə edərkən üç hekayə («Dəyirmançı Koroğlu», »Koroğlunun qılıncı» və «Dustaq Koroğlu») yazmış və XIX əsrin sonlarında nəşr etdirmişdir. Həmçinin 1908-ci ildə Q. Ağayanın Koroğlu dastanının üç qolundan ibarət kitabçası da erməni dilində nəşr edilmişdir.

Aşiq Camali (Mkrtç Talyan) 1898-ci ildə «Koroğlunun nağılı, Gizir oğlu və Bolu bəy ilə baş vermiş hadisələr», 1904-cü ildə isə «Koroğlunun nağılı, Dəmirçi oğlu və Həmzə bəy ilə baş vermiş hadisələr» adı altında kitabçalar çap etdirmişdir. «Koroğlu» dastanının tam və əsaslı variantı erməni dilində 1941-ci ildə Ermənistan SSR Elmlər Akademiyası tərəfindən kitab şəkilində çap edilmişdir. Prof. X. Samvelyanın çapa hazırladığı bu variantı 1912-ci ildə Q.Tarverdyan qələmə almışdır.

Yeri gəlmişkən «Koroğlu» dastanı Yaxın Orta Şərqdə, Anadoluda, bütün Qafqazda yaşayan xalqların azadlıq və istiqlaliyyət uğrunda apardıqları mübarizə və döyüşlərin təzahür faktı olmuşdur. Bu xalqlar içərisində kürdlər daha irəli getmişdir. Sovet kürd folklarşünası Haaye Cidi «Koroğlunun» kürd variantlarını toplayaraq 1953-cü ildə ermənicə olan tərcümələrilə birlikdə kürd dilində çap etdirmişdir (Ermənistan E.A. nəşriyyatı). Müəllif dastanı müqəddimədə təhlil edir, kürd variantlarının Azərbaycan variantı ilə müqayisə edir, onların bənzəyiş və fərqli tərəflərini açıb. Hacıye Cidinin bu kitabında kürd və erməni dilində «Koroğlu»nun 18 qolu çap edilmişdir.

Erməni folklorşünasları «Koroğlu» ilə birlikdə başqa Azərbaycan dastanlarını da iqtibas edərək onları erməni məişət və psixologiyasına, erməni ədəbi baxış və fəlsəfəsinə uyğunlaşdırmağa çalışaraq, onları öz tədqiqatları kimi qələmə vermişlər. Müasir erməni və kürd folklorşünasları isə «Koroğlu»nu tarixi şəraitlə əlaqələndirib özününküləşdirməyə də cəhd edirlər..

Erməni folklorşünas alimləri eqoistcəsinə sübut etməyə çalışırlar ki, «Koroğlu» dastanının variantlarını onlar erməni xalqı içərisindən toplamışlar və azərbaycanlılar onlardan iqtibas etmişlər. Bu baxımdan yuxarıda adı çəkilən Q.Tarverdiyan

daha irəli gedir. Onun yazdığına görə dastanın məzmunu ona Ermənistanın Qəmərli rayonunun Qır Bzovan (indi Artaşat rayonu, Azadavan) kəndində yaşamış 53 yaşlı savadsız bir kəndli Gevork Taroyan (Avakyan) olmuşdur.

Bütün dastan nəzm şəkilində deyilmişdir. Azərbaycan dastanındakı qollar burada tam eyniliklə verilmir. Yalnız hadisələrin gedişilə uyğun olaraq başlıqlar qeyd edilir.

«Koroğlu» dastanını həmin erməni variantının əsasına Zaqafqaziyada yayılmış Azərbaycan variantları qoyulmuşdur. Bunu həm də erməni variantında olan yüzlərlə Azərbaycan kəlməsi, ifadəsi, atalar sozü və zərbi-məsələlərinin işlədilməsi də sübut edir. «Koroğlu» dastanını erməni variantının Azərbaycan variantı əsasında yaradıldığını sübut edən əsas səbəblər hər iki variantda olan ideya-məzmun eyniliyindədir.

Bu eynilik, yalnız çap edilmiş varianta deyil, elə də «Koroğlu»nun əlyazması halında olan bütün erməni variantlarına aiddir. Onu da qeyd etmək lazımdır ki, bu variantların hamısında mahnıların əksər hissəsi Azərbaycan dilindədir. Dastanı erməni dilində söyləyən erməni aşıqları erməni dilinin milli poetik xüsusiyyətlərindən istifadə etməklə bərabər, Azərbaycan mahnılarını, Azərbaycan ifadələrini, atalar sözünü azərbaycanca deməyi sevmişlər. Bir qanun olaraq onlar Azərbacyan dastanının əsas ideya məzmununu və süjet xəttini saxlamışlar.

«Koroğlunun» 1941-ci ildə nəşr edilmiş erməni variantının qısa məzmunu belədir:

Mərdlik və namərdlik haqqında ümumi bir müqəddimə verildikdən sonra Rövşənin doğuluşu haqqında danışılır. Rövşən Həsənəli adlı bir mehtərin oğludur. Camaat onu «Həsən» deyə çağırır (başqa variantlarda ona Əli-Alı deyirlər). Həsən, Əli Paşanın (başqa variantlarda Həsən xanın) yanında mehtərlik edir.

Dəniz atından Qıratın törəməsi, paşanın Həsən əminin gözlərini çıxartdırması, buna görə də Rövşənə Koroğlu adı verilməsi, Qıratın bəslənməsi, Həsən əminin daşdan Misri qılınc qayırtdırması, Qıratın təcrübədən keçirilməsi kimi hadisələr Azərbaycan dastanında olduğu kimi cərəyan edir. Bundan sonra Koroğlu xanlara, paşalara, tacirlərə divan tutmağa başlayır. Həsən əmi oğluna nəsihətlər edərək ölür.

Koroğlu başına dəlilər toplamağa başlayır, Çənlibeli özünə istinadgah seçir. Getdikcə onun dəlilərinin-zəhmətkeş xalqın bu mərd və qoçaq oğlanların sayı daha da artır. Dastanda onlar haqqında iftixar hissi ilə danışılır. Koroğlunu köməkçilərindən, məsələn, dastanda Rehani ərəbi, Kürd oğlu, Baba Kənhan, Qoç Babaxan, Bığlı Yusif, İsa-Balı, Dəli-Batman, Tanrıtanımaz, Halaypozan, Dəli Nəsib, Qaraqaş, Göləbaxan, Kirli Bayram, Çıplax Əli, Qara Sayad, Murtuza, Batmanqılınc, Həsən Küpqıran kimi dəlilərin adı çəkilir, onların fəaliyyətlərindən danışılır. Dəmirçi oğlu, Eyvaz və Nigar isə Koroğlunun ən yaxın silahdaşları kimi göstərilir. Digər Azərbaycan dastanları -»Əsli və Kərəm», «Aşiq Qərib», «Şah İsmayıl», «Fərhad və Şirin», «Tahir və Zöhrə» ermənilər içərisində istər şifahi, istərsə yazılı şəkildə geniş yayılmışdır. Bu dastanların Sovet hakimiyyətindən qabaq erməni variantları vardır, onların məzmunları Azərbaycan dastanlarının məzmunlarına uyğun gəlir.

20-ci illərin sonlarında erməni qusanları (aşıqları) A.Xodzkonun mətni əsasında «Koroğlu» dastanının yenidən işlənmiş erməni variantını «yaratdılar». Bu dövrdə Azərbaycanda dastanın toplanma və nəşr işlərinə qarşı hər cür böhtan, iddia irəli sürən ermənilər professor Vəli Xuluflunu millətçilikdə, Zaqafqaziya xalqlarının mənəvi dəyərlərini təhrif etməkdə ittiham etməyə başladılar. 20-30-cu illərdə erməni mütəxəssisləri «Koroğlu» eposunun özlərinə məxsus olma iddialarını davam etdirməkdə, dastanın müxtəlif qollarını erməni dilində «qusanlardan» «yazıya alıb» öz adlarına çıxmaqda idilər. 1941-ci ildə «Koroğlu» dastanı Ermənistanda erməni dilində nəşr edildi (bax: «Koroğlu» Armyanskiy variant, Erevan, 1941). Burada erməni folklorşünası X. Samvelyan müqəddimə vermişdir. Erməni və rus dillərində bu verilmiş müqəddimədə «Koroğlu»ya münasibət birmənalı deyildi. Müqəddimənin bir yerində X. Samvelyan erməni variantını eposun ən son variantlarından biri hesab edərək yazırdı ki, Koroğlunu bugünkü cəmiyyət azadlığın rəmzi kimi qəbul etdiyindən hər bir xalq onu öz milli qəhrəmanı hesab edir. Ona görə də Koroğlu türk variantında türk, gürcü variantında gürcü, özbək variantında özbək, erməni variantında ermənidir.

Bu baxış, Milli eposumuza sovet ideologiyası baxımından yanaşmaydı, sosialist metodologiyasından gələn yanlışlıq idi. Əslində dastanın yaranmasında erməni qusanlarının iştirakının yalnız təbdil, tərcümə olduğunu X. Samvelyan etiraf da edirdi: «Erməni xalqının «Koroğlu» adında eposu olmamışdır. Bu... erməni qusanlarının Azərbaycan aşıqlarının repertuarından sonralar götürərək qoşub-düzdüyü uydurmadan başqa bir şey deyildir» - demişdir.

«Əsli-Kərəm» dastan yaradıcılığımızın erkən orta əsrlər dövrünə məxsus şifahi abidələrindən biridir. Onun əldə olan bütün variantlarında alban mədəniyyəti elementlərinin özünü güclü şəkildə qoruyub saxlamasına baxmayaraq, erməni «yanşaq»ları böyük cidd-cəhd ilə Əslini albanlıqdan çıxarılıb erməniləşdirmiş, alban keşişi erməni kimi təqdim edilməklə ermənilər erkən orta əsr tarixində öz yerlərini möhkəmlətməyə cəhd etmişlər. Bir sıra hallarda isə erməni tədqiqatçıları hətta «Əsli-Kərəm»i sırf erməni dastanı kimi təqdim etməkdən belə çəkinməmişlər. Dastanın istər Türkiyədə, istərsə Qafqaz və Orta Asiyada yayılmış variantlarında isə alban mədəniyyəti ilə bağlı izlər daha aydın görünməkdədir. Sadəcə olaraq uzun illər ərzində bu həqiqətlərə diqqət yetirilməmiş, «Əsli-Kərəm»in erməni məişəti ilə bağlılığını təkzib edən faktlara araşdırmalarda biganəlik göstərilmişdir. Bundan istifadə edən erməni saxtakarları bir az da irəliyə gedərək, «Əsli-Kərəm» operası, bu operanın yaradıcısı C. Hacıbəyov və onun bir sıra əsərləri, xüsusilə romansları, eləcə də onun şəxsiyyəti üzərinə kölgə salmaqdan belə çəkinməmişlər. Bu gün Azərbaycan folklorşünaslığı bütün bu kimi sərsəm mülahizələri ciddi faktlarla təkzib edərək rədd edir. (bax: «Folklorşünaslıq məsələləri», Bakı, BDU nəşri, IV və V buraxılışlar, 1999, 2002, s.l 12-120; 208-212).

Ermənilər içərisində geniş şöhrət tapmış dastanlardan ən başlıcası «Əsli və Kərəm»dir. Erməni mənbələri göstərir ki, bu dastanı X.Abovyan, Q.Ağayan ilk dəfə ermənicə yazıya almışlar.

Erməni folklorşünası Q.Axverdiyan öz əsərində Aşıq Qərib dastanının qısa məzmununu «Aşıq Qərib və Şahsənəm» adı altında vermişdir. «Aşıq Qərib»i qələmə alan folklorçulardan biri də Gevork Ter-Aleksandryandır. O dastanın ermənicə şərhində göstərmişdir ki, bu işdə məşhur rus şairi M.Lermontovun Aşıq Qərib haqqında yazdıqlarını əsas götürmüşdür.

İstər Axverdiyan, istərsə də Ter-Aleksandryan Aşıq Qəribin Tiflisli olduğunu göstərirlər. Azərbaycan dastanında deyilir ki, Qərib Təbrizlidir və sonra Tiflisə gəlir.

İstər Azərbaycan dastanında, istərsə də Ter-Aleksandryanın variantında Şahvələdin qanlı köynək gətirməsi mühüm hadisələrdən biridir və konfliktin güclənməsinə, gərginliyin artmasına şərait yaradır. Axverdiyan bu hadisəni də daxil etməmişdir. Şahvələd heç bir mənfi rol oynamır. Sevgilisini gözləməkdən ümüdsizliyə qapılan və ondan əlini üzən Şahsənəm qonşuları Şahvələdə ərə getməyə razılıq verir.

Bütün bu fərqlərə baxmayaraq «Aşıq Qərib»in ermənicə hər iki variantı öz ümumi məzmunu, sujet xətti, kompozisiyası, personajları etibarı ilə Azərbaycan dastanından ayrılmazdır və öz mənbəyini oradan alır.

«Aşıq Qərib»in üçüncü variantı da vardır. Bu variantı «Aşıq Qəribin nağılları» (mahnılarla birlikdə) adı altında məşhur erməni aşığı Civani 1887-ci ildə Aleksandropolda (Gümrü) kitab şəklində çap etdirmişdir. Bu variant onunla gözə çarpır ki, müəllif dastanın qısa şərhilə kifayətlənməmiş, onu başdan-başa təbdil etmişdir. Məhz buna görə də kitab xalq arasında böyük şöhrət tapmış və dəfələrlə çap olunmuşdur. «Aşıq Qərib»in Civani tərəfindən təbdil edilən həmin variantın əsas səciyyəvi cəhəti ondan ibarətdir ki, orada bütün personajlar ermənиləşdirilmişdir. Qalan məsələlərdə isə onun Azərbaycan dastanından əsaslı bir fərqi yoxdur. Oxucular və tədqiqatçılar arasında maraq oyadacağını nəzərə alıb həmin variantın 9-cu nəşrini qısa məzmununu veririk: «Aşıq Qəribin nağılı». Tərtib edəni Aşıq Civani. Doqquzuncu nəşri, Bakı. 1918 (erməni dilində).

Təbrizdə Məlik-Abraham adlı varlı bir tacir yaşayırmış. Onun Arşak adlı bir oğlu, Nərgiz adlı bir qızı varmış. Məlik-Abraham öldükdən sonra Arşak tez bir zamanda atasının var-dövlətini əldən verir. Ağlı başına gələndə isə artıq gec olur. Ağır vəziyyətdən qurtarmaq üçün Arşak əvvəlcə bir misgərin, sonra dərzinin yanında şəyirdlik edir. Beləliklə, müxtəlif adamların yanında 32 sənət öyrənir. Bir gün Arşak yuxusunda tiflisli Şahsənəmi görür, ona vurulur, aşıq olub əlinə saz alır, söz qoşur. Arşak anasını və bacısını da götürüb Xacə Muradın karvanı ilə Tiflisə gəlir, aşıqlıq edir. Burada aşıqlar məclisində o, «Aşıq Qərib» adını alır, öz gözəl mahnıları, xüsusən Təbrizi tərif edən sözlərilə hamını heyran qoyur. Aşıq Qərib Xacə Sahakın evinə gedir, orada çalıb oxuyur və ilk dəfə onun qızı Şahsənəmi görür. Xacə Sahak onların sevgisindən xəbər tutub qızını Qəribə vermək üçün qırx kisə qızıl istəyir. Qərib onun tələbini yerinə yetirmək məqsədilə səfərə çıxır. Arpaçay, Qoşavəng, Ərzurum yolları ilə Hələbə çatır, əzab-əziyyətlər çəkərək doğma vətəni, sevgilisini yadına salır, vətən durnalarından onları xəbər alır.

Hələbdə qəhvəxana sahibi Aslan dədənin yanında qalır, yavaş-yavaş tanınır, nəhayət saray aşıqları ilə deyişib onları məğlub edir, özünə Dəli Səlim kimi mərd adamlardan tərafdarlar tapır.

Qəribi Məlik paşanın yanına aparırlar. O, öz doğma vətəni Təbrizi tərifləyir. Paşa onu öz evində saxlayır.

Xacə Sahak əhdini pozub qızı Şahsənəmi Şahvələd adlı bir tacirə nişanlayır və onun qarşısında bir şərt qoyur: var-dövləti özününkü qədər olmalıdır. Şahvələd dövlətini artırmaq üçün ticarət edə-edə Hələbə çıxır. Aşıq Qəriblə rastlaşır. Qərib anasına yazdığı məktubu ona verir.

Şahvələd geri qayıdır, qanlı köynəyini göstərərək Aşıq Qərbin daha yaşamadığını söyləyir, öz çirkin niyyətinə çatmağa çalışır. Qəribin anası Arusyak, bacısı Nərgiz və sevgilisi Şahsənəm qəm-qüssə içində yaşayırlar. Şahvələdin evlənmək təklifini Şahsənəm rədd edir. O, qarının və keşişin yağlı dillərinə aldanmayır. Şahsənəm Şəhvələddən xilas yolunu şəhərdən qaçmaqda görür. O, Qəribin anası və bacısı ilə xəlvətcə qaçırlar. Yolda onlar Adam adlı tacirə rast gəlir, dərdlərini ona söyləyirlər. Tacir düşüb diyarbadiyar Qəribi axtarır, nəhayət tapıb hər şeyi ona xəbər verir.

Şahsənəm yenidən Şahvələdin əlinə keçir. Lakin Qərib toy günü özünü yetirib sevgilisini xilas edir, toy edib Şahsənəmlə evlənir.

Göründüyü kimi Azərbaycan dastanı ilə bu üçüncü variant arasında personajlardan bir neçəsinin adlarından başqa elə bir əsaslı fərq yoxdur. Axverdyanın və Ter-Aleksandryanın yazıya köçürdükləri variantlara görə bu üçüncü variant böyük qiymətə və yüksək bədii dəyərə malikdir, çünki o, dastanın məzmununun qısa şəhri deyil, təbdil edilmiş halda dastanın özüdür.

Bir neçə söz də «Fərhad və Şirin» haqqında.

Bu Azərbaycan dastanı da erməni xalqı arasında geniş yayılmışdır. Şairlər və yazıçılar çox zaman öz qəhramanlarını Fərhad və Şirinə bənzətmişlər. Məşhur erməni yazıçısı Vartanes Papazyan «Fərhad və Şirin»i yazıya köçürərək çap etdirmişdir («Murc» jurnalı (erməni dilində), 1906 3 saylı səh. 9-14.)

V.Papazyandan sonra S.M.A. adlı bizə məlum olmayan bir müəllif «Fərhad və Şirin» dastanını erməni dilinə tərcümə edərək kitabça şəklində çap etdirmişdir («Fərhad və Şirin» (erməni dilində), Tiflis, 1913.)

Hər iki müəllifin çap etdirdikləri variantın məzmunu Azərbaycan dastanının məzmununa uyğun gəlir. Lakin əlimizdə olan üçüncü variant daha əvvəl yazıya köçürülmüş və dastanın məzmunu ermənиləşdirilmişdir.

Həmin variantı erməni foklorşünası Qaregin Sirvanzdyan yazıya köçürmüşdür. Bu variant onunla gözə çarpır ki, hadisələr erməni mühitinə uyğunlaşdırılmışdır. Buna görə də həmin variant öz qədim kökləri ilə Nizami yaradıcılığına bağlansa da, erməni xalq yaradıcılığı kimi verilir. Bu variantın qısa məzmunu belədir:

Manazkertdə Bostanqaya adlı bir kənd vardır. Kəndin yanında Aznavur qəbri adlanan uzun bir qəbr diqqəti cəlb edir, həmin yer Bostan Qaya adlanır. Yerlilər onunla bağlı olan bir maraqlı əhvalat danışırlar: guya Bostan Qayada basdırılmış Aznavur uzaq bir yerdən gözəl bir qız qaçırıb həmin kəndə gətirir... Qızın adı Şirindir (və ya Sirun). Lakin iş burasındadır ki, Aznavur nə qədər cəhd edirsə Şirinin məhəbbətini qazana bilmir. Qız həmişə Aznavurun qarşısına cürbəcür şərtlər qoyur. Onun axırıncı şərti bu olur ki, hərgah Aznavur qayaları çapıb və şumlayıb, orada bostan əkərək ona xiyar çatdıra bilərsə, Şirin həmən xiyarı yeyər, Aznavuru sevər və onun arvadı olar.

Aznavur əlinə nəhəng bir bel alıb qayaları parçalayır, torpaq kimi şumlayıb bostan əkir. Xiyar yetişdirib böyük bir etimadla Şirinə aparır. O, ümid edir ki, Şirinin bütün şərtlərini yerinə yetirmiş, daha öz arzusuna çatacaqdır.

Lakin Şirin sevmədiyi Aznavura yenə də hiylə gəlir. Ona deyir ki, mən artıq səninkiyəm, bir qab hərisə gətir ki, yeyək. Qoy xörəyin üstündə xiyar da olsun. Sonra toyumuzu edək.

Şirinin məhəbbətindən məst olmuş və özünü itirmiş Aznavur gedir və sarayın qapılarını açıq qoyur.

Şirinin əsil sevgilisi olan Qovd həmişə Aznavuru izləyir, pəncərədən Şirinlə gözlə-qaşla danışırdı. İndi o qapıları açıq görüb içəri girir, Şirinlə birlikdə qoşulub qaçırlar.

Aznavur geri qayıdır. Qızın xəyanətini görüb düşünür ki, qadınlar dünyanın ən qüdrətli sərkərdələrini belə aldadıb onlara qalib gələ bilər. Buna görə də o qızın dalınca getmir və həyatda da yaşamaq istəmir. Öz beli ilə özünü vurub öldürür. Kənd qadınları ona yas tutur, gənclər isə onu götürüb dəfn edirlər (Q.Sirvanzdyan, «Qrots və brots» (yazı-pozu), səh. 66-69, İstanbul, 1874 (erməni dilində).)

Beləliklə, «Fərhad və Şirin» dastanı ilə bu əhvalat arasında bir bənzəyiş olduğu aydın görünür. Fərhadın dağ çapması və süd yolu açması ilə Aznavurun qayaları çapıb yer şumlaması və bostan əkməsi, istər Fərhadın, istərsə də Aznavurun eşq yolunda öz həyatına son qoymaları arasında böyük bir oxşarlıq var.

«Koroğlu», «Aşıq Qərib», «Fərhad və Şirin» dastanlarından başqa hələ inqilabdan əvvəl bir sıra başqa Azərbaycan dastanları da («Əsli və Kərəm», «Leyli və Məcnun», «Tahir və Zöhrə» və s.) geniş məlum olmuş, onlar yazıya köçürülərək erməni dilində kitabça şəklində çap etdirilmişdir. «Əsli və Kərəm» dastanının ayrı-ayrı qoşmalarına Matenadaranın XVIII əsrə aid olan əlyazmalarında təsadüf edilir...

**Üçüncüsü, ermənilər Azərbaycan xalqının folklor yaradıcılığının bariz nümunəsi olan aşıq yaradıcılığını bu günə kimi mənimsəyib erməniləşdirməkdədirlər.** Onlar nəinki Azərbaycan aşıq şerlərini oxumuş və təbliğ etmişlər, hətta bu sədəfli dildə şer yazmaq asan olduğu üçün Azərbaycan dilində şerlər, poemalar, məzhəkələr yazmışlar.

Ermənilər «ozan» aşıq yaradıcılığına alternativ «Qusan» (çalıb-oynayan) aşıq yaradıcılığı düzəltmişlər. Həmçinin XVII əsrin sonlarından erməni aşıq ədəbiyyatı yaranmış; o XVIII əsrdə on çiçəkli dövrünü keçirmişdir. O vaxtdan indiyədək bir çox məşhur erməni aşıqları yetişmişdir: Nağış Hovnatan, Sayad Nova, Misgin Burcin, Şirin, Şeram, Civani və s. 300 il ərzində yaşayıb yaratmış erməni aşıqlarının sayı 400 nəfəri keçir.

Erməni aşıq ədəbiyyatı Azərbaycan aşıq ədəbiyyatını təlqin etməklə yaranmış və inkişaf etmişdir. Erməni aşıqları öz səmimiyyəti və hərarətinə valeh edən Azərbaycan aşıq şerlərinin təsiri nəticəsində Azərbaycan dilində yazıb yaratmışlar. XVII əsrdən başlayaraq erməni aşıqları iki qrupa bölünmüşlər: a) yalnız azərbaycanca mahnılar yaradan aşıqlar; b) həm erməncə, həm də azərbaycanca mahnılar yaradan aşıqlar erməni aşıqlarının Azərbaycan dilində yazıb yaratmaları erməni ədəbiyyat aləmində çox böyük mübahisə və söhbətlərə düçar olmuşdur. Bunun səbəbi müxtəlif şəkildə izah edilmişdir. Erməni aşıq ədəbiyyatının ilk tədqiqatçılarından olan Gevorq Axverdyan erməni aşıqlarının başqa dillərdə - azərbaycanca, farsca, osmanlıca (türkcə) yazmalarının, yaxud şer-mahnı qoşmalarının səbəbini kilsəyə sədaqətilə bağlayır. O, «Sayat Nova» kitabında yazır: «Aşıqların daha dindar olanları zəngin erməni dilinin elə o başdan yalnız özlərini Yaradanı və Müqəddəsləri şerlərdə tərifləmək üçün müəyyən edildiyini güman edib, erməni sözlərilə ancaq öz dini və nəsihətamiz mahnılarını söyləmiş, özlərinin ilahi dilinin müqəddəsliyini saymamağı cinayət bilərək öz gözəl poetik duyğuların farsların, türklərin və osmanlıların şivəsində tərənnüm etmişlər».

Q.Levonyan erməni aşıqlarının başqa dillərdə yazmalarının səbəblərini həmin aşıqların müxtəlif xalqların ərazilərində yaşamalarında görür. O qeyd edir ki, türklərlə yanaşı yaşayan erməni aşıqları öz adlarını türk aşıqlarından götürmüş, mahnılarını isə Qədim Asiya mahnılarında oxumaq üçün türk havalarının adlarına (yəni növlərinə) uyğunlaşdırmışlar (Q. Levonyan, «Erməni aşıqları», səh. 113, Aleksandropol, 1892 (erməni dilində)). Q. Levonyan əsərlərinin birində göstərir ki, Türkiyədə yaşayan erməni aşıqları «...öz mahnılarını türkcə, Osmanlı sultanlığının dövlət dilində qoşurdular».

Dolayısı ilə olsa da buradan belə nəticə çıxır ki, ermənilər vahid ərazi birliyinə və formalaşmış ədəbi dilə malik olmamışlar.

Erməni tarixçisi Leo belə bir nəticəyə gəlmişdir ki, erməni dilinin yoxsulluğu üzündən aşıqlar öz mahnılarının Azərbaycan dilində qoşmuşlar. O yazır: «Aşıqlar üçün nağıllarda təsvir olunan həyatı ifadə etmək üçün türk dili erməni xalq ləhcələrindən daha səlis, daha ifadəli və daha zəngindir» (Levonyan Q. Erməni aşiqları (erməncə), Erivan, 1944, s. 34.)

Məlumdur ki, ermənilərin iki dili - kübar qrapar, xalq dili aşxarhabar. Leo izah edir ki, hələ XIX əsrdə aşxarhabar dili yoxsul olmuşdur. Məhz bu baxımdan erməni aşıqları dövrün zəngin dili olan türk dilində yazmağa məcbur olmuşlar. Bundan başqa Arazın hər iki tərəfindən geniş ərazini əhatə edən türklərin içərisində aşıqlıq etmək ehtiyacı erməni millətinə mənsub olan aşıq həvəskarları şerlərini türkcə yazmaq ehtiyacında olmuşlar. Əsası XVII əsrdən qoyulan bu cərəyan 300 illik böyük bir inkişaf yolu keçmişdir. XIX əsr erməni yazıçısı Xaçatur Abovyan yazırdı: «Türkcəni hətta qadınlar və uşaqlar belə bilir. Buna görə də xalq içərisində məşhur və anadangəlmə şairlik istedadına malik olan adamların tatarca şer yaratmaları və oxumaları çox təbii bir haldır» (X. Abovyan. Əsərləri (erməncə), 1 c. s. 47)

Erməni aşıqlarının Azərbaycan dilindən, həm də Azərbaycan şifahi xalq edəbiyyatının forma və məzmun zənginliyindən istifadə etmələrinin səbəblərindən biri də XVII əsrdən başlayaraq Azərbaycan şifahi xalq ədəbiyyatının çox sürətlə inkişaf etməsidir. Məlumdur ki, XVII-XVIII, eləcə də sonrakı əsrlərdə Azərbaycan xalqı şifahi ədəbiyyatın misilsiz nümunələrini yaratmışdır. Xüsusən «Koroğlu», «Əsli və Kərəm», «Aşıq Qərib», «Leyli və Məcnun», «Fərhad və Şirin» və s. dastanlar, eləcə də şifahi ədəbiyyatın başqa növləri öz yüksək ideya-bədii dəyəri ilə yalnız Azərbaycan xalqı içərisində qalmamış, başqa xalqlar, o cümlədən ermənilər arasında da yayılmışdır. Azərbaycan xalqının şifahi söz sərvətinin inciləri olan **atalar sözü, bayatı, nağıl, el sözləri də ermənilər içərisində yayılmışdır.** Təəssüf ki, sonralarda onları tərcümə edib özününküləşdirmişlər.

XVII əsrdə üç erməni aşıq məktəbləri olmuşdur: İsfahanda I. İran-erməni aşıq məktəbi (təsisçi Qul Eqyaz, Mkrtiç), İstanbulda II. Türk (Osmanlı) - erməni aşıq məktəbi (təsisçi Artin və Rumani), Tiflisdə III. Gürcü-Azərbaycan-erməni aşıq məktəbi (təsisçilər Şəmçi Melko, Budaq oğlan və s.). Erməni aşıq poeziyasının zirvəsi olan Sayat Nova bu məktəbin ən böyük sənətkarlarındandır.

Q. Levonyan İstanbul məktəbini nəzərdə tutaraq göstərir: «Bu məktəbin aşıqlarından hər hansı birinin erməni dilində yazıb-oxuması çox nadir bir hal idi. Onlar öz mahnılarını türkcə, Osmanlı sultanlığının dövlət dilində qoşurdular»

Bütün bu deyilənlərdən o nəticəni çıxarmaq olar ki, Azərbaycan dilində yazıb-yaradan erməni aşıq yaradıcılığı Azərbaycan aşıq poeziyasının tərkib hissəsi olub, plagiatorluqla bərabər, Azərbaycan aşıq poeziyasına xidmət etmişdir. Xüsusən XVII-XIX əsrlərdə güclü bir cərəyan kimi yüksəliş dövrü keçirən Azərbaycan aşıq ədəbiyyatı öz qüdrətli ideya-bədii məzmunu ilə erməni aşıq həvəskarlarını özünə cəlb etmiş, onlar da bu cərəyanda yaxından iştirak edərək Azərbaycan aşıq sayağı erməni aşıq yaradıcılığı formalaşdırmışlar.

Digər tərəfdən həmin erməni aşıqları Azərbaycan xalqı içərisində böyük hörmətə malik olmuş, onların qoşmaları və havaları yüksək qiymətləndirilmişdir. Hətta bəzi Azərbaycan dastanlarının düzəlməsində erməni aşıqlarının qoşmalarından da istifadə edilmişdir. Buna misal olaraq «Tahir Mirzə», «Novruz» kimi dastanları göstərmək olar. «Novruz» dastanın birinci ustadnaməsi və «Tahir Mirzə» dastanın ikinci ustadnaməsi Dəllək Muradın, «Tahir və Zöhrə» dastanının ustadnaməsi isə Xoylu Vartanındır. Azərbaycan aşıq yaradıcılığının erməni və digər Qafqaz xalqlarının aşıq yaradıcılığına təsiri onun dinamikliyi, lirikası, sadəliyi və dövrün ictimai, siyasi, iqtisadi həyatına düzgün qiymətləndirilməsilə və həmin xalqların həvəsi və mənəvi tələbilə əlaqədar olmuşdur.

Bu münasibətlə məşhur ədəbiyyat və folklorşünas professor Həmid Araslı qeyd etmişdir: «Azərbaycan aşığı təkcə Azərbaycan şəraitində deyil, onun zəngin yaradıcılığı Zaqafqaziya xalqlarının içərisində dərin məhəbbət və hörmətlə qarşılanmış, aşıqlıq sənəti erməni və gürcü xalqlarının içərisində də inkişaf etmişdir. Biz hələ XVI əsrdən Azərbaycan dilində qoşmalar yaradan erməni və gürcü aşıqlarına təsadüf edirik ki, bu sənətkarların zəngin irsi də Azərbaycan aşıq şerinin xəzinəsinə əlavə edilmiş sərvətdir».

Həmçinin erməni aşıq yaradıcılığı Azərbaycan aşıq yaradıcılığının variantı və bəhrəsi kimi qiymətləndirilə bilər. Ermənilərin Azərbaycan aşıq yaradıcılığına münasibətini Xaçatur Abovyan belə demişdir: «Ermənilər... elə qulaq asır, elə valeh olurlar ki, az qalır ağızlarının suyu axsın...»

Təəssüf ki, bu həqiqətlər erməni şovinistləri tərəfindən təhrif edilir və saxtalaşdırılır.

## ŞİFAHİ VƏ YAZILI AZƏRBAYCAN XALQ ƏDƏBİYYATINDAN VƏ İNCƏSƏNƏTİNDƏN MƏQSƏDLİ İSTİFADƏ

*Erməni xalqı kimi erməni dili də hibrid (calaq) dilidir (Akademik N.Y.Marr). Erməni dili hibrid (calaq) dildir. O biri yandan erməni qəbiləsi də hibriddir.* O, *Urartu və başqa qonşuları assimilyasiya etmişdir. (Akademik M.Abeqyan). Heç bir dil mənim üçün bu qədər çətin olmamışdır (X.Abovyan).*

**Şifahi ədəbiyyatdan gələn qüvvətli təşbeh, istiarə və məcazlar, müdrik atalar sözləri, təsirli bayatılar bütün görkəmli Azərbaycan yazıçılarının əsərlərini zənginləşdirmişdir. Şifahi ədəbiyyat mövzuları dəfələrlə yazılı ədəbiyyatda yenidən işlənmişdir. Zəngin Azərbaycan folkloru ilə qonşu xalqlar, o cümlədən məkrli düşmən ermənilər tarixən maraqlanmışlar və mənimsəmişlər. Onlar dilimizdən mənalı sözlər və ifadələri götürmüşlər və özlərininki kimi işlətmişlər.**

Nizami yaradıcılığında tərənnüm edilən folklor yaradıcılığı ermənilər içərisində təsadüf olunur.

Məsələn, Nizaminin «Yeddi gözəl» poemasının motivləri erməni ədəbiyyatında özünə yer tapmışdır. Poemanın «Xeyir və şər» hekayəsi XVI əsrdə ermənicə nəsr şəklində yazıya alınmışdır[118].

Hekayənin şəkli bir qədər dərinləşdirilmiş olsa da məzmun Nizamininki kimi qalmışdır. Burada yalnız kürd ailəsi, Xeyirin müalicəsi kimi hadisələr yoxdur.

Bununla yanaşı Nizaminin bir sıra surətləri erməni mühitində erməniləşdirilmişdir. Məsələn erməni folklorunda Şirin erməni kimi çatdırılır. Bəzən onun adı «Şirin» kimi yox, «Sirun» kimi işlənir.

Azərbaycan şifahi xalq ədəbiyyatına maraq XIX əsrdə daha çox artmışdır. Məsələn, X.Abovyan «Ermənistanın yaraları» romanında, «Türk qızı» hekayəsində və sair əsərlərində Azərbaycan sözlərindən və ifadələrindən geniş istifadə etmişdir.

Azərbaycan folklor və bədii ədəbiyyatı ilə yaxından maraqlanan və onları toplayıb öz ədəbi-bədii yaradıcılığında istifadə edən X.Abovyan Azərbaycan folklorunun, mahnı və musiqisinin erməni xalqı arasında nə qədər geniş yayıldığını öz gözlərilə görmüş və sevinmişdir. O, öz xalqının düşüncə və duyğularını ifadə edərək yazmışdır:

«...Çox dəfə qonaq getdiyim, yaxud şəhərlə keçirdiyim vaxtlarda diqqətimi toplayırdım ki, görüm xalq danışarkən, kef edərkən nədən çox həzz alır. Çox dəfə görürdüm ki, meydanda, küçədə adamlar durub bir kor aşığa elə hayıl-mayıl qulaq asırlar, pul bağışlayırlar, ağızlarının suyu gedir. Məclisdə və toyda sazandarsız heç çörək yemək olardımı? Dedikləri türkcə idi, çoxları bir kəlmə də başa düşmürdü, amma dinləyənin, görənin ruhu cənnətə gedib-gəlirdi»

X.Abovyan (1805-1848) Azərbaycan xalqının mənəvi və mədəni səviyyəsini, xüsusən şifahi ədəbiyyatı dərindən öyrənmişdir. O, Azərbaycan folkloruna xüsusi maraq göstərmiş, onu toplamış, yazıya köçürmüş, şifahi ədəbiyyatın ən yaxşı nümunələrini ermənicəyə tərcümə etmişdir. O, yazır:

«Topladığım hər nə ki var, bizim xalqın danışdığı şerlərdir, tərcümələrimi də elə etmişəm ki, xalqımızın ürəyincə olsun. Bayatıları o fikirlə yazmışam ki, məclisdə çörək başında türktəhər belə şeylər deyirlər; yaxşı olar ki, bunları erməni ermənitəhər desin ki, yavaş-yavaş dili şirinləşsin, çünki mahnıdan başqa heç nə dili bu qədər şirinləşdirməmişdir».

X.Abovyanın «Boş vaxtın əyləncəsi» kitabı Azərbaycan folkloru materialları, yaxud ona yaxın olan materiallarla doludur. Bu kitabda verilən Molla Nəsrəddinin bir çox lətifələri hal-hazırda eyni şəkildə Azərbaycan xalqı içərisində danışılır.

[118] M.Abeqyan. Erməni ədəbiyyatı tarixi (emənicə), Erivan, 1975, s. 11.

«Boş vaxtın əyləncəsi» kitabında Azərbaycan həyatına həsr olunmuş təmsillər də vardır. «Bağdadın yolçu eşşəyi» təmsilində dərvişlər, kərbəlayılar, tacirlər və əsnaflar, onların fitnəkarlıqları ifşa edilir.

Abovyanın yaradıcılığında Azərbaycan bayatılarının işlənməsi xüsusi yer tutur. O, Azərbaycan bayatılarının dərin ictimai məzmununu və yüksək sənətkarlıq xüsusiyyətini saxlamağa müvəffəq olmuşdur. X. Abovyanın əsərlərində bir çox Azərbaycan atalar sözü və zərb-məsəllərinə də rast gəlirik. Bunların bir çoxu azərbaycanca işlənmişdir. «Ermənistanın yaraları» romanında belə zərb-məsəllər çoxdur: kef sənin, kənd kovxanın; bilənə bir, bilməyənə min; yoldan çıxanın gözü çıxar, pir olasan, pir; canımsan, canım; keşiş, belə iş?; bir görəndə yoldaş, iki görəndə qardaş və s.

Abovyanda tərcümə edilmiş çoxsaylı ifadələr və zərb-məsəllər yenidən Azərbaycan dilinə tərcüməsi eyni şəkili, eyni məzmunu tamamlayır: yaralı-yaralının ürəyini tez başa düşər; bir güllə bahar açılmaz; lənət sənə kor şeytan; ürək süfrə deyil ki, açıb tökəsən; istər Musa olsun, istər kosa, hesab birdir; sarığı bir yana düşdü, çarığı bir yana; başımdan rədd olsun və s.

Koroğlunun, Kərəmin, Aşıq Qəribin, Keşiş oğlunun gözəl nəğmələri ermənini Azərbaycanlı qədər həyəcanlarıdırmış, hər bir ermənininin qəlbinin ən dərin guşələrinə təsir etmişdir. O, yazırdı: «Qoy hər bir kəs öz uşaqlığını yadına salsın ki, aşıqlar Koroğlunu, Kərəmi və başqalarını belə təriflədikcə insan necə qovrulub yanırdı» X.Abovyan «İlk məhəbbət» hekayəsinin qəhrəmanı Vani haqqında deyir:

«Aşıqlar, Kərəmin, Aşıq Qəribin, Keşiş oğlunun mahnılarını və tarixini danışmırdılarmı və öz sazlarını işə salmırdılarmı, o, istəyirdi ki, nə yesin, nə içsin, bir saz da özü əlinə alıb gecə-gündüz düşsün dağlara, ölkədən-ölkəyə özü də onların çəkdikləri günləri çəksin ki, bəlkə Allah ona da bir elə yar, elə mələk rast gətirə...»

M.Nalbandyan (1829-1866) göstərir ki, erməni xalqı Azərbaycan dilindən erməni yazıçıların əsərlərində işlənməsinə bəraət qazandırır və göstərir ki, erməni xalqı Azərbaycan dilindən yaradıcılıqla istifadə edir, çox zaman Azərbaycan ifadələri, atalar sözləri və zərb-məsəllərini daha da gözəlləşdirməyə çalışır. Məsələn, ermənilər badə qaldırarkən azərbaycanca «yaxşı yol» deyib içirlər.

M.Nalbandyan göstərirdi ki, erməni dilində əsrlərdən bəri işlənən və vətəndaşlıq hüququ qazanan Azərbaycan sözlərini daha dildən çıxarıb atmaq olmaz. O, yazır: «...bu gün biz bəzi məsələlərdə həm erməni, həm də türk dilində eyni formaları gördüyümüz zaman bundan ürküb deyə bilmərik ki, vay türk belə dediyi üçün, ona bənzəməməkdən ötəri onun işlətdiyi fərmanı mən işlətməməliyəm. Elə türk sözləri vardır ki, ümumi millət tərəfindən işlədilir. Bu sözlərin qədim dildə ermənicəsi olduğuna baxmayaraq, bununla belə onlar millət içərisinə o qədər dərindən daxil olmuşdur ki,... bu sözləri xalqın dilindən qoparıb yerinə öz, lakin millət üçün ölmüş sözləri qoymaq olmaz»

Erməni yazıçısı Perç Proşyan (1837-1907) («Müftəxor», «Bizim Xeço» və s.) bir sıra əsərlərində Azərbaycan dastanlarından, atalar sözü və məsəllərindən, elə də Azərbaycan sözlərindən geniş istifadə etmişdir. Azərbaycan dastanlarının məşhur qəhrəmanları - Leyli və Məcnun, Əsli və Kərəm, Aşıq Qərib və Şahsənəm, xüsusən Koroğlu. Proşyanın əsərlərində tez-tez xatırlanan, məhəbbət və qəhrəmanlıq rəmzi olan surətlərdir. Proşyanın qəhrəmanları çox dəfə özlərini bu məhəbbət aşiqlərinə bənzətməyə çalışmışlar. Sos və Varditer («Sos və Varditor» romanı) belə qəhrəmanlardır. Onlar öz hərəkətləriylə Leyli və Məcnuna çox bənzəyirlər. Bunu müəllifin özü etiraf edir. Sos və Varditerin məhəbbəti o qədər dərin, o qədər hərarətli və mənalıdır ki, «nə Leyli və Məcnun, nə Kərəm və Əsli, nə də Aşıq Qərib və Şahsənəm bu ikisi qədər məhəbbətli olmamışlar, belə şeyə bu dünyada çox az təsadüf olunar».

P.Proşyan Azərbaycan dastanlarının ermənilər arasında geniş yayıldığını qeyd edir. «Güvələr» dastanında deyilir ki, «Koroğlu», «Aşıq Qərib», «Şah İsmayıl» kimi dastanlar həmişə erməni kəndlilərinin ruhunu oxşayır. Kəndlilər bu dastanları ürəkdən sevir, azad vaxtlarda onları dinləyir və bundan heç bir zaman yorulmayırlar. «Çörək məsələsi» romanında deyilir ki, «Koroğlu» dastanı və məşhur Azərbaycan qəhrəmanı ilə əlaqədar olan əfsanələr erməni xalqı arasında geniş yayılmışdır. Müəllifin romanda Koroğlu ilə əlaqədar olaraq Ayğır kolu haqqında təsvir etdiyi əfsanə buna bir misaldır.

P.Proşyanın əsərlərində bir çox Azərbaycan zərb-məsəllərindən, atalar sözündən və bayatılarından istifadə edilmişdir. Məsələn, «Huno»da belə bir bayatı vardır:

*Əzizim ağam gəl,*
*Ölməmişəm sağam gəl,*
*Boynumda qəm zənciri,*
*Qapında dustağam gəl.*

Bunlar qəhrəmanların nitqini daha da zənginləşdirən, müəllifin dünyagörüşünün aydınlaşmasına daha da kömək edən həkimanə sözlərdir.

M.Nalbandyan Proşyanın «Sos və Vardiner» əsəri barədə yazır: «Hörmətli müəllif cənab Abovyanın yolu ilə gedərək özünün məzmunlu əsərində milli məsəlləri, atalar sözləri işlətməyi həmişə yadda saxlamışdır. Biz, bütün qəlbimizlə bizim müəllifə razılığımızı bildiririk. Bundan başqa «Sos və Vardiner»də bir çox gözəl ifadələr və sözlər vardır, bunlar demək olar ki, hər yerdə millət içərisində işlədilir, onlardan bir neçəsinin türklərdən alınması yəqindir».

R.Proşyanın əsərlərində çoxsaylı Azərbaycan məsəlləri, atalar sözləri və ifadələri Azərbaycan dilində də işlənmişdir. Məsələn, bablı-babın tapmasa, günü ax-vaynan keçər; zər qədrini zərgər bilər; eşidiblər ki, Əli ölübdür, ancaq bilmirlər ki, Əlidir ölən, yoxsa Məmməd Vəli; elnən qara gün bayramdır; hesab var dinar-dinar, bəxşiş var tümən-tümən; ya zərin gərək ya zərun; ocaqdan kül əskik olmaz; harda aş, orda baş. Proşyanın dilində türk sözləri bol-bol işlənmişdir;

Xonça, xəzəl, haça (dağ zirvəsi mənasında), bəkməz, halva, dolma, ağcanabad, bəlkə, səmid, baş örtüyü, xələt, bibi, kükürd, bülbül, aşıq, qoçaq, küçə, iz, cib, əzab (subay), fürsand, ancaq, yarəb, saat, şaqqıltı, fincan, vaxt, qın, qəmə (qəməlti), çarə, dalda, xatir, buxça, qanovuz, mintənə, yorğan, ağbatın xeyir, meydan, yapınçı, çaxmaq, təndir, rüsvay (urusvay), kürsü (təndirdə), haram, tikə, göl, hirs, fincan, acı-biyan (ot), üzərlik, xalx (xalq), qurban, çirağban, əmanət, ins-cins, çardax, savay,

cömərdlik, şüşə, gədə-güdə, kamal, xar (etmək), dərd, qınamaq, qonaq, imtahan, təntənə, əzab, düşmən, aləm, çəngəl, çöl, arxayın, tamam, nişan (qoymaq), ilik, tərlan, Laçın, karvan, təpəcək, xəzinə, tədarük, qələm, cərgə və s.

Bunlar «Sos və Varditer» romanının ilk 50 səhifəsinə ötəri bir baxışda müşahidə etdiyimiz sözlərdir. Bu sözlərə müəllifin istər öz təsvirlərində istərsədə qəhrəmanların dialoqlarında, şer parçalarında dəxi çoxlu Azərbaycan sözlərinə və ifadələrinə rast gəlmək olar.

Erməni yazıçısı Qazaros Ağayanın ədəbi yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə sıx bağlıdır. Azərbaycan şifahi xalq ədəbiyyatı Ağayan üçün ilham mənbəyi olmuşdur. Bu münasibətlə erməni şairi Avetik İsahakyan xatirələrində yazmışdır:

«Bizim düzəltdiyimiz axşamlarda Ağayan xahişimizi yerə salmayaraq öz sevdiyi Koroğlunun cəngavərlik mahnılarını özünün Ağayanın erməncəyə etdiyi tərcümələri vasitəsilə oxuyardı. O, uca boyu ilə ayaq üstə duraraq, qüvvətli qollarını tərpədər və yoğun səslə Koroğlu mahnılarını ifa edərdi».

Erməni dilində «Koroğlu» haqqında ilk əsəri yaradan şair Rafael Patkanyan olmuşdur (1856). Ondan sonra gələn bir sıra erməni yazıçıları (P.Proşyan, Q.Ağayan, A.Şirvanzadə və s.) «Koroğlu» dastanı ilə yaxından məşğul olmuş, çox zaman öz qəhrəmanlarını Koroğluya bənzətməyə çalışmışlar (Ravvi - «David bəy» və «Xəmsə məlikləri» romanları, A.Şirvanzadə - «Çinli» romanı və s.)

Erməni ədəbiyyatında «Koroğlu» dastanı ilə ən çox maraqlanan Qazaros Ağayan olmuşdur.

Yeri gəlmişkən: XIX əsr erməni folklorşünas və ədəbiyyatşünaslar öz milli ədəbi mənafeləri naminə başqa xalqlardan ədəbi və incəsənət nümunələri götürmək fikrində olmuşlar. Onlar araşdırma nəticəsində Azərbaycan xalqının folklor, ədəbiyyat və incəsənət nümunələrini seçmişlər. Bunların içərisində yüksək yeri Q. Ağayan tutur. O, öz bədii yaradıcılığını inkişaf etdirmək üçün Azərbaycan xalqının ictimai-siyasi, sosial və iqtisadi vəziyyətini, onun tarixini, coğrafi quruluşunu, ümumiyyətlə, məişət və mənəvi həyatını öyrənmişdir. Bu tanışlıq onun ədəbi yaradıcılığmda özünü biruzə vermişdir. Onun «İki bacı» (1872) romanında oxuyuruq:

«İndi bizim türklər ... yardarlığa əkirlər. Ot vergisini də ayrıca verirlər. Ailə üzvləri də ayrıca vergi verir, padşahın xərcini də ayrıca çəkirlər, yazıqlar yoxsulluqdan qırılırlar». Həmçinin o, «Anahid» adlı əsərində Albaniya haqqında yazır:

«Bir zamanlar Ağvan ölkəsi padşahının oturduğu şəhər Tərtər idi. İndi ora xarabalıqdır və Bərdə adlanır. O şəhər indiki Gəncə ilə Şuşa arasında Tərtər çayı ürəyində yerləşirdi. Şahin bütün Tərtər boyu uzanan geniş yaşıllıqlara bütünmüş gözəl sarayı burada idi. Bu qədim süni meşə öz nəhəng çinarları və qovaq ağacları ilə təbii meşələri ötüb keçirdi: şəhərin hətta ən uca qalaları belə bu ağacların gölgələri altında itirdi. Onun dörd ətrafina çəkilmiş möhkəm hasar, burada dəstə ilə gəzmək və oynamaq üçün azad imkanı olan çevik və sürətlə qaçan keçilər və marallar üçün heç də qəfəs rolunu oynamırdı». (Seçilmiş Əsərləri, İrəvan, 1939, s.l 17).

Q. Ağayan Azərbaycan şifahi xalq ədəbiyyatını, dastanları, nağılları, bayatıları, mahnıları, atalar sözü və məsələlərini dərindən mənimsəmişdir.

Bu baxımdan «Əsli və Kərəm» dastanının Ağayan variantı çox səciyyəvidir. O, Əsli və Kərəmin adlarını yalnız qeyd etməklə kifayətlənməmiş, «Harutyin və Manvel» romanında bu məhəbbət dastanının tam məzmununu danışmış, hətta Kərəmin bir mahnısını Azərbaycan dilində əsərinə daxil etmişdir. Bu mahnı aşağıdakılardır:

«Səfər ayının on dördündə, beşində, Bu dağda bir maral sızıldar, ağlar, Uca deyil, budur Bingöl başında Bu dağda bir maral ah edər, ağlar. Ovçu, görüm heç cürətin artmasın, Kirpik döyüb, kirpik üstə çatmasın. Qəssab olan maral əti satmasın, Bu dağda bir maral sızıldar, ağlar...» Ağayan öz romanında Harutyunu bəzən Koroğluya, bəzən də Kərəmə bənzədir. O deyir ki, Harutyun «...Koroğlu kimi qüssə çəkir və öz Əslisini axtarırdı».

Azərbaycan şifahi xalq ədəbiyyatını dərindən mənimsəyən Q. Ağayan yazır: «Bayatının birinci, ikinci və dördüncü misraları eyni sözlərlə qurtarır, bu söz birinci misrada müəyyən olmur, ikinci və üçüncü misralarda isə ayrı-ayrı mənalar verir. Bayatının türkcə söylənilməsinin səbəbi də budur, çünki türk dilində iki və daha artıq mənası olan belə sözlər çoxdur, lakin onlar erməni dilində bu qədər yoxdur». Ağayan bir çox Azərbaycan bayatılarını yazıya köçürmüşdür:

*Laləyəm mən bu daşdan,*
*Bu qayadan, bu daşdan,*
*Nə atam var, nə anam,*
*Hüzur oldum bu daşdan.*

* * *

*Bir quş çıxdı dəryadan,*
*Xəbər aldı dünyadan,*
*Çünki öləcəydim*
*Niyə doğdum anadan.*

Bu sonuncu bayatıdan erməni şairi Höv. Tumanyan da istifadə etmiş, onu erməni dilinə çevirmişdir.

Azərbaycan bayatılarına, onların məzmun və forma xüsusiyyətlərinə A.İsahakyan da yaxından maraqlanmış, bunların məzmun gözəlliyindən böyük ruh yüksəkliyi ilə danışmışdır. O, yazır:

«Azərbaycan bayatılarının üstünlük təşkil edən cəhəti ürəkdən qopan və başqasının qəlbinə hopan həyəcan, bilavasitə təsir edən hissdir. Duyğu, fəlsəfi axtarışlar, emosiyanı izləyirlər. Odlu, kədərli hisslər, hərgah buna belə keyfiyyət verə bilsək, həmin soyuq təfəkkürü yüngülləşdirmişdir. Təbiətə çox yaxın olan bir xalq öz bütün duyğu və düşüncələrini bu bayatılara daxil

etmişdir, onların müəllifləri xalq içərisindən çıxmış igidlər, sevən və sevgililərini itirmiş olan qızlar və oğlanlar, açıq qəlbli çobanlar küləklərlə xısıldaşan, bulaqlarla pıçıldaşan bayatıların yaradıcılarıdır.

Məhəbbət, həsrət, igidlik, işgəncə, matəm və öz gözəllikləri ilə birlikdə dağ təbiəti - bayatıların ruhu bax budur, Azərbaycan xalqının ruhu budur.

Q.Ağayan «Harutyun və Manvel» romanında aşıq havalarından «Əvvəl-axır», «Diltərpənməz» və «dodaqdəyməz» havalarını izah edib deyir ki, «diltərpənməz»də mahnı oxunarkən dil tərpənmir, «dodaqdəyməz»də dodaqlar bir-birinə dəymədən mahnı ifa olunur. Bunun üçün alt və üst dodaqlar arasında iynə qoyulur. O, sübut üçün azərbaycanca keşiş oğlundan nümunə gətirir:

*A dilli yar, al dəstinə ayinə*
*Anınğının sadır eylə yar yara*
*Əl əlini əlinə, al dəstini əlinə,*
*Ağlı zail olana, aslan nədir, ayı nə?.*

Erməni plagiatorçuluğu öz dillərində yazdıqları şerlərində və digər nəsr əsərlərində də özünü göstərir. Nümunə olaraq Ağayanın yuxarıda adı çəkilən romanında verilən bir ermənicə «Əvvəl-axır» şerini göstərək. Xətt çəkilmiş sözlər azərbaycanca işlənmişdir.

*Cavahir, növcavan, gözəl, eşqlə et mənə* ***illac,***
***Cigərim*** *eşqindən yanıb rəhmlə et mənə* ***illac.***
*...deyilsən, ay bimürvət, qoyma məni özgəyə* ***möhtac.***
*(Q. Ağayan, Əsərləri, 2-ci cild, səh.106).*

Q.Ağayan öz ədəbiyyatlarının inkişafı naminə Azərbaycan dilini ermənilərin öyrənməsini vacib bilmişdir. O, yazır:

«Bu dil sanki erməni üçün doğma dildir. Onu demək istəyirəm ki, türkcə nəğmə deməyin bir səbəbi də bu dilin erməni üçün asan olmasıdır, ona görə ki, hər iki dildə düşünmək qaydası və forması eynidir» .

Sovet dövründə də erməni yazıçı və şairləri Azərbaycan şifahi xalq yaradıcılığından istifadə etmişdirlər. Şairlərdən Aşot Qraşi Koroğluya həsr etdiyi «Ampaberq» pyesini, Sarmen isə «Koroğlu» poemasını yazmışdır.

Məlumdur ki, ölməz yazıçı Cəfər Cabbarlı 1922-ci ildə «Qız qalası» əfsanəsini qələmə almış, feodal zülmünü amansızcasına ifşa etmişdir.

Bu qədim əfsanəni 1929-cu ildə erməni sovet ədəbiyyatında Keğam Saryan qələmə alıb, «Qız qalası» adlı ballad yazmışdır. O, da Cəfər Cabbarlı kimi zülmkar xana qarşı çıxır. K.Saryan xanı feodal zülmkarların tipik nümayəndəsi kimi təsvir edir.

«Qız qalası» əfsanəsini şair Soğoman Taronsi də eyni adlı ballad yazmışdır. O, balladda epiloq və proloq yazmışdır. Proloqda o, Xəzər dənizinin sularında qaladan düşmüş xan qızının əbədi olaraq dalğalandığını və öz dərdini nəsillərə nağıl etdiyini əfsanəvi boyalarla ifadə etmişdir.

Xanı hədsiz dərəcədə qəddar bir insan kimi göstərən G.Saryandan fərqli olaraq S.Taronsi xanı mənəviyyatsız və mənlikdən məhrum bir adam kimi təsvir edir. Xan özünü alçaq vəziyyətə qoyub, qızı ayaqlarının palçıq və tozu adlandırır və onun razılaşmasını səbrsizliklə gözləyir. Lakin mahiyyət etibarilə hər iki xan eyni vəhşilərdən ibarətdir.

S.Taronsinin baladasında Qız qalasının tikilməsini xanın yuxusu ilə bağlayır. Guya onun yuxusunda qalanm tikilməsini, qoca bir kişi məsləhət verib. G.Saryan xalq əfsanəsinə sadiq qalaraq göstərmişdir ki, xan qalanı qızm tələbinə əsasən tikdirir.

Ermənilər Azərbaycan incəsənətinin bütün sahələri ilə yaxından maraqlanmışlar, plagiatorluqla bərabər oğurluq, talançılıq etməklə mətbəxdən tutmuş toxuculuq sənətkarlığını, digər əşya və eksponatlarını öz adları ilə bağlayıb dünyaya təbliğ etmişlər, hazırda da edirlər.

Ermənilər Azərbaycan aşıq mahnıları, klassik xalq muğamları və mahnıları ilə ciddi maraqlanmışlar, onları özününküləşdirməyə çalışmışlar. Bu mülahizəni ermənilərin özləri belə təsdiq edirlər. Məsələn, A.İsahakyan erməni bəstəkarı A.Spendiarov haqqındakı xatirəsində o, Spendiarov ilə birlikdə 1926-cı ildə dəfələrlə İrəvanın musiqi ifa edilən yerlərinə gedərək Azərbaycan musiqisini dinləmələrini, bu musiqini dərindən anlayıb ona valeh olmaları haqqında yazır. Orada qeyd edilir: »Bir neçə dəfə axşamlar musiqi, istər erməni, istərsə də Azərbaycan musiqisi olan yerə getmək üçün vaxtlaşdıq. Bir-iki dəfə azərbaycanlıların bir çayxanasında olduq. Burada İrəvandan və Azərbaycandan gəlmiş aşıqlar çoxsimli və uzun sazlar üzərində çalır, Koroğlunu, Aşıq Qəribi, Əsli və Kərəmi oxuyur, bir-birilərilə yarışırdılar. Sonra sözünə davam edərək Spendiarovu nəzərdə tutaraq yazırdı;

Mən, həmahəng səslərin bu misilsiz hökmdarının təravətli uşaqlıq hissilə bu səsləri necə dərk etdiyini gördükcə ona valeh olurdum. O, xalq mahnısının inci kimi aydınlığını və məlahətini, insanı mütəəssir edən ahəngini və səmimiliyini ruh yüksəkliyi ilə mənə izah edirdi. Bir də bu ideyanı irəli sürürdü ki, daha yüksək, mədəni milli musiqi xalq mahnısı əsasında qurulmalı, onunla qidalanmalıdır...»

Azərbaycan musiqisinə yüksək qiymət verən A.İsahakyan dahi Azərbaycan kompozitoru Üzeyir Hacıbəyovun anadan olmasının 60 illiyi münasibətilə yazmışdır: «Hacıbəyov öz gözəl operalarını yazarkən Azərbaycanın zəngin və misilsiz xalq musiqisindən istifadə etmişdir. Bu musiqi həmişə erməni xalqına doğma olmuşdur. Bu musiqi həmişə erməni və Azərbaycan xalqlarını bir-biri ilə bağlayan qardaşlıq əlaqələri içərisində ən gözəli olmuşdur».

Bəstəkar A.Tiqranyan 1915-ci ildə H.Voskanyanın pyesi əsasında beş pərdəlik «Leyli və Məcnun» adlı musiqili dram yazmış, 1936-cı ildə «Koroğlu» operası yazmağa başlamış, lakin əsər tamamlanmamış, onun ancaq birinci pərdəsi yazılmışdır.

Erməni plagiyatorçuluğuna digər bir faktı da misal gətirmək yerinə düşər. Belə ki, 1883-cü ildə xəttat Məhəmməd Təbrizi tərəfindən daş basması ilə çap olunmuş «Kitabüttəharət»in üstündə müəllifin adı belə göstərilmişdir: «Fazil İrəvani». Fars dilində çap olunmuş 186 səhifəlik «Kitabüttəharət» ehtimal ki, ermənistanlı müəllif tərəfindən başqa yerlərdə başqa dillərdə nəşr edilən ilk kitabdır.

Bəzi yerlərdə bir neçə dildə çap olunmuşdur. Məsələn, 1812-ci ildə Sankt-Peterburqda eyni vaxtda eyni adda iki kitab çap olunur. Biri erməni, biri də rus dilində. Müəllifi saray müşaviri irəvanlı Xocens Markar Geğamyandır. Bu kitabın adı ermənicəsində «Qızılgül və bülbül haqqında əxlaqi roman», ruscasında isə «Qızılgül və bülbül» adlı alleqorik povestdir. 1826-cı ildə «Qızılgül və bülbül» Parisdə çap edilir. Çox keçmədən Le Vayya de Floribal onu fransız dilinə çevirib 1832-ci və 1833-cü illərdə iki dəfə dalbadal çap etdirir. Əsərin sədası geniş yayılır, oxucularda getdikcə artmaqda olan maraq diqqəti cəlb edir. Bunu nəzərə alan Arşak Çobanyan əsəri xaricdə yaşayan ermənilərin ləhcəsinə çevrib, «Anahid» jurnalının birinci nömrəsindən başlayaraq hissə-hissə dərc edir. «Qızılgül və bülbül» əfsanəsini Çobanyan keçmişin ən yaxşı bədii əsərlərinin parlaq nümunəsi adlandırır. Əsər həqiqətən geniş şöhrət qazanır, maraqla oxunur, güclü əks-səda doğurur. Nəhayət, 1900-cu ildə jurnalın 12-ci nömrəsində əsərin sonu dərc edilir. Axırıncı səhifədə (249) «Qızılgül və bülbülün mənbəyi» başlığı altında verilən kiçik bir yazı böyük sensasiya yaradır.

Arşak Çobanyan oxuculara belə bir məlumat verir: 1892-ci ildə fransız tədqiqatçısı Şarl Jorjenin yeni bir əsəri çapdan çıxmışdır. Əsərin müəllifi alman türkoloqu Josef fon Hammerin alman dilinə tərcümə etdiyi «Qızılgül və bülbül» haqqında söhbət açır. Bu söhbətdən aydın olur ki, «Qızılgül və bülbül» Xocens Markarın deyil, Fazil və ya Fazili adlı bir türk şairinin əsəridir.

Oxucularda belə bir sual doğar: Bəlkə, Xosens Markar türk dilini bilmirmiş, bəlkə, əsəri özü sərbəst yazmışdır? Lakin araşdırma göstərir ki, Xosens Markar türk dilini çox gözəl bilirmiş. Bunu belə bir fakt da təsdiq edir. Hələ 1819-cu ildə Xosens Markar. Peterburqda İsa peyğəmbər haqqında əhdi-əqidi (rəbbimiz İsa əl Musa, yaxud Cədidi) ermənicədən türkcəyə çox sərbəst şəkildə çevirmiş və erməni şriftləri ilə Hovser Hovannesyanın mətbəəsində çap etdirmişdir.

Sonra, əgər əsər sərbəst yazılsaydı müəllif onun baş qəhrəmanlarının adını eyni ilə saxlamazdı: Şah Novruz, Şahbahar, Gülnarə. Qeyd etmək lazımdır ki, «Qızılgül və bülbül» əsəri 1950-ci ildə Freznoda yenidən ayrıca kitabça şəklində çap olunmuşdur. Daha doğrusu «Anahid» də dərc olunmuş variantı redaktor Vahe Hayk yenidən işləyib çapa vermişdir.

Beləliklə, demək olar ki, Fazil İrəvanlının əsərləri Mirzə Şəfi «taleyinin» başqa bir variantını xatırladır. Faktlar əsasında belə bir qənaətə gəlmək olar ki, «Qızılgül və bülbül» Xocens Markanın orijinal əsəri deyildir. Yuxarıda qeyd edildiyi kimi 1883-cü ildə Təbrizdə çıxan kitabın üzərində Fazilin adı belə yazılmışdır: Fazil İrəvani. Deməli: «Qızılgül və bülbül» əsəri Azərbaycan ədəbi mühitini dərindən bilən Xocens Markarin deyil, Fazil İrəvaninin əsəridir. Əsərin və onun qəhrəmanlarının adları, təsvir olunan hadisələr də bunu deməyə əsas verir .

Beləliklə, qeyd etməyə dəyər ki, erməni xalqının həm fiziki inkişafı, həm ədəbiyyatı, həm incəsənəti, həm xalq yaradıcılığı, həm dil üslubu Azərbaycan xalqının fiziki qüvvəsindən, ədəbiyyatından, incəsənətindən və folklor yaradıcılığından qidalanmış, təlqin edilmiş, plagiatorçuluq edilib erməniləşdirilmişdir. Bu deyilən ünsürlərin mayasını götürüb kənara qoysaq, ermənilər mənasız və yararsız ədəbiyyat, incəsənət, mədəniyyət və fiziki qüvvəyə malik olarlar. Elə götürək müasir şovinist erməni daşnaq ideoloqlarının bariz nümunəsi Zori Balayanı. Əgər Azərbaycanlılar tələb edib «zor» və «bala» sözünü geri qaytarmalı olsalar, onda Zori Balayana «i» və «yan» şəkilçiləri qalar. Şəkilçilər də fars dilinindir.

1916-cı ildə Sədrak Maqalyan adlı bir daşnaq «Arşın mal alan»ı erməni dilinə tərcümə edir və Eriksyanın teatrında erməni dilində tamaşaya qoyur. Tamaşanın uğur qazandığını görən Maqalyan sonralar afişalarda Üzeyir bəyin adını göstərmir. Bu sahədə həyasızlaşan S.Maqalyan əsəri aparır Amerikaya və öz əsəri kimi təqdim edir. Lakin əsərin kim tərəfindən yazıldığını bilən Amerika ziyalılarından biri - professor Okorkov 1924-cü ildə Nyu-Yorkdan Üzeyir bəyə məktub yazır:

«Sizin «Arşın mal alan» burda hər yerdə və hər yanda göstərilir. Sizin əsəriniz Amerikada olduqca böyük müvəffəqiyyətə malikdir. Hansısa bir Maqalyan bu operettanızı özününkü kimi qələmə verir və çox böyük məbləğdə pul qazanır. Maqalyan o qədər varlanmışdır ki, özünə böyük bir imarət tikdirmiş və onun frontonunda iri hərflərlə «Arşın mal alan» sözlərini yazdırmışdır».

Son zamanlar bu «missiya»nı üzərinə ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərindən biri götürüb. Fransa səfirliyi nəzərdə tutulur. Belə ki, qəzetlərdən birinin dünənki sayında dərc edilən məlumata görə Azərbaycan Dövlət Dillər Universitetində fəaliyyət göstərən «Fransız dili və mənbə mərkəzi»ndə oxuculara təqdim olunan, 1993-cü ildə Parisdə nəşr edilmiş «Erməni kinosu» kitabında Azərbaycanın mədəniyyət tarixi saxtalaşdırılıb.

«Erməni kinosu» (Le Sinema Armenien) kitabında Jan Radvanyi tərəfindən tərtib edilən xəritə Azərbaycan ərazisində yerləşən Naxçıvan və Türkiyənin Qars Ərdəhan, İqdır və s. şəhərləri ermənilərin tarixi torpaqları kimi təqdim olunur. Bundan əlavə, xəritədə erməni ərazisi kimi Gürcüstanın Axalkalaki bölgəsi və Qarabağ da göstərilir. Müəllif yazır: «Əsl Ermənistan ərazisi İstanbuldan Moskvaya Tiflisdən Bakıya qədərdir. Qafqazda 1844-cü ildə yaradılan və paytaxtı Tiflis olan əhalinin əksəriyyəti erməni olub və ermənilər bu canişinlikdə sənaye, incəsənət və mədəniyyət sahəsində əsas rol oynayıblar...»

Müxtəlif məqalələrdən ibarət sözügedən kitabda daha bir yazının Dikran Konjiandır və o özünün «Erməni və Amerika kinosu» məqaləsində Azərbaycanın milli musiqili komediyası olan, XX əsr korifeylərimizdən biri Üzeyir Hacıbəylinin «Arşın mal alan» adlı operettası oxuculara erməni əsəri kimi təqdim edir. Onun fikrincə, bu əsər Azərbaycan folklorundan götürülsə də, onun formalaşmasının səbəbkarı 1937-ci ildə Sefraq Vartyan olub. Yeri gəlmişkən, kitabda operettanın adı elə «Arşın mal alan» olaraq da göstərilir. Di gəl ki, Konjian iddia edir ki, «mal alan» sözü əslində erməni «malalıyan» sözüdür. Guya ki, bu əsər ilk olaraq Ermənistanda uğur qazanıb və sonra Nyu-York və Nyu-Cersidə ictimaiyyətə təqdim edilib. Onu da qeyd edək

ki, kitabda erməni terroru - Daşnaqsütyun geninə-boluna təbliğ edilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi erməni maraqları baxımından şərh olunur.

Əslində, burada qeyri-adi heç nə yoxdur. Hər bir ölkə və xalq düşməninə qarşı müəyyən təbliğatını qurur. O ki, qaldı Ermənistanın Azərbaycana qarşı. Üstəlik ermənilərin tarixi saxtalaşdırmaları və özgə mədəniyyəti, incəsənəti və ədəbiyyatına sahib çıxmaları da yenilik deyil. Maraqlısı odur ki, nədən bu ədəbiyyat Azərbaycana gətirilir və vasitəçi olan Fransa səfirliyinin burada nə marağı var? Bunun təsadüf nəticəsi olduğu istisna edilir və elə bu baxımdan da məsələ sadəcə maraq dairəsindən çıxaraq sırf təhlükəsizlik probleminə çevrilir. Xatırlatmağa ehtiyac yoxdur ki, söhbət kitabdan gedir və o, artıq Azərbaycan Dövlət Dillər Universitetindədir. Kitab sadə kitab deyil. Orada «erməni mədəniyyəti» adı altında Azərbaycanın oğurlanmış inciləri təbliğ edilir, ərazimiz Ermənistan ərazisi kimi göstərilir. Kitabın Fransa səfirliyinə aidiyyatı olduğuna isə heç bir şübhə yoxdur. Onun üzərində Fransa səfirliyinin «İnv. N 3803» saylı ştampı vurulub. Bütün bunlardan başqa, Fransa səfirliyinin «Le Sinema Armeniyan» kitabını Azərbaycana gətirməkdə məqsədi nədir?

## ERMƏNİLƏR MUĞAMLARIMIZI, MAHNILARIMIZI ÖZ ADLARINA ÇIXARIRLAR

Fransadakı «Fand» mağazalarının dünya musiqisi şöbəsində müxtəlif xalqların musiqisi yayılmış disklər satılır. Onların arasında bir disk diqqəti cəlb edir. Hələ 8 il bundan öncə buraxılmış diskin bir üzündə «Erməni qaynaqları. Yeqiş Manukyan, Qaqik Muradyan və Arayıq Vartikyan» o biri üzündə isə onların tütək, kamança və balabanda ifa etdikləri «Humayun», «Cahargah», «Bayatı Şiraz», «Bayatı Kürd», «Segah» muğamlarımızın, «Uzundərə», «Köçəri» oyun havasının adları yazılmışdır.

Disklərdə verilən məlumatlarda Ermənistanın qədim bir dövlət və sivilizasiya mərkəzi kimi eramızdan əvvəl XIV əsrdə mövcudluğu, hətta indiki İstanbulun vaxtilə «Qərbi Ermənistanın» paytaxtı olduğu, erməni musiqisinin daha qədim folklor əsasında yarandığı və bu sahədə aşıqların xüsusi xidmətləri qeyd edilir.

Daha sonra «Erməni xalqının qədim musiqi alətləri» - tütək, kamança və nağara barədə məlumat verilmiş, «Humayun», «Cahargah», «Bayatı Şiraz» kimi muğamlarımızm «ənənəvi erməni melodiyaları»nın əsasını təşkil etdiyi göstərilmişdir.

Vaxtilə Azərbaycanda altı ay qalaraq, Azərbaycan musiqi mədəniyyəti ilə maraqlanmış, udda çalmağı öyrənmiş, bugün isə Azərbaycan musiqisinin Fransada böyük təbliğatçısı kimi tanınmış Mark Yöpüitin diskin işıq üzü görməsində müəyyən xidmət göstərməsi təəssüf doğurur. Azər. TAC-ın xüsusi müxbiri bu işlə maraqlananda o demişdir «Həmin dövrdə mən Azərbaycanı tanımırdım».

Düşməndən daha bir təcavüz. Bu dəfə mədəniyyətimizə, musiqi sənətimizə. «Soy» telekompaniyasının yayımladığı xəbərə görə, daha bir mahnımız - «Məktəb illəri» erməni ifaçıları tərəfindən mənimsənilib. Avqust ayında keçirilən beynəlxalq musiqi festivalında bu mahnı erməni dilində təqdim olunub. Düşmən tərəfindən atılmış bu addım əslində, o qədər də orijinal sayılmaz.

«Məktəb illər»i mövzu baxımından Azərbaycan musiqisində yeni idi və tamaşaçının qəlbinə toxuna bildi.

Ermənilər bu mahnını da erməniləşdirmək təşəbbüsü barədə müəllif-bəstəkar Aygün Səmədzadə demişdir:

- Mahnının sözləri Kəmalə Abiyevaya məxsusdur. Mahnı nota 1998-ci ildə köçürülüb. Şer isə daha qədimdir, 80-ci illərə aiddir. Mənə şeri təqdim edəndə çox xoşuma gəldi, sadəcə həcmi bir az idi, şairədən xahiş elədim, şeri böyütdü və «Məktəb illəri» yazıldı. Mahnını ilk dəfə Lalə Məmmədova ifa etdi. 2000-ci ildə ona klip çəkildi. Adil M. Quliyevin rejissorluğu ilə. Yəni bu faktları sübut eləmək indi də problem deyil. Əgər adi kətan parçasından onun İsa Məsihə aid olduğu müəyyənləşərsə, elə bilirəm bu mahnının da müəlifliyini müdafiə eləmək o qədər də çətin olmayacaq. Mahnı Dövlət Teleradio Şirkətinin fondundadır. Mahnının klipində 190 nömrəli məktəbin arxivindən 60-cı illərə aid görüntülərdən istifadə olunub. Mahnıda sırf mənə aid olan nüanslar çoxdur, cəsarətlə deyə bilərəm ki, mahnı mənim təşəbbüsümlə ortaya çıxıb və öz övladım kimi «Məktəb illəri»ni müdafiə edəcəm.

## ƏLAVƏLƏR

## AZƏRBAYCANLILARIN SOYQIRIMINA DAİR DÖVLƏT SƏNƏDLƏRİ 1948-1953-CÜ İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN KÜTLƏVİ SURƏTDƏ DEPORTASİYASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində Azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1.1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

**Dövlət komissiyasının sədri:**
**Heydər Əliyev** - Azərbaycan Respublikasının Prezidenti.
**Dövlət komissiyası sədrinin müavini:**
**Artur Rasizadə** - Azərbaycan Respublikasının baş naziri.
**Dövlət komissiyasının üzvləri:**
**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri;
**Vasif Talıbov** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri;
**İzzət Rüstəmov** - Azərbaycan Respublikası baş nazirinin müavini;
**Elçin Əfəndiyev** - Azərbaycan Respublikası baş nazirinin müavini;
**Həsən Həsənov** - Azərbaycan Respublikasının Xarici İşlər naziri;
**Namiq Abbasov** - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri;
**Ramil Usubov** - Azərbaycan Respublikasının Daxili İşlər naziri;
**Eldar Həsənov** - Azərbaycan Respublikasının baş prokuroru;
**Südabə Həsənova** - Azərbaycan Respublikasının Ədliyyə nazirinin birinci müavini;
**Xanlar Hacıyev** - Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri; **Sirus Təbrizli** - Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri;
**Vəfa Quluzadə** - Azərbaycan Respublikasının Xarici Siyasət məsələləri üzrə dövlət müşaviri;
**Hidayət Orucov** - Azərbaycan Respublikasının Milli Siyasət məsələləri üzrə dövlət müşaviri;
**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri;
**Şahin Əliyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri;
**Fuad Ələsgərov** - Azərbaycan Reslublikası Prezidenti İcra Aparatının dövlət hüquq şöbəsinin müdiri;
**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri;
**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri;
**Rəfael Allahverdiyev** - Bakı şəhəri İcra hakimiyyətinin başçısı;
**Nizami Xudiyev** - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri;
**Fərəməz Maqsudov** - Azərbaycan Elmlər Akademiyasının prezidenti;
**Anar Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri;
**Cəmil Quliyev** - Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik katibi əvəzi;
**İqrar Əliyev** - Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru;
**Budaq Budaqov** - Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru;
**Ataxan Paşayev** - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi;

**Yusif Yusifov -** N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi Tarix kafedrasının müdiri.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
*Azərbaycan Respublikasının prezidenti.*
*Bakı şəhəri, 18 dekabr 1997-ci il*

## AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özü-nün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. l813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında «erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

«Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci Dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular.

1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci illərin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli «Ermənistan SSR-dən kolxozçuların və başqa Azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada Azərbaycanlıların mənfi obrazlarını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum erməni xalqının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarda əvəz olunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstruksion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdular. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist hərəkatın nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışlar.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş planlı surətdə həyata keçirdiyi soyqırımı siyasetinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1.31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.

2.Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırım, ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti.*
*Bakı şəhəri, 26 mart 1998-ci il.*

## AZƏRBAYCAN QAÇQINLAR CƏMİYYƏTİNDƏN ARAYIŞ

Hazırda Ermənistan Respublikası adlanan Qərbi Azərbaycan ərazisindəki azərbaycanlı kəndlərinin və rayonlarının adlarının dəyişdirilib erməni adları ilə əvəz olunması (231 kənd və rayon) və azərbaycanlı əhaliyə qarşı göstərilən digər demoqrafik təzyiqlər Ermənistan SSR yaradılan zamandan (1920-30-cu illər) başlayaraq 1988-ci ildə son kulminasiya həddinə çatdı.

1988-ci ildə Qərbi Azərbaycandan (indiki Ermənistan Respublikası) təkcə azərbaycanlılar yaşayan 172 kənddən, 89 qarışıq kənd və 6 şəhər tipli yaşayış məntəqəsindən 49928 ailə (250000 nəfər azərbaycanlı) öz doğma yurdlarından zorla qovuldular. Bu zaman 226 nəfər soydaşımız ermənilər tərəfindən öldürülmüşdür (güllələnmiş, qəsdən avtomobil qəzasına salınmış, dağ yollarında donmuş və s.), 400 nəfərdən çox adam bədən xəsarəti almışdır. Bir çox azərbaycanlıların evləri, əmlakı yandırılmışdır.

Qaçqınlıq dövrü 1988-ci ilin noyabr-dekabr aylarına təsadüf etdiyindən soydaşlarımızın kolxozda olan illik əmlak haqqı ermənilərə qalmış, bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməmiş, məcburiyyət qarşısında qalaraq, öz geniş bağ-bağçalarını və xüsusi evlərini Azərbaycanda dövlət binasında yaşayan ermənilərin 2-3 otaqlı mənzilləri ilə dəyişməli olmuşlar.

Bu zaman Ermənistandan gəlmiş qaçqınların əmlakı, mal-qarası, bağ-bağçasının dəyəri cəmiyyətdə toplanmış sənədlər əsasında təxmini hesablanaraq müəyyən olunmuşdur ki, qaçqın əhaliyə dəyən maddi ziyan 2.5 milyard ABŞ dolları təşkil edir. Kolxozlarda azərbaycanlılara məxsus olan 43.789 baş iribuynuzlu, 454660 baş xırdabuynuzlu malqara, çoxsaylı ev quşları və donuzlar, an ailələri, 170 mədəniyyət evi, 274 məktəb binası, 119 kitabxana, uşaq bağçaları, həkim məntəqələri, məscid binaları, 1381 yardımçı təsərrüfat tikintiləri, 2169 avtomaşın, 1976 traktor, 3132 kənd təsərrüfatı texnikası, minlərlə

hektar üzüm və meyvə bağları ermənilərə qalmışdır. Bunların hamısının dəyəri təxmini hesablamalara uyğun olaraq 17,5 milyard ABŞ dolları təşkil edir.

Beləliklə, qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dolları təşkil edir. Soydaşlarımıza dəyən mənəvi ziyanın qədəri isə ölçüyə gəlməzdir. Yuxarıda qeyd olunanlar haqqında SSRİ Prokurorluğundan, Ermənistan SSR prokurorluğundan və Ermənistan SSR-in rayon prokurorluqlarından, o zamankı rayon icraiyyə komitələrindən və digər səlahiyyətli dövlət qurumları tərəfindən təsdiq edilmiş möhürlü - imzalı sənədlər Azərbaycan Qaçqınlar Cəmiyyətində saxlanılır.

Bu gün Ermənistandan qaçqın düşən əhalidən su, hava, iqlim şəraitinin dəyişməsi nəticəsində ölənlərin sayı yüzlərlədir.

## ERMƏNİ MİLLƏTÇİLƏRİNİN APARDIĞI ETNİK TƏMİZLƏMƏ NƏTİCƏSİNDƏ ERMƏNİSTAN ƏRAZİSİNDƏKİ ÖZ TARİXİ TORPAQLARINDAN DİDƏRGİN SALINMIŞ AZƏRBAYCANLILARIN MƏSKUNLAŞDIRILMASI PROBLEMLƏRİNİN HƏLLİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son iki yüz il ərzində tarixi Azərbaycan ərazisində gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz dədə-baba ocaqlarından zorla köçürülmə, onlara qarşı ardıcıl şəkildə həyata keçirilən etnik təmizləmə və deportasiya siyasətinin qurbanları olmuşlar. Bu siyasət iki istiqamətdə gerçəkləşdirilirdi. Bir tərəfdən Gülüstan və Türkmənçay müqavilələri imzalandıqdan sonra İran və Türkiyədən ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməyə başlanmışdı. Digər tərəfdən isə torpaqları zəbt olunmuş azərbaycanlılar qaçqın və köçkün vəziyyətinə salmırdılar. Təkcə XIX əsrdə imperiya qüvvələrinin dəstəyi ilə 400 mindən artıq erməni başqa ərazilərdən Azərbaycana köçürülmüşdü. O zaman yaranmış vəziyyətdən narahatlıq keçirən bir çox alim, siyasətçi və diplomat Azərbaycana qarşı aparılan siyasəti pisləyərək Azərbaycan torpaqlarının zəbt olunması nəticəsində gələcək nəsillərin hansı problemlərlə üzləşəcəklərini böyük uzaqgörənliklə xəbər verirdilər.

1905-1907 və 1918-1920-ci illərin hadisələri, mart qırğınları zamanı azərbaycanlılar kütləvi surətdə qətlə yetirilir, onların yaşadıqları kəndlər talan edilir, viran qoyulur, minlərlə soydaşımızın qaçqın və didərgin vəziyyətinə salınması üçün müxtəlif silahlı qüvvələrdən və zorakı üsullardan istifadə olunurdu. 1918-ci ildə Zaqafqaziya Seymi nəzdində müsəlman fraksiyasının qaçqınlar şöbəsinin yaradılması sayəsində bu insanların problemlərini qismən həll etmək mümkün oldusa da, kütləvi qırğınlara son qoyula bilmədi.

1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan öz sərhədlərini təyin etmək istədikdə yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəldi. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının torpaqlarında erməni dövləti yaratmaq ideyası ortaya atıldıqdan sonra bu məsələlər daha kəskinləşdi.

Bu dövrün Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyin zəruriliyini dərk edirdilər. Yüz ildən çox bir zaman ərzində ermənipərəst qüvvələrin və erməni millətçilərinin yürütdükləri siyasətin nəticələri göz qabağında idi. Artıq bu acı tarixi gerçəkliklə hesablaşmamaq mümkün deyildi. Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyski həmin günlərdə gedən gərgin danışıqları yekunlaşdıraraq qeyd edirdi ki, ermənilər dövlət yaratmaq niyyətlərini siyasi mərkəzləri olmadığına görə gerçəkləşdirə bilmirdilər. Ona görə də qərara alındı ki, ermənilərin bütün ərazi iddialarını aradan qaldırmaq məqsədilə İrəvan onlara paytaxt kimi verilsin. Lakin hadisələrin sonrakı gedişatı, xüsusən Zəngəzurda baş verənlər göstərirdi ki, erməni millətçiləri öz məkrli planlarından heç də əl çəkmək niyyətində deyillər. İrəvan xanlığı ərazisindən minlərlə soydaşımızın didərgin salınması davam edirdi. Nəticədə ermənilər Zəngəzur dəhlizini ələ keçirərək İranla sərhəd yaradılmasına nail oldular.

Beləliklə, tarixin bu mərhələsində Azərbaycan torpaqlarında paytaxtı İrəvan şəhərində olan erməni dövləti yaradıldı. Bundan sonra azərbaycanlıların öz tarixi torpaqlarından qovulması və onlara qarşı tətbiq olunan etnik təmizləmə siyasətinin yeni mərhələsi başlandı.

Zaqafqaziya Federasiyasının qurulması və ləğvi Azərbaycan SSR və Ermənistan SSR-in yaradılması dövründə sərhədlərin dəqiqləşdirilməsi adı ilə Azərbaycan kəndləri yenə də Ermənistan SSR-in tərkibinə salınırdı. Həmin kəndlərin kökü azərbaycanlı əhalisi isə bu və ya digər üsullarla öz dədə-baba yurdlarını tərk etməyə məcbur edilirdi.

Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək süni surətdə Ermənistanı monoetnik dövlətə çevirmək siyasətinin tərkib hissəsini təşkil edirdi. 1935-1989-cu illərdə Ermənistanda hətta yer adlarına qarşı qərəzli siyasət tətbiq edilmiş və minlərlə Azərbaycan toponimi xəritələrdən silinmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də «Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 4083 nömrəli qərarı, 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» 754 nömrəli ikinci qərar əsasında 150 minə yaxın azərbaycanlı yaşadıqları yerlərdən didərgin salınaraq öz doğma torpaqlarından köçürüldü.

1987-ci ildən Dağhq Qarabağ ətrafında cərəyan etməkdə olan məlum hadisələrdən sonra Ermənistan SSR-in ərazisində Azərbaycanlılara qarşı kütləvi-etnik təmizləmə prosesi misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirilməyə başlandı. 250 mindən artıq soydaşımız mərhələ-mərhələ öz yurdlarından qovuldu və didərgin salındı.

Həmin dövrdə Azərbaycan hökuməti belə bir problemin mövcud olduğunu rəsmən inkar edirdi. Yalnız 1990-cı il dekabrın 22-də Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət Statistika Komitəsinə və digər qurumlara Ermənistan Respublikasında öz yerlərini məcburi tərk etmiş insanlar haqqında ilkin statistik məlumatlar toplanmasını tapşırdı.

Təqribən bir il sonra isə həmin insanlara yardım proqramlarının gerçəkləşdirilməsi işinə başlandı. Sovet hökuməti və Azərbaycan rəhbərliyi dünya ictimaiyyətinə 250 min insanın faciəsi barədə heç bir məlumat çatdırılmasına imkan vermirdi. Hadisələrin cərəyan etdiyi ilk vaxtlardan düz beş il keçdikdən sonra qaçqınların və məcburi köçkünlərin statusu məsələsinə baxıldı.

Beləliklə, XX əsrdə müxtəlif dövrlərdə 2 milyona yaxın soydaşımız öz tarixi vətənindən köçürülmüş, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək öldürülmüş və didərgin salınmışdır.

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci ildə qəbul etdiyi Konvensiyaya görə, insanların kütləvi şəkildə məhv edilməsi, deportasiya və bu qismdən olan cəza aksiyaları soyqırımı sayılmalıdır. Buna görə də 1997-ci il dekabrın 18-də «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» və 1998-ci il martın 26-da «Azərbaycanlıların soyqırımı haqqında» Azarbaycan Respublikası Prezidentinin fərmanları imzalandı. Eləcə də «qaçqın» statusunun verilməsi haqqında vəsadətə baxılması qaydası Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 419 nömrəli fərmanı ilə təsdiq edildi.

1988-1992-ci illərdə Ermənistan Respublikasında aparılan etnik təmizləmə nəticəsində öz yurd-yuvasından qovulmuş qaçqın soydaşlarımızın Azərbaycana gəlməsindən ötən müddət ərzində onların məskunlaşması və digər problemlərinin həlli ilə əlaqədar dövlət səviyyəsində xeyli işlər görülməsinə baxmayaraq, bu günədək həllini tapmamış bir sıra problemlər mövcuddur. Rayon və şəhər icra hakimiyyətlərinin məlumatına əsasən 1000-ə yaxın qaçqın ailəsi daimi yaşayış yeri ilə təmin olunmamış və hazırda onlar yaşayış üçün yararsız olan binalarda yerləşdirilmişdir.

Bundan başqa, Ermənistan Respublikasından qaçqın düşmüş, oradakı ev və mənzillərini Bakı şəhərindəki özbaşına tikilmiş evlərə dəyişərək daimi məskunlaşmış 793 nəfərdən ibarət 170 qaçqın ailəsinin yaşadığı evlərə qeydiyyata alınmaması, 24385 nəfərdən ibarət 3823 ailənin daimi məskunlaşdıqları evlər üçün qeydiyyat vəsiqəsi ala bilməməsi, respublikanın müxtəlif bölgələrində qaçqınların məskunlaşdırılması üçün tikintisi yarımçıq qalmış evlərin inşasının başa çatdırılmaması və digər problemlər mövcuddur. Ermənistan Respublikasından didərgin salınmış azərbaycanlıların daimi məskunlaşması problemlərinin və bununla bağlı digər məsələlərin həlli məqsədilə qərara alıram:

1. Etnik təmizləmə nəticəsində Ermənistan Respublikasından didərgin salınmış azərbaycanlılara Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2000-ci il tarixli 419 nömrəli fərmanı ilə təsdiq edilmiş «Qaçqın statusu verilməsi haqqında vəsatətə baxılması qaydası» əsasında verilən «qaçqın» statusu öz qüvvəsində saxlanılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, müvafiq şəhər və rayon icra hakimiyyətləri, Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Dövlət Tikinti və Arxitektura Komitəsi ilə birlikdə Naxçıvan Muxtar Respublikası, Bakı şəhəri və respublikanın digər rayonlarının ərazilərində qaçqınların məskunlaşdıqları yerlərdə ayrı-ayrı və imkan olduğu hallarda qaçqınların yığcam yerləşdirilməsi üçün qəsəbə şəklində fərdi yaşayış evlərinin tikilməsi məqsədilə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təqdim edəcəyi siyahı əsasında həmin ərazilərdə nəzərdə tutulmuş normalara uyğun müvafiq torpaq sahələrinin ayrılmasını təmin etsinlər.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, Goranboy rayonunun Gülüstan ərazisindəki Aşağı Ağcakənd və Yuxarı Ağcakənd kəndlərində dağıdılmış 1400 yaşayış evinin bərpasını təmin etsin.

Goranboy rayon İcra hakimiyyətinə tapşırılsın ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ilə birlikdə həmin kəndlərdə məskunlaşan qaçqınlara müəyyən olunmuş qaydada həyətyanı və əkin üçün torpaq sahələrinin ayrılmasını təmin etsinlər.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinə və müvafiq rayon, şəhər icra hakimiyyətlərinə tapşırılsın, müvəqqəti məskunlaşmış qaçqınların bu evlərdə daimi yerləşdirilməsini təmin etsinlər. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, qaçqınların köçürüməsi ilə əlaqədar repatriasiya xərclərinin müəyyənləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun hesabından Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə qaçqınların daimi məskunlaşması üçün ayrılacaq torpaq sahələrində yaşayış evlərinin və qəsəbələrin, mühəndis xətlərinin tikintisi üçün 20.0 milyard manat, Goranboy rayonunun Gülüstan ərazisindəki Aşağı Ağcakənd və Yuxarı Ağcakənd kəndlərində dağıdılmış 1400 yaşayış evinin bərpa edilməsi üçün 53 milyard manat, 1995-ci ildən tikintisi yarımçıq qalmış 322 evin tikintisinin başa çatdırılması üçün 10 milyard manat məbləğində vəsait ayrılsın.

5. Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinə tapşırılsın ki, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında qaçqınların daimi məskunlaşması məqsədilə ayrılacaq torpaq sahələrində yaşayış evlərinin və qəsəbələrinin tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasını təmin etsin.

6. Sifarişçi təşkilat Azərbaycan Respublikasının işğaldan Azad Olunmuş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik təyin edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, yerli icra hakimiyyətləri orqanları ilə birlikdə 1988-1992-ci illərdə erməni millətçilərinin zorakı hərəkətləri nəticəsində Ermənistan Respublikasından çıxanları və Azərbaycan Respublikasında məskunlaşan vətəndaşların yaşadıqları tikililərin altında yerləşən və dövlət mülkiyyətində olan torpaq sahələrini əvəzsiz olaraq həmin vətəndaşların mülkiyyətinə verilməsini təmin etsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, müvafiq mərkəz və yerli icra hakimiyyəti orqanları tərəfindən bu fərmanın 2-ci bəndində göstərilən torpaq sahələrinin və onların üzərində yerləşən tikililərin digər qanuni

mülkiyyətçilərinin olub-olmamasının müəyyənləşdirilməsindən sonra həmin torpaq sahələrinin və tikililərin Ermənistan Respublikasından 1988-1992-ci illərdə qovulub çıxanların və burada daimi yaşayan vətəndaşların mülkiyyətinə verilməsinə dair qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin rəsmiləşdirilməsini iki ay müddətində təmin etsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

10.Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Bakı şəhəri,* 22 *avqust 2001-ci il.*

## YADDAŞLAR

**YADDAŞ 1**

1813-1828-ci illərə qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. Bu ərazilərdən 280 min kv.km olan Cənubi Azərbaycan İranın, 130 kv.km olan Şimali Azərbaycan isə Rusiyanın əsarətinə düşdü. 1918-ci ildə Çar Rusiyası dağıdıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km. əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km. ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

1918-1920-ci illərdə cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının 1920-ci ilin 28 aprelində ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdi:

Zəngəzur, Dərələyəz və Dilican (cəmi 10.9 min ka.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9.6 min kv.km ərazi) isə Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdir. 1922-1923-cü illərdə «yoldaş» Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, 1929-cu ildə Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Eməzir və Tuğud kəndləri, 1946-cı ildə Mircəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, 1969-cu ildə Vəli Axundov tərəfindən Tovuz rayonu ərazisindən 7.6 kv.km-lik ərazi, 1984-cü ildə isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

1988-ci ildə Azərbaycanın ərazisi 86.6 min kv.km idi.

İşğal edilmiş ərazilər:

Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əskəran, Xocavənd, Ağdərə, Hadrut):

İşğal tarixi - 1988-1994-cü illər

Sahəsi - 4.400 kv. km.

Laçın (17 may 1992-ci il) -1.935 kv. km.

Kəlbəcər (2-4 aprel 1993-cü il)-1.936 kv. km.

Ağdam (23 iyun 1993-cü il)-1.094 kv. km.

Cəbrayıl (23 avqust 1993-cü il)-1.050 kv. km.

Füzuli (23 avqust 1993-cü il)-1.386 kv. km.

Qubadlı (31 avqust 1993-cü il)-0.802 kv. km.

Zəngilan (30 oktyabr 1993-cü il)-707 kv. km.

Bundan 4.400 kv km Dağlıq Qarabağ ərazisinə, 8.934 kv km isə ətraf rayonların payına düşür. Cəmi 13.334 kv km*.

25.05.1918 - İrəvanın itirilməsi-Tiflisdə Azərbaycan hökuməti Rusiyanın təzyiqi ilə qərar qəbul edərək İrəvan quberniyasının böyük bir hissəsini - 9 min kv.km-lik bir ərazini ermənilərə güzəştə gedib.

01.12.1920 – Zəngəzurun itirilməsi-Rusiya imperiyası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoyub ərazisini işğal etdikdən sonra 1920-ci ilin dekabr bəyanatına əsasən, Azərbaycanın Zəngəzur bölgəsi - 4.505-kv.km.-lik Qafan, Gorus və Sisyan Ermənistana verildi.

1920 - Naxçıvanda ərazi itkimiz - Ordubad, Şahbuz, Şərur rayonlarının bir hissəsi Ermənistan ərazisinə birləşdirildi.

1922 - Dərəlyəzin itirilməsi-Dərəlyəz ərazisi ermənilərə verildi.

18.02 - Muğrunun (Meğrini) itirilməsi - 1930-cu illərdə Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. kəndlərin Ermənistana verilməsi və bu ərazidə Muğru rayonunun yaradılması nəticəsində Naxçıvan bölgəsi Azərbaycanın digər rayonlarından ayrı salındı.

1991 - 26 dekabr - Xankəndinin işğalı - Xankəndi şəhəri ermənilər tərəfdən işğal olunmuşdur (sahəsi - 926 kv km. əhalisi 57.000).

1992 - 26 fevral - Xocalının işğalı - Xocalı şəhəri ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi 970 kv. km. əhalisi 13.000).

1992 - 8 may - Şuşanın işğalı-Şuşa şəhəri ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi 289 kv. km. əhalisi 28.000).

1992 - 18 may - Laçının işğalı - Laçın rayonu ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi 1.875 kv. km. əhalisi 28.000).

1992 - 2 oktyabr - Xocavəndin işğalı – Xoğavənd rayonu ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi 1.458 kv. km. əhalisi 11.000).

1993 - 2 aprel – Kəlbəcərin işğalı - Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi 1.936 kv. km. əhalisi 62.000).

1993 - 7 iyul - Ağdərənin işğalı – Ağdərə rayonu erməni işğalçıları tərəfindən işğal olunmuşdur. (1.700 kv. km. əhalisi 47.000).

1993 - 23 iyul - Ağdamın işğalı - Ağdam rayonu erməni işğalçıları tərəfindən işğal olunmuşdur. (1.094 kv. km. əhalisi 161.000).

1993 - 23 avqust - Cəbrayılın işğalı - Cəbrayıl rayonu erməni işğalçıları tərəfindən işğal olunmuşdur. (1.050 kv. km. əhalisi 57.000).

1993 - 23 avqust - Füzulinin işğalı - Füzuli rayonu erməni işğalçıları tərəfindən işğal olunmuşdur. (1.112 kv. km. əhalisi 110.000).

1993 - 31 avqust - Qubadlının işğalı - Qubadlı rayonu ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi - 826 kv. km. əhalisi 38.000).

1993 - 29 oktyabr - Zəngilanın işğalı - rayonu ermənilər tərəfindən işğal olunmuşdur (sahəsi - 707 kv. km. əhalisi 42.000) (IV, 24 a).

Arxiv sənədlərinin birində qeyd olunur ki, 1827-ci ildə Azərbaycanda rus qoşunları üçün yükü 50 puddan artıq olan 2.000 arabada ərzaq məhsulları daşınmışdı. Bundan 100 min pudu çörək idi. Çar qoşunlarının təminatı üçün ərzaq məhsulları göndərilməsinin canlı şahidlərindən olan fransız tədqiqatçılarından biri bu mənzərəni belə təsvir edir: «1826-1828-ci illərdəki Rus-İran müharibəsində təkcə Kür çayı boyunda yaşayanlar 12 min kisə suxarı, 1.000 kisə yarma, 4.000 kisə arpa 4.000 baş heyvan (ətlik üçün) göndərmişdilər». Həmin müşahidəçi daha sonra qeyd edir ki, «Kürdən Qumruya (Aleksandropol) kimi 3.000 qoşqu ilə 450-dən artıq araba xidmət edirdi. Həmçinin qoşquları Azərbaycanlılar vermişdi». Sənədlərin birində yazılır ki, qoşquların sayı 2.250 baş idi.

Hər yerdən rus qoşunları üçün ərzaq göndərilirdi. Qazax mahalından ildə 2.500 baş heyvan, Borçalıdan 2.000 baş, Şəmşədildən 1.000 baş heyvan göndərilmişdi. Bu qeyd olunan əyalətlərdən nəqliyyat üçün də 6.500 baş heyvan alınmışdı.

Bundan başqa Yermolovun göstərişi ilə Azərbaycanın cənub hissəsinin xalqları da rus qoşunu üçün qaramal və ərzaq verirdi. Təkcə Mianə və Ərdəbil arasında yaşayan köçəri Şəqaqi tayfalarından ildə 30 dəvə və 2.000 qaramal zorla alınırdı.

**YADDAŞ 2**

Ermənistanın Azərbaycana qarşı təcavüzkar əməllərinin nəticələri:

20.000 nəfər öldürülmüş; 50.000 nəfər əlil olmuş, 4.928 nəfər itkin düşmüş (onlardan 56-sı uşaq, 327-si qadın, 364-ü yaşlı) 700.000 nəfər evindən didərgin düşmüş. Onlardan: 331.000 qadın, 35.000 uşaq

Atasız ailə: 7. 966; 5. 316 yetim uşaq. Ümumi ziyanın həcmi 60 milyard ABŞ dolları məbləğindədir.10 rayon döyüş zamanı zərər çəkmişdir.102.000 ev; 7.000 ictimai bina; 693 məktəb; 900-dən artıq yaşayış məntəqəsi dağıdılmış və yandırılmış. O cümlədən; 9 şəhər, 730 kənd və qəsəbə; 191 xəstəxana; 160 körpü; 800 kilometr dəmir və avtomobil yolları; 2.300 kilometr su kəməri; 15.000 kilometr elektrik xətti; 6 minə yaxın kənd təsərrüfatı və sənaye obyekti; 10 məscid; 368 klub; 927 kitabxana; 85 musiqi məktəbi; 464 muzey və tarixi abidə; 6 dövlət teatrı; 504 tibb müəssisəsi; 855 müxtəlif tipli müəssisələr dağıdılmışdır; 31 məscid, 9 tarixi saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 200 paleontoloji geoloji abidə işğal edilmişdir.

1 milyon qaçqın və onlardan: 245 min nəfər Ermənistandan; 50 min nəfər Orta Asiyadan;

800 min nəfəri isə işğal edilmiş torpaqlardan.

**YADDAŞ 3**

Rəqəmlər və faktlar; 613 nəfər Xocalı faciəsində şəhid olub. Onlardan: 106 nəfəri qadındır; 59 nəfəri 1 yaşından 18 yaşına qədər olan uşaq və yeniyetmələrdir; 70 nəfəri qocalardır; 8 ailə şəhid olmuşdur; 25 nəfər uşaq Xocalı faciəsində ata-anasını itirmişdir; 230 nəfər uşaq valideynlərindən birini itirmişdir. 487 nəfər əlil olmuşdur. 150 nəfər itkin düşmüşdür (indiyəcən onlardan heç bir xəbər yoxdur). 1.275 nəfər əsir düşmüşdür.

**YADDAŞ 4**

XX əsr boyu 2,5 milyon azərbaycanlı soyqırımına və deportasiyaya məruz qalmışdır ki, onlardan 500 mini qəddarcasına öldürülmüşdür. Türkiyədə 1914-1922-ci illərdə ermənilər 2,5 mln. türk-müsəlman əhalisini qəddarcasına qətlə yetirmişlər (500 min türk ordusunun həlak olması buraya daxil deyildir).

**YADDAŞ 5**

Ermənistan Respublikasında yaşamış azərbaycanlıların kütləvi son deportasiyası 1987-90-cı illər ərzində başa çatdı. Deportasiya əməliyyatı 1987-ci ilin aprelində başlayıb. Öncə Ermənistanda yaşayan Azərbaycanlılar hissə-hissə, 1988-ci il noyabrın sonu-dekabrın birinci ongünlüyündə isə kütləvi deportasiyaya məruz qalıb.

Deportasiya əməliyyatı Ermənistan Respublikası tərəfindən həyata keçirilib. Əməliyyat nəticəsində Ermənistan Respublikasının 10.352 min kvadrat kilometrlik ərazisində 179 (179+80 beynəlmiləl kənd yaşayış məntəqəsi) kompakt yaşayan 250 mindən çox azərbaycanlı min illərlə yaşadığı tarixi torpaqlarından didərgin salınıb. Köçürülmə zamanı 500 nəfərə qədər insan öldürülmüş. Onlardan 216 nəfərinin adı istintaqa düşmüşdür. 217 nəfər azərbaycanlı həlak olub (faktlar Azərbaycan Respublikası DİN-in istintaq materiallarından götürülüb). Onlardan 41 nəfər döyülərək qətlə yetirilib, 2 nəfərin başı kəsilib, 11 nəfər diri-diri, 2 nəfərin isə cəsədi yandırılıb, 1 nəfər asılıb, 3 nəfər doğranıb, 29 nəfər maşının təkərləri altında qoyulub, 16 nəfər odlu silahla öldürülüb, 49 nəfər dağlarda donub, 9 nəfər itkin düşüb, 1 nəfər elektrik cərəyanı ilə öldürülüb, 1 nəfər özünü öldürüb, 10 nəfər infarktdan ölüb. Həlak olanların 57-si qadın, 23-ü uşaqdır. Ümumiyyətlə Ermənistan dövlətinin etnik təmizləmə planının həyata keçirilməsi nəticəsində XX əsrin başlanğıcında Ermənistan ərazisində yaşayan 1 milyon azərbaycanlıdan hazırda bir nəfər belə qalmayıb.

Qaçqın düşmüş əhalinin on minlərlə evi, milyardlarla dollarlıq mülkiyyəti (3+17 milyard ABŞ dolları məbləğində) Ermənistan Respublikasının ərazisində qalıb. Ermənistandan qaçqın düşmüş azərbaycanlıların, demək olar ki, hamısı hazırda Azərbaycan ərazisində yaşayır. Xatırladaq ki, ermənilər indiki Ermənistan ərazisinə 1828-ci il Rusiya ilə İran arasında bağlanmış Türkmənçay sülh müqaviləsindən sonra köçürülməyə başlanıb. Müqavilə nəticəsində Azərbaycan tarixi torpaqları iki hissəyə bölünüb. Beləliklə, Rusiyanın nəzarətinə keçən Azərbaycan torpaqlarına İran və Türkiyə ərazisində yaşayan ermənilərin köçürülməsi prosesi başlayıb («Yeni Azərbaycan», 8.12. 2001, N 234 (1213), s.l).

**YADDAŞ 6**

Birinci Dünya müharibəsi ərzində erməni könüllü ordusunun tərkibi aşağıdakı kimi olmuşdur. Qafqaz cəbhəsində 250 min və Andronikin «qəssab taqımı» adlanan dəstənin tərkibində 50 min əsgər, Antanta dövlətlərinin digər üzvləri (Fransa, İngiltərə, ABŞ və s. ) olan dövlətlərin cəbhələrində 50 min könüllü erməni hərbi dəstələri Türkiyə cəbhələrində Osmanlı

ordusuna qarşı vuruşmuşlar. Ancaq bunların «vuruşduqları» ərazi Antanta dövlətləri tərəfindən işğal edilmiş ərazilər olmuşdur ki, bu 350 min erməni hərbi əsgərləri türklərin və digər müsəlman əhalinin soyqırımı ilə məşğul olmuşlar. Onların sayı Castin Makartinin sübuta yetirdiyi kimi 2,5 mln olmuşdur. Zaqafqaziyada isə 500 min sırf azərbaycanlı əhali qətlə yetirilmiş, 2 mln. dan çox əhali isə deportasiyaya məruz qalmışdır.

**YADDAŞ 7**

1973-cü ildən 2002-ci ilədək erməni terror təşkilatları təkcə Qərbi Avropa ölkələrində 235 terror, 70 qətl, 41 qəsd törətmiş, 524 nəfər yaralanmış, 105 mülki şəxs girov götürmüş, 12 nəfər müxtəlif erməni terror təşkilatının hökmü ilə qətlə yetirilmişdir.

**YADDAŞ 8**

Ermənilər keçən əsrin (XX əsrin) 30-40-cı illərində aşağıdakı ölkələrdə terror aktları törətmişlər: İtaliya, İsveçrə, Fransa, Livan, Türkiyə, Avstraliya, Kanada, Portuqaliya, ABŞ, sabiq SSRİ, Rusiya Federasiyası, Yunanıstan, İspaniya, İngiltərə, İran, Danimarka, Almaniya, İsrail, İraq və s.

**YADDAŞ 9**

İndiki Ermənistan ərazisində 1850-ci ildə 76 faiz türk, 24 faiz erməni və qeyri millət, XX əsrin əvvəllərində 45 faiz türk, 55 faiz erməni olduğu halda, 1988-ci ildə 92% erməni; 8% türk, 1990-cı ildə 99% erməni, 1% qeyri-millət, 0% türk olmuşdur.

**YADDAŞ 10**

4 iyun Batum müqaviləsi əsasında Ermənistanın ərazisi 9 min kv.km. olduğu halda, Sovet Hakimiyyəti illərində 29.000 kv. km-ə çatdırılmışdır. Hazırda isə o 45 kv. km əraziyə nəzarət edir.

**YADDAŞ 11**

1) 1828-ci ildə İrəvan şəhərində 7331 azərbaycanlı, 2364 erməni yaşamışdır.

2) XX əsrin əvvəllərində İrəvan quberniyasında 1.301 kənddən 959 kənddə azərbaycanlı (sayı 352 min), 342 kənddə də ermənilər yaşamışdı.

**YADDAŞ 12**

1917-ci ildə Ermənistanda əhalinin 61%-ni türklər, 29%-ni ermənilər təşkil etmişdir.

**YADDAŞ 13**

Qafqazda 1913-cü ildə 54 qəzadan ancaq 5-də ermənilər çoxluq təşkil etmişdir.

**YADDAŞ 14**

1828-ci ilin statistik məlumatlarında azərbaycanlıların İrəvandakı mütləq üstünlüyü hələ qalırdı. 1807 azərbaycanlı ailəsi - 7.332, azərbaycanlı müqabilində 567 erməni ailəsi - 2.369 erməninin yaşadığı qeyd olunur. Əsl həqiqət isə 12.000 azərbaycanlının burada yaşadığını təsdiq edir. (Kitabi Ermənistan, Yerevan, 1895.

**YADDAŞ 15**

1826-cı ildə İrəvan və Naxçıvan xanlıqlarında 143.000 nəfərin 117.849 azərbaycanlının və 25.151 erməninin yaşadığı bildirilir.

**YADDAŞ 16**

S. Sərdarniyan «İrəvan müsəlmanlar yurduymuş» kitabında qeyd edir: 1828-31-ci illər ərzində 40.000 erməni Axalkalakda, 12.000 Şirak şəhərində, 25.000 Göyçə ətrafında yerləşdilər. O yenə qeyd edir: miqrasiya, deportasiyalar şəraitində belə İrəvanda 4 xanın, 41 bəy və sultanm, 50 müsəlman ruhanisinin qarşısında 8 erməni məliki və 19 keşiş olmuşdur.

**YADDAŞ 17**

1828-ci ildən başlayan rus-erməni siyasəti nəticəsində vahid Azərbaycan 2 hissəyə parçalanmış, 15-dən çox rayon, 10 şəhər, 11 şəhərcik və qəsəbə, yüzlərcə kənd Ermənistan ərazisi adlanaraq düşmənlərə hədiyyə verilmişdir. İndiki Ermənistan üç bölgüyə bölünürdü. Həmin ərazilərdəki bütün toponimlər türk toponimi idi. Onların hamısı dəyişdirilib erməniləşdirilmişdir. Məsələn, Allahverdi-Tumanyan, Hacımirzə-Kamo, Karvansaray-İcevan, Düzkənd-Axuryan, Qəmərli-Artaşat, Hamamlı-Spitak, Ağbaba-Amasiya, Qızılqoç-Quqasyan və s.

**YADDAŞ 18**

XIX əsrin əvvəllərində Rusiya-İran, Rusiya-Türkiyə arasında gedən müharibələr zamanı indiki Ermənistan Respublikası ərazisində Azərbaycanlılar yaşayan 400-dən artıq kənd darmadağın edilmişdir. Bundan başqa 1830-1914-cü illərdə 208, 1918-1920-ci illərdə 270,1948-1953-cü illərdə 235,1988-ci ildə 178 (bəzi məlumatda 179) kənddən azərbaycanlılar

qovulmuş onlarda ermənilər məskunlaşdırılmışdır. Halbuki 1828-ci ildə bu ərazinin 3,37 faizində ermənilər yaşayırdı. Sovet hakimiyyəti illərində 1.148 toponim (kənd, çay, dağ, dərə, tarixi adlar) erməniləşmişdir.

**YADDAŞ 19**

1990-cı ildə «Arqumenti i faktı» qəzetinin 35-ci nömrəsində «Faciəli dövrlərin sənədləri» adlı bir yazıda göstərilir ki, 1939-cu ilin 1 yanvarına kimi ölkə üzrə 1.317.195 nəfər vətən xaini adı ilə məhbəsdə olub. Bunlardan 830.491 nəfəri rus, 181.905 nəfəri ukraynalı, 44.785 nəfəri belarus, 24.894 nəfəri tatar, 24.499 nəfəri özbək, 19.758 nəfəri yəhudi, 18.572 alman, 17.123 qazax, 16.860 polyak, 11.723 gürcü, 11.064 erməni (Qəzet Ermənistanlı və erməni məfhumlarını qarışdırmışdır. Əslində Ermənistandan olan Azərbaycan türkləri və kürdlər bu kütləvi repressiyanın qurbanı idilər.-red), 9.352 türkmən, 4.874 başqırd, 4.347 tacik olub. Bu siyahıda azərbaycanlıların adı yoxdur. Siyahıda 1.000 nəfərdən çox həbs olunan xalqların adı salınıb. Yerdə qalan 96.948 nəfər adam da 100 xalqın nümayəndələrindən ibarətdir ki, biz azərbaycanlılar da onların içərisindəyik.

**YADDAŞ 20**

Tədqiqatçının qeydlərinə görə, 1937-ci ildə Azərbaycan Yazıçılar İttifaqının 27 üzvü, yəni yarısı repressiya qurbanı olmuşdur.

1937-ci ilin iyunu. Azərbaycan K(b)P-nin XIII qurultayında Mircəfər Bağırov «xalqın qəddar düşmənləri»ni elan edir: «Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdir. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Böyükağa Talıblı, Əli Nazim, Əhməd Triniç və başqa əclaflar. Xalqın qəddar düşməni Ruhulla Axundov öz nüfuzundan istifadə edərək Yazıçılar İttifaqını bərbad vəziyyətə salmışdı».

Onun bu çıxışı yeni ölümlərə, sürgünlərə, olmazın işgəncələrinə işarə, ciddi tapşırıq idi.

**YADDAŞ 21**

Ermənistan silahlı qüvvələri işğal etdikləri Qarabağ bölgəsində etnik təmizləmə və «Yandırılmış torpaq» siyasəti törətmişlər. Ərazimizin 20%-i işğal edilmiş, 900-dən çox yaşayış məntəqəsi dağılıb viran qoyulmuş, 6 min sənaye, kənd təsərrüfatı və digər sosial obyektlər məhv edilmiş, nəticədə ölkəmizin iqtisadiyyatına 60 milyard ABŞ dolları məbləğində ziyan vurulmuşdur. Müharibədə 20.000-dən çox soydaşımız öldürülmüş, 4.965 nəfər itkin düşmüş, 50.000 nəfər yaralanmış və şikəst edilmişdir.

Müharibəni barbar üsullarla aparan ermənilər əsir və girovlarla qeyri-insani rəftar edərək onları görünməmiş işgəncələrə məruz qoymuşlar. Onlar Azərbaycanlı əsir və girovların sümüklərini sındırmaq, bədən üzvlərini kəsmək, gözlərini çıxarmaq, dərilərini soymaq, diri-diri yandırmaq kimi vəhşi üsullarla əl atmışdılar.

**YADDAŞ 22**

1988.15 gün ərzində Yerevan, Kirovakan şəhərlərindən, Vedibasar, Zəngibasar, Göyçə, Ağbaba, Dərələyəz, mahallarından Qafan, Sisyan, Gorus, Mehri, Krasnoselo, Dilican, İcevan, Noyemberyan, Allahverdi, Quqark, Kalinino, Hamamlı, Calaloğlu, Amasiya rayonlarının Azərbaycanlılar yaşayan 171.000, ermənilərlə qarışıq olan 89 kəndindən 230.000 azərbaycanlı və 21.000 kürd evindən çıxarılıb yurdundan qovuldu.

500-dən artıq Azərbaycanlı nahaq qanın qurbanı oldu. Tarixən yurd salıb torpağın sahibi olmuş insanlar ev-eşiyindən didərgin düşüb Azərbaycanın rayonlarına səpələndilər.

**YADDAŞ 23**

Aşağıdakıları unutmaq olmaz.

## 1.RUSİYA İMPERİYASI DÖVRÜNDƏ AZƏRİ TÜRKLƏRİNİN SOYQRIMININ CƏLLADLARI

***Sisiyanov İvan Fiedoroviç (1754-1806)***

Rus hərbi xadimi general, knyaz. Gürcü knyazları nəslindəndir. O,1804-cü ildə Gəncə qalasının alınmasına bilavasitə rəhbərlik etmişdir. Bakı xanlığının Rusiyaya birləşdirilməsi barədə danışıqlar zamanı İçərişəhər qala qapılarının qarşısında öldürülmüşdür.

***Paskeviç İvan Fyodoroviç: (1782-1856)***

Rus ordusunun general-feldmarşalı.

Rus-Türk müharibələrində (1806-1812) iştirak etmiş, 1826-cı ildən Qafqazda rus ordusuna komandanlıq etmiş, 1826-28-ci illərdəki Rus-İran müharibəsini qələbəylə başa çatdırmış, «Türkmənçay sülh müqaviləsini» bağlamış, 1828-1829-cı il Rusiya-Türk müharibələrində də rus ordusuna başçılıq edib qələbə qazanmışdu A.Bakıxanov uzun muddət onun yanında hərbi xidmətdə olmuşdur.

***A.P.Yermolov.***

Azərbaycanda Yermolovun fəaliyyəti qanlı faciələrlə doludur. Heç kəslə hesablaşmayan cəllad generalın zülmü ərşə çıxmışdı. General A.P.Yermolovun göstəriş ilə Azərbaycanın cənub hissəsinin xalqları da rus qoşunu üçün qaramal və ərzaq verirdi. Təkcə Mianə və Ərdəbil arasında yaşayan köçəri Şəqaqi tayfalarından ild 30 dəvə və 2000 qaramal zorla alınırdı.

## 3. SOVET İMPERİYASI DÖVRÜNDƏ AZƏRİ TÜRKLƏRİNİN SOYQIRIMININ TƏŞKİLATÇILARI

*V.İ.Lenin*

«...Terə çatdırın ki, yürüş təqdirində Bakını tamamilə yandırmaq üçün hər şey hazırlasın...»

Bu parça proletariatın dahi rəhbəri, Vladimir İliç Leninin indiyədək heç yerdə dərc edilməmiş məktubundandır. O, 1918-ci il iyunun 3-də bu məktubu Bakı Xalq Komissarları Soveti Fövqəladə Komissiyasının (ÇK) sədri S.Ter-Qabrielyana göndərib. «Yürüş» dedikdə Lenin nəyi nəzərdə tuturdu? Təbii ki, xalqın istəyi ilə Gəncədə yaradılmış Azərbaycan Demokratik Respublikası İdarə Orqanların Bakıya köçməsini. Qanuni hökumət, bolşevik Leninin fikrincə, öz məmləkətinin paytaxtına köçə bilməzdi. Nə yaxşı ki, Ter «mənəvi atasının» bu göstərişini yeri yetirməyə imkan tapmayıb.

## 3. AZƏRBAYCAN XALQ TƏSƏRRÜFATI ŞURASINA

«Ərzaq komissarlığının aldığı məlumata görə, Sizin sərəncamınızda altı min pud sıxılmış qara kürü vardır. Və Siz bunu müstəqil əmtəə mübadiləsi qaydasınca xaricə göndərmək istəyirsiniz. Diqqətinizə çatdırmağı lazım bilirik ki, Sizin əmtəə mübadiləsi məsələsində bizimlə razılaşmadan hərəkət etməniz ümumdövlət baxımından arzu edilməzdir. Əgər altı min pud miqdarında həqiqətən artıq qalan sıxılmış qara kürü varsa, xahiş edirik, onu aclıq çəkən mərkəzdəki uşaqlar və xəstə proletarlar arasında bölüşdürmək üçün Moskvaya, Xalq Ərzaq Komissarlığının ünvanına göndərəsiniz. Nəticəsini teleqrafla Ərzaq Komissarlığının bölgü şöbəsinə bildirin». V.İ.Lenin 29 iyun 1920-ci il.

(Bəndlərdəki məlumatlar - «Aydınlıq» qəzeti 31 dekabr 1991-ci il, N 46 (68) sayından götürülmüşdür:).

Azərbaycanı ən vəhşi işgəncələr laboratoriyasına çevirən Stalin və Bağırovun hakimiyyəti dövründə - 30 ildə Azərbaycan əhalisi artmaq əvəzinə, yarım milyon azalıb. Əgər həmin soyqırımı siyasəti bir az da davam etsəydi, SSRİ-də azərbaycanlılar bir millət kimi bütövlükdə məhv ediləcəkdi.

Şimali Azərbaycanı məhv etməklə ürəyi soyumayan cəllad Stalin əlini Cənubi Azərbaycanlıların da qanına bulamışdı. Müharibə başlayan kimi İrana keçən Sovet qoşunlarına verilən xüsusi göstərişə görə 1941-1946-cı illərdə orada Azərbaycanın seçmə övladları siyahı ilə gecələr səhərə qədər evlərindən aparılaraq güllələnib. 1947-ci ildə Stalinin göstərişi ilə Cənubi Azərbaycan Demokratik Respublikası tərkisilah edildi, qanlı şah rejimi bərpa edilərkən 71 min nəfər vətənpərvərin avanqard dəstələrinin ayaqlarına mıx çalmaqdan tutmuş, bütün vəhşi işgəncələr verilib. Qaçıb SSRİ-yə pənah gətirən inqilab fədailəri məhv edildi...

Stalin və Bağırovun günahsız məhv etdikləri adamlardan hələ bu günə kimi 70.000 nəfərinə bəraət ala bilmədiyimiz, 300.000 nəfərin Sibir, Qazaxıstan, Orta Asiyada indiyə kimi sürgündə qaldığı, yüz minlərlə millətimizin qabaqcıl oğullarının güllələndiyi, yerlərin hələ aşkarlandırıla bilmədiyi, göz yaşlarımızın qurumadığı, ürək yaralarımızın sağalmadığı bir dövrdə bu cəlladlara havadarlıq, onları diriltməyə çalışmaq ən azı ədalətsizlikdir.

«Aydınlıq» qəzeti (N 22 1991-ci il) və «Xalq qəzeti»nin (N, 118, 1992-ci il) saylarında dərc olunmuş SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarında göstərilir: 1948-1950-ci illərdə könüllülük prinsipləri əsasında Ermənistan SSR-də yaşayan 100.000 kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### I. RƏSMİ SƏNƏDLƏR VƏ MATERİALLAR

1. «1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» 1997-ci il dekabrın 18-də verilmiş Azərbaycan Respublikası Prezidentinin fərmanı.
2. «Azərbaycanlıların soyqırımı haqqında» 1998-ci il 26 mart tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı.
3. a) SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il (4083 saylı) və b) 10 mart 1948-ci il tarixli qərarı: «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı xalqının Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında».
4. «Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin düşmüş azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında» 22 avqust 2001-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı.
5. «Məcburi köçkünlərin ərzaq təminatı haqqında» 15 avqust 2001-ci il Azərbaycan Respublikası Prezidentinin sərəncamı.

### II. KİTABLAR

1. Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə, B., 1990.
2. Abovyan X. a) Ermənistanın yaraları (erməncə), İrəvan, 1939, Əsərlərinin tam külliyatı, 2-ci cild.
3. Axverdiyan Q. Sayat-Nova, M., 1852 (erməncə).
4. Armyanskiy qenosid Mifi realnosti. Baku, 1992.

5. Azərbaycan Sovet Ensiklopediyası (10 cilddə), Bakı, 1976-1987
6. Bəhruz Abdullayev və Hidayət Cəfərov. Azərbaycana qarşı erməni terrorizminin qısa xronologiyası. B., 2002
7. Davrijetri A. Tarix, Vağarşapad, 1896.
8. Deportasiya, Bakı, 1998,
9. Dyakonov İ.M. Predistoriya armyanskoqo naroda, Erevan, 1968.
10. Dyakonov İ.M. K predistoroii armyanskoqo yazıka o faktax svidetelstvax i loqike, Erevan, 1983
11. Cavçavadze İ.Armyanskie uçenie i vopiyuşie kamni,Tiflis, 1902.
12. Çarlz Eliot. Türkiyə Avropada, 1900
13. Erməni Sovet Ensiklopediyası (ermənicə), 1-12-ci cildlər, İrəvan, 1974-1984.
14. Erix Fayqel.Pravda o terrore (armyanskiy terrorizm - istoki i prinsipi) Paris, 2000.
15. Erməni tarixi, İrəvan, 1971,
16. Əli Nəcəfzadə. Vətən Həsrəti, B., 1992.
17. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan, B., 1994.
18. Həmid Araslı. Aşıq yaradıcılığı - bax: «Aşıqlar» kitabı, B., 1957
19. İstori derevnoqo mira. M., 1979
20. İşxanyan B. Qafqaz xalqları (rusca), s.- Peterburq, 1916
21. İsahakyan A. Əsərləri, IV cild (ermənicə), İrəvan, 1951
22. İoqann Şiltberqer, Puteşestvie po Evrope, Azii i Afrike s.1394 qoda po 1427 qod, Baku, 1984.
23. Jan-Pyer Alem. «Mən nə bilirəm?» Ermənistan kolleksiyası. RÜF, Paris, 1983
24. K. Marks və F. Engels. Seçilmiş əsərləri, III cild
25. Kamuran Gürün. Erməni dosyesi (rusca), B., 1993,
26. Kaçaznuni O.V. Daşnakstyunu, bolşe niçeqo delat.Tiflis, 1927
27. Kaputikyan S. Oçerklər (EMEA-nın iclasında çıxış), İrəvan, 1988
28. Kursin Q.F, İ. Lyassinper. Qeoqrafiya Zakafkaziya, Tiflis, 1888.
29. Qeybullayev Q. Ə. Qədim türklər və Ermənistan B., 1992.

**III JURNALLAR**

1. Odri L. Altstadt (Konnektikut Universitetinin (ABŞ) professoru, tanınmış azərbaycanşünas), - «Mərkəzi Asiya icmalı», 1988, N 4, 63-78.
2. «Revolyusionnıy Vostok», 1936, N 2, 3.
3. «Şeypur» - a) 25.10.1918, N 4, b) 7.12.1918, N 8.
4. Türk dünyası tarixi dərgisi, 1987, N 2- «Erməni genosidi»nin mənbəyi.
5. «Yunostı», N 6, S.85 - R. Medvedov. Ot İliça do İliça (bez infarkta i paraliça) Ele-adbeya «Stalin», Riqa 1922, Str.. 102 (Xarakteristika A.Mikoyana) («Azərbaycan» qəzeti, 6.11.89, N 4)

**IV QƏZETLƏR**

1.«Azərbaycan»-28.05.1997.
2.«Azərbaycan»-31.VII. 1999, - «Vətən sağ olsun».
3. Azad Nəbiyev. Milli təəssübkeşlik, yoxsa erməni saxtakarlığı?! - «Azərbaycan müəllimi» qəzeti, N 51, 20-26.12.2002 N 1,3,9. 01.2003
4. Azərtac. Ermənistanın xüsusi xidmət idarələri Azərbaycanlı girovları terrorçuluğa sövq etməyə cəhd göstərmişlər. - «Respublika», 29.11.2001, N 272 (13091).
5.«Arena»-15-22 mart 2001
6. Aqşin Məmmədov. Düşünmək məqamı..., - «Elm», 5.04.2002, N 9-10 (610-611).
7. Azər Turan. «Ey gülü gülşən edən». - «Yeni Azərbaycan»., 29.03.2002, N 056 (1284)
8. Abid Tahirli. Mühacirlər mart qırğını haqqında..., - «Xalq qəzeti», 28.03.2002, N 069 (24033)
9. Alban ibadətgahları Naxçıvanda necə erməniləşdirilmişdir. -«Respublika», 14.04.2002, N 84(1420)
10.Azərbaycanlıların Ermənistandan deportasiya olunmasından 13 il keçir. - «Yeni Azərbaycan», 8.12.2001. N 234 (1213)
ll. Ataxan Paşayev. Andronik və onun fəaliyyəti haqqında rus zabitinin memuarı -«Respublika», 18.09.2001.
12. Adres kalendar Azerbaydcanskoy respubliki na 1920 q.
13. Bəxtiyar Sadıqov. Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizənin fəal iştirakçısıdır. - «Azərbaycan», 11.01.2002. N 8 (3020)
14. Bunları unutmayın. - «Yeni Azərbaycan», 17.04.2002. N 69 (1297)
15. «Azərbaycan» 14 dekabr 2002, N 287 (3299)
16. Sən qalmısan, mən qalmışam - «Azərbaycan müəllimi», N-51 (81160). 23.12.05
17. Cəmil Quliyev. Həqiqəti saxtalaşdırmaq ən təhlükəli yalandır. - «Azərbaycan», 29.11.2001. N 272 (2985)
Castin Makkarti. Uydurma «Erməni soyqırımı» və tarixi həqiqətlər («Armyanskiy terrorizm. - İstoriya kak yad i protiv yadiya» kitabından)-«Respublika», 24.04.2002, N 92(1428)
19. Deportasiya, soyqırım, qaçqınlıq. - «Respublika», 15.08.1997
20. «Dünyaya Pəncərə», N 10, (71), 12-19.07, 2001

21. Ermənilər dünya terror təşkilatlarında - «Respublika», 01.10.2002, N 226 (1562)
22. Erməni «genosid»inin mənbəyi - «Türk dünyası tarixi dərgisi», 1987, N 2
23. Eynulla Mədətli. Səməd Sərdariniyanın «İrəvan müsəlman yurdu olmuşdur» kitabı - «Azərbaycan», 01.12.2001, N 274 (2987)
24. Ermənilər dünya terror təşkilatlarında. «Respublika» qəz.09.10; 03,15.14,18, 22,2 (12.2002)
25. Ermənilərin kütləvi qırğın silahları varmı? - «Yeni Azərbaycan»,12.01.2002.N 8
26. Elnur Paşa - Əfsanələrə söykənən ideologiya. - «Yeni Azərbaycan», 08.10.2002, I 190 (1418)
27. Ermənilər dünya terror təşkilatlarında - «Respublika» qəzeti 25.09.2002, N 221(1557)
28. Respublika qəzeti 27.09.2002, N 223 (1559)
29. Əkrəm Rəhimli (Biye). Ermənilərə güneyli müəllifin tutarlı cavabı. - «Respublika: 17.01.2002. N 13 (1349)
30. Əsgər Əliyev. Ermənilər muğamlarımızı da öz adlarına çıxıblar. - Azərbaycan Rcspublikasının mədəniyyət və siyasəti barədə milli məruzənin təqdimatı - «Xalq qəzeti 13.11.2002, N 237 (24201)
31. «Ədəbiyyat və İncəsənət» qəzeti, 15.01.1998, N 3. - «İslam ensiklopediyası». akademik Z. Bünyadovun tərcüməsində.
32. Əmir Quliyev. Ermənilərin tarixi-coğrafi vətəni haradadır? «Respublika»,25.06.19
33. Ələddin Məsimov. İndiki Ermənistanda və Naxçıvanda yaşayan azərbaycanlıları qətli üçün ermənilər 3 diviziya yaratmışdır.- «Dövlətçilik» qəzeti, 30.12.2002,-05.2003, N (753)
34. Əkrəm Zeynalov. l918-ci ilin Mart qırğını - «Respublika» N 69 (1405) 28.03.2002
35. Flora Xəlilzadə. Bəşər tarixinin ən qanlı səhifələri: - «Azərbaycan», 31.03.2002, N (3084)
36. Firudin Cəlilov. Ermənilərdə şovinizm hissi uşaq dünyaya göz açandan təbliğ olunur. - «Yeni Azərbaycan», 29.09.2001, N 186 (1165)
37. Fəxri Kərimli. Ermənilər yəhudilərə qarşı savaşa başladılar. - «Yeni Azərbaycan 14.02.2002, N 29 (1257)
38. Fəxri Kərimli. Ermənistan Xəzəri çirkləndirir - «Yeni Azərbaycan», 20.06.2002, 111(1339)
39. Fəxri Kərimli. İsrail «erməni soyqırımını» tanımaqdan imtina etdi. - «Yeni Azərbaycan», 20.02.2002, N 33 (1264)
40. Fəxri Kərimli. Avropa ABŞ-ın müttəfiqi olan Türkiyəyə təzyiq edir. - «Yeni Azərbaycan», 06.03.2002, N 42 (1270)
41. Fərhad Vahabov. Erməni separatizmi, təcavüzkarlığı və terrorizmi haqqında məlum və naməlum həqiqətlər (silsilə məqalələr) - «Yeni Azərbaycan», 07.12.2001, N 233 (121 08.12.2001, N 234 (1213)
42. Famil Abbasov. Şamaxı qırğını. - «Azərbaycan» 31.03.2002, N 72 (3084)
43. Hazırda da Ermənistan terrorçuluğu dövlət səviyyəsində aparılır. - «Respublika 29.11.2001, N 272 (1309)
44. Xanlar Əliyev. Ermənilər Ermənistan barədə tarixi faktlara nə deyir?-«Azərbaycan 28.08.2001
45. Xalid Niyazov. Qlobal siyasət, ikili standartlar. «Azərbaycan»,16.11.2001, N 262 (297
46. Xocalı soyqırımı erməni terrorizminin kulminasiya nöqtəsidir. - «Xalq qəzeti», 24.01.2002, N 19 (29984).
47. İrəvan qəzeti, N 4, 13-19 mart 2005 - ci il.
48. İsmət Miroğlu (professor). Qərbin iç üzü həqiqət güzgüsündə. - «Türkiyə» qəzeti, 21.06.1993, «Vətən Həsrəti», N 13 (14), 2.07.1993, «İstiqlal» qəz. 01.04.1993.
49. İsrafil Məmmədov. Erməni məsələsi. Müharibə illləri və erməni könüllüləri. - «Vətən Səsi» 21.07.2001, N 31 (413), s.4.
50. «Terrorizm Ermənistanın dövlət ideologiyasıdır». - «İki sahil» qəzeti, 20.06.2002, N 115 (3119)
51. Kimyəvi silahlar Xocalıda-«İki sahil» 26.02.2002, N 38 (3042)
52. Kremlin diqtəsi və N.Nərimanovun bəyanatı - «Respublika» 10.04.1999.
53. Qaçqınların məskunlaşdırılmasına dair. - «Vətən Səsi», 16.07.1991, N 28(64).
54. Musayeva T, Mamedov N. Qenosid uçinenniy nad Azerbaydcanskim narodom v marte 1918 qoda - «Elm», 26.05.2001, N 15-16 (580-581)
55. Nazim Mustafa. David Şahnazaryan Ermənistan terrora dəstək verdiyini təsdiqləyir. - «Xalq qəzeti», 27.12.2002, N 298 (24262)
56. Nardar Bayramlı. MM-də Xocalı soyqırımı haqqında daha bir bəyanat qəbul edildi. - «Yeni Azərbaycan», 27.02.2002, N 37 (1265)
57. Nazim Mustafa. «Erməni soyqırımı»nın ideya müəllifləri kimlərdir? - «Xalq qəzeti», 24.04.2002, N 92 (24056)
58. Nizami Xudiyev - İrəvan azərbaycanlıların yurdudur. -«Azərbaycan», 9.06.2002, N 130 (3142)
59. Frof. d-r. İsmət Miroğlu. «Qərbin iç üzü həqiqət güzgüsündə». - «Vətən Həsrəti» (Türkiyə qəzetindən), N 13 (14), 2.07.1993
60. R.Qaraxanlı. Ermənistanda 783 nəfər azərbaycanlı əsir var. - «Yeni Azərbaycan. 18.07.2001.N 134 (1113)
61.R.Qaraxanlı. Ermənistan terroru dəstəkləyən dövlət olduğunu bir daha təsdiqlədi. - «Yeni Azərbaycan», 28.11.2001, N 226 (1205).
62. R.Qaraxanlı. Ermənilər İsrail səfirini qovmaq istəyirlər,- «Yeni Azərbaycan», 16.02.2002, N 31 (1259)
63. R.Qaraxanlı. a) İlham Əliyevin siyasi fəallığı Ermənistanda narahatlıq doğurub. Ermənistan xüsusi xidmət orqanları Azərbaycanın dövlət adamlarına qarşı sui-qəsd planı hazırlayıblar. - «Yeni Azərbaycan», 29.11.2001, N 227 (1206).
b) Gürcüstan mətbuatı Ermənistan prezidentinin terrorçuluq fəaliyyəti ilə bağlı faktları açıqlayıb. - «Yeni Azərbaycan», 05.06.2002, N 100 (1328)
64. Rövşən Novruzoğlu. Ekoloji terror. - «Respublika», 26.04.2002, N 94 (1430)
65. Rövşən Mustafayev.Erməni terrorizmi.-«Azərbaycan», 2.05.2002, N 99 (3111)
66. a) «Respublika» qəz.-15.08.1997; b) «Respublika» qəz.-26.07.2002, N 168 (1504)
67. Soyqırım - «Respublika», 29.03.2001
68. Şikar Qasımov. Azərbaycanlıların soyqırımı və deportasiyası.- «Respublika», 26.03.2002, N 67 (1403)

69. Şamil Sabiroğlu. Şəfalı əllərdən gözlərə paylanan nur. - «İki Sahil», 2.04.2002, N 60 (3064)
70. Terrorizmin paradoksları - «Yeni Azərbaycan», 12.03.2002, N 45 (1273)
71. Tərlan Natiqoğlu. Erməni faşizmi: onu necə ifşa etməli.-»İki Sahil», 7.03.2002, N 45 (3049)
72. Tetçer İngiltərənin Avropa İttifaqına üzvülüyünü «siyasi səhv» hesab edir. - «Yeni Azərbaycan», 19.03.2002, N 050 (1278).
73. Teymur Əhmədov. Erməni xəyanəti (Qərbi Azərbaycanda general Andronik Ozanyanın qanlı əməlləri) - «Respublika» 29.03.2002.
74. Üsəma Ben Laden ermənilərlə birgə nüvə silahı əldə etməyə çalışır. Terror təşkilatlarına erməni könüllüləri kimlərdir? - «Yeni Azərbaycan», 24.11. 2001, N 224 (120)
75. Vüqar X.Azərbaycan torpaqlarının işğalının başlanmasından 200 il keçir. - « Azərbaycan», 14.05.2002, N 087 (1315)
76. «Vətən Səsi» qəzeti: a) 16.03.2001, N 13 (395), s.3, b) 18.12.1990, s.4-8. c) 30.06.20 f 28 (410), c.3. ç) 7.06.2001, N 29 (411), s.3, d) 18.05.2001, N 22 (404), s.3, e) 18.10.2001, N 44
77. Validə İsmayılova. Ağlayan daşlar. - «Azərbaycan», 26.03.2002, N 67 (3079)
78. Vəliyev İ., Muxtarov K. Bir daha uydurma «erməni soyqırımı» haqqında.-«qəzeti», 23.04.2002, N 91 (24055)
79. Vaqif Əmiraslanov. Tarixi yaddaşın bərpası - «Respublika», 15.03.2002
80. «Yeni Azərbaycan» qəzeti: a) 12.01.2002, N 8 (1236), s.9, b) 30.01.2002, N 118 (1 c.2. c) «Yeni Azərbaycan» - «Ölüm dəzgahı» (1732)
81. Yunus Orucov, V.Xanlaroğlu. 31 mart Azərbaycanlılara qarşı törədilmiş ilk soyqırım aktının tarixidir. - «Yeni Azərbaycan», 30.03.2002, N 057 (1285)
82. Zəkurə Quliyeva. Dünya terrorçuluğa qarşı mübarizə aparır.-“Azərbaycan” 5.03.2002

## V. ARXİV SƏNƏDLƏRİ

1. Azərbaycan Dövlət Tarix Arxivi (ADTA).

**FONDLAR:**

A) Fond 970,
1) siyahı s.10, iş 161, vərəq (V) 1-9;
2) S.l, iş 85, V.3;
3) S.l,iş l49,V.71-72;
4) S.l, iş 1, V.28-29;
5) S.10,işl61,V.l-9;
6) S.10, iş 20, V.47-48;
7) S.l, iş 85, V.3
B) Fond 894
1) S.10, iş l, 103, V.10-19;
2) S.10, iş 80, V.49-56;
3) S.l, iş 43, V.13-14;
4) S.10, iş 20, V.47-48;
5) S.7, iş 8, V 29, 31, 32
C) Fond 897, S.L iş 112, V.19; Ç) Fond 1061 və fond 276.
D) Leninqrad DTA, fond 821, S.139, iş 173, bölmə 96.
E) Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi.(ARMDT), Fond 379, siyat 5901, w. 1- 6.

**YALANLAR GERÇƏKLƏR**

**YUSİF QAZIYEV**

Yığılmağa verilmişdir: 03.05.2009.

Çapa imzalanmışdır: 30.06.2009.

Nəşrin ölçüsü: 70 x 100 16/1.

Fiziki çap vərəqi: 21,5.

Sifariş: 88. Sayı: 1000 ədəd.

Müqavilə qiyməti ilə.

**NURLAR**

NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021 Faks: 4971295 / E-poçtu: office@nurprint.com